AKİF NAĞI







# AZƏRBAYCAN TARİXİ



(ƏN QƏDİM ZAMANLARDAN MÜASİR DÖVRƏDƏK)









BAKI-2025

**Akif Nağı**

# AZƏRBAYCAN TARİXİ

*(ən qədim zamanlardan müasir dövrədək)*

**BAKI - 2025**

**Rəyçilər:**
Tarix elmləri doktoru, professor **İsmayıl Musa.**
İqtisadiyyat üzrə fəlsəfə doktoru **Şamil Mehdi.**

**Məsul redaktorlar:**
**Novruz Novruzov, Ceyhun Tağıyev.**

Kitab dostların maliyyə dəstəyi ilə nəşr olunub.

**Nağı A.Q. Azərbaycan tarixi** ***(ən qədim zamanlardan müasir dövrədək).*** Bakı, "Zərdabi Nəşr" MMC, 2025. 608 səh.

*Kitabda dövrümüzün tələblərinə uyğun Azərbaycan tarixinə müasir yeni yanaşma öz əksini tapıb. Müəllif Azərbaycanın qədim dövrdən günümüzədək tarixini təqdim edir, göstərir ki, Cənubi Qafqaz və ətraf ərazilərdə 5 min il əvvəl Azərbaycan dövləti yaranıb və bu günə qədər də fasiləsiz olaraq mövcuddur. Bu dövr ərzində dövlətin idarəçiliyində yerli sülalələr bir-birini əvəz edib, müəyyən vaxt kəsiyində yad sülalə və xarici qüvvələr ölkəni nəzarətə götürməyə cəhd edib və qismən buna nail olub, lakin qısamüddətli fasilədən sonra müstəqil dövlətçilik davam etdirilib. Müəllif Azərbaycan tarixini saxtakarlıq, təhrif, yalanlardan təmizləməyə, oğurlanan, yadlaşdırılan, kimlərinsə haqsız sahib çıxdığı tariximizi özümüzə qaytarmağa çalışıb. Bunun üçün əsərdə yeni konseptual yanaşma – fərqli tarixi dövrləşdirmə, terminoloji dəqiqləşdirmə, hadisə və məlum faktların başqa baxış bucağından dəyərləndirilməsi və digər məsələlər yer alıb.*

*Kitab gənclərin və digər oxucuların sovet dövründən qalma yanlış və qaranlıq müddəalardan uzaqlaşmasına, həqiqi, real, qələbə və uğurlarla zəngin, qürurverici, şanlı tariximizi bilməsinə və öyrənməsinə xidmət edə bilər. Orta və ali məktəblərdə dərslik, əlavə tədris vəsaiti kimi istifadə edilə, geniş oxucu dairələrinin də marağına səbəb ola bilər.*

**ISBN 978-9952-593-23-5**

**© Nağı A. Q., 2025**

# GİRİŞ

Tarix elminin məzmununu tarixi proses təşkil edir. Tarix elminin bünövrəsində faktların toplanması, sistemləşdirilməsi və ümumiləşdirilməsi durur. Azərbaycan tarixi dünya tarixinin ayrılmaz hissəsidir. "Azərbaycan tarixi" fənninin predmeti qədimdən bu günə qədərki tariximizin dövlətçilik, iqtisadi-siyasi, sosial inkişaf, mədəniyyət və digər aspektlərinin öyrənilməsi,tədrisi və təbliğindən ibarətdir. Görkəmli Azərbaycan tarixçisi A.Bakıxanov "Gülüstani- İrəm" əsərində göstərir: "Tarix elə bir danışmayan natiqdir ki, sələflərin vəziyyətini... xələflərə bildirir,... tərəqqi və tənəzzül yollarını anladır. Gələcəkdə törənə biləcək fəsadları keçmişin libasında insanların ibrət nəzərinə çatdırır... Tarix elmi dünyanın təcrübəsini bizə çatdırır... Hər bir ölkənin tarixi orada yaşayan xalq üçün faydalıdır" [3, s. 6]. Milli tarixçimiz tarix elminin mahiyyətini bu cür təqdim edir. Qərbin böyük filosofu Hegel də məsələyə aydınlıq gətirir. Onun fikrinə görə, tarix yalnız dövlətin yaranması ilə başlayır və "həqiqi" dövlət quruluşunun bərqərar olması ilə "başa çatır" [11, s.271]. O, tarixin dövləti olan xalqlara aid olduğunu vurğulayırdı: "Dövlət quruluşu olmayan xalqın (millətin) heç bir tarixi yoxdur [10, s.366]. Hegel onu da qeyd edir ki, tarix təsadüfi hadisələrin toplusu deyil, ağlın hökmran olduğu bir sahədir [10, s.370]. İki mütəfəkkirin fikri ilə tarix elmi haqqında aydın təsəvvür yaratmağa çalışdıq. Tarix ağlın məqsədyönlü fəaliyyətinin məhsuludur.

Azərbaycan tarixinin tədrisinin ən ümdə vəzifələri tələbə-gənclərə Vətənimizin tarixi keçmişi haqqında dərin

biliklər vermək, onlara tariximizin mürəkkəb və ziddiyyətli dövrlərindən baş açmağı öyrətmək, onlarda tarixi təfəkkürü formalaşdırmaq, cəmiyyətdə baş verən hadisələri obyektiv qiymətləndirmək bacarığı aşılamaqdan ibarətdir [8, s.10].

Azərbaycan tarixi üzrə mənbələr iki hissəyə – arxeoloji və yazılı qaynaqlara bölünür. Arxeoloji qaynaqlara qazıntılar zamanı yeraltı mədəni təbəqələrdən, qəbir abidələrindən, qədim yaşayış məskənlərindən aşkar edilmiş müxtəlif əmək alətləri, sadə silah növləri, məişət və bəzək əşyaları, dini təsəvvürləri ifadə edən heykəlciklər, göz muncuqları və s. əşyalar aiddir.

Azərbaycan tarixinin qaynaqları sırasında əsas yeri yazılı mənbələr tutur. Məlumdur ki, yazı hələ e.ə. V minillikdə yaranmışdır. Ən qədim yazı növləri piktoqrafiya və mixi yazı növləridir. Piktoqrafiya: piktus - şəkil, qrafos - yazı, yəni "şəkli işarələrlə yazı" mənası verir və bu yazı növündən qədim İkiçayarasında (Mesopotamiyada) istifadə olunmuşdur. Mixi yazılardan daha çox Ön Asiyanın və Orta Şərqin ən qədim dövlətlərində - Şumerdə, Akkadda, Misirdə, Babildə və sair yerlərdə istifadə olunmuşdur. Məhz həmin ölkələrin mixi yazılarında Azərbaycan tarixinin ən qədim dövrü haqqında müəyyən məlumatlar verilir. Bu baxımdan ən önəmli qaynaqlar e.ə. III-I minilliklərdə mövcud olmuş Şumer, Akkad, Assuriya (Aşşur) və Urartu dövlətlərinə aid mixi yazılardır.

Şumer, Akkad və Assuriya İkiçayarasında ardıcıl mövcud olmuş dövlətlərdir və coğrafi baxımdan onlar hamısı Azərbaycan ərazilərinin (Cənubi Azərbaycanın Urmiya gölü hövzəsi) qonşuluğunda mövcud olduğundan qədim

Azərbaycanda yaşayan tayfalarla sıx iqtisadi-ticarət, siyasi və mədəni əlaqələrdə olmuşlar. Bütün bu əlaqələr haqında qədim Şumer, Akkad və Assuriya qaynaqlarında məlumatlar əks olunub.

E.ə. X əsrdən – y.e. III əsrinə qədərki dövrə aid Azərbaycan tarixi barədə ən qiymətli məlumatlar antik yunan və latın yazılı mənbələrində saxlanılmışdır.

Antik dövrdə qədim yunan, Roma tarixçiləri, coğrafiyaçıları Herodot, Strabon, Ptolemey, Arrian, Ammian Marsellin, Tassit və başqaları Şərq aləminə həsr etdikləri əsərlərdə qədim Azərbaycanın coğrafiyası, əhalisi, əhalinin məşğuliyyəti, etnik tərkibi, burada baş verən siyasi hadisələr və s. barədə məlumatlar vermişlər.

III-X əsrlər Azərbaycan tarixinin yazılı mənbələri daha da genişlənmişdir. Bu dövrdə Azərbaycan tarixinə aid müfəssəl məlumatlar Bizans, qədim Alban, ərəb və digər mənbələrdə verilir.

Qədim Alban mənbələrindən ən qiymətlisi alban tarixçisi Musa Kalankatlının “Alban tarixi” əsəridir. Musa Kalankatlı VII əsrin sonu – VIII əsrin əvvəllərində yaşamış, “Alban tarixi”nin I və II kitablarını yazmışdır. Əsərin III və IV kitabları isə onun tələbələri tərəfindən kitaba əlavə edilmişdir. “Alban tarixi”ndə Azərbaycan ərazilərində İncil tarixindən X əsrin sonuna qədərki dövrdə baş verən hadisələr haqqında məlumatlar verilir.

XI-XVIII əsrə aid ərəb, fars və türkdilli qaynaqlarda Azərbaycan tarixinə aid qiymətli məlumatlar əks olunmuşdur. Azərbaycan tarixçilərindən Həmdullah Qəzvini, Fəzlullah Rəşidəddin, Rəşid Bakuvi, Məhəmməd Naxçıvani, Həsən bəy Rumlu, İsgəndər bəy Münşi və digərlərinin əsərlərini qeyd edə bilərik.

Bu dövrə aid yazılı mənbələrin bir qismini avropalı müəlliflərin əsərləri təşkil edir.

XVIII-XIX əsr Azərbaycan tarixinin öyrənilməsində "Qarabağnamələr"in böyük əhəmiyyəti vardır. Mirzə Adıgözəl bəyin "Qarabağnamə", Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi", Əhməd bəy Cavanşirin "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair", Mirmehdi Xəzaninin "Qarabağ tarixi kitabı", Mirzə Rəhim Fənanın "Qarabağın yeni tarixi" əsərləri Qarabağ və ümumən Azərbaycan tarixinin öyrənilməsində çox qiymətli mənbələrdir.

Kərim ağa Fateh və Hacı Seyid Əbdul Həmid Şəki xanlığının tarixinə dair əsərlər yaratmışlar. A.A.Bakıxanov "Gülüstani-İrəm" əsərində Azərbaycan və Dağıstanın qədim zamanlardan öz dövrünə kimi baş vermiş tarixi hadisələrini şərh etmişdir. 1866-1917-ci illərdə Tiflisdə çap olunan 12 cildlik "Qafqaz Arxeoqrafiya komissiyasının sənədləri" adlı topluda yer alan əhəmiyyətli materiallardan Azərbaycan tarixinin müxtəlif məsələlərinin tədqiqində istifadə olunur [5].

Azərbaycan tarixinin müasir dövrü 1918-ci ildən bu günümüzə qədərki illəri əhatə edir. Bu dövrün öyrənilməsində ən qiymətli mənbələr arxiv sənədləridir. Azərbaycanın müasir tarixinə aid ən əhəmiyyətli sənədlər Azərbaycanda və qonşu ölkələrin – Türkiyənin, Rusiyanın, Gürcüstanın, İranın və sair ölkələrin arxivlərində saxlanılır. Azərbaycanın müasir tarixinin öyrənilməsində statistik toplulardan, qəzet, jurnal materiallarından və sair nəşr olunmuş mənbələrdən istifadə olunur.

Azərbaycan tarixi dünya tarixinin tərkib hissəsi olaraq öyrənilir. Lakin tariximizin fərqli cəhətləri nəzərə alınmalıdır. Xüsusilə də, Azərbaycan tarixinin dövrləşdirilməsi məsələsinə diqqət yetirilməlidir. Dünya tarixinin dövrləşdirilməsi ilk növbədə istehsal və ictimai münasibətlərin xarakteri, sosial təbəqə və siniflərin bir-birini əvəz etməsi, dini və digər ideoloji cərəyanların, sivilizasiyaların meydana gəlməsi, inqilabların baş verməsi kimi əlamət və xüsusiyyətlərə əsaslanır. Bu yanaşma bəzi ölkələrin, xüsusilə Şərq ölkələrinin, o cümlədən Azərbaycanın tarixi ilə bağlı özünü doğrultmur. Dünya tarixinin mərkəzinə Avropanın bəzi ölkələrini yerləşdirən avrosentrizm (Avropa mərkəzçiliyi) nəzəriyyəsi kifayət qədər tənqidlərə məruz qalır və reallıqları əks etdirmir. Dünya tarixinin əsas istiqamət və xüsusiyyətlərini nəzərə almaqla, hər bir ölkənin tarixinə fərdi yanaşma daha doğru olardı.

Avropa, İran, rus, sovet tarixşünaslığı tərəfindən saxtalaşdırılan, həmçinin erməni yalanları ilə tanınmaz hala salınan, oğurlanan Azərbaycan tarixinin konsepsiyası, o cümlədən dövrləşdirilməsi müəyyən dəqiqləşdirmələr tələb edir. XX əsrin 20-ci illərində ingilislər Pəhləviləri hakimiyyətə gətirdikdən sonra böyük vəsaitlər hesabına regionda Azərbaycan izinin olmadığını "sübut etmək" üçün Azərbaycan tarixini "İran tarixi", Azərbaycan dövlətini "Persiya dövləti", "İran dövləti" kimi təqdim etməyə, bu mövzuda kitablar, filmlər yaratmağa, nağıllar uydurmağa başladılar. Bu "konsepsiya" Azərbaycandan başqa hamıya sərf edirdi. Hətta bu günə qədər Türkiyədə də oxşar mövqeni müdafiə edənlər kifayət qədərdir. Ona görə də bu yanaşmaya bir dəfəlik son qoyulmalı, öz tariximizi

özümüz yazmalı, yazdıqlarımıza özümüz inanmalı, sonra isə başqalarını da inandırmağı bacarmalıyıq, dövlətimizə, tariximizə sahib çıxmalıyıq.

Dövrləşdirmə ilə bağlı dövlətçilik, ərazi-coğrafi yerləşmə, etnik-dil mənsubiyyəti, mədəni-mənəvi dəyərlər kimi prinsiplər əsas götürülməli, dövlətin paytaxtının yerləşdiyi ərazi də nəzərə alınmalıdır.

Aparıcı prinsip olaraq dövlətçilik, dövlətin yaranması, inkişafı, keçdiyi mərhələlər əsas götürülməlidir. Ərazi-coğrafi prinsip dövlətin meydana gəldiyi, mövcud olduğu sərhədləri, etnik-dil mənsubiyyəti aparıcı etnosun müəyyənləşdirilməsini, mədəni-mənəvi dəyərlər düşüncə, həyat tərzi, ideoloji-dini baxışların birliyini nəzərdə tutur. Dövlətin paytaxtının xalqın əsrlərlə yaşadığı ərazidə yerləşməsi də nəzərə alınmalıdır. Bu prinsiplərin içərisində həlledici rol dövlətin mövcudluğuna bağlıdır. Dövlət varsa, deməli, xalq da artıq formalaşıb. Çünki dövləti insan sürüsü, qəbilə, tayfa yarada bilməz, yalnız xalq yarada bilər. Xalq isə vahid ərazidə yaşayan, ümumi danışıq dilinə sahib olan, vahid mədəni-mənəvi-dini birliyə malik olan insan toplumunun məhsuludur. Bu cür formalaşmış xalq dövlətini yarada bilər. Dövlətin yaranması ilə xalqın, millətin, əslində dövlətin özünün tarixi başlayır.

Deyilənləri nəzərə alaraq, Azərbaycan tarixini aşağıdakı dövr və mərhələlərə bölürük:

**1) İbtidai insan münasibətləri və dövlətin yaranması.**

a) Dövlətəqədərki mərhələ və ibtidai insan münasibətlərinin formalaşması.

b) Azərbaycan dövlətinin yaranması və inkişafı (e.ə. III-II minilliklər).

**2) Klassik dövlətçilik dövrü (e.ə. I minillik- y.e. III əsri).**

a) Azərbaycan dövləti Manna, Maday (Midiya), Sak (Skif), Əhəməni sülalələrinin hakimiyyəti illərində (e.ə. X-IV əsrlər).

b) Adərbayqan və Arran sülalələrinin hakimiyyəti (e.ə. IV- y.e. III əsrləri).

**3) Nisbi müstəqillik və müstəqilliyin bərpa olunması dövrü (III-XII əsrlər).**

a) Azərbaycan xalqının Sasani və Ərəb işğalına qarşı mübarizəsi.

b) Azərbaycanın müstəqilliyinin bərpa olunması, yeni sülalələrin hakimiyyətə gəlməsi (IX-XII əsrlər).

**4) Azərbaycan dövlətçiliyinin imperiya dövrü (XII-XVIII əsrlər).**

a) Eldənizlər sülaləsinin yüksəlişi və süqutu.

b) Moğolların işğalçı yürüşləri və Hülakülər sülaləsinin hakimiyyəti.

c) Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hakimiyyəti.

d) Səfəvilər sülaləsinin hakimiyyəti.

**5) Siyasi pərakəndəlik dövrü (XVIII əsrin ikinci yarısı-XX əsrin əvvəli).**

a) Azərbaycan xanlıqları.

b) Azərbaycanın bölünməsi. Rusiya işğalı və işğala qarşı mübarizə.

**6) Yeni tipli dövlətçilik dövrü.**

a) Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər).

b) Azərbaycan və Sovet imperiyası.

c) Dövlət müstəqilliyinin bərpa edilməsi və möhkəmləndirilməsi.

d) Azərbaycan müasir dövrdə (2000-2024-cü illər).

Azərbaycan tarixi üzrə burada qeyd etdiyimiz birinci dövr dünya tarixşünaslığı tərəfindən həyata keçirilən dövrləşdirmənin ən qədim, ikinci dövr qədim, üçüncü və dördüncü dövrlər orta əsrlər, beşinci dövr yeni tarix, altıncı dövr ən yeni tarix dövrləri ilə eyniləşdirilə bilər. Dövrlər təxminən üst-üstə düşür, fərq ondadır ki, biz dövlətçilik, onlar isə sivilizasiya və istehsal üsulu prinsiplərini əsas götürür.

Bizim dövrləşdirmə ona əsaslanır ki, beş min il əvvəl, e.ə. III minilliyin birinci yarısında Azərbaycan dövləti meydana gəlib və fasiləsiz olaraq bu günə qədər mövcudluğunu davam etdirib. Yalnız müəyyən dövrlərdə Azərbaycan işğal olunub, lakin işğal şəraitində də nisbi müstəqilliyini saxlayıb, qısa müddətdən sonra müstəqilliyini bərpa edib. Vacib bir məsələ də qeyd olunmalıdır ki, Azərbaycan dövləti daim mövcud olub, yalnız hakimiyyətə gələn sülalələr dəyişib. Ona görə də, məsələn, "Aratta dövləti", "Kuti dövləti" və yaxud "Səfəvi dövləti" kimi ifadələr deyil, "Aratta adlandırılan Azərbaycan dövləti", "Kutilər sülaləsinin hakimiyyətdə olduğu Azərbaycan dövləti", "Səfəvilər sülaləsinin hakimiyyətdə olduğu Azərbaycan dövləti" və sair ifadələr işlədilməlidir.

Dövlətin sülalə adı ilə adlandırılması Azərbaycan tarixinin təhrif olunmasına xidmət edir. Avropada, Rusiyada müxtəlif sülalələr hakimiyyətdə olub, amma heç kim "Tüdorlar dövləti", "Stüartlar dövləti", Burbonlar dövləti", "Rürixlər dövləti", "Romanovlar dövləti" ifadəsini işlətmir. Amma Azərbaycan dövlətini 50-100 ildən bir yeni dövlət kimi təqdim edir və bunu riyakarlıqla xalqın bu qədər dövlət yaratmaq qabiliyyəti olaraq təqdim edirlər.

Əslində, bu, Azərbaycan dövlətçiliyinin bəsitləşdirilməsi cəhdidir və məkrli niyyətlərdən xəbər verir. 50-100 ildən bir dövlət dəyişməmiş, yeni sülalələr hakimiyyətdə bir-birini əvəzləmişdir.

Dövlətlərin adı ilə bağlı da məsələyə aydınlıq gətirilməlidir. Rusiya XVIII əsrə qədər Moskva knyazlığı adlanırdı, İngiltərə, Fransa dövlət adları XV-XVI əsrlərdən işlənməyə başlayıb, Almaniya və İtaliya XIX əsrin ikinci yarısında siyasi pərakəndəliyə son qoyub dövlət olublar. Bu və digər dövlətlər bunlara baxmayaraq, ən qədim dövrlərdən başlayaraq özlərini "Fransa dövləti", "Almaniya dövləti", "Rusiya dövləti" və sair kimi təqdim edirlər. Azərbaycana gəldikdə isə, bu adın az qala paleolit dövründən üstümüzdə olduğunu təsdiq edən möhürlü sənəd tələb edirlər. Əlbəttə, nəyisə sübut etməyə ehtiyac yoxdur, hər şey göz önündədir. Sadəcə, göz önündə olanları görmək istəmirlər.

Bir daha tariximizin dövrləşdirilməsinin vacibliyini qeyd edir və konkret dövrlər üzrə vəziyyəti qısa şəkildə təqdim edirik. Azərbaycan insanın formalaşdığı, burada yaşayan insanların bütün inkişaf mərhələlərini ardıcıl olaraq keçdiyi, qədim insan yaşayış məskənləri ilə zəngin olan dünya boyunca bir neçə ərazidən biridir. Bu proses e.ə. IV minilliyin sonu- III minilliyin əvvəlində qanunauyğun olaraq dövlətin yaranmasına gətirib çıxarmışdır. E.ə. III minilliyin birinci yarısında qonşuların Aratta adlandırdığı Azərbaycan dövləti yarandı, məlum və məşhur hökmdarı Sukuşşirannanın adı ilə adlandırsaq, Sukuşşirannalılar sülaləsi tərəfindən idarə edildi. Onlardan sonra hakimiyyətə Lullubi və Kuti sülalələri gəldi. Daha sonra onları Kas

və ya Kassi sülaləsi əvəz etdi. Nisbətən qısa müddət ərzində, e.ə. II minilliyin sonlarında Azərbaycanda hərbi-siyasi vəziyyətə Turukki, Su sülalələri nəzarət etdi.

E.ə. I minilliyin əvvəllərində Azərbaycan dövlətində yerli Manna və ya Mana sülaləsi hakimiyyətə gəldi, onları Maday sülaləsi, qısa müddətə Sak-Skif-İskit sülaləsi əvəz etdi. Bu vaxta qədərki sülalələrin hamısı protoazərbaycan (qədim azəri), prototürk (qədim türk), azəri və ya türk dilli olub. Yerli, amma fars dilli Əhəmənilər sülaləsi e.ə. VI əsrdə Maday sülaləsini devirərək hakimiyyəti ələ keçirib. Onlar yeni dövlət yaratmayıblar, Azərbaycan dövlətinin başına keçiblər. Onların yüksəlişi yunanların meydana çıxması ilə eyni vaxta düşüb, aralarında müharibələr olub, yunanlar onları əvvəlki tarixə nəzər salmadan dövlətin qədim sahibi kimi qəbul edib, "Əhəmənilər dövləti", "perslərin dövləti" ifadələrini ortaya gətiriblər, həmin vaxtdan da yanlış tarixi yanaşma, "İran dövləti" deyilən saxta tarix başlayıb.

Makedoniyalı İsgəndərin zərbələri altında Əhəmənilər süqut edib, hakimiyyətdən gedib. Yadellilərin təxminən 10 il davam edən hakimiyyətindən sonra yerli, türk-azəri dilli Adərbayqanın Aturpatilər sülaləsi hakimiyyətə gəlib, Azərbaycanın cənubunda dövlətçiliyi davam etdiriblər. Arazdan şimala doğru torpaqlarımızda isə Azərbaycan dövlətinin mövcudluğu türk Aranlılar sülaləsi tərəfindən davam etdirilib. Türk-skif soyundan olan Parfların Arsaklılar sülaləsi Parfiya imperiyasını qurub. Bu qohum sülalənin bir qolu Azərbaycanın cənubunda, digəri isə şimalında hakimiyyətə gəlib.

Y.e. III əsrində fars mənşəli Sasanilər sülaləsi Parfiyada arsaklıları məğlub edərək hakimiyyətə gəlib və işğalçı kimi Azərbaycana daxil olub. Sasanilərin vaxtında Azərbaycanın şimal hissəsi nisbi müstəqilliyini qoruyub, yerli arsaklı, mehrani sülalələri əsasən hakimiyyətlərini saxlayıblar. Azərbaycanın cənub hissəsi dini-ideoloji mərkəz olaraq xüsusi statusa, nisbi müstəqilliyə malik olub, yerli nümayəndələr tərəfindən idarə olunub, bölgənin dini rəhbərləri müəyyən məsələlərdə şahlardan üstün mövqedə olublar. Sasani işğalı Ərəb dövlətinin hərbi təcavüzü ilə əvəz olunub, Azərbaycan əraziləri Xilafətin tərkibinə daxil edilib. Azərbaycan dərhal təslim olmayıb, təxminən 100 il ərəb hücumlarına müqavimət göstərib. Ərəb hakimiyyətinin bərqərar olmasından cəmi 50 il sonra isə güclü azadlıq mübarizəsi, Xürrəmilər hərəkatı başlayıb, IX əsrin əvvəllərində Babəkin rəhbərlik etdiyi hərbi-siyasi birlik Azərbaycan dövlətini bərpa edib.

Babəkin başçılıq etdiyi hərəkatın məğlubiyyətindən az sonra Azərbaycanda azadlıq mübarizəsi yenidən geniş vüsət alıb, yerli sülalələrin hakimiyyəti bərqərar olub, Azərbaycan dövləti mövcudluğunu davam etdirib. Məzyədilər sülaləsi əsasən Azərbaycanın şimalında hakimiyyətini bərqərar edib, 861-ci ildən 1538-ci ilə qədər burada Məzyədlər, onlara qohum olan Kəsranilər və Dərbəndilər sülalələri hökmranlıq edib. Azərbaycanın cənub torpaqlarında Cacilər, Salarilər, Rəvvadilər bir-birini əvəz edib, Rəvvadilərin vaxtında Kür-Araz çayları arasında yerləşən ərazidə Şəddadilər sülaləsi yüksəlib. Bu sülalələrin bəziləri müəyyən vaxtlarda cənub və şimal torpaqlarımızı birləşdirərək, Vahid Azərbaycan dövlətini idarə ediblər.

Səlcuqluların regiona gəlişi eyni türk soylarının birləşməsi kimi dəyərləndirilməlidir. Səlcuqlular yerli Rəvvadilər, Şəddadilər, Kəsranilər sülalələrinin hakimiyyətinə dərhal son qoymadılar, əslində Səlcuqlu dövləti mərkəzi bölgəsi Azərbaycan olmaqla quruldu, Azərbaycan-Səlcuqlu müştərək dövləti kimi fəaliyyət göstərdi. Təsadüfi deyil ki, Səlcuqlu sultanlarının varisləri Azərbaycanın Gəncə şəhərində otururdu.

Azərbaycan dövlətinin imperiyaya çevrilməsi prosesi də Səlcuqlu dövlətinin içərisindən başladı. Eldənizlər sülaləsi Səlcuqlu dövlətindəki dayaqlarına söykənərək, Azərbaycanın bütün ərazilərini birləşdirdi, Azərbaycan imperiyasına doğru ilk addımı atdı. Bu xətt Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin vaxtında davam etdirildi, ciddi uğurlar əldə olundu. Bu proses Səfəvilərin dövründə yüksək nöqtəsinə çatdı, dünyanın ən böyük və güclü imperiyalarından biri yarandı. Azərbaycan imperiyası uzun müddət mövcud oldu, son illərində zəiflədi və yeni sülalənin- Əfşarların hakimiyyətə gəlməsi ilə sonuclandı, qısa müddətə olsa da, Azərbaycan imperiyasının Səfəvilər dönəmindəki mövqeyi bərpa olundu, hətta xeyli irəliləyiş əldə edildi. Bu dövrü "Persiyan, Persiya dövləti, imperiyası" kimi təqdim etməyə çalışan Qərb, rus, sovet, İran tarixşünaslığı həqiqətdən çox uzaqdır. Türk sülaləsinin hakimiyyətdə olduğu, türk dilinin rəsmi dil elan edildiyi, fars dilinin, faktiki olaraq, qadağan olunduğu bir ölkəni "Persian", "Persiya" adlandırmaq heç bir məntiqə sığmır.

Əfşarların devrilməsindən sonra ölkə siyasi pərakəndəlik dönəminə daxil oldu, xırda dövlətlərə- xanlıqlara parçalandı. Bu vəziyyət qonşu ölkələrin işğalçılıq hərəkət-

lərinə təkan verdi. Yerli sülalələr vəziyyətdən çıxmaq, mərkəzləşmiş dövləti bərpa etmək üçün təşəbbüslər etdi. Bu prosesdə Şimalda Qarabağın Cavanşirlər, Şəkinin Hacıçələbilər, Qubanın Fətəlixanlılar sülalələri, Cənubda Əfşarlar, Qacarlar, Zəndilər sülalələri olmaqla güc mərkəzləri yarandı. Sonda Qacarlar sülaləsi üstün oldu, Azərbaycanın cənub torpaqlarını və digər əraziləri öz hakimiyyəti altında birləşdirdi, Şimal torpaqlarını da birləşdirmək cəhdi Rusiyanın müdaxiləsi ilə üzləşdi və Rusiya Azərbaycanın Şimal torpaqlarını işğal etdi. Həmin vaxtdan Azərbaycan dövlətçiliyi Cənub torpaqlarımızda davam etdirildi. Lakin Qərb, rus rəsmiləri, eyni zamanda tarixçiləri əvvəlki illərdəki saxtakarlığı davam etdirərək, qeyri-rəsmi qaydada həmin əraziləri "İran" dövləti kimi təqdim etməyə başladılar. Əslində, təmiz türk Qacarlar sülaləsi tərəfindən idarə olunan Azərbaycan dövləti idi. Azərbaycanın Şimal torpaqları isə Rusiyanın tərkibində ərazi-inzibati, etnik tərkib əlahiddəliyini saxlamaqla mövcudluğunu davam etdirdi. Tarixin ironiyasıdır ki, əsrlərlə "Azərbaycan" adlandırılan Cənub torpaqlarımıza "İran" damğası vuruldu, daha çox "Arran" adı ilə tanınan Şimal torpaqlarımıza münasibətdə isə "Azərbaycan" adı möhkəmləndi.

Şimali Azərbaycanda dərhal başlayan azadlıq mübarizəsi 100 ildən sonra qələbə ilə nəticələndi, Azərbaycan dövləti bərpa edildi, yeni tipli, parlamentli dövlət- Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. AXC az vaxt ərzində ciddi uğurlara imza atdı, lakin rus irticasının yeni dalğası qarşısında dayana bilmədi. Rəngini dəyişərək Sovet imperiyasına çevrilən Rusiya yenidən Şimali Azərbaycanı

işğal etdi. Əvvəlki birbaşa işğaldan fərqli olaraq, bu dəfə imperiyanı "respublikaların könüllü ittifaqı" kimi təqdim etməyə çalışdılar. Digər ərazilər kimi, Azərbaycanın da formal müstəqilliyi saxlanıldı. Ona görə də bu illəri Şimali Azərbaycanın nisbi müstəqillik və İkinci Respublika mərhələsi kimi qəbul etmək olar. Cənubda hadisələr daha bədbin məcrada davam etdi. Babilərin, Səttarxanın, Şeyx Məhəmməd Xiyabaninin mütləqiyyətə, şah rejiminə qarşı mübarizəsi müəyyən müsbət dəyişikliklərə səbəb oldu, lakin eyni zamanda türk Qacarların hakimiyyətdən getməsi, onların fars Pəhləvilərlə əvəzlənməsinə gətirib çıxardı. Ölkə rəsmi qaydada fars İran dövlətinə çevrildi. Pişəvərinin milli hüquqları təmin etmək, Müsəddiqin dövlətin xarakterini dəyişdirmək, Şəriətmədarinin İslam inqilabından yararlanmaq cəhdləri nəticə vermədi, həmçinin müasir dövrdə aparılan mübarizənin də hərəkət birliyi yoxdur.

Şimali Azərbaycanda azadlıq, müstəqillik uğrunda mübarizə nəticəsini verdi, Sovet imperiyası dağıldı, Azərbaycan dövləti bərpa olundu, beş min illik dövlətçiliyimiz davam etdirildi. Ermənistanın təcavüzünə qarşı azadlıq müharibəsi aparıldı, düşmən məğlub edildi, ərazi bütövlüyümüz, suverenliyimiz bərpa olundu. Azərbaycan müasir dünyanın tələblərinə uyğun olaraq siyasi, iqtisadi, sosial münasibətlər sistemini qurdu və bu yolda uğurlu fəaliyyətini davam etdirir.

Beləliklə, bu dövrləşdirmə, digər metodoloji, konseptual məsələlər nəzərə alınmalı, tədqiqat, tədris, təbliğat işlərində əsas götürülməlidir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Ağasıoğlu (Cəlilov) F. Azər xalqı. Bakı, "Ağrıdağ", 2000.

2. Azərbaycan tarixi, I cild (Z. Bünyadov və Y. Yusifovun redaktəsi ilə). Ali məktəblər üçün dərslik. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

3. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, Minarə, 2000 (Elmlər Akademiyası nəşriyyatı, 1951. Təkrar nəşr (düzəlişsiz).

4. Dəmirçizadə Ə. 50 söz. Bakı, "Gənclik", 1968.

5. Əliyarlı S. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, "Çıraq", 2007.

6. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, "Təhsil", 2003.

7. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

8. Qəniyev H. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil", 2019.

9. Yusifov Y. Qədim Şərq tarixi. Bakı, "Bakı Universiteti", 1993.

10. Гегель Г.В.Ф. Философия духа// Энсиклопедия философских наук. Том 3, Москва, «Мысль», 1977.

11. Гулыга А.В. Немецкая классическая философия. Moskva, «Айрис-Пресс», 2001.

# I fəsil. İbtidai insan münasibətləri və dövlətin yaranması

## *§ 1. Dövlətəqədərki mərhələ və ibtidai insan münasibətlərinin formalaşması.*

Bəşəriyyətin yaranması 4 milyon il ərzində baş vermişdir. Bu dövr ərzində insan ibtidai varlıqdan müasir insan tipinə qədər uzun yol keçmişdir. İnsanın yaranması ilə bağlı təkamül nəzəriyyəsi və dini yanaşma mövcuddur. Bütün dinlərə görə "bəşərin atası", Allahın yaratdığı ilk insan Adəm olmuşdur. Ümumi mövqeyə görə, onun yerə endirilməsi təxminən 6-7 min il əvvəl baş vermişdir. Təkamül nəzəriyyəsinə görə isə, insan təkamül və kamilləşmə nəticəsində xüsusi növ və sonralar kökü kəsilmiş meymunlardan əmələ gəlmişdir. Bu nəzəriyyə Adəmdən yüz min illər əvvəl yaşamış ibtidai insan qalıqlarına istinad edir. Ortaq mövqe olaraq, hesab edilir ki, Adəmin dövrünə qədər də yer üzündə insanlar olmuş, inkişaf etmiş, Adəmin gəlişi ilə yeni nəsil insanlar ümumi prosesə qoşulmuşdur.

İnsanın yaranması prosesi 3 əsas dövrü əhatə etmişdir: daş, tunc, dəmir dövrləri. Daş dövrü təxminən 4-3.5 milyon il əvvəl başlayıb, e.ə. IV minilliyə qədər davam edib. Tunc dövrü e.ə. IV-II minillikləri əhatə edib, dəmir dövrü e.ə. I minillikdə başlayıb. Daş dövrü 3 əsas mərhələyə-paleolit, mezolit, neolit mərhələlərinə bölünür. Paleolit (qədim daş mərhələsi) 4-3.5 milyon ildən e.ə. XII minilliyə qədər, mezolit (orta daş mərhələsi) e.ə. XII-VIII minillikləri, neolit (yeni daş mərhələsi) e.ə. VIII-VI minillikləri, aralıq

mərhələ olan eneolit (mis-daş mərhələsi) e.ə. VI-IV minillikləri əhatə edir [10, s.27].

İnsan yaranması prosesinin ilk nümunəsi- pitekantropun (yunanca "meymun adam") qalıqları 1891-ci ildə Yava adasında (İndoneziya) aşkar edilib. Pitekantroplar 1.2 milyon-30 min il bundan əvvəl yaşamışlar. Ondan sonra qədim insan qalıqları Almaniyanın Heydelberq şəhəri yaxınlığında (Heyderberq adamı), Almaniyanın Neandertal dərəsində (neandertal), Fransanın Kromonyon mağarasında (kromonyon) tapılıb. Bu insanabənzər meymunlar Avropa, Asiya, Qafqaz və Afrikada yaşamışlar [3, s.28-29].

İnsanabənzər meymundan müasir insan tipinə qədər 3 böyük mərhələ keçilmişdir: arxantroplar (yunanca "ən qədim insan"), paleantroplar (yunanca "qədim insanlar"), müasir insanlar. Birincidən ikinciyə keçid alətlərin düzəldilməsi, ikincidən üçüncüyə keçid müasir quruluşlu insanın əmələ gəlməsi ilə baş vermişdir. [10, s.26]. Arxantropların ilk nümayəndəsi Homo Habilis (yunanca "bacarıqlı adam") olub. O, təxminən 2.5 milyon il əvvəl formalaşmağa başlayıb. Onun qalıqları Olduvay dərəsində (Tanzaniya) tapılıb. Daşdan primitiv alətlər düzəltdiyinə görə "bacarıqlı adam" adlandırılıb. Pitekantrop, Heydelberq adamı, sinantroplar da (Pekin yaxınlığında tapılıb) arxantroplara aiddir. Bu dövr 300 min il bundan əvvələ qədər davam edib. Azərbaycanda qalıqları tapılmış azıxantrop da arxantroplara, daha dəqiqi, arxantroplardan paleantroplara keçid dövrünə aid edilir. Təxminən 300-120 min il əvvəl paleantropların dövrü başlayır və 35 min il bundan əvvələ qədər davam edir. Onların ən tipik nümayəndəsi neandertallardır. Neandertallar Avropa, Asiya, Afrika və digər yerlərdə yaşamışlar [3, s.30-31].

Azərbaycan ərazisində bəşəriyyətin inkişafını əks etdirən maddi mədəniyyət nümunələri kifayət qədərdir. Paleolitə aid materiallar Azıx (Xocavənd bölgəsi), Tağlar (Xocavənd bölgəsi), Daşsalahlı (Qazax bölgəsi), Qazma (Naxçıvan bölgəsi), Buzeyir (Lerik bölgəsi) mağaralarında aşkar edilib. Azıx mağarasında hündürlüyü 13.5 m. olan 10 mədəni təbəqə müəyyən edilib [2, s.55,60,61]. Buradakı materiallar Quruçay mədəniyyətini (Azıx mağarası Quruçay sahilində yerləşir) təşkil edir. Quruçay arxeoloji mədəniyyəti 1.2 milyon il əvvəldən – 700 min il əvvələ qədərki dövrü, alt paleolit dövrünü əhatə edir. Burada Quruçay mədəniyyətindən sonra Aşel mədəniyyəti (Fransanın Sent-Aşel yaşayış məntəqəsində tapılan ilk nümunələrə görə belə adlanır) izləri müşahidə olunur. Deməli, Quruçay mədəniyyətinin birinci inkişaf mərhələsi Aşelə qədərki dövrü əks etdirir. Bu mədəniyyət dövrləri və mərhələləri əldə olunan materialların xarakterik xüsusiyyətlərinə görə müəyyənləşdirilir. Aşel mədəniyyəti təxminən 700 - 120 min il bundan əvvəlki dövrü, alt paleolit dövrünü əhatə edir.

Quruçay dərəsində ilk vaxtlar açıq düşərgələrdə yaşayan qədim insanlar iqlim şəraitinin dəyişməsi ilə bağlı yaxınlıqdakı Azıx mağarasına köçmüşlər. Mağarada insanların təxminən 1 milyon il əvvəl yaşamağa başladıqları güman edilir [6].

Mağaranın ən qədim dövrə aid təbəqələrində ibtidai insanların işlətdikləri kobud daş alətlər tapılmışdır. Bu alətlər adi çay daşlarından hazırlanmışdır. İbtidai insanlar bu alətlərdən ovladıqları heyvanları kəsmək, doğramaq işlərində istifadə etmişlər. Azıx mağarasında əldə edilən

materiallar alt paleolit (4 milyon-100 min il bundan əvvəl) dövrünə aid edilir.

Azıx mağarası Azərbaycanın Xocavənd rayonunda, Quruçay dərəsinin sol yamacında yerləşir. Mağara 1960-cı ildə arxeoloq Məmmədəli Hüseynov tərəfindən qeydə alınmışdır. Azıx mağarası dəniz səthindən 1400 m. yüksəkdə yerləşir. Qafqazın ən iri karst (suyun süxurları əritməsi nəticəsində yaranan relyef, ilk dəfə Sloveniyanın Karst yaylasında rast gəlindiyinə görə belə adlanır) mağaralarından olub, içinin uzunluğu 230 m-dir. Mağara altı böyük salondan ibarətdir. Eyni zamanda mağaranın giriş və çıxışı vardır. Mağaradan əmək alətləri ilə yanaşı, nəsli kəsilmiş müxtəlif vəhşi heyvanların sümükləri də tapılmışdır.

Azıx mağarasında aşkar olunmuş ən qədim ocaq qalığının 700 min ilə yaxın yaşı var. Qədim insanların oddan istifadə etməsi onların həyatında çox mühüm hadisə olmuşdur. İlk vaxtlar ildırım çaxması və ya üzvi maddələrin öz-özünə yanması nəticəsində əmələ gəlmiş təbii oddan istifadə edilmişdir. Sonralar insanlar quru ağac parçalarını, çaxmaqdaşını bir-birinə vurmaqla od əldə etməyi öyrənmişlər. Od, ocaq insanların həyatında böyük rol oynamışdır. Ocaqdan isinmək, yemək hazırlamaq və vəhşi heyvanlardan qorunmaq üçün istifadə olunurdu.

Azıx mağarasında 1968-ci ildə arxeoloq M. Hüseynov tərəfindən İbtidai insanın alt çənə sümüyünün qalığı tapılmışdır. Bu, dünyada ən qədim tapıntılardandır. Antropoloqlar həmin İbtidai insanı Azıxantrop, yəni “Azıx adamı” adlandırmışdır. Azıxantroplar 350-400 min il bundan əvvəl yaşamışlar. Azıx çənə sümüyü Azərbaycanın qədim

insanının formalaşdığı ərazilərdən biri olduğunu sübut edir [8].

Orta Paleolit (100-35 min il əvvəl) dövründə qədim insanların ətraf mühitə münasibətində, dini görüşlərində dəyişikliklər yaranmışdır. Axirət dünyasına inam ilk dəfə bu dövrdə yaranmışdı. Ovsun, heyvanlara (totemlərə), təbiət qüvvələrinə inamla bağlı dini təsəvvür formaları meydana gəlmişdir.

100 min ildən 35 min il bundan əvvələ qədər mustye mədəniyyəti (ilk nümunələri Fransanın Mustye şəhərində tapıldığı üçün belə adlanır) dövrü hesab edilir. Bu vaxt neandertallar yaşamış, kobud daş alətlərdən itiuclu alətlərə keçilmiş, dəfn qaydaları yaranmışdır. Azərbaycanda bu dövrə aid zəngin materiallar Tağlar mağarasında aşkar edilib [2, s.67].

35 min il əvvəl mustye mədəniyyətini, orta paleoliti üst paleolit əvəz edib və e.ə. XII minilliyə qədər davam edib. Bu dövrün adamları müasir insan tipində olub. Onlar Homo Sapiens (yunanca "ağıllı adam") adlandırılıb. Bu adamın meydana gəlməsi üst paleolit dövründə, 30-35 min il əvvəl baş verib [2, s.78-79].

Mezolit - Orta Daş dövrü Azərbaycan ərazisində e.ə. 12-ci minillikdən e.ə. 8-ci minilliyə qədər bir dövrü əhatə edir. Bu dövrdə yaşayış üçün daha əlverişli iqlim şəraiti olmuşdur. Yeni əmək alətləri yaratmış insanlar əsasən ovçuluq, yığıcılıq və balıqçılıqla məşğul olmuşlar.

Mezolit dövründə ox və kaman ixtira edilmişdir. Bu silahın köməyi ilə insanlar heyvanları daha uzaq məsafədən ovlaya bilirdilər. Mezolit dövründə ilk əkinçilik vərdişləri də yaranırdı. Azərbaycanda Mezolit dövrü əhalisi-

nin yaşayışı, məşğuliyyəti Qobustan abidələri ("Öküzlər", "Ana Zağa", "Firuz" və s.) əsasında öyrənilmişdir. Burada insanlar təxminən e.ə. 12-ci minillikdən yaşamışlar. Qobustanda insanlar ovçuluq, balıqçılıq və yığıcılıqla, zaman keçdikcə isə maldarlıq və əkinçiliklə məşğul olmuşlar [12].

E.ə. VIII-VI minillikləri əhatə edən mərhələ **yeni daş dövrü – Neolit adlanır.** Bu dövrdə insanlar daha hər şeyi təbiətdən hazır şəkildə almır, özləri istehsal edirdilər. Yəni insanlar təbiətdən asılılıqdan azad olmuş, özlərinə lazım olan məhsulların istehsalına başlamışlar. İnsanların məşğuliyyət sahələri içərisində maldarlıq və əkinçilik əsas yer tuturdu. Bu dövrdə istehsal təsərrüfatının formalaşması başa çatmışdır. Azərbaycan ərazisində bu dövrə aid Gəncə yaxınlığında Gillidağ, Qazaxda Damcılı mağarası, Qobustanda "Ovçular zağası", "Anazağa" və "Firuz" düşərgələri kimi abidələr öyrənilmişdir. Təbriz yaxınlığında yerləşən Yanıqtəpə (kiçik təpə) və Urmiya gölünün cənubundakı Hacı Firuz abidələrinin alt təbəqələri də neolit dövrünə aiddir. Bu dövrün abidələrindən biri də Naxçıvan şəhərindən 8 km şimal-şərqdə, Babək rayonunun eyni adlı kəndi ərazisində tədqiq olunmuş I Kültəpədir [12].

E.ə. VI minillikdən **Azərbaycanda eneolit (mis-daş dövrü) başlanıb.** Bu dövr e.ə. IV minilliyə qədər davam edib. Bu dövr daş dövrünün başqa mərhələlərindən fərqlənir. Çünki qədim insanlar bu dövrdə daş məmulatı ilə yanaşı metaldan da istifadə ediblər. İlk vaxtlar misdən soyuq döymə üsulu ilə müxtəlif əşyalar hazırlayırdılar. Zaman keçdikcə əmək vərdişləri artır, təkmilləşir və qədim insanlar mis külçələrini əvvəlcə ocaqda qızdırmaq, sonra isə əritməklə ibtidai metalişləmənin sirlərinə bələd oldular.

Azərbaycanda bu dövrün yaşayış məskənləri Gəncə-Qazax, Mil-Qarabağ, Muğan-Naxçıvan bölgələrində, Urmiya gölü ətrafında və Təbriz yaxınlığında öyrənilib. Eneolit dövründə bizə məlum olan ev heyvanlarının, demək olar, hamısı əhilləşdirilib. E.ə. V minilliyin axırlarında Azərbaycanda ilk dəfə atın əhilləşdirilməsinə başlanılıb. Cəlilabad rayonunda qədim Əliköməktəpə yaşayış yerindən əhilləşdirilmiş at sümükləri tapılıb [7].

E.ə. IV minilliyin sonlarından başlayaraq Eneolit dövrü Tunc dövrü ilə əvəz olunub. Azərbaycanda bu dövr e.ə. II minilliyin sonlarına qədər davam edib. Tuncun meydana gəlməsi İbtidai cəmiyyətin tələbatından doğmuşdu. Azərbaycanda mis yataqlarının olması metalişləmə və metallurgiyanın inkişafına şərait yaratmışdı. Təmiz misdən hazırlanan alətlər kövrək olduğu üçün davamsız idi və tez xarab olurdu. Ona görə də qədim sənətkarlar misin tərkibinə müxtəlif qatışıqlar, məsələn, mərgümüş, sürmə, nikel, daha sonralar qalay qataraq daha möhkəm metal-tunc əldə etdilər. Əmək alətlərinin, silahların, məişət və bəzək əşyalarının çoxu tuncdan hazırlandığından bu dövr Tunc dövrü adlanır.

Tunc dövrü İbtidai icma quruluşunun inkişaf tarixində çox mühüm yer tutur. Erkən tunc dövründə Azərbaycanda I ictimai əmək bölgüsü baş verib, əkinçilik maldarlıqdan ayrılıb, ağır zəhmət tələb edən kişi əməyi (xış əkinçiliyi, maldarlıq, metalişləmə) irəli keçib, anaxaqanlığı ataxaqanlığı (patriarxat) ilə əvəz olunub. Təsərrüfatın yeni sahələri meydana gəlib, əmək bərabərsizliyi və sosial bərabərsizlik yaranıb. Tunc dövründə Azərbaycanda böyük mədəni-etnik birliklər – böyük tayfalar və tayfa birləşmələri meydana gəlib [5].

İnsanlar inkişaf etdikcə onların həyatı ictimailəşir, sürü icmasının yerinə qəbilə, daha sonra tayfa quruluşları gəlir, insanların nitqi, dili, dini baxışları təkmilləşir. İlk insanların təfəkkür və nitqinin inkişafı iki mərhələyə bölünür: birinci mərhələ arxantrop və paleantroplar, ikinci mərhələ Homo Sapiens dövrü ilə şərtlənir. Ən qədim insanların nitqi başqa canlılarda olduğu kimi kiçik qışqırtılardan ibarət olub [10, s.34]. Tədricən vahid dil, "ulu dil" [4, s.17] nəzəriyyəsi ilkin olaraq vahid bir dilin olduğunu, dünya xalqlarının dillərinin bu ulu dildən yarandığını nəzərdə tutur. Ulu dil e.ə. XII minilliyə qədər formalaşmış, həmin vaxtdan isə müxtəlif protodillərə bölünməyə başlamışdır. Bu, əsasən ibtidai icma quruluşunun dağılması, köçlərin, miqrasiyaların artması ilə bağlı olmuşdur [10, s.36]. Məhz e.ə. XII minillikdə ulu dilin parçalanması ilə müasir dil ailələrinin əsasını qoymuş ilk qədim dillər, protohindavropa, protosami, prototürk dilləri yarandı [4, s.17].

Hələ XVIII əsrdə müxtəlif ölkələrin alimləri tərəfindən "ulu dil", vahid dil mənbəyi haqqında fikirlər səslənirdi. Lakin ulu dilə dair bitkin nəzəriyyəni XIX əsr alman alimi Avqust Şleyxer işləyib hazırladı. Onun fikrinə görə, bütün dillər hindavropa ulu dilindən, protodilindən meydana gəlib [4, s.24-26]. Hər kəs qəbul edir ki, dünyanın bütün xalqları kimi, dilləri də bir kökdəndir. E.ə. XII minillikdə protodillərin parçalanması başladı, XII-VI minilliklərdə dil ailələri yarandı.

Bu vaxt ən iri dil ailələri- Hindavropa (german, kelt, roman, İran, yunan, slavyan və sair), sami (akkad, assur, babil, yəhudi, ərəb və sair), Şumer-Hurri-Altay (türk, moğol və sair) və sairləri formalaşdı [9, s.35-36]. Prototürk

dilinin parçalanması e.ə. VIII-VII minilliklərdə türkün ilk vətənində, Ön Asiyada (indiki Azərbaycan, Şərqi Türkiyə, İran, İraq, Gürcüstan və sair) baş verdi [1, s.83].

E.ə. XII minillikdə sami, hindavropa və digər tayfalardan (onlar da Ön Asiyada formalaşmışdılar) ayrılan prototürklər böyük kütlələrlə köç ediblər. Onların bir qismi, ilkin vətəndə, Ön Asiyada qalıb, digərləri əsasən iki istiqamətdə, qərbə, Balkanlara, şərqə, bu günkü Çin sərhədlərinə qədər hərəkət edib. Bu köçlərin nəticəsidir ki, türklərin qərb və şərq vətənlərində xeyli oxşar toponim və etnonimlər vardır. Məsələn, Amur çayının bir qolu Kür, digəri Urmu adlanır; Mehri bölgəsində Nüvədi kəndi yaxınlığında Sələnc çayı, Orta Asiyada Selenqa çayı vardır; Çinin uyğurlar yaşayan Kaşqar bölgəsində Azıx kəndi, Azərbaycanın Xocavənd bölgəsində Azıx mağarası var [4, s.190]. Altay sözünün özü də türklərin Ön Asiyadan gətirdiyi Aratta sözünün dəyişmiş formasıdır. Bu sözün Alatey forması da mövcuddur. Hamısı da eyni mənanı, "dağ" mənasını verir. Türklərin ilk vətəni, beşiyi Altay, Orta Asiya deyil, Ön Asiya, Azərbaycandır. Onların bir hissəsi Ön Asiyanı tərk etmiş, müəyyən vaxtdan sonra, məsələn e.ə. VIII-VII əsrlərdə sak, skif, kimmerlər kimi geri dönmüşlər [4, s.58]. XX əsr ingilis arxeoloqu Lloyd Seton faktlara söykənərək, belə bir fikir bildirir ki, Turanlılar, türklər 10-12 min il bundan əvvəl Dəclə-Fərat çayları hövzəsində, İkiçayarasında məskən salıb, dünya sivilizasiyasına öz töhfələrini verdi, qədim bir mədəniyyətin əsasını qoydular [11, s.16].

Beləliklə, Azərbaycanda ən qədim dövrlərdən başlayaraq insanın yaranması və formalaşması prosesi gedib,

burada dünyanın ən qədim insan yaşayışı məskənləri olub, əcdadlarımız qədim dünyanın bütün inkişaf mərhələlərini keçərək, dövlətəqədərki dövrü başa vurub. Ölkəmizdə dövlətin yaranması üçün bütün ilkin şərtlər, vahid ərazi, mərkəzi yaşayış məntəqələri, iqtisadi və hərbi güc, idarəetmə qabiliyyəti, ümumi təmas, danışıq vasitəsi, prototürk (protoazərbaycan) dili, eyni dini-ideoloji təsəvvürlər formalaşıb.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan tarixi, I cild. (Z. Bünyadovun və Y. Yusifovun redaktəsi ilə). Ali məktəblər üçün dərslik. Bakı, “Azərbaycan Dövlət Nəşriyyatı”, 1994.

2. Azərbaycan tarixi. Yeddi clddə, I cild. Bakı, “Elm”, 1998.

3. Göyüşov R.B., Martınov A.İ. SSRİ arxeologiyası. Bakı, “Maarif”, 1990.

4. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, “Təhsil”, 2003.

5. Archeology viii. Republic of Azerbaijan.- iranicaonline.org/articles/archeology-viii-northern-azerbaijan-republic-of-azerbaijan-1.

6. Yolanda Fernandez-Jalvo, Peter Ditchfield, Rainer Grün, Wendy Lees, Maxime Aubert. Appendix: Dating Mehhods Applied to Azokh Cave Sites.- link.springer.com/charter/10.1007/978-3-319-24924-7_16.

7. Археология Азербайджана.- wreferat.baza-referat.ru/Археология_Азербайджана.

8. Гусейнов М.М.- Древний палеолит Азербайджана. Баку, «Элм», 1985.

9. История Древнего Востока, т. I. Москва, «Наука», 1983.

10. Редер Д.Г., Черкасова Е.А. История древнего мира. Москва, «Просвещение», 1985.

11. Сетон Л. Реки-близнецы. Москва, «Наука», 1972.

12. Эпоха мезолита и неолита.- web.archive.org/web/20131111152625/ http:www.azerbembassy.org.en/rus/historical02.html.

### *§ 2. Azərbaycan (Aratta) dövlətinin yaranması, ərazisi, dil birliyi, qonşularla münasibətləri.*

Azərbaycan dövləti təbii prosesin nəticəsi olaraq meydana gəlib. Cəmiyyət tədricən özünü idarəetmə formalarını axtarır, icma sürüsündən qəbiləyə, qəbilədən tayfaya keçid bu axtarışların göstəricisi idi. Dövlətin yaranmasına dair müxtəlif nəzəriyyələrin yaşamaq haqqı var, lakin sinfi münasibətlərin nəticəsi ilə bağlı nəzəriyyələr özünü doğrultmur. Aristotelin "Siyasət" əsərində təqdim etdiyi yanaşmanı reallığa daha yaxın hesab etmək olar. Onun verdiyi tərifə görə, dövlət azad insanların daha yaxşı həyat şəraitinin əldə olunması üçün yaratdıqları birgəyaşayış formasıdır. O qeyd edir ki, dövlətin yaranmasına orqanik nəzəriyyə mövqeyindən yanaşılmalıdır, yəni "dövlət olanların təbiətinə uyğun olaraq yaranır, insanların təbiətindən irəli gəlir". Aristotel qəti şəkildə vurğulayır ki, "dövlət təbii inkişafın məhsuludur" [9].

Azərbaycan dövləti də bu universal prinsiplərə, ilkin şərtlərə, o cümlədən ərazi və dil birliyinə, vahid dini-ideoloji baxışlara, iqtisadi münasibətlərin yetkinliyi, hərbi qüvvələr, özünü müdafiə etmək imkanları kimi şərtlərə uyğun olaraq meydana gəldi. Azərbaycanda dövlətin ya-

ranma prosesi e.ə. IV minilliyin sonu- III minilliyin əvvəllərində başa çatdı. Qonşu xalqların Aratta adlandırdıqları Azərbaycan dövləti yarandı və Azərbaycan xalqının beş minillik fasiləsiz dövlətçilik tarixinə start verildi. Bu dövlətin yerli mənbələrdə necə adlandırıldığı məlum deyil, amma məlum olan odur ki, bu, mahiyyət etibarı ilə Azərbaycan dövləti, Şumerlə yanaşı, bölgənin iki ən qədim dövlətindən biri idi.

E.ə. IV minilliyin ortalarında dünyanın və Ön Asiyanın ən mədəni ərazisi Mesopotamiya (İkiçayarası), ən mədəni xalqı şumerlər (bu adı onlara yaşadıqları ərazinin adı ilə akkadlar verib) idi. Şumerlər türk idilər və Azərbaycan soyları ilə qohum və qonşu idilər [3, s.59]. Şumerlərin ilk dövləti Dəclə və Fərat çaylarının cənub axarı arasında meydana gəldi. Şumer adı ilk dəfə e.ə. XXIII əsrdə Akkad mənbələrində çəkilib [12, s.8]. Cənubi İkiçayarasının əhalisi mixi yazılarda "Şumer (ölkəsinin) xalqı" və ya Kengir, həm də qarabaşlar (şumer dilində "sag giga") adlandırılırdı [6, s.47].

Şumerlərin dövləti əsasən şəhər-dövlətləri formasında mövcud olub. İlk belə qurumları e.ə. XXVIII-XXVII əsrlərdə Kiş şəhər-dövləti kimi yaranıb. Onlardan az sonra Uruk şəhər-dövləti meydana gəlib. Urukun görkəmli nümayəndələri En-Merkar, Luqalbanda, Gilqameş olub. Onlardan sonra Ur, Laqaş, Umma şəhər-dövlətləri yüksəlib. Umma e.ə. XXIV əsrdə bütün Şumeri birləşdirdi, Uruk şəhəri paytaxt olmaqla vahid dövlət yaratdı [6, s.72-76].

Əksər alimlərin fikrinə görə, şumerlər İkiçayarasına kənardan, Cənubi Azərbaycanın Zaqros dağlarından gediblər [11, s.115]. Şumerlər e.ə. III minilliyin ikinci yarısın-

da şimal qonşuları akkadlar tərəfindən məğlub edildilər və əksəriyyəti bölgəni tərk etdi. Onların bir hissəsi ata yurdlarına, Zaqros dağlarına qayıtdı, digərləri isə müxtəlif istiqamətlərə, həmçinin Şərqə doğru hərəkət etdilər. Oradakı Sibir şəhəri, bütövlükdə Sibir adı onlarla bağlı idi [10, s.215].

İlk Azərbaycan dövləti Aratta ilə bağlı məlumatlar əsasən Şumer mixi yazılarında yer alıb. Azərbaycan əhalisi ilə İkiçayarası əhali arasında əlaqələr e.ə. VII-V minilliklərdən başlamışdı. Azərbaycanın Göytəpə (Urmiya gölünün ətrafı), I Kültəpə (Naxçıvan), Leylatəpə (Ağdam), İraqın Ubeyd qədim yaşayış yerlərinin arxeoloji materialları bunu əyani şəkildə göstərir [2, s.116]. Şumerlərə onlardan şərqdə olanlar, Azərbaycan soyları olan arattalı, lullubi, kuti, kaslar dost, qərbdə olan akkad-samilər isə düşmən idilər [11, s.71]. Bu düşmənçilik şumerlərlə eyni kökdən olan kuti, kas, turukki, su soyları ilə akkadlardan törəyən assurlar, babillər arasında da davam etmişdir.

Azərbaycan-Aratta dövləti haqqında əsas mənbə Şumer dastanlarıdı. Həmin dastanlardan biri ("En-Merkar və Arattanın ali kahini") Uruk və Aratta hökmdarları, iki dövlət arasında münasibətlərdən bəhs edir. Burada Aratta ali kahini dedikdə həm də hökmdar nəzərdə tutulur, mənbədə onun adı göstərilmir [14, s.269]. Dastanda göstərilir ki, En-Merkarın qasidi "Qara dağı" aşır, yeddi dağdan keçir, Aratta ölkəsinə gəlir və hökmdarın istəklərini Aratta kahininə çatdırır. Arattanın ali kahini ona belə cavab aparmağı tapşırır: "Mən ali kahin, ... bütün əhalinin hökmdarı ... Aratta Uruka necə tabe ola bilər? Aratta Uruka itaət etməyəcək..." [14, s.270]. Dastanın sonrakı hissələrində ay-

dın olur ki, bu qarşıdurma bir neçə il davam edir, sonda tərəflər bir-biri ilə razılaşır, əməkdaşlığı davam etdirirlər. Aratta ilə Uruk arasında qohumluq və dostluq əlaqələri olub. Digər Şumer dastanında ("Uruk və Aratta") Aratta hökmdarı şumerli En-Merkarı özünün qardaşı, bir ananın övladları olduqlarını bildirir [3, s.81]. Bu dastanda Aratta hökmdarının adının En-Sukuşsiranna olduğu bildirilir. Burada artıq üstün tərəf kimi En-Sukuşsiranna göstərilir. O, Uruk hökmdarı En-Merkardan ona tabe olmasını tələb edir. Bu dəfə də onların qarşıdurması sülhlə yekunlaşır [3, s.81-82]. Bu epizod Arattanın kifayət qədər güclü olduğundan xəbər verir. Üçüncü dastanda ("Luqalbanda və En-Merkar") Uruk hökmdarı akkadların təcavüzünə məruz qalır, müharibə etməli olur və kömək almaq üçün sərkərdəsi Luqalbandanı Arattaya göndərir [3, s.82]. Bu, iki qohum, dost dövlətin müttəfiqliyini göstərir. Şumerlərlə bu cür dost münasibətdə olan Arattanın əhalisi türk tayfalarından ibarət idi [1, s.94].

Aratta Urmiya gölünün cənub və cənub-şərq hissəsini əhatə edirdi [7, s.275]. Aratta dövləti İkiçayarasında Şumer şəhəri dövlətləri ilə iqtisadi, siyasi və mədəni əlaqələrə girmişdi. Ölkəni ensi rütbəsi daşıyan hökmdar idarə edirdi. Əsilzadə təbəqəsinə daxil olan maşmaş (kahin, vəzir), sukkal (elçi), uqula ( rəis) və başqaları dövlət idarəsinin qulluqçuları olmuşlar. Arattada artıq dövlətə məxsus idarə orqanları və vəzifəli şəxsləri meydana gəlmişdi. Arattada çoxallahlılıq mövcud olmuşdur. Şumerlilər Arattanı müqəddəs məkan hesab edir, bu ölkədən çox şey öyrəndiklərini bildirirdilər [8]. Şumer dövləti ilə Aratta ölkəsi arasında iqtisadi əlaqələr davam edirdi.

Arattadan İkiçayarasına qızıl, gümüş, tikinti materialları, Şumerdən Arattaya isə əsasən taxıl və meyvə gətirilirdi. Aratta ölkəsinin əhalisi qızıl, gümüş, tikinti, mis, dağdaşı və s. hasil edirdi. Aratta əhalisinin həyatında əkinçilik də müəyyən yer tuturdu. Burada dəmyə əkinçiliyi geniş yayılmışdı [13]. Şumer qaynaqlarında yad edilən Aratta, eyni adı saxlamış Aratta çayı və Alateye Azərbaycanda Urmiya gölünün cənub və cənub-şərq dağlıq ərazisini göstərir. Urartu mənbələrində Aratta ölkəsinin yerləşdiyi ərazi Alateye adlanır [4, s.69]. Aratta və Alateye eyni dağlıq ərazinin müxtəlif dialekt adlarıdır, hər iki adı əmələ gətirən söz "dağ" mənasını daşıyır. Arattanın sərhədləri cənubi şərqdə Zənçana, cənubi qərbdə isə Zəribər gölünə (indiki İranın Kürdüstan vilayətində) kimi çatırdı. Aratta qədim Azərbaycan ərazisinə verilən ilk məlum addır [5].

E.ə. XXIV əsrin sonlarında akkadlar şumerləri məğlub etdi, həmin ərazidə Akkad dövlətini yaratdılar (e.ə. XXIV-XXII əsrlər). Şumerlərin məğlubiyyəti Arattanın da vəziyyətinə mənfi təsir göstərdi. Yerli Arattalı və ya Sukuşsirannalı sülalə hakimiyyətdən getməli oldu. Digər yerli türk sülalələrinin, Lullubilər və Kutilərin hakimiyyətə gəlməsi üçün şərait yarandı. Yeni sülalələr Akkad dövlətinin Azərbaycanı işğal etməsinə imkan vermədi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan tarixi, I cild (Z. Bünyadov və Y. Yusifovun redaktəsi ilə). Ali məktəblər üçün dərslik (ilk dəfə 1994-cü ildə nəşr edilib). Bakı, "Apostroff", 2014.

2. Azərbaycan tarixi. Yeddi cilddə (İ.Əliyevin redaktəsi ilə), I cild. Bakı, "Elm", 1998.

3. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, "Təhsil", 2003.

4. Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə. Bakı, "Təhsil", 2006.

5. Tuncay B. Azərbaycan imperatorluğu. Azərbaycan ərazisində ilk dövlət-Aratta.- azkurs.org/bextiyar-tuncay-azerbaycan-imperatorlugu.html.

6. Yusifov Y.B. "Qədim Şərq tarixi". Bakı, "Bakı Universiteti", 1993.

7. Kramer, Samuel Noah. The Sumerians: Their History, Culture and Charakter. Chikago, IL: University of Chikago Press, 1963.

8. Аратта-древнейшее государство в истории.- vstrokax.net/istoriya/aratta-drevneyshee-gosudarstvo-v-istorii/.

9. Аристотель о государстве и праве.- state.rin.ru/cgi-bin/main.pl?id=18&=15.

10. Дьяканов И.М. Языки древней Передней Азии. Москва, «Наука», 1967.

11. История Древнего Востока. Москва, «Восточная литература», 1983.

12. Канева И.Т. Шумерский язык. Санкт-Петербург, «Петербургское востоковедение», 1996.

13. Страна Аратта в Шумерских источниках.- russia.armenia.info/node/43301.

14. Хрестоматия по истории Древнего Востока. Москва, «Восточная литература», 1963.

## *§ 3. Azərbaycanda Lullubi, Kuti və digər sülalələrin hakimiyyəti.*

Azərbaycan dövlətində Aratta və ya Sukuşşirannalılar sülaləsinin süqutundan sonra hakimiyyətə Lullubilər sülaləsi gəldi. Mənbələrdə bu sülalənin hakimiyyətinin e.ə. XXIII əsrin ikinci yarısı ilə bağlı dövrünə dair məlumat qalıb. Arattalıların vaxtında olduğu kimi, bu sülalənin də dövründə ölkənin mərkəzi əyalətini Urmiya gölünün cənub sahillərindəki ərazi təşkil edirdi. Tarixi ədəbiyyatda işlədilən "Lullubi dövləti" ifadəsi yanlışdır, məsələnin mahiyyəti Azərbaycan dövlətində yeni, Lullubilər sülaləsinin hakimiyyətə gəlməsindən ibarətdir. Məsələ Arattalılar sülaləsinin rəhbərliyi ilə Azərbaycan dövlətinin əsasının qoyulması və sonradan beş min il ərzində bu dövlətdə sülalələrin bir-birini əvəz etməsi şəklində qoyulmalıdır.

Lullubi soyu haqqında ilk dəfə e.ə. XXIII əsr akkad mənbələrində məlumat verilib. Bu adı hurrilər lullu, urartlar lulu şəklində işlətmişlər. Urartu dilində "düşmən", "yad" mənalarını verdiyi bildirilib. Lullubi forması akkad dilində işlədilib, "bi" şəkilçisinin elam dilində cəmi göstərdiyi qeyd olunub. Lakin "bi" şəkilçisinin türk-şumer mənşəli olduğu daha doğrudur [5, s.174-175]. Digər versiyaya görə, lulu forması lu-"adam", lulu-"adamlar" mənası ilə izah edilir. Lulu sözünün şumer-türk mənşəli olması daha məntiqlidir. Türk dillərindəki el, ulu, ulus sözləri "Lulu" ifadəsi ilə əlaqəli olmuşdur. Lulluların başqa dilə, etnosa yaxınlığı ilə bağlı hər hansı bir fakt yoxdur. Olan faktlar onların türkmənşəli olduğunu göstərir [5, s.178-180].

Lullubilərin vaxtında da Arattalıların dövründə olduğu kimi dövlətin ərazisi Urmiya gölünün cənubundan şərqə indiki Zəncana qədər uzanırdı, qərb istiqamətində isə ərazi genişlənərək indiki İraqın Süleymaniyə şəhərinə (Kərkükün yaxınlığında) çatmışdı [17]. Lullubi mədəniyyət nümunələri bir çox yerlərdə tapılıb. Bağdadla Həmədan arasında Sarıpul deyilən yerdə aşkar edilən abidədə Lullubi sülaləsindən hökmdar Anubanini əks olunub, o, qalib görünüşü ilə ayağını əsirin üzərinə qoyub. Bu Lullubilərin hakimiyyətinin cənub-qərbdə Həmədana qədər çatdığını göstərir.

Burada bir vacib nəticəni diqqətə çatdıraq. Tarix elmi bəzən obyektiv nəticəyə gəlmək üçün iki metodu birləşdirir. Bunlardan biri bu gündən qədimə, digəri isə qədimdən bu günə doğru hərəkəti nəzərdə tutur. Biz qədimdən bu günə hərəkət edərək deyirik ki, Urmiya gölündən şərqə doğru Zəncana qədər, cənuba doğru Həmədana qədər, qərbə doğru Süleymaniyə-Kərkük xəttinə qədər əcdadlarımız yaşayıb, bu günümüzdən üzümüzü qədimə doğru tutub bildiririk ki, həmin ərazilərdə bu gün Azərbaycan türkləri yaşayır. Deməli, beş min ildir ki, eyni etnos eyni ərazidə yaşayır və eyni ərazi eyni etnosa aiddir.

Lullubilər dövrünə aid digər abidələr indiki İranın Persepol və Suz şəhərləri arasındakı ərazilərdə də tapılıb. Bu abidələrdə Şumer mədəniyyətinin təsiri hiss olunur [14]. Bu mənbələr həm dövlətin qələbələrindən, həm də əhatə etdiyi ərazilərdən xəbər verir. Lullubi sülaləsinin dövründə də Azərbaycanda lullubilərlə yanaşı, turukki, su, həmçinin ikiçayarasından vətənə qayıtmış şumer soyları birlikdə yaşayır, əhalinin əsas hissəsini təşkil edirdilər.

Lullubi sülaləsindən tarixdə adı çəkilən ilk hökmdar Satuni (e.ə. 2230-2200) olub. Satuni e.ə. 2220-ci illərdə Akkad dövlətinə qarşı hərbi yürüşlərə başladı, onların hökmdarı Naram-Suenlə fasiləsiz savaşlara girdi. Akkad hökmdarı Naram-Suen Urmiya gölü tərəfdən gələn bu "amansız düşmənlərə" qarşı çox çətinliklə mübarizə apardığını etiraf edirdi. Lakin sonda Satuni məğlub oldu və geri çəkilməli oldu, akkadlar müstəqilliklərini qoruyub saxlaya bildilər [12, s.120]. Sülalənin növbəti nümayəndəsi İmmaşqun (e.ə. 2200-2170) yerli hakimlərin hamısını birləşdirdi və mərkəzi hakimiyyəti möhkəmləndirdi. Yerli hakimləri öz hakimiyyəti altında birləşdirdiyinə, mərkəzdənqaçma meyillərini aradan qaldırdığına görə "padşahlar padşahı" adlandırılırdı [6, s.336].

Anubanini (e.ə. 2170-2150) hakimiyyətə gəldikdən sonra dövlətin qüdrəti bir qədər də artdı, yeni ərazilər ələ keçirildi, o cümlədən dövlətin əraziləri cənubda indiki Fars (Kəngər) körfəzinə qədər (təxminən Zaqros dağlarına, Xuzistan vilayətinə qədər) uzandı [2, s.67-68]. Anibanini siyasi və hərbi nailiyyətlərini, o dövrdə Şumer və Akkad ənənələrinə uyğun olaraq, daş plitələr üzərində həkk etdirirdi. Yuxarıda qeyd etdiyimiz kimi, belə abidələrdən biri indiki İranın Zöhab şəhəri (Kirmanşah vilayəti) yaxınlığında Sarıpul deyilən yerdə aşkar edilib. Həmin daş sütunun üzərində qeyd olunub: "Anubanini, qüdrətli hökmdar, lullubili hökmdar öz təsvirimi və İştar ilahəsinin təsvirini Batır dağında qoydurdum" [1]. Bu abidə Anubaninin həm qüdrətini, həm də nəzarət etdiyi əraziləri göstərir.

Lullubilər də Aratta dövründə olduğu kimi İkiçayarası mədəniyyətinin təsirinə məruz qalmışdılar. Onlar da mixi yazı sistemi ilə tanış idilər. Lullubilər hakimiyyətdən getdikdən sonra da siyasi və hərbi amil kimi uzun müddət tarix səhnəsində qaldı, onlar e.ə. II minillikdə Assuriya mənbələrində "Lullubi ölkəsi", "Lullubilər" və digər formalarda yad edilir [7, s.13, 14].

E.ə. III minillikdə Urmiya gölünün qərb və cənub-qərb sahillərindən Zaqros dağlarına qədər ərazilərdə qədim Azərbaycan soyları, kutilər (qutilər) hərbi-siyasi gücə çevrilirdi. "Kuti" sözü mixi yazılarında çox vaxt "ku" şəklində qeyd olunur, bu isə türk dilində "ağbəniz", "ağımtıl" mənasını verir, "ti" isə cəm şəkilçisidir [2, s.82]. Bu ərazilərdə Lullubilər sülaləsinin hakimiyyəti nominal xarakter daşıyırdı. Lullubi hakimiyyəti kutilərin nisbi müstəqilliyi ilə hesablaşırdı, onlar çox vaxt əsas düşmənə, Akkad dövlətinə qarşı birlikdə, yaxud ayrı-ayrılıqda çıxış edir, döyüşürdülər. Məsələn, Akkad hökmdarı Naram-Suen təxminən e.ə. 2236-2201-ci illərdə hakimiyyətdə olub. Həmin vaxt Azərbaycan dövlətinə Lullubilərdən Satuni (e.ə. 2230-2200) rəhbərlik edirdi, kutilərin isə rəhbəri Erridupizir (Enridavazir də deyilir) (e.ə. 2225-2205) idi. Onların hər ikisi Naram-Suenə qarşı vuruşmuş, lakin qələbə əldə edə bilməmişdilər. Naram-Suen daha çox kutilərdən də şikayət edir, onlara qarşı göndərdiyi qoşunların məhv edildiyini, "bir nəfərin də geri sağ qayıtmadığını" bildirirdi. Azərbaycanın qatı düşməni yalnız e.ə. 2201-ci ildə kutilər tərəfindən döyüşdə öldürüldü. Bu vaxt kutilərə İmta rəhbərlik edirdi [10; 7, s.9-11].

Kutilər bu dövrdə Akkadlara qarşı daha fəal idilər. Onlar həm düşmənin hücumlarının qarşısını alır, həm də əkshücumlar təşkil edirdilər. Bu hücumlar kuti rəhbəri Sarlaq, Jarlaqaş və digərlərinin dövründə davam etdirilirdi, nəhayət Elulumeş (e.ə. 2177-2171) e.ə. 2175-ci ildə akkadlar üzərində tam qələbə qazandı və İkiçayarasında hakimiyyətini qurdu. Kutilərin İkiçayarasında hakimiyyəti təxminən 100 il davam etdi [15]. Onlar paytaxt olaraq qədim Azərbaycan torpağında Arrapha (indiki Kərkük) şəhərini seçdilər. Lullubilərin nümayəndəsi qüdrətli Anubanini e.ə. 2150-ci ildə vəfat etdikdən sonra kutilər sülaləsi İkiçayarası da daxil Azərbaycan dövlətində hakimiyyətə gəldi. Kutilər Akkad dövlətini məğlub etməklə qonşu və qohum Şumerlərin də intiqamını aldılar.

Burada ən vacib məqam qeyd olunmalıdır. Anibanini vəfat etdikdən sonra (e.ə. 2150-ci il) lullubi sülaləsindən başqa bir nümayəndənin adı çəkilmir. Soy olaraq e.ə. II-I minilliklərdə lullubilər yad olunur, onların hərbi-siyasi proseslərdə rolu qeyd edilir. Amma hakimiyyətdə təmsil olunmaları ilə bağlı fakta rast gəlinmir. Hakimiyyət Kutilər (qutilər) sülaləsinin simasında təmsil olunur. Bir çox kitablarda məsələnin "dolaşıq" olduğu bildirilir, lakin dolaşıqlığa aydınlıq gətirilmir, hər kəs eyni formatda dolaşıq, qarışıq informasiyaları verməkdə davam edir. İlk baxışda görünən dolaşıqlıq ondan ibarətdir ki, Lullubilərin hakimiyyətini Urmiya gölünün cənubuna, Kutilərin hakimiyyətini isə həmin gölün cənub-qərbi və qərbinə aid edirlər. Əslində deyilən torpaqlar eyni və yaxud çox yaxın ərazilər idi. Azərbaycan dövlətçiliyinin təməli də bu vahid ərazidə qoyuldu, Arattalılardan sonra dövlətə əvvəlcə Lullubilər,

sonra isə Kutilər rəhbərlik etdi. Digər tərəfdən, çox vaxt belə bir ifadə işlədilir ki, "e.ə. II minillikdə Lullubi dövləti parçalandı, "çoxlu lullubi hökmdarları" meydana çıxdı". Əslində "Lullubi dövləti"nin parçalanmasından deyil, Azərbaycan dövlətində lullubiləri kutilərin əvəz etməsindən, yalnız kutilərin zəifləməsindən sonra parçalanma, xırda yerli hakimiyyətlərin yaranmasından bəhs edilməlidir. Bir daha qeyd edirik ki, iki ayrı-ayrı dövlət deyil, iki sülalənin bir-birini əvəz etdiyi vahid Azərbaycan dövləti mövcud olmuşdur.

Kuti hökmdarı Erridupizirin dövrünə (e.ə. 2225-2205) aid məlumatlarda Urmiya gölü hövzəsində "70 hökmdar"ın olmasından, onların ittifaq yaratmasından danışılır [8]. Bu məlumatı verən akkad mənbələri öz dövlətlərinə qarşı böyük qüvvələrin dayandığını diqqətə çatdırmaq məqsədi ilə təhrifə yol verirlər. Həmin vaxt 70 hökmdardan yox, vahid Azərbaycan dövlətindən danışıla bilərdi. Həmin akkad mənbələrində başqa bir maraqlı məqam da diqqəti cəlb edir. Orada Urmiya gölü ətrafındakı etnoslar Ummanmanda- "Manda ordusu" adlandırılır [8]. "Manda" sözü həmin vaxtdan min il sonra tariximizdə yer alan "Manna" adının ilkin işlənmə forması kimi qəbul oluna bilər.

Kutilərin hakimyyəti illərində İkiçayarasının iqtisadiyyatı və ticarəti yeni inkişaf mərhələsinə qədəm qoydu. Kutilər İkiçayarası mədəniyyəti dairəsinə cəlb olundular. Kuti hökmdarlarının qısa mətnli kitabələri mixi yazılar ilə tərtib olunmuşdur. Onlar da aya, bərəkət və məhəbbət ilahəsinə sitayiş edirdilər. Kuti hökmdarı Tirikanın vaxtında İkiçayarasında qiyam baş verdi və kutilərin İkiçaya-

rasında hakimiyyətinə təxminən 100 il sonra, e. ə. 2104-cü ildə son qoyuldu [11].

E.ə. III minilliyin sonlarında Kutilər sülaləsinin məğlubiyyətindən sonra digər Azərbaycan soylarından kas (kassi), su, turukkilər hərbi-siyasi proseslərdə daha fəal iştirak edirlər, qismən lullubi, kutilərin də rolu mənbələrdə qeyd olunur. Bu soylar e.ə. II minillik ərzində hərdən güclənmiş, hərdən zəifləmişlər, lakin qonşu dövlətlərin Azərbaycanı zəbt etməsinə imkan verməmişlər. Şumerlərin süqutundan sonra onların əraziləri-İkiçayarasının (Mesopotamiyanın) cənubu Akkad dövlətinin nəzarətinə keçmişdi. Onlar əvvəlcə İkiçayarasının mərkəzi və şimalında yerləşirdilər, Şumerləri məğlub etdikdən sonra, demək olar ki, bütün İkiçayarasına nəzarət edirdilər. Kutiləri devirdikdən sonra akkadların hakimiyyəti uzun çəkmədi, e.ə. III minilliyin son illərində cənub-şərq qonşuları elamlılar tərəfindən onların dövlət kimi mövcudluğuna son qoyuldu. Elam dövləti (indiki İranın Xuzistan və Luristan bölgələrində mövcud olub, mərkəzi Suz şəhəri idi) uzun müddət əraziyə nəzarət edə bilmədi. E.ə. II minilliyin əvvəllərində İkiçayarasının şimal hissəsi assurların, mərkəzi və cənubu isə babillərin nəzarətinə keçdi, onların hər ikisi sami nəslindən idi.

Azərbaycan sülalələri bu illərdə məhz Assur və Babil dövlətləri ilə mübarizə aparır, onların müdaxilələrinə imkan vermirdi. Müəyyən dövrlərdə isə Azərbaycan soyları hər iki dövlətə qarşı əkshücumlara cəhd edirdi. Bu mənada kaslar daha fəal idi. Onlar Babili tutmağa cəhd edirdilər. E.ə. XVIII əsrdən başlayaraq bir neçə dəfə belə təşəbbüs edilmişdi. Həmin vaxt Babildə məşhur hökmdarları

Hammurapi (e.ə. 1792-1750) hakimiyyətdə idi [4]. Həmin vaxt və ondan sonrakı dövrdə kaslar Babilin müqavimətini qıra bilmədi. Yalnız e.ə. 1595-ci ildə buna nail oldular. Azərbaycan kas sülaləsi Babildə hakimiyyətə gəldi və e.ə. 1155-ci ilə qədər, 400 ildən artıq dövr ərzində orada hökmran oldu. Kasların Babildə hakimiyyəti ələ almış ilk nümayəndəsi II Aqum (e.ə. 1595-1571) özünü "Kassilərin (kasların), Akkadların, Babillərin, Kutilərin hökmdarı" adlandırırdı [9, s.104]. Kas soyunun nümayəndəsinin bu təşəbbüsü kuti, kas kimi Azərbaycan sülalələrinin varislik əlaqələrini göstərirdi. Kasların Babildə hakimiyyətinə yenidən güclənən elamlılar son qoydular [5, s.73].

Lullubi, kuti, kassi soyları ilə eyni vaxtda regionda turukki, su soyları da fəal olmuşlar. Onlar bir müddət Urmiya gölü sahillərində lullubilərlə bir tayfa ittifaqında birləşmiş, birlikdə fəaliyyət göstərmişlər. Turukkilər Cənubi Azərbaycan ərazisində və Xəzərin cənub hissəsində yaşamışlar [2, s.67]. Kuti sülaləsinin hakimiyyətdən getməsindən sonra turukkilər daha çox Xəzər dənizinin cənubunda cəmləşdilər, özlərinin hərbi-siyasi birliklərini gücləndirdilər.

Turukkilərin adı bizə Assur mixi yazılarında gəlib çatmışdır [3, s.40]. Su tayfaları əsasən Zaqros dağlarında və Urmiya gölünün cənubunda yaşamışlar. Onlar da həmişə lullubi və turukkilərlə ittifaqda olmuşlar [5, s.170].

E. ə. II minilliyin əvvəlində Urmiya gölü hövzəsində yaşayan turukki və su tayfalarının müstəqil fəaliyyəti başlayır. Onlar əvvəlki dövrlərdə Aratta, sonra isə Kuti və Lullubi sülalələrinin hakimiyyəti altında idilər. Onlar süquta uğradıqdan sonra turukki və su tayfaları İkiçaya-

rası hadisələrinə müstəqil surətdə qarışmağa imkan tapdılar [16]. Onların bu hücumları İkiçayarasının şimalında yaranmış Assur dövlətinin sərhədlərində təhlükə yaradırdı. Assur hökmdarı I Şamşi-Adad (e. ə. 1813-1783) turukkilərə qarşı hərbi yürüş təşkil etdi. Lakin bu tayfaların müdaxiləsinin qarşısını ala bilmədi. Turukkilər Assurların nəzarəti altında olan Şumer vilayətində yerləşdilər. Turukkilərin bir hissəsi Assurlarla sülh bağladı.

E.ə. II miniliyin əvvəlində Azərbaycan tayfalarını ayrı-ayrı başçılar, yaxud xırda rəhbərlər təmsil edirdilər. Turukkilərin bir neçə, lullubilərin isə çox hökmdarı var idi. Erkən Azərbaycan dövləti artıq parçalanmışdı, ayrı-ayrı xırda hökmdarların hakimiyyəti bərqərar olmuşdu. Bu dövrdə güman ki, turukki, lullubi, kuti və başqa tayfaların ittifaqı mövcud idi [13, s.18-19]. E. ə. XIII əsrin sonlarında Assuriya hökmdarlarına aid mənbələrdə Azərbaycanın Kassi, Kuti, Lullubi, Subari, Mehri, Nairi ölkələrinin adları çəkilir [7, s. 12-14].

Beləliklə, e.ə. III minilliyin birinci yarısında əsasən Urmiya gölünün sahillərində, tarixi torpaqlarımızda ilk Azərbaycan dövlətinin təməli qoyuldu, dövləti ardıcıl olaraq Arattalı, Lullubi, Kuti sülalələri idarə etdi, təxminən min ilə qədər bir dövr ərzində vahid dövlət mövcudluğunu davam etdirdi, e.ə. III minilliyin sonu-II minilliyin əvvəllərində hakimiyyətin zəifləməsi nəticəsində mərkəzdənqaçma meyilləri gücləndi, Azərbaycan ərazisində xırda hərbi-siyasi birliklər yarandı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan dövlətçilik tarixində qədim dövlətlər.- anl.az/down/meqale/ses/2012/iyul/ ses19/html.

2. Azərbaycan tarixi, I cild (Z. Bünyadov və Y. Yusifovun redaktəsi ilə). Ali məktəblər üçün dərslik. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

3. Cəlilov F. Azər xalqı, II nəşri. Bakı, "Ağrıdağ", 2000.

4. Əlizadə A. Qədim Babil: tarix, mədəniyyət, elm və astrologiya.- alizadeh.narod.ru/ meqaleler/10.html.

5. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, "Təhsil", 2003.

6. Kazımov Q. Seçilmiş əsərləri, I cild. Bakı, "Nurlan", 2008.

7. Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə. Bakı, "Təhsil", 2006.

8. Ömərov V. Azərbaycan dövlətçilik tarixində qədim dövlətlər.- "Səs" qəzeti, 2012, 12 iyul, s. 14.

9. Yusifov Y.B. "Qədim Şərq tarixi". Bakı, "Bakı Universiteti", 1993.

10. ABC19 (Weidner Chronicle)/- livius.org/sonrses/content/mesopotamian-chronicles-content/abc-19-weidner-chronicle/, sətir 54-57.

11. Алимирзоев А. Н. Из политической истории кутиев.- Вестник Дагестанского государственного университета. Серия 2. Гуманитарные науки, 2019, т. 39, вып. 1, s.14.

12. Боттеро Ж и др. Ранние цивилизации Ближнего Востока. История возникновения и развития древнейших государств на земле (Перевод с англ. А.Б.Давыдовой, С.В.Иванова, Москва, ЗАО Центрполиграф, 2016.

13. История Азербайджана (с древнейших времен до первых десятилетий XXI века). Издательство "Bakı Universiteti". Баку, 2016.

14. Леонидов А. Луллубейство-феномен древней истории.- knizhnyj-larek.ru/news/ aleksandr-leonidov-lullubejstvo-fenomen-drevney-istorii/.

15. Минков А. Эпоха кутиев.- murzim.ru/religija/23146-epoha-kutiev.html.

16. Часть v. Прототюрки в Азербайджане.- vk.com/wall-88752091_11306.

17. Юсифов Ю.Б. Топонимия Древнего Азербайджана в клинописных источниках. Москва, 2006.

## *§ 4. Dil, etnos və mədəni dəyərlərin formalaşması.*

E.ə III-II minilliklərdə Azərbaycanda etnik, dil, dini-ideoloji proseslər sürətlə inkişaf edir, kifayət qədər aydın mənzərə yaranırdı. Əvvəlki dövrdə ulu dilin protodillərə bölünməsi özünü daha konkret şəkildə göstərdi. Bu dövrlə bağlı prototürk, protoazərbaycan reallığı birmənalı olaraq qəbul edilməlidir. Müxtəlif fikirlərin, bəzən təhriflərin yer aldığı məsələlərdən biri protoazərbaycan dili ilə şumer dili arasındakı əlaqələrlə bağlıdır. Bəzi alimlər iki fərqli dilin qonşuluqda fəaliyyət göstərdikləri və buradan da bir-birinə təsir etdikləri fikrini irəli sürür, şumer dilində türk sözlərinin olmasını bununla izah edirlər. Müxtəlif alimlərin tədqiqatları ilə şumer dilində 200-dən çox türk mənşəli söz aşkar edilib. Məsələn, ada-ata, ama-ana, bilga-bilgə (müdrik), bal-balta, dingir-tengir, de-demək, duru-duru, eren-ərən, en-ən, lu-ulu, ud-od, udun-odun və sair kimi sözləri göstərmək olar [6, s.136-141]. Bu faktlara söykənən alimlər "qonşuluq təsiri" variantına üstünlük verir.

Digər alimlər isə bu faktı hər iki dilin eyni kökdən olması, şumerlərin də türk mənşəli olmaları ilə izah edir. Bu mövqe reallığa uyğun və daha inandırıcıdır. Dünyanın bir çox tanınmış mütəxəsisləri şumer dilinin türk dilinə qohum olduğunu müdafiə edir, bildirirlər ki, “şumer dili əsas əlamətlərinə görə türk dillərinə uyğundur” [14, s.6-7], bu dildə “İran və sami dillərinə xas cizgilər yoxdur, əksinə, Turan, Ural-Altay dilləri ilə bir qohumluq var” [17, s.466], “öz quruluşuna görə ən çox türk dilləri ilə müqayisə edilə bilər” [16, s.150], “əski türkcəyə bənzər bir dildir” [4, s.10,58-59], “təmiz Azəri türkcəsidir” [10, s.24,409].

Azərbaycanın ən qədim sakinlərindən biri prototürklər olmuş, onlar ümumi danışıq dili olan türk dilindən istifadə etmişlər. Böyük ehtimalla prototürklər bu zaman nəinki qədim Azərbaycanın, həmçinin Anadolu yarımadasının və Orta Asiyanın sakinləri olmuş və tədricən şimala doğru hərəkət etmişlər [2, s.78].

Dünya qəbul etmək istəmir ki, tarix türklərdən başlayır, qədimdə nə olubsa, hamısının kökündə türklər dayanıb. Buna əyani şahid olmaq üçün yunanlar, qədim italyanlarla bağlı hadisələrə qısa ekskurs edək. Türk tayfaları e.ə. III minillikdə, Azərbaycanda dövlətçiliyin əsasının qoyulduğu təxminən eyni tarix kəsiyində indiki yunan torpaqlarında yaşamış, yunanlar hələ oraya gəlməmişdən, e.ə. III-II minillikdə dövlət yaratmış, e.ə. II minilliyin əvvəllərində yunanlar gələn dövrdə həmin əraziləri tərk edərək, indiki İtaliya, Egey adaları və Qərbi Anadoluya keçmişlər [1, s.3]. İtaliya ərazisində təxminən e.ə. XX əsrdə iki türk tayfası- turlar (Turan sözü buradandır) və sakalar birləşərək tursakaları (etruskları) meydana gətirdilər və

dövlətlərini qurdular [1, s.7]. Böyük ehtimalla, Azərbaycanın qədim tayfalarından turukkilərlə etrusklar qohum idilər [6, s.171].

Bu yerdə antik dövrün sirli xalqlarından sayılan troyalıların, trak və etruskların türk mənşəyi ilə bağlı kifayət qədər faktın olduğu qeyd edilməlidir. Yeni eranın XIII-XIV əsrlərinə aid Skandinaviya coğrafiya əsərlərində Kiçik Asiyadan şimala-Skandinaviya ölkələrinə gəlib məskunlaşmış türklərdən, onların rəhbəri Odin oğlu Tordan bəhs olunur. Skandinaviyanın bəzi mənbələrində Odin oğlu Torun rəhbərliyi altında gəlmiş bu xalq "troyalılar" adlandırılır. Etrusklarla bağlı xüsusi olaraq vurğulanmalıdır ki, onların işlətdikləri alp, alpan, tanra (ı) və sair dini, əfsanəvi ifadələr eyni formada bütün türklər tərəfindən də işlədilmişdir [7, s.182-183].

Obyektivlik naminə, qeyd edilməlidir ki, Şərqi Anadolu, Ön Qafqaz və Şimali İkiçayarası hindavropa tayfalarının da ilk vətəni olmuşdur. E.ə. V-IV minilliklərdə burada ümumi hindavropa (protohindavropa) dili mövcud olmuş, e.ə. IV-III minilliklərin hüdudlarında bu dil dialektlərə, ləhcələrə parçalanmış, təxminən həmin vaxtda qərbə, şimala, şərqə doğru hərəkət etmişlər [2, s.83]. Hindavropa, türk, sami, Qafqaz və başqa dil ailələrinin ilkin məkanı Ön Asiya olmuşdur, onlar burada bir-birinin qonşuluğunda yaşamış, bir-birinin dillərini zənginləşdirmişlər. Hindavropalılar oranı e.ə. IV minillikdə tərk etməyə başlamış və e.ə. VIII əsrdə qismən geriyə dönüş etmişlər [6, s.173].

Mövzu ilə bağlı bəzi etnonim və toponimləri də nəzərdən keçirək. Kuti, lullubi, kas (kassi) və digər tayfa və sülalələrin adları əsasən türkdillidir [9, s.50]. E.ə. III minil-

liyə aid “turukki” sözü “türk” etnoniminin qədim forması idi. Lullubi, kuti və digər adlar onlara əsasən qonşular və yaxud regiona yürüşlər edən xalqlar tərəfindən verilmişdi. Lakin bu kənar adların özləri də eynidilli tayfalar arasında yarana bilərdi [2, s.238]. Qədim dövrün tarixi, dilləri ilə məşğul olan alman alimi Benno Landsberger və türkiyəli mütəxəssis Kemal Balkan kutilərin türk olduqlarını, onların hökmdar adlarının türk mənşəli olduğu qənaətindədirlər [6, s.170]. Mütəxəssislər onu da vurğulayırlar ki, Azərbaycanın kas (kassi) tayfasının, sülaləsinin adı “sak” tayfa adının ilkin formasıdır. Skif, skolot, işquz, aşquz sözləri də sak sözünün tələffüz variantları və sakların tayfa bölümləridir. Kasların (kassilərin) çox qədim, bəlkə də bütün tayfalardan daha qədim olmaları ilə bağlı fikir mövcuddur. Hesab olunur ki, saklar onların sonrakı nəsillərindəndir [6, s.188]. Prototürklərin bir qismi e.ə. IV minilliyin sonu- III minilliyin əvvəlində şumerlərlə yaxın ünsiyyətə girmiş və şumer dilinə təsir göstərmişdir. Bu, eyni kökdən olan dillərin qarşılıqlı təsiri kimi dəyərləndirilməlidir. İlk şumerlər Azərbaycan əhalisi, Aratta-“dağ” sözünü işlədən etnoslarla siyasi, iqtisadi, mədəni əlaqələr yaratmışlar. E.ə. III-II minilliklərdə Azərbaycanda türk tayfaları yaşayırdı. Bir daha qeyd edirik ki, bunu yer və şəxs adları aydın şəkildə göstərir [2, s.232]. Eyni zamanda türk dilinin şumer və hindavropa dillərindəki izləri ulu, kök dilin olması ilə, dünya dillərinin mənşə birliyi ilə əlaqədar idi.

Prototürk və protoazərbaycan ifadələri eyni mənada işlədilir. Diqqəti Azərbaycan ərazisində gedən proseslərə, “Azərbaycan” adının bütün dövrlər üçün keçərli olduğu-

na yönəltmək məqsədi ilə e.ə. III minillikdən başlayaraq ərazilərimizdə yaşayan tayfaların, hakimiyyətdə olan sülalələrin dillərinin prototürk yox, protoazərbaycan adlandırılması daha məqsədəuyğundur. Çünki onlar eyni ərazidə, Azərbaycan ərazisində, dövlət halında yaşamış və bir xalq kimi birləşməyə, fərqlənməyə başlamışlar [6, s.194]. Bu dövrdə ərazilərimizdə yaşayan əhali Azərbaycan xalqı olaraq formalaşmışdı. Bu vaxtdan protoazərbaycan dilinin dövrü başlayır. Azərbaycanda yaşayan türk tayfalarının dili gələcək vahid Azərbaycan dilinin əcdadı kimi formalaşır, tədricən inkişaf edir. Bu proses e.ə. I minilliyin ortalarına qədər davam edir [6, s.194].

Bu gün dilimizin türk dillərinin oğuz qrupuna aid olduğu hamı tərəfindən qəbul olunur. Lakin oğuz dillərinin tarixini həddindən artıq qısaldır, yeni eranın I minilliyinin ortaları ilə məhdudlaşdırırlar. Bu anlaşılmazlıq aradan qaldırılmalıdır. Məlumdur ki, Azərbaycan dili oğuz və qıpçaq ləhcələri əsasında təşəkkül tapmışdır [5, s.3-14]. Tamaz Qamkrelidze, Vyaçeslav İvanov, Yusif Yusifov kimi tanınmış alimlər hesab edirlər ki, oğuzlar çox qədimdən Azərbaycan ərazilərində yaşayıb, e.ə. III minillikdə Ön Asiya, o cümlədən Azərbaycanın cənub torpaqlarından ayrılaraq Mərkəzi Asiyaya hərəkət edən toxar/tükər tayfalarının bir hissəsi türkdilli oğuzlar olub [2, s.81-82]. Aşquzay, işquzay, skif, skolot deyilən türk tayfaları oğuzlardır [6, s.422]. Azərbaycan dilinin təməlində dayanan oğuz və qıpçaq ləhcələrinin arasında da elə ciddi fərq olmayıb, onlar bir-birini tamamlayaraq Azərbaycan dilini meydana gətiriblər. Türk dilinin oğuz və qıpçaq ləhcələri bir-birindən ciddi fərqlənməmişdir [11, s.156-157].

Azərbaycanın qədim əhalisi ilə bağlı ərəb mənbələrindəki bəzi məqamları qeyd etmək faydalı olardı. Yeni eranın VIII-IX əsrlərində yaşamış ərəb müəllifi Əbdülməlik ibn Hişam "Himyər hökmdarları barədə taclar kitabı" adlı əsərində xəlifə I Müaviyyə (661-680-ci illər) ilə onun müasiri Übeyd ibn Şəriyyə əl-Curhumi arasında bir söhbəti qələmə almışdır. Həmin söhbətin məzmunu belədir: Übeyd ibn Şəriyyə nəql edir ki, Yəmən padşahı ər-Raiş zamanında onun sərkərdələrindən biri türklərlə döyüşə-döyüşə Azərbaycana daxil oldu. Döyüş nəticəsində türklər məğlub oldular... Həmin sərkərdə döyüş və keçdiyi yolla bağlı məlumatı (Azərbaycanda.- A.N) iki daş üzərinə yazdırdı... Bu yerdə Müaviyyə Übeyd ibn Şəriyyədən Azərbaycan haqqında soruşur: Azərbaycan haqqında əlaqəniz, təlaşınız və xatirəniz nədir? Übeyd ibn Şəriyyə belə cavab verir: Ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri ilə qarışmış və təkmilləşmişlər [3, s.56-57]. XII əsrin əvvəllərinə aid başqa bir anonim fars mənbəyində də qeyd olunur ki, "Azərbaycan qədimdən türklərin əlində olan bir ölkədir" [13, s.183].

Tədqiqatçılar Yəmən hökmdarı ər-Raişin Musa peyğəmbər və Firdovsinin təsvir etdiyi əfsanəvi hökmdar Mənuçöhrlə eyni vaxtda yaşadığını göstərir. Onların yaşadığı dövr isə təxminən e.ə. XIV-XIII əsrlərə aid edilir. Deyilənlər həmin vaxtlarda Azərbaycanda türklərin əksəriyyət təşkil etdiyini göstərir [8].

Bu dövrdə artıq müəyyən mədəniyyət nümunələrini də qeyd etmək olar. Bu nümunələr qədim əcdadlarımızın yaradıcılıq bacarığı, düşüncələrini müəyyən formalarda təsvir etmək qabiliyyətlərini göstərirdi. Qobustan qədim

yaşayış məskənində mezolit dövrünə aid 6 mindən artıq qayaüstü rəsm vardır. Bunlar daha çox ilkin incəsənətin çiçəklənmə dövrü hesab edilən eneolit mərhələsinə aid idi. Bu rəsmlərdə dini və bədii görüşlər əks etdirilmişdir. Burada kişi və qadın, balıqtutma səhnəsi, vəhşi heyvanlar, xalq rəqsi "Yallı"nı xatırladan səhnə və sair əks etdirilib [12].

E.ə. IV minilliyin ortalarında Leylatəpə (Ağdam) mədəniyyəti mövcud olmuşdur. Keramik qablarda dəfn bu mədəniyyət üçün xarakterikdir. E.ə. IV-III minilliklərdə Kür-Araz mədəniyyəti yer almışdır. Bu mədəniyyət yerli filiz yataqlarının geniş istifadəsi, metalişləmə sənətinin inkişafı ilə səciyyəvidir. Bu dövrdə həmçinin dulusçuluq inkişaf etmişdir [2, s.59-60]. Son tunc dövründə Muğan düzünü əhatə edən Muğan mədəniyyəti mövcud olmuşdur. Bu mədəniyyət üçün tunc qılınclar, xəncərlər, həmçinin ornamentsiz boz rəngli qablar xarakterikdir [15]. Naxçıvan ərazisində son tunc dövrünə aid boyalı qablar mədəniyyəti olmuşdur. Xocalı-Gədəbəy mədəniyyətinin bir hissəsi də bu dövrü əhatə edir.

Azərbaycan əhalisi bu dövrdə artıq yazı mədəniyyəti ilə də tanış idi. İnsanlar neolit dövründə primitiv yazı-piktoqramlardan (şəkil yazılar) istifadə etməyə başlamışdılar. Ondan sonra e.ə. IV-III minilliklərdə mixi yazılar meydana gəlmişdir. Mixi yazılardan ilk dəfə şumerlər istifadə etmiş, sonralar onlardan yazını akkadlar, elamlar, urartlar və digərləri mənimsəmişlər [6, s.174]. Azərbaycan əhalisi bu tayfalarla qonşuluqda yaşamış, mixi yazılardan istifadə etmişlər. Təəssüf ki, Lullubi və Kuti sülalələrinin bəzi təmsilçilərinə aid epizodik faktlardan başqa mixi ya-

zılarından geniş istifadə ilə bağlı hələlik məlumatlar yoxdur. E.ə. II minilliyin sonunda isə ilk əlifbalı yazı meydana gəldi. Finikiyada (indiki Livan ərazisi) ilk əlifba yarandı, onun əsasında sonradan arami, latın, yunan, ərəb və sair əlifbalar meydana gəldi.

Beləliklə, e.ə. III-II minilliklər ərzində Azərbaycanda etnik və dil proseslərinin növbəti mərhələsi davam etdi. Ümumi danışıq dili formalaşdı, etnik mənsubiyyət məsələləri kifayət qədər aydınlaşdı. Azərbaycanda türk, hindavropa, Qafqaz mənşəli etnoslar, böyük ehtimalla əsasən qonşuluqda məskunlaşmış sami tayfalarının da nümayəndələri yaşayırdı. Ümumi ünsiyyət vasitəsi isə protoazərbaycan, prototürk dili əsasında formalaşmışdı. Ölkənin aparıcı etnosu prototürklər, protoazərbaycanlılar idi. Məhz bu dövrdə türklərin dominant rolu ilə türk, hindavropa, Qafqaz mənşəli etnosların bir-birlərinə qaynayıb-qarışması, bir-birlərini zənginləşdirməsi, qohumlaşması, cəmləşməsi ilə vahid Azərbaycan xalqının formalaşmasının ilk mərhələsi başlandı, ilk dini-ideoloji, mədəni, mənəvi birlik ünsürləri, xüsusiyyətləri yarandı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Ayda A. Etrusklar (Tursakalar) türk idiler. Ankara, 1992.

2. Azərbaycan tarixi, I cild (Z. Bünyadov və Y. Yusifovun redaktəsi ilə). Ali məktəblər üçün dərslik. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

3. Azərbaycan tarixi üzrə qaynaqlar. İkinci nəşr. Bakı, "Çıraq", 2007.

4. Cevat A. Alfabenin menşei en eski türk yazısıdır. İstanbul, "Marifet", 1933.

5. Dəmirçizadə Ə. Azərbaycan dilindəki oğuz-qıpçaq lisani ünsürləri. Bakı, Azərbaycan SSR EA Dilçilik İnstitutunun Əsərləri, I cild, 1947.

6. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, "Təhsil", 2003.

7. Qaraşarlı Ç. Troyalılar kimi idi? Məqalələr toplusu, IV. Azərbaycan Dillər İnstitutu. Bakı, 2000.

8. Qasımova A. Bakı Dövlət Universitetinin professoru. "Türklər-Azərbaycanın qədim sakinləri".- "525-ci qəzet", 2009, 25 iyun, s.7.

9. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

10. Nüvədili T.V. Əcdad. Sietl, BA, ABŞ, 1997.

11. Баскаков Н.А. Введение в изучении тюркских языков. Москва, «Высшая школа», 1969.

12. Бретаницкий Л.С., Веймарн Б.В. Очерки истории и теории изобразительных искусств. Искусство Азербайджана. Москва, «Искусство», 1976.

13. Буниятов З. Азербайджан в VII-IX вв. Баку, Изд-во АН Азерб. ССР, 1965.

14. Винклер Г. Западная Азия в древние времена (перевод с немецкого). В кн.: История человечества, т. 3. Санкт-Петербург, 1904.

15. Муганская культура.- archaeotourism.az/index.php?hang=ru&sectionid= 1&sect=15&action=full.

16. Редер Д.Г. Мифы и легенды Древнего Двуречья. Москва, «Наука», 1965.

17. Реклю Э. Человек и земля, т. 1 (перевод с французского). Изд. Брокгауз-Ефрон, Санкт-Петербург, 1906.

# II fəsil. Klassik dövlətçilik dövrünün başlanması

## *§ 1. Manna sülaləsinin hakimiyyətə gəlməsi.*

Müəyyən siyasi pərakəndəlik dövründən sonra Azərbaycanda e.ə. II minilliyin sonu - I minilliyin əvvəllərində yenidən güclü mərkəzi hakimiyyət formalaşdı. Həmin vaxta qədər siyasi-hərbi hakimiyyət əsasən kas (kassi), turukki, su, lullubi, kuti soyları ilə təmsil olunurdu. Bu soy və sülalələrin əsas xidməti ondan ibarət oldu ki, Azərbaycanın qonşu dövlətlər tərəfindən zəbt olunmasına imkan vermədilər. Onlar bu müqaviməti pərakəndə hərbi-siyasi qüvvələr kimi göstərir, lakin bir araya gələrək vahid mərkəzləşmiş dövlət yarada bilmirdilər. Ayrı-ayrılıqda yerli hakimlər, hərbi-siyasi birlik rəhbərləri fəaliyyət göstərirdi. Mənbələrdə onların adları Zamua, Gilzan, Allabriya, Missi, Manna, Parsua, Uişdiş, Qızılbunda, Uşkaya, Andia, Zikertu, Sanqibutu, Puluadi "ölkələri" kimi qalmışdır. Əslində isə, bunlar müstəqil ölkələr deyildi, Azərbaycanın yerli hakimlər tərəfindən idarə olunan əyalətlərinin adları idi. E.ə. I minilliyin əvvəllərində bu əyalətlərdən Manna ön plana keçdi, güc mərkəzinə çevrildi və Manna sülaləsi mərkəzi hakimiyyəti bərpa etməyə başladı. Təəssüf ki, yanlış yanaşma nəticəsində "Manna dövləti" ifadəsi işlədilmişdir. Manna dövləti deyil, Manna sülaləsinin rəhbərliyi altında Azərbaycan dövlətində mərkəzləşmiş hakimiyyətin bərpa edilməsi qeyd olunmalıdır. Assur mənbələrində "Manna" (Munna) ifadəsi daha çox tayfa mənasında işlədilir [1, s.222]. Bir qədər də dəqiqləşdirsək, "Manna" ifadəsi tayfadan daha çox yeni sülaləni bildirir.

Ona görə də "Manna dövləti", "mannalılar" deyil, "Manna sülaləsinin hakimiyyətdə olduğu Azərbaycan dövləti" ifadəsi doğrudur.

Yuxarıda qeyd olunan əyalət adlarının bir hissəsi türk dilində izah olunur: Qızılbunda-qızıl, qırmızı təpə; Uişdiş-beş diş; Uşkaya-üç qaya və sair [1, s.223]. "Manna" adı Assur mənbələrində "Manna", "Munna" [3, s.18-19], Urartu mənbələrində Mana [3, s.66-68] şəklində işlədilmişdir. Əksər alimlər hesab edir ki, bu dövrdə də Azərbaycanda aparıcı etnoslar lullubi və kutilər idi, eyni zamanda turukki, su və digər soylar da dövlətin idarə olunmasında iştirak edirdi. Manna sülaləsi lullubi və kutilərin həm qohumu, həm də davamçıları idi.

Manna sülaləsinin vaxtında klassik Azərbaycan dövlətçiliyinin əsası qoyuldu. Dövlətin sərhədləri konkretləşdi, idarəetmə sistemi formalaşdı, mərkəz-əyalət münasibətləri yarandı, şaquli tabeçilik qaydaları müəyyənləşdi, mütləq hakimiyyət, monarxiya forması bərqərar oldu, hakimiyyətin varislik əsasında ötürülməsi normaya çevrildi, böyük ehtimalla dövlət həyatını nizamlayan sənədlər də hazırlanıb, qəbul edildi, ölkədaxili iqtisadi əlaqələr, bazar münasibətləri formalaşdı, daimi paytaxt şəhəri müəyyənləşdi. Bu və digər əlamətlər həmin dövrün Assur, Urartu kimi dövlətlərinə uyğun idarəetmə sisteminin yaradıldığını göstərirdi. Azərbaycan həmin qonşu dövlətlərdən geri qalmır, bərabər səviyyədə rəqabət aparır, müstəqilliyinə edilən təcavüz cəhdlərinin qarşısını alırdı. Azərbaycan dövləti qonşuluqdakı Assuriya və Urartu dövlətlərinə fəal müqavimət göstərir, bəzən onların ərazilərini də ələ keçirirdi.

Bu dövrdə Azərbaycan dövlətinin sərhədləri Cənub -Qərbdə Diyala (Dəclə çayının sol qolu) və Kiçik Zab (Dəclə çayının sol qolu, təxminən Ərbil-Kərkük tərəf) çaylarının yuxarılarına, Şərqdə təqribən Xəzər dənizinə, Şimalda Araz çayına, Şimal-Qərbdə isə Van gölü sahilinədək, Cənubda indiki Həmədan həndəvərinə qədər uzanırdı. [2, s.33-35; 5, s.145]. Manna hökmdarları "yanzu" titulu daşıyırdı. Onların yanında məsləhətçi orqan- "Ağsaqqallar şurası" fəaliyyət göstərirdi. [9]. Təəssüf ki, Manna hökmdarlarının özlərinin yazılı məlumatları bizə gəlib çatmamışdır. Cənubi Azərbaycan ərazisində baş vermiş hadisələr barədə məlumatları Assur və Urartu mənbələrindən və bu ərazidə tapılan qayaüstü yazılardan götürürük. Manna adı ilk dəfə e.ə. 843-ci ildə Assuriya hökmdarı III Salmanasar dövründə "Munna" və "Manna" formasında çəkilir. [3, s.18-19]. Öz hökmranlığının 16-cı ilində, e.ə. 843-ci ildə III Salmanasar yürüşlərini təsvir edərək məlumat verir ki, daxili Zamuada yaşayış məskənini tutaraq o, Manna (Munna) ölkəsinə çatır. Ancaq burada Mannanı tutması barədə heç bir məlumat verilmir. Əgər ölkəni zəbt edə bilsəydilər, bunu böyük təntənə ilə qeyd edər, qələbələrini diqqətə çatdırardılar. Görünür, ciddi müqavimətlə üzləşib, ölkəni tərk etməli olublar. Çünki sonrakı məlumatlarda da Azərbaycanın Assuriyadan asılılığına dair fakt yer almamışdır. Bu vaxt dövlətin paytaxtı İzirtu (indiki Cənubi Azərbaycanın Ziviyyə (Zeyvə) şəhəri yaxınlığında) şəhəri olmuşdur. Şəhər Urmiya gölündən bir qədər cənuba doğru ərazidə yerləşirdi.

Manna sülaləsindən Assur mənbələrində xatırlanan ilk nümayəndə Udaki olub, onun hakimiyyətə nə vaxt gəl-

diyi bilinmir, hakimiyyətdən e.ə. 829-cu ildə getdiyi qeyd olunur [3, s.19-20]. Hökmdar Udakidən sonra Azərbaycan rəhbəri İranzunun (e.ə. 740-719-cu illər) adı e.ə. 718-ci ildə Assuriya mənbələrində xatırlanır. Bu vaxtdan başlayaraq Assuriya hökmdarı II Sarqonun məlumatlarından görünür ki, burada hakimyyət nəsillikcə keçmişdir. Aza (e.ə. 719-716) və Ullusunu (e.ə. 716-680) İranzunun oğlanları olmuşlar. Ahşeridən (e.ə. 680-650) sonra dövləti onun oğlu Uallı (e.ə. 650-630) idarə etmişdir. Dövlətin başında, qeyd edildiyi kimi vərəsəlik hüququna malik hökmdar-yanzu dururdu. Dövlətin ərazisi vilayətlərə bölünür, onların başında isə hökmdarın təyin etdiyi adamlar – canişinlər dururdu.

Hökmdar hakimyyətinin möhkəmləndirilməsi, iqtisadiyyatın inkişafı Azərbaycana Yaxın Şərqdə ən güclü dövlətlərdən biri olmağa imkan verdi. Nisbətən sərbəst vilayətlərdən Urmiya gölünün cənub-şərqində Missi vilayəti yerləşirdi. Dövlətin şərq sərhədlərində Qızılbunda vilayəti yerləşirdi. Müasir Ərdəbil rayonunda Zikertu vilayəti yerləşirdi. Bu vilayətlər mərkəzi hakimiyyətdən asılı vəziyyətə salındı. Şərq sərhədlərimizdə ən ucqar vilayət Andia olmuşdur. Azərbaycan dövləti özünün güclü vaxtında Andianı Assuriyalılardan almış və özünə tabe etmişdi. Tabe olan vilayətlər içərisində Uişdiş vilayətinin də adı çəkilir. Bu vilayət müasir Marağa rayonu ərazisində yerləşirdi [8].

Azərbaycanın qərbində qorxulu düşmən-Urartu yerləşmişdi. "Urartu" adını onlara bizim əcdadlarımız, türk soyları verib. Onlar özlərinə "Biayni" deyirdilər. Sami tayfaları bu ölkəyə "Nahariya", "Nairi" deyirdilər. "Urartu"

sözü ilk dəfə e.ə. XIII əsrdə Assur mənbələrində "Yuxarı ölkə" mənasında işlədilib, assur dilində mənası məlum olmayıb. Bu ad türk dilində izah olunur: "ur" türk dillərində hündür, yuxarı, "art"-dağlıq ərazi mənasını verir. Urartu əsasən mərkəzi Tuşpa şəhəri olmaqla Van gölü ətrafında yerləşirdi [1, s.181]. I Argişti (təqribən e.ə. 786-764-ci illər) və II Sardur (təqribən e.ə. 760-730-ci illər) dövründə Urartu hökmdarlarının Azərbaycan vilayətlərinə qarşı yürüşləri ardıcıl xarakter daşıyırdı. Eyni zamanda Azərbaycan dövləti də Urartuya qarşı tez-tez hücumlar edirdi.

Azərbaycan dövləti çiçəklənmə dövrünü İranzunun (e.ə. 740-719) hakimyyətinin əvvəlində keçirmiş, qüdrətli dövlətə çevrilmişdi. Azərbaycanın Şuandahul və Durdukka qalaları e.ə. 719-cu ildə Urartu hökmdarının təhriki ilə İranzuya qarşı üsyan qaldırdı. İranzu üsyanı yatıra bildi [6]. Təqribən e.ə. 719-cu ildə İranzunun ölümündən sonra onların oğlanları arasında hakimiyyət uğrunda mübarizə başladı. Onun böyük oğlu Aza taxta çıxdı və atasının siyasətini davam etdirdi. Ancaq o tezliklə öldürüldü və Urartunun köməyi ilə onun qardaşı Ullusunu taxta çıxdı. Assuriya isə bununla barışmayaraq hücuma keçdi. Bu yürüşü həyata keçirən Assuriya hökmdarı II Sarqonun məqsədi Azərbaycanda Urartu təsirini aradan qaldırmaq, orada mövqeyini gücləndirmək idi. Ullusunu Assuriya tərəfə keçməyə məcbur oldu və Assuriyanı Urartu ilə müharibədə müdafiə etdi.

Ullusunudan sonra hakimiyyətə gələn Ahşeri isə müttəfiqlikdən imtina edərək şimal qonşuları işquzlarla (skiflərlə) birlikdə Assuriyaya qarşı çıxdı və birlikdə qələbə qazandılar. Azərbaycan e.ə. 650-ci ildə, Ahşerinin dövründə

Assuriya hökmdarı Aşurbanipalın hücumuna məruz qaldı, daxili ziddiyyətlər nəticəsində zəiflədiyinə görə məğlub oldu və assuriyalılar Azərbaycanın tutduğu Allabria vilayətini və Assuriya ilə qonşu olan digər əraziləri geri qaytardılar. Bu məğlubiyyətdən sonra əhali Ahşeriyə qarşı çıxış etdi və onu öldürdülər [3, s.61-62]. Taxta onun oğlu Ualli (e.ə. 650-630) çıxdı və o, Assuriyanın qələbəsini tanıdı. Azərbaycan dövləti Assuriyanın e.ə. 616-cı ilə kimi müttəfiqi olaraq qaldı və Assuriya-Babil müharibələrində Assuriyanın tərəfində vuruşdu. Assuriyanı həlledici məğlubiyyətə uğradan Madaylar Yaxın Şərqdə ciddi qüvvəyə çevrildilər. Onlar təqribən e.ə. 615-610-cu illər arasında Azərbaycanda Manna sülaləsini əvəz etdilər. Manna sülaləsinin son dəfə adı çəkilən yazılı mənbə İncildir. Kitabda e.ə. 593-cü ildə Madaylarla birlikdə mannalar da Babilə qarşı çıxış etməyə çağrılır [4].

Yazılı mənbələr və arxeoloji materiallar (Həsənli, Ziviyyə, Göytəpə və s.) bu dövrdə Azərbaycanın iqtisadi cəhətdən yüksək inkişafını sübut edir. Təsərrüfatın əsas növləri əkinçilik və maldarlıq idi.

Atçılıq mühüm yer tuturdu. Geniş süni suvarma şəbəkəsi bağçılıq və üzümçülüklə məşğul olmağa şərait yaradırdı. Sənətkarlıq, metalişləmə geniş inkişaf etmişdi. Ziviyyə dəfinəsi, Həsənlidəki qızıl, gümüş və tunc əşyalar, qara rəngli şirələnmiş saxsı qablar və şəhərsalma texnikasında Assuriya relyefləri və Həsənlidə aşkar olunmuş saray kompleksi inkişafın yüksək səviyyəsini göstərirdi. Ölkədə çoxlu müdafiə qalaları mövcud olmuşdur. Ehtimal ki, burada Assuriya mixi yazısına bənzəyən yazıdan istifadə olunurdu [7, s.22-24]. Əhali təbiət qüvvələrinə sitayiş edir və Allahlara qurban verirdilər.

Beləliklə, bu dövrdə klassik Azərbaycan dövləti formalaşdı, Manna sülaləsi uğurlu daxili və xarici siyasət yeridərək, regionun aparıcı dövlətlərindən biri kimi fəaliyyət göstərdi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, "Təhsil", 2003.

2. Qaşqay S. Manna dövləti. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993.

3. Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə. Bakı, "Təhsil", 2006.

4. "Huey-Jeremiah F.B., Lamentations. Kingdom of Mannai.- books.google.az/books?id= HBguYZCdAM4C&pg=-PA424&dq=Kingdom+of+Mannai&hl=ru&ei=Zj2xTZSaC8zYsgalssD1Cw&sa=X&oi=book_result&ct=book.

5. Дьяканов И.М. История Мидии. Москва-Ленинград, изд. «АН СССР», 1956.

6. Из анналов Саргона II (722/721-705 гг. до н.э.). Надписи II и V зал дворца в Дур-Шаррукине.- annals.info/urartu/avi/046.htm.

7. История Азербайджана (с древнейших времен до первых десятилетий XXI века). Баку, Издательство "Bakı Universiteti", 2016.

8. «История Востока» (Восток в древности). Глава XVI. Маннейское царство.- gumilevica.kulichki.net/HE1/ he116.htm.

9. Манна.- azerbaijans.com/content_365_ru.html.

### *§ 2. Azərbaycanda Maday (Midiya), Sak (Skif), Əhəməni sülalələrinin hakimiyyəti.*

Manna sülaləsi ilə təxminən eyni vaxtda Azərbaycan ərazisində yeni bir sülalə-Madaylar sülaləsi formalaşırdı. Onlar əsasən Cənubi Azərbaycanın aşağı hissələrində, cənub və cənub-şərq ərazilərində, indiki Qızılüzən çayının hövzəsində yaşayırdılar [4, s.249-250]. Manna sülaləsi hakimiyyətdə olduğu dövrdə madaylar hərbi-siyasi birlik, tayfa ittifaqı kimi mövcud olmuş, ətraf əraziləri özlərinə tabe etdirməyə çalışmış, hətta bir müddət Azərbaycanın digər ərazilərində hakimiyyətə gəlmiş Sak (Skif) sülaləsindən asılı vəziyyətə düşmüşlər. Onlar bu dövrdə mərkəzi hakimiyyətə, Manna sülaləsinə qarşı mübarizə aparmır, tədricən qüvvələrini cəmləşdirir və Azərbaycanda hakimiyyətə gəlmək üçün öz vaxtlarını gözləyirdilər.

Madaylar haqqında ilk məlumat e.ə. IX əsrdə Assuriya mənbələrində qeyd olunmuşdur. Assuriya hökmdarı III Salmanasara aid mixi yazıda Maday (Midiya) ölkəsinin (madayların yaşadığı ərazinin- A.N.) adı çəkilir. Orada III Salmanasarın (e.ə. 859-824) e.ə. 835-ci ildə həmin bölgəyə səfərindən bəhs olunur [6, s.19]. Tarixçilərdən isə ilk məlumat verən Herodot olmuşdur. Antik müəlliflərdən Herodotla yanaşı Diodor, Plutarx, Strabon, Ammian Marsellin və bir çox başqa tarixçilər və coğrafiyaşünaslar Madayların tarixinə dair maraqlı məlumat qoyub getmişlər. Herodot göstərir ki, onlar 6 tayfadan – buslar, paretakenlər, struxatlar, arizantlar, budilər və maqlardan ibarət idi [2, s.50]. Herodot və sonrakı müəlliflər 6 tayfanı göstərməklə kifayətlənir, müasir dövr tarixçiləri də həmin çər-

çivədən kənara çıxmaq istəmirlər. Bura Azərbaycan ərazisi idi, orada qədimdən lullubi, kuti, su, turukki, manna kimi tayfalar yaşayırdı. Onların hamısı madaylara qohum soylar idi, vahid prosesin iştirakçıları idi. Herodot hansısa subyektiv amillərin təsiri altında yalnız 6 tayfanın adını yazıya köçürmüş, madayların yalnız həmin tayfaların əsasında formalaşdığını qeyd etmişdir. Əslində madayların digər Azərbaycan tayfalarından kənarda formalaşması mümkün deyildi. Həmin tayfalarla bağlı müxtəlif fikirlər səsləndirilir.

Müxtəlif dövr mənbələrində onlar amaday, maday, matay, medoy, midiya və sair adları ilə məlumdurlar. Əksər tədqiqatçılar hesab edir ki, Maday (Midiya) tayfaları bu ərazilərə e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərindən gec olmayaraq köçüb gəlmişlər [7].

Madayların Azərbaycanda hakimiyyətə gəlməsi prosesi təxminən e.ə. VIII əsrin sonlarında başladı. Həmin vaxt onların yaşadığı ərazi Manna sülaləsinin hakimiyyətdə olduğu Azərbaycan dövlətinin tərkibində idi, mərkəzdən təyin edilən canişin tərəfindən idarə olunurdu. Bu vaxt madayların tayfa ittifaqının rəhbəri Deyok (e.ə. 712-675) mərkəzi hakimiyyətə qarşı çıxmır, amma artıq siyasi ambisiyalarını gizlətmirdi. O, maday tayfalarını ətrafında sıx birləşdirdi, təxminən e.ə. 678-ci ildə Ekbatan (indiki Həmədan) şəhər-qalasının əsasını qoydu [11, s.178]. Deyokdan sonra madayların hərbi-siyasi birliyinə rəhbərlik edən oğlu Fraort və ya Kaştaritinin (e.ə. 675-653) (onun adı mixi yazılarda Kaştariti, Herodotun əsərində isə Fraort şəklində verilir) dövründə madaylar xeyli dərəcədə müstəqil fəaliyyət göstərir, Azərbaycanın mərkəzi haki-

miyyətindən, həmçinin bölgəyə hücumlar edən Assuriyadan asılılığı azaldırdı. Bu vaxt Ekbatan şəhəri də möhkəmlənir və genişlənir, madayların mərkəzinə çevrilirdi. Maday (Midiya) sülaləsi hakimiyyətə gəldikdən sonra paytaxtı həmin şəhərə köçürdü. Madaylar e.ə. 673-cü ildən müstəqil siyasət yeritməyə başladı.

Maday sülaləsi e.ə. VII əsrin 70-ci illərində Assuriyaya qarşı Kaştaritinin başçılıq etdiyi və digər Maday hakimləri, həmçinin mannalar, kimmerlər və skiflər tərəfindən də müdafiə edilən güclü xalq hərəkatı nəticəsində təşəkkül tapmışdı. Tayfa qoşun dəstələrindən nizami qoşun yaradan və Assuriya dövləti ilə mübarizəni davam etdirən Kiaksarın (e.ə. 625-585) hakimyyəti dövrü dönüş nöqtəsi oldu. Madayların dövründə Azərbaycan Qədim Şərqin iri dövlətinə çevrildi. Kiaksar Sak (Skif) asılılığını ləğv etdi, dövlətin paytaxtını İzirtudan Ekbatana köçürdü, Manna sülaləsi reallıqla hesablaşaraq, hakimiyyətdən çəkildi. Madaylar e.ə. 605-ci ildə Assuriya dövlətini darmadağın edib, onun şimal-şərq və şimal torpaqlarını ələ keçirdilər. Kiaksardan sonra hakimiyyətə gələn Astiaq (e.ə. 585-550-ci illər) uğurlu siyasəti ilə yanaşı bir sıra səhvlərə yol verir, zadəganlara, o cümlədən manna nümayəndələrinə qarşı təzyiqlər edir, onların nüfuzunu məhdudlaşdırmağa çalışırdı. Bütün bunlar daxili siyasi vəziyyəti mürəkkəbləşdirdi.

Maday sülaləsi ilə təxminən eyni vaxtda Azərbaycanda Sak (Skif) sülaləsi də yüksəlməyə başlamışdı. Azərbaycanda hakimiyyət uğrunda üç sülalə- manna, maday və saklar (skiflər) mübarizə aparırdı. Onların mübarizəsi əsasən dinc xarakter daşıyır, qüvvələr nisbətini nəzərə

alaraq bir-birlərinə güzəştə gedir, hakimiyyəti sərt qarşıdurmaya getmədən bir-birinə ötürürdülər. Manna sülaləsi məhz bu yolla hakimiyyəti madaylara güzəştə getdi, buna görə də uzun müddət imtiyazlı zadəgan təbəqəsi statusunda qaldılar, yalnız Astiaqın vaxtında münasibətlər pozuldu. Bir vacib məqam da qeyd olunmalıdır ki, bu üç sülalə çox vaxt ümumi düşmənlərə, xüsusən də assurlara qarşı birlikdə çıxış edirdilər [14, s.230].

Sak (Skif) tayfaları e.ə. III-II minilliklərdə tərk etdikləri Ön Asiya, o cümlədən Azərbaycana e.ə. VIII əsrin ikinci yarısı-VII əsrin əvvəllərində geriyə döndülər. Onlarla birlikdə eyni kökdən olan kimmerlər də gəldi. Sak və Skif eyni sözlərdir, sak sözünü fars, skif sözünü isə yunan mənbələri işlədib [8, s.54]. Onlar Qara dənizin şimal sahillərindən hərəkətə başlayıb iki istiqamətdə ata yurdlarına qayıtdılar. Bir qrup Kiçik Asiyadan, digər qrup Qafqaz dağları və Cənubi Qafqazdan, Azərbaycanın Şimal torpaqlarından keçərək gəldilər. Bu tayfalar Manna sülaləsinin hakimiyyəti dövründə, e.ə. VII əsrin əvvəllərində Azərbaycanın şimal-qərb vilayətlərində məskunlaşdı, tayfa ittifaqı, hərbi-siyasi birlik yaratdılar. Bu birliyin əsasında yeni sülalə formalaşdı. Hərbi-siyasi birliyin ilk rəhbəri kimmer əsilli Tuqdamme oldu. O, özünü "Saklar ölkəsinin və Kutinin rəhbəri" adlandırdı [4, s.218-298]. Bu fakt bir daha göstərir ki, eyni ərazidə qohum tayfalar, soylar yaşayır, bir-birlərini əvəz edir, əcdadlarını yaddan çıxarmırdılar, sak (skif) rəhbəri min il əvvəlki əcdadını- kutiləri yaddan çıxarmır, özünü onların davamçısı hesab edirdi. Herodot sak (skif) tayfalarının özləri haqqında dediklərinə əsasən bildirir ki, onlar e.ə. XVI-XV əsrlərdən başlayaraq Qara dənizin ətraf bölgələrində yaşamışlar [3, 7].

Sak (Skif), kimmer tayfaları bu dövrdə Urmiya gölündən şimala doğru ərazilərdə, indiki Ermənistan deyilən torpaqlarla Gəncəbasara qədər ərazilərdə məskunlaşmışdılar [1, s.103]. Böyük ehtimalla onların mərkəzi Azərbaycanın Gəncə şəhəri olmuşdur [11, s.245-246, 247]. Saklar (Skiflər) Azərbaycanın bir çox ərazilərində yaşamışlar. Onlar Urmiya gölünün şimalında "şişpapaq saklar" adı ilə məskunlaşmışdılar, həmçinin Mingəçevir ətrafında, Arazla Kürün qovuşduğu ərazidə (buraya Balasakan, Sak düzü adı verilmişdi), Xəzərin şərq sahillərində, Həmədan ətrafında, Sakaşena adlandırılan Gəncə ətrafında və digər yerlərdə yaşamışlar [8, s.55]. Onların Qarabağda yaşadıqları ərazi Artsak (türk dilində "art" dağlıq, yüksəklik mənasını verir, yəni dağ sakları) adlandırılırdı. Bu ifadənin "Arsak" forması da "Mərd, igid saklar" mənasını verməklə türk dilində izah olunur. Zəngəzur əraziləri də sakların məskunlaşdığı bölgə olub və Sisakan adlandırılıb. Mənbələrdə saklara aid si tayfalarının adı çəkilir. "Sisakan" si saklarının məkanı mənasını verirdi [5, s.163]. Zəngəzurla bağlı işlədilən "siuni" (syuni, sünik) ifadəsi Urartu dilində "su mənbəyi, göl" mənasını verirdi [12, s.264, 265]. "Avesta" kitabında Orta Asiyada yaşayan sakların adları çəkilir, onlar burada həm də Tur adlandırılır, yaşadıqları əraziyə Turan deyilir [5, s.151].

Sak (skif), kimmerilər barəsində qısa məlumatlandırmadan sonra qeyd etməliyik ki, onlar Gəncə şəhərini özlərinə mərkəz seçərək tezliklə ciddi hərbi-siyasi qüvvəyə çevrildilər və Azərbaycanda hakimiyyət uğrunda mübarizəyə qoşuldular. Onların rəhbərlərindən Taksak, İşpakay, Atey və digərlərinin adları mənbələrdə qalıb [5]. Bu

sülalə e.ə. VII əsrin ortalarında məqsədinə nail oldu, Azərbaycanda hakimiyyətə gəldi, Manna və Maday sülalələri onların hakimiyyətini qəbul etməli oldu. Sak (skif) sülaləsi e.ə. 653-625-ci illərdə paytaxtı Gəncəyə keçirməklə Azərbaycan dövlətini idarə etdi. Bu sülalənin ən böyük xidməti tarixdə ilk dəfə Azərbaycanın cənub və şimal ərazilərinin xeyli hissəsinin vahid dövlətin tərkibində birləşdirməsi oldu [10]. Sak (skif) sülaləsi, bütün uğurlarına baxmayaraq, madayların təzyiqləri qarşısında geri şəkilməli oldu, 28 ildən sonra, e.ə. 625-ci ildə hakimiyyəti tərk etdi. Bu tayfaların bir hissəsi Qara dənizin şimal sahillərinə qayıtdı, digər hissəsi isə Azərbaycanda bu gün də sakların, kimmerlərin adlarını yaşadan ərazilərdə qaldı. Saklar (Skiflər) e.ə. VII əsrin birinci yarısında Assuriya mənbələrində Aşquz (İşquz), Urartu mənbələrində İşkuqul formalarında xatırlanır [8, s.54, 73].

Astiaqın (e.ə. 585-550) vaxtında Maday (Midiya) sülaləsi daxili qüvvələrin ciddi müqaviməti, hakimiyyət böhranı ilə üzləşdi. Dövlətdə ciddi iqtisadi gücə, həmçinin nüfuza malik olan manna zadəganları ona qarşı müxalifətə keçdi. Hökmdar Astiaq hesab edirdi ki, onun hakimiyyətini heç bir qüvvə sarsıda bilməz, ona görə də siyasi sayıqlığını itirdi, nüfuzlu şəxslərə qarşı ədalətsiz mövqe tutdu, qədərindən artıq cəzalar kəsdi. Astiaqın səhvlərini göstərən bir nümunəni qeyd etmək olar. O, qızı Mandananı Parsua vilayətinin hakimi, əslən fars olan I Kambisə ərə vermişdi. Amma sonradan ehtiyat edirdi ki, onlardan dünyaya gələcək oğlan uşağı hakimiyyət üçün təhlükə yarada bilər. Ona görə də qızını saraya, öz yanına gətirdi, manna nəslindən olan sərkərdəsi Harpaqa tapşırdı

ki, uşağı doğulan kimi götürüb aparıb öldürsün. Harpaq arvadının məsləhəti ilə uşağı özü öldürmədi, Mitradat adında çobanlarını çağırdı, uşağı ona verib dedi ki, apar meşədə əlçatmaz yerə qoy, orada öz ölümü ilə vəfat etsin. Çoban da arvadı İspakın (Midiya dilində "it" demək idi.-Herodot."İspak", "İspakay" qədim türk adlarıdır.-A.N.) sözünə əməl edir, uşağı öldürmür, onun əvəzinə ölü doğulmuş uşaqlarını səbətə qoyub meşəyə aparır, üç gündən sonra isə götürüb Harpaqa təhvil verir [9, s.108-113]. Təxminən 10 il sonra bu sirrin üstü açıldı, ölmüş hesab edilən uşağın yaşadığı, ailəsinə qaytarıldığı məlum oldu. Astiaq bu hadisəyə görə Harpaqı sərt və amansız şəkildə cəzalandırdı, onun oğlunu öldürtdü, ətindən yemək hazırlatdıraraq süfrəyə gətirtdi, hamının qarşısına qoyun əti, Harpaqın qarşısına isə oğlunun ətindən qoydular. Harpaq həmin yeməyi dadandan sonra Astiaq məsələnin mahiyyətini açıb dedi. Bu, Harpaqı qəzəbləndirdi və Astiaqın qatı düşməninə çevirdi. Yaranmış vəziyyətdən Kambisin artıq böyümüş oğlu (təxminən 35-40 yaşında olub, dəqiq doğum tarixi məlum deyil) II Kir istifadə etdi, Harpaqla birləşərək e.ə. 553-cü ildə Astiaqa qarşı üsyan qaldırdı, e.ə. 550-ci ildə Astiaq hakimiyyətdən devrildi, amma öldürülmədi, ömrünün axırına qədər sarayda rəzil vəziyyətdə saxlanıldı [9, s.130].

Bununla Azərbaycan dövlətində II Kirin təmsil etdiyi fars mənşəli Əhəmənilər sülaləsi hakimiyyətə gəldi. Herodotun II Kirin mənşəyi ilə bağlı fikri maraq doğurur: "O, iki müxtəlif xalqdan – ana tərəfi ata tərəfindən daha məşhur olan xalqdan törəmişdi. Onun anası midiyalı, ... atası isə ana tərəfə görə hər cəhətdən alçaqda duran... bir

fars olub" [8, s.91]. Türk sülalələlərini ilk dəfə ölkənin əyalətlərindən birinin yerli hakimiyyətlərini təmsil edən fars sülaləsi əvəz etdi. Bundan sonra da dövlətin xarakteri dəyişmədi, Azərbaycan dövləti mövcudluğunu davam etdirdi. Dövlətdə yenə də manna, maday və digər türk zadəgan nəsilləri mühüm rol oynayırdı. "Əhəmənilər dövləti" ifadəsi də tamamilə yanlışdır. Heç bir qədim mənbədə "Əhəmənilər dövləti", "Əhəmənilər imperiyası" ifadələri işlədilmir. Saray çevrilişi və üsyan nəticəsində hakimiyyətə gəlmiş fars sülaləsinin müvəqqəti idarə etdiyi Azərbaycan dövləti kimi dəyərləndirilməlidir.

Çevrilişdən sonra madaylar Əhəmənilərin hakimiyyəti ilə razılaşmır, mübarizəni davam etdirir, hakimiyyətlərini bərpa etməyə çalışırdı. Bu mübarizənin mühüm hadisələrindən biri e.ə. 522-ci ildə baş verdi. Həmin ildə maday nəslindən olan kahin Qaumata hökmdar II Kambisin ölkədən kənarda olmasından istifadə edərək, üsyan qaldırdı, hakimiyyətə gəldi, 7 ay ölkəni idarə etdi. Bu vaxt Əhəmənilərin nümayəndəsi I Dara (e.ə. 522-486) II Kambisi öldürərək (digər versiyaya görə, II Kambis atdan yıxılaraq aldığı yaradan ölüb) hakimiyyətə gəldi, üsyanı yatırtdı, Qaumatanı edam etdirdi. Qaumata madayların və digər əhalinin içərisində böyük nüfuza malik idi, onun qətlə yetirilməsi çox yerdə narazılıqla qarşılandı, Herodotun qeyd etdiyi kimi, "farslardan başqa Asiyada hamı onun ölümünə kədərləndi" [14, s.355]. Madayların mübarizəsi sonralar da davam etdi. Qaumatanın üsyanından 1 il sonra, e.ə. 521-ci ildə madaylar Fravartişin (Herodot onu II Fraort adlandırır) rəhbərliyi altında genişmiqyaslı üsyana başladı. I Dara üsyanı amansızlıqla yatırtdı, əsir götür-

dükləri Fravartişin burnunu, qulaqlarını kəsdirdi, gözünü çıxartdırdı, onu sarayın qapılarına bağlatdı, üsyanın digər rəhbərləri Ekbatanda payaya keçirilməklə edam olundu. Ölkənin digər ərazilərində də üsyanlar baş verdi. Parfiya və Hirkaniya əyalətlərinin türk əsilli əhalisi üsyan edərək, madaylara qoşuldu, özünü Maday hökmdarı elan etmiş Fravartişin tərəfinə keçmişdilər. I Dara onların üsyanını amansızlıqla yatırtdı.

O da qeyd olunmalıdır ki, I Dara hakimiyyətə qeyri-qanuni yolla, "kimin atı birinci kişnəyəcək" fırıldağı ilə gəlmişdi. II Kirin oğlu II Kambis (e.ə. 530-522) iki bacısına- Atossa və Rohaneyə evlənmişdi (farslarda bacı-qardaşın evlənməsi adi hal hesab olunurdu), onlardan övladları yox idi, hakimiyyətə namizəd ola biləcək bütün qohumlarını, o cümlədən qardaşı Bardiyanı öldürtmüşdü. Ona görə də hakimiyyətə gələcək varis qalmamışdı. Bu vəziyyətdə I Dara özünü yalandan Kirin nəslinə calayaraq hakimiyyəti ələ keçirdi, Əhəmənilər adından ölkəni idarə etdi. Bununla ilk yalan üzərində "Əhəmənilər imperiyası" deyilən böyük yalanın əsası qoyuldu. Əslində isə, məsələnin mahiyyəti bu yalançı qəhrəmanların Azərbaycan dövlətində hakimiyyəti müvəqqəti olaraq ələ keçirməsindən ibarət idi. Madaylarla farslar arasındakı bu mübarizəyə Turan-İran qarşıdurması mövqeyindən də yanaşılmalıdır.

Əhəmənilər mərkəzi hakimiyyəti möhkəmləndirdi, səmərəli idarəetmə sistemi yaratdı. Ekbatan dövlətin əsas paytaxtı olaraq qaldı, amma Suz, Persepol kimi şəhərlər də müəyyən dövrlərdə mərkəz rolunu oynadı. Əhəmənilər bir sıra hərbi yürüşlər keçirərək, geniş əraziləri, o cümlədən Kiçik Asiyanın xeyli hissəsini, Babili, Makedoniyanı zəbt etdi, dövlətin ərazilərini genişləndirdi [13, s.20].

Beləlikə, Azərbaycanda dövlət quruluşunun təkmilləşdirilməsi prosesi davam etdirildi. Hakimiyyətə gələn sülalələr dövlətin əsas atributlarını qoruyub saxladı. Azərbaycan dövləti regionun əsas faktorlarından birinə çevrildi. İlk dəfə Azərbaycanın cənub və şimal torpaqlarının vahid dövlətdə birləşdirilməsi ənənəsi yarandı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan tarixi, I cild (Z. Bünyadov və Y. Yusifovun redaktəsi ilə). Ali məktəblər üçün dərslik. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

2. Azərbaycan tarixi. I cild. Bakı, "Elm", 1961.

3. Herodot. Tarix (Tərcümə: Pənah Xəlilov), IV kitab. Bakı, 1998.

4. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, "Təhsil", 2003.

5. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

6. Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə. Bakı, "Təhsil", 2006.

7. MEDIA-Encyclopaedia Iranica. M.Dandamayev, I.Medvedskaya.- iranicaonline.org/ articles/media.

8. Гасанов З. Царские скифы. Liberty publishing house, Nyu York, 2002.

9. Геродот. История. Кн. I. «Клио».

10. Гутанов Ф.Х. Скифские портреты.- darial.online.ru/material/1999_3-gutnov.

11. Дьяконов И.М. История Мидии. Москва-Ленинград, изд. «АН СССР», 1956.

12. Мещанинов И.И. Аннотированный словарь урартского (биайнского) языка. Ленинград, «Наука», 1978.

13. Фрай Р. Наследие Ирана. Москва, «Восточная литература», РАН, 2002.

14. Хрестоматия по истории Древнего Востока. Москва, «Восточная литература», 1963.

### *§ 3. Etnik, dil və mədəni proseslərin yeni mərhələsi. Azərbaycan xalqının təşəkkülü.*

E.ə. I minilliyin ilk yarısında həm Azərbaycan dövlətçiliyi o dövr üçün yüksək inkişaf səviyyəsinə çatdı, həm də etnik, dil, mədəni proseslərin daha aydın mənzərəsi yarandı. Bundan əvvəlki dövr üçün protoazərbaycan, protoazərbaycanlı anlayışlarını bütün proseslərə aid etdiyimiz kimi, indi də bütün proseslərə Azərbaycan və azərbaycanlı prizmasından yanaşmalıyıq. Azərbaycan dövləti ifadəsi ilə yanaşı Azərbaycan dili, xalqı, mədəniyyəti kimi ifadələr işlədilməlidir. Bir daha qeyd edək ki, dövlət varsa, deməli xalq da artıq mövcuddur. Dövləti xalq yarada bilərdi. Arattalı, Lullubi, Kuti sülalələrinin dövründə Azərbaycan xalqı formalaşmasının ilkin mərhələsini yaşayırdı. Yaradılan dövlət də xalqın inkişaf səviyyəsinə uyğun idi. Manna, Maday (Midiya), Sak (Skif), Əhəməni sülalələrinin dövründə isə klassik dövlət quruluşu yaradan Azərbaycan xalqı meydanda idi. Ona görə də Azərbaycan xalqının təşəkkülü e.ə. I minilliyin birinci yarısına aid edilməlidir. Məhz formalaşmış xalqın içərisindən türkdilli Manna, Maday (Midiya), Sak (Skif), eyni zamanda farsdilli Əhəməni sülalələri yüksələ bilərdi.

Azərbaycan xalqı Ural-Altay (Türk), Hindavropa, Qafqaz dil ailələrinə mənsub olan etnosların bir-birinə

qaynayıb-qarışması ilə formalaşdı. Əhalinin əksəriyyətini türk tayfaları, soyları təşkil edirdi, ümumi danışıq dili də türk dili idi. Əhəmənilər hakimiyyətə gəldikdən sonra fars dilinin mövqeyini gücləndirməyə çalışdılar, sarayda fars dilinə üstünlük verdilər, bu dildə qayaüstü abidələr, başqa sənədlər yaratdılar. Lakin türk-maday dilini sıradan çıxara bilmədilər, madayları dövlətin idarə olunmasından kənarlaşdırmağı bacarmadılar. Türk-maday dili əhalinin danışıq dili kimi qaldı, fars dili o qədər də geniş yayılmadı. Bir məsələ də qeyd olunmalıdır ki, Əhəmənilər çox şeyi madaylardan (midiyalılardan), həmçinin Herodotun bildirdiyi kimi, "farslar midiyalıların geyimini də özlərinə götürdü" [5, s.135]. E.ə. I minillikdə həm dövlətlərarası təmaslarda, həm ölkələrin daxilində əsasən arami dilindən istifadə olunurdu. Əhəmənilərin vaxtında da bu dil Azərbaycan dövlətinin rəsmi dili idi [1, s.589]. Arami və ya arameylər Suriya ərazisində köçəri həyat sürür, dillərinin bu geniş statusuna baxmayaraq, öz dövlətlərinə malik deyildilər. Onların dili sami ailəsinə daxil olmaqla, bir qədər ivrit dilinə yaxın idi.

Əhəmənilər, əlbəttə, fars dili və mədəniyyətinin üstünlüyünü təmin etməyə cəhd göstərdilər, lakin istədiklərinə nail ola, Azərbaycan dövlətinin xarakterini dəyişə bilmədilər. Əhəmənilərin bu hərəkətlərindən madaylar əvvəlcədən ehtiyat edir, onların hakimiyyətə gəlməsinə mane olmağa çalışırdılar. Bu mənada mənbələrdə qalmış bir mətn diqqəti cəlb edir. Herodot kahin maqlar başda olmaqla madayların hökmdar Astiaqa bir müraciətini yazıya köçürmüşdür. II Kirin Astiaqa qarşı üsyan qaldırdığı, gərgin vəziyyətin yarandığı bir vaxtda onlar həyəcan təbili

çalırdılar: "Bizim üçün, hökmdar, hər şeydən vacib sənin hakimiyyətini möhkəmləndirməkdir, yoxsa hakimiyyət… farslara keçərsə, madaylar yad adamlar kimi qul edilər, farsların nifrət mənbəyinə çevrilər" [11, s.17]. Bu fakt digər tərəfləri ilə yanaşı həmin dövrdə artıq etnik mənsubiyyət və təəssübkeşliyin gündəmdə olduğunu göstərirdi.

Azərbaycan əhalisinin etnik tərkibi təxminən iki min il əvvəlki vəziyyətdən o qədər də fərqlənmirdi, əsasən həmin lullubi, kuti, su, turukki tayfalarının özlərindən və ya törəmələrindən ibarət idi. Manna və maday tayfalarının kökündə də onlar dayanırdı. Onlar türkdilli tayfalar idi [7, s.250,256]. Herodotun qeyd etdiyi altı maday tayfası-paretakenlər, struxatlar, buslar, budilər, arizantlar və maqların etnik mənsubiyyəti ilə bağlı müxtəlif fikirlər mövcuddur, amma dəqiq, əsaslandırılmış mövqe yoxdur. Diqqəti daha çox maq tayfaları cəlb edir. Əksər tədqiqatçılar maqları türk mənşəli hesab edir [9, s.395]. Onlar Azərbaycanın ən qədim tayfalarıdır. Ölkəmizdə geniş yayılmış mük, muğ tayfalarının da onların bir qolu olduğu qeyd olunur. Manna, Maday, Muğan və sair onların adı ilə bağlıdır. Məsələnin bir tərəfi də var ki, maqlar odpərəst, atəşpərəst olublar, farslar isə heç vaxt oda sitayiş etməyiblər, atəşpərəstliyin vətəni Azərbaycan idi, atəşpərəstlərin baş məbədi də orada idi [7, s.263]. Atəşpərəstliyin əsas kitabı "Avesta"nın təxminən e.ə. 660-cı illərdə meydana gəldiyi güman edilir. Bu kitabla bağlı müxtəlif fikirlər mövcuddur. Amma yuxarıda deyilənləri, atəşpərəstlik ənənələrini, oda xüsusi münasibəti nəzərə almaqla kitabın özünün və müəllifi Zərdüştün Azərbaycan dünyasına aid olduğu şübhə doğurmamalıdır. "Avesta" Qat, Yasna, Videvdad,

Yəşt kimi dörd əsas hissədən ibarətdir. Qatlar əsas mətndən bir neçə yüz il əvvəl yaradılmışdı [4, s.180]. "Avesta" həm samballı sənət əsəri, böyük bir dinin ideoloji bazası, həm də Azərbaycan tarixinin öyrənilməsi üçün vacib mənbədir. Kitabın 12 min dana dərisi üzərində yazıldığı qeyd olunur, lakin onun həmin variantı əldə qalmamış, e.ə. IV əsrdə Makedoniyalı İsgəndərin hərbi yürüşü zamanı yanğında məhv olmuşdur. Yalnız yeni eranın III əsrində Sasanilər tərəfindən bərpa edilib, pəhləvi dilinə çevrilərək yenidən kitab halına salınmışdır. Kitabın bu variantı da müasir dövrə tam şəkildə çatmamışdır [7, s.406]. "Avesta"nın ilk variantının "Avesta dili"ndə yazıldığı bildirilir, lakin bu dillə bağlı dəqiq məlumat yoxdur, onun maday və ya sak (skif) dillərinə, yəni türk dilinə yaxın olduğu güman edilir.

Bu dövrün əsas hərbi-siyasi fiqurlarından olan sak (skif) soyları ilə bağlı bəzi məlumatları bir daha dəqiqləşdirək. Ən geniş yanaşmaya görə, onlar türk və irandilli tayfalardan ibarət olmuşlar [2, s.118]. Bu, bir qədər qəribə görünə bilər ki, eyni adlı tayfa müxtəlif dillərdə danışıb. Bunu belə izah etmək olar ki, eyni protodilə məxsus tayfalar e.ə. III minillikdən başlayaraq ata yurdunu tərk edib müxtəlif ərazilərə yayılmışdı. Onların düşdükləri mühitə uyğun olaraq, dilləri də dəyişikliyə uğraya bilərdi.

Sak (Skif) etnonimi e.ə. VII əsrə aid assur mənbələrində işquzay, aşquzay şəkillərində qeydə alınmışdır [8, s.54-57]. Bu sözlər assurların dilində izah olunmadığına görə qətiyyətlə demək olar ki, həmin ifadələr onların özlərinin dilində səsləndirilmiş, assurlar da bu ifadələri onlardan götürmüşlər [15, s.242]. Bu sözlər türk dilinə məxsus

olmaqla, "oğuz" sözünün fərqli formalarından ibarətdir. Şimali Qara dəniz sahillərində yaşayan saklar (skiflər) isə özlərinə "skolot" deyirdilər. Herodota görə yunanların işlətdikləri skif (skit) sözü də buradan götürülüb [13, s.6]. Bir daha vurğulanmalıdır ki, skolot, iskit, skif sözləri eyni kökdəndir.

Bu dövrdə əlifbalı yazı mədəniyyəti də tədricən yayılırdı. Mədəni xalqlar əsasən Finikiya və arami yazı və dillərindən istifadə edirdi. Azərbaycanda yerli yazı variantlarının olmasına dair məlumat yoxdur. Yalnız Musa Kalankatlı epizodik olaraq qeyd edir ki, madayların yazısı olmuşdur [6, s.16]. Lakin bu yazı ilə bağlı hər hansı digər məlumat verilmir. Böyük ehtimalla hamı kimi madaylar da arami yazısından istifadə edirdilər.

Bu dövrdə ən vacib məsələlərdən biri də qeyd olunmalıdır. Bu vaxt "Azərbaycan" sözünün ilkin variantına rast gəlinir. E.ə. VIII-VII əsrlərə aid mixi yazılarda Andarpatkanu/ Andarpatkan, Andirpattianu yaşayış məskənlərinin, bölgələrin adlarına təsadüf edilir. Həmin bölgələr manna və maday tayfalarının yaşadığı əraziləri, Qızıl-Üzən çayının sahillərini, indiki Qəzvin şəhərinin ətrafını əhatə edirdi [8, s.42,74; 2, s.133].

Rus şərqşünası Nina Piqulevskayanın "SSRİ xalqlarının tarixinə dair Suriya mənbələri" (Moskva-Leninqrad, 1941) kitabında tərcümə edərək verdiyi "Karxi de Bet Seloxun tarixi" adlı V-VI əsrə aid Suriya mənbələrində göstərilir ki, Maday hökmdarı Arbak (Adurbad, Azurbad) Assuriyanı məğlub edərək, qala divarlarını tikdi, həmin ərazilər onun adı ilə Adorbayqan torpağı adlandırıldı. Bu fakt antik müəlliflərdən Ammian Marsellin tərəfindən də təsdiq olunur [14].

Yuxarıda adı çəkilən Maday (Midiya) hökmdarı Arbak haqqında Assuriya hökmdarı II Sarqonun salnaməsində də e.ə. 713-cü il hadisələri ilə bağlı məlumat verilir [16, s.104]. Beləliklə, Adurbad, Adorbayqan, Andarpatkan, Andirpattianu adları həmin dövrə qədər Azərbaycan dövlətinin artıq mövcud olduğu nəzərə alınmaqla, "Azərbaycan" adının qədim forması kimi qeyd olunmalıdır.

Bunların əsasında demək olar ki, Azərbaycan sözü başlanğıcını bu yer, əyalət adlarından götürmüş, tədricən müasir formasını almışdır. Bəzi tədqiqatçılar diqqəti e.ə. Azərbaycanda mövcud olmuş "azər", "azari" yer adlarına yönəldir, məsələn, qeyd edirlər ki, e.ə. VIII əsrin sonlarında Assur hökmdarı II Sarqonun yürüşü ilə əlaqədar Azərbaycanın Mazamua bölgəsində Azari şəhərinin adı çəkilir [8, s.40, 76; 3, s.19]. İstənilən halda bilməliyik ki, Azərbaycan adı qədim tariximiz, ərazimiz, dövlətimizlə bağlıdır.

Bu dövrdə Azərbaycan əhalisinin dini təsəvvürləri əsasən çoxallahlılıq və bütpərəstliklə bağlı idi. "Avesta" kitabı artıq yazılmışdı, ona uyğun atəşpərəstlik məbədlərinin qalıqları aşkar edilib. Həsənlitəpədə tapılmış qızıl camın üzərindəki təsvirlər tanrılara sitayişi və qurbanlar verilməsini nümayiş etdirir [10]. Azərbaycan Yaxın Şərqin mədəni və dini mərkəzlərindən birinə çevrilmişdi. Maday parçaları bir çox ölkələrdə yaxşı tanınırdı. Onların üzərində at, xoruz, keçi, maral və başqa heyvanlar təsvir edilirdi. Maday xalatları bütün Yaxın Şərqdə məşhur idi [12, s.453]. Azərbaycanlılar artıq böyük, dəbdəbəli evlər, saraylar tikir, şəhərlər salır və şəhər mədəniyyəti ilə tanış idilər. Tikilən qalalar artıq yerli memarlıq nümunələrini əks etdirirdi. Mərənd şəhəri yaxınlığında Livar qalasının,

Azərbaycan-Türkiyə-İran sərhəddinin qovuşduğu yerdə Sərənc qalasının, Maku qalasının və digərlərinin qalıqları o dövrün möhtəşəm memarlıq nümunələridir. Arxeoloji qazıntılar zamanı çoxlu sayda incəsənət, dekorotiv sənət, heykəltəraşlıq, metalişləmə və sair nümunələr aşkar edilmişdir. Müəyyən sahələrdə bir-birindən öyrənir, təcrübələrini bölüşürdülər. Məsələn, madaylar oğullarını atıcılıq təlimi keçmək üçün sakların (skiflərin) yanına göndərirdilər.

Müxtəlif tayfalar qarşılıqlı əlaqədə yaşayır, bir-birlərinin mədəniyyətlərini zənginləşdirir, ümumazərbaycan mədəniyyətini, dini inanclarını, dünyagörüşünü formalaşdırırdılar. Bütün sahələrdə ciddi nəticələr əldə olunurdu.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan Milli Ensiklopediyası (25 cilddə), I cild. Bakı, “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzi, 2009.

2. Azərbaycan tarixi, I cild (Z. Bünyadov və Y. Yusifovun redaktəsi ilə). Ali məktəblər üçün dərslik. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

3. Cəlilov F. Azər xalqı. Bakı, “Ağrıdağ”, 2000.

4. Fazilli A. Atropatena. E.ə. IV-e. VII əsri. Bakı, “Elm”, 1992.

5. Herodot. Tarix (Tərcümə: Pənah Xəlilov), I kitab. Bakı, 1998.

6. Kalankatlı M. Albaniya tarixi. Bakı, 1993.

7. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, “Təhsil”, 2003.

8. Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə. Bakı, “Təhsil”, 2006.

9. Yusifov Y. Qədim Şərq tarixi. Bakı, “Bakı Universiteti”, 1993.

10. Porada E. The Hasanly Bowl. Erpedition, 1, № (3), 1959.

11. Алиев И. Очерк истории Атропатены. Баку, Азернешр, 1989.

12. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, т.1. Баку, 1991.

13. Геродот. История, IV. В сб.: Историки Греции. Москва, «Художественная литература», 1976.

14. Гусейнов Р. Азербайджан и армянский вопрос на Кавказе. Баку, 2015, раздел 1.1.

15. Дьяконов И.М. История Мидии от древнейших времен до конца I в. до н.э. Москва-Ленинград, изд. АН СССР, 1956.

16. Фрай Р. Наследие Ирана. Москва, 2002.

# III fəsil. Adərbayqan və Arranda müstəqil dövlətçiliyin davam etdirilməsi (e.ə. IV-y.e. III əsrləri)

## *§ 1. Adərbayqan (Atropatena) müstəqil dövlətçiliyin yeni mərhələsində.*

Bu dövrdən başlayaraq Azərbaycanın cənub və şimal ərazilərində parallel şəkildə dövlətçilik davam etdirilir. Cənub torpaqlarımızda bu ənənələrin artıq üç min il yaşı var idi, Araz çayından şimala doğru torpaqlarımızda isə bu proses bir neçə əsr əvvəldən başlanmışdı. Şimal torpaqlarımızla bağlı bu qənaəti hələlik əldə olan materiallar əsasında deyə bilirik. Yeni arxeoloji və yazılı mənbələr ortaya çıxdıqda məsələyə yenidən baxılacağı da istisna edilmir. Azərbaycanın şimal torpaqları daş dövrünün ən qədim mərhələlərindən başlayaraq fasiləsiz şəkildə insanların yaşayış məskəni olmuşdur. Ona görə də burada dövlətçilik ənənələrinin bu qədər gec yaranması məntiqli görünmür. Böyük ehtimalla çox gec olmadan bu təsəvvürlər yeni materialların üzə çıxarılması ilə dəyişəcəkdir.

Bu dövrdə Azərbaycanın cənub torpaqlarında yeni dəyişikliklər özünü göstərdi. İlk növbədə, qeyd edək ki, cənub torpaqlarımızla bağlı əvvəlki əsrlərin məlumatlarına əsaslanaraq, "Azərbaycan" adının ilkin variantlarını nəzərə alaraq, artıq Adərbayqan adını işlədə bilərik. Bu dövrdə  də "Azərbaycan" adımız müxtəlif mənbələrdə fərqli şəkildə qeyd olunur. Kənar mənbələrdən bu asılılığa və aludəçiliyə son qoyulmalıdır. Bizim dövlətimizi, dilimizi kimlərinsə necə adlandırmasına o qədər də fikir verilməsinə ehtiyac yoxdur.

"Atropatena" adı e.ə. I - e. I əsrlərində yaşamış yunan tarixçisi və coğrafiyaçısı Strabon tərəfindən irəli sürülüb və böyük əksəriyyət tərəfindən qəbul edilib, bu ad dünya tarixşünaslığında özünə yer edib. Strabona böyük ehtiramımızla yanaşı qeyd etməliyik ki, bu, onun subyektiv fikri olub və hər hansı digər mənbə ilə təsdiq olunmayıb, sadəcə, ondan sonra gələn müəlliflər asan yol seçərək, eyni adı təkrar ediblər. Strabon bu adı qoyarkən heç bir mənbəyə istinad etməyib., "Atropat" adlı hökmdarın olması faktına söykənərək, öz versiyasını irəli sürüb. Bu versiyanın Adərbayqanın mövcud olduğu dövrdən 300-400 il sonra səsləndirilməsi diqqətə alınmalıdır. O qədər vaxtdan sonra bu adın irəli sürülməsi ciddi qəbul edilə bilməz. Strabon özü həmin ərazini daha çox "Midiya", "Böyük Midiya", "Kiçik Midiya" adlandırır, "midiyalılar" ifadəsindən istifadə edir [12, s.15]. Məsələnin bu tərəfi də diqqətdə saxlanılmalıdır. Strabon eyni zamanda "Atropat Midiyası", "Atropatena" ifadələrini işlədir [12, s.15-16]. Qədim dövr Azərbaycan tarixçisi Allahverdi Əlimirzəyev haqlı olaraq bildirir ki, "ölkəmizin tarixi ilə bağlı" vacib məsələlərə dair Strabonun dediklərini etibarlı hesab etmirik: "Onun "Coğrafiya"sında tariximizlə bağlı informasiyalarda xeyli uyğunsuzluqların olması heç kəsə sirr deyil" [1, s.75]. Strabonun bu "müəllifliyi"nin digər mənbələrlə təsdiq olunmadığını, reallığı əks etdirmədiyini, həmin vaxtdan çox-çox əvvəl Atur, Atr, Atır, Adır, Andir və sair söz kökləri ilə Azərbaycanda etnonim və toponimlərin mövcud olduğunu nəzərə alaraq, hesab edirik ki, "Atropatena" adından birmənalı şəkildə imtina olunmalıdır. Strabonun Atropat dediyi hökmdar həqiqətən dövlətə rəhbərlik edib,

yerli mənbələrdə adı "Aturpat" kimi təqdim olunub. Dövlətin onun adı ilə adlandırılması heç bir mənbə ilə təsdiq olunmur, həmçinin məntiqlə də həqiqətə uyğun deyildir. Dövlət öz adını e.ə. VIII-VII əsrdən etibarən müxtəlif mənbələrdə, o cümlədən mixi yazılarda əks olunan "Antarpatkan", "Andirpatianu", "Adərbayqan" ifadələrindən götürmüş, bu dövrdən isə Adorbaycan, Adərbayqan formalarında işlədilmişdir. Xüsusi olaraq qeyd edilməlidir ki, bir sıra dünya şərqşünasları bu mövqeni müdafiə edirlər. Məsələn, 1893-cü ildən başlayaraq alman tarixçiləri Yorgen Aleksandr Knudson, Pol Rost, Ernest Georg Klauber, Fridrix Vilhelm Köniq e.ə. 714-670-ci illərin mixi yazılı mətnlərində xatırlanan Antarpatianu (Andirpatianu) toponimini "Atropatena" / "Azərbaycan" məhfumunun ilkin variantı kimi dəyərləndirirdilər [1, s.68]. Lakin İqor Dyakonov, İqrar Əliyev kimi sovet alimləri bu fikirləri rədd edərək, diqqəti yanlış istiqamətə yönəltdilər. Bu məqamda bir məsələni də diqqətə çatdırmaq olar. Bəzi ərəb mənbələrində yer alan rəvayətlərə görə, Adərbayqanlılar Nuh Peyğəmbərin oğlu Samın nəvəsi Azərbazın övladlarıdır [10, s.47-48]. Məlumatın rəvayət şəklində çatmasına baxmayaraq, adın uyğunluğu nəzərə alınmalıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, bu vaxtdan Azərbaycanda ikidövlətçilik dövrü başlanmışdır. Azərbaycanın şimalında və cənubundakı bu dövlətlər müəyyən əlaqələrdə olmuş, bəzən bir-birinin ərazilərinə nüfuz etmiş, bəzən xarici təhlükələrə qarşı birlikdə çıxış etmişlər. Adərbayqanda bu dövr ərzində iki sülalə- Aturpatilər və Arsaklılar hakimiyyətdə olmuşdur. Aturpatilər ilk məlum hökmdarı Aturpatın ("Avesta" dilində "od qoruyan" mənasını verib)

adı ilə bağlıdır. Arsaklılar sülaləsi isə Azərbaycan əhalisi ilə eyni kökdən olan türk mənşəli parfiyalılarla bağlı idi.

Aturpat maday-türk mənşəli olmuş, atasının adı mənbələrdə "Eran" kimi verilmişdir. Bu adı türk mənşəli "Ərən", "Aran" kimi də təqdim etmək olar [2, s.392-393]. Aturpatı bəzən əfsanəvi Turan hökmdarı Əfrasiabla eyniləşdirir, bir farsdilli mənbədə göstərildiyi kimi, "Adərbayqanın "Qənzək şəhərinin onun tərəfindən salındığını" qeyd edirlər [14, s.119].

Aturpatilər sülaləsi təxminən y.e. I əsrinə qədər hakimiyyətdə oldu. Onların adları türkcə izah olunan digər nümayəndələrindən Artabazan, Ariobarzan, Artavaz və digərlərini göstərmək olar. Onların adlarının mənası əsasən türk dilində izah olunur. Artabazan-türk dilində "arta"- şux, gümrah mənasını verir, "bazan" isə türk soyunun adıdır. Ariobarzan-"ario" türk dilində igid, cəsur deməkdir, "barzan" isə "bazan" sözü ilə eynidir. "Artavaz"- "arta" yuxarıdakı söz ilə eynidir, "vaz" isə "bazan" sözünün qısaldılmış variantıdır [3, s.401-402].

Adərbayqan indiki Cənubi Azərbaycan ərazisində meydana gəldi, eyni zamanda Şimali Azərbaycanın müəyyən hissəsini də əhatə edirdi. Araz çayı iki Azərbaycan dövlətini bəzən ayırır, bəzən də birləşdirirdi, yəni müəyyən vaxtlarda onların arasında sərhəd xətti elə də ciddi rol oynamırdı. Naxçıvan bölgəsi əksər hallarda Adərbayqanın tərkibində olurdu. İndi Ermənistan deyilən Qərbi Azərbaycan, Zəngəzur, hətta Qarabağ da iki dövlətin təmas xəttində yerləşdiklərinə görə bəzən müştərək ərazilər kimi istifadə olunurdu. Bu məsələyə dolayısı ilə bağlı olan bir fakt diqqəti cəlb edir. Məşhur Ağqoyunlu

hökmdarı Uzun Həsənin həyatı, hakimiyyət yoluna həsr olunmuş "Kitabi-Diyarbəkriyyə" əsərində göstərilir ki, Uzun Həsən Oğuz boylarından, Bayandır (bəzən "Bayındır" şəklində yazıllır.-A.N.) xanın nəslindəndir. Bayandır nəslinin çox qədimlərdən Şimali və Cənubi Azərbaycan, Şərqi Anadolu ərazilərində yaşadığı qeyd olunur. Bildirilir ki, Uzun Həsənin 23-cü babası Sunqur bəy Məhəmməd Peyğəmbərin zamanında, yəni VII əsrdə Göyçə və Zəngəzur tərəflərdə yaşayıb, ömrünün son illərini isə Arpa çayının gündoğanında Alaqız və Göyçə gölü yaylaqlarında keçirib. Əsərdə daha sonra göstərilir ki, Uzun Həsənin 54-cü babası Oğuz xan, 52-ci babası isə Bayandır xan olub. O da qeyd olunur ki, Bayandır xan "İran, Turan, Rum, Şam" və digər əraziləri hakimiyyəti altında saxlayır, qışda Qarabağda, yayda Göyçə gölü tərəflərdə yaşayırdı [6, s.XII; 8, s.39-49]. Bu məlumatlara diqqətlə yanaşılmalı, dəqiqləşdirilməli, istifadə olunmalıdır. Bu faktlara söykənərək, üç babaya bir əsr ayırsaq, Bayandır xanın hakimiyyət dövrü e.ə. IV-III əsrlərə uyğun gəlir. Nöqsanlarımızdan biri də odur ki, biz antik mənbələrə həddindən artıq aludə olur, onların məlumatlarını az qala fetişləşdirir, qərəzli və kəsik-kəsik verdikləri məlumatlardan özümüzə tarix düzəltməyə çalışırıq. Nəticədə Qərb tarixçilərinin istəklərinə uyğun olaraq, yarımçıq, anlaşılmaz, daim məğlub göstərilən xalqın tarixini yaratmış oluruq. Şərq mənbələrinə ciddi yanaşmalı, onlara daha çox inanmalı, istinad etməliyik. Yuxarıda deyilən faktlar əsasən Adərbayqan ərazisində oğuz-türk tayfalarının fəaliyyətinə əlavə aydınlıq gətirir. Təsadüfi deyil ki, həmin dövrü regionumuzda "Sak dövrü", "Oğuz dövrü" adlandırırlar. Oğuz xanı təxminən eyni

dövrdə yaşamış hun hökmdarı Mete xanla da eyniləşdirirlər [3, s.442]. Əlbətdə, istənilən müqayisə qüsurludur, amma bir fakt aydındır ki, uzaq minilliklərdən başlayaraq hara baxsan, orada türk izi görünür. Bu faktı ört-basdır etmək mümkün deyil. Hara çevrilsən, qarşında türkü görürsən, hansı daşı qaldırırsan, altından türk çıxır.

Beləliklə, e.ə. IV əsrin ortalarında Əhəmənilərin hakimiyyəti tənəzzülə doğru gedirdi. E.ə. 334-cü ilin yazında Makedoniyalı İskəndər Kiçik Asiyaya daxil oldu. E.ə. 334-cü ilin mayında Qranik çayı (Türkiyənin Çanaqqala vilayətində Qocabaş çayı) sahilində onun Əhəmənilərlə birinci döyüşü oldu. İskəndərin Əhəməni ordusu ilə ikinci döyüşü e.ə. 333-cü ildə İss şəhəri (Türkiyənin Hatay vilayətində şəhər) yaxınlığında oldu. Əhəmənilər məğlub oldular və hökmdar III Dara döyüş meydanından qaçdı. Kiçik Asiya İskəndərin hakimiyyəti altına keçdi. Üçüncü döyüş e.ə. 331- ci il oktyabrın 1-də Qavqamel kəndi (indiki İraqın Ərbil şəhərinin yaxınlığında) yaxınlığında baş verdi. III Daranın ordusu darmadağın edildi [11, s.41-43]. Ancaq III Dara məğlubiyyətlə barışmaq istəmirdi. O, Adərbayqanın mərkəzi hissəsinə, Ekbatana qaçdı və orada ordu toplamağa başladı. Orada satrap Aturpat idi və o, Qavqamel döyüşündə iştirak etmişdi. İskəndər Aturpatı satraplıqdan azad edib, oraya yeni canişin təyin etmişdi. Ancaq tezliklə vəziyyət dəyişdi. Aydın oldu ki, Aturpatın müttəfiqləri olan kadusilər və skiflər (saklar) III Daranı müdafiə etmirlər. Belə şəraitdə Aturpat da III Daranın ətrafından çəkildi. Buna görə də III Dara Ekbatanı tərk edərək, şərqə, Parfiyaya doğru hərəkət etdi. İsgəndər təqib edərək, indiki Nətənz şəhəri (İranın İsfahan vilayə-

tində) yaxınlığında ona çatdı. III Daranın sərkərdələri onu düşmənin əlinə keçməməsi üçün nizə zərbələri ilə öldürdü. İsgəndərdən əvvəl ona çatan, son nəfəsini eşidən yunan döyüşçülərindən İsgəndərə salam göndərdi. İsgəndər çatanda o artıq ölmüşdü. İsgəndər ona hörmətlə yanaşdı, əbasını çıxarıb üstünü örtdü, sonra isə Əhəmənilərin paytaxtlarından olan Persepol (indiki Şiraz şəhərinin yaxınlığında xarabalıqları qalır, bu şəhər az sonra İsgəndər tərəfindən yandırıldı, bu yanğında "Avesta"nın dana dəriləri üzərində yazılmış ilk variantı da məhv oldu) şəhərində təntənəli dəfnini təşkil etdi. Aturpat da öz siyasətini dəyişdi və İskəndərin tərəfinə keçdi. Buna görə də o, e.ə. 328-ci ildə öz əvvəlki satrap vəzifəsinə bərpa edildi.

İskəndər başqa torpaqları işğal etməklə məşğul olan zaman Aturpat öz hakimiyyətini möhkəmləndirdi. Ümumiyyətlə, İskəndər Aturpatın idarə etdiyi əraziyə daxil olmamışdır. Aturpat makedoniyalılarla qohum oldu. O öz qızını İskəndərin yaxın sərkərdələrindən birinə - Perdikkaya ərə verdi. İskəndər yerli zadəganlarla qohumluğa əhəmiyyət verirdi. İskəndər özü 2 Əhəməni şahzadə qızına evlənmiş, onun ənənəsini özünün 80 dostu davam etdirmişdi. Həmçinin Suz təntənələrində 10 min döyüşçü yerli qadınlarla evlənmişdi. E.ə. 323-cü ilin iyununda İskəndər öldü. İskəndərdən sonra onun varisi Aturpatın kürəkəni Perdikka oldu. E.ə. 321-ci ildə Perdikkanın ölümündən sonra satraplıqlar ikinci dəfə bölüşdürüldü.

Adərbayqan Şərqdə Makedoniya təsirindən azad olan ilk müstəqil dövlət oldu. Azərbaycanda yenidən müstəqil dövlət meydana gəldi. Paytaxtı Qazaka və Vera (indiki Marağa) [7] şəhərləri olmuşdur. Fars dilində VII əsrdə

yazılmış "Şatristanhaye İran" əsərində göstərilir ki, Azərbaycan (Adurbadaqan) vilayətinə Gəncək (Qazaka), Frasyak (Fraaspa), Turkert (Tavreş, Təbriz) bölgələri daxildir [4]. Adərbayqan hökmdarlarından Aturpat (e.ə. 328-280-ci illər), Artabazan (e.ə. 230-190-cı illər), Mitridat (e.ə. 110-65-ci illər), Dara (e.ə. 65-50-ci illər), Vanonun (20-30-cu illər) hakimiyyət tarixləri məlumdur [5, s. 49-50]. E.ə. IV əsrin sonunda Azərbaycanın qonşuluğunda Selevkilər dövlətinin əsası qoyuldu. Selevk (e.ə. 305-280) və onun oğlu I Antioxun (e.ə.280-261) səylərinə baxmayaraq e.ə. III əsrin ortalarına yaxın Selevkilər dövləti tənəzzülə uğradı. Baktriya, Soqdiana və Parfiya ondan ayrıldı. Tezliklə Parfiya müstəqil dövlətə çevrildi.

Adərbayqan dövlətinin fəaliyyəti ilə bağlı məlumata yenidən e.ə. III əsrin 20-ci illərində rast gəlirik. Polibinin verdiyi məlumata görə Artabazanın ölkəsi Xəzər dənizindən Rion çayının yuxarılarına kimi davam edirdi, Qərbi Azərbaycan (indiki Ermənistan) və İberiya əraziləri onun tərkibinə daxil idi. Selevki hökmdarı III Antioxun dövründə (e.ə. 223-187) Selevkilər Adərbayqan dövlətinin daxili işlərinə qarışmağa cəhd etdi. III Antioxun Artabazanla müharibəsi sülh yolu ilə başa çatdı, hər iki dövlət öz sərhədləri daxilində qaldı. E.ə. III əsrin sonu Selevkilər dövlətinin qüdrətli dövrü idi. Ancaq e.ə. 190-cı ildə III Antiox romalılarla müharibədə məğlub olandan sonra Selevkilər dövlətinin tənəzzül dövrü başladı. Adərbayqan tam müstəqil dövlət kimi fəaliyyətini davam etdirirdi [16]. E.ə. II əsrin 50-ci illərində türk mənşəli parfiyalılar həlledici siyasi qüvvəyə, e.ə. II əsrin sonu - I əsrin əvvəllərində isə Parfiya ən qüdrətli dövlətə çevrildi. Türk Parfiya dövlə-

tinin Adərbayqana da təsiri gücləndi. Ancaq Parfiyanın onu tutması barədə fakt yoxdur. E.ə. I əsrdə Adərbayqan Roma işğalçılarına qarşı müharibədə iştirak etdi. E.ə. I əsrin ortalarında dünya xəritəsi Parfiya və Roma arasında bölündü. E.ə. 53-cü ildə Parfiya Romalıları ciddi məğlubiyyətə uğratdı. Bu döyüşdə Adərbayqan Parfiyalıların müttəfiqi olmuşdur. E. ə. 36-cı ildə Roma dövlətinin başçısı Antoninin də Adərbayqan və Parfiyaya qarşı yürüşü məğlubiyyətlə başa çatdı. Eranın təqribən 20-ci ilində yerli Aturpatilər sülaləsinin Adərbayqanda hakimiyyətinə son qoyuldu. Burada Parfiyanın kiçik Arsaklılar qolunun idarəçiliyi başladı [9].

Parfiyalılar türk mənşəli idilər, onları çox vaxt "türkmənlərin babası" adlandırırdılar. Onlar uzun müddət regionumuzda olmuş, yerli tayfalarımızla xoş münasibətlər qurmuşdular. Onların ilkin paytaxtı Türkmənistanın Aşqabad şəhəri yaxınlığında yerləşən Nisa şəhəri idi. Onlar imperiya yaratdıqdan sonra Maday sülaləsinin vaxtında Azərbaycanın mərkəzi şəhəri olmuş Ekbatanı özlərinə paytaxt seçdilər. Sonradan indiki Bağdad yaxınlığında Tisfun şəhərini də paytaxt etdilər (bu şəhər qərb mənbələrində Ktesifon, sonrakı Şərq ənənələrində Mədain adlandırılıb) [15, s.72]. Parfiya imperiyası III əsrə qədər mövcud oldu, sonradan Sasanilər tərəfindən məğlub edildi. Onların hakim Arsaklılar sülaləsi Adərbayqan və Arranda qohum soylar kimi qəbul olundu, burada hakimiyyətdə oldular, Parfiya süqut etdikdən sonra da Azərbaycanda hakimiyyətlərini yerli sülalə olaraq davam etdirdilər.

Burada Azərbaycan tarixinə şərik qoşmaq istəyənlərin "Armina", "Armeniya" iddiaları ilə bağlı bəzi məsələləri

qeyd etməliyik. Bu termin ilk dəfə Azərbaycanda hakimiyyəti zəbt etmiş Əhəmənilər sülaləsinin nümayəndəsi I Daranın (e.ə. 522-486) vaxtında ortaya çıxdı. O, ölkəni 20 vilayətə- satraplığa böldü. Azərbaycanın tarixi torpaqları 3 satraplığın- Midiya (Maday- .A.N.), Kaspi (buraya Cənubi Qafqazın bir hissəsi daxil idi.- A.N.), Armina (buraya Urartunun xeyli hissəsi daxil idi) satraplıqlarının tərkibinə daxil edildi. Maday, sonra Əhəməni sülalələrinin dövründə Urartunun (bu dövlət e.ə. 590-cı ildə Maday sülaləsi tərəfindən Azərbaycanın tərkibinə daxil edilmişdi.- A.N.) adı tədricən dəyişikliyə uğradı, onun inkişaf etmiş əyalətlərindən Armarilinin adı ilə adlandırıldı, fars mənbələrində "Armina", yunan mənbələrində "Armeniya" formasını aldı. Bu termin ilk dəfə Əhəmənilərə aid Bisitun kitabəsində (İranın Kirmanşah şəhəri yaxınlığında) işlədilib. I Daranın fars, babil, elam dillərində yazdırdığı bu kitabə fars və elam variantında "Armina" yazılıb, babil variantında isə "Urartu" forması saxlanılıb [17, s.107]. Bundan sonra "arminalı" mənasını verən "erməni" ifadəsi yarandı, həmin ərazidə yaşayan bütün etnoslara aid edildi, bir müddət sonra isə özlərinə "hay" deyənlər tərəfindən mənimsənildi. Armina ərazisi əvvəlcə Midiya (Maday) satraplığına daxil idi, sonra ayrıca satraplığa, Kserksin (e.ə. 486-465) vaxtında isə Qərbi və Şərqi Armina olmaqla iki satraplığa bölündü [13, s.108-109, 111]. Makedoniyalı İsgəndərdən sonra Adərbayqan müstəqilliyini qoruyub saxladı, lakin onun bir hissəsi olan Armina vilayəti yeni yaranmış Selevkilər dövlətinin tərkibinə daxil edildi. Bu vilayət fars mənşəli iki canişin- Artaksi və Zariadr tərəfindən idarə olunurdu [17, s.111]. Sonralar erməni mirzələri Artaksinin

adını saxtalaşdıraraq "I Artaşes"ə çevirdilər. E.ə. 190-cı ildə Selevkilər dövləti Roma ilə müharibədə məğlub oldu və siyasi arenadan çıxdı. Bundan sonra Armina vilayəti fars əsilli hakimlər, sonralar isə parfiyalı Arsaklılar sülaləsinin bir qolu tərəfindən yarım müstəqil şəkildə idarə olundu.

Parfiyada hakimiyyətdə olan Arsaklılar sülaləsinin kiçik qollarından biri Adərbayqanda əsasən müstəqil siyasət yeritdi, bəzən Parfiya və Roma imperiyaları arasında manevr etməli oldu, Romalıların təzyiqlərinin qarşısında dayana bildi, müstəqilliyini davam etdirdi. Selevk, Parfiya, Roma kimi imperiyalarla eyni vaxtda mövcud olmaq və müstəqilliyi qoruyub saxlamaq o qədər asan deyildi. Aturpatilər sülaləsi bu vəzifənin öhdəsindən gəldi. Onlar yeni eranın birinci əsrinin əvvəlinə qədər hakimiyyətdə oldular, yeni eranın əvvəlində onları Arsaklılar sülaləsi əvəz etdi. Kiçik və ya Adərbayqan arsaklıları yeni eranın III əsrinin əvvəllərinə, Sasani işğallarına qədər hakimiyyətdə oldular. Bu arsaklılar sülaləsindən mənbələrdə Artaban, Pakor, Vologezin adları məlumdur. Onların sonuncu nümayəndəsi V Artaban 224-cü ildə Sasanilərlə müharibədə məğlub oldu [2, s.90-93].

Beləliklə, Adərbayqanın yerli Aturpati və Arsaklı sülalələri gərgin siyasi vəziyyətə, imperiyaların təzyiqlərinə baxmayaraq 600 il ərzində müstəqil dövlətçiliyimizi qoruyub saxladı və davam etdirdilər.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Əlimirzəyev A. "Makedoniyalı İsgəndərin müasiri olan iki atropat: şəxsiyyətin identifikasiyası ilə bağlı problemlər". At-

ropatena Azərbaycan tarixçilərinin tədqiqatlarında (məqalələr toplusu). Bakı, "Nəşriyyat" şöbəsi, 2024.- http://tarixinstitutu.az/web/uploads/books/books/2024/10/Atropatena12.07.202411.pdf.

2. Fazili A. Azərbaycanın qədim və erkən orta əsrlər tarixi İran tarixşünaslığında. Bakı, "Elm", 1993.

3. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, "Təhsil", 2003.

4. Quliyev C. Əlincə.- ok.ru/group/ 52850792136810/topic/61518944095082.

5. Məmmədov İ., Məmmədova L. Azərbaycan dövlətləri və hökmdarları. Bakı, "Ləman Nəşriyyat Poliqrafiya" MMC, 2020.

6. Şaik O.G. Dedem Korkudun kitabı. İstanbul, 1973.

7. Strabon, XI, 13, 2, 3.

8. Şükürlü Ə. "Dədə Qorqud dastanlarının meydana çıxması tarixi və itmiş boyları haqqında.- "Kitabi-Dədə Qorqud-1300" elmi-praktiki konfransın materialları. Bakı, "Ünsiyyət", 2000.

9. Tuncay B. Aturpatena (Azərbaycan) Dövləti, 2012.- turuz.com/book/little/Aturpatena +Azərbaycan+Dövləti+Bəxtiyar+-Tuncay.

10. Vəlixanlı N. Ərəb Xilafəti və Azərbaycan. Bakı, Azərnəşr, 1993.

11. Ismailov D. History of Azerbaijan (textbook). Baku, AzMIU NPM, 2017.

12. Алиев К.Г. Античние источники по истории Азербайджана. Издание второе. Баку, «Элм», 1987.

13. Дандамаев М.А., Луконин В.Г. Культура и экономика древнего Ирана. Москва, Наука, 1980.

14. Касумова С. Ю. Азербайджан в III-VII вв. Баку, «Элм», 1992.

15. Минин Д.Е. Хосров I Ануширван (531-579), его эпоха и его жизнеописание и поучение в истории Мискавейха. Москва, Институт востоковедения РАН, 2014.

16. Полибий.-История, V, 55.

17. Сафаров Р. «Некоторые вопросы исторической географии Атропатены».- Atropatena Azərbaycan tarixçilərinin tədqiqatlarında (məqalələr toplusu). Bakı, "Nəşriyyat" şöbəsi, 2024.- http://tarixinstitutu.az/web/uploads/books/books/2024/10/ Atropatena12.07.202411.pdf

## *§ 2. Arranda (Albaniyada) klassik dövlətçilik ənənələrinin yaranması.*

Adərbayqanla eyni vaxtda Azərbaycanın Araz çayından şimala doğru ərazilərində digər dövlətimiz- Arran (Albaniya) dövləti mövcud idi. Bu dövlətin eradan əvvəlki dövrü ilə bağlı məlumatlar çox azdır. Bəzi mənbələrdə bu ərazidə çox qədimdən dövlətin, tanınmış hökmdarların olması ilə bağlı işarələr vardır. Məsələn, Azərbaycan tarixçisi Musa Kalankatlı burada "alban" adlı tayfaların qədim dövrlərdən yaşadığını, onların hökmdarlarının Nuh peyğəmbərin (e.ə. III minilliyin birinci yarısı, bəzi məlumatlara görə, e.ə. IV minilliyin birinci yarısı) oğlu Yafəsin nəslindən olduqlarını iddia edir, 40 hökmdarın adını çəkir. Onlardan təxminən eradan 1700 il (bəzi mənbələrdə 2100 il) əvvəl, İbrahim peyğəmbərin dövründə yaşamış Aran, ondan sonrakı dövrlərə aid Ərbaq, Cavan, Sur, Əmbək, e.ə. XI-X əsrlərdə, Davud peyğəmbərin dövründə yaşamış Borc, daha sonra Xoy, Cavanşir və digərlərinin adlarını çəkir [2, V fəsil]. M. Kalankatlının və digər müəl-

liflərin fikrinə görə, yeni eranın əvvəlinə qədər Arranda (Albaniyada) bu şəcərənin nümayəndəsi Aranın adına bağlanan Aranlılar sülaləsi hakimiyyətdə olub. Bu sülalənin yuxarıda qeyd olunanlardan başqa, rəsmi mənbələrdə təsdiq olunan nümayəndələri, demək olar ki, məlum deyil. E.ə. I əsrdə Romalıların hücumları ilə bağlı adları çəkilən və Aranlılar sülaləsinə aid edilən Oroys, Kozis, Zober haqqında məlumatlar mövcuddur. O da aydındır ki, onların adları Roma mənbələrində dəyişikliyə uğramış, təhrif olunmuşdur. Arran (Albaniya) dövlətinin e.ə. IV əsrdən etibarən mövcud olduğu məlumdur, lakin həmin vaxtlarda dövlətin quruluşu, konkret fəaliyyəti, idarəetmə sistemi, hökmdarları ilə bağlı məlumatlar hələlik yox dərəcəsindədir.

Dövlətimizin həmin dövrü ilə bağlı kifayət qədər zəngin arxeoloji materiallar vardır. Şəmkir rayonunun Qaracəmirli kəndi yaxınlığında son dövrdə aparılan qazıntılar nəticəsində e.ə. VI-IV əsrlərə aid saray qalıqları, yaşayış məskəni aşkar edilib. Burada 1000 kv metrdən artıq ərazidə çoxlu sayda maraqlı nümunələr əldə edilib [5]. Mingəçevirdə aşkar edilmiş arxeoloji nümunələr burada, Arranda yaşayan əhalinin madaylarla əlaqələrindən, həyat və məişətlərinin yaxınlığından xəbər verir. Orada tapılan e.ə. V əsrə aid üzük-möhürlər dövlətin yüksək səviyyəsini, iqtisadiyyatın inkişaf etdiyini göstərirdi [11, s.54]. Qəbələ rayonu Yaloylutəpə ərazisində aşkar edilən arxeoloji materiallar Arranın (Albaniyanın) e.ə. III-I əsrlərə aid tarixi ilə bağlı qiymətli məlumatlar verir. Buradakı tapıntılardan qəbirlər daha dəqiq faktlarla zəngindir. Məlum olur ki, insanlar həmin qədim dövrdə xüsusi qaydada, böyrü

üstə dəfn olunurdu. Qəbirlərdən tapılmış dəmir bıçaqlar, oraqlar, kirkirələr, xəncərlər, nizələr, oxlar, qızıl sırğa və üzüklər, su və yemək qabları və sair dövlətin siyasi, hərbi, iqtisadi gücünü, inkişaf səviyyəsini göstərirdi [12]. Bu və digər materialların əsasında tədqiqatçıların əksəriyyəti hesab edir ki, Arran (Albaniya) dövləti e.ə. IV-III əsrlərdə meydana gəlmiş, formalaşmışdır.

Herodotun "Tarix" kitabında (e.ə. V əsr) albanların adı çəkilmir, yalnız onlara qohum olan kaspilərdən, onların sakların qonşuğunda yaşadıqlarından bəhs olunur [8, s.92-93]. Böyük ehtimalla, Herodot "kaspi" ifadəsi ilə Azərbaycanın şimal torpaqlarında yaşayan digər tayfaları, o cümlədən albanları da nəzərdə tuturdu. Albanların adı e.ə. IV əsrdə Makedoniyalı İsgəndərin regiona hərbi yürüşü ilə əlaqədar çəkilir. Makedoniyalı İsgəndəri müşayiət edən hərbi salnaməçilər göstərir ki, Əhəmənilərin hakimiyyətdə olduğu Azərbaycan dövlətinin qoşunlarının tərkibində Makedoniyalı İsgəndərə qarşı saklar, kadusilər, madaylarla yanaşı albanlar da çıxış edirdi [11, s.53]. Bu dövrdən başlayaraq albanlar hərbi-siyasi güc, öz dövlətinə malik xalq kimi regionun bütün vacib hadisələrində iştirak edir. Makedoniyalı İsgəndərin və ya onun varislərinin Arrana (Albaniyaya) daxil olmaları, özlərinə tabe etmələri haqqında heç bir məlumat yoxdur. Arran (Albaniya) haqqında geniş məlumat e.ə. I əsrdə Romalıların regiona müdaxiləsi ilə əlaqədar yunan müəllifi Strabonun "Coğrafiya" əsərində, hərbi salnaməçilərin yazılarında verilir. Onlar qeyd edirlər ki, Arran (Albaniya) artıq regionun hərbi-siyasi həyatında fəal iştirak edir, güclü mərkəzi hakimiyyətə, yaxşı silahlanmış orduya malik idi [11, s.58-59, 145].

Adərbayqanda olduğu kimi, Arranda (Albaniyada) da Parfiya dövləti e.ə. II-I əsrlərdə yerli sülalələrin hakimiyyətinə toxunmadı, ümumi idarəetmənin bu formasına üstünlük verdi, Arranlılar sülaləsi ölkəni, demək olar ki, tam müstəqil idarə edirdi. Yeni eranın I əsrindən isə parfiyalılar yerli sülalə ilə qohumluq əlaqəsinə görə tam yaxınlaşdılar və özlərinin Arsaklılar sülaləsinin kiçik qollarından birini Albaniyanın (Arranın) rəhbərliyinə göndərdilər. Alban-arsaklılar sülaləsi dövləti müstəqil şəkildə idarə edirdi. M. Kalankatlı bildirir ki, bu sülalənin ilk nümayəndəsi Sanatruk oldu. O, 63-cü ildə hakimiyyətə gəldi (IV əsrdəki Sanatrukla qarışdırmamalı.- A.N.). Onun hakimiyyətini I Cəsur Vaçaqan davam etdirdi. M. Kalankatlı kitabının başqa bir yerində alban-arsaklılardan ilk hökmdarın adını Aran olaraq yazır, onun Sisakan nəslindən olduğunu qeyd edir [2, s.26]. İlk baxışdan ziddiyyət kimi görünən bu yanaşma, əslində ziddiyyət deyil, müəllifin müxtəlif dövrlərdə hakimiyyətdə olmuş Azərbaycan sülalələrinin eyni adları daşıması, qohumluq əlaqələrinin olmasına diqqəti yönəltmək istəyindən irəli gəlir. Bu hallar diqqəti əsas məsələdən yayındırmamalıdır. Əsas məsələ isə ondan ibarətdir ki, hələlik əldə olan məlumatlara görə, Azərbaycanın Arran (Albaniya) bölgəsinin qədim tarixini e.ə. I minilliyin ortalarına qədər apara bilirik. Həmin dövrdə burada dövlət yarandı və inkişaf etdi.

Beləliklə, e.ə. IV əsrin sonu—III əsrin əvvəllərində Azərbaycanın şimalı və indiki Dağıstanın cənub bölgələrində daha bir qədim Azərbaycan dövləti- Arran (Albaniya) təşəkkül tapmışdı. Albaniya adı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Rusiyalı tarixçi Kamilla Trever hesab

edir ki, "Albaniya" adının mənası tam aydın deyil. Onun fikrinə görə, məsələ həm də ona görə çətindir ki, Balkanlarda eyni adda ölkə mövcuddur, həmçinin bu ada İtaliya və Şotlandiyada rast gəlinir. Şotlandiyanın qədim kelt adı "Albaniya" olub, Şotlandiyanın adalarından biri "Arran" adını daşıyır, bu da Albaniyanın adlarından biridir [11, s.8]. Tədqiqatçılar bu maraqlı faktlar arasında əlaqəni hələlik müəyyənləşdirə bilməyiblər. Bu məsələyə aydınlıq gətirmək üçün Ulu dil nəzəriyyəsinə müraciət etməliyik. Həmin nəzəriyyəyə görə müxtəlif dillərdəki oxşar ifadələr onların vahid dildən əmələ gəlməsi ilə bağlıdır. Arranın (Albaniyanın) yerli əhalisinin öz ölkələrini necə adlandırdıqları ilə bağlı mənbələrdə məlumat yoxdur. Albandilli bütün mənbələr Ərəb xilafəti dövründə ərəblər və erməni kilsələri tərəfindən məhv edilmişdir. Digər mənbələr isə ölkəni öz dillərinə uyğun adlandırmışlar. Yunanlar ölkəni Albaveya, latınlar Albaniya, farsdilli mənbələr Arran, ərəbdilli mənbələr Ər-Ran şəklində adlandırmışlar [13, s.4]. Əsəri bizə gəlib çatmış alban tarixçisi Musa Kalankatlı "Alban ölkəsinin tarixi" kitabında (bu kitabın əsli Ərəb xilafəti dövründə erməni kilsəsi tərəfindən məhv edilmiş, erməni dilinə tərcümə edilmiş variantı saxlanılmışdır) göstərir ki, ölkə ilk yarıəfsanəvi hökmdarı Aranın adı ilə Arran adlandırılmışdır [2, IV fəsil]. Musa Kalankatlı yerli müəllif olduğuna, öz ölkəsinin tairixinə yaxından bələd olduğuna görə, onun səsləndirdiyi adın reallığa uyğun olduğu daha inandırıcıdır. Yunan, Roma, fars müəlliflərinin də təqdim etdikləri versiyalar "Arran" adının müxtəlif dillərdə təhrif olunmuş variantları ola bilərdi. Üstəlik fars və ərəb mənbələri M.Kalankatlının il-

kin "Arran" variantını təkrar edirlər. Ona görə də ölkənin adının qədimdən Arran olduğunu qəbul edir, lakin dünya tarixşünaslığında işlək hala gəlmiş "Albaniya" adından da istifadə etməyi davam etdiririk. Onu da qeyd etməliyik ki, "alban" sözünün özü Azərbaycan mənşəlidir. Bu söz Azərbaycan türkcəsində "cəsur", "igid" mənasını daşıyan alp/alb ifadəsi və "an" cəm şəkilçisi ilə izah olunur [7, s.76]. "Albaniya" adının yalnız e.ə. I əsr antik mənbələrdən başlayaraq işlədildiyi də diqqətə alınmalıdır [9, s.38-39]. Arran (Albaniya) şimalda indiki Dağıstan, qərbdə İberiya, cənubda isə Adərbayqan ilə həmsərhəd idi. Şərqdə onun hüdudları Xəzər dənizinə söykənirdi. İndiki coğrafi şərait baxımından qədim Arran (Albaniya) Azərbaycan Respublikasını, Ermənistanı və Gürcüstan respublikasının isə bir hissəsini, Dərbəndi və Cənubi Dağıstanı əhatə edirdi. Bu dövlətin paytaxtı əvvəl Qəbələ, sonra isə Bərdə şəhəri oldu. Herodot, Pompey, Ptolomey, Strabon, Troq, Yuli Solin, Arrian və digərləri Arran (Albaniya) əhalisinin etnik cəhətdən rəngarəng olduğunu qeyd etmişlər. Strabona görə, "26 dildə danışan əhaliyə" malik Albaniyada alban, sakasen, mük, uti, qarqar, sövde, kaspi, qel, leh, mard, silv, sodi, lupen və sair tayfalar məskunlaşmışdılar. [10, s.777]. Strabonun "26 dil" anlayışını Arranın (Albaniyanın) bütün ərazisinə aid etmək düzgün deyil. O, ya yanlış mənbədən istifadə edib, ya da bunu ölkənin şimalında, Cənubi Dağıstanda yaşayan əhali ilə bağlı bildirib. Albaniyanın mərkəzi hissəsində, Kür çayının sağ və sol sahillərində ciddi dil müxtəlifliyi olmayıb. Burada yaşayan qədim türk tayfaları yeni gələn türk tayfaları ilə qovuşaraq böyük əksəriyyət təşkil edirdi [1, s.146-150]. Bəziləri alban adının

hələlik izahsız qaldığını iddia etsələr də Azərbaycan türkmən, qazax və digər türk dillərində "alban", "alpan" adlarının qalması həmin adın türk mənşəli olduğunu göstərir. Arran (Albaniya) ərazisində ilkin tayfa ittifaqları hələ e.ə. II miniliyin sonu-I miniliyin başlanığıcında meydana çıxmışdı. E.ə. VI-IV əsrlərdə Əhəmənilərin hakimiyyətdə olduğu Adərbayqan dövlətinin təsir dairəsinə düşmüş Arranda (Albaniyada) artıq e.ə. IV əsrin sonlarından etibarən dövlətin bəzi əlamətləri seçilirdi. Məsələn, qeyd etdiyimiz kimi cəsur alban, kaspi və sakasenlərdən ibarət qoşunlar Qavqamel döyüşündə III Daranın tərəfində iştirak etmişdir [6, s.46]. Roma mənbələrində e.ə. I əsrə aid hökmdar Oroys (e.ə. 80-30-cu illəri), Zober (e.ə. 30- e.10-cu illər) və Oroysun qardaşı sərkərdə Kozisin adları yer alıb. Parfiya əsilli arsaklılardan Vaçaqan, Vaçe, Urnayr, Satoy, Asay, Asuagen və digərləri məlumdur [4, s.56, 57].

Roma dövlətinin qoşunları sərkərdə Pompeyin rəhbərliyi ilə e.ə. 66-cı ildə ilk dəfə regiona gəldi. Tarixi mənbələrdə adı çəkilən ilk Arran (Alban) hökmdarı Oroys Kür sahilində 40 minlik ordu ilə romalılara hücum etdi. Oroys hücum üçün yaxşı vaxt seçsə də qəfil hücum alınmadı. Vaxtında hücumdan xəbər tutmuş Pompey döyüşü uddu və Oroysu müqavilə bağlamağa vadar etdi. Pompey bundan sonra İberiyaya üz tutsa da albanlar ona rahatlıq vermir, romalıları tələfata məruz qoyur, qiyamlar qaldırırdılar. Qəzəblənmiş Pompey geriyə qayıdaraq Kürü keçdi və e.ə. 65-ci ilin əvvəllərində Alazan sahilində Oroysun qardaşı Kozisin başçılıq etdiyi 72 min nəfərlik alban qoşunu ilə üz-üzə gəldi. Roma sərkərdəsi hərbi hiylə işlədərək albanları tələyə saldı. Qanlı döyüşün gedişində Kozis qı-

lıncı ilə özünə yol açaraq Pompeyin dayandığı düşərgəyə daxil olub Roma sərkərdəsini nizə ilə vurdu. Pompey isə nizə zərbəsi ilə Kozisi ölümcül yaraladı. Arran (Alban) qadınlarının da iştirak etdikləri bu döyüş də romalıların qələbəsi ilə bitdi. Dağlara çəkilən Oroys yenidən Pompeylə sülh bağlamalı oldu [11, s.104]. Lakin albanların sonrakı müqaviməti Pompeyə Xəzər sahillərinə çıxmağa imkan vermədi. Eramızın I-II əsrlərində Arranın (Albaniyanın) tarixi haqqında məlumatlar azdır. Yeni eranın 20-ci illərindən Arranda (Albaniyada) taxta Parfiyalı Arsaklıların nümayəndələri çıxdılar. Alban Arsaklıları da ölkənin müstəqiliyyini qoruyub saxlamağa nail oldular [3, s.109].

Beləliklə, Arran (Albaniya) dövləti uğurlu siyasət yeridərək müstəqilliyini qoruyub saxladı, sonrakı uğurlar üçün ciddi zəmin hazırladı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan tarixi, I cild (Z. Bünyadov və Y. Yusifovun redaktəsi ilə). Ali məktəblər üçün dərslik. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

2. Kalankatlı M. Albaniya tarixi, I kitab. Bakı, "Avrasiya Press", 2006.

3. Məmmədova F. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı, Elm, 1993.

4. Məmmədov İ., Məmmədova L. Azərbaycan dövlətləri və hökmdarları. Bakı, "Ləman Nəşriyyat Poliqrafiya" MMC, 2020.

5. Şəmkirin Qaracəmirli kəndində Qafqazın ən qədim tikilisi aşkarlanıb.- medeniyyet.az/page/news/1967/Semkirin-Qaracemirli-kendinde-Qafqazin-en-qedim-tikilisi-askarlanib.html.

6. Ismailov D. History of Azerbaijan (textbook). Baku, AzMİU NPM, 2017.

7. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, т.1. Баку, "Элм" 1991.

8. История (Геродот), кн. 3. Талия.

9. Новосельцев А., Пашуто В., Черепнин Л. Пути развития феодализма. Москва, 1972.

10. Страбон. География, кн. XVI, гл.4, 18.

11. Тревер К. Очерки по истории и культуре Кавказской Албании IV в. до н.э.-VII в н.э. Москва-Ленинград, Изд-тво АН СССР, 1959.

12. Ялойлутепинская культура// Экслибрис-ЯЯ. Москва, Советская энциклопедия, 1978. (Большая советская энциклопедия: [в 30 т.]. (гл. ред. А.М.Прохоров, 1969-1978, т.30).

13. Ямполский З. К вопросу об одноимененности древнейщего населения Азербайджана.- Труды UUFAN Азерб, ССР, 1954.

## *§ 3. Azərbaycanın iqtisadiyyatı və mədəni-mənəvi dəyərləri.*

Azərbaycan iqtisadiyyatı bu dövrdə klassik struktura malik idi, sənətkarlıq, kənd təsərrüfatı və ticarət bölmələrindən, fəaliyyət sahələrindən ibarət idi. İqtisadiyyatın müxtəlif sahələri Azərbaycanın hər iki hissəsində, həm Adərbayqan (Atropatena), həm də Arran (Albaniya) dövlətlərində uğurla inkişaf edir, müəyyən fərqləri nəzərə almaqla, təxminən eyni xüsusiyyətləri əks etdirir, oxşar vəzifələri yerinə yetirir və qarşılıqlı əlaqələri təmin edirdilər. İqtisadi və siyasi proseslər bir-birini tamamlayır, şərtləndirir və bir-birinin inkişafına, təkmilləşməsinə şərait yaradırdı.

İki Azərbaycan dövlətinin qarşılıqlı əlaqələri bütün sahələri əhatə edirdi. Onların Araz çayı boyunca keçən sərhədləri çox vaxt şərti xarakter daşıyırdı. Müasir Naxçıvan və Zəngəzur ərazilərini əhatə edən Sisakan və ya Sünik vilayəti, həmçinin Kürlə Arazın qovuşduğu əraziləri əhatə edən Balasakan vilayəti müxtəlif dövrlərdə gah Arranın (Albaniyanın), gah da Adərbayqanın tərkibinə daxil olmuşdur [7, s.124]. Bu vəziyyət təxminən II əsrə qədər davam etmiş, III əsrdən isə həmin ərazilər birdəfəlik Arranın (Albaniyanın) tərkibinə daxil edilmişdir. Bu hal həm də bəzi tayfaların, məsələn, kaspi, albanların hər iki dövlətin ərazilərində yaşamaları ilə bağlı idi [9].

Əldə olan materiallar göstərir ki, Adərbayqanda kənd təsərrüfatı, sənətkarlıq, ticarət, şəhər həyatı yüksək səviyyədə inkişaf edib, özünəməxsus mədəniyyət, yerli dil və yazı mövcud olub. Mənbələrdə daha çox məbəd torpaq sahibliyinin inkişaf etdiyi göstərilir. Əhali əkinçilik, maldarlıqla məşğul olurdu, üzümçülük geniş yayılmışdı. Heyvandarlıq, xüsusilə atçılıq inkişaf etmişdi. Burada dünyada tanınan "Nisa" cinsli atlar yetişdirilirdi. Adərbayqanın müəyyən yerlərində neft də çıxarılır, xarici ölkələrə ixrac olunurdu. Qərb ölkələri onu "Midiya yağı" adlandırırdılar. Qazaka, Fraaspa, Fanaspa kimi şəhərlər sənətkarlıq və ticarət mərkəzləri idi. Hindistan, Çindən başlayaraq ticarət yolu Adərbayqan, Arran (Albaniya) ölkələrindən keçərək Aralıq dənizinə çıxırdı [3, s.20-21].

Arranın (Albaniyanın) çox bərəkətli torpağı var idi, ildə iki və ya üç dəfə məhsul götürmək mümkün idi. Burada su dəyirmanlarından geniş istifadə olunurdu. Şəhərlərdə sənətkarlıq emalatxanaları fəaliyyət göstərirdi. Ən

məşhur sənətkarlıq sahələrindən biri metalişləmə idi. Bu sahənin sənətkarları silah, əmək alətləri, məişət əşyaları, bəzək məmulatları düzəldirdilər. Dulusçuluq, şüşə istehsalı, toxuculuq da geniş yayılmışdı [3, s.24-26].

Arran (Alban) və Adərbayqan mədəniyyətinin nadir nümunələri də yaradılırdı. Alban daş heykəlləri xüsusi yer tutur. Ağdam, Bərdə, Tərtər, Ağdərə bölgələrində daşdan yonulmuş 19 insan heykəli, bütlər aşkar edilib [12, s.100-104]. Balbal adlandırılan bu nadir abidələr Azərbaycanın qədim tarixinə işıq salır, həmçinin Mərkəzi Asiyadakı türk abidələri ilə eyniyyət təşkil etməklə türk dünyasının tarixinə dair əlavə sübutlar verir [10, s.85-86].

Qarabağ heykəlləri hörüklü saça malik kişi təsvirlərindən ibarətdir. Qədim Azərbaycan tayfalarından llullubilərin bu cür hörük saxladıqları məlumdur. Saklar (Skiflər), xəzərlər də "hörüklü saç" saxlayırdılar [5, XII fəsil]. Qarabağın Canyataq bölgəsində tapılmış "hörüklü heykəl"lərdən biri vaxtilə Bakıya gətirilmiş və hazırda Qız qalası yaxınlığında açıq havada saxlanılır. Bu heykəllər Azərbaycan xalqının qədim dövrlərdə yüksək mədəniyyətə sahib olduğunu göstərir. Dünyada analoqu olmayan bu abidələrin yaranma tarixi, mahiyyəti, nə məqsədlə yaradıldığına dair geniş tədqiqatların aparılmasına ehtiyac var. Dünya alimləri hələ də bu möhtəşəm abidələrin tədqiq olunmasının yollarını tapa bilmir.

Adərbayqanda da mədəniyyətin müxtəlif sahələri, o cümlədən, şəhərsalma, qala tikililəri, heyvan şəkilli dulusçuluq məmulatları, saxsı qablar üzərində həndəsi fiqur, çiçək rəsmləri, naxışların salınması inkişaf etmişdi. Bu nailiyyətlər burada keramika, saxsı qablar məktəbinin ya-

radılmasına gətirib çıxarmışdı. Bu incəsənət məktəbi e.ə. III- y.e. II əsrlərini əhatə edirdi [3, s.23-24].

Azərbaycan ərazisi dini etiqad baxımından müxtəlifliyi ilə seçilmişdir. Adərbayqanda bütpərəstlikdən sonra zərdüştlük geniş yayılmışdı. Adərbayqan zərdüştlüyün mərkəzi idi [8]. Burada dinin baş məbədi Adur-Quşnaps yerləşirdi. E.ə. V-IV əsrlərdən başlayaraq islama qədərki dövrdə burada zərdüştlük, atəşpərəstlik, demək olar ki, yeganə din olub. Yeni eranın əvvəllərindən etibarən burada xristian dininin təbliğinə cəhd edilib, amma ciddi nəticəsi olmayıb.

Arranda (Albaniyada) yeni eranın I əsrinə qədər müxtəlif səma cisimlərinə, bir az da oda sitayiş olmuşdur. Yuxarıda qeyd etdiyimiz kişi heykəllərinin də dini ayinlər üçün istifadə olunduğu bildirilir [14]. Burada xristianlıq yeni eranın 54-57-ci illərində apostol (həvari) Müqəddəs Yeliseyin missionerlik fəaliyyəti ilə başlanmışdır [15]. Ona görə də alban kilsələri apostol kilsələri adlandırılır. Müqəddəs Yeliseyin yaratdığı dini icmalar uzun müddət fəaliyyət göstərmiş, xristian dininin təbliği ilə məşğul olmuşlar. M.Yelisey I əsrdə Şəki rayonunun Kiş kəndində Qafqazda ilk kilsənin əsasını qoyub. O, I əsrin 70-ci illərində Şəkidə öldürülüb, şagirdləri onun işini davam etdirib [5, XLVIII fəsil].

Bu dövrdə ortaq dilimizin inkişafı ilə bağlı da keyfiyyət dəyişiklikləri baş verdi. Ümumiyyətlə, dil daha çox canlı orqanizmə bənzəyir, daim dəyişir, yenilənir, zənginləşir. Ona görə də tariximizin bütün mərhələlərində ümumi danışıq dilinin vəziyyəti diqqətdə saxlanılmalıdır. Məlumdur ki, e.ə. I minilliyin birinci yarısında, klassik

dövlətçiliyimizin yarandığı, hakimiyyətdə Manna, Maday, Sak (Skif) sülalələrinin bir-birini əvəz etdiyi dövrdə ümumi ünsiyyət vasitəsi kimi türk dilində danışan Azərbaycan xalqı formalaşmışdı. Baxdığımız dövrdə xalqın və dilin təkmilləşməsi prosesi davam edib.

Azərbaycanın Araz çayından cənuba doğru əraziləri ilə bağlı Adərbayqan (Atropatena) və yaxud azəri, daha çox isə maday (Midiya) dili ifadəsi işlədilir. Çox vaxt bu deyilən dilləri fars dili ilə bağlamağa çalışırlar. Lakin bu iddianı əsaslandırmaq üçün heç bir fakt, ciddi sübut yoxdur. Qədim dövrlərdən bu ərazidə lullubi, kuti, turukki, su, kas, manna, maday, sak (skif), hun, kaspi, maq, kadusi və digər tayfalar yaşayırdı. Bunların hamısı türk tayfaları idi, onların farslara heç bir aidiyyatı yox idi [6, s.388]. Əksinə, madayların nümunəsində gördük ki, onların farslara düşmən və nifrət mövqeyi olmuşdur. Bəzi müəlliflər e.ə. I minillikdə "azəri dili" ifadəsinin işlədildiyini qeyd edir. Daha çox isə "maday dili" ifadəsi işlədilir. Madaylar isə türkdilli tayfalar idi. Türk dilinin mövqeyinin güclənməsi ilə bağlı e.ə. II əsrdə regionda Parfiya amilinin meydana gəlməsi də nəzərə alınmalıdır. Yeni eranın I əsrində yaşamış romalı müəllif Pompey Troq qeyd edir ki, parflar skif əsilli idilər, onların dili skiflərlə madayların (mətndə midiyalıların.- A.N.) dilləri arasında "orta mövqe tutur, hər ikisinin qarışığından ibarət idi" [13]. Aydındır ki, iki müxtəlif dildən başqa birinin yaranması mümkün deyil. Söhbət bir dilin iki ləhcəsindən gedə bilərdi. Parflar türk dilinin maday və sak (skif) ləhcələrinin sintezindən ibarət olan dildə, türk dilində danışırdılar. Onların regionda hakim mövqe tutmaları türk dilinin də mövqeyini gücləndirdi. Deyilən-

ləri belə yekunlaşdırmaq olar ki, e.ə. I minilliyin birinci yarısından etibarən Araz çayından cənuba doğru ərazilərimizdə Adərbayqan (Azərbaycan), qısa desək, azəri dili işlədilmişdir. Azəri dili türk dilinin ilkin formalarından idi [2, s.226]. Tədqiqatçıların fikrinə görə, azəri dili "Midiya" (Maday.- A.N.)- "Atropatena" (Adərbayqan) dilinin birbaşa davamı olaraq formalaşmışdı [10, s.120]. Həmin dövrdə xalqımız türk dilində danışırdı, amma "türk" ifadəsi hələki işlədilmirdi. Azəri adlı tayfanın olması, onların fars mənşəli "azəri dilində" danışmaları ilə bağlı iddiaların heç bir əsası yoxdur, qərəzli tarixçilərin uydurmasından başqa bir şey deyildir. Azəri adlı, ümumiyyətlə, tayfa heç vaxt mövcud olmayıb [6, s.557].

Araz çayından şimala doğru ərazilərimizdə də eyni proseslər baş verirdi. Yerli türk tayfaları güclənir, yeni türk tayfaları davamlı şəkildə ölkəyə gəlir, yerlilərlə qaynayıb-qarışırdılar. Burada türk dilinin başqa bir ləhcəsi-arran dili inkişaf edirdi. Ərəb müəllifləri bu dillə bağlı Arran dili, M. Kalankatlı, suriyalı müəllif Zaxari Ritor və digərləri isə həm Arran, həm də Alban dili ifadəsini işlədirdi. Z. Ritor həm də "Arran (Albaniya) diyarı" ifadəsindən istifadə edirdi [2, s.217-220].

Burada albanlarla yanaşı aran, qarqar, quqar, uti, kaspi, kəngər, sak, massaget, tərtər, sovde, hun, savar, macar və digər türkmənşəli, eyni zamanda udin, leq, ciqb kimi qafqazdilli, maskut, gel kimi irandilli tayfalar yaşayırdı [8, s.142-189]. Əhalinin əksəriyyətini uzaq keçmişdən burada məskunlaşmış albanlar, qarqarlar, utilər və yeni eranın əvvəllərində ölkəyə gələn qıpçaqlar, oğuzlar, hunlar təşkil edirdi [6, s.352].

Üç məsələyə diqqəti cəlb etmək istəyirik. Birincisi, alban tayfalarının türk mənşəli olması ilə bağlı heç bir şübhə qalmamalıdır. Türklüyünə şübhə edilməyən hun tayfalarının da içərisində alban adlı tayfa olmuşdur [4, s.194]. Albanların Qafqazdilli olması ilə bağlı heç bir tutarlı sübut yoxdur [1, s.22]. Əksinə, Fəxrəddin Kırzıoğlu, Şükrü Kaya, Adnan Seferoğlu, Yusif Yusifov, Zelik Yampolski, Qiyasəddin Qeybullayev, Firudin Cəlilov kimi alimlər albanların türk olduqlarını göstərirlər. Ünlü tarixçimiz Mirzə Bala Məmmədzadə isə "Albaniyanı türk ölkəsi" adlandırır [1, s.23]. Azərbaycanın şimallı-cənublu ərazilərinin çox yerində bu gün də alban adında toponimlər qalır. İkincisi, qafqazdilli udinlərlə türkdilli utiləri qarışdırmaq, yanlış fikirlər irəli sürmək olmaz. Onların arasında heç bir əlaqə yoxdur [2, s.149]. Utilər və onların bir qolu olan utiqurlar hun-türk tayfa ittifaqına daxil idilər [6, s.342]. Üçüncüsü, mənbələrə görə Alban hökmdarı Aran Sisakan (sünik), sisakların nəslindən idi. Deməli, Sisakan (Zangəzur, Sünik) əhalisi də Aranın öz tayfasından- aranlılardan (albanlardan) ibarət olmuşdur [6, s.350].

Beləliklə, e.ə. IV- y.e. III əsrləri arasında Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir, meydana gəlmiş iki dövlətimiz əlaqəli şəkildə fəaliyyət göstərir, vahid ərazi, bir dövlət, ümumi Azərbaycan türk dili, birgə mədəni-mənəvi dəyərlərin formalaşmasına doğru gedir, əvvəlki dövrlərdə əldə olunmuş nəticələri möhkəmləndirirdi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Ağayev R. Ərəb Xilafəti dövründə Azərbaycan əhalisinin etnik və sosial tərkibi (VII-IX əsrlər). Avtoreferat. Bakı, 2023.

2. Azərbaycan tarixi, I cild (Z. Bünyadov və Y. Yusifovun redaktəsi ilə). Ali məktəblər üçün dərslik. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

3. Azərbaycan tarixi (ən qədim zamanlardan- XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik. Bakı, "Bakı Universiteti", 2014.

4. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

5. Kalankatlı M. Albaniya tarixi, II kitab. Bakı, "Avrasiya Press", 2006.

6. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, "Təhsil", 2003.

7. Məmmədova F. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı, "Elm", 1986.

8. Бартольд В.В. Сочинения. Москва, изд.-тво «Восточная литература», 1963, т.II, часть 1.

9. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, т.1. Баку, «Элм», 1991.

10. Кубарев В.Д. Древние изваяния Алтая (Оленные камни). Новосибирск, «наука», 1979.

11. Меликов Р. «Атропатенская ономастика».- Atropatena Azərbaycan tarixçilərinin tədqiqatlarında (məqalələr toplusu). Bakı, "Nəşriyyat" şöbəsi, 2024.- http://tarixinstitutu.az/web/uploads/books/books/2024/10/Atropatena12.07.202411.pdf.

12. Халилов М. Антропоморные каменные изваяния Карабаха.- журнал «Азербайджанская археология», № 1-4, 2004.

13. Трог П. «История Филиппа», 41-я кн. Санкт-Петербург, изд-во Санкт-Петербургского Университета, 2005, гл. 1- symposium.ru/ru/node/79.

14. Юсифов Ю.Б., Бабаев И.А. Кавказская Албания в эллинистическую эпоху. В кн.: Причерноморье в эпоху эллинизма// Мат-лы III Всесоюзн. симпозиума по древней истории Причерноморья. Тбилиси, 1985.

15. Ямпольский З.И. О приосхождении храмовой собственности древнего мира. «Вестник древней истории», Москва, 1959, № 4.

# IV fəsil. Azərbaycanın Sasanilər və Ərəb Xilafəti ilə münasibətləri

## *§ 1. Azərbaycan və Sasanilər dövləti. İqtisadi və ictimai dəyişikliklər.*

Parfiya imperiyası geniş əraziləri əhatə edir, çox vaxt idarəetmənin çətinlikləri ilə qarşılaşırdı. İmperiyanın təsir dairəsində olan bir sıra ərazilər, ölkələr, o cümlədən Adərbayqan, Arran (Albaniya) müstəqilliyə malik idi, müasir terminlərlə ifadə etsək, Parfiya konfederasiya tipli dövlət idi. Ərazilər yerli sülalələrin nümayəndələri tərəfindən idarə olunurdu. Belə ərazilərdən biri də Madaylar və Əhəmənilər sülalələrinin vaxtında Azərbaycan dövlətinin tərkibində olmuş Pars və ya Fars vilayəti idi. Parfiyanın tərkibində bu vilayəti yerli fars Sasanilər nəslinin nümayəndələri idarə edirdi. Nəslin ilk məlum nümayəndəsi Sasan məbəddə xidmət edirdi, kahin idi [19; 16, s.116-117]. Onun oğlu Papak (Babak) Pars vilayətinə daxil olan kiçik İstəxr bölgəsinin hakimi vəzifəsinə çata bilmişdi. Papakın oğlu Ərdəşir isə Parfiya Arsaklılar sülaləsinin zəifləməsindən istifadə edərək mərkəzi hakimiyyətə qarşı çıxdı. Ərdəşir 224-cü ildə İsfahan yaxınlığında Parfiya hökmdarı V Artabanın (mənbələrdə Adərbayqan arsaklılarının da sonuncu hökmdarı kimi V Artabanın, bəzən V Vologezin adları göstərilir. Bu, texniki səhv olaraq nəzərə alınmalıdır.- A.N.) qoşunlarını məğlub etdi. Bununla o, Parfiya dövlətinin ərazisində hakimiyyətə gəldi. I Ərdəşir (224-241-ci illər) Parfiyalıların paytaxtı Tisfun (Ktesifon, Mədain) şəhərini özünə mərkəz seçdi və 226-cı ildə orada tacqoyma mərasimi keçirərək özünü şahənşah (şahlar şahı)

elan etdi. Parfiya dövlətində yerli hakimlər şah adlanırdı. I Ərdəşir onları tabe etdiyinə görə özünü "şahların şahı" adlandırdı.

Sasanilər yeni bir dövlət yaratmadılar, Parfiyada Arsaklılar sülaləsini devirərək hakimiyyətə gəldilər. Hakimiyyətə gəldikdən sonra isə Parfiyadan nominal asılılıqda, çox vaxt müstəqil olan dövlətləri özlərinə tabe etməyə başladılar. Parfiyalılar Maday sülaləsinin vaxtındakı Ekbatan şəhərini paytaxtlarından biri kimi saxlamışdılar. Sasanilər bu ənənədən geri şəkildilər, Tisfun şəhərini paytaxt olaraq seçdilər. Şəhərin xarabalıqları Bağdad şəhərinin 32 km-də, Dəclə çayı tərəfdə qalıb. Bu dövlət işğalçılıq siyasətinə başlamış, Orta Asiyanın bir hissəsini, Adərbayqanı, Mesopotamiyanı tutmuşdu. Zəngin təbii sərvəti olan, əlverişli mövqedə yerləşən, Ərdəbil və Təbriz kimi iri şəhərləri olan Adərbayqan Sasanilər üçün daha əhəmiyyətli idi. Həmin vaxta qədər Adərbayqanı yerli arsaklılar nəslinin nümayəndələri idarə edirdi. Sasanilər 227-ci ildə yerli sülalənin hakimiyyətinə və ölkənin daxili müstəqilliyinə son qoydu, oraya canişin təyin etdi və Adərbayqan Sasanilərin ən mühüm əyalətlərindən birinə çevrildi [17, s.61-74]. Adərbayqanda hakim mövqe tutan Zərdüştlük dinini Sasanilər dövlət dini elan etdi. Şahənşah I Sapur (241-272-ci illər) itaət altına alınmış vilayətlərdə bu dini zorla yaymaq əmrini verdi. Adərbayqanın Qazaka şəhərindəki atəşpərəstlik məbədi yenə də baş məbəd hesab olunurdu. Şahənşahlar taxta çıxdıqdan sonra dövlətin mərkəzindən buraya piyada ziyarətə getməli idilər. Adərbayqan Sasanilərin tərkibində işğal edilmiş ərazi kimi dəyərləndirilə bilməz. Adərbayqan ölkə olaraq müstəqilliyini davam et-

dirir, dini mərkəz olaraq isə xüsusi, muxtar, özünü idarəetmə statusuna malik idi. Sasani nümayəndələri taxta çıxmaq, qanuni hökmdar adlanmaq üçün Adərbayqandakı dini mərkəzin xeyir-duasını almalı idi. Ona görə də, Sasanilərin Adərbayqan üzərindəki hakimiyyəti Adərbayqan dini mərkəzinin mərkəzi hakimiyyətə təsir imkanlarından üstün deyildi. Ümumiyyətlə, bu dövrə qədərki dövlətçilik xəttini bir daha diqqətə çatdıraq. E.ə. III minilliyin birinci yarısında Azərbaycan dövləti yarandı, e.ə. I minilliyin ortalarına qədər yerli Azərbaycan-türk sülalələri dövləti idarə etdi. E.ə. VI əsrdə yerli Əhəmənilər sülaləsi çevriliş yolu ilə hakimiyyətə gəldi. Lakin sonra Azərbaycan türk Aturpatilər, Arsaklılar sülalələri bir-birini hakimiyyətdə əvəz etdi, mərkəzi bölgəsi Azərbaycan olmaqla Parfiyalılar hakimiyyətə gəldi, onları eyni ərazidə Sasanilər əvəz etdi. “Sasani dövləti, imperiyası” deyib şişirtməyə ehtiyac yoxdur. O dövrdə mənbələrdə “Sasani dövləti” deyilən ifadə işlədilmir, bu dövlətə çox vaxt “Midiya dövləti”, “Parfiya dövləti”, bəzən də “fars dövləti”, qoşununa isə “midiya”, “parf” qoşunları, bəzən “fars qoşunları” deyilirdi. Sasanilər, sadəcə, Azərbaycan dövlətçilik ənənəsini davam etdirdi. Sasanilər sonra Arrana (Albaniyaya), İberiyaya hücum etdi. Uzunmüddətli müharibələrdən sonra Sasani dövləti 262-ci ildə Arranı da nüfuz dairəsinə daxil etdi [17]. Lakin Arran daxili müstəqilliyini saxladı, yerli Arsaklılar sülaləsi hakimiyyətdə qaldı. Azərbaycanın hər iki hissəsi müəyyən şərtlərlə Sasanilərin təsiri dairəsinə daxil oldu. Bu Azərbaycanın inkişafını ləngitsə də, onun iki hissəsinin – Adərbayqan və Arranın iqtisadi və mədəni cəhətdən yaxınlaşmasına şərait yaratdı.

Qeyd olunmalıdır ki, sonrakı ərəb mənbələrində bu dövrə aid tarixi torpaqlarımız, o cümlədən cənubda Qəzvin-Həmədan, şimalda Dərbəndə qədər ərazilərimiz artıq "Azərbaycan" deyə adlandırılır. Məsələn, göstərir ki, Sasani sülaləsindən ilk hökmdar Ərdəşir (224-241) "Həmədana, oradan... Azərbaycana doğru hərəkət etdi" [20, Paraqraf I], Sasani hökmdarı Bəhram (Bəhram Gur) (420-438) "türklərlə (xəzərlərlə.- A.N.) döyüşmək üçün... Azərbaycana yola düşdü" [20, Paraqraf X], "Kəsranın vaxtında (Xosrov Ənuşirəvan (531-579)- A.N) Azərbaycan və ona qonşu torpaqları..., bu da xəzərlərin ölkəsi isbahəzi (canişin.- A.N.) tərəfindən idarə olunurdu [4, s.74].

Bu dövrdə Arran əraziləri uğrunda Roma da mübarizə aparır, Sasaniləri oradan çıxarmağa çalışırdı. IV əsrdə Roma imperiyası ilə Sasanilər arasında Arran və İberiya uğrunda müharibələr baş verdi. IV əsrin əvvəllərində Arran (Albaniya) ərazilərinin bir hissəsi Romanın təsir dairəsinə keçdi. Sasanilərlə Roma arasında 359-cu ildə Amid (Türkiyənin Diyarbəkir vilayətində) yaxınlığında növbəti döyüş oldu, Sasani hökmdarı II Şapur qalib gəldi. Bu döyüşün nəticəsi olaraq, Arranın zəbt edilmiş əraziləri, Arsak, Naxçıvan, Kaspiana və s. vilayətləri geri qaytarıldı. Roma mövqeyindən geri çəkilmədi, 371-ci ildə Dzirav düzündə (Türkiyənin Ağrı vilayətində) yeni döyüş oldu. Dzirav döyüşündə öz qoşunları ilə Sasanilər tərəfində iştirak edən Arran hökmdarı Urnayr (313-371-ci illər) yaralandı. Roma qalib gəldi və Arranın Uti, Sakaşen, Girdman və Kolt (qərb əraziləri) vilayətlərini ələ keçirdi. Roma və Sasanilər arasında aparılan danışıqlardan sonra 387-ci ildə sülh müqaviləsi imzalandı, müqavilənin şərtlərinə görə

Dzirav döyüşündə itirilmiş ərazilər Arrana (Albaniyaya) qaytarıldı [10, s.35-36;15]. Bu vəziyyət təqribən VII əsrə kimi davam etdi.

Strateji əhəmiyyətə malik olan Arrana Sasanilər xüsusi əhəmiyyət verirdilər. Sasanilər şimaldan türk tayfalarının regiona gəlməsi, orada türk əhalisinin artıb güclənməsindən narahat idi. Dərbənd keçidini bağlamaq, nəzarətdə saxlamaq istəyi də bu qorxu ilə bağlı idi. Dərbənd torpaq istehkamı II Yezdəgirdin (438-457) dövründə tikildi, VI əsrdə daş divarlarla əvəz edildi [24, s.48-55]. Albaniyanın əhalisinin gücü və dövlətin vəsaiti hesabına inşa edilən istehkam Xəzər dənizinin içərilərinə doğru irəliləyirdi.

Azərbaycan xalqı Sasanilərin hakimiyyətini qəbul etmir, çıxışlar edir, üsyan qaldırırdı. Belə üsyanlardan biri 450-ci ildə baş verdi, geniş vüsət aldı, lakin sonda məğlub oldu. Yeni üsyan dalğası 457-ci ildə alban xaqanı II Vaçenin (444-463) başçılığı ilə baş verdi. Üsyançılar Dərbənd qalasını ələ keçirdi, Dağıstanda yaşayan tayfalarla ittifaqa girdilər. Hunların da qoşulduğu üsyan bir il davam etdi, amma sonda amansızlıqla yatırıldı. 463-cü ildə Arranda yerli sülalənin hakimiyyəti ləğv olundu və ölkəni Sasani canişini – mərzban idarə etməyə başladı [1]. 487-ci ildə Arranda Arsaklılar sülaləsinin sonuncu nümayəndəsi III Mömin Vaçaqan hakimiyyətə gəldi, yerli sülalənin hakimiyyəti bərpa edildi. Onun təşəbbüsü ilə 488-ci ildə Aquen şəhərində (indiki Ağdam rayonu ərazisində) kilsə məclisi çağrıldı, xristianlığın möhkəmləndirilməsinə dair qərarlar qəbul edildi. Lakin hakimiyyəti saxlamaq mümkün olmadı, 510-cu ildə Arsaklı sülaləsinin hakimiyyətinə son qoyuldu. Həmin vaxtdan 628-ci ilə qədər ölkəni Sasani canişinləri idarə edirdi.

Yeni eranın III-V əsrlərində Azərbaycanın ictimai-iqtisadi həyatında əhəmiyyətli dəyişikliklər baş verdi, yeni mülkiyyət formaları yarandı, iqtisadiyyatda irəliləyişlər oldu. Getdikcə maddi marağı söndürən icma torpaq sahibliyi dağılır, o torpaqlar baş mülkiyyətçinin ixtiyarından xüsusi şəxslərin əlinə keçirdi. Xüsusi şəxslərin əlinə keçən torpaq mülkiyyəti feod (latın dilində "əmlak", "mülk") və ya len (alman dilində "hədiyyə") adlanırdı [21].

Feodallaşma prosesi torpaq mülkiyyətinin xarakterini dəyişdirdi. Əgər əvvəlki dövrdə torpaq dövlətin və əyanların mülkiyyəti idisə, indi torpaqların bir hissəsi feodalların əlinə keçdi. Bu torpaqlar xidmətinə görə bağışlanır, xüsusi feodal torpaq mülkiyyəti iki yolla formalaşırdı:

1) Feodalın şəxsi mülkü olan torpaq üzərində irsi mülkiyyəti dastakert (pəhləvi dilində "əl" (dəst) və "yer" (kert) sözlərindən ibarətdir) adlanırdı.

2) Şərti torpaq mülkiyyəti xostak (pəhləvi dilində "bağışlanan" demək idi) [3, s.72.]. Bu forma hakim sinfin nümayəndələrinə, xüsusilə hərbçilərə xidməti müddətində dövlət tərəfindən müvəqqəti istifadə üçün torpaq verilməsi yolu ilə yaranırdı.

Feodallar iki qrupa- dünyəvi və  ruhani təbəqələrə bölünürdü. Dünyəvi sahibkarlar da öz növbəsində iri və xırda feodallara bölünürdülər. İri feodallara patriklər, xırda feodallara isə azatlar deyilirdi. Ruhani feodallar təbəqəsini Adərbayqanda Zərdüşt kahinləri, Arranda isə əvvəllər bütpərəstlik dini kahinləri, sonralar isə xristian kilsəsi xadimləri təmsil edirdilər. Feodal münasibətlərinin əsasını feodalın torpaq üzərində tam və kəndli üzərində tam olmayan mülkiyyəti təşkil edirdi [27].

Azərbaycanda bu dövrün bəzi fərqli cəhətləri olmuşdur. Onlardan ən vacibi kimi qeyd edilməlidir ki, Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da təhkimçilik hüququ tətbiq edilməmişdir. Bu da feodalların xüsusi təsərrüfatlarının zəif inkişafı və ya heç olmaması ilə əlaqədar idi. Arranda feodal münasibətləri, mənbələrə görə, IV əsrdə formalaşmışdır. Bu dövrdə əhalinin sosial tərkibini hakimlər, azatlar, ruhanilər, vergi verən kəndlilər və sənətkarlar təşkil edirdi [27].

Arran dövləti III-V əsrlərdə bir sıra vilayətlərə bölünürdü. Onlardan Çola (Çori), Şəki, Lipina, Girdman, Uti və Paytakaranı (Beyləqan) göstərmək olar. Onlar bir-birindən dağlar, çaylar və başqa təbii sərhədlərlə təcrid olunmuş ərazi idilər. Çola indiki Dərbənddən Beşbarmaq dağına qədər Kaspi dənizi boyunca uzanan ərazini tuturdu. Bura Alban qapıları adlanırdı. Albaniyanın şimal-qərbində dağlıq Şəki vilayəti, Çola ilə Şəki arasında Lipina yerləşirdi. Girdiman, mərkəzi Bərdə olan Uti vilayətləri geniş ərazini əhatə edirdi. Paytakaran vilayəti Mil düzünün və Muğanın bir hissəsini əhatə edirdi [26, s.157-178]. Təxminən həmin vaxtdan hər iki ərazi birlikdə Adərbayqan adlandırılırdı [2, s.215].

Yeni eranın ilk əsrlərindən dəyişikliklər dini, ideoloji sahədə də baş verirdi. Regionda hakim olan zərdüştlüklə yeni yaranan xristianlıq arasında mübarizə gedirdi. Yeni dini təşəbbüslərdən biri maniçilik adlanırdı. Bu dini təlim zərdüştlük və xristianlıqdan müəyyən cəhətləri götürməklə dünya dininə çevrilmək iddiasında idi. Bu təlim öz banisi Maninin (216-277) adı ilə adlanırdı. Bu təlimə görə maniçilik ümumi bir din olmalı və bütün mövcud dinləri

əvəz etməli idi. İlk dövrlərdə hakim zümrəyə qarşı çevrilməyən bu təlim sonradan hakim təbəqə əleyhinə narazılığı əks etdirirdi. Ona görə də Mani 277-ci ildə edam olundu, amma onun təliminin təsirləri qaldı [25, s.19-20]. IV əsrdə Arranda xristianlıq xeyli dərəcədə yayıldı, 313-cü ildə yerli hökmdar Urnayr (313-371-ci illər) tərəfindən rəsmi din olaraq qəbul edildi. Xristianlığın regiona gəlməsi ilə bağlı bir actual məsələ xüsusi qeyd olunmalıdır. IV əsrdə bütün albanlarla birlikdə Sisakan (Zəngəzur) əhalisi də xristianlığı qəbul etdi. Burada hakim sisakanlar sülaləsinin nümayəndələri "saklı" və yaxud "səhl" adını daşıyırdılar. Onların ən məşhur nümayəndəsi Səhl (Saklı) ibn Sunbat idi. Ərəblərin gəlişindən sonra Sisakanın xristian hakimlərini ərəblər "məlik" adlandırdılar. Səhl ibn Sunbat da məlik idi [8, s.165].

Bir müddət sonra, V əsrin 80-ci illərində başlanmış məzdəkilər hərəkatı sosial ədalətsizliyə  qarşı çevrilmişdi. Bu hərəkatın başında Məzdək dururdu. Hərəkatın başçısı Məzdək öz fikirlərini Həmədanda yaymağa başlamışdı. Məzdək Maniliyin və Zərdüştliyin bəzi cəhətlərini ön plana çəkməklə inkişaf etdirdi. O, nemətləri bərabər bölüşdürməyi təbliğ edirdi. Sasani hökmdarı I Qubadın zamanında Məzdək atəşpərəstlik məbədlərinin birinin kahini, sonra isə dövlətin baş kahini olmuş, Möbidlər-möbidi (yaxşıdan-yaxşı) adlandırılmış, onun tərəfdarları isə mühüm dövlət vəzifələrinə təyin olunmuşdular. Kahinlərin və əyanların iqtisadi-siyasi iddialarına son qoyduqdan sonra I Qubad Məzdəklə ittifaqdan imtina etdi. Atası I Qubadın yerinə hakimiyyətə gəlmiş  Xosrovun əmri ilə Məzdək və onun yaxın adamları 529-cu ildə  edam edildi,

onun məsləkdaşları Azərbaycanın şimalına, Orta Asiyaya və başqa ölkələrə dağıldılar [23, s.114-115].

Bu dövrdə Azərbaycanda türk əhalisinin mövqeyi daha da güclənir, müxtəlif istiqamətlərdən ərazimizə kütləvi şəkildə yeni türk tayfaları, soyları daxil olurdu. Yeni eranın ilk əsrlərindən başlayaraq hun, xəzər tayfaları Arrana gəldilər. Bu vaxt həmin tayfalar gəlir və bir müddətdən sonra ərazini tərk edirdilər, lakin hər dəfə onların müəyyən hissəsi qalır, məskunlaşırdı. V əsrdə hunların yürüşləri kütləvi xarakter aldı. Onların ən kütləvi yürüşlərindən biri 462-ci ildə oldu. Hunların tərkibində gələn oğuzlara aid kəngərlər Naxçıvan və indi Ermənistan deyilən ərazilərdə Kəngər vilayəti yaratmışdı [14, s.19]. Dərbənd yaxınlığında savar, avar, xəzər, bulqar və sairlərdən ibarət 13 türk tayfası yerləşmişdi, onlar hunların ardınca Arranın içərilərinə daxil olur, məskunlaşırdılar [18, s.16] Gəncə tərəflərdə hun-savir tayfaları yerləşmiş, Kür-Araz arası hun (türk) ölkəsinə çevrilmişdi, hunların türk adlı böyük bir qolu Muğanda yerləşmişdi [6, s.415], Beyləqan və Varsan (təxminən Ordubad ərazisində şəhər və vilayət) ərazilərində, Araz vadisində türk dili geniş yayılmışdı [22, s.179-181].

VI əsrə qədər türk tayfaları əsasən "hun" adı ilə tanınırdı, VI əsrin ortalarında "türk" adı ümumiləşdirici termin kimi işlədilməyə başladı. Göytürklər ilk dəfə bu adı rəsmi dövlət ünvanı olaraq təqdim edib. Onlardan sonra bu ad müxtəlif türkdilli tayfalara, xalqlara aid edilib. Göytürk hökmdarı İstəmi xaqan (552 – 576-cı illər) Orta Asiyanın şərqində hakimiyyətini qurmuşdu, o, 567-ci ildə qərbə doğru hərəkət edərək, Azərbaycanın şimal torpaq-

larına, Arrana daxil oldu, Dərbəndə qədər getdi, lakin bu ərazilərdə möhkəmlənə bilmədi, geriyə, Orta Asiyaya, Amu-Dərya çayının şərq sahillərinə qayıtdı [12, s.93]. İki il davam edən bu yürüş zamanı göytürklərin bir hissəsi Azərbaycanda, Cənubi Qafqazda qaldı. (Göytürk və ya Türk xaqanlığı 552-774-cü illərdə Mərkəzi Asiya və Çinin bir hissəsini əhatə etmiş türk dövləti olub. Paytaxtı indiki Qırğızıstanın Çuy vilayətində yerləşən Suyad şəhəri idi, hazırda xarabalıqları qalıb. Müəyyən dövrlərdə bu dövlətin sərhədləri Qara dənizin şimalı, Krım və Qafqaza çatırdı. Daxili mübarizə nəticəsində VIII əsrin əvvəllərində Qərbi və Şərqi Türk xaqanlıqlarına bölündü. Qərb xaqanlığı xəzərlərə məğlub oldu, onların ərazilərində Xəzər xaqanlığı yarandı, Şərqi Türk xaqanlığının yerində isə Uyğur dövləti yarandı. Bu dövrə aid ilk məlum olan türk yazılı abidələri, Orxon-Yenisey yazıları aşkar edilib. Bu yazılar runi yazı sisteminə aid edilib. Runi yazılardan I-XII əsrlərdə İsveç, Norveç, Danimarka, İslandiyada da istifadə olunub. "Runi" sözü qədim Avropa dillərində "sirr", "sirli pıçıltı" mənasını verir. Bu yazılar Türk – Skandinaviya əlaqələrinə əlavə sübut ola bilər).

Yeni eranın ilk əsrlərindən başlayaraq Azərbaycan türkcəsi bütün Qafqazda və Yaxın şərqdə ümumi danışıq, ünsiyyət vasitəsinə çevrilmişdi [6, s.438]. Bu dildə yaradılan yazılı mənbələr hələki geniş variantda aşkar edilməyib, lakin şifahi ədəbiyyat nümunələri yaradıldığı məlumdur. "Oğuznamələr" adı ilə tanınan bu möhtəşəm əsərlər hunların dövründən başlayaraq türklərin tarixinə dair qiymətli məlumatlar verir. Oğuznamələr türklərə dair iri-li-xırdalı bütün əsərləri əhatə edir. Onların içərisində ən

möhtəşəmi "Dədə Qorqudun kitabı"dır. Bu əsərin tam adı "Kitabi Dədəm Qorqud ala-lisani-taifeyi-oğuzan"şəklindədir. Burada işlədilən "oğuz" adı səlcuq oğuzlarına deyil, çox-çox əvvəllərə aiddir [6, s. 438].

"Oğuznamə"lərə görə, Oğuz xaqanın 6 oğlu olub – Gün, Ay, Ulduz, Göy, Dağ, Dəniz. Hər oğlundan 4 nəvəsi, cəmi 24 nəvəsi olub. Onların hər biri öz boyunu, elini yaradıb, beləliklə, bu 24 boy türk dünyasını təmsil edib. Bu oğuz türkləri, qeyd etdiyimiz kimi, ən azından e.ə IV-III əsrlərdən etibarən hərbi-siyasi meydanda olub. Onlardan əvvəlki qədim türklərlə bağlı məlumatları başqa mənbələr verir.

Göy xanın oğlu Bayatın boyu, nəsli əsas soylardan biri olub. Onların məşhur rəhbəri Bayandır (Bayındır) xan dastanlarda aparıcı şəxsdir [13, s.XXXVIII]. Əksər tətqiqatçılar hesab edir ki, "Dədə Qorqud" dastanında baş verən hadisələr Azərbaycan ərazilərinə - Gəncə, Bərdə, Naxçıvan, Göyçə, Dərbənd, Qazlıq (Qafqaz) dağı və digərlərinə aiddir [7, s.19]. Bu dastanlarda əcdadlarımızın səfər etdikləri yerlər Rum eli, İstanbul, Trabzon, Qara dəniz sahilləri idi [6, s.442].

"Dədə Qorqudun kitabı" əsərindəki Dədə Qorqudun tarixi şəxsiyyət olduğu, Bayat elindən olduğu əksər tədqiqatçılar tərəfindən qəbul edilir. Onun yaşadığı dövrlə bağlı müxtəlif fikirlər səsləndirilir, onun e.ə IV-III əsrlərdə, yaxud y.e VI-VII əsrlərində yaşadığına dair iddialar mövcuddur. Əsərdə baş verən hadisələri, yer, şəxs adlarını əsas götürsək Dədə Qorqudun eradan əvvəlki dövrdə yaşadığı, dastanın həmin dövrdən başlayaraq tədricən formalaşdırıldığı şübhə doğurmamalıdır. Dastan müəy-

yən dövrlərdə yazıya köçürülmüşdür, onun bir hissəsinin, "Təpəgöz boyu"nun VI əsrdə fars dilində yazıya alınmış variantı Sasanilərin saray kitabxanasında olub [6, s.440]. Dastan şəklində Azərbaycan türkcəsində ilk dəfə yazıya isə 1074-cü ildə köçürülüb [6, s.447].

Sasanilərlə Romanın varisi Bizansın müharibələrinin yeni mərhələsi 603-cü ildə başladı. Nisbi üstünlüklə keçən müharibə 623-cü ildə genişləndi. 629-cu ildə Bizansla Sasanilər arasında sülh müqaviləsi imzalandı. Sülhə görə Arran Sasanilərin təsiri altında qaldı, İberiya Bizansın nəzarətinə keçdi [11, s.51].

Sasanilərin uzun sürən müharibələrdə zəifləməsi Arranda müstəqillik meylini gücləndirdi. VI-VII əsrin əvvəllərində Parfiyalıların Arsaklılar nəslindən olan Mehranilər sülaləsinin idarə etdiyi Girdiman dövləti yarandı. Onun yaradıcısı II Xosrovun qohumu Mehran idi. Öz atası IV Hörmüzün (579-590) qatillərinə divan tutan Xosrovun intiqamından canını qurtarmağa çalışan Mehran 591-ci ildə qaçıb Arrana gəlmiş və özü ilə 30000-ə yaxın ailə gətirmişdi. O, Xəzərlərin torpağına gedib onlara qoşulmaq istəyirdi.

Xosrov başa düşürdü ki, Mehran xəzərlərlə birləşsə, böyük bir təhlükə yaranacaq, ona görə də Xosrov aşağıdakı məzmunda bir məktub göndərir: «Qardaşım, mənim sadiq qardaşım, düşmən olub məndən uzaqlaşma. Əgər mənimlə bir yerdə yaşamaqdan xoşun gəlmirsə, bu məktub sənə çatanda nə qədər yol getmişsənsə, ölkədə yaşamaq üçün bir o qədər torpaq götür».

Musa Kalankatlının dediyinə görə, Mehran qasidin ona çatdığı yerdə-Girdmanda dayandı və orada Mehrabad şəhərinin əsasını qoydu. Sonra Mehran Girdman

vilayətindən şimala getdi, onun 12 hakimini hiylə ilə öz yanına çağırdı və qılıncdan keçirib ölkəyə sahib oldu [5]. 628-ci ildə Bərdəni tutan Mehranilər onu özlərinə paytaxt etdilər və az sonra bütün Arranı idarə etməyə başladılar [9, s.206]. Bununla Arranın müstəqilliyi tam bərpa edildi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Albaniyanın siyasi tarixinin əsas məsələləri.- kayzenşaz/ blog/Azərbaycan-tarixi/24456/albaniyanın-siyasi-tarixinin-əsas-məsələləri.html.

2. Azərbaycan tarixi, I cild (Z. Bünyadov və Y. Yusifovun redaktəsi ilə). Ali məktəblər üçün dərslik. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

3. Azərbaycan tarixi. Mühazirələr toplusu. Bakı, Polis Akademiyası, 2014.

4. Ət-Təbəri. Peyğəmbərlərin və hökmdarların tarixi.- N.Vəlixanlı. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı, 2016.

5. Kalankatlı, II, 17.

6. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, "Təhsil", 2003.

7. Kitabi-Dədə Qorqud. Bakı, "Elm", 1988.

8. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

9. Məmmədova F. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı, "Elm", 1993.

10. Məmmədov F. Azərbaycan tarixi (izahlı xronologiya). Bakı, "Elm və təhsil", 2010.

11. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Bakı, "Elm və təhsil", 2019.

12. Özbək R. Türkün qızıl kitabı. Bakı, "Alatoran", 1992.

13. Şaik. O.G. Dedem Korkudun kitabı. İstanbul, 1973.

14. Voroşil Q. Qafqaz Albaniyası. Bakı, "Öyrətmən", 1993.

15. Albania.- Encyclopaedia Iranica.- iranicaonline.org/articles/Albania-iranian-aran-arm.

16. Frye R.N. (1983). "The political history of Iran under the Sasanians". In Yarshater, Ehsan (ed). The Cambridge History of Iran. Vol 3. Cambridge University Press.

17. Zardabli I. The History of Azerbaijan. From ancient times to the present day.- London, 2014, s.61-74.- books.google.az/books?id=bNsEBwAAQBAJ &printesec =copiryght&redir_esc=y#v=onepage&f=false.

18. Артаманов М.И. История хазар. Ленинград, изд-во Гос.Эрмитажа, 1962.

19. Ат-Табари, Абу Джафар, Мухаммад ибн Джарир. История пророков и царей. Избранные отрывки. Ташкент, Фан, 1987.

20. Ат-Табари. История пророков и царей. – vostlit.info/Texts/rus5/Tabary/ frametext.htm.

21. Большая российская энциклопедия 2004-2017.- old.bigenc.ru/world_history/ text/4708752.

22. Буниятов З.М. Азербайджан в VII – IX в в. Баку, изд-во АН Азербайджан. ССР.

23. История Ирана/отв. ред. М.С.Иванов. Москва, Изд. МГУ, 1977.

24. Кудрявцев А.А. Город, не подвластный векам. Махачкала, Даг. кн. изд-во, 1976.

25. Смагин Е.Б. Манихейство: по ранним источникам.- Москва, Восточная литература, 2011.

26. Тревер К. Очерки по истории и культуре Кавказской Албании: IV в. до н.э.- VII в. н.э.- АН СССР, Москва-Ленинград, 1959-01-01, s.157-178.- books.google.az/books?id=IJHHDQAAQBAJ&printsec=frontcover&dq=азербайджан+в+раннем+средневековье&hl=ru&sa=X&ved=2ahUKEwi-zdr30JTsA.

27. Установление феодальных отношений в Азербайджане и его особенности.- dzen.ru/media/landoffire/ustanovlenie-ifeodalnyh-otnoshenii-v-azerbaidjane-i-ego-osobennosti-60621a147f1b9b454e8eb398.

## *§ 2. Ərəb Xilafətinin regiona müdaxiləsi. İslam dininin yayılması.*

Ərəb Xilafətinin regiona gəlişi ərəfəsində Azərbaycanın Araz çayından cənuba doğru əraziləri, indiki İranın Azərbaycan vilayətləri Sasanilərin tərkibində idi, həmin dövlətin əyaləti, dini mərkəzi kimi mövcudluğunu davam etdirirdi. Azərbaycanın Araz çayından şimala doğru əraziləri, indiki Azərbaycan Respublikasını, Ermənistanın tam ərazisini, Gürcüstanın bir hisəssini, Cənubi Dağıstanı əhatə edən Arran (Albaniya) dövləti Sasanilərdən müəyyən asılılıq bağları nəzərə alınmaqla faktiki müstəqilliyini davam etdirirdi [17, s.97; 15]. Bu dövrlərdə Albaniyanın ərazisində, əsasən Xəzər dənizinin qərb sahillərində Onoğur (395- 466-cı illər) (onoğur-türkcə on ox mənasını verir) və onları əvəz etmiş Savir (466-558-ci illər) (savir-süvari, atlı mənasını verir) köçəri türk hərbi-siyasi birlikləri mövcud olmuşdur. Xüsusilə Savirlər ciddi rol oynamış, hətta gah Sasanilərə, gah da Bizansa qarşı döyüşlərdə iştirak etmişlər [12, s.41-45]. Geniş əraziləri əhatə edən (Qafqazdan

Reynə, indiki Danimarka ərazilərindən Dunaya qədər) Atillanın (434-453-cü illər) Hun dövlətnin (paytaxtı indiki Macarıstandakı Pannoniya əyaləti və şəhəri idi) sərhədləri indiki Azərbaycan Respublikasının Xəzər sahili torpaqalarının bir hissəsinə də çatırdı [13, s.85-86, 91, 93-95; 15, s.52-57]. Sasanilərin hökmranlığı dövründə, VI əsrdən başlayaraq Azərbaycan ərazisnində Şirvan və ya Şirvanşahlar dövlətnin  də adı çəkilir. IX əsr ərəb müəllifi Əl-Bəlazuri Şirvanşah adını I Xosrovun (531-579-cu illər) Cənubi Qafqaza təyin etdiyi xırda padşahlar içərisində qeyd edir [1, s.107].

Qeyd edilməlidir ki, bu dövrdə Cənubi Qafqazda Azərbaycan dövlətləri ilə yanaşı gürcü knyazlıqlarından başqa hər hansı  dövlət qurumları olmamışdır. İndiki Gürcüstanın ərazsində Kartli, Laz, Eqris knyazlıqları kimi kiçik dövlətlər var idi. Onlardan Kartli dövləti Arran (Albaniya)  ilə birilikdə Sasanilərin, Laz dövləti isə Bizans dövlətinin təsir dairəsinə keçmişdilər [11, s.38-41, 46-49; 14, s.112-122, 141-145.].

VII əsrin I yarısında Məkkə sakini Məhəmməd Peyğəmbər tərəfindən İslam dini təliminin əsası qoyulmuşdur. Məhəmməd Peyğəmbərin vəfatından sonra (632-ci il) onun varisləri xəlifə, yəni «peyğəmbərin varisi», dövlət isə Xilafət adlandırıldı. Xəlifə Ömərin (634-644) dövründə ərəblər Sasanilərə qarşı hücuma başladılar. Bu təhlükə Azərbaycanı da əhatə edirdi. Cavanşir başda olmaqla albanlar, eyni zamanda əyalət hakimi olan İsfəndiyar Fərruxzad başda olmaqla Adərbayqan əhalisi Sasanilərlə birlikdə ərəblərə qarşı mübarizə aparırdı. 636-cı ildə baş vermiş Kadusiyə (indiki İranın Gilan vilayətin-

də) döyüşündə Sasani ordusu məğlub edildi. Sasanilərin mərkəzi şəhəri olan Tisfun (Mədain) dağıdıldı [10]. 639-cu ildə Cavanşir Sasanilərlə birlikdə müqavimətin mənasız olduğunu anlayaraq Arrana (Albaniyaya) qayıtdı [2].

642-ci ildə Nəhavənd (Həmədanla İsfahan arasında yerləşən şəhər) döyüşündə də Sasanilər məğlub oldular. Sasani dövləti sürətlə dağılmağa başladı. Sonuncu hökmdarı III Yezdəgird Mərvdə naməlum şəxslər tərəfindən 651-ci ildə öldürüldükdən sonra Sasani dövləti süqut etdi. Azərbaycanın hökmdarlarından İsfəndiyar Fərruxzad döyüşdü, müqavimət göstərdi, lakin mərkəzi hakimiyyətin mövcud olmadığını nəzərə alaraq, ərəblərlə danışıqlar yoluna üstünlük verdi. İsfəndiyar Fərruxzad 644-cü ildə ərəblərlə müqavilə imzaladı, onların hakimiyyətini qəbul etdi. Azərbaycanlı tarixçi Cahangir Zeynaloğlu 1924-cü ildə İstanbulda nəşr etdirdiyi "Müxtəsər Azərbaycan tarixi" kitabında ərəblər gələn ərəfədə Azərbaycanın etnik tərkibi ilə bağlı vacib qeyd edir: "İsfəndiyar tabeliyində olanlarla birlikdə islamı qəbul etdi. Bu ildə Azərbaycanda türklər ilk dəfə islamı qəbul etdilər" [6, s.13]. Ərəblər 646-cı ildə Naxçıvanı zəbt etdilər, Arrana daxil oldular. Beyləqan tutuldu, Bərdə mühasirəyə alındı. Xilafətin qoşunları Azərbaycanın bir hissəsini tutdular [8].

Arran (Albaniya) hökmdarı Cavanşir ərəblərə qarşı mübarizə aparmaq üçün Bizans imperatoru II Konstantinlə müqavilə bağladı [7]. Xəzərlər ərəblərə ciddi müqavimət göstərdi. Onlar arasında ilk döyüş Dərbənd yaxınlığında Bələncər deyilən yerdə baş verdi. 643-cü ildə baş vermiş I Bələncər və 653-cü ildəki II Bələncər döyüşündə xəzərlər qalib gəldi [4, s.688-699]. 662-ci ildə xəzərlər

Bələncər yaxınlığında ərəbləri yenidən məğlub edərək Azərbaycan ərazisinə daxil oldular. Cavanşir onlara qarşı çıxaraq Kür çayı yaxınlığında onları məğlub etdi. 664-665-ci illərdə Xəzərlər yenidən Arrana hücuma başladılar. Kürü keçərək Araz sahillərinədək gəlib çatdılar. Cavanşir xəzərlərlə sülh müqaviləsi imzaladı, Xəzər xaqanının qızı ilə evlənməklə Xaqanlıqdan nominal asılılığı qəbul etmiş oldu.

Bu vaxt Suriya hakimi Müaviyə Xilafətdə hakimiyyətə gəldi. Əməvilər sülaləsinin hakimiyyətinin (661-750) əsasını qoydu. 750-ci ildə onları Məhəmməd Peyğəmbərin əmisi oğlu Abbas ibn Əbdülmütalibin nəslindən olan Abbasilər (750-1258) əvəz etdi.

Cavanşir vəziyyəti düzgün dəyərləndirərək qərara gəldi ki, Xilafət ilə qarşılıqlı münasibətlərdə öz nəzərini dəyişdirməlidir. Çünki, siyasət sahəsində Xilafət Bizansdan güclü çıxmışdı. Cavanşir iki dəfə xəlifə Müaviyyənin görüşünə getdi. Birinci dəfə 667-ci ildə getməkdə məqsədi Xilafətdən asılılığı qəbul etməklə Arranı ərəblərin qarətindən qorumaq idi. Bu səfərdən sonra 3 il Arran əhalisi xarici hücumlardan azad oldu. Üç ildən sonra Xəlifə yenidən (670-ci il) Cavanşiri Dəməşqə dəvət etdi. Cavanşir Xəlifə ilə Bizans arasında vasitəçi rolunu oynadı. Xəlifə Cavanşirə hədiyyələr verərək Zəngəzuru ona tabe etdi və ona təklif etdi ki, Azərbaycanın cənub torpaqlarını da öhdəsinə götürsün. Lakin Cavanşir bu təklifi rədd etdi, ölkəsi üzərinə qoyulmuş verginin azaldılmasını xahiş etdi, vergi yükü 1/3 dəfə yüngülləşdirildi. 681-ci ildə sui-qəsd nəticəsində Cavanşir öldürüldü. Nəticədə ara müharibələri genişlənərək ölkəni zəiflətdi. Hakimiyyətə Cavanşirin qar-

daşı oğlu Varaz Tridat (681-699) gəldi. Ara müharibələri ərəblərin, xəzərlərin, bizanslıların ölkəyə hücumlarının genişlənməsinə şərait yaratdı [3, s.51-54]. 705-ci ildə ərəblər Mehranilər sülaləsinin hakimiyyətinə son qoydular [2].

Ərəblər Azərbaycanda İslam dinini ehtiyatla yayır, ilk vaxtlar insanları məcbur etmirdilər. Bunun səbəbi əhalini hələlik incik salmamaqla bağlı idi. Arranda xristian əhaliyə qarşı ümumiyyətlə heç bir təzyiq yox idi. Onların "Kitab əhli" olmaları nəzərə alınırdı. İri torpaq sahibləri İslam dinindən mövqelərini möhkəmlətmək üçün istifadə etməyə başladılar. Digərləri də onlara qoşuldu.

Ərəb Xilafətinin regiona gəlişi VII əsrin ortalarından başlayaraq VIII əsrin əvvəlinə qədər davam etdi və indiki İran və Cənubi Qafqazın da daxil olduğu geniş ərazilər yeni bir ideologiyanın, islam dininin daşıyıcısı olan dövlətin tərkibinə daxil edildi. Azərbaycan təxminən 150-200 il ərzində Ərəb Xilafətinin tərkibində qaldı. Ərəblər Sasanilərin marzban-canişinlik inzibati idarəetmə sistemindən istifadə edərək əmirlik inzibati quruluşunu yaratdılar. Əmirlikərin sayı 5 idi, Abbasilər sülaləsinin vaxtında 15-ə çatdırdılar. Araz çayından cənuba və şimala doğru bütün Azərbaycan torpaqları əvvəlcə dördüncü, sonra isə üçüncü əmirliyə daxil idi. Ərəblərin işğalı ərəfəsində tarixi Azərbaycan torpaqları, o cümlədən indiki Gürcüstanın şərq hissəsi və indiki Ermənistan deyilən Qərbi Azərbaycan bütövlükdə Sasanilərin Adurbadaqan-Adərbayqan (Azərbaycan) adlı əyalətinə daxil idi. Bu əyalətin ərazisi cənubda Həmədan, Zəncan, şimalda Dərbəndlə hüdudlanırdı [5, s.44-46].

Ərəblər canişinlik sistemindən istifadə etdilər. Canişinlər əmir, canişinlik isə əmirliklər adlanırdı. Əmirlik nahiyələrə (mahallara) bölünürdü. Nahiyə 12 rustakdan (rayondan) ibarət olub, hər birinə 12 kənd daxil idi. Azərbaycan, Arran, Türkmənistan, Kiçik Asiyanın şərq hissəsi Əl-Cəzirə adlanan dördüncü əmirliyə daxil idi. Əl-Cəzirə əmirliyinin mərkəzi Dvin, 780-ci ildən isə Bərdə oldu [9, s.115-117]. Xilafətin mərkəzi ilə vilayətlər arasında rabitə yaratmaq üçün bərid adlanan poçt şəbəkəsi yaradılmışdı [9, s. 120].

İşğalın gedişində köçürmə siyasəti mühüm yer tuturdu. Dərbənd, Bərdə, Beyləqan və Şirvana on minlərlə ərəb ailələri yerləşdirildi. Sasanilərin və ərəblərin köçürülmə siyasətinin başlıca məqsədi özlərinə etnik dayaq yaratmaq, yerli əhalini itaətdə saxlayıb, vergilərin aramsız toplanmasını təmin etməkdən ibarət idi [5, s. 46-48].

Ərəblər özlərinin vergi sistemini yaratdılar. Müsəlman olmayanlardan müntəzəm olaraq can vergisi cizyə ilə yanaşı, xərac-torpaq vergisi alınırdı. Müsəlmanlar isə ayrıca vergi olan xüms (gəlirin beşdə bir hissəsi) ödəyirdilər. Zəkat əsas vergilərdən olaraq, ildə bir dəfə, Ramazan ayının sonunda imkanlı adamlar tərəfindən illik gəlirin 2.5 faizi həcmində ödənilir, sədəqə olaraq imkansız insanlara paylanırdı.

Sosial –iqtisadi baxımdan torpaqlar beş çeşidə bölünürdü.

1) Sultan (xəlifə) mülkləri.
2) İqta torpaqları.
3) Mülk torpaqları.
4) Vəqf torpaqları.
5) İcma torpaqları.

Sultan torpaqları alqı-satqı yolu ilə, ya da ölən, yaxud vəzifəsindən kənar edilən məmurların mülklərini müsadirə etmək yolu ilə tədricən artırdı. Becərilən torpaqların əksəriyyəti iqtaya aid idi. Xəlifə ayrı-ayrı şəxslərə torpaq verir, torpaq üzərində nəzarəti ona tapşırırdı, yəni torpaq iqta sahibinin mülkü olurdu. Mülk sahibləri torpağı alıb sata, irsi olaraq verə bilərdilər. Bu torpaq sahibləri əlavə olaraq vergi verməli və ərazidən keçən kanalları bərpa etmək üçün xərc ödəməli idilər. Vəqf torpaqları mülkiyyətin əsas növlərindən biri idi. Vəqf dedikdə dini təsisatlara təhkim olunmuş torpaq mülkləri nəzərdə tutulurdu. Kəndlərdə əhaliyə məxsus torpaqlar, biçənəklər, mal-qara otarılan, yanacaq toplanan yerlər, qəbirstanlıq və s. icma torpaqları idi [9, s. 91-115].

**İstifadə olunmuş ədəbiyyat:**

1. Əl-Bəlazuri. Ölkələrin istilası kitabı. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Bakı, "Nurlan", 2005.

2. Kalankatlı, II, 18.

3. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Bakı, "Elm və Təhsil", 2019.

4. Şərifov Ş. Ərəb-Xəzər müharibəsi və Azərbaycan. Akademik Tarih ve Düşünce Dergisi, 7 (1) İlkbahar, 2020, s. 688-699.- dergipark.org.tr/download/article-file/1078834.

5. Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı, "Elm və Təhsil, 2016.

6. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1992.

7. Albania.- Encyclopaedia Iranica.- iranicaonline.org/articles/albania-iranian-aran-arm.

8. History of al-Tabari. The Conquest of Iran A.D. 641-643.- SUNY Press, 2005.

9. Буниятов З. Азербайджан в VII-IX. Изд. Академии Наук Азерб. ССР, Баку, 1965.

10. Всё про Арабский халифат.- hrono.ru/land/landa/arab_halif.php.

11. Гусейнов Р.А., Вердиева Х. История Азербайджана. С древнейших времен по 1920 год. Баку, 2000.

12. Джафаров Ю. Гунны и Азербайджан. Баку, «Азернешр», 1985.

13. История народов Северного Кавказа. Москва, «Наука», 1988.

14. Очерки истории Грузии: В восьми томах: Том I, Тбилиси, 1988.

15. Фёдоров Я.А., Фёдоров Г.С. Ранние тюрки на Северном Кавказе.// Москва, МГУ, 1978.

16. Ямпольский З. «Гегемоны» древнего Азербайджана// ДАН Азерб. ССР, 1953, №3.

17. Яновский А. О древней Кавказской Албании// Журнал министр. народного просвещения, 1846, hissə 52.

## *§ 3. Azərbaycan dövlətinin bərpa olunması uğrunda mübarizə. Babəkin başçılığı altında azadlıq hərəkatı.*

VIII əsrin ortalarında xalq kütlələrinin Xilafətə qarşı etirazları açıq üsyanlar şəklini aldı. 748-ci ildə yerli hakim İbn Səfvanın dəstəyi ilə Beyləqanda üsyan baş verdi. "Qəssab" ləqəbi ilə tanınan beyləqanlı Musafir ibn Kəsirin

başçılıq etdiyi bu üsyan Ərdəbilə və başqa yerlərə yayıldı. Bərdəyə doğru hərəkət edən üsyançılar ərəb qarnizonunu dağıtdılar. Bərdədə oturan canişin öldürüldü. Azərbaycanda hakimiyyət qısa müddətə olsa da, Müsafir başda olmaqla yerli nümayəndələrin əlinə keçdi [17, s.55]. IX-X əsr ərəb müəllifi Əl-Kufi qeyd edirdi ki, "Azərbaycanda Müsafir ibn Kəsir... ağalıq edirdi [9, s.48].

VIII əsrin 40-50-ci illərinin azadlıq mübarizəsi, Orta Asiyanın Xorasan vilayətində başlayıb digər bölgələrə yayılan Əbu Müslim Xorasaninin üsyanları (747-750-ci illər) silsilə xarakteri aldı. Sülalə çevrilişi baş verdikdən sonra qalib gələn Abbasilər üsyanları amansızlıqla yatırdılar. 752-ci ildə Şəmkirdə başlayan üsyanın da qarşısı amansızlıqla alındı. Əbu Müslim 755-ci ildə edam olundu [18, s 35-36; 13, s. 59].

Ərəb işğalına qarşı yönəlmiş Xürrəmilik Azərbaycanda və qonşu ölkələrdə yayıldı. Xürrəmilər azadıq simvolu kimi, qırmızı bayraq qaldırdılar və qırmızı paltar geyindilər. Buna görə onlara "qırmızı geyinənlər", "qırmızılar" deyilirdi [21, s.138; 22, s.304]. Bu hərəkatın ilk çıxışının 778-ci ildə İsfahanda başlandığı, sonra Azərbaycan, Gilan, Mazandaran, Luzistan və digər ərazilərə yayıldığı göstərilir. Hərəkata bəzi mənbələrə görə Əbu-Müslimin oğlu Əbu əl-Qərra rəhbərlik edirdi [1, s.202]. «Xürrəm» adının mənşəyi haqda müxtəlif rəvayətlər vardır. Akademik Z. Bünyadovun fikrincə «xürrəm» termini «od» anlayışından götürülmüşdür. Farsca «xür» («xür», «xvar» ) «günəş»-«od» mənasını verir [20, s.211-217]. Xürrəmilər belə hesab edirdilər ki, dünya daim mövcuddur: dünyada iki qüvvə, xeyir (ilahi) və şər (şeytan) arasında mübarizə gedir. On-

lar inanırdılar ki, bir-birinə əks olan qüvvələrin mübarizəsində xeyir, mərhəmətli ruh qalib gələcəkdir. Yeni təlim bütün ədalətsizliklərin kökünü torpaq üzərində xüsusi mülkiyyət və ictimai bərabərsizlikdə görürdü. Xürrəmilərin şüarı torpaqları cəmiyyətin ixtiyarına, azad kənd icmalarına verməkdən ibarət idi. Xürrəmilərin ikinci böyük çıxışı 808-809-cu illərdə Ərdəbildə, Savalan dağlarında, Muğanda baş verdi. Üsyana Bəzz qalasının sahibi, xırda torpaq mülkiyyətçisi Cavidan rəhbərlik edirdi [1, s.202]. Bəzz qalasında yaşayan Cavidanın böyük qoyun sürüləri var idi və qoyunları Zəncan bazarında satardı. Bir dəfə mal-qara satıb Bəzzə qayıdarkən havanın pis olduğundan təsadüfən Ərdəbilin Bilalabad kəndində Babəkin anasının evində qalır. Babəkin bacarıqlı, işgüzar olduğunu görür. Ona görə də Babəkin ona oğulluğa verilməsini anasından xahiş edir və onun müqabilində ona hər ay pul ödəyəcəyini bildirir. Babəkin anası Bərumənd bununla razılaşır. Babək Cavidanın yanında Bəzz qalasında onun xidmətində olur. Az sonra Cavidan öz daimi rəqibi olan Əbu-İmranla vuruşmada yaralanır və ölür. 816-cı ildə Cavidanın ölümündən sonra xürrəmilər hərəkatına Babək (798-838) rəhbərlik etdi [19, s.273]. Babək hərəkatının mərkəzi Bəzz qalası idi. Onun harada yerləşməsi barədə müxtəlif fikirlər var. Lakin akademik Z. Bünyadovun dəqiqləşdirdiyinə görə o, Ərdəbilin şimal-qərbində (145 km-də), Qaradağda yerləşirdi [20, s.225-226]. Xürrəmilər hərəkatı tezliklə genişlənib gücləndi, bütün Azərbaycanı əhatə etdi. Onun məqsədi Ərəb hakimiyyətinə son qoymaq, vahid Azərbaycan dövlətini bərpa etmək idi. Xəlifə Məmun (813-833) Babəkə qarşı ilk nizami ordunu 819-cu ildə göndərdi. Bu

ilk döyüşdə Babək qalib gəlmədi, amma məğlub da olmadı. Döyüşlər bu və digər tərəfin üstünlüyü ilə davam etdi. 20-ci illərin sonuna doğru Babək xəlifənin göndərdiyi bütün qoşunları məğlub etdi, Bərdə, Ərdəbil, Naxçıvan, Beylaqan, Şirvan və digər əraziləri azad etdi. Babək bununla Azərbaycanı vahid dövlət şəklində birləşdirdi. 829-cu il Həştadsər döyüşündə ərəblər Bəzz qalasını tutmağı qarşılarına məqsəd qoymuşdular. Lakin Babəkin seçdiyi döyüş taktikası nətiəcsində 150 minlik ərəb ordusunun 30 min nəfəri məhv edildi. 830-cu ildə Həmədanı azad etdilər və Xilafətin bütün şərq torpaqlarını itirmək təhlükəsi yarandı [13, s.61]. 830-833-cü illərdə Babəkin rəhbərliyi altında hərəkat özünün ən yüksək mərhələsinə çatdı və Xilafətin mövcudluğunu təhlükə altına aldı. Dövrünün müəllifləri, xüsusən də ərəb müəllifləri etiraf edirdilər ki, Babəkin rəhbərlik etdiyi bu hərəkat olduqca böyümüş, onun təsiri xeyli artmışdı ki, az qalmışdı Abbasilər hakimiyyətini məhv etsin [17, s.70].

833-cü ildə Məmunun ölümündən sonra qardaşı Mötəsim (833-842) ciddi tədbirlər görməyə başladı. Həmin il İshaq ibn İbrahimin komandanlığı ilə göndərilən ordu ilə üsyançılar arasında Həmədan yaxınlığında baş verən döyüşdə üsyançılar mərdliklə müqavimət göstərsə də, ərəblər ağır itki verərək qalib gəldilər. Bu döyüşdən sonra ərəblər Bizansla mübarizəni dayandırıb bütün qüvvəni xürrəmilərə qarşı yönəltdi. Bizansla müharibələrdə şöhrət qazanmış türk əsilli sərkərdə Afşin Heydər ibn Kavus 835-ci ildə xürrəmilərlə vuruşan orduya baş komandan təyin olundu. O, öz qərargahını xürrəmilərə yaxın yerə Bərzəndə köçürdü. 836-cı ildə xürrəmilər İkinci Həştadsər döyü-

şündə qalib gəldi, amma hadisələr artıq ərəblərin xeyrinə davam edirdi. Afşin 837-ci ilin avqustunda əsas hissəsi türklərdən ibarət olan qoşunu ilə Bəzz qalasına yaxınlaşaraq oranı mühasirəyə aldı [20, s.246]. Afşin Babəkə onun bağışlanması üçün fərman alacağına söz verməklə sülh bağlamağı təklif etdi. Danışıqlar vasitəsilə müharibəni dayandırmağa çalışan ərəblər, Bəbəkin istedadlı sərkərdə olduğunu bilərək ondan Bizansa qarşı müharibədə istifadə etməyə çalışırdılar. Bəzi məlumatlara görə, Afşin Xilafətə qarşı Babəklə ittifaqa girmək istəyib, bu barədə aralarında yazışmalar da olub [15, s.142-144]. Lakin Babək Afşinin təklifini rədd etdi. Ərəblər qalaya od vurdular və sayca çox olan düşmənlər qalaya soxuldular. Hər iki tərəf böyük tələfat verdi. 837-ci ilin avqustunda ərəblər Bəzz qalasını tutdular. 7600 nəfər, o cümlədən Babəkin bir neçə oğlu əsir alındı. Bəzz qalası uğrunda vuruşmada təxminən 80 min azərbaycanlı və 100 mindən çox Xilafət əsgəri məhv oldu, çoxlu tikililər dağıldı [1, s.209].

Mühasirədən çıxan Babək Araza doğru çəkildi. Xəlifə belə bir əmr vermişdi ki, Babəki diri gətirənə 2 milyon, başını gətirənə 1 milyon dirhəm pul veriləcək. Afşin Babəki axtardığı bir zamanda Xəlifə Mötəsimin göndərdiyi məktubda Babəkə aman bəxş edilirdi. Babək xəlifənin aman, əfv təklifinə cavab olaraq bildirirdi ki, «… qırx gün alçaq kölə kimi ömür sürməkdənsə, bir gün rəhbər kimi yaşamaq yaxşıdır» [2, s.112-113]. Babək iki qardaşı Müaviyə və Abdullah, anası və digərləri ilə birlikdə Şəki vilayətinə gəldilər və Babəkin keçmiş müttəfiqi, yerli alban nəslindən olan Səhl ibn Sunbatın qalasında gizləndilər [7, s.205]. Səhl Afşinə xəbər göndərdi və bir neçə gündən sonra təş-

kil edilmiş ov zamanı Babək tutuldu. Babək son dəfə Bəzz qalasına baxdıqdan sonra Bərzəndə Afşinin yanına gətirildi. 838-ci il martın 14-də Bağdad yaxınlığındakı Samirə şəhərində amansızlıqla edam olundu [13, s.63]. Babəkin edam vaxtı 39 yaşı var idi.

Babəkin məğlub olmasına baxmayaraq 21 il davam etmiş bu hərəkat bütün Xilafəti lərzəyə salmışdı. Bu azadlıq hərəkatı Azərbaycan tarixinin parlaq səhifələrindən birini təşkil edir. Babək hərəkatı dövründə xürrəmilərin 225 min nəfərdən artıq əsgər və çoxlu ərəb sərkərdəsini məhv etdiyi orta əsr mənbələrində öz əksini tapmışdır [1, s.211]. Əvvəla, Xürrəmilər hərəkatı, o cümlədən Babək islam dininə qarşı olmamış, özlərini islamın bir qoluna aid etmişlər. Onlar Peyğəmbərin ailəsinə, İmam Əlinin nəslinə sadiq qalmışlar. Xürrəmilər Xilafətin həm Əməvilər, həm də Abbasilər sülalələrinin hakimiyyətinə qarşı olmuşlar. Orta əsr müəllifi Nizamülmülk "Siyasətnamə" əsərində qeyd edir ki, "şiələr Bağdad xəlifəsi ilə hesablaşmırlar", "bəni-Abbas xanədanını dağıtmaq istəyirlər" [12, s.174-177, 200]. Bəndəli Cövzi özünün "Min tarix əl-hərəkat əl-fikriyyə fil-i-İslam" (Qüds, 1938) adlı əsərində göstərir ki, xürrəmilərin "məqsədi islama müqavimət göstərmək və onu məhv etmək deyildi... Məqsəd istilaçı bir millət olan ərəblərə müqavimət göstərmək idi" [7, s.310; 4]. Müasir tarixçi Ceyhun Bayramlı hesab edir ki, "batinilik, xürrəmilik, ələvilik, sufilik, hürufilik və daha sonra qızılbaşlıq... vahid ideya zəncirinin müxtəlif zamanlarda özünü göstərmiş həlqələridir". Xürrəmiləri, əslində, qızılbaşların sələfləri hesab etmək olar. İkincisi, Babəkin məqsədi Xilafətin hakimiyyətinə son qoyub, Azərbay-

canın müstəqilliyini, dövlətçilik ənənəsini bərpa etmək, öz hökmranlığı altında dövlət qurmaq idi. Babək 21 illik mübarizəsi ilə bu məqsədə nail oldu. Bu dövlətin rəsmi rəmzləri- Bəzz adlı paytaxt şəhəri, ordusu, hərbi şurası, al rəngli bayrağı, konkret ərazisi, inzibati idarə etmə sistemi, Bizans imperiyası ilə diplomatik əlaqələri, hökmdarı var idi. Babək üsyançı deyildi, öz dövlətini qurmuş hökmdar idi [5]. Babək oğluna yazdığı məktubda özünü "hökmdar" adlandırır [14, s.112-113]. Başqa bir yerdə burada işlədilən "hökmdar" sözü, "padşah" və "şah" ifadəsi ilə əvəz edilib [8, s.335, 400-401.]. Ziya Bünyadov orta əsr ərəb müəllifi Cəlaləddin əs-Süyutinin "837-ci ildə Mötəsim Azərbaycan padşahını (məlikini) əsir almışdır" deyə yazdığını bildirir [8, s.335]. Tarixçi Ceyhun Bayramov Səfəvi sülaləsinin dövründəki klassik Azərbaycan dövləti ilə Xürrəmilərin Azərbaycan dövləti arasındakı varisliyə də diqqəti cəlb edir. Orta əsr müəllifi Fəzlullah ibn Ruzbehxanın fikrinə görə, "Şeyx Heydər öz müridlərinə Babəkin dini qaydalarını təbliğ edirdi" [8, s.358]. Üçüncüsü, XX əsrin birinci yarısında yaşamış Azərbaycan tarixçisi Rəşid bəy İsmayılov Babəkin etnik mənsubiyyətinə diqqəti çəkərək qeyd edir ki, "Babək adlı bir türk... zühur edib, tamam Azərbaycanı müsəxxər etdi" (tutdu.- A.N) [11, s.50]. Babəkin edam edilərkən kəsilmiş başının Xorasana göndərilməsi bəzi nəticələrə gəlmək üçün əsas verir. Mənbə bu hadisəni belə təsvir edir: "Mötəsim onun başını Xorasana göndərdi. Bədənini isə Samirədə... asdırdı" [16]. Hər şeydən öncə, qeyd olunmalıdır ki, Xorasan və yaxın ərazilərdə qədimdən türklər yaşayırdı. Türkiyəli tədqiqatçı Nihat Çətinkaya qeyd edir ki, "İslamın zühuruna yaxın dönəmlərdə

Xorasanda... türk qövmlərindən Hunlar (Eftalitlər), Xələclər, ... Ağacəri, Sul və Yazar türkləri yaşayırdı" [6]. Burada yaşayan türklər Peyğəmbər ailəsinə xüsusi diqqətlə yanaşır, onların fikrinə görə "Peyğəmbərin ailəsinə hörmətsizlik edən" Abbasilər sülaləsini qəbul etmir, üsyanlar təşkil edirdilər. Bu türklər Xürrəmilər hərəkatının əsas qüvvəsini təşkil edirdilər. 819-820-ci illdə vəfat etmiş səkkizinci imamın-imam Rzanın və onun bir sıra ailə üzvlərinin Xorasan vilayətinin Məşhəd şəhərində dəfn edilməsi də təsadüfi deyildi [6]. Burada yaşayan türklərin Hz.İbrahimin nəsli ilə bağlı olmasına dair iddialar da maraq doğurur. İncilin Təkvin bölməsində [10] yazılıb ki, Hz.İbrahim Sara və Həcər öldükdən sonra Qantura ("Ketura") adlı bir qadınla evlənmiş, həmin nigahdan 6 oğul övladı olmuşdur. Əbül-Fərəc özünün "Müxtəsər-üd düvəl" adlı əsərində Sara öldükdən sonra İbrahimin türk kralının qızı Qantura ilə evləndiyini, Musa peyğəmbərin də "həmin qadının Yakşan adlı oğlunun soyundan gəldiyini" bildirir. Digər tarixçi Məmmədhəsən Qəmbərli ibni Abirinin "Dövlətlərin müxtəsər tarixi" adlı əsərində "İbrahim bir türk xaqanının qızı ilə evləndi" deyə yazdığını bildirir və bu barədə Türkiyə tarixçilərinə istinad edir [6]. Məhəmməd Peyğəmbərlə bağlı hədislərdə İbrahim Peyğəmbərin bu qadından olan nəsli "Bəni Qantura" adlandırılır. Professor Firidun Ağasıoğlu bu barədə qeyd edir ki, VII-IX əsrlərdə mübahisə edən ərəb tarixçiləri Xorasanlı türklərin Kanturaoğulları soyundan olduğunu söyləyirdi, islam dövründə Azərbaycana ilk gələn ərəblər buradakı türk boylarına "Bəni Kantura" deyirdilər [6]. Deyilənlərin Babəklə əlaqəsinə diqqəti çəkərək qeyd edək ki, Əhməd ibn Əsəm əl-Kufi

“Kitab əl-Fütuh” adlı əsərində Xəlifənin saray şairlərindən birinin Babəki “Xorasan sultanı” və ya sonralar təhrif olunaraq “Xorasan şeytanı” adlandırılmasını xəbər verir [14, s.60]. Bu məlumatlar Azərbaycan və Xorasan türklərinin eyni kökdən və qədimdən bu ərazilərdə mövcud olduqlarını, Babəkin Xorasan türklərindən olduğunu iddia etməyə əsas verir. 747-750-ci illər üsyanına rəhbərlik etmiş Əbu Müslim əl-Xorasaninin də Xorasan türklərindən olduğu, Babəkin isə onun nəvəsi olması ilə bağlı iddialar da mövcuddur. Bütün bunlar Xürrəmilər hərəkatının mənbəyi, Babəkin etnik mənsubiyyəti ilə bağlı bəzi mülahizələr irəli sürməyə imkan verir.

Beləliklə, Ərəb Xilafətinə qarşı Babəkin başçılığı altında aparılan mübarizə qısa müddətə olsa da Azərbaycan dövlətinin bərpa olunması ilə nəticələndi və sonrakı dövlətçilik fəaliyyəti üçün zəmin yaratdı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan tarixi. Yeddi cilddə, II cild. Bakı, “Elm”, 2007.

2. Azərbaycan tarixi üzrə qaynaqlar (tərtibçi və redaktor: Süleyman Əliyarlı. Bakı, “Çıraq”, 2007.

3. Babək haqqında yalanlar və gerçəklər.- modern.az/olke/20606/babek-haqqinda-yalanlar-ve-gercekler/.

4. Babək və Xürrəmilər hərəkatı barədə həqiqətlər.- millikimlik.az/2020/2036/.

5. Bayramlı C. Azərbaycan milli dövlətçilik tarixində Babək Xürrəminin yeri və rolu barədə.- Tarix və onun problemləri, №2, 2014.

6. Bayramov C. Babəkin başı niyə Xorasana göndərildi?- Yad mənbələrdə gizlədilən həqiqətlər.- teref.az/kose/41755-ba-

bekin-basi-niye-xorasana-gonderildi-yad-menbelerde-gizledilen-heqiqetler.html.

7. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. İkinci nəşr, Bakı, "Şərq-Qərb", 2007.

8. Bünyadov Z. Dinlər, təriqətlər, məzhəblər. Bakı, "Qanun", 2007.

9. Əl-Kufi. Fəthlər kitabı.- Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Bakı, "Nurlan", 2005.

10. İncil, 25,1-4.

11. İsmayılov R.B. Azərbaycan tarixi (1923-cü il). Bakı, "Azərnəşr", 1993.

12. Nizamülmülk. "Siyasətnamə", Bakı, "Çıraq", 2007.

13. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). "Elm və Təhsil", Bakı, 2019.

14. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Bakı, "Nurlan", 2005.

15. Şamiyeva H. Azərbaycanda dini-siyasi hərəkatlar (VIII-IX əsrlər). Bakı, "Xan", 2019.

16. Təbəri. "Tərux ər-rüsul va-l-müluk", III cild, s.1231.

17. Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. (I hissə) Bakı, "Elm və təhsil", 2016.

18. Vəlixanlı N. Ərəb Xilafəti və Azərbaycan. Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1993.

19. Tirmizi B.M. Zoroastrians and their fire femples in Iran and adjoining countries from the 9-th to the 14-th centuries as gleaned from Arabic geografical Works, c. XXIII, № 4b, 1950.

20. Бунspecially 3. Азербайджан в VII-IX. Изд. Академии Наук Азерб. ССР, Баку, 1965.

21. Всемирная история в десяти томах. Том III. Москва, Политическая литература, 1957.

22. Румянцев С., Аббасов И. С кого начинается родина?/ Ab imperio: теория и история национальностей и национализма в постсоветском пространстве. Выпуск №2. Казань: Ab İmperio, 2006.

### *§ 4. III- IX əsrlərdə Azərbaycanın təsərrüfat həyatı və mədəniyyəti.*

Azərbaycanın şimal və cənubunda sosial-iqtisadi həyat yeni yüksəlişlə xarakterik idi. Adərbayqanda əhalinin çox hissəsi əkinçilərdən ibarət idi. Feodalların əksəriyyəti torpaqlarını onlara icarəyə verirdi. Burada əsas vergi xərac və gezitdən ibarət idi. Xaraq torpaq vergisi idi, əkin sahələrinin şəhərlərə yaxın və ya uzaqlığından asılı olara məhsulun 1/3-dən 1/6-nə qədər təşkil edirdi. Gezit can vergisi idi, sənətkarlardan ildə bir dəfə yığılırdı. Xristian əhali cizyə və xərac vergiləri ödəyirdi. V-VII əsrlərdə Arranda (Albaniyada) feodal münasibətləri hakim mövqe qazandı. Əhalinin əsas hissəsini kəndlilər təşkil edirdi. Kəndlilərə şinakan (pəhləvi dilində "kənd əhalisi" demək idi) deyilirdi. Digər istehsalçılara sənətkarlar, daşyonanlar, dülgərlər, zərgərlər və digərləri aid idi [12, s. 40-41].

Arranda (Albaniyada) əkinçilik, heyvandarlıq, sənətkarlıq inkişaf edirdi. Kür çayı sahilləri, Mil-Muğan düzü, Naxçıvanda əhali əsasən əkinçiliklə məşğul olur, taxıl, pambıq, üzüm, bostan bitkiləri becərirdi [22, s.26]. Arranın bütün ərazisində- Dərbənddən Tiflisə qədər ərazilərdə qızılboya (marena) becərilirdi [17, s.39]. Burada heyvandarlıq da yüksək səviyyədə idi, iri və xırda buynuzlu heyvanlar, həmçinin dəvə və at təsərrüfatları var idi. Kür və

Araz çayları ətrafında, Xəzər dənizi sahillərində balıqçılıq inkişaf etmişdi [9].

Sənətkarlığın toxuculuq, dəri emalı, misgərlik, şüşə emalı, xalçaçılıq və digər sahələri yüksək səviyyəyə çatmışdı. Sənətkarlıq istehsalı əsasən daxili xammala əsaslanır, daxili bazar üçün işləyir, lakin xaricə də mal ixrac olunurdu. Sənətkarlıq şəhərlərin inkişafına müsbət təsir göstərirdi. Bu dövrdə Arranda (Albaniyada) beynəlxalq ticarət yolları üzərində yerləşən Bərdə, Dərbənd, Qəbələ, Çola, Beyləqan, sənətkarlıq mərkəzləri kimi Şəki, Şəmkir, Girdman, Naxçıvan, kənd tipli iri yaşayış məntəqələrindən Torpaqqala (Qax), Mingəçevir və digər şəhərlər mövcud idi [17, s.40].

Adərbayqan Sasanilərin əsas vilayətlərindən biri olmaqla inkişaf edirdi. Burada hakimlər, əyanlar, azatlar üstün təbəqəni təşkil edirdi. Arranda olduğu kimi, Adərbayqanda da əhalinin əsas hissəsini kəndlilər təşkil edirdi. VI əsrdə torpaq münasibətləri xeyli inkişaf etdi, əyanlar icma torpaqlarını ələ keçirərək, kəndliləri asılı vəziyyətə salırdılar. Dini müəssisələrin mülkləri də genişləndi, baş atəşpərəstlik məbədi əsas torpaq sahiblərindən idi [5]. Adərbayqanda həcminə, iqtisadi roluna görə, Qazaka, Fraaspa, Vera, Ərdəbil şəhərləri fərqlənirdi [8, s.163].

Ərəblər Azərbaycana gələn ərəfədə Arran, Adərbayqan adları geniş şəkildə işlədilirdi, çox vaxt "Azərbaycan" adının müxtəlif formaları şimallı-cənublu bütün ərazilərimizə aid edilirdi. Hər kəs Azərbaycanı böyük Türk ölkəsi kimi qəbul edirdi. Bizans müəllifi Feofilakt Simokatta (580-630-cu illər) məşhur "Tarix" əsərində VI-VII əsr hadisələri ilə bağlı "Azərbaycan" adının "Adərbayqan"

formasından istifadə edir, hərdən fars, hərdən də Midiya hökmdarları kimi təqdim etdiyi I Qubad (473-531), II Xosrovun (570-628), II Xosrovun məşhur "midiyalı sərkərdəsi" Bəhram Çubinin müxtəlif dövrlərdə şimala, türklərin ölkəsinə, Azərbaycanın şimal torpaqlarına qaçaraq, "Adərbayqanda gizləndiklərini" qeyd edir [20, s.98, 105, 107]. VII əsrə aid Suriya mənbələrində isə birbaşa eyni hadisələrlə bağlı "Azərbaycan ölkəsi" ifadəsi işlədir [1, s.212, 213]. Ərəblər Azərbaycanı işğal etdikləri zaman Azərbaycanın cənub torpaqlarının mərkəzi Ərdəbil, IX əsrin əvvəllərində Marağa, X əsrdən isə yenidən Ərdəbil, şimal torpaqlarının mərkəzi isə Bərdə olmuşdur [13, s.29]. Ərəb müəlliflərindən əl-Yaqubinin Arranı "Yuxarı Azərbaycan" adlandırması da [13, s.48] maraqlı faktlardandır. Bu vaxt Azərbaycanda və Arranda bir neçə kateqoriya şəhərlər mövcud olub: İri, orta, xırda şəhərlər. Amma şəhərlərin əksəriyyəti hələ iri sənət-ticarət mərkəzlərinə çevrilməmişdi. Bu dövrün şəhərlərindən Bərdə, Dərbənd, Baylakan (Paytakaran) fərqlənirdi [15, s. 123].

Arranda əsasən toxunma, tikiş malları ixrac olunurdu, Dərbənd vasitəsi ilə müxtəlif ölkələrə göndərilirdi [19, s.161]. Arran həmçinin boyaq materialları, zəfəran kimi malların ixracı ilə məşhur idi. Buradan həmçinin nərə balığının kürüsü ixrac olunurdu. Bərdə və ətraf bölgələrində fındıq, zoğal, şabalıd, əncir və digər meyvələrin yetişdirilməsi, baramaçılıq və ipək istehsalı, balıqçılıq qeyd olunur.

Ərdəbildə iri bazar fəaliyyət göstərirdi, dünyanın bir çox yerlərindən buraya tacirlər gəlirdi. IX əsrin sonu üçün şəhər qala divarları ilə əhatə olmuşdu. Bu məşhur ticarət mərkəzi həm də malların ucuzluğu ilə seçilirdi. Bu dövr-

də Gəncə ticarət mərkəzi, Dərbənd cənub-şimal yolunun tranzit məntəqəsi kimi formalaşmışdı. VIII-IX əsrlərdə ticarət inkişaf edir və davamlı şəkildə xəzinəyə gəlir gətirirdi.

Azərbaycanda mədəniyyət də yüksələn xətlə inkişaf edirdi. Bu vaxt Azərbaycanın cənub və şimal hissələrində formalaşan mədəniyyətin ümumi cəhətləri daha aydın şəkildə özünü göstərir. Belə bir mövqe əsas götürülür ki, Adərbayqanda Sasanilərin pəhləvi yazı sistemi, Arranda isə V əsrin əvvəllərindən 52 hərfli alban əlifbasından istifadə olunurdu [12, s.49].

V əsrdə Arranda məktəblər fəaliyyət göstərirdi. Arran hökmdarı Esuagenin dövründə uşaqlar məktəbə cəlb olunur, onlara oxumaq və yazmaq öyrədilir, hətta qida ilə təmin olunurdular. III Mömin Vaçaqan xristian məbədlərinə, məktəblərə xüsusi fikir verirdi [17, s.46-47].

Adərbayqan mədəniyyəti kifayət qədər araşdırılmamışdır. Az-çox əldə olunan materiallar burada şəhərsalma mədəniyyətinin yüksək olduğunu göstərir. Fraaspa şəhərinin qədimdən ilkin orta əsrlərə qədər mövcud olduğu qeyd edilir [18, s.52]. Sasanilər dövründə dini məbədlərin nəzdində məktəblər fəaliyyət göstərirdi. Qazaka şəhərində kahinlər dini fəaliyyətlə yanaşı təlim tərbiyə, təbabət, tarixi salnamələrin yazılması ilə də məşğul olurdu [7, s.126].

Bu dövrdə Azərbaycanın şimalı və cənubu mədəniyyət sahəsində də əlaqəli şəkildə inkişaf etdi, bir-birlərini zənginləşdirdi və daha üzvü şəkildə tamın hissələrinə çevrildilər.

VII əsrdə ölkənin tarixinin tərtibinə başlanmışdır. Bu zaman Bərdə yaxınlığındakı Kalankatlı kəndində anadan olmuş Musa Kalankatlı «Aqvan (Alban) tarixi» əsərini yazmışdır. "Kitabi-Dədə Qorqud" dastanı Xilafət dövründə formalaşıb başa çatmışdır. Azərbaycanın ilk ərəbdilli şair və yazıçılarının yaradıcılığı VII-VIII əsrlərə təsadüf edir. Onlardan Dəvdək, Musa Şəhavət, İsmayıl ibn Yaşar, onun oğlu Məhəmməd və digərlərini qeyd etməliyik [12, s.64]. VII əsrdə yaşamış Dəvdəkin yaradıcılığından yalnız Arran hökmdarı Cavanşirin ölümünə həsr etdiyi əsər bizə çatmışdır [3, s. 214-236].

Bu dövr Azərbaycan mədəniyyətinin əsas xüsusiyyətlərindən biri VII əsrdən islam dininin yayılması və bunun mədəniyyətin bütün sahələrində öz ifadəsini tapmasıdır. Bu vaxt fəaliyyətə başlayan mədrəsə tipli məktəblər, mollaxanalar, məscidlər, ziyarətgahlar və s. bir tərəfdən dinə, onun ideyalarının yayılmasına, təbliğinə xidmət edir, digər tərəfdən mədəniyyətin müxtəlif sahələrinin inkişafına təkan verirdi [11, s. 235]. Artıq VIII-IX əsrlərdə Azərbaycan mədəniyyətinin bütün sahələrində islam dininin normaları özünü göstərir və aparıcı amilə çevrilirdi.

Bu gün də aktual olan, mübahisələr doğuran bir məsələni bu dövrlə bağlı aydınlaşdırmaq daha məqsədə uyğundur. Məhz bu dövrdə, ərəblərin, islamın regiona gəlməsi ilə əlaqədar məsələ bir çox cəhətləri ilə aydın görünməyə başladı. Bu, azəri, yoxsa türk dili, türk, yoxsa azərbaycanlı, azəri deyimləri, terminlərinə münasibət məsələsidir. Məsələyə aydınlıq gətirmək üçün keçmiş və sonrakı dövrlərin münasibəti, mübahisələri, faktları nəzərə alınmalıdır.

Əvvəlcədən qeyd edək ki, V əsrdə Adərbayqan və Arranda vahid türk dili formalaşmış, VI-VIII əsrlərdə bu dildə şifahi xalq ədəbiyyatının misilsiz nümunələri, “Oğuznamə”lər yaranmışdır. Azərbaycanda “türk” sözü VI əsrdən, “azəri” sözü isə VII əsrdən başlayaraq işlədilmişdir [10, s.552]. “Türk” adının qədim “turukki” forması nəzərə alınmaqla, qeyd etməliyik ki, bu ifadə ilk dəfə Göytürklər tərəfindən özlərinə aid edilərək işlədilmişdir. Türk adının meydana gəlməsi onlarla bağlıdır. Onlardan sonra isə yalnız Azərbaycan əhalisi özünün etnik-milli mənsubiyyətini göstərmək üçün “türk” ifadəsindən istifadə etmişdir. Digər türkdilli soylar özlərini fərqli şəkildə, maday, hun, xəzər, səlcuqlu, osmanlı, özbək, qazax və sair adlarla adlandırmışdır. “Azəri” ifadəsini ərəblər işlətmiş, məqsədləri isə Azərbaycan türk əhalisini digər türklərdən fərqləndirmək olub. Ərəblər onların ordusunda olan türk əsgər və sərkərdələrə münasibətdə “türk” ifadəsini işlədir, daha çox isə onları mənsub olduqları tayfaların ünvanı ilə adlandırmağa üstünlük verirdilər. Ərəblər regiona gəldikləri ilk dövrdə Azərbaycan əhalisinin başdan-başa türklərdən ibarət olduğunu bildirir, lakin bir müddət sonra yuxarıda qeyd etdiyimiz səbəbdən “əhli Azərbaycan”, “azəri” ifadələrini daha məqbul hesab etdilər. İstənilən halda məsələyə türk-azəri xalqı mövqeyindən yanaşılmalıdır. Mənbələrdə yer almış bir maraqlı faktı da qeyd edək. Suriyalı müəlliflərdən Mixailin (XII əsr) “Xronika”sında Babəkin tərəfdarları bəzən “Midiya xalqı” adlandırılır [1, s.215]. Bu, madayların (midiyalıların) türk olduqlarını bir daha təsdiq edir.

Ona görə də, bu ifadələri bir-birinə qarşı qoymaq yox, eyni mənanı verdikləri qəbul edilməlidir. Azərbaycan tədqiqatçıları tərəfindən tez-tez müraciət olunan, amma müxtəlif cür yozulan bir faktı diqqətə çardıraq. Bu, Azərbaycanın çox görkəmli alimi, ədəbiyyatşünası, dilçisi, ərəb dilinin bilicisi, şair Xətib Təbrizi (1030-1108) ilə bağlı olan faktdır. Bu hadisə həmin dövrdən əvvəlki 200-300 illik prosesə yekun vurulması ilə əlamətdardır. Xətib Təbrizinin öz müəllimi Əbül Əla Məərri ilə məşhur söhbətində azəri dilinin "Azərbaycan əhalisinin dili" kimi təqdim edilməsi "azəri dili" dedikdə türk dilinin nəzərdə tutulduğuna əyani misaldır [10, s.558-559]. Söhbətin məzmunu belədir: "Xətib Təbrizi danışırdı ki, Nümanda (Suriyada şəhər.- A.N.) Məərrinin məscidində mən Əbül Əlanın qarşısında oturmuşdum... Bu zaman məscidə girən bir qonşumuzu gördüm... Əbül Əla dedi ki, get onunla söhbət et... Mən getdim və qonşumla xeyli azəricə (azərbi) danışdım... Qayıdandan sonra Əbül Əla soruşdu ki, o, nə dil idi? Mən dedim ki, bu, Azərbaycan əhalisinin dilidir" [21, s.129].

X. Təbrizinin mətndə yazdığı ifadəni bəzi alimlər "azəri", digərləri "azərbi" şəklində tərcümə edib. Bəzi tədqiqatçılar isə mətnlə aşırı sərbəst davranaraq "Azərbaycan türkcəsi" kimi tərcümə etmişlər. "Azəri" və yaxud "azərbi" ifadələri reallığa daha yaxındır, mənaları da eynidir. Hər iki ifadə "Azərbaycan", "azərbaycanlı" sözlərinin qısaldılmış variantıdır. Ona görə də, bu addan imtina etməyin mənası yoxdur. Ərəblərin vaxtında ölkəmiz hamı tərəfindən Azərbaycan adlandırılmış, dilimizə də bu kökdən "əl-azəriyə", azəri dili deyilmişdir [10, s.560]. Bu vaxtdan rəsmi dairələrdə "azəri", xalq arasında isə "türk"

ifadəsi işlədilmişdir. IX-XIII əsrlər ərəb müəlliflərindən Yaqub Həməvi, Yaqubi, Məsudi və başqaları daha çox "azəri dili" ifadəsini işlətmişlər [2, s. 222-223].

Regionda ərəb təsiri zəiflədikcə artıq "türk dili", "türk" ifadələri üstünlük təşkil edirdi. XIII-XIV əsrlərdə Həmdulla Qəzvini və digər müəlliflər Azərbaycana münasibətdə "türk" sözündən geniş istifadə edirdilər. Həmin vaxtlar indiki Türkiyədə "səlcuqlu", "osmanlı", Orta Asiyada "özbək", "qazax", "türkmən", "qırğız", "uyğur" və sair dillərin adları işlədilirdi. Yalnız Azərbaycanda "türk dili" ifadəsi hökmran idi [10, s.562]. Səfəvilərin dövründə isə türkcə rəsmi dil elan olunmuşdu, yalnız "türk dili" ifadəsindən istifadə olunurdu. Xarici səyyahlar, məsələn, XVII əsrin ikinci yarısında ölkədə olmuş fransız səyyahı Jan Batist Tavernye qeyd edirdi ki, Səfəvilərin "saray adamları türk dilində danışırlar" [4, s.185]. Lakin paralel şəkildə az da olsa, "azəri dili" ifadəsi də işlədilirdi [10, s.564]. XIX əsrin sonu-XX əsrin əvvəllərində Türkiyə ərazisində "osmanlı" ifadəsinin əvəzinə "Anadolu türkləri" ifadəsi meydana gəlmiş, Azərbaycan türklərini fərqləndirmək üçün yenidən "azəri" ifadəsi daha çox işlənməyə başlamışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə bizdə geniş şəkildə "türk" sözünə qayıdış baş vermiş, lakin AXC-nin süqutu, həmçinin Atatürk Türkiyəsində "türk" ifadəsinin hərtərəfli istifadəsindən sonra ictimai, siyasi xadimlər, yazarlar yenidən "azəri" ifadəsinə üstünlük vermişlər. Bəzi subyektiv amillərin təsiri olmasaydı, müasir dövrdə "azəri", "azəri dili" uğurlu, həmçinin tarixi, etnik, milli reallığı əks etdirən bir termin kimi öz yerini tuta bilərdi.

Subyektiv amil dedikdə İran və oradakı bəzi müəlliflərin məsələyə yanaşmasını nəzərdə tuturuq. Amma burada da tarixi faktlar "azəri" sözünə düzgün yanaşmanı nümayiş etdirir. Məsələn, İranda XIX əsrin ikinci yarısında buraxılan kitablarda Cənubi Azərbaycan əhalisinin dili "azəri dili" adlandırılır, və aydın olması üçün izahat verilir ki, azəri dili türk dili deməkdir. Bir çox Avropa şərqşünasları da azəri dilini "Azərbaycanın qədim türk dili" hesab edirlər [10, s.565]. Əslən Azərbaycan türklərindən olan Cahangir Zeynaloğlu 1924-cü ildə İstanbulda çap etdirdiyi "Müxtəsər Azərbaycan tarixi" əsərində yazır: "Azərbaycanda... tat, talış, ləzgi və sonradan gələn ərəb, kürd kimi millətlər yerli türklərlə qarışıb birləşiblər və yeni bir türk xalqı, yəni azəri türkləri vücuda gəlmişdir" [14, s.12].

Məsələ bu qədər aydın və asandır, lakin XX əsrin 20-ci illərində İranda Pəhləvilərin hakimiyyətə gəlməsi ilə məqsədli şəkildə dolaşıqlıq, anlaşılmazlıq yaradıldı. Bunun əsas ideoloqu türk mənşəli İran müəllifi Əhməd Kəsrəvi oldu. O, heç bir mənbəyə, fakta əsaslanmadan, tarixi məlumatları saxtalaşdıraraq, 1926-cı ildə "Azəri və yaxud Azərbaycanın qədim dili" adlı "əsər" yazdı və Azərbaycan türklərinin İrandakı hansısa azəri tayfasından olduqları, onların dilinin isə fars dili olduğuna dair saxta iddia irəli sürdü. Azərbaycan alimləri bu yalançı tezisdən qıcıqlanaraq, qəzəblənərək azəri ifadəsini rədd edib, türk sözünü qabartdılar. Sürətlə bu mövzuda yazılar, əsərlər meydana gəldi. Əslində, bu ifadələri bir-birinə qarşı qoymağa ehtiyac yox idi, yuxarıda da qeyd etdik ki, bu iki termin eyni mənanı ifadə edirdi. Görkəmli alimimiz Firidun Cəlilov (Ağasıoğlu) bu prosesə qarşı dayandı, həqiqəti ortaya gə-

tirdi: "Axı bunu kim sübut edib ki, azəri fars mənşəli tayfa olub, onu yalandan ortaya atıblar... Tarixdə farsların azəri adında tayfası olmayıb, Azər, Xəzər eyni sözlərdir və qədim türklərdir" [6]. Sonda bir faktı da qeyd edək ki,Əfqanıstanda yaşayan əfşarlar türk dilində danışır, özlərini azəri, dillərini azəri dili adlandırır və deyirlər ki, onların əcdadları bu dildə danışıb [16, s.87].

Beləliklə, ən çətin dövrlərdə də Azərbaycanın iqtisadiyyatının, mədəniyyətinin inkişafını müşahidə etdik. Eyni zamanda, təxminən son 1.5 min illik tarixə nəzər salaraq, müqayisəli təhlil apararaq, faktları ortaya qoyaraq belə bir qənaətə gəldik ki, azərbaycanlı, azəri, türk, Azərbaycan türkü ifadələrini bir-birinə qarşı qoymamalı, eyni məzmunlu sözlər kimi işlətməliyik.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Ağayev R. Cənubi Azərbaycan III-IX əsrlərdə (Suriya mənbələri əsasında).- Atropatena Azərbaycan tarixçilərinin tədqiqatlarında (məqalələr toplusu). Bakı, "Nəşriyyat" şöbəsi, 2024.- http://tarixinstitutu.az/web/uploads/books/books/2024/10/ Atropatena12.07.202411.pdf

2. Azərbaycan tarixi, I cild (Z. Bünyadov və Y. Yusifovun redaktəsi ilə). Ali məktəblər üçün dərslik. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

3. Azərbaycan tarixi. Yeddi cilddə, II cild, Bakı, "Elm", 2007.

4. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, "Elm", 1989.

5. Azərbaycan 3-8-ci əsrin əvvəllərində. – kayzen.az/blog/ Azərbaycan-tarixi/24455/ azərbaycan-3-8-əsrin-əvvəllərində-yeni-ictimai-münasibətlərin-yaranması.html.

6. Cəlilov F. "Biz "azəri" deyilik..." 21.10.2015.- musavat.com/news/biz-azeri-deyilik_299942.html.

7. Fazili A. Aturpatena e.ə.IV-e.VII əsr. Bakı, "Elm", 1992.

8. Fazili A. Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında. Bakı, "Elm", 1984.

9. Kalankatlı, II, fəsil 16; I, fəsil 5.

10. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, "Təhsil", 2003.

11. Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. Bakı. "Sabah" nəşriyyatı, 2010.

12. Nuriyeva İ. Azərbaycan tarixi. Bakı, "Elm və təhsil", 2019.

13. Vəlixanlı N. Ərəb Xilafəti və Azərbaycan. Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1993.

14. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1992.

15. Буниятов З. Азербайджан в VII-IX. Изд. Академии Наук Азерб. ССР, Баку, 1965.

16. Дебец Г.Ф. Антропологические иследования в Афганистане. Советская этнография. Москва, «Наука», 1967, №4.

17. История Азербайджана. Под редакцией Мехмана Абдуллаева. Баку, изд-во "Bakı Universiteti", 2016.

18. Кошеленко Г.А. Культура Парфии. Москва, «Наука», 1966.

19. Мюллер А. История Ислама. Том 2, s. 161.- gumilevica. kulichki.net/ MUA/index.html

20. Симокатта Ф. История. Москва, изд. АН СССР, 1957.

21. Сумбатзаде А.С. Азербайджанцы-этногенез и формирование народа. Баку, «Элм», 1990.

22. Тревер К. Очерки по истории и культуре Кавказской Албании: IV в. до н.э.- VII в. н.э.- АН СССР, Москва-Ленинград, 1959.

# V fəsil. Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin bərpa edilməsi (IX-XII əsrlər)

## *§ 1. Azərbaycanda Xilafətin mövqelərinin zəifləməsi və yeni yerli sülalələrin hakimiyyətə gəlməsi.*

IX əsrdə Ərəb Xilafəti zəiflədi. Abbasilər imperiyasına qarşı xalq azadlıq hərəkatlarının başlıca mərkəzlərindən biri olan Azərbaycanda müstəqillik meyli daha güclü idi. İri torpaq sahiblərinin Abbasilərdən asılılığı getdikcə formal xarakter daşıyırdı. Azərbaycanın ayrı-ayrı vilayətlərini faktiki olaraq müxtəlif yerli sülalələr idarə edirdi. Təbriz, Ərdəbil, Mərənd, Miyanə, Urmiyə, Muğan, Şirvan, Beyləqan, Şəki, Qəbələ, Dərbənd ayrı-ayrı nəsillər tərəfindən idarə olunurdu. Onların bəziləri ərəb mənşəli olsalar da, artıq yerli əhali ilə qaynayıb qarışmışdılar.

Ərəb müəllifi İbn Havqəl ən-Nəsibi (X əsr) IX-X əsrlər Azərbaycanını kifayət qədər ətraflı təsvir edir. O ilk olaraq "Azərbaycan, Arran və Ərminiyəni" vahid ərazi hesab etdiyini qeyd edir [5, s.285]. "Ərminiyə" ifadəsi burada və digər ərəb müəlliflərində coğrafi ərazini bildirmək üçün işlədilir, onun haylara heç bir aidiyyatı yoxdur. Müəllif sonra həmin dövrə aid xəritəni şərh edir: "Xəritənin yuxarısında "Ərminiyə (tarixi Azərbaycan torpaqlarının Azərbaycanla Arran arasında yerləşən hissəsi.- A.N.), Azərbaycan və ər-Ran (Arran.- A.N.) surəti", ondan solda, küncdə "şimal" yazılmışdır. Yuxarıda, sağ tərəfdə dəniz təsvir edilmişdir, onun sahilində əl-Bab (Dərbənd.- A.N.), sonra isə əs-Şabran (Şabran.- A.N.) yerləşdirilmişdir... Bundan aşağıda də-

nizə tökülən Kür çayı təsvir edilmişdir. Bu çayın üstündə Tiflis şəhəri, sonra isə Bərdac (Zərdab rayonu Körpükənd kəndinin ərazisində şəhər olub.- A.N.) yerləşir. Şabrandan başlayan yol iki şəhərə- Şirvana və Şamaxiyəyə, sonra Bərdaca, daha sonra Bərdəyə aparır. Bərdədən başlayan başqa bir yol Tiflisə gedir. [Yolun] üstündə Cəncə (Gəncə.- A.N.), Şəmkir, Xunan, Qala yerləşir. Bu sahədə ər-Ran (Arran) nahiyyəsinin aşağı (cənub) həddi ər-Ras (Araz.- A.N.) çayıdır... Ər-Ras (Araz) çayından aşağıdakı sahədə Azərbaycan yazılmışdır [5, s.285]. Ərdəbildən sola aparan yol Əhər və Varsandan keçərək Dəbilə gedir... Dəbil bir dağa birləşir... Bu dağa sağ tərəfdən Nəşavə (Naxçıvan.- A.N.) şəhəri birləşir... Bu nahiyələrdən ən mükəmməli Azərbaycandır. Onun ən mühüm, böyük şəhəri Ərdəbildir [5, s.286]... Arranda Bərdə, əl-Bab (Dərbənd), Tiflisdən böyük şəhər yoxdur... Arranın hökmdar sarayı Bərdədə, Azərbaycanın hökmdar sarayı isə Ərdəbildədir" [5, s.291]. Müəllif bununla ərəblərdən sonra bərpa olunan Azərbaycan ölkəsi, dövləti, hökmdarları haqqında bitkin məlumat verib. Bu əsərin ən maraqlı cəhətlərindən biri də həmin dövrdə Dərbənddən şimala doğru ərazilərin, "Xəzəran" deyilən ölkənin Azərbaycana tabe olması faktının göstərilməsidir: "Xəzəran Azərbaycan hökmdarının hakimiyyəti altında dağlarda yerləşən məmləkətdi... Onlardakı hakimlərin çoxu hər il Azərbaycan hökmdarlarına (məliklərinə) vergi ödəyirlər" [5, s.295]. Burada müəllif aydın şəkildə Azərbaycan dövlətinin güclü olduğunu, müxtəlif sülalələrin, o cümlədən Sacilərin, Salarilərin, Rəvvadilərin dövründə mövqeyini qoruyub saxladığını, xüsusilə Mərzban ibn Məhəmmədin vaxtında "divanlar, qanunlar və başqa zəruri şeylərin təsis olunduğunu" qeyd edir [5, s.295].

Ərəb Xilafətinin zəiflədiyi dövrdə Azərbaycanda müstəqil dövlətçilik ənənələri bərpa olundu. İlk olaraq Şirvanşahlar siyasi arenaya çıxdı. Sasanilər tərəfindən VI əsrin əvvəllərində Arranda Arsaklılar sülaləsinin hakimiyyətinə son qoyuldu, lakin eyni vaxtda qədim Şirvan torpağında dövlətçiliyin bərpa olunması üçün şərait yetişdi. Yeni dövlətin təməli Şabrançay və Gülgilçay arasındakı ərazidə qoyuldu, yeni qurumu idarə edən hakimlər "Şirvanşahlar" titulunu daşıyırdılar. Sasanilərin vaxtındakı Şirvanşahlarla bağlı dəqiq məlumat yoxdur. Şirvanşahlar ilk dövrlərdən ərazilərini qismən, bəzən isə tam müstəqil idarə edirdilər [21]. Əsası ərəb mənşəli Azərbaycan hakimi Yəzid ibn Məzyəd (VIII əsrin II yarısı -801) tərəfindən qoyulan Məzyədilər sülaləsi 861-ci ildə Azərbaycanın şimal- şərq torpaqlarında Şirvanşahlar dövlətinin müstəqiliyini elan etdi. Bu sülalənin ilk hökmdarı Heysam ibn Xalid (861-881) oldu. O, Bərdə şəhərində anadan olmuşdu. Dövlətin sərhədləri şimalda Dərbənd şəhəri və Samur çayını, cənubda Kür çayını, qərbdə indiki Göyçay və Şəki bölgələrini, şərqdə Xəzər dənizini əhatə edirdi. Dövlətin paytaxtı Şamaxı və Dərbənd arsında yerləşən Şirvan şəhəri (861-918), Şirvanşah Əbu-Tahir qədim Şamaxını 918-ci ildə bərpa etdikdən sonra isə Şamaxı şəhəri (918-1192) olub. Şirvanşahlar dövləti 917-ci ildə Layzan (indiki Lahıc) bölgəsini özünə birləşdirdi, 981-983-cü illərdə Şabran, Bərdə və Qəbələ şəhərlərini özünə tabe etdi [24]. Məzyədilər sülaləsi ölkəni 1027-ci ilə qədər idarə etdilər. Həmin ildən onları digər yerli Kəsranilər sülaləsi (1027-1382) əvəz etdi. Bu sülalələrin nümayəndələri yerli əhali ilə qaynayıb-qarışmış, ərəb köklərini tamamilə itirmişdilər.

Təxminən eyni vaxtda Azərbaycanın digər ərazisində Sacilər və yaxud Sacoğullar sülaləsi hakimiyyətə gəldi [17;11, s.138]. Sülalənin banisi Əbu-Sac Divdad Xilafətin ən tanınmış türk sərkərdələrindən idi. O, xüsusi xidmətlərinə görə IX əsrin ikinci yarısında Azərbaycana hakim təyin edilmişdi. Onun oğlu Məhəmməd ibn Əbu Sac 889 -cu ildə dövlətin müstəqiliyini elan etdi. Məhəmməd ibn Əbu Sac Marağanı paytaxt elan etmişdi, amma əsasən Bərdədə otururdu, orada da dəfn olundu. Yusif ibn Əbu Sacın dövründə (901-928) dövlət daha geniş ərazilərə yayıldı. Dövlət Azərbaycanın Araz çayından cənuba doğru ərazilərində meydana gəldi, sonra isə şimala doğru Dərbəndə qədər geniş əraziləri əhatə etdi. Sacilərin Azərbaycan dövlətinin paytaxtı əvvəlcə Marağa (889-901-ci illər), sonra isə Ərdəbil (901-941) şəhərləri oldu [19, s.195, 203, 215; 4, s.208-209]. Sacilər 912-ci ildə Xilafətə xərac göndərilməsini tamamilə dayandırdı. Sacilərin əsas xidməti ondan ibarət oldu ki, tarixi Azərbaycan torpaqlarını vahid dövlətin tərkibində birləşdirdilər, Qərbdə Dvin və ya Dəbil (fars dilində "təpə" mənasını verir) şəhərindən şərqdə Xəzər dənizinə qədər, Cənubda Zəncandan şimalda Dərbəndə qədər Azərbaycanın geniş əraziləri bu dövlətin tərkibinə daxil idi, Yusif ibn Əbu Sacın hakimiyyəti zamanında digər Azərbaycan dövləti olan Şirvanşahlar da Sacilərdən nominal asılılığı qəbul etdi. Müasir coğrafi terminlərlə desək, İranın Azərbaycan vilayətləri, Azərbaycan Respublikası, indi Ermənistan deyilən ərazilər və Dağıstanın cənub hissəsi Sacilərin hakimiyyətdə olduğu Azərbaycan dövlətinin tərkibinə daxil idi.

Sacilər sülaləsinin Azərbaycan tarixində xüsusi yeri olmuşdur. Məhz onların dövründə Azərbaycanın bütün ərazilərini birləşdirən vahid dövlət yaradıldı. Vahid Azərbaycan dövlətçiliyi onların adı ilə bağlıdır. Bu sülalənin ən parlaq nümayəndəsi isə Yusif ibn Əbu Sac idi. Sacilər də Babəkə qarşı döyüşlərdə fərqlənmiş Afşin Heydər ibn Kavus kimi Orta Asiyanın türk mənşəli nəsillərindən idilər [3, s.259-260]. Bu nəsillərin sərkərdə, hökmdar səviyyəsinə yüksələn nümayəndələri "Afşin" titulunu qəbul edirdi. Sacilər də həmin ənənəyə uyğun olaraq "Afşin" titulunu götürmüşdülər [15, s.147]. Afşin Heydər ibn Kavusun bu nəslə aid olduğu bir neçə mənbədə təsdiq olunur. O, eyni kökdən olduğuna görə Babəkə xüsusi münasibət göstərmiş, bu səbəbdən xəlifə onu Babəklə gizli əlaqələrdə ittiham edərək zindana atmış, orada öldürtmüşdü [7]. Sülalənin banisi Əbu-Sac Divdad türk nəslinin nümayəndəsi kimi "Afşin" titulunu qəbul etmişdi, sonrakı nümayəndələr də bu titulla tanınırdı, lakin mənbələr onları daha çox "Sacilər" kimi təqdim etməyə üstünlük verirdi.

Yusif ibn Əbu Sac tariximizə bütün Azərbaycan torpaqlarını vahid dövlət sərhədlərində birləşdirən hökmdar, görkəmli sərkərdə, dinin mübariz qoruyucusu kimi daxil olub. Hökmdar kimi güclü dövlət yaradıb, sərkərdə olaraq bütün döyüşlərində qalib gəlib, din müdafiəçisi kimi "qərməti" deyilən təriqətçilərə qarşı döyüşdə həlak olub [2]. Yusif ibn Əbu Sac hakimiyyəti dövründə Rey, Qəzvin, Zəncan fəthləri, uğurlu Kartli hərbi yürüşü [22], Dərbənd divarlarının bərpası və digər böyük əməlləri ilə məşhur olmuşdur.

Təxminən eyni ərazidə Sacilər digər Azərbaycan sülaləsi-Salarilər əvəz etdi. Onlar mənşəcə Kəngərli türk soyundan idilər, əsasən Xəzər dənizinin cənub-qərb sahillərində, Deyləm əyalətində cəmləşmişdilər [10, s.12]. Azərbaycan dövləti mövcudluğunu davam etdirirdi, sadəcə, dövlətə rəhbərlik edən sülalələr dəyişirdi. Hər dəfə yeni dövlətin yaranması təsəvvürü yanlışdır. Orta əsr ənənələrinə uyğun olaraq hər yeni sülalə dövləti özünün adı ilə adlandırmağa üstünlük verirdi. Bu hal bütün dünya ölkələri üçün səciyyəvi idi. Bu mənada Azərbaycan da istisna təşkil etmirdi. Azərbaycan dövlətində yerli Salarilər sülaləsinin hakimiyyəti 941-ci ildən 981-ci ilə qədər davam etdi [15, s.148]. Sülalənin hakimiyyətə gəlmiş ilk nümayəndəsi Mərzban ibn Məhəmməd (941-957) Sacilərin sonuncu nümayəndəsi Deysəm ibn İbrahimi məğlub edərək 941-ci ildə paytaxt Ərdəbil şəhərini ələ keçirdi. O, az sonra indiki Azərbaycan Respublikası, Ermənistan deyilən Azərbaycan torpaqlarını, indiki Şərqi Gürcüstanı, həmçinin Dərbəndi özünə tabe etdi. Beləliklə, Salarilərin dövründə Azərbaycan dövləti şimalda Dərbənd keçidindən başlayaraq, cənubda Dəclə və Fərat çaylarının yuxarılarına qədər, şərqdə Gilan (Deyləm) da daxil olmaqla Xəzər sahillərindən, qərbdə Qərbi Azərbaycan (indiki Ermənistan) və Şərqi Gürcüstan (indiki Borçalı və yaxın ərazilər) daxil olmaqla geniş əraziləri əhatə edirdi, paytaxtı Sacilərin vaxtında olduğu kimi Ərdəbil şəhəri idi. Mərzban ibn Məhəmmədin bir xidməti də vergilərin nizama salınması üçün "Qanunnamə" hazırlaması olmuşdur. Bu vaxt Azərbaycanın bütün tarixi torpaqları vahid dövlətdə birləşdirilmişdi [4, s.209-210]. Böyük bir regionda Azər-

baycan dövləti ilə müqayisə olunacaq başqa bir dövlət yox idi. Mərzbanın ölümündən sonra onun qardaşı Vəhsudanın (957-960) və oğlu İbrahimin (960-981) dövründə dövlət zəiflədi, hakimiyyətə yeni sülalənin gəlməsi üçün şərait yarandı. Vahid Azərbaycan dövləti parçalandı, iki yeni sülalənin hakimiyyəti bərqərar oldu.

Salarilər hakimiyyətinin zəifləməsi şəraitində Azərbaycanda iki yeni sülalə -Rəvvadilər və Şəddadilər mübarizə meydanına çıxdılar. Hər ikisi yerli sülalə idi. İki Azərbaycan dövləti eyni vaxtda mövcud idi.

Rəvvadilər mənşə etibarı ilə ərəb idilər, VIII əsrdə Azərbaycana indiki İraqın Bəsrə bölgəsindən köçürülmüşdülər. Orta əsrlərdə xalqların vaxtaşırı bir ərazidən digərinə köçürülməsi adi hal idi, məsələn, azərbaycanlıların bəzi tayfaları İraqa və digər yerlərə köçürülürdü. Rəvvadilər də digər ərəb tayfaları kimi yerli əhali ilə, IX əsr ərəb müəllifi əl-Bəlazurinin dediyi kimi, "azərbaycanlılarla qaynayıb-qarışmışdılar" [23]. Rəvvadilər VIII əsrdə Marağa, Təbriz, Əhər və digər Azərbaycan şəhərlərində yerləşmişdilər, xəlifənin nümayəndəsi kimi bu əraziləri idarə edirdilər. Yenə də əl-Bəlazurinin verdiyi məlumata görə, xəlifə Harun ər-Rəşidin (786-809-cu illər) vaxtında, təxminən VIII əsrin sonlarında Rəvvadilərin nümayəndəsi Vacna "azərbaycanlıların mərkəzi hakimiyyətə qarşı narazılığından istifadə edərək" Marağada özünü müstəqil elan etdi. Lakin xəlifə az sonra onu yenidən özünə tabe edə bildi [23]. Rəvvadilərin ən nüfuzlu nümayəndəsi Əbülhica ibn Hüseyn (981-988-ci illər) 981-ci ildə Salariləri devirərək Azərbaycanda hakimiyyətə gəldi. Sülalənin hakimiyyəti 981-ci ildən 1071-ci ilə qədər davam etdi. Onlar Təbrizi

paytaxt seçən ilk sülalə oldular. Bu sülalənin nümayəndələri "Azərbaycanşah" titulu daşıyırdılar [13, s.201-202]. Rəvvadilər sülaləsi paytaxt Təbriz olmaqla Azərbaycanın Araz çayından cənuba doğru bütün ərazilərini və Muğan bölgəsinin bir hissəsini idarə edirdi [18, s. 32].

Azərbaycanın digər hissəsini bu dövrdə Şəddadilər sülaləsi idarə edirdi. Şəddadilər Azərbaycanın qədim Dvin (Dəbil) şəhərində (moğolların hücumu zamanı 1236-cı ildə məhv edilib, xarabalıqları İrəvandan 35 km cənubda qalır) yerləşmişdilər. Onları Türkiyə mənbələri daha çox Şəddadoğulları kimi təqdim edirlər [6]. Sülalənin banisi Məhəmməd ibn Şəddad 951-ci ildə Dvin şəhərində öz hakimiyyətini elan etdi. Bu, Şəddadilər sülaləsinin Azərbaycanda hakimiyyətə gəlmək üçün ilk cəhdi idi. Az sonra Azərbaycan dövlətinin Salari rəhbərliyi onların cəhdinin qarşısını aldı. Şəddadilər 971-ci ildə istəklərinə nail oldular. Sülalənin təmsilçisi Əli Ləşkəri ibn Məhəmməd həmin ildə Salarilərin Gəncə hakimini kənarlaşdıraraq hakimiyyətə gəldi, Gəncəni özünə paytaxt elan etdi. Bununla Azərbaycanın digər hissəsində Şəddadilər sülaləsinin hakimiyyəti başladı. Onların hakimiyyəti 1075-ci ilədək davam etdi. Şəddadilər sülaləsinin hakimiyyəti əsasən Azərbaycanın Arran bölgəsini, Kür-Araz çayları arasındakı torpaqları, o cümlədən, Bərdə, Şəmkir və digər şəhərləri, həmçinin Dvin (Dəbil) şəhəri də daxil olmaqla Qərbi Azərbaycan ərazilərini əhatə edirdi [20, s.20; 16]. Bəzi rus və Qərb müəlliflərinin Şəddadilərin kürd əsilli olmasına dair iddialarının heç bir əsası yoxdur, bu iddialar heç bir ciddi mənbə ilə təsdiq olunmur, erməni mirzələrinin nə vaxtsa ortaya atdığı saxta informasiyadan başqa bir şey deyil. Onlar yerli Azərbaycan nəsli və sülaləsi idilər.

Bu saxtalaşmanı aparan müəlliflər Şərəfxan Bidlisi, Yaqut Həməvi kimi bir neçə müəllifin əsərlərinə istinad edirlər. Bu mənbələrdə çox vaxt təhriflərə yol verildiyi məlumdur. Rusiya şərqşünası Vladimir Minorski, "İranın Kembric tarixi" deyilən toplunun müəllifləri də bu yanlış mənbələrə əsaslanaraq , həqiqətə uyğun olmayan məlumatı tirajlamışlar. Əslində "İranın Kembric tarixi"ndə sülalənin kürd mənşəli olması deyil, onların içərisində bir neçə kürd tayfasının olması ehtimalından bəhs olunur. Həqiqət isə ondan ibarətdir ki, sülalə "Şəddadi" yox, "Şadlı" tayfasının adı ilə bağlıdır. Bu soy Xəzər xaqanlığı dövründə Qərbi Azərbaycan və Naxçıvan ərazilərində yaşayıb. Ərəblərin gəlişinə qədər türk əsilli bu tayfanın yaşadığı ərazi "Şadlı torpaqları", "Şadın ölkəsi" adlanırdı [12; 1, s.13]. Türkiyəli alim Vəli Saltık yazır ki, XI-XII əsrlərdə Kür və Araz çayları arasında, Aran adlanan bölgədə Şadlılar hökmran oldular, dövlət qurdular [9].

Beləliklə, Ərəb Xilafətinin zəiflədiyi dövrdə müstəqil Azərbaycan dövlətçiliyi bərpa olundu. Azərbaycanda Məzyədilər, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər (Şadlılar) sülalələri hökmranlıqlarını bərqərar etdilər. Onların hakimiyyəti müxtəlif dövrlərdə ya ölkənin bütün ərazisini, ya onun bir hissəsini əhatə edirdi.

IX əsrin sonlarından başlayaraq Azərbaycan yeni xarici hücumlara məruz qaldı. Əvvəllər Don-Volqa-Xəzər vasitəsilə Azərbaycanda və Azərbaycanın torpaqlarından keçərək Bağdadla ticarət əlaqələri yaradan slavyanlar Xəzərsahili vilayətlərə soyğunçuluq yürüşləri təşkil etməyə başladılar. Xəzər sahillərinə və Azərbaycana yürüşlər edən Kiyev Rus dövlətinin hərbi dəstələri "ruslar"

adlanırdı. Kiyev Rus dövləti hərbi qüvvələrinin xeyli hissəsi muzdla tutulmuş Skandinaviya mənşəli varyaqlardan (vikinqlərdən) ibarət idi.

914-cü ildə slavyanların Xəzər sahillərinə daha qorxulu yürüşü oldu. Bu yürüş daha mütəşəkkil təşkil olunmuşdu. Hər birində 100 nəfər döyüşçü olan 50 gəmi (bəzi mənbələrdə onların hər birində 100 nəfər olmaqla 500 gəmi ilə gəldikləri bildirilir. Bu, həddindən artıq şişirdilmiş rəqəmlərdi.- A.N.) Xəzərə daxil oldu. Onlar Bakı ətrafında və Xəzərin Azərbaycan sahillərində olan Pirallahı, Zirə, Sara yarımadalarında möhkəmləndilər və buradan sahil məntəqələrinə basqın etməyə başladılar. 914-cü il yürüşü zamanı Azərbaycanın Xəzər sahili qarət olundu. Dinc əhaliyə divan tutdular. Lakin Xəzərin şimal sahillərində 1500 nəfər Müsəlman-türk qoşunları ilə qarətdən qayıdan slavyan dəstələri arasında vuruşma oldu. Üç gün davam edən döyüşdə slavyanlar darmadağın edildi [8, s.78]. Bu vuruşmadan sonra bir müddət Xəzər sahillərinə, Azərbaycana yürüşlər təkrar olunmadı.

944-cu ildə slavyan dəstələri yenidən Xəzər sahillərində göründülər. Bu yürüşdə onların məqsədi "Arranın baş şəhəri" Bərdəni tutmaq və Azərbaycanda həmişəlik möhkəmlənmək idi. Kiyev knyazı İqorun (912-945) drujinaları və muzdlu qoşunlarından ibarət olan slavyanlar həmlələrlə Kürün mənsəbinə yetişib buradan Bərdə istiqamətində hərəkətə başladılar. Slavyanlar Bərdəni tutaraq əhalini qılıncdan keçirdilər, əhalidən tələb etdilər ki, 3 gün ərzində şəhəri tərk etsinlər. Bərdəlilər bu tələblə razılaşmadıqlarından əhali yenidən qılıncdan keçirildi. Bərdəni müdafiə etmək üçün Salari hökmdarı Mərzban ibn Məhəmməd

şəhəri mühasirəyə aldı. Salarilərin mühasirəsi zamanı slavyanlar tələfat verdilər və şəhərdən qaçdılar. Oradan Kür sahilində Mübarəki adlı yerdə onları gözləyən gəmilərə minərək Xəzərə çıxıb öz ölkələrinə qayıtdılar. Bu basqın Bərdəyə çox böyük ziyan vurdu. Yarım ildən çox slavyanların əlində qalan şəhər dəhşətli qarətə və dağıntıya məruz qaldı [14]. Məşhur Bərdə əvvəlki əhəmiyyətini itirdi. Şəhərdə pul kəsilməsi dayandırıldı. Sonralar isə Şəddadilərin (Şadlıların) Gəncəni paytaxt seçməsi Bərdənin əhəmiyyətini daha da azaltdı.

Ümumilikdə, yerli sülalələrin hakimiyyəti altında Azərbaycanın qədim dövlətçilik ənənələrinin bərpası böyük əhəmiyyətə malik idi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Abdullayev S. Azərbaycan XI-XIV əsrlərdə ("İranın Kembric tarixi" əsasında). Avtoreferat. Bakı, 2017.

2. Azərbaycan torpaqlarını ilk dəfə birləşdirən hökmdar.- "Azadlıq", 2013, 16 aprel, s.14.

3. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Şərq-Qərb", 2007.

4. Əliyarlı S. Azərbaycan tarixi. Bakı, "Çıraq", 2009.

5. İbn Havqəl ən-Nəsibi (X əsr). Dünyanın təsviri kitabı.- N.Vəlixanlı. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı, 2016.

6. İslam Tarihi Ansiklopedisi, c.9. Şəddadilər.- ehlisunnetbuyukleri.com/İslam-Tarihi-Ansiklopedisi/ Detay/SEDDADİ-LER/648.

7. Qaraoğlu F. Tarixdə iz buraxanlar: Yusif Əbu Sac.- "Bakı Xəbər" qəzeti, 2017, 14 iyul, №123, s.13.

8. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Bakı, "Elm və təhsil", 2019.

9. Saltık V. Şadiler ve Kockiriler. Ankara, "Kuloğlu", 2011.

10. Süleymanov N. Azərbaycan IX-XIII əsrin əvvəllərində. Metodik vəsait. Bakı, ADPU nəşriyyatı, 2020.

11. Şen M.E. Azərbaycanda hökm sürmüş bir türk dövləti: Sacoğulları (IX-X əsrlər).-"Akademik Tarih və Düşüncə Dərgisi, 6 (5) Kış 2019.

12. "Şəddadilər" adlı dövlət olmayıb.- axar.az/news/kult/771702.html (2023.08.05).

13. Tarix.-Azərbaycan VII əsrin ortaları- XIII əsrin əvvəllərində, səh. 201-202. "Azərbaycan Milli Ensiklopediyası. "Azərbaycan" cildi. Bakı, 2007.

14. According to Yaqut, they stayed for a whole year. "Bardha`a". Encyclopaedia of Islam.

15. Bosworth C.E. The New Islamic Dynasties: A Chronological and Genealogical Manual.- Columbia University, 1996.

16. Encyclopedia İranica. Shaddadids.-iranicaonline.org/articles/ shaddadids#p+1.

17. Minorsky V. Studies in Caucasian history.-Cambridge University Press, 1997.

18. The Cambridge History of İran/Edited by J.A.Boyle, John Andrew Boyle.-Cambridge University Press, 1968, c. 5.

19. Wittow M. "The Making of Byzantium: 600-1025", Berkley: University of California Press, 1996.

20. Альтман М.М. Исторический очерк города Гянджи. Баку, издательство АН АзССР, 1949, hissə I.

21. Государство Ширваншахов.- 1905.az/ru/qosudarstvo-shirvanshov/.

22. Ибн аль-Асир. Полный свод истории.- vostlit.info/Text/rus/Athir_2/text4.phtml?id =7969.

23. Раввадиды: interpretive.ru/termin/ravvadidy.html.

24. Рыжов К.В. Все монархи мира. Мусульманский Восток. VII-XV вв. Москва, издательство Вече, 2004.

## *§ 2. Azərbaycan və Böyük Səlcuq imperiyası.*

XI əsrin birinci yarısında, yeni türk tayfaları olan səlcuqların gəlişi ərəfəsində Azərbaycan əraziləri 3 sülalənin arasında bölünmüşdü, Kür çayından şimala doğru Məzyədi, az sonra Kəsrani Şirvanşahları, Kür-Araz çayları arasında Şəddadilər (Şadlılar), Araz çayından cənuba doğru ərazilərdə Rəvvadilər hökmranlıq edirdi, üç Azərbaycan dövləti mövcud idi. Müəyyən vaxtlarda müstəqil hərəkət edən Şəki vilayəti əsasən Şirvanşahlardan asılı vəziyyətdə idi. Cənubi Qafqazda Azərbaycan dövlətləri ilə yanaşı Gürcüstanın ərazisində mərkəzi Kutaisi şəhəri olmaqla Abxaz, mərkəzi Telavi olmaqla Eret, mərkəzi Tianeti olmaqla Kaxetiya, mərkəzi Artanusi olmaqla Kartvel kiçik dövlət qurumları, mərkəzi Tiflis olmaqla müsəlman Cəfəri əmirliyi mövcud idi [13, s.55; 11; 14]. Cənubi Qafqazda hər hansı digər dövlət qurumu müşahidə olunmurdu.

Səlcuqlar oğuz tayfalarının bir qolunu təşkil edir, ilk vaxtlar Orta Asiyanın Sır-Dərya bölgəsində yaşayırdılar. Həmin dövrün mənbələrində "oğuz" və "türkman" ifadələri eyni mənada işlədilirdi. Bəzi müəlliflərə görə, oğuzların islamı qəbul etmiş hissəsi "türkman" adlandırılırdı. Səlcuq adını isə hərbi-siyasi birliyin rəhbəri, nəslin əsasını qoymuş babalarından almışdılar [16, s.704-705]. Orta əsr türk müəllifi Mahmud Qaşqari "Türk dillərinin lüğəti" (1074-cü il) əsərində göstərir ki, Səlcuqlar oğuz (türkman) tayfasının qınıq boyuna aiddirlər [14].

Səlcuqlar X əsrin əvvəllərində Sır-Dərya tərəflərə gəldilər, burada islam dinini qəbul etdilər. Bu ərazilərə haradan gəlmələri ilə bağlı müxtəlif fikirlər var. Onlar tədricən hərbi-siyasi qüvvəyə çevrildilər. XI əsrin əvvəllərində orada türk Qəznəvilər sülaləsi hakimiyyətdə idi. Onlar səlcuqlara xoş münasibət bəsləyirdilər. Bu münasibətin nəticəsi olaraq 1020-ci illərdə Qəznəvi hökmdarı Sultan Mahmud onlara Xorasana köçməyə icazə verdi. Səlcuqlar tezliklə mərkəzi hakimiyyətə qarşı çıxdılar, 1038-ci ildə dövlətlərinin əsasını qoydular və 1040-cı ildə Dəndəkan (indiki Türkmənistanın ərazisində) döyüşündə Qəznəviləri məğlub etdilər, Xorasanın xeyli hissəsini nəzarətə götürdülər [16]. Bundan sonra Səlcuqların zəfər tarixi başladı.

Beləliklə, XI əsrin birinci yarısında Səlcuqlar sülaləsi tərəfindən yaradılan yeni Türk dövləti regionun siyasi, ictimai, etnik, dini və digər cəhətlərdən simasını dəyişdirdi. Səlcuqların Böyük Türk Dövləti (1038-1157-ci illər) az vaxt ərzində Orta Asiya, İran, Cənubi Qafqaz, Anadolu, Yaxın Şərqi əhatə etdi. Bu dövlətə Toğrul (1038-1063), Alparslan (1063-1072), Məlikşah (1072-1092), Səncər (1118-1157) kimi dünya səviyyəli dövlət xadimləri, sultanlar rəhbərlik etdilər. Böyük Türk Dövlətinin paytaxtı İndiki İranın ərazisində yerləşən Nişapur (1038-1043), Rey (1043-1073), İsfahan (1073-1118), Həmədan (1118-1194), indiki Türkmənistanın ərazisində yerləşən Mərv (1118-1157) şəhərləri olmuşdur [8; 9, s.399]. Sultan I Toğrulun vaxtında Orta Asiyanın böyük hissəsi, Kiçik Asiya, İkiçayarası, o cümlədən 1055-ci ildə Bağdad tutuldu, bununla Xilafətin dünyəvi hakimiyyətinə son qoyuldu. Bağdad yalnız dini mərkəz

kimi qaldı. Yeni Türk Dövlətinin başçısı Sultan Alparslanın 1071-ci ildə Malazgirt (indiki Türkiyənin Muş vilayətində) düzənliyində Bizans imperatoru IV Roman Diogeni məğlub edərək, onun özünü əsir götürməsi, parlaq qələbə qazanması ilə yeni Türk imperiyasının başlanğıcı qoyuldu. Bu qələbədən sonra Yeni Türk imperiyasının təsir dairəsi Şərqdə Qaşqar bölgəsindən (indiki Çinin Sincan-Uyğur bölgəsinin qərbində yerləşən ərazi) qərbdə Aralıq dənizinədək, şimalda Qafqazdan cənubda indiki Yəmən ölkəsinə qədər böyük bir ərazini əhatə edir, ümumi ərazisi 3,9 milyon kvadrat kilometrə çatırdı [10, s.223]. Bu dövlətin əhatə etdiyi ərazilərə Cənubi Qafqaz, Qara dəniz boyunca Sivas, Şərqi Anadoluda Ərzincan, Diyarbəkir, Aralıq dənizi sahilləri ilə Adana, Şam, Qüds, Qırmızı dəniz boyunca Mədinə, Məkkə, bütün İraq, İran və Orta Asiya, Çinin bəzi qərb bölgələri və sair daxil idi.

Türklərin oğuz qrupundan olan səlcuqların gəlişi regionda yerli türklərin mövqeyini əsaslı şəkildə gücləndirdi. Bu amil Azərbaycan dövlətləri ilə səlcuqların qarşılıqlı münasibətlərində özünü göstərdi. Səlcuq qoşunları Azərbaycana iki istiqamətdən daxil oldular. Səlcuq sərkərdəsi Qutalmış Xəzər dənizinin cənubundakı əraziləri, o cümlədən Gilan vilayətini tutaraq Araz çayını keçdi və Azərbaycanın Arran bölgəsinə daxil oldu. Şəddadilər (Şadlılar) sülaləsinin hakimyyətdə olduğu Azərbaycan dövləti (hakimiyyətdə II Əli Ləşkəri idi) 1048-ci ildə Səlcuqların hakimiyyətini qəbul etdi, hətta onlarla ittifaq bağladı. Elə həmin il Şəddadilərin Azərbaycan qoşunları Səlcuq ordusu ilə birlikdə Bizansa qarşı birgə döyüşə çıxdı və qələbə qazandılar. Sultan Məlikşah 1075-ci ildə Şəddadilərin

Gəncədəki sonuncu nümayəndəsi III Fəzli hakimiyyətdən götürdü, oğlu Məhəmməd Taparı oraya nümayəndə göndərdi. Digər Səlcuq sərkərdəsi İbrahim Yınalın rəhbərlik etdiyi qoşun dəstələri Azərbaycanın cənub torpaqlarına daxil oldular, Rəvvadilər sülaləsinin hökmdarı Vəhsudan 1054-cü ildə Yeni Türk Dövlətinin hakimyyətini qəbul etdi. Sultan Alparslan 1071-ci il Malazgirt zəfərindən dərhal sonra sonuncu Rəvvadi hökmdarı II Məmlanı hakimiyyətdən devirdi, oraya nümayəndəsini təyin etdi. 1067-cı ildə Azərbaycan Şirvanşahar dövləti də Səlcuq dövlətindən nominal asılılığı qəbul etdi [12].

Səlcuqların yürüşlərindən əvvəlki dövrdə Cənubi Qafqazda, Şərqi Anadoluda, indiki İranın mərkəzi və şimal ərazilərində türk əhalisi geniş şəkildə yayılmışdı, səlcuqların gəlişi ilə onların mövqeyi daha da gücləndi [4]. Azərbaycanın Araz çayından cənuba və şimala doğru əraziləri Səlcuqların hakimiyyətində mərkəz rolunu oynayırdı. Səlcuq Sultanı Alparslanın dövründən Azərbaycan ərazisi vəlihəd və ya şahzadə sancağı elan olunmuşdu, Məlikşahın vaxtında bu status rəsmi xarakter aldı. Onun dövründə Azərbaycanda Gəncə şəhəri mərkəz olmaqla Səlcuqlu əmirliyi yaradıldı, şahzadə Məhəmməd Tapar burada otururdu [6, s.3].

Məlikşahdan sonra hakimiyyət uğrunda sərt mübarizə getdi, az sonra Məlikşahın oğlu Börküyarıq (1094-1105) taxt-taca sahib çıxdı, onu da bir neçə aylığa oğlu II Məlikşah əvəz etdi. Nəhayət, Məlikşahın Azərbaycanda hakimiyyətdə olan oğlu, Türkiyəli səyyah Övliya Çələbinin "Azərbaycan şahı" adlandırdığı [3, s.224] Məhəmməd Tapar (1105-1118) hakimiyyətə gələ bildi. Atasının ölümün-

dən sonra mərkəzi hakimiyyətə tabe olmayan Məhəmməd Tapar Azərbaycanı müstəqil idarə edirdi, mərkəzi hakimiyyəti ələ keçirdikdən sonra isə oğlu Mahmudu Azərbaycan hakimi və vəliəhd elan etdi. 1118-ci ildə Taparın ölümündən sonra Səlcuqlu dövləti iki hissəyə Qərb və Şərq Səlcuqları dövlətinə bölündü. Paytaxtı Həmədan olan Qərb və ya İraq Səlcuqları dövləti Taparın oğulları, Şərq və ya Xorasan Səlcuqları dövləti isə paytaxtları Mərv şəhəri olmaqla Sultan Səncər tərəfindən idarə olunurdu. Xorasandan qərbə doğru ərazilər, o cümlədən Azərbaycan İraq Səlcuqları, Xorasan da daxil olmaqla Şərqə doğru ərazilər Xorasan Səlcuqları dövlətinin tərkibinə daxil idi [1, s.16-17].

Bu vaxtdan Azərbaycan ərazisi qismən müstəqil idarə olunurdu. Sultan Mahmud paytaxtda oturur, İraq Səlcuq dövlətini idarə edirdi. Onun qardaşı Məsud isə Azərbaycanın Araz çayından cənuba və şimala doğru bütün ərazilərinin hakimi idi. Demək olar ki, mərkəzi hakimiyyətdən asılı deyildi. Bu dövrdən başlayaraq Səlcuqlar dövlətində "atabəylər" institutu daha ciddi rol oynamağa başlayır. Bu institut yaranarkən atabəy sultan övladlarının müəllimi, tərbiyəçisi rolunu oynayırdı, sonralar şahzadələrə təsir imkanlarından istifadə edərək dövlətin idarə olunmasında iştirak edirdilər. Səlcuqların tənəzzülü dövründə atabəylər müxtəlif dövlətlərə rəhbərlik etməyə başladılar. Belə nüfuzlu atabəylərdən biri də Məsudun atabəyi Qara Sunqur idi. Sultan Məsud 1135-ci ildə mərkəzi hakimiyyəti ələ keçirdikdən sonra Qara Sunqur Azərbaycanın hakimi olaraq qaldı və az sonra mərkəzi hakimiyyətdən asılılığını heçə endirdi, Azərbaycanı müstəqil şəkildə idarə etməyə

başladı. Səlcuq dövlətinin dövründə də Azərbaycan xüsusi mövqeyə malik idi, indi isə tam müstəqil Azərbaycan dövlətinin bərpası prosesi başladı. Bu vaxt vahid Azərbaycan dövlətinin bərpası prosesində mərkəz rolunu Gəncə şəhəri oynaya bilərdi. Şəddadilər (Şadlılar) və Səlcuqlar dövründə Gəncə Azərbaycanın mərkəzi rolunu oynayır və mövqeyi getdikcə güclənirdi. Lakin dəhşətli 1139-cu il zəlzələsi Gəncə şəhərini məhv etdi, 200 mindən artıq əhali həlak oldu, şəhəri illər sonra bir qədər kənarda bərpa etmək mümkün oldu [7, s.21]. Atabəy Qara Sunqur Azərbaycan dövlətinin tam müstəqil olmasına çalışırdı, lakin təxminən 1140/41-ci illərdə xəstəlikdən vəfat etdi. Ondan sonra Azərbaycan hakimi vəzifəsini Çavlı ət-Toğrul tutdu [1, s.32-33]. O, müstəqil siyasət yeridə, ciddi nəticələrə nail ola bilmədi.

Beləliklə, Səlcuqların regiona gəlişi dövlətçilik, iqtisadi inkişaf, idarəetmə sisteminin təkmilləşdirilməsi baxımından əhəmiyyətli oldu. Daha çox isə onların gəlişinə qədər regionda hegemon olan Azərbaycan türk dilinin rolunu artırdı. Səlcuqlar Azərbaycana gələndən sonra yerli oğuz türk dilini qəbul etdilər. Səlcuq oğuzları Azərbaycan xalqının etnogenezində həlledici rola malik olmayıblar. Bu rol onlardan əvvəlki yerli türk etnoslarına məxsusdur [4, s.205]. IX-XII əsrlərdə Ön Asiyanın böyük bir hissəsində, Cənubi Qafqazda, Bağdaddan Şərqi Anadoluya, Dərbənddən Tehrana qədər bütün ərazilərdə ümumiləşmiş halda işlədilən dil türk-Azərbaycan dili idi [2, s.73].

**İstifadə olunmuş ədəbiyyat:**

1. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. Bakı, 1985.

2. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dili tarixi, 1. Bakı, "Maarif", 1979.

3. Evliya Çelebi seyahatnamesi. İstanbul, Altan matbaaçilik, 2000.

4. Fazili A. Atropatena e.ə. IV-e. VII əsri. Bakı, "Elm", 1992.

5. Hatai Külliyatı. Haz: Necef E.N.-Cavanşir B., İstanbul, 2006, Giriş.

6. Nəcəf Ə.N. Səlcuqlu dövlətləri və Atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından-XIV əsrə qədər). Bakı, 2010.

7. Sultanov F., Sultanova Z. Zəlzələlər. Bakı, 1958.

8. Jackson P. (2002). "Review: The History of the Seljuq Turks: The History of the Seljuq Turks". Journal of Islamic Studies 2002, 13 (1): 75-76; doi: 10.1093/jis/ 13.1.75. Oxford Centre for Islamic Studies.

9. Josef W.M. Medieval Islamic Civilization: An Encyclopedia, Routlendge, 2005.

10. Turchin P., Adams J.M., Hall T.D. East-West Orientation of Historical Empires// Journal of World-systems Research: journal.-2006.-Decamber (Vol.12, no.2).

11. Ашурбейли С. Государство Ширваншахов. Баку, "Əbilov, Zeynalov və oğulları", 2006, гл.III.

12. Азербайджан в XI- начале XIII веков.- istoriyamira.ru/ azerbajdzhan-xi-nachale-xiii-vekov/.

13. Гусейнов Р., Вердиева Х. История Азербайджана. С древнейших времен по 1920 год. Баку, «Озан», 2000.

14. Махмуд-ал Кашгари. Диван Лугат ат-Турк (Словарь тюркских слов): в 3-х томах/ Пер. с араб. Рустамова А.Р. Москва, «Восточная литература», 2010, т.1.

15. Очерки истории Грузии. Тбилиси, «Мецниереба», 1983, т.II, гл.VI.

16. Селджуки. Большая российская энциклопедия. Москва, 2015, s.704-705.- (Большая российская энциклопедия: (в 35 т), гл. ред. Осипов Ю.С., 2004-2017, т.29).

## *§ 3. Azərbaycanın sosial-iqtisadi həyatı və mədəniyyəti.*

Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması sosial-iqtisadi həyatı canlandırdı, iqtisadi inkişafa səbəb oldu. Ölkənin müxtəlif yerlərində hər cür bitkilər yetişirdi, o cümlədən, Şirvanda və Dərbənd ətrafında zəfəran, kətan, Lənkəran və Şəkidə çəltik, Kür çayının hər iki sahili boyunca taxıl, pambıq və sair becərilirdi [6, s.88]. Suvarma sistemində kəhrizlərdən geniş istifadə olunurdu. Üzümçülük, ipəkçilik, maldarlıq, balıqçılıq inkişaf etmişdi.

Azərbaycan kəndliləri iki təbəqəyə-uluclar və azad kəndlilərə bölünürdü. Uluclar (ərəb dilində “kobud”, “küt”, “qaba” mənasını verir) ərəblərin vaxtında torpaqsız olduqlarına görə asılı vəziyyətə düşmüşdülər, azadlar isə özlərinin torpaq sahələrinə malik idilər. Mülk, iqta, vəqf kimi mülkiyyət formaları mövcud idi, xərac, onda bir, yem və digər vergilər alınırdı [2, s.194-197]. Ölkənin Bərdə, Naxçıvan, Şamaxı Ərdəbil, Təbriz kimi böyük şəhərləri var idi.

Volqaboyu və Şərqi Avropanı Yaxın və Orta Şərqlə, Hindistan, İran (Kəngər) körfəzi ölkələrini Aralıq və Qara dəniz sahillərinin ticarət mərkəzləri ilə birləşdirən beynəlxalq karvan yollarının Azərbaycandan keçməsi sənətkarlığın, ticarətin, şəhərlərin inkişafı üçün şərait yaradırdı.

O dövr mənbələrində Bərdə şəhəri xüsusi fərqləndirilir və göstərilirdi ki, "Reydən və İsfahandan sonra "Aranın anası" Bərdə qədər böyük, çiçəklənən və gözəl şəhər" yox idi. Ərdəbil isə cənubun "ən böyük şəhəri", "əsas şəhəri" hesab olunurdu [1, s.79]. Dərbənd ən iri liman şəhəri, Təbriz "gözəlliyinin bənzəri olmayan", hətta "Bağdaddan üstün" şəhər idi. Azərbaycan 50-dən artıq şəhəri ilə dünyanın ən çox şəhəri olan ölkələrdən birinə çevrilmişdi [6, s.89-90].

IX əsrdən başlayaraq Azərbaycan mədəniyyəti tərəqqi, intibah dövrünü keçirirdi. Azərbaycan Yaxın və Orta Şərqin mədəniyyət mərkəzləri ilə sıx qarşılıqlı münasibətlərdə inkişaf edirdi. Azərbaycan mütəfəkkirləri "müsəlman intibahının" yaradılmasında yaxından iştirak etmişlər.

Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər (Şadlılar) sülalələrindən olan Azərbaycan hökmdarları elmin, maarifin inkişafına fikir verir, dövrün qabaqcıl adamlarını saraya toplayırdılar. Azərbaycanın Gəncə, Bərdə, Marağa, Şamaxı, Naxçıvan, Dərbənd, Təbriz, Ərdəbil və başqa şəhərlərində mədrəsələr vardı. Məscidlərin yanında fəaliyyət göstərən ibtidai məktəblərdə şagirdlərə Quran öyrədilir, müxtəlif bilik sahələrinə dair ilkin məlumatlar verilirdi [6, s.89-90].

IX-XII əsrlərdə ədəbiyyatda da güclü oyanış baş verdi. Ədəbiyyatda iki cərəyan nəzərə çarpırdı: şifahi xalq yaradıcılığı və peşəkar yazıçı və şairlərin qələmindən çıxan klassik ədəbi nümunələr.

"Kitabi-Dədəm Qorqud" Dəmirqapı Dərbənddən Diyarbəkr ətraflarına və Mardinə, Xəzərdən Qara dəniz sahillərindəki Abxaz elinə və Trabzona qədər böyük bir əra-

zidə yayılmışdı. VII-IX əsrlərdə ozanların Oğuz yurdunu oba-oba gəzərək yaydıqları "boylar" türk dilli Azərbaycan xalqının mövcudluğunun göstəricisi idi. Xalq yaradıcılığının digər nümunələri də var idi.

Azərbaycan poeziya məktəbinin Nizamidən başqa bütün nümayəndələri Səlcuq Sultanlarının, Azərbaycan Atabəylərinin və Şirvanşahların saray şairləri olmuşdur. Azərbaycan saraylarında türk dili işlək dil idi. Amma şairlər fars dilində yazırdılar.

XI-XII əsrlərdə böyük Nizami zirvəsinə yüksələn Azərbaycan ədəbiyyatının Ömər Gəncəvi, Əbülüla Gəncəvi, Fələki Şirvani, Izzət Şirvani, Mücirəddin Beyləqani, Givami Gəncəvi, Qətran Təbrizi, Xətib Təbrizi, Məhsəti Gəncəvi, Xaqani Şirvani və başqaları kimi görkəmli sənətkarlar nəsli yetişdi [2, s.199; 8, s.35-42].

Bu dövrdə tanınmış dilçi və ədəbiyyatşünas Ömər Gəncəvi Azərbaycandan başqa Bağdadda, Nişapurda, Həmədanda, Mərvdə - bütün Yaxın və Orta Şərqdə tanınırdı. Əbülüla Gəncəvi də öz dövrünün görkəmli şairlərindən idi. Şairə "Məlikşüarə" rütbəsi verilmişdi. Bu dövr mütəfəkkirlərindən biri də Eldənizlər sarayında xidmət etmiş Mücirəddin Beyləqanidir. Mədhiyyələrini Cahan Pəhləvana və Qızıl Arslana həsr etmişdir. Qətran Təbrizi (1012-1086) öz əsərlərini Təbriz və Gəncə saraylarında yaratmışdır. Təbrizi lirik şer divanından başqa farsca "Ət-ta-fasir" adlı izahlı lüğətin də müəllifidir. Məhsəti Gəncəvi Azərbaycan intibahının görkəmli nümayəndələrindən biridir. İndiyədək 200-dən çox rübaisi araşdırılmışdır.

Xaqani Şirvani (1126-1199) Şamaxıda dünyaya gəlmişdi. Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə poema yazmış

bu böyük sənətkar qəsidə janrını yüksək sənətkarlıq zirvəsinə qaldırmışdır. O, türklüyü ilə fəxr edərək yazırdı: "Nə qılıncdan çəkinərik, nə qanlı dar ağacından, çünki türkük, ər köksümüz, al qırmızı dan yeridir". Şirvanşahlar sarayına dəvət alandan sonra Xaqani təxəllüsünü götürmüşdür (Xaqanlara məxsus olan). Xaqaninin 17 min beytlik lirik şer divanı, "Mədain xərabələri" və "Töhfətül-İraqeyn" poeması, nəsrlə yazdığı məktublar qalmışdır. Şirvanşah Mənuçöhrə, Axsitana, Eldənizlərdən Qızıl Arslana, habelə yaşadığı dövrün mühüm hadisələrinə, yadellilər üzərində qələbələrə bir sıra şer yazmışdır [7].

Nizami Gəncəvi (1141-1209) şərq və dünya poeziyasının ən parlaq siması, şəxsiyyəti idi. Nizamini Xilafətin süqutundan sonra siyasi və iqtisadi dirçəliş dövrünü yaşayan Azərbaycanın ümumi tərəqqi mühiti yetişdirmişdi. Bu mühit Sasani və Xilafət imperiyalarının süqutundan sonralar da uzun müddət Yaxın və Orta Şərq ölkələri ilə - Orta Asiya, İran, İraq, Misir və Suriyanın mədəni mərkəzləri ilə sıx əlaqədə idi. Dünyanın hər tərəfindən ən nadir sənət inciləri, əlyazmaları Gəncəyə toplanmışdı. Dünya ədəbiyyatının ən böyük incilərindən olan "Xəmsə" toplusu "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İskəndərnamə"dən ibarət idi [8, s.35-42]. Nizami Gəncəvi "Sultan Səncər və qarı" əsərində qarının dili ilə mənsub olduğu millətin yüksək keyfiyyətlərini ifadə edir: "Bir zamanlar türklərin çox yüksəkdi dövləti... , sən ki hindli quldursan, türk olmağın yalandır".

Bu dövrdə Azərbaycan fəlsəfə elmi də təşəkkül tapmışdı. Əbülhəsən Bəhmənyar (993-1066) İbn Sinanın şagirdi olmuş, Azərbaycan fəlsəfə məktəbinin əsasını qoy-

muşdur. O, "Azərbaycanlı filosof" adı ilə bütün Şərqdə məşhur olmuşdur. Onun "Təhsil", "Gözəllik", "Musiqi kitabı", "Metafizikanın mövzusu" və digər ərəb dilində yazdığı əsərlər geniş yayılmışdı [9, s.65].

Bu dövrdə Azərbaycan tarixinə dair əsərlər də yazılıb. "Azərbaycan tarixi" (Tarixi-Azərbaycan) adlı ilk əsər X əsrdə Rəvvadi hökmdarı Əbülhica ər-Rəvvadi tərəfindən qələmə alınıb. Eyni adlı ikinci əsər 1145/46-cı ildə Fəxrəddin ət-Təbrizi əl-Vaizi tərəfindən yazılıb. Təxminən eyni vaxtlara aid əl-Bərdəinin "Tarix-i Arran", əd-Dərbəndinin "Tarixi-Bab əl-Əbvab" ("Qapılar qapısı",- Dərbənd nəzərdə tutulur.- A.N.) əsərləri də məlumdur [4, s.399-400]. Mxitar Qoş (1130-1213), onun şagirdi Vanakan və onun şagirdləri Gəncəli Kirakos (1200-1271) və Vardan kimi alban salnaməçiləri olmuşdur. Mxitar Qos "Qanunnamə" əsərinin müəllifidir. "Qanunnamə"yə Şərqi Roma imperiyasının qanunları ilə yanaşı, Alban kilsəsinin qanunları, "Musa qanunları" daxil edilmişdir. Qoş Albaniyada (Arranda) 1130-1162-ci illər dövründə cərəyan edən hadisələrin təsvirini verən "Alban salnaməsi" əsərinin də müəllifidir. Gəncəli Kirakos moğol işğalı ərəfəsində və həmin dövrdə baş verən hadisələri izah edən "Tarix" adlı əsərin müəllifidir [5].

Naxçıvanda Atabəylər memarlıq kompleksi tikilmişdi. Atabəylər memarlıq toplusu Naxçıvan beynəlxalq əhəmiyyətli böyük şəhərə çevriləndə, XII əsrin II yarısında yaranmışdı. Üzü Araza tərəf və möhkəm daş divarlı qala içində salınan bu iri kompleksin tərkibində şah sarayı, dövlətxana (hökumət evi), məscid, mədrəsə, türbə, yaşayış evləri və başqa yardımçı binalar vardı. Atabəylər kompleksinin

baş tikililərindən biri Möminə xatun türbəsi idi. Bu ansambldan indiyə qədər yalnız Möminə xatun türbəsi qalmışdır [10]. Bütün bu və digər əsərlərin müəllifi məşhur memar Əcəmi Əbubəkir oğlu Naxçıvani olmuşdur.

Şəddadilər (Şadlılar) dövründə Gəncə ətrafına möhkəm qala divarları çəkilmişdir. Gəncənin müdafiə sistemi həmişə möhkəm olmuşdur. 1139-cu il zəlzələsi Gəncəni darmadağın etdi. 1063-cü ildə Şəddadilər tərəfindən düzəldilmiş Gəncə qapıları da sənət əsəri idi. Gürcü hökmdarı Demetre 1139-cu il zəlzələsi zamanı dağılmış Gəncə şəhərinə xaincəsinə basqın etmiş, şəhəri qarət etmiş və Gəncə qapılarını özü ilə aparmışdı. Qapıların bir tayı hazırda Kutaisi bölgəsinin Gelati monastrında saxlanılır, digər tayı isə XVIII əsrdə monastırı təmir edərkən dam örtüyü kimi istifadə olunub[3]. Şəddadilər (Şadlılar) təfəfindən 1027-ci ildə həmçinin məşhur Xudafərin körpüsü inşa edilmişdir.

XI-XII əsrlərdə Şirvan şəhərinin bir çoxu böyüyüb inkişaf etmiş, bəzilərinin müdafiə tikililəri yenidən qurulmuşdu. 1045-ci ildə Şirvanşah Qubad (1043-1049) Şamaxıya yonulmuş daşdan möhkəm qala divarları çəkdirmiş, dəmir qapılar qoydurmuşdu. Bu dövrdə Şamaxı İç qalasında Şirvanşahların yeni saray kompleksi tikilmişdi. Həmin dövrlərdə Azərbaycanın digər şəhərlərində də mühüm tikililər inşa edilmişdir [11, s. 39, 48-49, 70, 71, 84-92, 108-109].

Bu əsrlər tarixə Azərbaycan mədəniyyətinin intibahı, yüksəlişi dövrü kimi daxil olmuş, müxtəlif sahələrdə yüksək nailiyyətlər əldə olunmuş, iqtisadiyyatın bütün sahələri inkişaf etmişdir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan tarixi. Ali Məktəblər üçün dərslik (Mehman Abdullayevin redaktorluğu ilə). Bakı, "Bakı Universiteti", 2014.

2. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. İkinci nəşr, Bakı, "Şərq-Qərb", 2007.

3. Gəncə qalasının tarixi qapısı...- web.archive.org/web/20160307040306/ https://www.azadliq.info/ 3458.html.

4. Hakkı D.Y. Sacilər: Azərbaycanda hökm sürmüş bir türk xanədanlığı, 889-941. Tərcümə, əlavələr və qeydlər Əkbər N. Nəcəf, Bakı, "Başla" nəşriyyatı, 2019.

5. Məmmədova F. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı, "Elm", 1993.

6. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Bakı, "Elm və təhsil", 2019.

7. Söz mülkünün xaqanı.- "Mədəniyyət" qəzeti, 2009, 18 dekabr, s.5.

8. Бертельс Е.Э. Великий азербайджанский поэт Низами. Баку, АзФАН, 1940.

9. Геюшев З. Методологические вопросы истории развития средневековой философии народов Закавказья. Баку, Издательство «Элм», 1982.

10. Момине-хатун мавзолей (Популярная художественная энциклопедия). Москва, Советская энциклопедия. 1986.

11. Усейнов М., Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана. Москва, Гос. изд-то литературы по строительству, архитектуры и строительным материалом, 1963.

# VI fəsil. Eldənizlər sülaləsi və böyük dövlətçilik ənənəsinin yaranması (XII-XIII əsrlər)

## *§ 1. Eldənizlər sülaləsinin yüksəlişi. Şəmsəddin Eldəniz.*

XII əsrin birinci yarısından etibarən Azərbaycan sülalələri yenidən mövqelərini bərpa etdi. Səlcuqların dövründə də Azərbaycan dövləti mövcudluğunu davam etdirir, yerli sülalələr, müxtəlif nəsillərin nümayəndələri ölkəni Səlcuq sultanları ilə birlikdə idarə edirdi. Səlcuqlar, faktiki olaraq, Azərbaycanın dövlət quruluşuna əsaslanaraq öz hakimiyyətlərini qurdular və imperiyanı Azərbaycan ənənələrinə uyğun olaraq idarə edirdilər. XII əsrin əvvəllərindən etibarən Azərbaycanda hakimiyyət əsasən yerli nümayəndələrin ixtiyarında idi. Bu proses paralel olaraq ölkənin şimal və cənub hissələrində eyni vaxtda gedirdi. Hadisələr artıq qədim dövlətçilik ənənələrinin inkişafı və böyük dövlətçiliyə, imperiyaya doğru gedirdi. Bu proses bir tərəfdən Şirvanşah-Kəsranilər sülaləsi, digər tərəfdən isə Qara Sunqurun nəsli, az sonra isə Eldənizlər sülaləsi ilə bağlı idi. Ərəb müəllifi Yaqut əl-Həməvi (1179-1229) bu dövrlə bağlı bildirir ki, "Azərbaycan geniş ölkə və böyük dövlətdir" [3, s.151].

Səlcuqlar dövləti zəiflədikcə Şirvanşahlar yenidən dirçəlirdi. Şirvanşah I Fəriburz (1063-1096) Səlcuq sultanlarına tabe olsa da, Şirvanşahların hakimiyyətinə tamamilə son qoyulmamışdı. Sultan Məlikşahın hakimiyyətinin sonuna yaxın Şirvanşahlar yenidən qüvvətlənməyə başladılar. I Fəriburzdan sonra oğlanları II Mənuçöhr (1096-1106) və I Afridun (1106-1120) ölkəni müstəqil idarə edirdilər.

Səlcuq türklərinə qarşı mübarizədə gürcü hakimləri Şirvanşahlarla yaxınlaşmağa çalışırdılar. Gürcü knyazı Qurucu David və ya IV David (1089-1125) bu məqsədlə qızı Tamarı Şirvanşah Afridunun oğlu Mənuçöhrə ərə vermişdi. Şirvanşahlarla qohumluğun digər bir səbəbi də gürcü hakimlərinin Azərbaycanın qərb torpaqlarını ələ keçirmək niyyəti ilə bağlı idi. IV David özü isə Səlcuqlara qarşı güclü müttəfiq qazanmaq məqsədilə qıpçaq türklərinin rəhbəri Atrakın qızına evlənmişdi. (Qıpçaqlar qədim türk tayfalarından idi. Onlar mənbələrdə qıpçaq adı ilə yanaşı "kuman", "kun", "polovets" və sair formalarda da təqdim olunub, Orta Asiya, Sibir, Ural, Qafqaz, Şərqi Avropa, Dunay və Don çayları, həmçinin digər ərazilərdə yaşadıqları məlumdur. Bəzi məlumatlara görə, e.ə. I minilliyin əvvəllərində Azərbaycanın cənub və şimal ərazilərində məskunlaşmış, o cümlədən Göyçə gölü sahillərində, kutilərlə qonşuluqda yaşayıblar. Onlar XI-XII əsrlərdən başlayaraq Qara dənizin şimalından Qafqaza qədər ərazilərdə məskunlaşmış, hərbi-siyasi birliklər yaratmış, amma dövlətə çevrilə bilməmişlər. Onların yaşadığı bu ərazilər Dəsti-Qıpçaq (Qıpçaq çölü) adlandırılırdı. Onların xeyli hissəsi xristian dinini qəbul etmiş, ruslar, gürcülərlə qarışmışdılar. Bir hissəsi isə islama gəlmişdi. Krım tatarları, başqırdlar, qazaxlar, qırğızlar, qaraçaylar, Kazan tatarları, noqaylar, kumıklar və digərləri onların varisləridir.- A.N.). O, Səlcuq türklərinə qarşı Qafqazın şimalından Gürcüstana ailələri ilə birlikdə 40 min nəfərdən çox seçmə qıpçaq-türk döyüşçüsü köçürmüşdü. Gürcülər Bizans imperiyasına, həmçinin Qərbi Avropa səlibçilərinə arxalanaraq türk-müsəlman amilini Qafqazdan sıxışdırıb

çıxarmağa, Azərbaycan torpaqlarını öz aralarında bölüşdürməyə çalışırdılar. Şirvanşahlar isə səlcuqlarla münasibətləri pozmamağa çalışırdılar. Belə olanda qıpçaq-türk döyüşçüləri hesabına çox güclənmiş gürcü knyazı Azərbaycanın qərb torpaqlarını işğal etmək planlarını həyata keçirməyə başladı. 1117-ci ildə IV Davidin oğlu Demetre Şirvana qarətçi yürüş etdi. 1120-ci ildə IV Davidin özü qüvvətli ordu ilə 2 dəfə Şirvana basqın etdi. Gürcülər Qəbələni talan edərək geri qayıtdı [6, s.82-84].

IV David 1121-ci ildə Tiflis yaxınlığında Didqori vuruşmasında daha mühüm qələbə qazandı - gürcü, qıpçaq, osetinlər və Avropa səlibçilərinin birləşmiş qüvvələri Səlcuq qoşunlarına qalib gəldilər. 1122-ci ildə Tiflis müsəlman əmirliyi ləğv edildi. Tiflis Gürcüstanın əlinə keçdi.

Gürcüstanın qüvvələnməsi Şirvanşahların mövqeyinə təsir göstərdi. Bu dövrdə Şirvan - Gürcüstan əlaqələrinin yaxınlaşmasında Böyük Səlcuq imperatorluğunun zəifləməsi ilə yanaşı Mənuçöhrün arvadı Tamar və onun gürcü əhatəsi də mühüm rol oynayırdı.

III Mənuçöhr (1120-1160) və I Demetrenin (1125-1156) hakimiyyəti illərində Şirvanşahlarla Gürcüstan arasında hərbi münaqişə baş vermədi. XII əsrin 30-60-cı illərində Şirvanşahlar dövləti özünün ən qüdrətli çağını yaşayırdı. Azərbaycan Şirvanşahlar dövləti bütün Cənubi Qafqazda ciddi siyasi amilə çevrilmişdi. 1160-cı ildə III Mənuçöhrün ölümü ilə Şirvanda vəziyyət yenidən mürəkkəbləşdi. Şirvanşahların oğulları arasında taxt-tac mübarizəsi başlandı. Hələ III Mənuçöhrün sağlığında saray çevrilişi etməyə cəhd göstərmiş bəzi Şirvan əyanları yenidən fəallaşdılar. Sarayda yaranmış qarışıqlıqdan istifadə edən Tamar kiçik

oğlu II Afridun və bir qrup gürcüpərəst əyanla birlikdə qıpçaq türklərinə arxalanaraq Şirvanı Gürcüstana birləşdirməyə cəhd göstərdi. Lakin Eldənizlərin işə qarışması ilə bu məkrli plan pozuldu. Atabəy Şəmsəddin Eldənizin hərbi qüvvələrinin köməyi ilə III Mənuçöhrün böyük oğlu I Axsitan (1160-1196) hakimiyyətə gəldi. Azərbaycanın şimal-qərb torpağını və Şirvanı Gürcüstana qatmaq planları bu dəfə də puça çıxdı. Tamar özünün gürcü əhatəsi ilə birlikdə Azərbaycandan qaçdı və rahibəliyə qapılaraq ömrünü monastırda başa vurdu [1, s.146-154].

I Axsitanın hakimiyyəti illərində Şirvanşahlar dövləti daha da qüvvətləndi. O, atası III Mənuçöhrün səhvini düzəldərək Səlcuq türkləri ilə dostluq münasibətlərini bərpa etdi. I Axsitanın hakimiyyəti illərində Gürcüstan knyazlığı ilə də dostluq münasibətləri davam etdirildi. O, Şirvan-Gürcüstan qohumluq əlaqələrini davam etdirərək gürcü knyazı III Georginin bacısı ilə evləndi. Atası III Mənuçöhr kimi I Axsitan və onun varisləri də Şirvanşahlar dövlətinin müdafiə qüdrətini artırdılar. Ölkənin ərazisində çoxlu müdafiə qurğuları - qalalar, qüllələr və s. tikdilər və ya bərpa etdilər.

I Axsitanın hakimiyyətinin sonuna yaxın güclü zəlzələ (1192) nəticəsində Şamaxı dağıldı. Şəhər əhalisinin xeyli hissəsi tələf oldu. Şirvanın paytaxtı Bakıya köçürüldü [1, s.178-180].

XII əsrin 30-cu illərində Azərbaycanda Atabəy-Eldənizlər sülaləsi hakimiyyətə gəldi (1136-1225). Sülalənin yaradıcısı zəmanəsinin ağıllı diplomatı və üzaqgörən dövlət xadimi, qıpçaq-türk əsilli Şəmsəddin Eldəniz idi [2, s.38-39]. Onun uşaqlığı son dərəcə məşəqqətli keçmişdi.

Valideynlərini çox erkən itirib yetim qalmış, özgə qapılarında zülm görmüş, kömək və qayğıdan məhrum olmuş, qul bazarlarında satılaraq əldən-ələ keçmişdi. Sonradan taleyi üzünə güldü və onu Səlcuq hökmdarı Sultan II Toğrulun (Sultan Mahmudun oğlu) sarayına gətirib çıxardı. II Toğrulun hakimiyyəti illərində (1132-1135) Eldəniz sultanın şəxsi məmlükləri (ərəbcə mənası "məxsus" demək idi, şəxsi mühafizə qrupunun üzvlərinə deyilirdi) sırasına keçirildi və vəzifədən vəzifəyə keçməyə başladı. Sultan Eldənizə əmir rütbəsi verdi. Sonra isə II Toğrul azyaşlı oğlu Arslan şaha Eldənizi atabəy təyin etdi [8].

Sultan Məsud isə (1135-1152) Eldənizi II Toğrulun dul qadını Möminə xatunla evləndirdi. 1136-cı ildə Məsud mərkəzi Bərdə ilə birlikdə Arranı Eldənizə iqta torpağı verdi. Eldəniz burada möhkəmlənərək tədricən Sultan asılılığından çıxdı.

1160-cı ildə Atabəy Eldəniz 20 minlik ordu ilə, Arslan şahla Həmədana gəldi. Burada Arslan şahın başına tac qoyuldu. Eldəniz Böyük Atabəy adlandı və Eldənizin oğulları Məhəmməd Cahan Pəvləvan əmir-hacib (baş əmir), Qızıl Arslan isə Sultan ordularının baş komandanı oldu. Dövlətdə əsas işləri Eldəniz görürdü. Arslan şah formal olaraq dövlətin başında dayanmışdı [2, s.39-40].

Beləliklə, "Azərbaycan hökmdarı Şəmsəddin Eldəniz" [7, s.20] Qafqaz dağlarından İran körfəzinə qədər uzanan nəhəng bir ərazini öz hakimiyyətinə tabe etdirdi. O, Azərbaycan, Arran, Şirvan, Cibəl, Həmədan, Gilan, Mazandaran, İsfahan və Reyə yiyələnmişdi. Mosul, Kirman və Pars atabəyləri, Şirvan, Xuzistan, Xilab, Ərzurum və Marağa hakimləri Eldənizin adına pul kəsdirir, xütbə oxutdurur-

dular. Əmrləri o verir, torpaqları paylayır, dövlət xəzinəsinə nəzarət edirdi, Sultan Arslan şah heç bir işə qarışmırdı.

Şəmsəddin Eldənizin dövründə (1136-1175-ci illər) Azərbaycanın bütün ərazisi, o cümlədən Arran, Şirvan, indi Ermənistan deyilən Azərbaycan torpaqları, İranın bütün ərazisi, o cümlədən, Mazandaran, İsfahan, Rey, Fars, Xuzistan və digər torpaqlar dövlətin tərkibinə daxil idi. 1160-cı ildə Arazdan şimala və cənuba doğru ərazilərimiz Azərbaycan Sultanlığı adını aldı. Şəmsəddin Eldənizin övladları Məhəmməd Cahan Pəhləvanın (1175-1186) və Qızıl Arslanın (1186-1191) hakimiyyətləri dövründə dövlət daha da gücləndi, yeni ərazilər ələ keçirildi. Məhəmməd Cahan Pəhləvan Azərbaycan hökmdarı kimi böyük nüfuza malik idi. "Abbasilərin də (xəlifənin.- A.N.) tanıdığı iki hökmdardan biri Suriyada Səlahəddin Əyyubi və digəri də Azərbaycanda Atabəy Məhəmməd idi" [7, s.22]. Eldənizlər hakimiyyəti İraq Səlcuq dövləti sultanlarının atabəyləri kimi idarə edirdilər, atabəylik adı formal xarakter daşıyırdı, əslində müstəqil dövlət rəhbərləri idilər, Qızıl Arslan isə bu formal ənənəyə də son qoyaraq, özünü sultan elan etdi. Azərbaycan dövlətində Eldənizlər sülaləsinin hakimiyyəti 1136-cı ildən 1225-ci ilə qədər davam etdi, Naxçıvan, Həmədan, Təbriz şəhərləri müxtəlif vaxtlarda dövlətin paytaxtı oldu [4, s.20-25; 5, s.18-20; 9; 8; 10, s.28]. Azərbaycan türkcəsi və fars dilləri dövlətin rəsmi dilləri idi [2, s.199]. Eldənizlərin dövründə Azərbaycan dövləti tarixi ərazilərindən kənara çıxaraq, 1,4 milyon kv.km. [3, s.155] ərazini əhatə etməklə artıq imperiya xarakteri almış, böyük və qüdrətli dövlətə çevrilmişdi.

Eldənizlər sülaləsinin sonuncu nümayəndəsi, Azərbaycan hökmdarı Atabəy Özbəyin dövründə (1210-1225) dövlət zəiflədi. Dövlətin daxildə zəifləməsi, iqtisadi və hərbi böhran meyilləri nəticəsində xarici müdaxilələrin qarşısını almaq mümkün olmadı. Azərbaycan dünyanın böyük bir hissəsini zəbt edən moğol imperiyasının gücü ilə hesablaşmalı oldu, lakin müstəqil dövlətçilik ənənələrini itirmədi, əksinə, moğollar bu ərazilərə nəzarət etmək üçün Azərbaycanın dövlətçilik sistemindən, idarəetmə qaydalarından, yerli nəsillərin imkanlarından istifadə etməli oldu.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Aşurbəyli S. Şirvanşahlar dövləti. VI-XVI əsrlər. Bakı, “Avrasiya press”, 2006.

2. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər). Bakı, “Şərq-Qərb”, 2007.

3. Əliyarlı S. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, “Çıraq”, 2007.

4. Nəcəf Ə.N. Səlcuqlu dövlətləri və atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından-XIV əsrə qədər). Bakı, “Qanun”, 2010.

5. Nuriyeva İ. Azərbaycan dövlətləri intibah dövründə. Bakı, “Mütərcim”, 2015.

6. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Bakı, “Elm və təhsil”, 2019.

7. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi (ilk dəfə 1924-cü ildə İstanbulda çap olunub). Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1992.

8. Houtsma M.T., Brill`s E.J. First Encyslopedia of İslam, 1913-1936, BRİLL, 1987, s.1053.

9. Luther K.A. (December 15, 1987). "Atabakan-e Adarbayjan. Encyslopedia İranica.

10. Гусейнзаде Р. Кавказ и армяне. Баку, «Апострофф», 2014.

### *§ 2. Moğolların Azərbaycanda möhkəmlənmək cəhdləri.*

Eldənizlər sülaləsinin hakimiyyət illərindən başlayaraq Azərbaycan dövləti regionun yeganə və güclü hərbi-siyasi amilinə çevrilmişdi. XIII əsr azərbaycanlı müəllif əl-Qəzvini Azərbaycanın bu dövrə aid tarixi coğrafiyasını da kifayət qədər dəqiq göstərir: "Azərbaycan Kuhistanla (bu ərazi ərəb dilində əl-Cibəl, yəni "dağlıq", fars dilində Kuhistan deyilib, buraya Həmədan, Qəzvin, Kirmanşah, İsfahan, Rey və digər şəhərlər daxildir, tarixi Madayın (Midiyanın) cənub hissəsini təşkil edib.- A.N.) Arran (Azərbaycanın digər ərazisi.- A.N.) arasında" geniş ərazini əhatə edib [6, s.333]. Buradan bir daha aydın olur ki, Azərbaycan Arattadan, Madaydan (Midiyadan) başlayaraq Cibəl (Kuhistan) deyilən ərazilərdən Dərbəndə qədər bütün coğrafiyanın yeganə varisi və sahibidir. Baxdığımız dövrdə isə Azərbaycan hökmdarlarının [10, s.26] mövqeyi nisbətən zəifləmişdi. XIII əsrin əvvəllərində Azərbaycanda mürəkkəb ictimai-siyasi vəziyyət mövcud idi. Ölkədə hakimiyyət böhranı, mərkəzdənqaçma meyillərinin güclənməsi, hakimiyyətə müxalif qüvvələrin fəallaşması, qonşu ölkələrin müdaxilə cəhdləri, əhali içərisində ağır həyat şəraiti ilə bağlı narazılıqlar müşahidə olunurdu. Eldənizlərin dövründə paytaxt şəhərləri olmuş Naxçıvan [13], Həmədan [12, s.1053], Təbriz [5, s.90] əldən-ələ ke-

çir, müxtəlif hərbi-siyasi qüvvələr bir-birini əvəz edirdi. Sultan Qızıl Arslanın sui-qəsd nəticəsində öldürülməsindən sonra hakimiyyətin nizamı pozuldu, Məhəmməd Cahan Pəhləvanın oğlu Əbu-Bəkrin (1191-1210) dövründə bir sıra ərazilər mərkəzi hakimiyyətin nəzarətindən çıxdı. Onun ögey qardaşı Özbəyin (1210-1225) hakimiyyətə gəlməsi vəziyyəti daha da pisləşdirdi. Azərbaycan və ya Azərbaycan və Arran hakimi Özbək ibn Pəhləvan [2, s.129,139] ölkəyə nəzarəti itirmiş, idarəetmədən kənarlaşmışdı [14]. Vəziyyət o yerə çatmışdı ki, bir sıra xarici qüvvələr, o cümlədən Xarəzmşahlar, gürcü hakimləri Azərbaycana yürüşlər edir, ölkəni talan edirdilər.

Bu vaxt Azərbaycanda vahid, mərkəzləşmiş dövlət yox idi. Eldənizlər sülaləsi kiçik bir əraziyə nəzarət edirdi, Şirvanşah Guştəsb (1204-1225) mövcudluğunu qoruyub saxlamağa çalışırdı, Marağa və ətrafında isə Rəvvadilər nəslindən olan Ağsunqurilər sülaləsi (1108-1227) hakimiyyətdə idi. Belə bir vəziyyətdə Azərbaycan moğol hücumlarına məruz qaldı.

Moğolların ulu babaları türklərlə qohumdilli olub, eyni kökdən ayrılmışdılar: türk, moğol və tunquz-mancur [4]. Tədqiqatçıların əksəriyyətinin fikrinə görə, bu dillər arasında uyğunluqlar qədim qohumluqlarından xəbər verirdi. Eyni kökdən olan bu etnoslar köç və digər amillərin təsiri altında bir-birlərindən ayrı düşmüş və e.ə. III-II əsrlərdə türk, moğol, tunqus dilləri artıq fərqli lüğət tərkibinə malik idi [7, s.55-56].

XII əsrdə moğollar Böyük Çin səddi yaxınlığında yaşayırdılar. Moğolların siyasi birləşmələri XIII əsrin əvvəllərində gücləndi. 1206-cı ildə Onon çayı sahilində moğol

rəhbərlərinin qurultayı kiyat tayfasından Temuçini moğol tayfalarının böyük xanı (xaqanı) elan etdi. Çin adətinə görə yeni seçilən hakim öz adını dəyişməli idi. Odur ki, Temuçin yeni ad – Çingiz xan (türkcə tengiz-dəniz, okean) adı ilə tanınmağa başladı [16]. Çingiz xanın türk və ya moğol olması ilə bağlı fikirlər var. Moğolların da türk olduqlarını nəzərə almaqla, qeyd olunmalıdır ki, məşhur orta əsr tarixçisi Fəzlullah Rəşidəddinin yazdığına görə, kiyat tayfası türk əsilli idi, Çingiz xanın 3-cü babası Kabul xan, 2-ci babası Bartan xan, atası isə Esugey xan olub [18, s.18-49].

Tarixçi Rəşidəddin qeyd edir ki, Çingiz xan həyat yoldaşlarından 5-ni sevimli qadın adlandırırdı. Onun hər tayfadan evləndiyi qadın var idi. Lakin onların içərisində ən böyüyü və məşhuru kunqirat tayfasından olan Börte-Fucin idi. «Fucin» çin dilində «qadın» deməkdir. Çingiz xanın bu qadından 4 oğlu və 5 qızı olmuşdur [17]. Çingiz xan gələcəkdə moğol hakimiyyətində ara müharibələri olmasın deyə göstərmişdi ki, mənim ölumümdən sonra hakimiyyətə ancaq Börte-Fucindən olan oğlanlarım-Cuçi, Cığatay, Ugedey və Tuluy yiyələnə bilər. Çingiz xan və Cuçi (atasından 6 ay əvvəl ölmüşdü) 1227-ci ildə vəfat etdiyindən böyük xan vəzifəsinə Çingiz xanın üçüncü oğlu Ugedey seçilmişdi. Cuçinin ölümündən sonra isə ona məxsus olan torpaqlar oğlu Batı xanın ixtiyarına keçmişdi. Çingiz xanın dövründə moğol dövlətinin paytaxtı Orxon çayının sahilində yerləşən Qaraqorum (qədim türk dilində “qara daş” deməkdir) şəhəri idi.

Dəqiq kəşfiyyat məlumatları toplamaq, düşmənin qüvvələrini parçalamaq, çoxsaylı süvari qüvvələri ilə

qəflətən hücuma keçmək Çingiz xan strategiya və taktikasının səciyyəvi xüsusiyyətləri idi. Moğol dövləti az bir zamanda mərkəzləşərək ciddi dövlətə çevrildi və moğolların böyük işğalları başladı. Moğollar 1211-ci ildə Çinin şimal əyalətlərinə soxuldular və 1215-ci ildə Pekini (Çjundu) tutdular. Çingiz xanın hakimiyyətinin sonuna kimi Pekin şəhəri də daxil olmaqla, Şimali Çin ərazisi moğol dövlətinə tabe edildi [19, s.153]. 1219-cu ildə Orta Asiyaya hücum başladı. Həmin ilin payızında moğol qoşunları Otrar şəhərini mühasirəyə aldılar. Çingiz xan öz oğullarını burada qoyub, 1220-ci ilin fevralında Buxaraya yaxınlaşdı. Qarnizon rəisi şəhəri müdafiəsiz qoyub qaçdı. Buxara təslim oldu. Mart ayında yeni paytaxt Səmərqənd təslim oldu. Əhalinin əksəriyyəti qılıncdan keçirildi. Altı ay müqavimətdən sonra Otrar da süqut etdi. Yerli hökmdar Xarəzmşah Məhəmməd qaçıb Xəzər dənizində bir adada gizləndi, çox keçmədən burada vəfat etdi. Məhəmmədin ölümündən sonra oğlu Cəlaləddin Xarəzmşah elan edildi. Lakin hərbi rəislərin ona qarşı qəsd hazırladığını bilən kimi, o, Xarəzmdən çıxıb getməyə məcbur oldu. Elə həmin ildə bir-birinin ardınca köhnə paytaxt Ürgənc və Mərv şəhərləri də moğollara təslim oldu. Beləliklə, moğollar qısa müddət içərisində bütün Orta Asiyaya sahib oldular. Xarəzmşah Məhəmməd qaçan zaman Çingiz xan onun arxasınca Cəbə noyon və Sübutay bahadurun başçılığı altında otuz minlik qoşun göndərdi. Həmin qoşunun məqsədi həm də qərbdəki əyalətlərə kəşfiyyatdan ibarət olmuşdu.

Cəbə və Sübutayın qoşunları bütün Xorasan və Əcəm (ərəb olmayanlara, xüsusən farslara belə deyirdilər) İraqı-

nın ərazisindən keçərək, yurdları dağıda-dağıda, əllərinə keçəni qarət edə-edə 1220-ci ilin payızında Azərbaycana daxil oldu. Ölkənin bir sıra yaşayış məskənlərini viran edib Təbrizə yaxınlaşdılar. O zaman Atabəy Özbək Təbrizdə otururdu. Özbək şəhəri dağıntılardan xilas etmək üçün xərac müqabilində moğollarla sülh bağladı [9, s.45].

Azərbaycan hakimiyyət nümayəndələri moğollara imkanları daxilində müqavimət göstərdi, amma ciddi nəticələrə nail ola bilmədi. Əsas müqaviməti yerli əhali, ayrı-ayrı xalq nümayəndələri özləri təşkil etdi. Moğol qoşunları Təbrizdən sonra Tiflis üzərinə yeridilər, gürcüləri ağır məğlubiyyətə uğratdılar [3, s.100]. Təbriz şəhəri daha iki dəfə moğolların hücumlarını dəf etdi, şəhərin müdafiəsinə xalqın rəğbət bəslədiyi şəhər rəisi Şəmsəddin ət-Tuğrayi rəhbərlik edirdi. Marağa da işğalçılara ciddi müqavimət göstərdi [1, s.326]. Həmədan, Ərdəbil, Sərab, Naxçıvan, Beyləqan və digər şəhərlər də 1221-ci ilin sonuna qədər moğolların hücumuna məruz qaldılar, yerli əhali müqavimət göstərdi, lakin düşmənin üstün qüvvələri qarşısında davam gətirə bilmədi. Atabəy Özbək özünü, ailəsini qorumaq məqsədi ilə Naxçıvana, oradan Əlincə qalasına getdi [9, s.46,133].

Moğollar 1222-ci ilin əvvəlində Gəncə, Şamaxı, Dərbənd istiqamətində hərəkət etdilər. Gəncənin qala divarlarının möhkəm olduğunu, əhalinin mərdliyini nəzərə alan moğollar yalnız təzminat alıb buradan Gürcüstana yönəldilər. Döyüşə yaxşı hazırlaşmalarına baxmayaraq gürcülər 30 min əsgər itirərək məğlub oldular. Gürcüstandan dönən moğollar Şirvanın paytaxtı Şamaxını mühasirəyə aldılar. Şamaxılılar şəhərin müdafiəsinə yaxşı hazırlaş-

mışdılar. Üç gün gərgin döyüşlər davam etsə də, güclü hücumla şəhəri alıb çoxlu adam qırdılar [15, s.111-112]. Moğol qoşunları buradan şimal istiqamətinə yönələrək Dərbənddən keçib geri qayıtmağı qərara aldılar. Onlar bilirdilər ki, Dərbənd çox güclü müdafiə olunur. Odur ki, onlar hiyləyə əl atdılar. Belə ki, Şirvanşah Guştəsbə (1204-1225) xəbər göndərib, onunla sülh bağlamaq niyyətində olduqlarını bildirdilər. Təklifi qəbul edən Şirvanşah on nəfərlik elçi heyəti göndərdi. Onlar elçilərdən birini öldürdü, doqquzunu isə məcbur etdilər ki, Dərbənddən keçən gizli yolu onlara göstərsin. Beləliklə, Dərbənd keçidindən şimala keçən moğolların Azərbaycana birinci yürüşü sona çatdı [2, s.133-134]. Onlar 1223-cü ildə Kalka çayı sahilində qıpçaq və rus qoşunlarını məğlub edib Volqa bulqarlarının üzərinə hücum etdilər, Volqanın aşağı axarlarından keçərək Orta Asiyaya qayıtdılar.

Bu mürəkkəb şəraitdə qıpçaqlar da Azərbaycanda möhkəmlənməyə çalışırdı. Onlar 1223-cü ildə Dərbənddən keçərək Gəncəyə qədər gəldilər, lakin burada uzun müddət qala bilmədilər, geri çəkilməli oldular [8].

Moğollar Orta Asiyanı işğal etdikdən sonra Xarəzmşah Məhəmmədin oğlanları cənuba və qərbə doğru hərəkət etməyə başladılar. Məhəmmədin oğlu Qiyasəddin Pirşah Əcəm İraqını tutub, 1224-cü ildə Azərbaycana yürüş etdi. Atabəy Özbək Pirşahın hüzuruna bir neçə elçi göndərib sülh bağlamağı təklif etdi. Pirşah sülh şərtlərini qəbul edərək, buradan Reyə tərəf çəkildi [9, s.47].

1225-ci ilin may ayında digər qardaş Cəlaləddinin qoşunları Marağanı tutdu. Atabəy Özbək yenidən Gəncəyə, oradan Naxçıvana, Əlincə qalasına getdi. Cəlaləddin son-

ra Təbrizə hücum etdi, 7 günlük mübarizədən sonra 1225-ci ilin iyul ayında Təbriz tutuldu [2, s.139-140].

Təbrizdə olarkən Cəlaləddin Şəmsəddin ət-Tuğrayini şəhərin başçısı təyin etdi, özü isə Atabəy Özbəyin arvadı Məlikə Xatunla evləndi. Cəlaləddin oradan gürcülərə qarşı döyüşə çıxdı. Dvini tutduqdan sonra o, Qarnidə gürcü qoşunları ilə üz-üzə gəldi. 60 minlik gürcü ordusu ilə döyüşdə o, qalib gəldi. Gürcülər 20 min döyüşçü itirdi və ağır məğlubiyyətə düçar oldular. Atabəy Özbək Əlincə qalasında arvadı Məlikə Xatunun Cəlaləddinə ərə getdiyini eşidib xəstələndi və həmin 1225-ci ildə öldü. Bununla da Azərbaycanda Eldənizlər sülaləsi süqut etdi, Cəlaləddin hakimiyyətə gəldi. Atabəylərin hakimiyyəti altında olan ərazilərin bir hissəsi  Cəlaləddinin nəzarətinə keçdi [2, s.143].

Azərbaycanın müxtəlif yerlərində Cəlaləddinə qarşı üsyanlar baş verirdi. 1225-ci ildə o, Bağdad tərəfdə olarkən Təbriz əhalisi üsyan etdi. Cəlaləddin Təbrizə gələrək üsyanı çətinliklə yatırdı [11]. 1228-ci ildə Cəlaləddin Dərbəndi mühasirəyə aldı. Lakin bir müddətdən sonra bunun mənasız olduğunu görərək o, oradan ikinci dəfə Gürcüstana yürüş etdi. Gürcüstan ikinci dəfə dağıdıldı. Cəlaləddin buradan Xilat qalasına (Van gölü ətrafında) hücum edib onu mühasirəyə aldı. İl yarımlıq mühasirədən sonra 1230-cu ilin aprelində qala təslim oldu. Xilatın alınması Cəlaləddinin son qələbəsi idi.

Moğolların 1231-ci ilin oktyabrında Azərbaycana ikinci yürüşü zamanı Cəlaləddin bir neçə min döyüşçü toplayaraq onlarla döyüşmək üçün Ağdam yaxınlığında Qarqarçay sahilində məskən saldı. Moğol elçisi Cəlaləddinə təs-

lim olmağı təklif etdi. Cəlaləddin isə onun öldürülməsi əmrini verib Gəncəyə çəkildi. Bu zaman Gəncədə xarəzmlilərə qarşı üsyan qalxmışdı ki, ona da sənətkar Bəndər başçılıq edirdi. Gəncəlilər qaladan çıxaraq Cəlaləddinin qoşunları üzərinə hücum çəkdilər. Qüvvələrin qeyri-bərabərliyi üsyançıların məğlubiyyəti ilə nəticələndi. Bəndər başda olmaqla 30 nəfər həbs edildi. Onların hamısının boynu vuruldu. Bəndərin isə bədəni tikə-parça edildi. Cəlaləddin 17 gün Gəncədə qaldı. Heç kəsin ona kömək etmədiyini görüb Kiçik Asiyaya yollandı. Yolda moğollar onun qoşunlarını mühasirəyə aldılar. O, yoldaşlarından ayrı düşərək dağlara qaçdı. Kəndlərin birində onu ələ keçirdilər. Əvvəl onu öldürmək istəmirdilər. Lakin, qardaşı xarəzmlilər tərəfindən qətlə yetirilən bir nəfər Cəlaləddini nizə ilə vurub öldürdü [2, s.144, 147].

Beləliklə, moğolların birinci yürüşü Azərbaycanda hakimiyyət böhranına səbəb oldu. Eldənizlər sülaləlsi süqut etdi, qısa müddətə hakimiyyətsizlik yarandı, moğollar xalqın müqavimətinə rast gəldiklərinə görə ölkəni tərk etməli oldular, Xarəzmşahlar müvəqqəti olsa da, hakimiyyətə yiyələnə bildilər. Xarəzmşah Cəlaləddin ölkənin çox hissəsinə nəzarət edə bilmir, daim bu və ya digər yerlərdə baş verən üsyanlara qarşı mübarizə aparmalı olurdu. Xalq xarici nümayəndələrin hakimiyyətinə son qoymaq üçün mübarizəsini davam etdirirdi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan tarixi. Yeddi cilddə. II cild. Bakı, "Elm", 2007.

2. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, "Çıraq", 2007.

3. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər). Bakı, "Şərq-Qərb", 2007.

4. Cəfərov N. Bir etnosun taleyi.- "Ədəbiyyat" qəzeti, 2018, 07 aprel, s.5.

5. Erdoğan M. İldenizliler: Azurbaycan Atabegleri, Doğuştan Günümüze Büyük İslam Tarihi. İstanbul, 1993.

6. Əl-Qəzvini. Ölkələrin abidələri və [Allahın] bəndələri haqqında xəbərlər.- Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı, 2016.

7. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, "Təhsil", 2003.

8. Monqol yürüşləri və onlara qarşı mübarizə.- kayzen.az/blog/Azərbaycan-tarixi/24469/monqol-yürüşləri-və-onlara-qarşı-mübarizə.html.

9. Nəcəf Ə.N. Səlcuqlu dövlətləri və atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından-XIV əsrə qədər). Bakı, 2010.

10. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi (ilk dəfə 1924-cü ildə İstanbulda nəşr olunub). Bakı, ADKP, 1992.

11. Xarəzmşah Cəlaləddinin Azərbaycana yürüşü.- kafkazh.com/xarezmsah-celaleddinin-azerbaycana-yurusu/.

12. Houtsma M.T. E.J.Brill`s First Encyclopaedia of Islam, 1913-1936, BRILL, 1987.

13. Luther K.A. "Atabakan-e Adarbayjan". Encyclopedia iranica.-iranicaonline.org/ articles/atabakan-e-adarbayjan.

14. Luther K.A. "Ozbeg b. Muhammad Pahlawan".- referenceworks.brillonline.com/ entries/encyclopaedia-of-islam-2/ozbeg-b-muhammad-pahlawan-SIM_6050.

15. История Азербайджана. (С древнейших времен до первых десятилетий XXI века). Под ред. М.Абдуллаева. Баку, Издательство "Bakı Universiteti", 2016.

16. Монгольский обыденный изборник. Сокровенное сказание. (Пер. С.А.Козина. Москва-Ленинград: Изд-во

Академии Наук СССР, 1941, параграфы 202-204.- vostlit.info/Texts/rus10/Sokr_skaz/text3.phtml?id=4415.

17. Рашид-ад-дин. Сборник летописей. Восточная литература.-vostlit.info/Texts/rus16/Rasidaddin_3/ frametext3.html.

18. Рашид-ад-Дин. Сборник летописей. III cild, II kitab.

19. «Юань ши». Из.1, с.18// см: русский перевод: Золотая Орда в источниках. Т.3. Китайские и монгольские источники. Москва: ППП Типография «Наука», 2009.

## *§ 3. Azərbaycanda Hülakülər sülaləsinin hakimiyyəti.*

Azərbaycan xalqının müqaviməti moğollara regionda möhkəmlənməyə imkan vermirdi. Kəşfiyyat xarakterli ilk yürüş zamanı onlar yerli əhalinin hər şəhər, ərazi uğrunda rəşadətlə vuruşduğunu, təslim olmaq istəmədiklərini gördülər. Ona görə də birinci cəhddən xeyli sonra, yalnız 1231-ci ildə yenidən Azərbaycana yürüş etdilər. Bu vaxt ətraf bölgələrin əksəriyyəti artıq işğal olunmuşdu, moğollar yalnız Azərbaycanla bağlı qərarlarını qətiləşdirə bilmirdilər. Onların tərəddüdlərinə səbəb həm Azərbaycanın qədim dövlətçilik tarixi, həm də xalqın müqavimət əzmi idi. Onlar bu tərəddüdlər içərisində 1231-ci ilin oktyabr ayında ikinci dəfə Azərbaycana yürüş etdi. Azərbaycanda möhkəmlənmək məqsədi güdən bu yürüşə Çormoqon noyon başçılıq edirdi. 90 minlik moğol ordusu Marağaya hücum etdi. Marağada nisbətən az qırğın edərək Təbrizə yollandılar. Onlar Təbrizə yaxınlaşan zaman Şəmsəddin ət-Tuğrayi qəfildən vəfat etdi. Şəhərin müdafiəsini təşkil edən olmadığı üçün Təbriz şəhəri müqavimətsiz moğollara təslim oldu. Təbrizin alınması bir-birinin ardınca Azər-

baycan şəhərlərinin işğalına səbəb oldu. Həm də artıq o dövrdə Azərbaycanda moğollara qarşı çıxa biləcək heç bir mərkəzləşmiş qüvvə yox idi [6, s.101].

1232/1233-cü illərdə moğollar Naxçıvana yürüş edib şəhəri dağıtdılar. Moğolların hücumundan bir neçə il sonra Naxçıvanda olmuş fransalı səyyah Vilhelm de Rubruk gözü ilə gördüyü həmin mənzərə haqqında yazır: «Moğollar şəhəri demək olar boş səhraya çeviriblər». Məhəmməd Naxçıvani yazır ki, Naxçıvan şəhərinin altıda beş hissəsi demək olar ki, tamamilə boşalmış və dağıdılmışdır. Orta əsr müəlliflərinin dili ilə desək moğol qoşunları Naxçıvanı dağıdıb, xarabazara çevirmiş və onun əvvəlki «Nəqşi-cahan»ını pozmuşdular [4, s.151]. Moğolların bu amansız rəftarı şəhər əhalisinin ciddi müqavimətinə görə idi. İnsanlar ölümü, moğolların qəddar rəftarlarını da gözaltına alır, amma çəkinmədən sona qədər vuruşurdu.

Moğollar hərəkət edərək 1235-ci ildə Gəncəni mühasirəyə aldılar. Gəncəli müəllif bu hücumu belə təsvir edir: «Birdən birə tatar qoşunları şəhərə basqın etdilər. Onlar şəhəri hər tərəfdən mühasirəyə aldılar, onlar döyüşə başladıqda çoxlu daş atan qurğulardan istifadə edirdilər... Sonra... şəhər divarları hər yandan uçuruldu. Ancaq yağılardan heç kəs şəhərə girmədi, onlar bir həftə ərzində şəhəri mühasirədə saxladılar... Hər kəs öz evinə qapanıb özləri ilə birlikdə evlərini yandırdılar ki, yağıların əlinə düşməsinlər... Bunu görən yağılar daha çox qəzəblənərək qılınclarını işə salıb, hamını doğradılar, qadınları da, kişiləri də, uşaqları da. Onlardan heç kəs canını qurtara bilmədi... Dörd il şəhər adamsız və dağıdılmış bir vəziyyətdə qaldı...” [5, s.149].

Gəncəni tutduqdan sonra moğollar Şəmkiri mühasirəyə aldılar. Uzun müddətli mühasirədən sonra şəhər ələ keçirildi. Onlar şəhəri yandırıb, əhalini qılıcdan keçirdilər. Bunun ardınca Tovuz və Bakı şəhərləri də təslim oldu. 1239-cu ildə Dərbəndi almaqla moğollar Azərbaycanın işğalını başa çatdırdılar [3, s.22].

Moğollar Şərqi Avropada yeni böyük dövlət yaratdı ki, rus məxəzlərində bu dövlət «Qızıl Orda», Şərq məxəzlərində isə «Cuçi ulusu» adı ilə məlumdur. Çingiz xanın ölümündən (1227) sonra moğollara tabe olan torpaqlar onun 4 böyük oğlu arasında bölüşdürüldü. Bununla, dörd ulus yarandı. Hər ulusun öz müstəqil hakimi oldu. Azərbaycan və Gürcüstan Qızıl Orda ulusuna daxil edildi. Bu ulusda Cuçilər sülaləsi hökmranlıq edirdi. 1239-cu ildə Azərbaycan və Gürcüstana moğolların mərkəzi hakimiyyəti tərəfindən Arqun ağa canişin təyin edildi. Bu moğol məmuru həm mərkəzi hakimiyyətə, həm də Qızıl Orda rəhbərliyinə tabe idi, əslində, o, mərkəzi hakimiyyətlə Qızıl Orda arasında manevr etməyə çalışır, regionu yarımüstəqil şəkildə idarə edirdi. O, həmçinin Azərbaycanda yeni bir sistem yaratmadı, mövcud yerli idarəetmə qaydalarının əsasında fəaliyyətini davam etdirdi. Arqun ağa 1239-1256-cı illər arasında, Hulakilərin gəlişinə qədər regionu idarə etdi [9].

1253-cü ildə moğol xaqanı — Çingiz xanın nəvəsi, Tuluy xaqanın oğlu Münke Ön Asiyada (Əcəm İraqı, Ərəb İraqı, Cənubi Qafqaz və sair) möhkəmlənmək üçün böyük ordu göndərdi. Yürüşə onun qardaşı Hülakü xan başçılıq edirdi. Moğol ordusunun sayı və tərkibi ilə bağlı maraqlı fikirlər mövcuddur. Bəzi mənbələrə görə, Hülakü xan

"təqribən 200 min türk qoşunu" [7, s.54] və yaxud "200 min türk ailəsi" [6, s.33] ilə yürüşə başlamışdı. Bu faktlardan aydın olur ki, Hülakü xan başdan-başa türklərdən ibarət qoşunla Azərbaycana daxil oldu və onunla gələn 200 min türk ailəsi burada məskunlaşdı. Bu, türklərin öz ata yurdlarına növbəti axını kimi də dəyərləndirilə bilər. Moğolların bu üçüncü yürüşü ilə Hülakü xan 1256-cı ildə ölkəmizə gəldi, daha çox Qızıl Orda ilə əlaqəli olan Arqun ağanı hakimiyyətdən uzaqlaşdırdı və "Azərbaycan taxt-tacında" [13, s.219] yeni sülalənin-Hülakülərin hakimiyyətini bərqərar etdi. Azərbaycan dövləti Hülakülər sülaləsi ilə mövcudluğunu davam etdirdi. Hülakü xan kiçik fasilədən sonra burada Eldənizlərin hakimiyyətini davam etdirdi, dövlətin Eldənizlər dövründəki 1.4 milyon kv.km. ərazisini 3.7 milyona çatdırdı. Bununla, Azərbaycan əraziləri mərkəz olmaqla və Azərbaycan dövlətinin bazasında beşinci moğol ulusu yaradıldı. Onun qoşunları 1258-cı ildə Bağdadı aldı. Döyüşə Hülakü xan özü və onun sərkərdəsi Baqu rəhbərlik edirdi. Müasirlərin yazdığına görə Bağdadda qırğın 40 gün davam etdi. 508 il davam edən Abbasilər sülaləsinin son nümayəndəsi əl-Müstəsim öldürüldü. Beləliklə, İraq-i ərəb, İraq-i əcəm, Gürcüstan, Azərbaycan, Kiçik Asiya, Xorasan və digər ölkələrin daxil olduqları, Amu-Dəryadan Aralıq dənizinə, Dərbənddən İran körfəzinə qədər olan ərazidə yeni- 5-ci ulus yaradıldı. Bu dövlətin hökmdarları Elxan titulu daşıyırdı [1]. 1259-cu ildə Münke xaqan vəfat etdi. Hülakü xan (1256-1265-cı illər) 1260-cı ildə Azərbaycanda məskən saldı. Ölkənin paytaxtı Marağa, Təbriz və XIV əsrdə Sultaniyyə (Güney Azərbaycanın Zəncan bölgəsində şəhər) şəhərləri oldu [6,

s.102]. Hülakü xan digər ərazilərdə ələ keçirdiyi var-dövləti Azərbaycana göndərirdi [13, s.66].

Hülakilər Cuçilər dövlətinin qanunlarına tabe olmadıqları üçün tez-tez Qızıl Orda xanları ilə Hülakülər arasında qanlı toqquşmalar baş verirdi ki, Azərbaycan məhz bu toqquşmalarda ən çox zərər çəkən ölkələrdən olmuşdur. Hülakü xanın və onun oğlu Abaqa xanın (1265-1282-ci illər) hakimiyyəti dövrlərində dövlətin iqtisadi, hərbi, siyasi və inzibati qüdrəti kifayət qədər möhkəm olduğundan iri sahibkarlar onlara qarşı çıxmağa cürət etmirdilər. Abaqa xanın ölümündən sonra torpaq sahibləri arasında ziddiyyətlər kəskinləşdi. Onun oğlu Arqun xan hakimiyyətə gəlmək üçün ciddi müqavimətlə qarşılaşdı, yalnız 1284-cü ildə istədiyinə nail oldu. Arqun xan (1284-1291) mərkəzi hakimiyyəti gücləndirdi. O, buddizm dinini daha geniş şəkildə təbliğ edir, islama qarşı xristianların rəhbərləri ilə əlaqə qurmağa çalışırdı [7]. Arqun xanın oğlu Qazan xan (1295-1304-cü illər) hakimiyyəti dövründə vəziyyəti nizama salmaq məqsədilə bir sıra islahatlar, o cümlədən müsəlman ruhaniləri və yerli əyanlarla yaxınlaşmaq üçün dini islahat həyata keçirdi, islam dinini qəbul etdi. O, həmçinin digər istiqamətlərdə də islahatlar aparırdı. Torpaq islahatları ilə dövlət mülkiyyətinin mövqeyini gücləndirdi, həmçinin 1303-cü ildə kəndlilərin torpağa təhkim olunmasına dair fərman verdi. Bu fərman sonrakı dövrlərdə əhəmiyyətini itirdi. Vergi islahatları ilə vergilərin siyahısı, alınma müddəti müəyyən edildi, yerli hakimlərin qoyduqları qanunsuz vergilər ləğv edildi. Rabitə islahatı əsasında yeni əlaqə sistemi, pul islahatı ilə vahid mübadilə sistemi yaratdı, pul vahidi çao adlanırdı (yerli dirhəmdən

də istifadə olunurdu), əyalətlərin işlətdikləri digər pulları ləğv etdi [8]. Qazan xanın islahatları Hülakülər dövlətinin müvəqqəti möhkəmlənməsinə səbəb oldu.

Bir məsələ də qeyd olunmalıdır ki, Sasanilərin vaxtında "Arian", "Aryan" (Arilərin ölkəsi.- A.N.) formasında işlədilən və onlardan sonra unudulan ifadə Hülakülər tərəfindən "İran" şəklində yenidən istifadəyə qaytarıldı. Moğollar "İranzəmin" (İran torpağı.- A.N.) ifadəsini işlətməklə tutduqları ərazilərin qədimliyini, zəngin tarixini göstərmək istəyir, Firdovsi əfsanəsini real tarix kimi təqdim etməyə, hakimiyyətlərinin təbliği üçün bundan yararlanmağa çalışırdılar. Burada hansısa İran dövlətindən söhbət gedə bilməzdi, moğollar da İran dövləti deyil, "İranzəmin"də, İran torpağında olan dövlətləri, hökmdarları nəzərdə tutaraq, "İran torpağının padşahları, sultanları, məlikləri, atabəyləri" [13, s.30,54], "məmləkətləri", "ölkələri" [13, s.66,105] ifadələrini işlədirlər. Bunların hamısı isə Azərbaycan, türk dövlətləri, hökmdarları idi. Sadəcə olaraq, bu "sahibsiz ad" moğollardan sonra da Azərbaycan hökmdarlarının xoşuna gəldi və onu işlətməkdə davam etdilər. Az sonra Hülakilərdə yenidən hakimiyyət böhranı başladı. 12 yaşlı Əbu-Səidin hakimiyyətə (1317-1335-ci illər) gəlməsi bir çox yerli hakimlərin mərkəzdənqaçma meyillərinə və müstəqilliyə can atmalarına səbəb oldu. Əbu-Səidin hakimiyyətinin ilk illərində dövlətin bütün işləri Hülakülərə qohum olan Sulduz tayfasından Çobanın əlində cəmləşdi. O, dövlətin faktiki hakiminə çevrildi. Əbu-Səid tamamilə Çobandan asılı vəziyyətdə idi. Dövlətdə bütün vəzifə başında oturanlar Çobani əmirləri idilər. Hakimiyyətin Çobanın əlində cəmləşməsi bir sıra

əyanları narahat etməyə başlayırdı. Mərkəzi hakimiyyətə qarşı mübarizə güclənirdi. Çobani əmirlərinin yüksəlməsindən narahat olan Əbu-Səid onlara qarşı mübarizəyə başladı və 1328-ci ildə Çoban edam olundu [6, s.103]. Lakin bu da Hülakülərin (Elxanilərin) hakimiyyətini xilas etmədi. Daxili və xarici qüvvələr Əbu-Səidi sakit buraxmaq istəmirdi. 1335-ci ildə Qızıl Orda xanı Özbək Azərbaycana hücum etdi. Onlara qarşı döyüşmək üçün Əbu-Səid Qarabağa gəldi və 1335-ci ilin sonunda burada zəhərləndirilərək öldürüldü [2, s.327]. Əbu-Səidin ölümündən sonra ölkədə qoşa və çoxpadşahlıq meydana gəldi. 1336-1344-cü illərdə dövlətin müxtəlif vilayətlərində 8 şahzadə padşah elan olunmuşdu. Şeyx Həsən Cəlairinin 1340-cı ilin sonunda Cahan Teymuru taxtdan salıb Bağdadda müstəqil Cəlairilər dövləti yaratması bu mübarizəni daha da kəskinləşdirdi. Cahan Teymur Hülakülər nəslindən idi, Bağdadda hakimiyyətini qurub, dövlətin fəaliyyətini davam etdirmək istəyirdi. Lakin yerli sülalələrdən Cəlairilər onu devirməklə Azərbaycanda hakimiyyət uğrunda mübarizə aparan əsas qüvvələrdən birinə çevrildi. Çobanilər də geri şəkilmədi və Şeyx Həsən Çobaninin başçılığı ilə mübarizəyə qalxıb Azərbaycanda hakimiyyəti ələ keçirə bildilər. Şeyx Həsən Çobani Hülaki şəhzadələrdən Satıbəy Xatunu (1339-1340-cı illər) və Süleyman xanı (1340-1344-cü illər) padşah elan edərək Azərbaycan, İraq-i Əcəm, Gürcüstanda faktiki hakimiyyəti əlində saxladı. Onların əsas rəqibləri Cəlairilər və Xorasan əmirləri idi. Ara müharibələri nəticəsində dövlət müxtəlif hissələrə parçalandı. Cəlairilər Bağdadda, Xorasan əmirləri-Xorasanda, Çobanilər isə Azərbaycanda möhkəmləndilər. Çobanilərin

nümayəndəsi Məlik Əşrəf 1357-ci ildə Azərbaycana hücum etmiş Qızıl Orda xanı Cani bəy tərəfindən öldürüldü. Ölkədə hakimiyyət Cani bəyin oğlu Bərdi bəyin əlinə keçdi. Bununla, 1357-ci ildə Hülakülər sülaləsi tam süqut etdi [10, s.116].

Beləliklə, Azərbaycanda Eldənizlər sülaləsinin yüksəlişi ilə böyük dövlətçilik prosesi başladı, uğurla inkişaf etdi, hətta Hülakülər (Elxanilər) sülaləsinin dövründə də davam etdi. Hülakülər moğol mənşəli olsalar da, tezliklə yerli dövlət ənənələrinə, qaydalara, həyat tərzinə, dini mənsubiyyətə uyğunlaşaraq fəaliyyət göstərdilər. Onların paytaxt olaraq Azərbaycan şəhərlərini seçmələri də təsadüfi deyildi. Başqa ölkələrdə uzun müddət davam edən moğol hakimiyyəti burada az vaxtdan sonra moğol xüsusiyyətlərini və siyasi təsir imkanlarını itirdi. Ərəblər kimi moğollar da Azərbaycanda türkləşərək yaşamalı oldular.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan Hülakilər (Elxanilər) dövləti tərkibində.-sesqazeti.az/news/sosial/ 612073/html.

2. Azərbaycan tarixi. (Z.Bünyadovun və Y. Yusifovun redaktəsi ilə). Bakı, Azərnəşr, 1994.

3. Azərbaycan tarixi. Yeddi cilddə, II cild, Bakı, “Elm”, 2007.

4. Azərbaycan tarixi (İ.Əliyevin redaktorluğu ilə), Bakı, “Elm”, 1993.

5. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, “Çıraq”, 2007.

6. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, “Minarə”, 2000.

7. İsmayılov R.B. Azərbaycan tarixi (ilk dəfə 1923-cü ildə nəşr olunub). Bakı, Azərnəşr, 1993.

8. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Bakı, “Elm və təhsil”, 2019.

9. Jackson P. ARGUN KHAN. iranicaonline.org/articles/argun-khan-fourth-il-khan-of-iran-r683-90-1284-91.

10. "Mahmud Ghazan". Encyclopaedia Britanica. 2009.

11. Азербайджан в 13-14 в.в.- ensiklopediya.gov.az/ az/ terms/20204/cild/12.

12. История Азербайджана. (Под ред. М. Абдуллаева), Баку, "Bakı Universiteti", 2016.

13. Рашидаддин Ф. Джами-ат-Таварих. Баку, "Nağıl evi", 2011.

### *§ 4. Sosial-iqtisadi sahədə əsas dəyişikliklər.*

Eldənizlərin dövründə əldə olunmuş müsbət sosial dəyişikliklər, iqtisadi yüksəliş əldə olunmuşdu. Məsələn, həmin vaxt "Azərbaycanın dövlət gəliri 20 milyon dirhəmə yaxın idi" [3, s.155], lakin iqtisadiyyat, hakimiyyət böhranı, moğolların ilk yürüşləri zamanı tam şəkildə tənəzzülə uğradı. Amma Hülakülərin hakimiyyətə gəlməsi Cənubi Qafqazda vilayətlər arasında sərhədlərin sabitləşməsinə, nisbətən dəqiq sərhəd zonalarının müəyyənləşməsinə səbəb oldu. Marağa və Təbriz paytaxt şəhərləri kimi böyük siyasi rola malik idilər, eyni zamanda ticarət mərkəzləri kimi də əhəmiyyətli idilər [2, s.194]. Moğol tayfalarının Azərbaycanda məskunlaşması ölkənin ictimai-siyasi və iqtisadi həyatı ilə yanaşı, onun idarə sisteminə və dövlət quruluşuna da təsir göstərmişdi. Azərbaycanda iki dövlət quruluşunun, oturaq əhali və köçərilərə məxsus dövlət quruluşlarının qarışması və qarşılıqlı təsiri nəticəsində yeni, nisbətən inkişaf etmiş, təkmilləşmiş dövlət quruluşu və idarə sistemi yarandı. Yeni sistem özündə hər iki dövlət

quruluşunda olan ən yaxşı müsbət cəhətləri cəmləşdirirdi. Dövrün kamil idarə sistemlərindən sayılan həmin sistem ölkənin siyasi, ictimai, mənəvi həyatı və təsərrüfatının bütün sahələrinin idarəsini özündə birləşdirirdi.

Təsərrüfatın idarəsi «Divan sistemi» üzrə təşkil edilmişdi. Mərkəzi dövlət divanına vəzir və onun naibi başçılıq edirdi. Mühasibat işləri yeddi dəftər əsasında aparılırdı. Bu dəftərlərdə maliyyə sahəsində baş vermiş gündəlik hadisələr, təsərrüfatın müxtəlif sahələri üzrə hesabatlar, mərkəzi divana aid xərclər, vilayət və şəhərlər üzrə qeydlər, ölkənin qanunlar toplusu və s. cəmləşmişdi. Təbrizə aid dəftər başqa şəhərlər üçün ölçü, nümunə rolunu oynayırdı [2, s.207].

Hülakülər dövründə hərbi idarə sisteminə, təsərrüfata nisbətən üstünlük verilirdi. Dövlətin hərbi qüvvələri baş əmirin ixtiyarında idi. Baş əmir dövlətin dörd yüksək rütbəli əmiri arasından seçilir və Elxan tərəfindən təsdiq edilirdi. Qalan 3 əmir «qol əmirləri» adlanırdı. Hülakülərin ədliyyə sistemi iki böyük hissəyə ayrılırdı. Şahzadələrə, köçəri əyanlara, hərbi hissələrə aid mübahisələr Çingiz xanın "Yasa"sına əsaslanan "yarğu" məhkəmələrində, digər əhaliyə aid mübahisələr isə qəza məhkəmələrində, şəriət qanunları əsasında aparılırdı. Dövlətin başında səlahiyyəti məhdudlaşdırılmayan mütləqiyyət üsul-idarəsindən ibarət «Elxan» və ya «Sultan» dururdu.

Ölkənin baş qazısı dini işlərin idarəsinə cavabdeh idi. Onun sərəncamında «Qazılar dördlüyü», vilayət və şəhər qazıları işləyirdilər [5, s.65-69]. «Əmarət» (əmirlik) adlı təşkilatda dövlətin hərbi və inzibati idarələri cəmləşirdi. Qoşun tümənlərə (on minliklərə), minliklərə, yüzlüklərə

və onluqlara bölünürdü. Və bunlar müvafiq əmirlər tərəfindən idarə olunurdu.

İstifadəsiz torpaqların becərilməsi, tikintinin, ticarətin, sənətkarlığın, rabitənin və s. sahələrin idarəsi ilə məşğul olan xüsusi orqanlar—«Divan»lar fəaliyyət göstərirdi. Dövlətin ərazisi vilayətlərə, onlar isə tümənlərə bölünmüşdü. «Tümən» hərbi və inzibati bölgü baxımından eyni ərazini əhatə edirdi. Azərbaycanın tarixi əraziləri müstəqil doqquz tümənə bölünmüşdü və onların hər biri Azərbaycanın iri şəhərlərindən birinin adı ilə (məsələn: Təbriz tüməni, Ərdəbil tüməni və s.) adlanırdı [2, s.319-321].

Dinc əhaliyə, xüsusilə rəiyyətə qarşı dövlət siyasətini kökündən dəyişdirmək zərurətini moğol hakim dairələrinin düşünən nümayəndələri də anlayırdılar. Hülakü hökmdarı Qazan xan (1295-1304) bu mövqedən çıxış edirdi. Onun fikrincə, bütün işlər, gəlir və firəvanlıq rəiyyətin çalışqanlıq və əməyindən, əkinçilik və ticarət işlərindən asılıdır. Bununla o, hər hansı bir cəmiyyətin yaşayıb irəli getməsi üçün başlıca dayaq olan 3 sosial təbəqənin (rəiyyətin, sənətkarların və tacirlərin), kənd və şəhərlərin iş adamlarının əməyinə qayğı ilə yanaşmağı tələb edirdi. Onlara qarşı davranışın yumşaq siyasət üzərinə keçirilməsinə tərəf çıxırdı.

Qazan xanın keçirdiyi başlıca islahatlardan biri hərbi iqta torpaqları haqda 1303-cü il qanunudur. Bu qanuna görə qoşunda hərbi xidmətdə olan bütün moğol kişilərinə irsən atadan oğula keçən iqta verilirdi. Sosial baxımdan iqta torpaqlarını alan döyüşçülər kiçik torpaq sahiblərinə çevrilirdilər. İlkin Elxanlar çağında iqta çox az adamlara, başlıca olaraq yüksək rütbəli qoşun başçılarına verilirdi.

Rəiyyət və bütün kəndlilər üçün bu yeniliklərin əhəmiyyəti də az deyildi. Dövlət divanı xeyrinə torpaq vergisinin (xəracın) və başqa vergilərin toplanma qaydasının dəyişdirilməsi onlar üçün tutarlı yenilik idi. Bu iş yeni torpaq sahibinin (iqtadarın) öz ixtiyarına verilsə də, qayda-qanun gözlənilirdi. Vergilərin qədəri, və ödəniş vaxtı dəqiq bildirilirdi. Taxıl vergisi əkinçilərdən yalnız ildə iki dəfə:-21 mart-11 aprel və 22 sentyabr-12 oktyabr arasında və ya ildə bir dəfə (20 gün içərisində) yığıla bilərdi. Göstərilən zaman xaricində, və ya artıq vergi tələb etmək ağır cəzalarla qadağan edilmişdi. Taxıl vergiləri kəndlilərin öz yük heyvanları ilə dövlət ambarlarına daşınmalı idi. Hər bir kənddə metal və ya taxtadan lövhə vurulmalı, ödəniləcək verginin miqdarı buraya yazılıb, göstərilməli idi [2, s.213-215]. Qazan xanın məşhur vəziri Fəzlullah Rəşidəddin dövlət xadimi kimi böyük işlər görmüş, sonrakı xanların da vəziri olmuş, daxili və xarici siyasətdə mühüm rol oynamışdır. O, həmçinin həmin dövrün tarixinə dair ən vacib kitablardan birinin - "Cəmi ət-Təvarix" (Tarixlərin toplusu) əsərinin müəllifidir.

Xalq kütlələri ilə yaxınlaşmaq, yerli əhalinin dəstəyini qazanmaq üçün başlıca islahatlardan biri də dövlətin islam dininə münasibətinin dəyişməsi idi. Say sırası ilə əslində birinci olacaq din islahatı keçirilmişdi. Qazan xan əyanları və ordusu ilə birlikdə islamı qəbul etdi. Öz türk adına müsəlman adı əlavə edərək Qazan Mahmud oldu. İslam 5-ci ulusun dövlət dininə çevrildi. Qazan xanın göstərişi ilə bütpərəst məbədləri, hətta atasının tikdirdiyi məbədlər də dağıdılır, yerinə məscidlər tikilirdi [4, s.224]. Görünür bu islahatla bağlı olaraq o, Moğolustanda otur-

maqda olan xaqan hakimiyyətini tanımaqdan imtina etdi. Bu, yerli torpaq sahibləri və ruhanilər ilə yaxınlaşmaq siyasətinə keçid idi. Bunsuz «yeni» siyasətin prinsiplərinə inam qazandırmaq mümkün deyildi. 1297-ci ildə Qazan xan Şirvana, Bakıya gəldi. Ola bilsin, bu gəliş onun Şirvan ərazisində tanınmış müsəlman ocaqlarından biri olan Bibi Heybət türbəsinin ziyarəti ilə bağlı idi [1, s.67]. Qazan xanın varisi Olcaytu xanın hakimiyyəti illərində (1304-1316) də yerli əyanların hüquqlarının bərpa edilməsi, Şirvanşah hakimiyyətinin get-gedə dirçəlişi baş verirdi.

Beləliklə, aparılmış islahatlar ölkənin iqtisadi, mənəvi həyatında mühüm rol oynadı, hakim təbəqə ilə yerli xalqın yaxınlaşması istiqamətində irəliyə doğru atılan addım oldu və sosial-iqtisadi sahədə xeyli dəyişikliklər baş verdi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Aşurbəyli S. Bakı şəhərinin tarixi. Bakı, “Avrasiya press”, 2006.

2. Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, “Nurlan”, 2003.

3. Həmdullah Qəzvini. Ürəklərin əyləncəsi.- Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, “Çıraq”, 2007.

4. Рашид ад-дин Ф. Джами ат-таварих. Том III. Перевод с персидского языка А.К.Арендса.- Баку, 1957.

5. Фалина А.И. Реформы Газан хана.- Уч.зап. ИВ АН СССР, т. XVII, Москва, 1959.

# VII fəsil. Azərbaycanda Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hakimiyyəti

## *§ 1. XIV əsrin ikinci yarısı - XV əsrin əvvəllərində Azərbaycanın siyasi-ictimai vəziyyəti. Hürufilik hərəkatı.*

XIV əsrin ilk onilliklərindən başlayaraq Hülakülər sülaləsinin mövqeyi zəiflədi, hakimiyyət uğrunda mübarizəyə Çobanilər, Cəlairilər sülalələri qoşuldu, vaxtaşırı Qızıl Orda xanları da Azərbaycanda hakimiyyəti nəzarətə götürməyə çalışırdılar. Azərbaycan sərt siyasi mübarizə meydanına çevrilmişdi.

1357-ci ildə Qızıl Orda xanı Canı bəy sui-qəsd nəticəsində öldürüldü və bundan sonra onun Təbrizdəki nümayəndəsi, oğlu Bərdi bəy şəhəri tərk edərək, təcili Qızıl Ordaya qayıtdı. Boşluqdan istifadə edən Çobani nəslinin nümayəndəsi Əmir Əxicuq hakimiyyəti ələ aldı, lakin cəmi bir il hakimiyyətdə qala bildi. 1358-ci ildə Cəlairi Şeyx Üveys (1354-1374) onu məğlub edərək öldürdü, Təbrizi tutdu və paytaxtını Bağdaddan buraya köçürdü [21, s.156]. Burada bir daha vurğulanmalıdır ki, Azərbaycan dövləti öz yerində idi, mövcudluğunu davam etdirirdi. Sadəcə olaraq, hakimiyyətdə bir sülaləni digəri əvəz edirdi. Məsələn, Hülakülərin zəiflədiyi dövrdə yerli Cəlairilər sülaləsinin nümayəndəsi "Şeyx Üveys Təbrizdə Azərbaycan taxtına oturdu, sonra isə İraqı və Mosulu Azərbaycana birləşdirdi" [14, s.39]. Yəni, dövlətdə bir sülaləni digəri əvəz etdi.

Cəlairilər Cənubi Azərbaycanı tutduqdan sonra bir müddət Şirvanşahlar müstəqil oldular. Hətta Şirvanşah

Kavus (1348-1372) iki dəfə Təbrizə hücum edib onu Cəlairilərdən azad etməyə cəhd göstərdi. Lakin 1368-ci ildə Şeyx Üveys hücum edib Şirvanı da tutdu. Daxili idarəçilik sistemi saxlanılmaqla Şirvanşahlar da Cəlairilərdən asılı vəziyyətə salındı [21, s.156]. Şeyx Üveysin ölümündən sonra ölkədə daxili çəkişmələr başladı. Şeyx Üveysi əvəz edən oğlu Sultan Hüseynin (1374-1382) dövründə siyasi çəkişmələrə sülalədaxili mübarizə də əlavə olundu. Belə ki, müxtəlif imkanlı qruplardan dəstək alan Sultan Hüseynin qardaşı Sultan Əhməd taxt-tac uğrunda mübarizə aparırdı. 1382-ci ildə Sultan Hüseyn qardaşı Sultan Əhməd tərəfindən öldürüldü. Hakimiyyəti qanunsuz ələ keçirən Sultan Əhmədin dövründə ara müharibələri daha da qızışdı [6, s.104].

Bu dövrdə həm Əmir Teymur və onun varisləri, həm Şirvanşahlar, həm də Qaraqoyunlu tayfa ittifaqı Cəlairilərin içərisində gedən proseslərdən bəhrələnməyə çalışır, imkan düşdükcə bu hakimiyyətə qarşı diplomatik, hərbi tədbirlər görürdülər. Cəlairidən asılılığı qəbul edən Şirvanşah Kavus 1372-ci ildə vəfat etdi və hakimiyyətə onun oğlu Hüşəng (1372-1382) gəldi. Hüşəng Şirvanın Cəlairi asılılığından azad olunması üçün heç bir cəhd etmədi, Cəlairilərə ödənilən xərac isə xalqı dilənçi halına salmışdı. Hüşəngdən narazı kütlələr 1382-ci ildə üsyan edib onu öldürdülər. Hakimiyyətə Hüşəngin əmisi oğlu İbrahim gətirildi. Hüşəngin təqiblərindən qaçıb Şəkidə xırda torpaq sahibi kimi fəaliyyət göstərən İbrahimin babaları Dərbənd hakimi olduğu üçün o, I İbrahim Dərbəndli adı ilə taxta çıxdı (1382-1417). Beləliklə, Şirvanşahlar tarixində 3-cü sülalənin, Dərbəndlilərin(1382-1538) hakimiyyəti başlandı

[18, s.170-171; 22, s.196, 207]. I İbrahim uzaqgörən, müdrik dövlət xadimi idi. O, hakimiyyətə gələn kimi iri əyanların özbaşınalığına son qoydu, mərkəzi hakimiyyəti gücləndirdi. Cəlairi sarayındakı ara müharibələrindən yararlanaraq yenidən Şirvanın tam müstəqilliyini bərpa etdi və bununla kifayətlənməyərək bütün Azərbaycanın bütövlüyü uğrunda Cəlairilərə qarşı mübarizəyə başladı.

Cəlairilərə qarşı ən fəal çıxış edənlərdən biri də Qaraqoyunlular idi. Qaraqoyunlular türklərin oğuz qoluna aid idi. Baharlı (Qaraqoyunlu) və Bayandur (Ağqoyunlu) soyları eyni kökdən, oğuzlardan idilər. Tayfa birliyinin bu cür adlandırılması müxtəlif şəkildə izah olunur. Azərbaycan bədii yaradıcılığında, həmçinin mülkiyyət, zənginliklə bağlı qoyunçuluq təsərrüfatları var-dövlət, iqtisadi güc, qüdrət göstəricisi hesab olunurdu. Bütün Avropa, o cümlədən "qoyunlar insanları yedi" ifadəsi ilə məşhur olan XVI əsr İngiltərəsində də qoyunçuluq eyni məzmuna malik idi. Bir rəvayətə görə, ata oğullarından birinə ağ, digərinə qara qoyun, qoç bağışlayır, onların hər ikisi bacarıqlı olur, var-dövlət toplayırlar, qara və ağ qoyunlardan ibarət qarışıq sürüləri də olur, ilkin sərvət mənbələrinə uyğun olaraq isə "ağqoyunlu", "qaraqoyunlu" ayamalarını alırlar. "Qara qoçun intiqamı ağ qoçda qalmaz" kimi xalq deyimləri isə bu ifadələrin güc, qüvvət simvolu olduğunu göstərir. Rəsmi yanaşmaya görə XIII əsrin əvvəllərində Mərkəzi Asiyadan Azərbaycana gələn Qaraqoyunluların sayı artmış və coğrafi arealı xeyli genişlənmişdi. XIV əsrin ortalarında Qaraqoyunlular Van gölü ətrafı ərazilərdə Ərzincan, Sivas və Cənub-Şərqi Anadoluda yaşayırdılar. XIV əsrin 80-ci illərində artıq Qaraqoyunlu tayfa ittifaqı

yarandı. İttifaqa Baharlı nəsli başçılıq edirdi [5, s.12]. Ona görə də, mənbələrdə "Qaraqoyunlu" ilə yanaşı "Baharlı" adı da işlədilir.

"Türkman" adına da aydınlıq gətirilməlidir. Türkmanlar və indiki Türkmənistan türkmənləri tam fərqlidir. Böyük tarixçimiz Həsən bəy Rumlu "türklə" "türkmanı" bir-birindən fərqləndirərək "qorxmaz türkmanlar və qeyrətli türklər" ifadəsini işlədib [8, s.287]. Təbiidir ki, hər ikisi oğuz kökünə bağlıdır. "Türkman", ən geniş yayılmış fikrə görə, orta Asiyada islamı ilk qəbul edən oğuzlara deyilib, bu ad türk və iman hissələrindən ibarətdir, "imanlı türk" mənasında işlədilib. Onlara əsasən indi Azərbaycan, Türkiyə, Suriya, İraqda yaşayan türklər, türkmanlar aiddir. Bir az da dəqiqləşdirsək, "türkman" anlayışına Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Səlcuqlu, Zəngi, Əfşar, Qacar, Bayat, Təkəli, Rumlu, Şamlı və digər nəsillər daxildir. Azərbaycan və Türkiyə əhalisi uzun müddət türkman adlandırılıb, Türkiyədə bu adı "osmanlı", Azərbaycanda isə "qızılbaş", "türk" adları arxa plana keçirib. Bu ada Suriya, İraq, Türkmənistan və bəzi digər yerlərdə yaşayan türklər sahib çıxaraq, "türkmən" şəklində qoruyub saxlayıblar.

Qaraqoyunlu sülaləsinin banisi oğuzların Baharlı tayfasının Baranlı nəslindən olan Bayram Xoca (1351-1380) olmuşdur [10, s.40]. Bayram Xoca Cəlairilərlə mübarizə aparırdı. Bayram Xocanın oğlu Qara Məhəmməd (1380-1389) tayfa ittifaqını möhkəmləndirdi, Cəlairilərlə münasibətləri nizama saldı, onlarla qohum olaraq, Sultan Əhmədin qızı ilə evləndi. Van gölü yaxınlığındakı Ərciş şəhərini, sonra Van şəhərini özünə paytaxt seçən Qara Məhəmməd hətta adına pul da kəsdirmişdi. Qüvvə topladıqdan son-

ra o, 1382-ci ildə hücum edib Təbrizi ələ keçirdi. Bununla Sultan Əhmədin hakimiyyətə gəlməsinə kömək etdi və o da, Qara Məhəmməddən asılılığı qəbul etdi [4, s.6]. 1385-ci ildə Əmir Teymur Azərbaycana hərbi yürüşə başladı. Qara Məhəmməd Teymurilərdən çəkinirdi və ona görə də 1385-ci ildə Suriyaya getdi.

Əmir Teymur (1370-1405) Orta Asiyada mərkəzləşmiş dövlət yaratdıqdan sonra işğalçılıq müharibələrinə başladı. O, 1385-ci ildə Azərbaycana yürüş etdi, Sultaniyyə (Cənubi Azərbaycanın Zəncan vilayətində şəhər) yaxınlığında Cəlairi Sultan Əhmədin qoşunlarını məğlub etsə də, paytaxt Səmərqənddə baş verən üsyanla bağlı geri qayıtmalı oldu [6, s.104]. Beləliklə, 1385-ci ildə Cəlairi Sultan Əhməd məğlub edilmiş, Qara Məhəmməd Suriyaya çəkilmiş və Əmir Teymur geri Asiyaya qayıtmışdı. Belə bir şəraitdə Qızıl Orda xanı Toxtamış fürsəti əldən verməyərək Dərbənddən Azərbaycana yürüş etdi, Təbrizi 8 gün mühasirədə saxladı. Şəhər müdafiəçilərinə toxunmayacaqlarına söz verərək hiylə vasitəsilə şəhərə daxil oldu və şəhər talan edildi. Bu vaxt Əmir Teymur Qızıl Ordaya hucum etdi və bu hadisə Toxtamışı məcbur etdi ki, təcili öz ölkəsinə qayıtsın.

Əmir Teymur Azərbaycana yarımçıq qalan birinci yürüşünü 1386-cı ildə davam etdirdi. Bu yürüş zamanı Təbriz ələ keçirildi, məşhur sənətkarlar, ustalar ailələri ilə birlikdə Səmərqəndə göndərildi. Həmin 1386-cı ildə Şirvanşah I İbrahim Dərbənd yaxınlığında Əmir Teymurun görüşünə getdi və ondan nominal asılılığı qəbul etdi. 1387-ci ildə Teymur Naxçıvana hücum etdi. Əlincə qalasını mühasirəyə aldı və bu qəhrəman qala 1399-cu ilə qədər

Teymurilərə təslim olmadı. 1387-ci ildə Ərzurumun Çapaqçur suyu deyilən yerində Əmir Teymurun qoşunları ilə Qaraqoyunlu qoşunları üz-üzə gəldilər. Bu döyüşdə Qara Məhəmməd Əmir Teymurun qüvvələrini məğlub etdi. Əmir Teymur həyatındakı ilk və son məğlubiyyətin əvəzini çıxmağa cəhd göstərdi, lakin Qara Məhəmməd onunla növbəti döyüşə girməyərək ərazini tərk etdi. 1387-ci ildə Teymur Azərbaycanı tərk etdi və buranın idarəçiliyini oğlu Miranşaha həvalə etdi. Bu qələbədən ruhlanan və Teymurun Səmərqəndə qayıtdığını bilən Qara Məhəmməd 1388-ci ildə hücum edərək Təbrizi Əmir Teymurun hakimiyyətini qəbul etmiş Cəlairilərdən geri aldı. 1389-cu ildə başqa bir Qaraqoyunlu əmiri Qara Pirhəsən Qara Məhəmmədi və onun oğlu Bayramı qətlə yetirdi ki, Qaraqoyunlu tayfa ittifaqına özü başçılıq etsin. Lakin Qara Pirhəsən buna nail ola bilmədi. O, Qara Məhəmmədin digər oğlu Qara Yusif (1390-1420) tərəfindən məğlub edildi [6,s.100]. Bu vaxt Təbriz Teymurilərin nəzarətinə qaytarıldı.

1392-ci ildə Təbriz Qaraqoyunlular tərəfindən yenidən tutuldu [7, s.61]. Bunu eşidən Əmir Teymur 1392-ci ildə Azərbaycana qarşı 1396-cı ilə qədər davam etmiş ikinci yürüşə başladı. Həmin il Təbriz Teymurilər tərəfindən ələ keçirildi. Bundan sonra Əmir Teymur Qaraqoyunluların mərkəzi şəhəri Vanı tutdu. Cəlairi Sultan Əhməd və Qaraqoyunlu Qara Yusif ittifaq bağladı. 1394-cü ildə Bağdad döyüşündə Cəlairi-Qaraqoyunlu birləşmiş qüvvələri Əmir Teymur tərəfindən məğlub edildi [4, s.5]. Teymur tərəfindən təqib olunan Sultan Əhməd və Qara Yusif əvvəlcə Osmanlı dövlətinə sığındılar. Əmir Teymurun tələbinə baxmayaraq, Sultan İldırım Bəyazid onları təhvil

vermədi və "mənə pənah gətirmiş qonaqları rədd edə bilmərəm", deyə cavab göndərdi. Onlar sonra Misirə, türk Məmlüklər dövlətinə getdilər. Bu dövlətin rəhbəri Sultan Bərkuk da onları Əmir Teymura təhvil vermədi. Lakin onun vəfatından (1399-cu il) sonra oğlu Sultan Fərəc onları həbs etdirdi. Cəlairi Sultan Əhmədin oğlu Məlik Tahir Əlincə qalasında Teymurilərlə savaşmaqda davam edirdi. Qalaya Teymurilər 4 dəfə genişmiqyaslı hücum təşkil etsələr də, onu ala bilmədilər. 1399-cu ildə Əmir Teymurun Azərbaycana 3-cü yürüşü zamanı yenidən Əlincə qalasına qarşı böyük hərbi qüvvələr göndərildi. 13 illik mühasirədən sonra müdafiəçilərin sayı seyrəlmişdi, ərzaq, silah tükənirdi. Məlik Tahirin Cəlairi xəzinəsini götürüb xəlvəti Bağdada qaçmasından sonra qala müdafiəçiləri ruhdan düşdülər və 1399-cu ildə Əlincə qalası Əmir Teymura təslim oldu [2, s.352].

Azərbaycan, Əcəm, Şərqi Anadoludakı uğurlardan sonra Əmir Teymurun qoşunları Osmanlı dövlətinin hüdudlarına çıxdılar. 1402-ci ildə iki böyük türk dövləti, Teymurilərlə Osmanlılar arasında Ankara yaxınlığında baş verən döyüş Teymurun Sultan İldırım Bəyazid üzərində qələbəsi ilə başa çatdı. Əmir Teymur Osmanlı sultanı üzərində qələbədən sonra da regionda qaldı, Azərbaycana üçüncü yürüşü 1404-cü ildə başa çatdı, həmin ilin martında Azərbaycanın çox xoşladığı Qarabağ bölgəsini tərk edərək Səmərqəndə qayıtdı. Əmir Teymur 1404-cü ilin sonlarında Çini fəth etmək məqsədi ilə 200 minlik qoşunla yürüşə çıxdı, lakin 1405-ci ilin fevralında Otrar şəhəri yaxınlığında xəstəlikdən vəfat etdi. Bu xəbəri eşidən Qara Yusif və Sultan Əhməd həbsdən çıxaraq, dərhal Misirdən

Azərbaycana qayıtmağı qərara aldılar. 1406-1410-cu illərdə Azərbaycan ərazisi Teymurilər, Cəlairilər və Qaraqoyunlular arasında mübarizə meydanına çevrildi.

Bu dövrdə Azərbaycanın şimalında Şirvanşahların Dərbəndlilər sülaləsinin (1382-1538) yeni yüksəlişi başladı. Dərbəndlilər ənənəvi “Şirvanşah” titulu ilə yanaşı həm də “xan” və “xaqan” titulları daşımış, türklüklərini qabartmış və türk mədəniyyətinin, türkçülüyün daşıyıcıları olmuşlar [13; 11, s.432; 11, s.238]. Bu sülalənin hakimiyyəti dövründə fars dili və Azərbaycan türkcəsi rəsmi dil kimi işlədilirdi [3, s.8; 1, s.216]. Bu dövrdən başlayaraq Dərbəndlilərin hakimiyyətdə olduğu Azərbaycan dövlətinin paytaxtı Bakı və Şamaxı şəhərləri, digər iri şəhərləri isə Dərbənd, Şabran, Mahmudabad, Qəbələ, Cavad olmuşdur. Dərbəndlilərin ilk nümayəndəsi I İbrahim (1382-1417) Azərbaycan dövlətini gücləndirdi və müstəqil siyasət yeritdi, müxtəlif dövrlərdə Azərbaycanın digər əraziləri də, o cümlədən Təbriz, Arran, Şəki onun hakimiyyəti altına keçdi [14, s.98-99]. I İbrahimin dövründə Azərbaycanın Araz çayından cənuba doğru əraziləri əsasən Hülakülər sülaləsinin varislərinin nəzarəti altında idi, hadisələr iki Azərbaycan dövlətinin qarşıdurması şəraitində davam edirdi. Həmçinin Orta Asiyada dövlətini qurmuş Əmir Teymur və onun varislərinin, digər tərəfdən, şimala doğru ərazilərə nəzarət edən Qızıl Orda xanlarının yürüşləri vəziyyəti ağırlaşdırırdı. I İbrahim ağır şəraitdə bu və ya digər dövlətlərlə müttəfiqlik əlaqələrinə girərək müstəqil Azərbaycan dövlətçiliyini davam etdirirdi.

Əmir Teymurun ölümündən (1405-ci il) sonra İbrahim bir qədər fəallaşdı, həmin il Əmir Teymurun nəvəsi Ömər

Mirzənin qoşunlarını məğlub edərək Kür çayını keçdi, Gəncəni və Qarabağın xeyli hissəsini nəzarətə götürdü [20, s.154].

1405-ci ilin yayında Əmir Teymurun nəvəsi Ömər Mirzə cənuba doğru çəkildi və Təbrizə gələrək əhalidən xərac toplamağa başladı. Qəzəblənmiş xalq ayağa qalxaraq üsyan etdi və Ömərin qoşununu şəhərə buraxmadılar. 1406-cı ilin yazında Ömərin böyük qardaşı Əbu Bəkr Təbrizə hücum edərək əhalidən 100 min qızıl pulla xərac tələb etdi. Narazı qalan xalq yenidən üsyan edərək I İbrahimi köməyə çağırdı. 1406-cı ilin mayında I İbrahim Arazı keçərək Təbrizə daxil oldu. Əhali I İbrahimi mehribanlıqla qarşıladı və onu öz hakimi kimi tanıdı [6, s.108]. Şirvanşah I İbrahim əhalidən alınan vergiləri qaydaya saldı.

Beləliklə, qısa müddətə də olsa, Şirvanşah I İbrahim Azərbaycanın böyük bir hissəsini öz hakimiyyəti altında birləşdirə bildi. Lakin o, Təbrizdə möhkəmlənə bilmədi. Çünki Cəlairi Sultan Əhməd və onunla ittifaqda olan Qaraqoyunlu hərbi birləşmələrinin başçısı Qara Yusif vaxt itirmədən Misirdən Azərbaycana, Təbrizə doğru hərəkət edirdilər. Onların yaxınlaşdığını eşidən Şirvanşah I İbrahim məcburiyyət qarşısında Təbrizi tərk edib Şirvana qayıtdı və onun Azərbaycan torpaqlarını birləşdirmək cəhdi baş tutmadı.

Hələ Misirdə olarkən Sultan Əhməd və Qara Yusif razılığa gəlmişdilər ki, Bağdad Sultan Əhmədə, Təbriz isə Qara Yusifə çatacaq. Lakin bu razılaşmanı pozan Sultan Əhməd 1406-cı ildə Təbrizi ələ keçirdi [8, s.56]. Sultan Əhməd Təbriz camaatının güzəranının yaxşılaşması üçün ciddi tədbirlər görmədi. Ona görə də Teymuri Əbu Bəkrin

qoşunu Təbrizə hücum edərkən xalq Sultan Əhmədi müdafiə etmədi və Əbu Bəkr Təbrizi tutdu, Sultan Əhməd Bağdada qaçdı. Bu zaman Qara Yusif böyük qoşunla Təbriz üzərinə yeridi. 1406-cı ildə Qara Yusif I Şənbi Qazan döyüşündə Əbu Bəkri məğlub etdi və öldürdü. Bundan sonra Qara Yusif Təbrizə daxil oldu [8, s.54-58]. Əmir Teymurun oğlu Miranşah Qara Yusifə qarşı yeni qoşunla gəldi. 1408-ci il aprelin 21-də Təbriz yaxınlığında Acıçay (Sərdrud) döyüşündə oğlu Əbu Bəkrin qisasını almağa gələn Miranşahın qoşunu Qara Yusif tərəfindən darmadağın edildi və özü də öldürüldü. Teymuri qoşununun qalıqları Azərbaycanı tərk etdilər [5, s.24].

Hürufilik təlimi. Azərbaycanda ictimai-siyasi vəziyyətin kəskinləşməsi nəticəsində Teymurilərin zülmünə qarşı narazılıq durmadan artırdı. Belə bir şəraitdə hələ XIV əsrin sonlarında Azərbaycanda dini xurafata və sonralar Teymurilər hökmranlığına qarşı yönəldilmiş dini-siyasi hərəkat, hürufilik yayılmağa başladı. Hürufilik (hərflər sözündəndir) şiəlikdə bir təriqətdir. Azərbaycanda meydana gələn bu hərəkat Əcəm İraqında, Osmanlı dövləti ərazisində və Mərkəzi Asiyada da yayılmışdı. Bu təlimin banisi görkəmli Azərbaycan filosofu Şeyx Fəzlullah Cəlaləddin Nəimi olmuşdur və onun əsas ideyaları "Cavidannamə" (Əbədiyyət kitabı) əsərində əks olunmuşdur [17, s.104]. Hürufilik Allahın təbiətdə, əşyada, sözdə, xüsusən insanda təcəssümünü əsas götürürdü. Bu nəzəriyyənin dərin sosial kökü vardı. Hürufilər deyirdilər ki, hökmdarlar qaniçəndirlər, din-şəriət xadimləri isə riyakardırlar. İnsanları ədalətə qovuşdurmaq üçün yeni tipli hökmdar, kamil insan lazımdır. Belə insan isə Nəimidir [16, s.284].

Hürufiliyə görə Allah eyni zamanda söz, kəlam şəklində təcəssüm edir, sözlər isə hərflərlə ifadə olunur. Deməli Allah sözlərdə təcəssüm etdiyi üçün eyni zamanda hərflərdə əyan olur, hərflər isə kamala çatmış insanın üzündə əks olunur. Fəzlullah Nəimi farsın 32 hərfini əsas götürmüşdür. Onun "Cavidannamə" əsərində 32 hərfdən bəhs edilir. Hürufilər başqa rəqəmlərlə də hərflərdən ibarət rəmzlər yaradır, 28 hərfli ərəb əlifbasının müqəddəs olduğunu, onun vasitəsilə dünyanın sirlərini açmağın mümkün olduğunu qeyd edirdilər. Hürufilərə görə, Allahın yaratdığı dünya daim dövr edir və bu, görünən dəyişikliklərin səbəbidir. Allah iki yolla – Allahın özünəbənzər yaratdığı insanda və Allahın nitqində, yəni Quranda və əşyaların adında təzahür edir. Bu təlimə görə canlı aləmin mərkəzində duran insan kamilləşərək Allah səviyyəsinə yüksələ bilər [12].

Hürufilik tərəfdarları Teymurilər tərəfindən amansızcasına təqib olunaraq cəzalandırılırdılar. Miranşah atası Əmir Teymurun əmri ilə 1401-ci ildə Naxçıvanda Əlincə qalasında Nəimini edam etdirdi [19]. Hürufiliyin digər görkəmli nümayəndələri – məşhur hürufi şairi İmadəddin Nəsimi (əsl adı Seyid Əli idi), Əbdülhəsən Əli və başqaları idi. Bunların başçılığı ilə hürufilər Türkiyə ərazisində fəaliyyət göstərmiş və türk dilində geniş ədəbiyyat yaratmışlar. Hürufiləri daim təqib edən din xadimlərinin tələbi ilə Misir hökmdarı Sultan Şeyx Mahmudun əmri ilə Nəsimi 1417-ci ildə Hələb şəhərində həbs edilib, dərisi soyulmaqla edam olunub [23, s.137-142]. Dahi Azərbaycan şairi M. Füzulinin əsərlərində də hürufilik motivləri vardır.

Beləliklə, Azərbaycanın yerli sülalələri xarici müdaxilələri dəf edərək müstəqil dövlətçiliyi qoruyub saxladılar. Bu dövrdə həmçinin sosial ədalət, yeni dövlətçilik, dövlətlə xalqın nizamlı münasibətləri, yeni insan tərbiyəsi və digər prinsipləri özündə birləşdirən yeni milli ideya-Hürufilik meydana gəldi və inkişaf etdi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, "Əbilov, Zeynalov və oğulları", 2006.

2. Azərbaycan tarixi. Z.Bünyadov və Y. Yusifovun redaktəsi ilə. Bakı, "Azərnəşr", 1994.

3. Babayev X. Azərbaycan dilinin dövlət dili kimi təşəkkül tarixindən (XVI-XX əsrlər). Bakı, "Elm və həyat", 2002.

4. Fərzəlibəyli Ş. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı, "Azərbaycan Dövlət Nəşriyyatı", 1995.

5. Nəcəfli T.H. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı, "Çaşoğlu", 2000.

6. Nuriyeva İ. Azərbaycan tarixi. Bakı, "Elm və təhsil", 2019.

7. Onullahi S. XIII-XVII əsrlərdə Təbriz şəhəri (Sosial-iqtisadi tarixi). Bakı, "Elm", 1982.

8. Rumlu H. Əhsənüt-Təvarix (Tarixlərin ən yaxşısı). Fars dilindən tərcümə: Oqtay Əfəndiyev, Namiq Musalı. Kastamonu, "Uzanlar", 2017.

9. Sümer F. Azerbaycanın Türkleşmesi tarihine ümumi bir bakış. Belleten, sayı: 83 (1957).

10. Sümer F. Kara Koyunlular, c.I, Ankara, 1992.

11. Turan O. Selçuklu tarihi ve türk-islam medeniyyeti. Ankara, 1965.

12. “HORUFISM” //URL: http//www.iranicaonline.org/articles/horufism.

13. Rihtim M. Seyid Yəhya Bakuvi və Xəlvətilik. Bakı, “Qismət”, 2005.

14. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi (ilk dəfə 1924-cü ildə İstanbulda nəşr olunub). Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1992.

15. Ашурбейли С. История города Баку. Баку, Азернешр, 1992.

16. Ислам: энциклопедический словарь. Москва, «Наука», 1991.

17. История Афганистана с древнейших времен до наших дней. Отв.ред. Ю.В.Ганковский. Москва, “Мысль”, 1982.

18. Минорский В.Ф. История Ширвана и Дербента. Москва, Изд-во Восточной литературы, 1963.

19. О Фазлиллахе Наими и его мавзолее.- anl.az/down/meqale/kaspi/2011/sentyabr/ 201018.html.

20. Петрушевский И.П. Государства Азербайджана в XV в. (Сборник статей по истории Азербайджана). Баку: АН Азерб. ССР, 1949, вып.1.

21. Рыжов К.В. Все монархи мира. Мусульманский Восток VII-XV вв.- Москва, Вече, 2005.

22. Шараф ад-Дин Али Язди. Зафарнаме. Книга побед амира Темура. Ташкент, Изд-во журнала “SANAT”, 2008, том 1. .- vostlit.info/haupt-Dateien/index-Dateien/SCH.phtml?id=2065.

23. Шариф А. Великий еретик// Изд-во Академии Наук СССР: журнал «Народы Азии и Африки», 1974, №1.

## *§ 2. Qaraqoyunlu sülaləsinin hakimiyyəti.*

XIV əsrin sonlarından etibarən Azərbaycanda Qaraqoyunlu və Ağqoyunlu sülalələri siyasi meydana çıxdılar. Qaraqoyunluların içərisində Sədli, Baharlı, Duharlı, Qaramanlı, Alpavut, Çəkirli, Ayınlı, Hacılı, Ağaçəri, Dögər, Bayramlı nəsilləri daha çox tanınırdı [13; 8, s.12; 15, s.367-368]. Qaraqoyunlu və Ağqoyunlular Hülakü-Elxanilərin varisləri olan Cəlairilər, digər tərəfdən Orta Asiyalı Əmir Teymur və varisləri, həmçinin Şirvanşah Dərbəndlilər sülaləsinin nümayəndələri ilə sərt rəqabət şəraitində hakimiyyətə gəlməyə çalışırdı.

Qaraqoyunlular əsasən Van gölü ətrafında cəmləşmişdilər. Bu sülalənin hakimiyyətə iddialı ilk nümayəndəsi Bayram Xoca (1351-1380) Cəlairilərin zəifləməsindən istifadə edərək, 1351-ci ildə Van və Mosulu ələ keçirdi. Bayram Xoca XIV əsrin 70-ci illərində Azərbaycanın cənub-qərb torpaqlarını-Xoy, Naxçıvan, Göyçə, Sürməlini, həmçinin Ərzuruma qədər Şərqi Anadolunu nəzarətə götürdü və qismən müstəqil siyasət yeritməyə başladı. Bayram Xocanın xələfi Qara Məhəmmədin (1380-1389) dövründə sülalənin siyasəti davam etdirildi. Əmir Teymura və digər qonşu hökmdarlara qarşı bir neçə uğurlu döyüşü oldu, hətta 1388-ci ildə Cəlairiləri məğlub edərək Təbriz şəhərini tutdu, lakin şəhəri uzun müddət əldə saxlaya bilmədi [12, s.60; 9, s.38]. Qara Məhəmmədin oğlu Qara Yusifin (1390-1420) dövründə Azərbaycan dövləti mövcudluğunu imperiya olaraq davam etdirdi. O, Şirvanşahlarla Cəlairilərin ittifaqına qarşı çətin mübarizədən qalib çıxdı. Qara Yusif bir neçə uğursuz cəhddən sonra 1410-cu ilin

avqustunda Təbriz yaxınlığında İkinci Şənbi Qazan döyüşündə Cəlairiləri tam məğlub etdi, Sultan Əhmədi əsir götürdü və öldürdü, Təbrizə birdəfəlik sahib çıxdı. Qara Yusif bu qələbəsi ilə Azərbaycan dövlətində Cəlairilər sülaləsinin hakimiyyətinə son qoydu, "hakimiyyət Cəlairi sülaləsindən Qaraqoyunlulara keçdi" [2, s.36]. Həmin vaxtdan qədim Azərbaycan şəhəri Təbriz imperiyanın paytaxtı oldu. Qara Yusif və ondan sonra gələn xələfləri özlərini Xaqan, Sultan, Şah adlandırdılar. Şirvanşah I İbrahim Qara Yusifin güclənməsindən narahat olaraq, Şəki hakimi Seyid Əhməd və gürcü hakimi Konstantinlə ittifaq yaratdı. Qara Yusif 1412-ci ilin dekabrında Kür sahilində müttəfiqləri məğlub etdi, I İbrahimi, Konstantini və digərlərini əsir götürdü, sonra bac müqabilində onları azad etdi. I İbrahim 1413-cü ildə Qaraqoyunlulardan asılılığı qəbul etdi [8, s.25]. Dövlətin 3 milyon kv kilometrlik ərazisi Azərbaycanın Araz çayından cənuba və şimala doğru bütün torpaqlarını, o cümlədən indi Ermənistan deyilən Azərbaycan ərazilərini, İraqın bütün ərazisini, indiki Türkiyənin şərq əyalətlərini əhatə edirdi [9; 14, s.341-354]. Azərbaycanın tarixi torpaqları vahid dövlətin tərkibində birləşdirildi.

Qaraqoyunlu sülaləsinin hakimiyyəti dövründə Azərbaycan dövlətinin rəsmi dilləri Azərbaycan türkcəsi və fars dili idi [16; 17, s.277]. Qaraqoyunlu sülaləsinin nümayəndələri "İran padşahı" (Padişahi-İran) titulu daşıyır [14, s.351], bununla özlərini Azərbaycan dövləti olaraq əfsanəvi İranın varisi hesab edirdilər. Qaraqoyunlu sülaləsinin hakimiyyətdə olan nümayəndələri müxtəlif mənbələrdə "Təbrizdə səltənət taxtına oturmuş Qara Yu-

sif Barani" [3, s.34], "Qara Yusifin dəbdəbəli padşah taxtı" [4, s.64], "Azərbaycan padşahı Qara Yusif Türkman" [11, s.90], "İran meşəsinin şiri, Turanın aslanı Qara Yusif Türkman" [11, s.91], "Azərbaycan yönətiminin sahibi Cahanşah Karakoyunlu" [3, s.92], "Dövrün padşahı, İraqın və Azərbaycanın hökmdarı Mirzə Cahanşah Türkman" [6, s.67], "Azərbaycan hökmdarı Cahanşah Türkman" [11, s.258] kimi təqdim olunur. Bəzən isə yuxarıda qeyd etdiyimiz səbəblərdən "İran padşahı Qara Yusif Türkman" [11, s.81] da deyilir.

Tarixdə Qaraqoyunlu adı ilə tanınan tayfalar mənşəcə oğuz toplumlarından biri olmuşdur. Osmanlı tarixçisi Mövlanə Şükrullah Qaraqoyunluların Oğuz xanın oğlu Dəniz xanın törəmələri olduğunu yazmışdır. Onların guya bayraqlarında olan qara qoç rəsminə görə adlandırılması həqiqətə uyğun deyil, belə ki, orta əsrlərə aid tarixi mənbələrdə onların bayrağında qara qoç rəsminin olması haqqında məlumata rast gəlinməmişdir. Bu fikir bəzi Avropalı müəlliflər tərəfindən, heç bir fakt olmadan, irəli sürülmüşsür [7].

1417-ci ildə Şirvanşah I İbrahim öldü. Hakimiyyətə keçən oğlu Şirvanşah I Xəlilullah (1417-1465) Qara Yusifin hakimiyyətini tanımadı. O, öz siyasətində Orta Asiya hökmdarı Teymurun ikinci oğlu Sultan Şahruxla (1405-1447) yaxınlaşıb ittifaq bağladı, həm də Qaraqoyunlu siyasi hakimiyyətini didən iç çəkişmələrdən istifadə etməyə başladı. Sultan Şahrux 200 minlik qoşunla Təbriz üzərinə yeridi. Qara Yusif 50 minlik qoşunla Təbrizdən çıxaraq onunla döyüşə getdi. Lakin 1420-ci il noyabrın 13-də yolda, Uçan adlı yerdə xəstələndi və vəfat etdi [11, s.122-128].

Ölümündən 3 gün sonra Təbriz əyanı Məhəmməd Keçəli tərəfindən onun nəşi paytaxta gətirildi və müsəlman qaydası ilə torpağa tapşırıldı.

Qara Yusifin ölümündən dərhal sonra Şahrux Qaraqoyunluya qarşı hərbi yürüşü genişləndirdi. 1421-ci ilin əvvəlində Qarabağa çatan Şahrux Şirvanşah I Xəlilullah ilə görüşdü və onunla ittifaq bağladı. I Xəlilullah Şahruxun nəvəsi ilə evlənərək ittifaqı möhkəmləndirdi. Qara Yusifdən sonra hakimiyyətə gələn Qara İskəndər (1420-1435) qardaşı Qara İsfəndiyarın qüvvələri ilə birlikdə Təbriz yaxınlığında Ələşgird vadisində 1421-ci ilin avqustunda döyüşə girdilər. Qaraqoyunlular bu döyüşdə məğlub oldular. Lakin Qara İskəndər qüvvə topladı, 1422-ci ildə hücum edib Təbrizi azad etdi və 1435-ci ilə qədər hakimiyyətdə qaldı. Şirvanşah I Xəlilullahın və Şahruxun birləşmiş qoşunları 1435-ci ilin yayında Qara İskəndəri məğlub edib Təbrizə daxil oldu, İskəndər Kiçik Asiyaya qaçsa da, ələ keçirildi və Əlincə qalasına salındı. Həmin ilin sonunda Şahruxun razılığı ilə Qara Yusifin kiçik oğlu Cahanşah Qaraqoyunlu hakimiyyətini davam etdirdi. Əlincə qalasına salınan Qara İskəndər orada gecələrin birində öz oğlu tərəfindən öldürüldü [11, s.223].

Qara Yusifin oğlu Cahanşahın dövrü (1436-1467) xüsusi yer tutur. Cahan şah Həqiqi təxəllüsü ilə Azərbaycan türkcəsi və fars dillərində gözəl şeirlər də yazırdı [17, s.272, 283], eyni zamanda dövlət xadimi kimi də özünü göstərdi, dövlətin ərazilərinin genişləndirilməsi, idarəetmə sahəsində ciddi uğurlar əldə etdi. Cahan şah hakimiyyətinin sonuna qədər Sultaniyyə, Qəzvin, İsfahan, Məşhəd, Nişapur, Xarəzmi, hətta Teymurilərin paytaxtı Herat şəhə-

rini qısa müddətə olsa da, yürüşlərlə ələ keçirmişdi [11, s.27; 10, s.16-17; 18, s.190]. Cahanşah, atasından və qardaşı Qara İskəndərdən fərqli olaraq, yaxşı təhsil görmüş, bilikli bir adam idi. O, hakimiyyətin möhkəmlənməsi məqsədilə bir sıra tədbirlər həyata keçirdi: yarımköçəri əyanlara qarşı mübarizəni gücləndirdi; daha çox oturaq əyanlara və iri tacirlərə arxalandı; ordunu qüvvətləndirdi, nizam-intizamı gücləndirdi. O, Şahruxun ölümündən sonra (1447) Teymuri asılılığını qətiyyətlə rədd etdi. Şirvan dövləti ilə kəskin hərbi rəqabəti yumşaltdı. Onların arasında savaş və çəkişmələrin arası kəsildi. Yalnız Ağqoyunlu hakimliyi ilə rəqabət qalmaqda idi [8, s.27].

Ağqoyunlularla Qaraqoyunlular arasında ərazi üstündə mübarizə gedirdi. Cahanşah XV əsrin 50-ci illərində Şərqi Anadolunun çox hissəsini, Qərbi Azərbaycanı Ağqoyunlulara güzəştə getməyə məcbur oldu. Onun Şərqdə Teymurilərə qarşı apardığı mübarizə daha müvəffəqiyyətli oldu. 1453-cü ildə Əcəm İraqını ələ keçirdi, 1457-ci ildə Gürcan və Xorasanı tutdu, 1459-cu ildə isə Teymurilərin paytaxtı Heratı tutdu, Teymuri Əbu Səidlə barışıq müqaviləsi bağladı və təzminat alaraq Azərbaycana qayıtdı [1, s.369]. Lakin onun mərkəzi hakimiyyəti möhkəmləndirmək cəhdləri bir nəticə vermədi. Cahanşahın hakimiyyətinin sonlarında daxili çəkişmələr, ara müharibələri, hakimiyyət uğrunda mübarizə Qaraqoyunluların zəifləməsinə səbəb oldu. Bundan istifadə edən Ağqoyunlular onların ərazilərini ələ keçirməyə başladılar.

1467-ci ilin may ayında Cahanşah böyük qüvvə ilə Ağqoyunlu Uzun Həsənə qarşı hərəkətə başladı və Van gölü ətrafı ərazilərdə möhkəmləndi. Uzun Həsən casu-

su vasitəsilə Cahanşahın ətrafında nələrin baş verdiyi haqqında mütəmadi məlumatlandırılırdı. Qaraqoyunlu ordusunda nizam-intizamın pozulduğunu yəqinləşdirən Uzun Həsən cəmi 6 minlik seçmə döyüşçülərlə Cahanşahın düşərgəsinə hücum etdi. 1467-ci il noyabrın 11-də Muş düzündə baş vermiş döyüşdə Qaraqoyunlular məğlub oldular. Cahanşah Ağqoyunlular tərəfindən yaxalandı və öldürüldü [11, s.435-442]. Cahanşahın oğlanları Həsənəli və Hüseynəli arasında taxt-tac uğrunda mübarizə başladı və Həsənəli Hüseynəlini öldürərək hakimiyyəti ələ keçirdi. Həsənəli 1468-ci ildə Mərənd döyüşündə Ağqoyunlulara məğlub oldu və Teymuri Əbu Səidin yanına qaçdı [5, s.18]. Beləliklə, 1468-ci ildə Qaraqoyunlular süqut etdi, onların yerinə Ağqoyunlu sülaləsi hakimiyyətə gəldi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan tarixi, I cild (Z. Bünyadov və Y. Yusifovun redaktəsi ilə). Ali məktəblər üçün dərslik. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

2. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, "Minarə", 2000.

3. Ebu Bekr-i Tihrani. Kitabi Diyarbekriyye. Türk Tarix Kurumu, Ankara, 2014.

4. Əbubəkr Tehrani. Kitabi Diyarbəkriyyə. (Fars dilindən tərcümə-Rəhilə Şükürova). Bakı, "Elm", 1988.

5. Fərzəlibəyli Ş. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı, "Elm", 1995.

6. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. Bakı, "Şərq-Qərb", 2010.

7. Nəcəfli T. Qaraqoyunlular və Ağqoyunlular Oğuz boylarıdır, 04.11.2021.- 1905.az/tofiq-necefli-qaraqoyunlular-ve-agqoyunlular-oguz-boylaridir/.

8. Nəcəfli T.H. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı, "Çaşoğlu", 2000.

9. Qara Yusif dövrü. haqqinda.az/Dunya+ve +tarix/6884-Qara+Yusif+dövrü.html.

10. Qızılbaşlar tarixi. Bakı, 1993.

11. Rumlu H. Əhsənüt-Təvarix (Tarixlərin ən yaxşısı). Fars dilindən tərcümə: Oqtay Əfəndiyev, Namiq Musalı. Kastamonu, "Uzanlar", 2017.

12. Sümer F. Selçuklular Devrinde Doğu Anadolu Türk Beylikleri. Ankara, 1990.

13. Fisher W.B., Bosworth C.E. Araxes river.-Encyclopaedia Iranica#pt2; -iranicaonline.org/articles/araxes-river#pt2.

14. Fragner B.G. "The Consept of Regionalism in Historical Research of Central Asia and İran (A Macro-Historical İnterpretation)", in: Devin Deweese (ed.): Studies on Central Asian History in Honor of Yuri Bregel. Bloomington/Indiana, 2001.

15. Golden P.B. An İntroduction to the History of the Turkic Peoples. Wiesbaden, 1992.

16. Karakoyunlular. turkcebilgi.com/karakoyunlular; The 15 th century saw the beginning of a more important period in the history of the Azeri Turkish literature. The position of the literary language was reinforced under the Qaraqoyunlu (r.1400-68) who had their capital in Təbriz.-iranicaonline.org/articles/azerbaijan-x.

17. Minorsky V. Jihan-Shah Qara-Qoyunlu and His Poetry (Turkmenica,9). Bulletin of the School of Oriental and African Studies, University of London.-Published by: Cambridge University Press on behalf of School of Oriental and African Studies, 1954,-V.16.

18. Nagendra S. "İnternational encyclopaedia of islamic dynasties". Anmol Publications, 2002.

### *§ 3. Ağqoyunlu sülaləsinin hakimiyyəti. Azərbaycanın xarici əlaqələri.*

Ağqoyunlu sülaləsi XIV əsrin ortalarında siyasi iddialarını ortaya qoydu. Onlar XIII əsrdən başlayaraq Cənubi Qafqazda, Qafqaz dağları ilə Araz çayı arasındakı ərazilərdə, Göyçə gölü ətrafında, Alagöz yaylaqlarında, həmçinin Azərbaycanın Araz çayından cənuba doğru ərazilərində, Şərqi Anadolu, Əcəm İraqı, Dəclə və Fərat çaylarının yuxarı axarlarını əhatə edən ərazilərdə yaşayırdılar [14, s.114; 1, s.95]. Ağqoyunluları tarixdə "Bayandurlar" kimi də təqdim edirlər. Onlar oğuzların bayandur nəslindən idilər. Türk mənbələrində onları "Bayandur xan oğulları", fars mənbələrində "Bayanduriyyə" formasında verirlər [18]. (Bəzi məlumatlara görə, bayandurlar e.ə. IV-III əsrlərdən Azərbaycan ərazilərində yaşayıb).

Ağqoyunlu sülaləsinin tayfa rəhbəri kimi tanınan Pəhləvan bəydən sonra ilk məlum siyasi nümayəndəsi Əlaəddin Turəli bəy (1340-1362) olub, o, kiçik dövlət qurumuna-bəyliyə rəhbərlik edirdi. Turəli bəyin vaxtında onlar Trabzon yaxınlığında bir yaylaqda yerləşmişdilər. Turəli bəy Trabzondakı yunan hakimiyyəti ilə xoş münasibətlər qurdu, nigah diplomatiyasından istifadə edərək, Trabzon hökmdarı III Aleksiosun bacısı Mariyanı 1352-ci ildə oğlu Qutlu bəyə aldı [18]. Ağqoyunlu sülaləsinin yunan hakim ailəsi ilə bu nigah diplomatiyası sonralar da davam etdirilirdi, sülalənin ən görkəmli nümayəndəsi Uzun Həsən də Trabzon hökmdarı IV İohanın qızı Feodora (Dəspinə xatun) ilə evlənmişdi.

Turəli bəyin nəvəsi, Qutlu bəylə Mariyanın oğlu Qara Osman bəyin dövründə (1403-1435) sülalənin bəylik olaraq hakimiyyəti xeyli gücləndi. Əmir Teymurla Osmanlı sultanı İldırım Bəyazid arasındakı qarşıdurmadan məharətlə istifadə edən Osman bəy faktiki olaraq 1396-cı ildən bəyliyə rəhbərlik edirdi. O, Əmir Teymurun tərəfində olmaq qərarına gəldi və 1399-cu ildə onun Qarabağdakı qışlağına gələrək müttəfiqlik təklif etdi. Qara Osman bəy öz qoşunları ilə 1400-cü ildə Əmir Teymurun Anadolu yürüşlərində iştirak etdi, bu yürüşlərin nəticəsi olaraq Malatya, 1401-ci ildə isə Diyarbəkiri və Mardini ələ keçirdi. O, 1402-ci ildə Əmir Teymurun İldırım Bəyazidə qarşı məşhur Ankara döyüşündə də əsas qüvvələrdən biri kimi çıxış etdi, qələbə ilə başa çatan döyüşdən öz payını aldı. Qara Osman bəy mürəkkəb siyasi şəraitdə Teymurilər, Qaraqoyunlular və digər rəqibləri ilə Azərbaycan və qonşu ərazilərdə sərt mübarizəni davam etdirir, bu və digər bölgələri gah nəzarətə götürür, gah da itirirdi. Qara Osman bəy mərkəz Diyarbəkir şəhəri olmaqla bəzi ətraf əraziləri, o cümlədən, indi Ermənistan deyilən Qərbi Azərbaycanın xeyli hissəsini nəzarətində saxlaya bildi [21, s. 79; 18, s. 271; 17, s.260-263; 8, s.100].

Ağqoyunlu sülaləsinin yüksəlişi Uzun Həsənin adı ilə bağlıdır. Onun dövründə imperiyanın ərazisi 1,8 milyon kv.km. təşkil edirdi. Uzun Həsən sülalənin müxtəlif nümayəndələrinin hakimiyyət uğrunda qarşıdurmalarına, iddialarına son qoyaraq, 1451-ci ildə Diyarbəkirdə hakimiyyəti faktiki olaraq ələ keçirdi. Uzun Həsən (1451-1478) dövrünün ən böyük hökmdarlarından birinə çevrildi. O, ilk olaraq sülalədaxili ixtilaflara, ara müharibələrinə son

qoydu, hakimiyyətini möhkəmləndirdi və 1467-ci ildə Muş düzündə (indiki Türkiyənin şərq əyalətlərindən biri) hakim Qaraqoyunlu sülaləsinin hökmdarı Cahanşahı məğlub etdi, Cahanşah təqib zamanı naməlum şəraitdə öldürüldü, az sonra onun müqavimət göstərməyə cəhd edən oğlu Həsənəli də məğlub edildi. Bununla Azərbaycan dövlətinin başına Ağqoyunlu sülaləsi keçdi, Uzun Həsənin hakimiyyəti Azərbaycanın Araz çayından cənuba və şimala doğru bütün ərazilərini, o cümlədən indi Ermənistan deyilən Qərbi Azərbaycanı, həmçinin, Xuzistan, Fars, Kirman vilayətlərini, İraqın bir hissəsini əhatə edirdi [18, s.19; 21, s.145-148]. Dövlətin paytaxtı əvvəlcə Diyarbəkir, 1467-ci ildən sonra isə Təbriz olmuşdur. Azərbaycan türkcəsi və fars dilləri dövlətin rəsmi dili olmuşdur [6, s.36]. Ən iri şəhərləri Ərzurum, Naxçıvan, Kərkük idi. Ağqoyunlu sülaləsinin nümayəndələri özlərini "İran padşahları" adlandırırdılar. Bəzi mənbələr isə onları "İran torpağının Azərbaycan padşahları" və ya sadəcə "Azərbaycan padşahları" kimi qeyd edirlər [22, s. 351; 6, s.212, 227, 231]. Ağqoyunlu sülaləsi Osmanlı və Teymurilərin dövlətləri ilə daim rəqabət aparır, Şirvanşahlar və yeni-yeni formalaşmaqda olan Səfəvilər sülalələri ilə müttəfiqlik edirdi, nigah diplomatiyasını işlədirdi. Uzun Həsən qızı Aləmşahbəyimi (Marta) Səfəvilərin nümayəndəsi Şeyx Heydərə ərə vermişdi, oğlu Yaqub bəyi isə Şirvanşah Fərrux Yasarın qızı Gövhər Sultanla evləndirmişdi. Ağqoyunlu sülaləsi bütün Azərbaycan torpaqlarının birləşdirilməsi, güclü mərkəzi hakimiyyətin formalaşdırılması üçün böyük işlər görürdü, eyni zamanda bu proseslərin başa çatması üçün ciddi zəmin yaradırdı. Uzun Həsən geniş

islahatlar apardı, qanunlar verdi. Onun bu sənədləri "Padşah Həsənin qanunları" adı ilə tanındı. Bu qanunnamə dövlətin bütün sahələrdə fəaliyyətini əhatə edir, güclü mərkəzləşmiş dövlətin qurulmasına xidmət edirdi [4, s.91-106, 184-197].

Mənbələr Azərbaycanda yeni sülalənin hakimiyyətə gəlməsini, yeni hökmdarı, dövlət quruluşunu diqqətə çatdıraraq bildirirlər: "Səltənət Qaraqoyunlu sülaləsindən Ağqoyunlulara keçdi [3, s.37], "Azərbaycanda hökumət Ağqoyunluların əlinə keçdi, Ağqoyunlular İraq və Farsı da Azərbaycana ilhaq edərək, hakimiyyət sürdülər" [19, s.54], "Azərbaycan sultanı Uzun Həsən" [7, s.213], "Azərbaycan hökmdarı Uzun Həsən" [7, s.216], "Azərbaycan hökmdarı Uzun Həsən padşah" [16, s.282], "Həsən padşah Azərbaycan taxtında əyləşərək iqtidar bayrağını ucaltdı [16, s.290], "Yaqub padşah Türkman" [16, s.316]. Həsən padşah əmr və hökmlərini verərkən "Azərbaycanın və xüsusilə hökmdarlıq məkanı Təbrizin hakimlərinə" [2, s.182], "Azərbaycan hakimlərinə" [2, s.183] ifadələrini işlətməklə dövlətin adını və paytaxtını xüsusi vurğulayır.

1468-ci ildə yeni sülalənin hakimiyyətə gəlməsi ölkənin siyasi qüvvələri içərisində rəğbətlə qarşılandı. Ancaq xarici dövlətlərin münasibəti başqa idi. Xorasanda hökmranlıq edən Teymuri Əbu Səid Cahanşahın oğlanlarını müdafiə etmək bəhanəsi ilə Azərbaycana 27 minlik qoşunla yürüşə çıxdı. Güclü rəqiblə yeni savaşa girmək istəməyən Uzun Həsən anası Sara Xatunun başçılığı ilə elçilərini Əbu Səidin yanına göndərərək ona sülh təklif etdi. Ancaq Sara Xatun Əbu Səidi niyyətindən döndərə bilmədi. O, elçiləri hörmətlə qarşılayıb, Uzun Həsənə tac və qızıl kəmərli

qılınc göndərsə də, yürüşü dayandırmaq istəmədi. Sara Xatun dövrünün "mahir diplomat qadını" hesab olunurdu [12, s.48-49]. Güclü diplomat olan Sara Xatun Əbu Səidi öz fikrindən döndərə bilməsə də xeyli gecikdirdi. Əbu Səid Ağqoyunluya qarşı savaşda Teymurilərin ənənəvi müttəfiqi olan Şirvanşahların köməyinə ümid edirdi. Şirvana daha yaxın olmaq üçün Əbu Səid Şimali Azərbaycana, Muğana yürüşə başladı. Ancaq XV əsrin 60-ci illərinin sonunda Azərbaycanda siyasi qüvvələrin mövqeyi və nisbəti dəyişmişdi. Təbrizlə yanaşı, Şamaxı da, Ərdəbil də ölkənin müstəqilliyi uğrunda döyüşmək əzmində idi.

Yaranmış siyasi vəziyyətdən istifadə edərək Uzun Həsən Şivanşah Fərrux Yasarı və Ərdəbil şeyxi Heydəri öz tərəfinə çəkdi. 1468-ci ilin payızında Əbu Səid Araz çayını keçərək Qarabağa gəldi, sonra isə Muğana çəkildi. Müttəfiqlər onu iqtisadi blokadaya aldılar. Qış şəraitində ərzağın və heyvanlar üçün yemin çatışmaması qoşunun dağılmasına gətirib çıxardı [14, s.115]. Əbu Səid sülh bağlamağı təklif etdi. Lakin Uzun Həsən razılıq vermədi və onun üzərinə hücüm etdi. 1469-cu ildə Əbu Səidin qoşunları darmadağın edildi, özü isə əsir götürüldü. Uzun Həsən diplomatik hərəkət edərək Əbu Səidi özü cəzalandırmadı və onu Xorasan şahzadəsi Məhəmməd Yadigara göndərdi. Bir vaxt Əbu Səid onun anasını öldürtdüyü üçün, o da intiqamını alıb Əbu Səidi edam etdi [21, s.177].

Uzun Həsən xarici siyasətə xüsusi önəm verir, Avropa dövlətləri ilə də əlaqə qurmağa çalışırdı. Avropa dövlətləri ilə yaxınlaşmaqla Uzun Həsən aşağıdakı məsələlərin həllinə nail olmaq istəyidi: 1) hərbi qüdrəti ilbəil artan qonşu Osmanlı imperiyasına qarşı xristian ölkələrin simasında

müttəfiqlər qazanmaq; 2) ticarət əlaqələrini genişləndirmək, xüsusilə, Avropa üçün çox vacib olan ipək ixracını təmin etmək, Avropa ölkələri ilə Şərq ölkələri arasında ticarətdə vasitəçiyə çevrilmək və bu missiyanı Osmanlının əlindən almaq; 3) Avropalı hərb mütəxəssislərinin köməyilə ordunu qabaqcıl silahlarla təmin etmək və silah istehsalına başlamaq. Xüsusən, avropalı toptökən ustaların Azərbaycan dövlətinə gətirilməsinə daha çox diqqət verilirdi. Ağqoyunlu ilə Osmanlının maraqlarının kəsişdiyi məsələlərdən biri Trabzon məsələsi idi. Yunanlar hələ Bizans imperiyası dövründə Trabzonu ələ keçirmiş, burada kütləvi məskunlaşmış və imperatorluq yaratmışdılar (1204-1462). 1453-cü ildə II Mehmet İstanbulu fəth etdikdən sonra bir çox Avropa ölkələri də türklərin əlinə keçdi. Cənub-Şərqi Anadolunun böyük hissəsi Osmanlılar tərəfindən tutulduqdan sonra Trabzon imperatorluğu türk əraziləri arasında bir adaya bənzəyirdi. Trabzon imperatorluğu ilə Ağqoyunlu arasında hələ XIV əsrdən dostluq və qohumluq münasibətləri qurulmuşdu. Trabzon həm də Azərbaycanın Qara dəniz vasitəsilə Avropaya çıxışında mühüm rol oynayırdı.

Uzun Həsən II Mehmeti Trabzonu tutmaq fikrindən daşındırmaq üçün anası Sara Xatunun başçılığı ilə onun yanına böyük elçi heyəti göndədi. Sara Xatunun qarşısına iki vəzifə qoyulmuşdu: 1) Sultanın Ağqoyunlu ərazisinə girməsinin qarşısını almaq; 2) onu Tabzon səfərindən daşındırmaq. Sara Xatun II Mehmet tərəfindən Bulqar dağının ətəyində, hərbi düşərgədə yaxşı qarşılanmış, danışıqlar çox səmimi olmuş, onlar bir-birinə “ana-oğul” deyə müraciət etmişdilər. Sara Xatun Sultanın Ağqoyunlu

ərazisinə girməyəcəyi barədə razılığını alsa da, Trabzon üzərinə hücumdan çəkindirə bilməmişdi [20, s.33]. 1461-ci ildə Osmanlı və Ağqoyunlu arasında Yassıçəmən deyilən yerdə hərbi əməliyyatların dayandırılmasına dair sülh müqaviləsi imzalandı. II Mehmet Uzun Həsənin arxadan zərbə vurmayacağına əmin olaraq Trabzon üzərinə qoşun göndərdi və 1461-ci ilin avqustunda şəhəri ələ keçirdi. Trabzon tutulduqdan sonra Ağqoyunlular Qara dənizə yeganə çıxış yolunu itirdilər. Bu, Osmanlı-Ağqoyunlu münasibətlərinin pisləşməsinə səbəb oldu [21, s.167]. Uzun Həsən diplomat kimi davranaraq elçilərlə hədiyyələr göndərib Trabzonun alınması münasibəti ilə Mehmet Fatehi təbrik etdi, ürəyində isə təcavüz və qisas hissini söndürə bilməyib Avropanın xaçpərəst ölkələrinə üz tutdu. Osmanlının ən qatı düşməni olan Venesiya respublikası ilə Azərbaycan arasında anlaşma yarandı. Avropa səyyahları və elçiləri bir-birinin ardınca Uzun Həsənin sarayına gəlməyə başladılar.

Osmanlı dövlətinin zəifləməsində daha çox maraqlı olan Venesiya respublikası Katerino Zeno, İosafat Barbaro, Ambroco Kontarini kimi diplomatlarını Ağqoyunlu sarayına göndərdi. Ağqoyunlu səfirləri İsaq, Hacı Məhəmməd, Mirak, Həsən Əzən, Murad bəy, Xoca Avropa dövlətlərində oldular. Aparılan danışıqlar nəticəsində Osmanlı dövlətinə qarşı ittifaq yaradıldı. Bu ittifaqa Roma Papası, Venesiya respublikası, Genuya respublikası, Neapol krallığı, Macarıstan krallığı, Kipr krallığı, Rodos dövləti, Qaraman bəyliyi və Azərbaycan dövləti daxil idilər. Venesiya Uzun Həsəni hərbi sursatla təchiz etməyi öz üzərinə götürdü [11, s.19-20]. Avropa ölkələri ilə Aralıq dənizi tərəfdən

əlaqələrdə Kiçik Asiyanın cənubunda yerləşən Qaraman bəyliyi böyük əhəmiyyət kəsb edirdi. Buna görə də Uzun Həsən bu bəyliyin müstəqilliyinin qorunub saxlanmasına çox diqqət yetirirdi.

1472-ci ildə Ağqoyunlu ilə Venesiya arasında ittifaq bağlandı və tərəflər qərbdən və şərqdən Osmanlı dövlətinə zərbə vurmağı planlaşdırdı. Bu plan türkləri zəiflətməyə çalışan Avropa dövlətləri üçün də sərfəli idi. Tərəflərin razılığına uyğun olaraq 1472-ci ildə Uzun Həsən Qaraman bəyliyi vasitəsilə Aralıq dənizi sahillərinə çıxdı. Burada o, Venesiyanın vəd etdiyi hərbi mütəxəssisləri və silah-sursat almalı idi. Lakin silah-sursat gəlmədi. Çünki Venesiya ikili siyasət yeridir, Osmanlının ağır daxili vəziyyətindən istifadə edərək onunla gizli danışıqlar aparır, ticarətdə güzəştlər qoparmağa çalışırdı. Ağqoyunlular Osmanlı dövlətinə qarşı Avropa dövlətləri ilə vahid cəbhə təşkil edə bilmədi.

Türkiyə ilə Azərbaycan arasında yeni döyüşlər başladı. İlk döyüş 1473-cü il avqustun 1-də Malatya yaxınlığında oldu. Murad paşanın başçılığı altında Osmanlı qoşununun ön cərgəsi Ağqoyunlu sərkərdəsi Uğurlu Məhəmmədin yalançı geriləməsinə aldanıb pusquya düşdü. Osmanlı qoşununun çoxu qırıldı, Murad paşa özü Fərat çayında boğuldu [13, s.52-53]. Uzun Həsən oğlu Uğurlu Məhəmmədin hücumu davam etdirmək təklifini qəbul etməyərək, qələbədən sonra yeni hücuma keçmədi. Öz qüvvələrini toplayıb nizamlamaq imkanı alan II Mehmet, avqustun 11-də Tərcan yaxınlığında Otluqbeli (Türkiyənin Ərzincan vilayəti) döyüşündə qəti uğur qazandı. Ağqoyunlu ordusu böyük itkilər verdi. İlkin döyüşlərdə

Yusif Mirzə və daha iki oğlunu itirən Uzun Həsənin bu dəfə oğlu Zeynal Mirzə şəhid oldu (Həmin ərazidə 2008-ci ildə iki türk dövlətinin Şəhidlərinin xatirəsinə abidə qoyulub) [15].

Yaranmış vəziyyət Uzun Həsəni ehtiyatlı siyasət aparmağa vadar edirdi. 1475-ci ildə italyan səyyahı Marko Rosso [23] Moskoviya knyazlığı adından Təbrizdə olmuş, Moskva knyazı III İvanın tapşırığı ilə Uzun Həsənlə Qızıl Ordaya qarşı birgə mübarizə aparmaq barədə danışıq aparmışdı. Lakin Qızıl Orda xanı Əhməd ondan əvvəl elçi göndərmiş və Uzun Həsəndən dövlətinin cənub sərhəddini pozmayacağına təminat almışdı [1, s.93]. Gürcü hakimlər də Uzun Həsəndən uzaqlaşmağa başladılar. Onlar Osmanlılara qarşı Ağqoyunlularla birgə mübarizədən imtina etdilər. Ona görə də, Uzun Həsən 1474-1477-ci illərdə Gürcüstana hərbi yürüş etdi və ölkənin çox hissəsini tutdu. 1477-ci ildə VI Baqratla bağlanan sülhə görə Tiflis də daxil olmaqla, Şərqi Gürcüstan Azərbaycan dövlətinə daxil edildi [5, s.110-111].

1478-ci il yanvarın 5-də ömrünün ən yetkin çağında – 54 yaşında Uzun Həsən qəflətən vəfat etdi və Təbrizin "Nəsriyyə" məscidində dəfn edildi. Uzun Həsənin ölümündən sonra hakimiyyətə onun oğlu Xəlil, az sonra isə digər oğlu Yaqub Mirzə (1478-1490) gəldi. O, atasının siyasətini davam etdirərək Şirvanşahlarla dostluq münasibətlərini saxladı. O, Səfəvi şeyxlərini Ağqoyunlular üçün ən böyük təhlükə sayırdı və onları 1488-ci ildə həbs etdirib Şiraz yaxınlığındakı İstəxr qalasına saldırdı. Anasının hazırladığı zəhəri səhvən içən Sultan Yaqub 1490-cı ildə öldü [24, s.519]. Hakimiyyətə oğlu Bəysunqur (1490-1492-ci il-

lər) gəldi. 1492-ci ildə Rüstəm Mirzə Diyarbəkirdə Baysunqurun qoşunlarını məğlub etdi. Baysunqur Şirvana, babası Fərrux Yasarın yanına qaçdı. Hakimiyyət Rüstəm Mirzənin (1492-1497) əlinə keçdi. Ancaq Baysunqur mübarizədən əl çəkməmişdi. Bu qarşıdurmada Rüstəm Mirzə Səfəvilərlə, Baysunqur isə Şirvanşahlarla ittifaqda idi. Rüstəm Mirzə Şeyx Heydərin övladları İbrahim, Sultanəli, İsmayılı İstəxr qalasından buraxdırdı, Səfəvilərlə ittifaq bağladı. 1493-cü ildə Əhər döyüşündə Əbih Sultan və Səfəvi şeyxi Sultanəli tərəfindən Baysunqur məğlub edildi və öldürüldü. Bu qələbədən narahat olan Rüstəm Mirzə 1494-cü ildə Ərdəbil yaxınlığında baş vermiş Şəməsi döyüşündə Səfəvi Sultanəlini məğlub etdi və o, öldürüldü, ancaq İsmayılı ələ keçirə bilmədi. Səfəvi sülaləsinə başçılıq yeddi yaşlı İsmayıla keçdi [10, s.105].

Rüstəm Mirzə 1497-ci ildə ara müharibələrində öldürüldükdən sonra Uzun Həsənin nəvəsi Murad (1497-1498) Qum şəhərində özünü Azərbaycan hökmdarı elan etdi. Lakin onun əmisi oğlu Əlvənd Mirzə də taxt-tac iddiasında olduğunu bildirdi və 1499-cu ildə Təbrizi ələ keçirdi. 1500-ci ildə Əhər şəhərində Əlvəndlə Murad arasında sülh bağlandı. Müqaviləyə əsasən Kürdən Qızıl Üzən çayına, Diyarbəkirə, Dəbilə qədər Azərbaycan torpaqları Əlvənd Mirzəyə, Ərəb İraqı, Fars, Kirman isə Murad Mirzəyə çatdı [14, s.111].

Beləliklə, Azərbaycan dövləti iki hissəyə parçalandı. Buna baxmayaraq, Ağqoyunluların dövründə Azərbaycan nəinki yaxın Şərq, həmçinin Avropa miqyasında ən böyük imperiyalardan biri kimi tanındı.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan tarixi. 7 clddə, III cild (XIII-XVIII əsrlər). Bakı, "Elm", 2007.

2. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, "Çıraq", 2007.

3. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, "Minarə", 2000.

4. Balkan Ö.L. "Osmanlı devrinde hükümdar Uzun Hasan beye ait kanunlar", Tarih Vesikları 1, 1941.

5. Barbaro J. Anadoluya ve İrana seyahat. Çeviri ve notlar: Tufan Gündüz. Yedditepe Yayınevi, İstanbul, 2005.

6. Çelebi E. Günümüz Türkçesiyle Evliya Çelebi Seyahetnamesi. İkinci cild, 1-ci kitab, İstanbul, 2009.

7. Çələbi E. "Səyahətnamə".- Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, "Çıraq", 2007.

8. Erdem İ. "Akkoyunlu devletinin Kurucusu Kara Yülük Osman beyin Hayatı ve Fealiyyetleri". XXXIV/1-2. Ankara, 1990.

9. Fərzəlibəyli Ş. Azərbaycan və Osmanlı imperiyası XV-XVI əsrlərdə (II nəşr). Bakı, Elm, 1999.

10. İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı, APİ-nin nəşriyyatı, 1958.

11. Mahmudov Y. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Ağqoyunlu dövrü (XV əsrin ikinci yarısı). Bakı, "Təhsil", 2007.

12. Mahmudov Y. "Sara Xatun", Azərbaycan diplomatiyası. Bakı, Azərbaycan Universiteti, 1993.

13. Nəcəfli T.H. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı, "Çaşoğlu", 2000.

14. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin əvvəllərinədək). Bakı, "Elm və Təhsil", 2019.

15. "Otlukbeli ilçesinde Açılışlar Zinciri". Gündem 24 (Turkish). 2008-08-17.- www.gundem24.com/News-file-print-sid-3092.html.

16. Rumlu H.B. Tarixlərin ən yaxşısı. Kastamoni, Uzunlar, 2017.

17. Şami N. "Zafername". Çev. Lugal N. Ankara, 1949.

18. Sümer F. "Akkoyunlular", Diyanet İslam Araşdırmaları -islamansiklopedisi.org.tr/ akkoyunlular.

19. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi (ilk dəfə 1924-cü ildə İstanbulda nəşr olunub). Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1992.

20. Walter H. Uzun Hasan ve Şeyh Cüneyd. Çev. Tevfik Bıyıklıoğlu. Ankara, 1992.

21. Woods J.E. 300 Yıllık Türk İmperatorluğu Akkoyunlular, Aşiret, Konfederasyon, İmperatorluk (15. yüzyıl Türk-İran siyaseti üzerine bir inceleme). Çeviren: Sibel Özbudun. İstanbul: Milliyet Yayınları, 1993.

22. Fragner B.G. "The Consept of Regionalism in Historical Research of Central Asia and İran (A Macro-Historical İnterpretation)", in: Devin Deweese (ed.): Studies on Central Asian History in Honor of Yuri Bregel. Bloomington/Indiana, 2001.

23. Контарини А. Путешествие в Персию. Комментарии.- vostlit.info/Texts/rus10/ Kontarini/primtext2.phtml (ком.91).

24. Нефедов С. «Война и общество. Факторный анализ исторического процесса: «История Востока». Москва, Издательский дом «Территория будушего», 2008.

### *§ 4. XIV-XV əsrlərdə Azərbaycanın sosial-iqtisadi həyatı və mədəniyyəti.*

Oğuz türklərindən olan Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hökmdarları padşah titulu daşıyırdılar. Padşahdan sonra dövlətdə ikinci əsas şəxs Əmir-əl-üməra (əmirlər əmiri) idi ki, o da bütün hərbi qüvvələrə rəhbərlik edirdi. Sədrəzəm ruhanilərə başçılıq edir, vəqf vergilərini toplayır, məhkəmə işlərini qaydaya salırdı. Dövlət aparatındakı növbəti vacib şəxs Baş vəzir idi. Onu sahibi-divan da adlandırırdılar. O, şahın möhürünü saxlayır, dövlətin daxili və xarici işlərinə nəzarət edirdi. Ölkə əyalətlərə bölünmüşdü və əyalət canişinləri padşahın varisləri və sülalə üzvlərindən təyin olunurdu. Əyalət divanının hər birində 300 mirzə çalışırdı. Tümən və nahiyə hakimləri tümən və nahiyyələri idarə edirdilər və canişin tərəfindən təyin edilirdilər [6, s. 13-17].

Şirvanşahlar dövlətinin erkən orta əsrlərdən formalaşan ictimai quruluşu XV əsrdə də elə bir əsaslı dəyişikliyə uğramamışdı. Qaraqoyunlu və Ağqoyunlular padşah, bəzən sultan, Şirvanşahlar dövlətində ölkə başçısı şah titulu daşıyırdı [6, s.16-17].

Ordu quruculuğuna xüsusi diqqət verilirdi. Şirvanşahların ordusunda 60 min, Qaraqoyunlu və Ağqoyunlu ordularının hər birində 100 minə yaxın döyüşçü var idi. Ordu iki hissədən ibarət olurdu: əyalətlərdə canişin orduları saxlanılırdı, seçmə döyüşçülər padşahın xüsusi qvardiyasında xidmət edirdilər. Orduda ən ali rütbəli şəxs Əmir idi [11, s.127].

Yaxın Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da ənənəvi "torpaq beşliyi" – çeşidli torpaq sahibliyi qalmaqda idi. Bunlar divan, xassə, mülk, vəqf və soyurqal torpaq sahibliyi idi. Dövlət torpaqları dövlət xəzinəsinə aid torpaqlar idi və iki hissəyə bölünürdü: divan və xassə torpaqları. Bunların arasında yalnız bir fərq var idi ki, divan torpaqlarından yığılan vergilər dövlət xərclərinə yönəldilir, xassə torpaqlarından alınan gəlir padşah ailəsinin və bütünlükdə sarayın saxlanılmasına xərclənirdi. Vəqf torpaqları da 2 yerə ayrılırdı – dini müəssisələrə aid torpaqlar vəqfi-xeyri, ruhanilərin özlərinə aid olan torpaqlar isə vəqfi-əhli adlanırdı. Oturaq əyanların irsi torpaqları mülk adlanırdı. Bu torpaqlar atadan oğula və ya başqa hüquqi varisə keçə bilir, alqı-satqıya qoyulur, istənilən zaman bu və ya başqa bir şəxsə bəxş edilə və hətta hərraca qoyula bilirdi. Bu torpaqlarda oturub, onu becərən kəndlilər mülk sahiblərindən tam asılı idilər. Mülk torpaqlarının böyük hissəsi kənd icmasına verilirdi. Mülklərin ikinci hissəsi sahələr şəklində ayrı-ayrı kəndlilərə icarəyə verilirdi. İcma torpaqlarına görə vergi elliklə ödənilirdisə, icarəyə görə hər bir kəndli özü ayrı-ayrılıqda vergi ödəyirdi. Torpaq sahibliyinin sonuncu, 5-ci forması "soyurqal" moğolların dövründə formalaşmışdı və "bəxşiş" mənasını verirdi. Soyurqal hərbi-köçəri əyanlara xidmət müqabilində verilirdi və irsən nəsildən-nəslə ötürülürdü [5, s.184-185; 3, s.109; 22, s.153-154].

Azərbaycan əhalisi 40-a yaxın vergi və mükəlləfiyyət yerinə yetirirdi. Kəndlilər əkdikləri torpağa görə malcəhət ödəyirdilər ki, bu da məhsulun 20%-ni təşkil edirdi. İstər kənd, istərsə də şəhər əhalisi sudan istifadəyə görə bəhər

vergisi ödəyirdi. Maldarlıq yarımköçəri xarakter daşıyırdı. Maldarlardan çobanbəyi vergisi toplanılırdı. Sənətkarlardan tamğa, tacirlərdən isə bac vergisi alınırdı. Müsəlman olmayanlardan əlavə olaraq cizyə adlanan can vergisi alınırdı [7, s.85].

Suvarma arxlarının və kəhrizlərin çox olması, sıradan çıxanların bərpa olunub istifadəyə qaytarılması istər Cənubi Azərbaycanda, istər də Şimali Azərbaycan torpaqlarında əkinçiliyin, ipəkçiliyin, pambıqçılığın, üzümçülüyün, bağ və bostanların inkişafına yol açdı. Azərbaycan ipəkçiliyi onu nəinki Yaxın və Orta Şərq şəhərləri, həm də Cənubi Avropa dövlətləri ilə sıx bağlayırdı. Şirvanşahlar dövlətində istehsal olunan ipək Venesiyada, Bursada, Dəməşqdə və bir sıra başqa şəhərlərdə satılır, burada ondan gözəl parçalar toxunurdu. O zaman ipək, Azərbaycanı "Böyük ipək yolu"na bağlayan bir vasitə, ölkə ixracının başlıca göstəricisi idi. Azərbaycan ipəyi Rusiyada da satılır, bu dövlət ərazisinə çıxarılan mallar içərisində görkəmli yer tuturdu. Azərbaycanın ipək təsərrüfatı beynəlxalq ticarətdə və ölkələrarası əmək bölgüsündə mühüm iqtisadi amilə çevrilmişdi [9, s.134].

XV əsrdə Şamaxı mühüm ipəkçilik mərkəzinə çevrilmişdi. Kontariniyə görə, Şamaxı ipəyi Venesiyada Talaman ipəyi adı ilə tanınırdı. Şamaxıda çeşidli ipək parçalar istehsal edilirdi. Şirvanşahlar dövlətinin paytaxtı həm də beynəlxalq ipək ticarəti mərkəzlərindən biri olmuşdu. Adı çəkilən Kontarini öz gündəliyində yazmışdır: "Şamaxı Təbriz kimi böyük deyil. Ancaq mənim fikrimcə, hər baxımdan ondan daha yaxşı, yaşayış üçün zəruri olan hər şeylə doludur" [20]. Şamaxı şəhəri və ətrafı təqribən

100-200 hektar sahə tuturdu. Burada beş-on min ev və ya otuz-altmış min əhali yerləşirdi.

Ölkənin başqa qədim şəhəri olan Təbriz isə bütün Yaxın və Orta Şərqin böyük sənət və ticarət mərkəzlərindən biri idi. XV yüzilin sonunda tarixi qaynaqlarda Təbriz şəhərində 200-300 min əhalinin yaşadığı göstərilir [21, s.519; 24, s.57]. Sultaniyyə, Marağa, Ərdəbil, Gəncə, Beyləqan və digər şəhərlər də mühüm rol oynayırdı.

XIII – XV əsrlərdə Azərbaycanda baş verən tarixi hadisələr – moğol hakimiyyəti, XIV əsrin ikinci yarısında siyasi çəkişmələr, XV əsrin müharibələri və s. Azərbaycanda mədəniyyətə böyük ziyan vurmuş, elmin, ədəbiyyatın və incəsənətin inkişafını xeyli ləngitmişdi. Lakin buna baxmayaraq, Azərbaycan xalqı öz mədəniyyətini inkişaf etdirirdi. XIII – XV əsrlərdə təhsil sisteminin əsasını məktəb və mədrəsələr təşkil edirdi. Məktəblər əsasən ibtidai təhsil verir, burada şəriətin əsasına, dini ehkamlara, Quran oxunmasına xüsusi diqqət yetirilirdi. Yetim uşaqlar üçün "Dar üli-tam" (Yetimlər evi) və "Beyt üli-təlim" (Təlim evi) yaradılmışdı. Bu məktəblərdə 10 uşağa 1 tərbiyəçi – atabəy düşürdü. Məzhər təhsil forması da var idi (şagirdlər müstəqil hazırlaşır və arada müəllimlərdən məsləhət alırdılar). Mədrəsələr isə orta təhsil verirdi. Mədrəsədə dini təlimdən başqa tarix, dil, ədəbiyyat, riyaziyyat, coğrafiya, astronomiya və sair dünyəvi elmlər tədris olunurdu. Mədrəsədə iki müdərris (müəllim) çalışırdı. Biri dini, o biri dünyəvi fənlərdən dərs keçirdi. Mədrəsədə təhsil şəxsi hesabdan və yaxud vəqf gəlirlərindən ödənilirdi [9, s.135].

Azərbaycan maarifinin və elminin inkişafında Təbrizin "Rəb-i Rəşidi" məhəlləsində yerləşən ali mədrəsə Bağdadın "Nizamiyyə" ali mədrəsəsindən sonra Şərqdə ali təhsil verən ikinci, Azərbaycanda isə birinci ali təhsil ocağı idi. Bu mədrəsəni Fəzlullah Rəşidəddin təsis etmişdi. Burada 500 müəllim 7000 tələbənin təlim və tərbiyəsi ilə məşğul olurdu. Tələbələrin 6 min nəfəri müxtəlif ölkələrdən idi. Dövlət hesabına fəaliyyət göstərən bu mədrəsədə ilahiyyat, astronomiya, təbiətşünaslıq, təbabət, tarix, məntiq və sair fənlər öyrədilirdi. Bu darülfünunun (ərəbcə "dar"-ev, "fünun"-fənlər) (universitetin) kitabxanasında 60 min kitab var idi [16, s.42].

XIII-XV əsrlərdə Azərbaycanda elm sahəsində böyük irəliləyiş oldu. Görkəmli astronom-alim Nəsrəddin Tusi 1259-cu ildə Marağa rəsədxanasının əsasını qoydu. Burada dünyanın müxtəlif ölkələrindən gəlmiş alimlər çalışırdılar. Başqa bir rəsədxana Təbrizin Şam-Qazan məhəlləsində fəaliyyət göstərirdi. Nəsrəddin Tusi (1201-1274) müxtəlif elm sahələrinə aid bir çox əsərin müəllifidir. Bunlardan "Zic-elxani" ("Elxani cədvəlləri"), "Əxlaqi-Nasir" və başqaları xüsusi əhəmiyyət kəsb edir. Şəmsəddin Übeyd Təbrizi "Hesab" kitabının müəllifi idi. Filosof Mahmud Şəbüstəri "Sirlər gülşəni", "Şəhadətnamə" əsərlərini yazmışdı [18, s.18; 10; 13, s.43].

Bu dövrdə tarixi əks etdirən bir sıra qiymətli əsərlər yazılmışdır. Fəzlullah Rəşidəddin 14 əsər yazaraq tarixlər toplusu yaratmışdı. Bu əsərlər içərisində "Cami ət-təvarix" ("Tarixlər toplusu") [23, s.7], "Oğuznamə" [25, s.4-13] xüsusi yer tutur. XIV əsrdə yaşamış Məhəmməd ibn Hinduşah Naxçıvaninin "Dəstur əl-katib" ("Katibin göstəriş-

ləri...") əsəri Azərbaycanın ictimai-siyasi quruluşunu öyrənməkdə mühüm rol oynayır. Nizaməddin Şami Əmir Teymurun yürüşləri haqqında, Gəncəli Kirakos isə XIII əsr hadisələri və albanlar haqqında qiymətli məlumtlar vermişlər [14, s.286].

Azərbaycan ədəbiyyatı da inkişaf etmişdi. XIII əsrdə "Şərqin məna dənizi", "Mürşidi- Kamil" adlandırılan filosof, şair, yazıçı Şəmsəddin (Şəms) Təbrizi bir çox əsərlər yazmışdır [12, s.191]. O, "Məqamat" əsəri ilə bütün Şərqdə məşhur idi [2, s.505]. Azərbaycan-türk dilində ədəbiyyat daha çox inkişaf etmişdi. İzzəddin Həsənoğlu (XIII əsr) Azərbaycan türkcəsi və fars dillərində divan yaratmışdı. Azərbaycan dilində klassik poeziyanın ilk nümunələri yaradılmışdı. Həsənoğlu "Apardı könlümü" rədifli şerində bu günkü Azərbaycan türkçəsi ilə tam səsləşən nümunəni görürük: Apardı könlümü bir xoş qəmərüz canfəza dilbər,

Nə dilbər? Dilbəri-şahid. Nə şahid? Şahidi-sərvər. Başqa bir şerində isə daha sadə dildə hisslərini ifadə edir: Necəsən gəl, ey yüzü ağım bənim?

Sən əritdin odlara yağım bənim [4, s.179,180]. 1233-cü ildə şair Əli Azərbaycan dilində "Yusif və Züleyxa" mövzusunda "Qisseyi-Yusif" adlı əsər yazmışdır [1, s.165]. XV əsrdən başlayaraq Azərbaycan ədəbiyyatında fars dilində yazılan əsərlərin sayı azalır, ana dili – Azərbaycan türkcəsində yazan şairlərin sayı artırdı. Qaraqoyunlu və Ağqoyunluların dövründə dövlət dili Azərbaycan dili idi və hökmdarlar ana dilində yazılan əsərlərə üstünlük verirdilər. Azərbaycan dilində yazıb yaradan şairlərdən Kişvəri, Həbibi, Nəsimi, Cahanşah Həqiqi, Şah Qasım Ənvarı göstərmək olar. Kişvəri və Həbibi Ağqoyunlu Sul-

tan Yaqub Mirzənin sarayında ən hörmətli şairlər idilər. XV əsr ədəbiyyatının ən görkəmli nümayəndəsi İmadəddin Nəsimidir. Nəsiminin yaradıcılığında insan problemi mərkəzi yer tutur. Azərbaycan, fars və ərəb dillərində yazıb yaradan Nəsimi əsərlərinin böyük hissəsini, o cümlədən 12 min misradan ibarət divanını öz ana dilində - Azərbaycan türkcəsində yazmışdır [19].

XIII-XIV əsrlərdə memarlıq xeyli inkişaf etmişdi. Moğolların dağıtdığı bir çox şəhərlər yenidən bərpa olunmuşdu. 1239-cu ildə Gəncənin bərpasına başlandı. Qazan xan Muğanda Mahmudabad şəhərini saldırdı. Əbədi paytaxt olan Təbriz böyüyür və genişlənirdi. Burada "Arquniyyə", "Qazaniyyə", "Rəb-i Rəşidi" kimi yeni məhəllələr salındı. Elxani vəziri Tacəddin Əlişahın Təbrizdə tikdirdiyi "Əlişah məscidi" sonralar "Ərk qalası" adı ilə müdafiə qalasına çevrilmişdi. Abşeronda Mərdəkan, Nardaran, Ramanı qalaları dövrün memarlıq abidələri idi. Bu dövrdə türbələrin tikintisinə geniş yer verilirdi. Naxçıvanda Cuğa kəndində Gülüstan türbəsi, Sultaniyyədə Şərq türbələrinin incilərindən sayılan Olcaytu Xudabəndə türbəsi (1305-1313), 1322-ci ildə Bərdə türbəsi, Qarabağlar kəndində (Naxçıvan) Hülaki xanın arvadı Quti xatunun şərəfinə tikilmiş türbə gözəl memarlıq nümunələridir. XIV əsr memarlıq abidələrindən biri də Bərdə körpüsüdür. 16 gözdən ibarət olan bu körpünün uzunluğu 170, eni isə 5 metrdir [14, s.297-304].

XV əsrdə də bir sıra görkəmli memarlıq abidələri yaradıldı. Bunlardan Bakıda Şirvanşahlar Saray kompleksinin binalarından birini – divanxananı, "Bayıl daşları"nı, Mərdəkan qalasının kitabəsini, Qaraqoyunlu Cahanşah tərəfindən Təbrizdə inşa etdirilən "Göy məscid"i (1465),

Ağqoyunlu Sultan Yaqub Mirzənin əmri ilə tikilən "Həşt behişt" (1483) saray kompleksini, "Həsən padşanın camesi"ni, "Nəsriyyə" və "Məqsudiyyə" mədrəsələrini göstərmək olar [8, s.163].

Görkəmli musiqişünas Səfiəddin Urməvi (1230-1294) "Kitab əl-ədvar" ("Musiqi dövrləri haqqında kitab") əsərini yazmışdır. XV əsrdə Azərbaycanda yetişmiş ən mahir musiqiçilərdən Əbdülqadir Marağaini (1353-1445) göstərmək olar. Onun yaratdığı mahnılar, muğamlar, rəqs melodiyaları Yaxın və Orta Şərq mədəniyyətinə böyük təsir göstərmişdir. Əbdülqadir Marağai ilk dəfə 12 əsas muğamdan törəmə 24 şöbə sistemini elmi cəhətdən əsaslandırmış, musiqi mətnləri və Azərbaycan dilində şeirlər yazmışdır [17, s.29]. Dövrün tanınmış rəssamı təbrizli Əmir Dövlətyar rəssamlıq məktəbi yaratmış, onlarla rəssam yetişdirmişdi [15, s.65].

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan Sovet Ensiklopediyası, IV cild. Bakı, "Elm", 1980.

2. Azərbaycan Sovet Ensiklopediyası, X cild. Bakı, "Elm", 1987.

3. Azərbaycan tarixi. 7 cilddə, III cild (XIII-XVIII əsrlər). Bakı, "Elm", 2007.

4. Ercan Ö. Azeri şair Hasanoğlunun bir gazeline... nazireler. 12. Turkish Studies (Elektronik). 2017.

5. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, "Şərq-Qərb", 2007.

6. Fərzəlibəyli Ş. XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı, "Elnur-P", 2003.

7. Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarüx" əsəri üzrə). Bakı, "Elm", 1983.

8. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, "Azpoliqraf", 2008.

9. Qəniyev H. Azərbaycan tarixi. Bakı, "Elm və təhsil", 2019.

10. Marağa rəsədxanası. – guneyazerbaycan4.blogspot.com /2012/10/ maragarsdxanas. html.

11. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Bakı, "Elm və təhsil", 2019.

12. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhəri. Bakı, "Elm" 1982.

13. Özgüdenli O.G. Gazan Han ve Reformları (1295-1304). İstanbul: Kaknüs yayınları, 2009.

14. Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, "Nurlan", 2003.

15. Toğan Ə.Z.V. Azərbaycan. (Azərbaycan dilində çapa hazırlayanlar: Mirzə Ənsərli (Ləmbəli), Tofiq Nəcəfli) Bakı, "Ocaq", 2007.

16. Yaşar M. Reşiduddin Fazlullahın Camiu`t-Tevarih isimli eserinin Harezmşahlar kisminin tercume ve değerlendirilmesi. İstanbul, İstanbul Universitesi sosial bilimler enstitüsü, 2008.

17. 100 böyük türk. (Azərbaycan dilinə tərcümə edən Sabir Adil. Redaktoru: Məlik Allahverdiyev) Bakı, "Elm", 1991.

18. Zakirqızı A. (Məmmədova). Nəsrəddin Tusinin dünyagörüşü. Bakı, "Elm", 2000.

19. Azeri Turkish.- iranicaonline.org/articles/azerbaijan-viii.

20. Контарини А. Путешествие в Персию. Параграф 14.- vostlit.info/Texts/rus10/ Kontarini/frametext1.htm.

21. Нефедов С. «Война и общество. Факторный анализ исторического процесса. История Востока». Москва, изд. Дом «Территория будущего», 2008.

22. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане… Ленинград, изд-во ЛГУ, 1949.

23. Петрушевский И.П. Рашид-ад-дин и его исторический труд// Рашид-ад-дин. Сборник летописей. Москва-Ленинград: Изд-во АН СССР, 1952, т.1 кн.1.

24. Хождение за три моря Афанасия Никитина. Ленинград, Наука, 1986.

25. Шукюрова Р.М. Введение в «Огузнаме». Баку, «Элм», 1987.

# VIII fəsil. Azərbaycan imperiyası Səfəvi və Əfşar sülalələri dövründə (XVI-XVIII əsrin birinci yarısı)

## *§ 1. Səfəvilərin hakimiyyətə gəlməsi və hökmranlığı. Şah I İsmayıl.*

Səfəvilər sülaləsi Azərbaycanın dövlətçilik tarixində yeni mərhələnin başlanğıcını qoydu. Onların dövründə (1501-1736-cı illər) Azərbaycan dövləti böyük imperiyaya çevrildi, 3,5 milyon kvadrat kilometr ərazini, o cümlədən Azərbaycanın Araz çayından şimala və cənuba, həmçinin qərbə doğru indi Ermənistan adlanan bütün ərazilərini, indiki İran, Gürcüstan, Türkmənistan, Əfqanıstan, İraq, Şərqi Türkiyə, Küveyt, Bəhreyn, Pakistanın bir hissəsini, Özbəkistanın cənubunu, Suriyanın şərqini, Rusiyanın Dərbənd bölgəsini əhatə edirdi. Orta əsr mənbələrində bu dövr Azərbaycan dövləti daha çox Qızılbaş dövləti kimi təqdim olunurdu [21, s.254-255; 14, s.34]. Dövlətin paytaxtları Təbriz (1501-1555), Qəzvin (1555-1598), İsfahan (1598-1736) şəhərləri olub.

Səfəvilər yerli Azərbaycan türk sülaləsi idi [12, s.109; 17, s.345-357]. Dövlətdə Azərbaycan türkcəsi geniş şəkildə istifadə olunurdu, bu dili türk, bəzən isə Qızılbaş türkcəsi adlandırırdılar. Alman səyyahı Adam Oleari Şah I Səfinin (1629-1642) vaxtında Azərbaycana səfəri ilə bağlı yazılarında bildirir ki, Səfəvi sarayında yalnız türk dilində danışırdılar, nadir hallarda fars dilində danışana rast gəlmək olardı, ona görə də farsların əksəriyyəti türk dilini öyrənirdilər [16].

Səfəvilər təriqətinin və sülaləsinin əsasını Şeyx Səfiəddin Musəvi qoymuşdur (1252-1334) və təriqət də öz adını "Səfiəddin" adından götürmüşdür. Səfiəddinin ata-babaları Səlcuqlu sultanlarının soyundan və Qınıq boyundan olmuşlar. Onlar təmiz türk mənşəli nəsil idilər [20, s.748]. Şeyx Səfiəddin Ərdəbilin Kəlxuran kəndində 1252-ci ildə anadan olmuşdu. Nəsli və özü türk idi. Hamı ona Piri-türk, türk müqəddəsi, türk gənci, türk oğlu deyirdi, özünü "türkzadə"- türk oğlu adlandırırdı. O, 20 yaşında təhsil almaq üçün Şiraza gedib, orada bir çox alimlər, tanınmış şəxslərlə görüşüb, onu hörmətlə qarşılayıb, "Türk piri" deyə müraciət ediblər. O, həmçinin Şərqin böyük şairlərindən Sədi Şirazi ilə görüşüb, məşhur şair onun ağlına, əqidəsinə heyran olur, "Türk piri" deyərək, öz divanının bir nüsxəsini ona təqdim edir, lakin Şeyx Səfiəddin onun hədiyyəsini qəbul etmir və bildirir ki, "Tanrının divanından könlüm o qədər doludur ki, özgənin divanı onda sığmaz" [10, s.73]. O, 5 il Şirazda qaldıqdan sonra təhsilini davam etdirmək üçün Gilana, dövrün tanınmış alimi Zahid Gilaninin yanına gedib, orada mükəmməl təhsil alıb. Az sonra müəllimin qızı Bibi Fatimə ilə evlənib. Zahid Gilaninin vəfatından sonra, 1294-cü ildə Ərdəbilə qayıdıb, Səfəviyyə təriqətinin əsasını qoyub. Şeyx Səfiəddin 7-ci imam Musa əl-Kazımın 21-ci nəslindən hesab edilir. Onların nəslindən Ərdəbilə gələn ilk şəxs Şeyxin 4-cü babası Firuzşah olub. Ondan sonra Əvəz, Məhəmməd, Səlahəddin, Əminəddin və nəhayət, Səfiəddin olub. Şeyx Səfiəddin Azərbaycan türkcəsində bu gün də tam başa düşülən şerlər yazıb. Məsələn, "Göy güldü, bulud ağladı", "Yazdım sənə səndən şikayətlər", "Çağırdım qatı avaz

ilə" kimi misralarla başlayan şerlərini göstərmək olar [8, s.24,26].

XIV yüzilin ikinci yarısında Səfəvi təriqət qurumunun ictimai siması dəyişikliyə uğradı, təriqət başçısı şeyx böyük torpaq sahibinə çevrildi. Şeyx Səfiəddinin oğlu Şeyx Sədrəddin (1334-1392) böyük torpaq sahiblərindən idi. Şeyx Xacə Əli (1392-1429) və Şeyx İbrahim (1429-1447) artıq Ərdəbilin hakimlərinə çevrilmişdilər. Tərəfdarlarının artması XV əsrin ortalarından Səfəvilərə siyasi hakimiyyət uğrunda mübarizə aparmağa imkan verdi. İlk dəfə siyasi hakimiyyət uğrunda mübarizəyə başlayan Şeyx İbrahimin oğlu Şeyx Cüneyd (1447-1460) oldu. Səfəvilərin nüfuzunun artmasına görə Qaraqoyunlu hökmdarı Cahanşah özü onlara meyl etmiş, hətta şiəliyi dövlət səviyyəsində dəstəkləməyə başlamışdı. Ancaq Şeyx Cüneydə dini təəssübkeşlik lazım deyildi. Onu maraqlandıran siyasi hakimiyyət idi. Səfəvilərin siyasi fəallığı Cahanşahı narahat etməyə başladı və Cahanşah Şeyx Cüneydin Ərdəbildən çıxmasını tələb etdi. Şeyx Cüneyd tərəfdarları ilə bir müddət Türkiyədə fəaliyyət göstərdi [2, s.883] və 1456-cı ildə Diyarbəkirə, Qaraqoyunlunun düşməni Uzun Həsənin yanına gəldi. Hətta Uzun Həsənin bacısı Xədicə Bəyimlə evləndi.

Fəal siyasət yeritmək və söz sahibi olmaq üçün Səfəvilərə hərbi qüvvə və maliyyə vəsaiti lazım idi. Maliyyə vəsaiti əldə etməyin ən tez yolunun hərbi qənimət olduğunu yəqin edən Səfəvilər "çərkəzlər arasında din yaymaq" şüarı ilə Azərbaycanın şimal bölgələrinə və Dağıstana yürüşlərə başladılar. "Qəzavət" bayrağı altında təşkil olunan bu yürüşlər Şirvanşah I Xəlilullahın razılığı ilə həyata ke-

çirilirdi. Əslində Şeyx Cüneydin əsas məqsədi Şirvanı ələ keçirmək idi. Şeyx Cüneydin yürüşünün əsas məqsədini başa düşən I Xəlilullah ona qarşı qoşunla çıxdı və 1460-cı ilin martında Samur çayı yaxınlığında baş verən döyüşdə Səfəviləri məğlub etdi və Şeyx Cüneydi öldürdü [5, s.101-102]. Məzarı indiki Qusar rayonu Həzrə kəndində yerləşir.

Şeyx Heydər (1460-1488) atası Şeyx Cüneydin siyasətini davam etdirdi. O, təriqətin hərbi gücünü artırdı. Azərbaycan, Anadolu və Şamda yaşayan Əfşar, Qacar, Zülqədər, Təkəli, Ustaclı, Şamlı, Rumlu kimi türk tayfalarına arxalanmağa başladı. Hərbi baxımdan güclənmiş olan Şeyx Heydər tarixə ayrıca bir təriqət atributu gətirdi, Qazi və sufi dəstələrini qızılbaş adı altında birləşdirdi. (12 imamın şərəfinə başlarına 12 qızılı zolaqdan ibarət çalma bağladıqlarından bütün Səfəvi təriqət adamları "qızılbaşlar", təriqətin sonra rəhbərlik etdiyi dövləti isə bəzi hallarda "Qızılbaş dövləti" adlandırmışlar) [1, s.296].

Şeyx Heydər ilk növbədə Ağqoyunlularla münasibətləri yaxşılaşdırdı, dayısı Uzun Həsənin qızı Aləmşah Bəyim ilə (Marta) evləndi. Şeyx Heydər də ata-babalarının siyasətini davam etdirərək Şimali Qafqaza yürüşlər təşkil etdi. Bu yürüşlər, təbii ki, Ağqoyunlu hökmdarı Sultan Yaqubun icazəsi ilə həyata keçirilirdi. Səfəvi dəstələrinin Şirvandan keçirilməsi isə Şirvanşah Fərrux Yasarla razılaşdırıldı. Şeyx Heydər 1483-1487-ci illərdə Dərbənddən Kabardaya qədər ərazilərə yürüşlər etdi və çoxlu qənimətlə geri döndü. Bu yürüşlər Fərrux Yasarda narahatlıq yaratdı. Sultan Yaqub da hərbi gücü artan Şeyx Heydərə təhlükə mənbəyi kimi baxırdı. 1488-ci ildə Şeyx Heydər yenə anası Xədicə bəyimi işə qatıb Sultan Yaqubdan 3-cü

yürüşə icazə aldı. Sultan Yaqub icazə verdi, amma onun üzərinə qoşun da göndərdi. Süleyman bəy Bicanoğlunun başçılığı altında göndərilən 4 minlik Ağqoyunlu atlı qoşunu ilə Şeyx Heydərin qoşunu arasında 9 iyul 1488-ci ildə qanlı toqquşma oldu. Tabasaranda (Dağıstanın Tabasaran və Dərbənd rayonları) baş verən bu döyüşdə Ağqoyunlu tərəfində Şirvan qoşunları da iştirak edirdilər. Boğazından oxla vurulan Şeyx Heydər öldürüldü [23, s.92-95]. Şeyx Heydərin dəfn yeri ilə bağlı müxtəlif fikirlər var. Bəzi məlumatlara görə, o, ilk dəfə Azərbaycanın Xızı rayonu və ya Dağıstanın Tabasaran bölgəsində dəfn olunmuş, Şah I İsmayılın vaxtında isə nəşi Ərdəbilə aparılaraq, ya Ərdəbilin özündə, ya da Ərdəbil bölgəsinin Meşkinşəhr şəhərində yenidən dəfn olunub. Səfəvilərin bu uğursuzluğundan sonra Sultan Yaqub Ərdəbili tutdu, Şirvandan canını qurtarıb qayıdan təriqət qazilərinin sağ qalanlarını dağıdıb məhv etdi. Şeyx Heydərin oğlanları – Sultanəli, İbrahim və İsmayılı həbs etdirib Şirazda İstəxr qalasına saldırdı.

1490-ci ildə Sultan Yaqub öldü, hakimiyyətə oğlu Baysunqur gəldi. 1490-1492-ci illərdə hakimiyyətdə olan Baysunqur da Səfəvilərə qarşı sərt mövqe tutdu. Uzun Həsənin başqa bir nəvəsi Rüstəm Mirzə 1492-ci ildə Baysunquru məğlub edərək hakimiyyətə gəldi və Səfəvi şeyxlərini həbsdən azad etdi ki, Baysunqurla mübarizədə onlardan istifadə etsin. Rüstəm Mirzə Ərdəbil hakimliyini Səfəvilərə qaytardı. 1493-cü ildə Sultanəlinin və Ağqoyunlu Əmir Əbih Sultanın birləşmiş qoşunları Əhər yaxınlığında baş verən döyüşdə Baysunqurun qoşunlarını darmadağın edib, özünü də öldürdülər. Öz əli ilə siyasət meydanına çıxardığı Sultanəlinin nüfuzunun artması

Rüstəm Mirzəni narahat etməyə başladı. Sultanəli bu təhlükəni hiss edərək 1494-cü ildə müridlərin Sarıqamış yığıncağında azyaşlı İsmayılı Səfəvi təriqətinin başçısı elan etdi və Ərdəbilə göndərdi [3, s.36]. Özü isə Ağqoyunlu ilə döyüşə hazırlaşmağa başladı. 1494-cü ildə Ərdəbil yaxınlığında, Şəməsi döyüşündə Sultanəlinin dəstələri Rüstəm Mirzənin qoşunları ilə üz-üzə gəldi və Sultanəli döyüşdə öldürüldü. Rüstəm Mirzə Ərdəbili ələ keçirdi, İsmayılın axtarışını elan etdi. Müridlər İsmayılı bir müddət Ərdəbildə gizlətsələr də, sonra daha etibarlı yerə Gilanın (İndiki İranda mərkəzi Rəşt şəhəri olan vilayət) Biyəriş vilayətinin hakimi Mirzə Əlinin yanına apardılar [5, s.112-113].

XV yüzilliyin son illərində Bayandur (Ağqoyunlu) şahzadələri arasındakı çəkişmələrdən, savaşlardan əziyyət çəkən və nəticədə mərkəzləşdirilmiş dövlətə böyük ehtiyac hiss edən Azərbaycan xalqının Səfəvi şeyxi İsmayıla rəğbəti gündən-günə artırdı. 1499-cu ilin avqustunda 13 yaşlı İsmayıl Gilanı (Lahicanı) yeddi nəfər türk qızılbaş qazisi – Hüseyn bəy Lələ Şamlı, Əbdüləli bəy Dədə Talış (Dədə bəy), Xadim bəy Xüləfa Talış, Rüstəm bəy Qaramanlı, Bayram bəy Qaramanlı, İlyas bəy Xunuslu və Qarapiri bəy Qacar ilə tərk etdi [15, s.85]. Xalxala (Ərdəbil vilayətində mahal) yaxınlaşarkən İsmayılın başına toplaşan qızılbaş döyüşçülərinin sayı artıq 1500-ə çatdı. İsmayıl öz atlıları ilə birlikdə qışı Astara yaxınlığındakı Ərçivanda keçirdi. 1500-cü ilin yazında Anadoludakı tərəfdarlarına qovuşmaq üçün buradan Ərzincana getmək qərara alındı. Ərzincana çatdıqdan sonra İsmayılın artıq 7000 qazisi var idi. Bunlar Ustaclı, Şamlı, Rumlu, Təkəli, Afşar, Qacar, Varsaq tayfalarından olan gənclər, habelə «Qaradağ (Qa-

racadağ) sufiləri» idilər [7, s.355-359]. “Qaradağ sufiləri” deyilən birlik Azərbaycan türklərinin tayfa ittifaqı idi.

Qızılbaş bəyləri içərisində dərhal Şirvanşah Fərrux Yasara qarşı yürüş keçirmək istəyənlər üstünlük qazandılar. Yürüşə 14 yaşlı İsmayıl özü başçılıq edirdi. O, Kür çayının «Qoyun ölümü» adlanan çətin keçidini at üzərində ilkin olaraq özü keçdi. Bununla o, tərəddüd edənləri ruhlandırdı. Qızılbaşların 7 minlik qoşununun yaxınlaşmasını eşidən Şirvanşah Fərrux Yasar Qəbələdə əsgəri hazırlıq işinə girişdi. Qızılbaşlar 1500-cü ilin payızında Şamaxını tutub Şirvanşaha Gülüstan qalasına girməyə macal verməyib Cabanıdə onun 20 min atlı və 6 min piyadadan ibarət olan qoşununu darmadağın etdilər. Buğurd qalasına qaçıb gizlənmək İstəyən Fərrux Yasar qızılbaş döyüşçülərinin əlinə keçib öldürüldü [13, s.45]. Bir neçə gün İsmayıl döyüş yerində qaldı. Şamaxıya qayıtdıqda şəhər varlıları onu qarşılamağa çıxdı, tabe olduqlarını bildirdilər. Muğanda Mahmudabad (indiki Salyan rayonu ərazisində) yaxınlığındakı qışlağa gedən İsmayıl, Məhəmməd bəy Ustaclu və Ilyas bəy Xunuslu başda olmaqla Bakını tutmaq üçün qoşun göndərdi. Şirvanşahların ikinci paytaxtı sayılan Bakı qalası Qızılbaş elçilərinə xərac verməkdən boyun qaçırdı. Bakıda güclü müqavimət göstərilməsi İsmayılı 1501-ci ilin yazında Muğandan buraya yürüməyə məcbur etdi. O, qalanın qapıları, divar və bürcləri ilə tanış olub danışıq yolu ilə qalanın təslim edilməsinə çalışdı. Bakı qalabəyi Fərrux Yasarın oğlu Qazi bəy idi. O, əlçatmaz dağ qalalarını döyüşlərə hazırlamaq üçün göndərildiyindən Bakının müdafiəsinə onun arvadı Şahbəy xatun başçılıq edirdi. Bu qadın İsmayılın əmri ilə qalanın təslim olunması barədə

tələb gətirən elçini öldürtdü. Onu bu işdən çəkindirməyə çalışan Bakı darğası Əbdülfəttah bəyi də edam etdirdi [6, s.161]. İsmayılın əmri ilə qala bürclərinin birinin altından böyük lağım atıldı. Bürc uçsa da, yerli döyüşçülər yenə də müqavimət göstərirdilər. Nəhayət, qızılbaşlar onların müqavimətini qırıb şəhərə daxil oldular. Bakı əyanlarından 70 nəfəri əllərində Quran İsmayılın ayağına gəldikdən sonra şəhərdə qətl və qarətə son qoyulması haqda əmr verildi.

Qızılbaşlar buradan Gülüstan qalasını mühasirə edənlərin köməyinə yollandılar. Bu qala ərzaq və yaraq ehtiyatı baxımından çox güclü olduğu üçün qızılbaşlar mühasirəni dayandırmalı oldular. Mənbələr Səfəvilərin Azərbaycanda hakimiyyətə gəlmək uğrunda mübarizəsi və Gülüstan qalası ilə bağlı vəziyyəti bir qədər mifləşdirə, daha çox obrazlaşdıraraq vurğulayır ki, "Gülüstan qalasının mühasirəsi vaxtı qeyb aləmindən xəbər gətirən mələk o həzrətə (İsmayıla.- A.N.) Azərbaycanın səltənət taxtına və padşahlığına yetişmək müjdəsi verdi" [6, s.83]. Ağqoyunlu Əlvənd Mirzənin böyük qüvvə ilə hərəkət etdiyini eşidən İsmayıl Gülüstan qalasının mühasirəsini dayandırdı, hərbi müşavirə çağırdı, qızılbaşlara üz tutub soruşdu: «Sizin istəyiniz nədir? Azərbaycan taxtı, yoxsa Gülüstan qalası?» Onlar söylədilər: «İstədiyimiz Azərbaycandır». Bu cavab Şirvandakı əməliyyatların dayandırılması və Ağqoyunlu yürüşünün qarşısının alınması barədə hökm verilməsi demək idi. Sürətlə Kürü keçən qızılbaş qoşunu, Naxçıvana çatmış Əlvənd Mirzəyə qarşı yönəldi. Bu zaman İsmayılın qızılbaşlarının sayı 7000, Ağqoyunlu qoşunu isə 30.000 nəfərdən ibarət idi. Həlledici döyüş 1501-ci ilin

yayında Şərur düzündə oldu. Ağqoyunlu ordusu məğlub oldu. Əlvənd Mirzə özü Ərzincana qaçdı. O, bir müddət Diyarbəkirdə hakimiyyəti ələ keçirdi, sonra 1505-ci ildə Mardində vəfat etdi. Böyük qənimət ələ keçirən qızılbaşlar Təbrizə yol aldılar. İsmayıl 1501-ci ilin payızında təntənə ilə Təbrizə gəlib özünü şah elan etdi. Beləliklə, Azərbaycanda Səfəvi sülaləsi hakimiyyətə gəldi. Azərbaycan Şahlıq sülaləsinin yaradıcısı İsmayıl hakimiyyətə Ağqoyunlu hökmdar irsinin davamçısı kimi gəldi. O, parlaq zəka sahibi, istedadlı hökmdar və söz sahibi olmuşdur. Onun hakimiyyəti Azərbaycan türk xalqının tarixi dövlətçilik ənənəsinə söykənirdi. Yerli müəlliflər və italiyalı səyyahlar Şah İsmayılın ağbəniz, yaraşıqlı, orta boylu, enli kürək, şabalıdı saçları, solaxay olduğunu, bığ saxladığını qeyd edirlər. Osmanlı Sultanı I Səlim onu əfsanəvi türk hökmdarı Əfrasiyab ilə eyniləşdirirdi. O, öz dövründə “Türküstan piri”, “Azərbaycan türklərinin başçısı” kimi də təqdim olunurdu [5, s.274-275]. Dövlətin banisi İsmayıl 1500-cü ildə Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirməyə başladı, 1501-ci ildə Bakı, Şamaxı və Təbrizi tutduqdan sonra Azərbaycan şahı titulunu, 1502-ci ildə isə İran şahı titulunu qəbul etdi [18, s.321-354]. İran adı dövlətin xarakterini müəyyən etmirdi. Şah İsmayılın hədəfi məhz qüdrətli Azərbaycan dövləti idi. XVI əsr Osmanlı müəllifləri Osmanlıların hakimiyyətdə olduqları əraziləri İran, Səfəvilərin torpaqlarını Turan adlandırırdılar. Tarixi ənənələrə, qədimliyə işarə edərək Səlcuqlar, Elxanilər, ilk Osmanlılar da özlərini qədim İran dövlətinin varisləri elan edir, özlərini İran hökmdarı adlandırırdılar [19, s. 176].

Dövrün müəllifləri Şah I İsmayılı "Şanlı Xaqan" [6, s.73], "Həzrət Süleyman şanlı xaqan" [6, s.75], "Qızılbaş padşahı" [6, s.134], "İsgəndər şanlı xaqan" [7, s.364] kimi epitetlərlə təqdim edir, "xaqan" titulunu hər dəfə işlətməklə onun bir türk lideri olduğunu vurğulayırdılar. Eyni zamanda onu əsasən rəsmi yazışmalarda "Əcəm məmləkətinin padşahı" [9, s.78], "İran şahənşahı" [9, s.161], "İran hökmdarı" [6, s.96] formalarda da qeyd edirlər. Bütün bunların izahı ondan ibarətdir ki, Şah I İsmayıl Azərbaycan dövlətində hakimiyyəti ələ almaq uğrunda mübarizə apardı, "Ağqoyunlu xanədanını (sülaləsini.- A.N.) meydandan qaldırdı" [11, s.62] və dövlət yeni sülalənin-Səfəvilərin idarəçiliyinə keçdi. Şah I İsmayıl Azərbaycan taxtına çıxdıqdan sonra yeni-yeni ölkələri, əraziləri fəth etdi, dövlət böyüdü, bu şəraitdə Səfəvilər də yuxarıda qeyd etdiyimiz "qədimlik" və "ərazi" amilini əsas götürərək "İran" adından istifadə etdilər. Dövlətin Azərbaycan, türk mahiyyəti axıradək olduğu kimi qaldı. Həmin dövrdə Azərbaycanla bağlı işlədilən "Əcəm", "İran", Türkiyəyə aid "Rum", "Rum dövləti" kimi ifadələr şərti xarakter daşıyır, reallığı əks etdirmirdi. Müasir tədqiqatçıların fikrinə görə, "İran" ifadəsi heç bir halda fars və ya tacik mənasını vermir: "Bu coğrafiyaya İran adını da türk, moğol hökmdarları verib. Şah İsmayıl və ya başqa birisi özünə İran şahı deməklə sasaniləri yox, elxaniləri, moğolları təqlid edir, onların mirasına iddia edirdi, Şah İsmayıl bununla əslində türk-moğol ənənəsinə, dəyərlərinə sahib çıxırdı. O vaxtlar farslara "tacik" deyilirdi, türk və tacik ifadələri işlənirdi [4]. Əlavə olaraq qeyd edək ki, həmin dövrdə Osmanlı hökmdarı Sultan Səlim Şah İsmayıla yazdığı məktubda

özünü əfsanəvi İran personajları "Firudinə, Keyxosrova" bənzədirdi, Şah İsmayılı isə əfsanəvi Turan hökmdarının varisi hesab edirdi, istehza ilə "dövrün Əfrasiyabı" adlandırırdı [9, s.74].

Şah İsmayıl Əcəm İraqı və Ərəb İraqının sahibi olan Ağqoyunlu Sultan Muradın yanına 1503-cü ildə elçisini göndərib ona tabe olmasını təklif etdi. Şah Ağqoyunlu Muradla savaşmaq fikrində deyildi. Ancaq Ağqoyunlu Murad Şahın təklifini qəbul etmədi. Belə olduqda İsmayıl 12 minlik qoşunla Həmədana doğru hərəkət etdi. Murad Şahın yürüşünü eşidərək 70 min nəfərlik bir qoşun hazırladı. I Şah İsmayıl 1503-cü ilin iyununda Həmədan yaxınlığında Alma Bulağı deyilən yerdə Ağqoyunlu Sultan Murad üzərində qələbə qazandı [6, s.84-85]. Adlı-sanlı əmirləri döyüş meydanında qalan Murad özü qaça bildi. İsfahan, Qum, Kirman, Şiraz tutuldu. Şah İsmayılın Sultan Murad üzərində qələbəsindən sonra Osmanlı hökmdarı Sultan II Bəyazid 1504-cü ildə elçisini qiymətli hədiyyələrlə Təbrizə göndərib Şah İsmayılı hakimiyyətə keçməsi, Əcəm İraqı və digər əraziləri tutması münasibətilə təbrik etdi. Beləliklə, Osmanlı Sultanı Şah İsmayılı Azərbaycanın dövlət başçİsı kimi rəsmən tanıdı.

Şah I İsmayıl babası Uzun Həsən kimi Avropa ölkələri ilə sıx əlaqə saxlayır, onlardan ordusunu toplarla təmin etmək, ticarət əlaqələrini genişləndirmək üçün istifadə edirdi. Qərbdə böyük uğurlar əldə edən Şah İsmayıl Özbək xanlığının hakimi Məhəmməd Şeybani xanın dövlətin Şərq sərhəddində yaratdığı təhlükənin aradan götürülməsini qərara aldı. Tezliklə İsmayılın ordusu Xorasana daxil oldu və tərəflər arasında baş döyüş 1510-cu ilin dekabrın-

da Mərv yaxınlığında oldu. Şeybani xan və onun döyüşçülərinin bir çoxu öldürüldü [22, s.101-103].

1512-ci ildə Osmanlı taxtına çıxan Sultan I Səlim (1512-1520) və Şah İsmayıl arasında münasibətlər kəskinləşdi, qarşılıqlı torpaq iddiaları ortaya çıxdı. Sultan Səlim Anadoluda 40.000 nəfər qızılbaşı öldürtdü. Şah İsmayılla Sultan Səlimin aralarındakı qızışdırıcı məktublardan sonra 23 avqust 1514-cü ildə Xoy şəhərinin şimali-cənubunda, Çaldıranda bir qandan olub, bir dildə danışan qüvvələr qarşılaşdı. Hər iki ordunun əsgərləri, «Allah», «Allah» deyə döyüşə daxil olub çox igidliklə vuruşurdular. Sultan Səlimin qalib gəldiyi döyüşdə 3 min qızılbaş, 2 min nəfər osmanlı əsgəri və hər iki tərəfdən bir çox adlı-sanlı əmirlər, o cümlədən məşhur Qızılbaş sərkərdələri Məhəmməd bəy Ustaclı, Hüseyn bəy Lələ, Xadim bəy Xülafə də öldürüldü [14, s.41-42]. Sultan Səlim bu qələbədən sonra 1514-cü ilin sentyabr ayında Təbrizə daxil oldu, ancaq burada çox qala bilmədi, tezliklə şəhəri tərk edib, Şərqi Anadoluya yola düşdü.

Şah I İsmayıl bu məğlubiyyətdən sonra ciddi hərbi əməliyyatlar həyata keçirmədi. Sultan Səlim də Azərbaycan ərazisində qalmadı. Şah I İsmayıl Şirvanşahlarla sərt davranmadı, 1502-ci ildə Fərrux Yasarın oğlu Şeyxşahı II İbrahim adı ilə hakimiyyətdə saxladı, eyni zamanda Hüseyn bəy Lələni oraya öz nümayəndəsi kimi göndərdi [24, s.66-67].

Şah I İsmayıl 23 may 1524-cü ildə, 37 yaşında Sərab şəhəri yaxınlığında xəstələnib vəfat etdi. O, Ərdəbildə, Şeyx Səfiəddin türbəsində dəfn olundu. Böyük dövlət adamı, qüdrətli sərkərdə, dahi insan olan Şah I İsmayıl

Azərbaycan tarixinin ən şərəfli səhifələrindən birini yaratdı, Azərbaycan dövlətçiliyini böyük imperiya səviyyəsinə yüksəltdi, dünya tarixinin ən yüksək mövqelərindən birinə sahib çıxdı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Brockelman C. İslam milletleri ve devletleri tarihi. 1. (1-3 Kisimler). Çeviren: Prof. Dr. Neşet Caqatay. 2.baskı. Ankara, Ankara Üni. İlahiyat Fakültesi yayınları, 1964.

2. Eravci M. "Safevi Hanedanı", Türkler, Yeni Türkiye Yayınları, Ankara, 2002, c.6.

3. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, "Şərq-Qərb", 2007.

4. Mehdizadə S. Türk və tacik qarşıdurması-köçəri və oturaq xalqların mübarizəsi (19.10.2022).- azlogos.eu/turk-ve-tacik-qarsidurmasi-koceri-ve-oturaq-xalqlarin-mubarizesi/.

5. Musalı N.S. I Şah İsmayılın hakimiyyəti ("Tarixi- aləmarayi- Şah İsmayıl" əsəri əsasında). Bakı, "Elm və Təhsil", 2011.

6. Münşi İ. "Tarixi aləm Arayi Abbasi". Bakı, "Şərq-Qərb". 2010.

7. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Kastamonu: Uzanlar, 2017.

8. Süleymanov M. Şah İsmayıl Səfəvi. Bakı, "Elm və Təhsil", 2018.

9. Şah İsmayıl Səfəvi: Tarixi-diplomatik sənədlər toplusu. Bakı, "Şərq-Qərb", 2014.

10. Şeyx Səfi Təzkirəsi. "Səfvətüs-səfa"nın XVI əsr türkcəyə tərcüməsi. Tərtibçilər və nəşrə hazırlayanlar: Nağısoy M., Cabbarlı S., Şeyxzamanlı R. Bakı, "Nurlan", 2006.

11. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi (ilk dəfə 1924-cü ildə İstanbulda nəşr olunub). Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1992.

12. Ayalon D. Gunpowder and Firelarms in the Mamluk Kingdom: A Challenge to a Mediaeval Society. Vallentine, Mitchell, 1956.

13. Minorsky V. La Perse au XV-e siecle entre La Turque et Venise. Paris, 1933.

14. Savory R.M. İran Under the Safavids. Cambridge University Press, 2008.

15. Savory R.M. "The Consolidation of Safawid Power in Persia". Studies on The History of Safawid Iran, Variorum Reprints. London, 1987.

16. The travel of Olearius in seventeenth- century Persia,- depts. washington.edu/ silkroad/ texts/ olearius/ travels.html.

17. Togan Z.V. Sur L'origine des Safavides. Extrait des Melandes Louis Massignon, Institut francais de Damas, 1957.

18. Trapper R. Shahsevid in Sefevid Persia// Bulletin of the Schopol of Oriental and African studis.-University of London, 1974.- Buraxılış 37 (2).

19. Uluc L. The Shahnama of Firdausi in the Lands of Rum. Leiden: Brill, 2012.

20. Бартольд В.В. Сочинения, т.II, ч.I. Москва, изд-во Восточной литературы, 1963.

21. История Ирана. Ленинград, изд-во Ленинградского Университета, 1958.

22. Туркменистан и туркмены в конце XV-первой половине XVI в. По данным «Алам ара-и Сефеви». Ашхабад, "Ылым", 1981.

23. Хунджи Фазлуллах ибн-Рузбихан. Тарих-и алам ара-йи Амини. (под ред. З.М.Буниятова и О.А.Эфэндиева). Баку, «Элм», 1987.

24. Эфэндиев О.А. Образование азербайджанского государства Сефевидов в начале XVI в. Баку, Акад. Наук Аз. ССР, 1961.

## *§ 2. Şah I Təhmasib və Şah I Abbasın dövründə Azərbaycan-Türkiyə müharibələri. Amasiya və Qəsri-Şirin sülh müqavilələri.*

Şah İsmayılın işi sülalənin digər nümayəndələri tərəfindən uğurla davam etdirildi. Onun Təhmasib Mirzə, Sam Mirzə, Bəhram Mirzə, Əlqas Mirzə adlı dörd oğlu vardı. Yerinə 1514-cü ildə anadan olmuş böyük oğlu Təhmasib keçdi. Div Sultan Rumlu yeni Şahın atabəyi kimi, onun azyaşlı olmasından istifadə edərək dövlət işlərinə nəzarəti ələ alsa da, tayfa əmirləri arasında gedən çəkişməyə son qoya bilmədi. Div Sultan 1527-ci ildə ara müharibələri zamanı öldürüldü [4, s.534]. Şah Təhmasib(1524-1576) yalnız 1534-cü ildən hakimiyyətə nəzarəti tam ələ ala bildi [16]. Bu vaxt Şirvanda da vəziyyət dəyişdi. 1524-cü ildə Şeyxşah II İbrahim vəfat etdi. Yerinə Şah İsmayılın qızı Pərixan xanımın əri Sultan Xəlil II Xəlilullah adı ilə hakimiyyətə gəldi. II Xəlilullah 1535-ci ildə öz əcəli ilə vəfat etdi və yerinə qardaşı oğlu Şahrux hakimiyyətə keçdi. O, Şah Təhmasibə tabe olmadı. Şah Təhmasib 20 minlik hərbi dəstəni 1538-ci ildə Şirvana yolladı. Onlar Şamaxı, Qəbələ, Gülüstanı tutdular. Şahruxun yaxınları başda olmaqla, bir çox Şirvan əyanı öldürüldü. Şahrux Təbrizə gətirildi və 1539-

cu ildə gizlicə edam edildi. Bununla 1538-ci ildə Şirvanşahların müstəqilliyinə son qoyuldu. Şirvan vilayətinin birinci valisi Şah Təhmasibin qardaşı Əlqas Mirzə oldu. 1551-ci ildə Şəki hakimliyinin də nisbi müstəqilliyinə son qoyuldu, dövlətin tərkibinə daxil edildi [2, s.98-99].

Türkiyə Sultanı I Süleyman Qanuni (1520-1566) Şərqdə maraqlarını təmin etmək üçün Səfəvilərə qarşı müharibəyə başladı. Bu vaxt Şah Təhmasib özbəklərlə müharibə aparırdı. Osmanlıların baş vəziri İbrahim paşanın 90 minlik ordusu, öndə isə Osmanlı tərəfə keçmiş Səfəvi əmirlərindən Üləma bəy Təkəlinin 10 minlik qoşunu olmaqla, 1534-cü ildə Azərbaycana daxil oldular. Türkiyə qoşunları 1534-cü ilin iyun ayında müqavimətə rast gəlmədən Təbrizə daxil oldu. Təbriz daxil olmaqla tutulan Azərbaycan torpaqlarının bəylərbəyi Üləma Təkəli oldu. Həmin ilin sentyabr ayında bir bölük qoşunla Sultan Süleyman Qanuni özü də Təbrizə gəldi [18]. Bu xəbəri eşidən Şah Təhmasib qardaşı Sam Mirzəni Heratda qoyub özü geri qayıtdı. Şah Təhmasib Osmanlılarla açıq döyüşə girmir, "yandırılmış torpaq" taktikasından istifadə edir, Sultan Süleymanın qoşunlarının girəcəyi ərazilərdə ərzaq, yem və sairi məhv edir, hərdən onlara zərbələr vururdu. Bu döyüşlər xeyli müddət ərzində hər iki tərəfdən ciddi itkilərlə nəticələndi. Sultan Süleyman iki dəfə Təbrizə daxil oldu, amma ərzaq və digər çatışmazlıqlara görə uzun müddət qala bilmədi. Sultan Süleyman 1548-ci ildə yenidən fəallaşdı, Təbrizə daxil oldu, oradan Vana doğru hərəkət edib ələ keçirdi. Şah Təhmasib və oğlu İsmayıl Mirzə 1551-1554-cü illərdə Van, Muş və digər istiqamətlərdə geniş əməliyyatlar keçirdi, ərazidə hakimiyyəti bərpa etdilər.

Bu yorucu döyüşlərdən sonra 1555-ci ilin mayında Amasiyada iki ölkə arasında barış sazişinə imza atıldı. Bu barışa görə Van və Qərbi Gürcüstan Osmanlılara verildi. Şərqi Gürcüstan Səfəvi hakimiyyəti altında qaldı [2, s.105]. Bağdad da daxil olmaqla İraq Türkiyənin tərkibinə keçdi, Azərbaycan tarixi torpaqlarını qoruyub saxladı [19, s.94]. Bu barış Şah Təhmasibin ən böyük uğurlarından oldu. Şah Təhmasib bir sıra iqtisadi, siyasi və hərbi-strateji səbəblərlə bağlı olaraq 1555-ci ildə paytaxtı da Təbrizdən Qəzvin şəhərinə köçürdü. Paytaxtın köçürülməsi, Qəzvinin Osmanlı dövlətinin sərhədlərindən uzaqda yerləşməsi və sair ilə əlaqədar idi. Sultan Süleymanın ölümündən (1566) sonra da iki ölkə arasında yaxşı münasibətlər davam etdi. Lakin bu münasibətlər Qərb dövlətlərinə sərf etmirdi. Qərbi Avropada Səfəvi-Osmanlı müharibələrini diqqətlə izləyir, onların münasibətlərini gərginləşdirməyə çalışırdılar.

Şərq ölkələrinə Avropadan əvvəlcə tacirlər, sonra elçilər və onların ardınca isə bir qayda olaraq, toplu-tüfəngli müstəmləkə qoşunu gəlirdi. Portuqaliyadan başlamış Fransaya qədər bütün Avropa dövlətlərinin Şərqə gələn tacirləri, elçiləri, missionerləri öz dövlətlərindən aldıqları xüsusi tapşırıq üzrə Şərq dövlətlərinin arasını mümkün qədər vurmağa çalışırdılar. Şah İsmayıl isə babası Uzun Həsən kimi Avropa dövlətləri ilə əlaqələr yaratmağa çalışırdı. Bu siyasət onun xələfləri tərəfindən də davam etdirildi. Bu zaman Osmanlı dövləti ilə düşmənçiliyi olan Portuqaliya daha çox Səfəvilərə yaxınlıq göstərirdi. XVI yüzilin 30-50-ci illərində Osmanlı-Səfəvi savaşları zamanı portuqallar Səfəvilərə top-tüfənglə kömək edirdilər

[6, s.326-327]. XVI yüzilin 60-cı illərində Azərbaycana İngiltərədən altı ekspedisiya gəlmişdi. İngiltərə kraliçası Yelizaveta Tüdoru (1558-1603) Azərbaycanın ipəyi, daha çox isə buradan Hindistana gedən karvan yolları maraqlandırırdı [3, s.244, 245].

1571-ci ildə Venesiya öz elçisi Vinçenso Alessandirini Azərbaycana göndərdi. V.Alessandri Şah I Təhmasibə Osmanlı dövlətinə qarşı müqavilə bağlamağı təklif edirdi. Növbəti il Roma papası V Piy Şah Təhmasibə yazdığı məktubda xristian müttəfiqləri ilə birgə Osmanlı dövlətinə qarşı savaşa başlamağın əlverişli vaxtının çatdığını bildirirdi. Papa başda olmaqla xristian monarxları Şah Təhmasibi Osmanlı dövlətinə qarşı savaşa çəkməyə çalışırdılar [6, s.311-313]. XVI yüzilin ortalarında Kazan və Həştərxanı tutduqdan sonra Xəzərin şimal sahillərində müstəmləkələrini tədricən genişləndirən Moskva knyazlığı Azərbaycanla diplomatik və ticarət əlaqələrinə xüsusi fikir verir, Yaxın və Orta Şərq bazarlarına can atırdı. Moskva çarı IV İvan (1547-1584) 1569-cu ildə Qəzvinə elçilər göndərdi. Onlar Şah Təhmasibə 100 top və 500 tüfəng gətirmişdilər. Ruslar bir tərəfdən Səfəvilərlə əlaqələrini gücləndirir, digər tərəfdən isə yavaş-yavaş Xəzərə doğru yeni torpaqlar işğal edirdi [2, s.109-110].

Şah Təhmasib 1576-cı ildə vəfat etdi. Varisini elan etmədiyinə görə hakimiyyət uğrunda xələfləri və əmirlər arasında çəkişmə başlandı. Hələ 1574-cü ildə Şah Təhmasib ağır xəstə yatdığı zaman hakimiyyət məsələsi əmirlər arasında çox ciddi mübahisəyə səbəb olmuşdu. İsmayıl Mirzənin tərəfində duranlar qələbə çaldılar. İyirmi il Qəhqəhə həbsxanasında yatan İsmayıl Mirzə azad edildi.

İsmayıl Mirzə cəsur olub, qızılbaşlar tərəfindən sevilirdi. Şahın bir çox yaxın adamları isə ondan ehtiyat edirdilər. Elə buna görə də onu yalandan Şaha qarşı qəsddə günahlandırıb həbs etdirmişdilər. Qaradağdakı Qəhqəhə qalasından çıxan İsmayıl Mirzə Qəzvinə gəldi. O, 1576-cı ildə Şah II İsmayıl ünvanı ilə hakimiyyətə keçdi [12].

II İsmayıl dövlətin yerli dayaqlarının möhkəmləndirilməsinə ciddi fikir verirdi. O, dövləti möhkəmləndirməklə yanaşı, Osmanlı dövləti ilə münasibətləri də yaxşılaşdırmaq istəyirdi. Onun yarımçıq qalan, yəni həyata keçirə bilmədiyi dini islahatı da bu məqsədə xidmət edirdi. O, şiəliyi mötədil bir hala gətirməyə çalışır, sünniliyin sıxışdırılmasına qarşı çıxırdı. II İsmayıl iki məzhəb tərəfdarlarını bir-birinə yaxınlaşdırmaq, aralarındakı ixtilaflara son qoymaq istəyirdi. Çox keçmədi ki, Şah II İsmayıl 1577-ci ildə müəmmalı şəkildə öldü [5, s. 387].

1578-ci ilin fevralında Şah seçilən Məhəmməd Xudabəndə (Şah Təhmasibin böyük oğlu) gözləri zəif görməklə yanaşı, həm də iradəcə möhkəm adam deyildi. Məhəmməd Xudabəndənin zəifliyindən istifadə edən bir sıra əmirlərin dövlətin siyasi və əsgəri təşkilatlarında yüksək vəzifələri ələ keçirmək cəhdləri ilə əlaqədar olaraq çəkişmələr yenə də qalırdı. Ölkə daxilində tayfalararası bu çəkişmələr Osmanlı dövləti üçün də çox əlverişli oldu. Hakimiyyətdə II Səlimi (1566-1574) əvəz etmiş III Murad (1574-1595) bəhanələrlə 1578-ci ildə Amasya barışığını pozub, Qars qalasına doğru irəlilədi. Osmanlılarla Səfəvilər arasında Çıldır gölü sahilində (Qars qalası yaxınlığında) 1578-ci ilin avqustunda döyüş baş verdi. Çıldır döyüşündə osmanlılar qalib gəldi [13, s.257]. Bu və digər tərəfin uğur-

larından sonra Osmanlı qoşunu 1585-ci ildə Təbrizi tutdu, sonra Şirvan, Şərqi Gürcüstan, Çuxur-Səəd, Qarabağ və Güney Azərbaycan vilayətlərini ələ keçirdi [7, s.145-147].

Xarici yürüşlərin, daxili çəkişmələrin Azərbaycan dövlətini sarsıtdığı bir vaxtda Mürşüdqulu xan başda olmaqla bir qrup türk-qızılbaş əmiri Məhəmməd Xudabəndəni (1595-ci ildə Qəzvində, Ələmut qalasında həbsdə ölüb) hakimiyyətdən devirib, onun oğlu Abbas Mirzəni hakimiyyətə gətirdi. Şah I Abbasın (1587-1629) hakimiyyətinin ilk günlərində dövlətin həm daxili, həm də xarici vəziyyəti çox ağır idi. Azərbaycan dövlətini şərqdən Özbək, qərbdən isə Osmanlı ordusu sıxışdırırdı. Daxildə isə əmirlər arasında çəkişmələr hələ də gedirdi. Şah I Abbas ölkə daxilindəki çəkişmələri aradan qaldırmaq üçün Osmanlı hökuməti ilə barışmağa məcbur oldu. Eyni zamanda Osmanlı dövləti üçün də müharibəni davam etdirməyin bir çox çətinlikləri var idi. İlk addımı Şah I Abbas atdı. O, 1590-cı ildə Heydər Mirzəni İstanbula göndərdi. 1590-cı ildə tərəflər arasında müqavilə imzalandı. Barışığa əsasən məzhəb ayrılığına görə insanlar incidilməməli, Peyğəmbərin xələflərinə qarşı hər cür pis hərəkətə yol verilməməli, 1590-cı ilə qədər hər iki tərəfin əllərindəki torpaqlar özlərində qalmalı, sülh əhdnaməsinə ciddi əməl olunmalı idi. Belə ki, Təbriz, Qərbi Azərbaycanın bir sıra bölgələri, Çuxur-Səəd, Şirvan, Gürcüstan, Qarabağ, Luristan, Nəhavənd Osmanlı dövlətinə verildi [15]. Bu birinci İstanbul müqaviləsi ilə Azərbaycan-Türkiyə müharibələrinin ikinci mərhələsi başa çatdı.

Şah I Abbas dövlətə qarşı baş qaldıran əmirləri sakitləşdirib, Osmanlı dövləti ilə barışıb, özbəkləri Xorasan-

dan uzaqlaşdırdıqdan sonra ölkəni sabitliyə qovuşdurdu. Dövlətin mərkəzini Qəzvindən daha təhlükəsiz yer olan İsfahana (1598-ci il) köçürdü. Yeni paytaxtın və onun ətraf bölgələrinin əhalisinin xeyli hissəsini vaxtı ilə Şah I İsmayıl tərəfindən burada dayaq yaratmaq məqsədi ilə köçürülüb yerləşdirilmiş Təkəli türkləri təşkil edirdi. Şah Abbas da bura Təbrizdən xeyli əhali gətirib, onlara orada Təbrizabad (Abbasabad) adlı məhəllə saldırıb məskunlaşdırdı. O cümlədən, Şah Abbas zamanı Təbrizdən İsfahana 200 sənətkar ailəsi də köçürüldü. Beləliklə, dövlətin yeni mərkəzində türk-qızılbaşlardan özünə güclü dayaq yaradan Şah Abbas Avropa və Şərq ölkələri ilə əlaqələri artırmaqla, daxildə iqtisadi islahatlar keçirib, ölkədəki geriliyi yavaş-yavaş aradan qaldırdı [17, s.96]. Şah I Abbas hərbi-inzibati islahatlara Səfəvilərin itirilmiş ərazilərini geri qaytarmaq və qüdrətini bərpa etmək məqsədi güdürdü.

Şah Abbas hakimiyyətə gəldiyi gündən idarəçiliyə yeni əmirlər gətirdi. Ancaq onlar da özlərindən əvvəlkilərin yolu ilə getməyə başladılar. Elə buna görə də, onların da çoxu hakimiyyətdən uzaqlaşdırıldı. Şah Abbas hakimiyyətə keçməsində Mürşüdqulu xana borclu idi. Ancaq 1589-cu ildə Mürşüdqulu xan da öldürüldü [11, s.38-39]. Şah Abbas nüfuzlu əmirləri aradan götürməklə həm ara çəkişmələrini azaltdı və həm də hakimiyyətini möhkəmləndirdi. Onların yerinə isə daha gənc və az tanınan əmirləri gətirdi.

Şah Abbas hərbi islahatında Osmanlı dövlətinin yeniçəri ("yeni döyüşçü" mənasını verirdi) hərbi institutunu örnək kimi qəbul edərək, qulam, tüfəngçi nizami alaylarını yaratmış və bir qədər sonra isə topçu alayını da təşkil

edib, əsgəri təşkilatı təkmilləşdirərək, dövləti hərbi-siyasi baxımdan gücləndirməyə müvəffəq oldu. 44 minlik daimi ordu yarada bildi [17, s.79].

Şah Abbas daxili çəkişmələrə son qoyub dövlət hakimiyyətini möhkəmləndirdikdən sonra, əvvəlcə Xorasanın özbək xanlarından geri qaytarılmasını qərara aldı. Şah Abbas 1598-ci ildə Herat savaşında Div Məhəmməd xanı məğlub etdi. Bu savaşda 4000 nəfərdən çox özbək döyüşçüsü və Div Məhəmməd xan da öldürüldü. Nəticədə Nişapur, Məşhəd, Herat, Mərv daxil olmaqla bütün Xorasan özbəklərdən geri alındı [10, s.66]. Azərbaycan imperiyasının sərhədləri yenə Ceyhun çayına çatdı.

Şah Abbas ciddi hərbi hazırlıqdan sonra Osmanlılar tərəfindən tutulmuş torpaqları geri qaytarmaq üçün 1603-cü ildə Təbrizə doğru hərəkət etdi. Qızılbaş ordusunun yaxınlaşdığını görən Təbriz və onun ətraf əhalisi osmanlılara qarşı çıxışlara başladılar. 1603-cü ilin oktyabrında Şah Abbas Təbrizi tutdu [17, s.86]. Culfa və Naxçıvan asanlıqla azad edildi. 1603-cü ilin sonunda başlanan savaş 1604-cü ilin iyununa qədər davam etdi. Çox çətinliklə İrəvan da tutuldu [10, s.78-79].

Həlledici savaş 7 noyabr 1605-ci ildə Ərdəbillə Sərab arasında oldu. Şah Abbas qalib gəldi, Qarabağa keçdi və Gəncəni mühasirəyə aldı. Kömək gələcəyini gözləyən Osmanlılar Gəncənin verilməsi təklifinə razı olmadılar. Gəncənin mühasirəsi dörd ay davam etdi. Gəncə 5 iyul 1606-cı ildə geri alındı, Şirvana daxil olan Şah ordusu 1607-ci ilin yanvarında Şamaxıya çatdı. Bu vaxt Bakı və Dərbənddə Osmanlılara qarşı çıxışlar oldu. Bu çıxışlar Şirvanın geri qaytarılmasını asanlaşdırdı. Şamaxıda 1607-ci il döyüş-

ləri hər iki tərəf üçün ağır oldu. Şah ordusu 1607-ci ilin iyununda Şamaxını tutdu [7, s.151]. Şamaxı döyüşü ilə savaşın taleyi həll olundu. Bütün Cənubi Qafqaz yenə də Azərbaycanın hakimiyyəti altına qaytarıldı. Şah Osmanlı dövləti ilə danışıqlara başlamaq üçün Təbrizə qayıtdı. Osmanlı dövləti 1607-1611-ci illərdə əvvəlki vəziyyəti bərpa etməyə cəhdlər göstərdi, lakin istəyinə nail ola bilmədi. Türkiyə və Azərbaycan rəhbərləri Sultan Əhməd (1603-1617) və Şah I Abbasın razılığı ilə 1612-ci ilin oktyabrında İstanbulda sülh müqaviləsi imzalandı. Bu İkinci İstanbul müqaviləsi ilə 1590-cı il sülhünün müddəaları ləğv edildi, Amasya sülhünün (1555-ci il) şərtləri bərpa olundu [1, s.400].

Şah Abbas 1613-cü ildə Gürcüstana qoşun yeritdi və Gürcüstanı asanlıqla tutdu. Gürcüstanın xeyli xristian əhalisinə islam dini qəbul etdirildi [10, s.104-105]. Şah I Abbasın Qafqazdakı bu uğurları Osmanlı Sultan Əhmədin narazılığına səbəb oldu. O, 1612-ci il müqaviləsini pozub Qafqazı yenidən tutmağı qərara aldı. Osmanlı ordusu 1616-cı ildə Ərzurumdan Təbrizə doğru hərəkət etdi. Bu və digər tərəfin uğurlarından sonra Mərənddə (bu müqavilə bəzi mənbələrdə səhvən "Sərab müqaviləsi" adlandırılır, bu yanlışlıq həlledici döyüşün Sərab yaxınlığında baş verməsi ilə bağlı olub) 1618-ci ilin sentyabrında 1612-ci il İstanbul müqaviləsinin şərtləri əsasında müqavilə imzalandı [9, s.611]. Barışıqdan xeyli sonra Osmanlı ölkəsində daxili çəkişmələr başlandı. Bundan istifadə edən Şah I Abbas 1622-1623-cü illərdə Ərəb İraqına qoşun yeridib Bağdad, Kərbəla, Nəcəfi tutdu [7, s.152].

Şah I Abbas 1629-cu ildə vəfat etdi. Şah Abbasın nəvəsi Sam Mirzə (Şah Abbas oğulları və nəvələrinin hamısını öldürtmüş, yalnız Sam Mirzəni varis kimi saxlamışdı) I Səfi (1629-42) adı ilə Şah oldu. Osmanlı Sultanı IV Murad (1623-1640) 1634-cü ildə yeni səfərbərlik keçirib güclü ordu yaratdı. IV Murad 1634-cü ildə Çuxur-Səəd sərhəddini keçib İrəvanı mühasirəyə aldı. Şəhər 10 günlük mühasirədən sonra tutuldu. IV Murad Irəvanı tutduqdan sonra Təbrizə doğru yola düşdü. Bu vaxt Təbrizin yeni bəylərbəyi Rüstəm xan şəhəri tamamilə boşaltdırdı. IV Murad Təbrizə savaşsız daxil oldu. Ancaq boşaldılmış şəhərdə ərzaq, sursat yox idi, qış yaxınlaşırdı, Səfəvilər hücum edə bilərdilər. Elə buna görə, 1635-ci ildə osmanlılar şəhərdən çıxıb geri döndülər. Bağdad şəhərini isə Osmanlılar yenidən tutdular. Tərəflər arasında yenidən danışıqlar başlandı və 1639-cu il mayın 17-də Qəsri-Şirində (İranın Kirmanşah vilayətində şəhər) Amasya sülhünün şərtlərini təsdiq edən sülh müqaviləsi bağlandı [7, s.152]. Şah Səfidən sonra hakimiyyətə onun kiçik oğlu Şah II Abbas (1642-1666) keçdi. Yeni Şahın yaşı az olduğuna görə dövləti təxminən 1648-ci ilə qədər baş vəzir Mirzə Tağı idarə etdi. Şah II Abbasın dövründə Səfəvi dövlətinin iqtisadiyyatı inkişaf edərək beynəlxalq aləmdə nüfuzu gücləndi, Avropa və Şərq dövlətləri ilə qarşılıqlı diplomatik əlaqələri də genişləndi [14, s.2009].

1666-cı ildə Şah II Abbas vəfat etdikdən sonra onun böyük oğlu Səfi Mirzə Şah Süleyman (1666-1694) adı ilə hakimiyyətə gəldi. Onun dövründə ölkənin Şərq sərhədləri zəifləmiş, özbək xanları isə Xorasana tez-tez hücumlar edir və heç bir ciddi müqavimətlə qarşılaşmırdılar. XVII

yüzilin 70-ci illərində Xəzəryanı vilayətlər də kazak hücumlarına məruz qaldı. Belə ki, Stepan Razinin başçılıq etdiyi rus kazakları 1668-ci ildə Xəzər dənizi ilə Gilana yan aldığı zaman şah hökuməti onlara qarşı güclü qoşun çıxartdıqda, yalandan bildirdilər ki, Səfəvi dövlətinin təbəəliyinə keçmək üçün bura üz tutmuşlar. Ancaq 1669-cu ildə Xəzəryanı vilayətləri qarət edərək geri döndülər [8].

Beləliklə, 200 ilə yaxın dövr ərzində davam edən Azərbaycan-Türkiyə müharibələri həm hər iki dövlətin, imperiyanın gücünü, qüdrətini nümayiş etdirdi, həm də hər ikisini zəiflətdi. İki türk imperiyasının öz aralarında dil tapa bilməməsi daxili siyasi-iqtisadi vəziyyəti gərginləşdirdi, xarici təhdid və müdaxilələr üçün şərait yaratdı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Əliyarlı S. Azərbaycan tarixi. Bakı, "Azərbaycan", 1996.

2. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, "Şərq-Qərb", 2007.

3. Mahmudov Y. Azərbaycan diplomatiyası. Bakı, "Təhsil", 2006.

4. Musalı N. Qızılbaşların əfsanəvi komandanı "Div Sultan" ləqəbli Əli bəy Rumlu. // Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 20-ci ildönümünə həsr olunmuş "Gənc alimlərin I Elmi Festivalı" çərçivəsində keçirilmiş elmi konfransın materialları. Bakı, AMEA, 2011.

5. Münşi İ. "Tarixi-aləm arayi-Abbasi". Bakı, "Şərq-Qərb". 2010.

6. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. Bakı, "Turxan NPB", 2020.

7. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Bakı, "Elm və təhsil", 2019.

8. Stepan Razinin Bakıya hücumu.- bakuplus.az/2021/12/21/stepan-razinin-bak-ya-h-cumu/.

9. Uzunçarşılı İ.H. Osmanlı tarihi. IV. Ankara: Türk Tarih Kurumu, 1983.

10. Blow D. Shah Abbas: The Ruthless King Who Became an Iranian Legend. I.B.Tauris, 2009.

11. Bomati Y., Nahavandi H. Shah Abbas, empereur de Perse 1587-1629. Paris, France: Perrin, 1998.

12. Ghereghlou G. Esmail II. New York: Encyclopaedia Iranica. 2016 a.- Esmail II. Iranicaonline.org/articles/esmail-02.

13. Jackson P., Lockhart L. The Cambridge History of Iran. The Timur and Safavid Periods. VI. Cambridge: Cambridge University Press, 1986.

14. Roemer H.R. "The Safavid period". The Cambridge History of İran. 6. Cambridge University Press, 2008.

15. Savory R.M. Abbas I. Encyclopaedia İranica.- iranicaonline.org/articles/abbas-i.

16. Savory R.M., Bosworth C.E. Tahmasp. Encyclopaedia of islam. Brill Online, 2012.

17. Savory R.M. İran under the Safavids. Cambridge, UK: Camridge University Press, 1980.

18. Tahmasp I. Encyclopaedia İranica.- iranicaonline.org/articles/tahmasp-i.

19. The Reign of Suleiman the Magnificent, 1520-1566, V.J. Parry. A History of the Ottoman Empire to 1730, red. M.A.Cook. Cambridge University Press, 1976.

### *§ 3. XVII əsrin sonu- XVIII əsrin əvvəllərində xarici müdaxilələrə qarşı mübarizə. Nadir şah Əfşar və Azərbaycan imperiyasının yeni yüksəlişi.*

XVII əsrin sonu – XVIII əsrin başlanğıcında Azərbaycan dövləti dərin iqtisadi və siyasi böhran keçirirdi. Dövriyyədə pul çatışmazlığı yaranmış, dövlət xəzinəsi tamamilə boşalmışdı. Şah Sultan Hüseynin (1694-1722) gördüyü tədbirlər maliyyə böhranının qarşısını ala bilmədi. O, ümumiyyətlə, zəif iradəli adam idi, siyasətlə maraqlanmırdı. Ən ciddi qərarları da qəbul edəndə, mahiyyətə varmır və sevimli ifadəsini işlədirdi: "yaxşıdır". Ona görə də saray əhli ona "yaxşıdır" ləqəbi vermişdi [18, s.19-30]. Mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edən iri əyanlar müstəqilliyə can atırdılar.

Car-Balakən, Şamaxı, Təbriz və digər ərazilərdə xalq hərəkatı başladı. 1707-ci ildə başlanan Car-Balakən üsyanının əsas səbəbi sosial ədalətsizlik idi. Lakin şah qoşunları onu amansızlıqla yatırdı, Car kəndi yandırıldı. 1711-ci ildə Car-Balakəndə üsyan yenidən alovlandı. Üsyançılar silahlanıb Şamaxıya hücum etdilər, döyüşdə qalib gəldilər və Şirvan bəylərbəyi Hüseynəli xanı öldürdülər. Şah Sultan Hüseyn Keyxosrov xanı Şirvana yeni bəylərbəyi təyin etdi [17, s.102].

Mərkəzi hakimiyyətə qarşı mübarizənin əsas mərkəzlərindən biri Şirvan və Cənubi Dağıstan idi. Burada 1711-ci ildən başlayan üsyanlara Müşkür mahalından olan din xadimi Hacı Davud başçılıq edirdi. 1719-cu ildə müşkürlü Hacı Davud (o, Müşkür mahalının, indiki Xaçmaz rayonunun Dədəli kəndindən idi) yenidən üsyan qaldırdı, Dər-

bənd, Şabran və Xudata hücum etdi və buna görə 1719-cu ildə Səfəvi hakimiyyəti tərəfindən həbs olundu, Dərbənd həbsxanasına salındı. 1720-1721-ci illərdə Şirvan və Cənubi Dağıstanda üsyan yenidən alovlandı və həbsdən qaçan Hacı Davud üsyana rəhbərlik etdi. Hacı Davud qazıqumuxlu Surxay xanla birləşərək 1720-ci ildə Şabran və Xudat qalalarını tutdu. Bundan sonra üsyançılar Şamaxını, Bakını və Dərbəndi tutmağa çalışsalar da, onların cəhdləri nəticəsiz qaldı [19]. Bu şəhərləri öz gücü ilə tuta bilməyən Hacı Davud 1721-ci ilin aprelində Rusiyaya müraciət edib hərbi yardım istədi. I Pyotr Hacı Davudun təklifini rədd etdi [3].

Hacı Davud öz qüvvələri ilə 1721-ci ilin avqustunda Şamaxıya hücüm etdi, əhalininköməyi ilə şəhəri tutdu. Bəylərbəyi Keyxosrov xan və 800 nəfər digər şəxslər öldürüldü. Bir çox ölkələrdən gələn əcnəbi tacirlər, o cümlədən rus tacirləri üsyançılar tərəfindən qarət edildi, bəziləri qətlə yetirildi. Üsyançılar müqavimətə rast gəlmədən Gəncəyə qədər irəliləsələr də, Gəncədə məğlub olub geri qayıtdılar. 1721-ci ilin oktyabrında Hacı Davud və Surxay xan Osmanlı sultanı III Əhmədə (1703-1730) müraciət edərək Osmanlı təbəəliyini qəbul etməyə hazır olduqlarını bildirdilər və Sultandan qoşunla kömək etməyi xahiş etdilər. Rusiyadan fərqli olaraq III Əhməd onların müraciətinə müsbət yanaşdı və Hacı Davuda Şirvan xanı titulu verdi [14, s.178-179].

1722-ci ilin əvvəlində əfqan tayfaları Səfəvilərə qarşı üsyan qaldırdılar. Səfəvilərin paytaxtı İsfahanı 8 ay mühasirədə saxladılar, şəhəri yalnız həmin ilin sentyabrında tutdular. Səfəvi şahı Sultan Hüseyn üsyanın başçısı Mir

Mahmud xanın düşərgəsinə gəldi, tacı və digər şah nişanlarını ona təslim etdi. Şah Sultan Hüseyn və bütün ailə üzvləri əsir alındı. (Mir Mahmud xan, sonra onun yerinə keçmiş Əşrəf xan Şah Sultan Hüseynlə xoş davranırdılar. Amma 1726-cı ilin payızında Osmanlı sərkərdəsi Əhməd paşa Əşrəf xana məktub yazaraq bildirdi ki, Səfəvilərin qanuni nümayəndəsi Sultan Hüseyni taxta qaytarmaq üçün İsfahana gəlir. Əşrəf xan bu iddiaya cavab olaraq Sultan Hüseynin başını kəsib ona göndərdi) [18, s.86-88]. Şahın böyük oğlu Təhmasib əfqanlara təslim olmadı, Astarabadda (Xəzər dənizinin cənub-şərqində, İranın Gülüstan əyalətinin mərkəzi ) özünü II Təhmasib adı ilə şah elan etdi.

XVIII əsrin əvvəllərində Rusiya iqtisadi və siyasi cəhətdən qüvvətləndi və Azərbaycanı hərbi yolla tutmaq planları qurmağa başladı. Rus çarı I Pyotr (1689-1725) region uğrunda mübarizənin kəskinləşməsini nəzərə alaraq və Azərbaycan dövlətinin ağır vəziyyətindən istifadə edərək öz niyyətini həyata keçirməyə başladı. 1722-ci il iyunun 18-də I Pyotr Xəzərin qərb bölgələrini işğal etmək, Cənubi Qafqazda möhkəmlənmək məqsədi ilə Həştərxandan hərbi yürüşə çıxdı. Bununla Birinci Azərbaycan-Rusiya müharibəsi başladı. Rus qoşunları dəniz və quru yolla Dərbəndə doğru irəlilədilər. I Pyotr hərbi səfərin gedişində yerli əhaliyə Manifestlə müraciət etdi [7]. Bu müraciəti göndərməkdə məqsəd işğalın əsl mahiyyətini gizlətmək və əhalidə rus qoşununa qarşı inam yaratmaq idi. Səfəvilər Rusiyanın bu hücumuna heç bir müqavimət göstərə bilmədi. 1722-ci ilin avqustunda rus eskadrası və piyada qoşunları Dərbəndə çatdı. Müqavimət göstərməyin mə-

nasız olduğunu görən şəhər hakimi İmamqulu bəy qala darvazalarının açarını və "Dərbəndnamə"nin XVII əsrə aid əlyazmasını I Pyotra təqdim etdi [14, s.180]. Lakin Azərbaycanın bir çox şəhərlərinin hakimləri ruslara tabe olmaq niyyətində deyildilər. Bakı hakimi Məhəmmədhüseyn bəy I Pyotrun göndərdiyi məktubu qəbul etmədi [5; 12, s.191]. Avqustun sonunda I Pyotr geri qayıtmalı oldu. Bunun səbəbi İsveçlə başlana biləcək yeni müharibə təhlükəsi və ərzaq gətirən gəmilərin dənizdə fırtınaya düşməsi idi. Ancaq I Pyotr Xəzər sahillərini ələ keçirmək planından əl çəkməmişdi. 1722-ci ilin dekabrında polkovnik Şipovun başçılığı ilə rus eskadrası Rəşti işğal etdi. General Matyuşkinin başçılığı ilə rus donanması 1723-cü ilin iyulunda Bakını tutdu. Şəhərin hakimi Məhəmmədhüseyn bəy Hacı Davudla əlaqə saxlamaqda günahkar bilinib, qardaşları ilə birlikdə Rusiyaya sürgün edildi və elə orada öldürüldülər. Bakıdan sonra ruslar Salyanı ələ keçirdilər. II Təhmasib danışıqlar aparmaq üçün İsmayıl bəyin başçılığı ilə Peterburqa nümayəndə heyəti göndərdi. O, 1723-cü ilin sentyabrında Peterburqda Şahdan icazə almadan Rusiya ilə müqavilə imzaladı. Müqaviləyə görə Dərbənddən Gilana qədər dəniz sahili torpaqlar Rusiyaya verilirdi. Rusiya isə əfqanlara qarşı mübarizədə Səfəvilərə kömək edəcəyini öhdəsinə götürürdü. Lakin Şah II Təhmasib ondan icazəsiz bağlanan bu müqaviləni tanımadı [17, s.111]. Osmanlı dövləti Rusiyanın Cənubi Qafqazda mövcudluğunun əleyhinə idi.

Osmanlı qoşunları 1723-cü ilin oktyabrında Gəncəyə hücum etdi. Lakin Səfəvi qoşunları tərəfindən müdafiə olunan şəhəri tuta bilmədilər. Ancaq 1724-cü ilin iyu-

nunda Osmanlılar İrəvanı müqavimətsiz ələ keçirdilər. Osmanlı dövlətinin Azərbaycana qoşun çəkməkdə əsas məqsədi Cənubi Qafqazın Rusiya tərəfindən işğalına yol verməmək və Xəzər dənizinə çıxaraq rus donanmasının Xəzərdə hegemonluğunun qarşısını almaq idi. Rusiya isə Osmanlı dövləti ilə toqquşmaq istəmir, münaqişəni diplomatik yolla həll etməyə çalışırdı. Beləliklə, Cənubi Qafqazda Rusiya, Türkiyə və Azərbaycan dövlətlərinin maraqları toqquşurdu. 1724-cü ilin iyununda İstanbulda Rusiya ilə Osmanlı dövləti arasında sülh müqaviləsi imzalandı [22, s.3]. İstanbul müqaviləsinin şərtlərinə görə Osmanlılar Dərbənd, Bakı, Salyan, Lənkəran, Rəşt və Ənzəlinin Rusiyaya ilhaqını tanıdı. Rusiya isə Xəzəryanı vilayətlərdən başqa Azərbaycanın qalan torpaqlarının Osmanlı dövləti tərəfindən tutulmasına razılıq verdi. Şamaxı Osmanlıların himayəsinə keçdi. Yarımmüstəqil Şirvan xanlığı yaradıldı və Hacı Davud Şirvan xanı təsdiq edildi [22, s.3-4].

İstanbul müqaviləsinin şərtlərinə uyğun olaraq Osmanlı qoşunları Cənubi Qafqazı, o cümlədən Azərbaycan torpaqlarını tutmağa başladı. 1725-ci ildə Osmanlı qoşunları əvvəlcə Təbrizi və Gəncəni, sonra isə Ərdəbili tutdular. 1726-cı ildə əfqanlarla bir neçə toqquşmadan sonra Osmanlılar Həmədanı və Kirmanşahı ələ keçirdilər [13, s.31-34]. Hacı Davud Osmanlının Rusiya ilə razılaşmalarına qarşı çıxdığından 1728-ci ildə Sultan Əhməd tərəfindən həbs edilib Kiprə sürgün olundu. Təxminən 1736-cı ildə orada vəfat etdi [25]. Rusiya Azərbaycanda möhkəmlənmək üçün xristianlardan, o cümlədən ermənilərdən istifadə edirdi. I Pyotrun 10 oktyabr 1724-cü il tarixli fərmanı ilə rusların işğal etdiyi Azərbaycan ərazilərində ermənilərin

yerləşdirilməsi tövsiyə edilirdi [4, s.403]. I Pyotrun bu xətti Rusiya hökumətinin sonrakı siyasətində, o cümlədən I Yekaterinanın 22 fevral 1726-cı il tarixli fərmanı ilə davam etdirildi [14, s.184].

Azərbaycan dövlətinin ərazisinin bir hissəsini Osmanlılar, bir hissəsini əfqanlar, bir hissəsini Rusiya tutmuş və onun varlığı təhlükə altında qalmışdı. Dövlətin taleyini düşünməyə başlayan Şah II Təhmasib və iri əyanlar türk Əfşar tayfasından çıxmış, dövrünün görkəmli sərkərdəsi Nadirqulu xanın (1688-1747) ətrafında birləşdilər [20, s.67]. Ölkəni xilas etmək uğrunda mübarizəyə başlayan Nadirqulu xan 1728-1730-cu illərdə əfqan qoşunlarını ölkədən qovdu və Heratı ələ keçirdi. Nadirqulu xan 1730-cu ildə İsfahana gəldi və Həmədan, Marağa, Ərdəbil, Təbriz Osmanlılardan geri alındı. Osmanlı dövlətində 1730-cu ildə baş vermiş dövlət çevrilişindən (üsyan və çevriliş nəticəsində Sultan III Əhməd taxtdan endirildi, qardaşı oğlu I Mahmud (1730-1754) hakimiyyətə gəldi) istifadə edən Nadirqulu xan hərbi əməliyyatı genişləndirdi, İrəvan üzərində hücuma hazırlaşdı [1]. Lakin Xorasanda baş verən üsyan Nadiriqulu xanı ora getməyə məcbur etdi. II Təhmasib şöhrətini artırmaq üçün 1731-ci ildə hərbi əməliyyatları davam etdirdi və məğlubiyyətə uğradı. Osmanlılar Ərdəbili və Təbrizi tutdular, II Təhmasib sülh bağlamağa razı oldu. 1732-ci il yanvarın 16-da Kirmanşahda sülh bağlandı. Sülhün şərtlərinə görə İrəvan, Gəncə, Şamaxı və digər bölgələr Osmanlılara verildi. Həmədan, Kirmanşah, Ərdəbil, Təbriz və digər ərazilər Səfəvilərə qaytarıldı, Araz çayı onlar arasında sərhəd oldu [20, s.69].

I Pyotrun ölümündən sonra saray çevrilişləri Rusiyanı zəiflətdi, onun beynəlxalq nüfuzu aşağı düşdü. Xəzəryanı əraziləri əldə saxlamaq imkanı məhdudlaşdı. Rusiya Osmanlıları Xəzər dənizinə buraxmamaq şərti ilə Xəzəryanı torpaqları Səfəvilərə qaytarmağa razı idi. 1732-ci il yanvarın 21-də Rusiya ilə Səfəvilər arasında Rəşt müqaviləsi bağlandı. Müqaviləyə görə Rusiya Kürə qədər olan torpaqların Səfəvilərə aid olduğunu qəbul etdi, Səfəvilər isə bu ərazilərə Osmanlıları buraxmamağı öhdəsinə götürdü. Rus tacirlərinə Səfəvi ərazisində ticarətdə güzəştlər verildi [15].

Xorasandan qayıtdıqdan sonra, 1732-ci ilin avqustunda Nadirqulu xan II Təhmasibi hakimiyyətdən saldı (II Təhmasib Səbzivara (Xorasan vilayəti) sürgün edildi, 1740-cı ildə orada öldürüldü). Onun 1 yaşlı oğlu Abbas Mirzəni – III Abbas adı ilə şah elan etdi, özünü onun qəyyumu təyin etdi [21, s.95]. Nadirqulu xan öncə Osmanlılarla bağlanmış Kirmanşah müqaviləsini ləğv etdi və Osmanlılardan Azərbaycan torpaqlarını geri qaytarmağı tələb etdi. Rədd cavabı aldıqda yüz minlik qoşunla bir neçə istiqamətdə hücuma keçdi, tezliklə Bağdad, Şamaxı və digər əraziləri azad etdi. Daha sonra Nadirqulu xan Osmanlıların ən çox cəmləşdiyi Gəncə üzərinə hərəkət etdi. Şəhər 4 ay mühasirədə saxlandı. Həmçinin Rusiya ilə olan çoxdankı münaqişəni də aradan qaldırmağa çalışdı.1735-ci il martın 10-da Gəncə yaxınlığında Rusiya və Azərbaycan arasında Gəncə müqaviləsi imzalandı. Ruslar müqavilənin şərtlərinə görə, Xəzəryanı vilayətləri tamam tərk etdilər, eyni zamanda rus tacirləri güzəştli ticarət şərtləri aldılar [24]. Gəncə müqaviləsi ilə Birinci Azərbaycan-Rusiya müharibəsi başa çatdı. Mühasirədə saxlanılan Osmanlılara kömək

etməyə gələn qüvvələr Üçmüədzin ətrafında Nadirqulu xan tərəfindən darmadağın ediləndən sonra Gəncədəki Osmanlı qarnizonu təslim oldu. Beləliklə, 1735-ci ilin sonunda Osmanlılar Azərbaycan torpaqlarından tamamilə çıxarıldı [23, s.15-30].

Artıq keçmiş Səfəvi sülaləsinin nümayəndələri xalq arasında öz nüfuzlarını tamamilə itirmişdilər və ölkəni dağıntıdan xilas etmək iqtidarında deyildilər. Nadir xan 1736-cı ilin fevral-mart ayında Muğan düzündə, Kürlə Arazın qovuşduğu Qalaqayında Muğan (Suqovuşan) qurultayını çağırdı. Bu qurultaya hərbi, mülki və dini əyanlardan, şəhər və kənd başçılarından ibarət minlərlə adam toplanmışdı. Muğan qurultayında Nadir özünü şah elan etdi [10, s.95]. (III Abbas hakimiyyətdən məhrum edilərək, Səbzivara, atasının yanına sürgün edildi. Hər ikisi 1740-cı ildə Nadir şah Hindistan səfərində olarkən Rzaqulu Mirzənin göstərişi ilə orada öldürülüb). Beləliklə, Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyuldu, Əfşarlar sülaləsi hakimiyyətə gəldi. Nadir şah dünyanın ən böyük dövlət xadimlərindən, ən məşhur sərkərdələrindən olub. Onu "İkinci Makedoniyalı İsgəndər" adlandırırdılar [11]. Fransa imperatoru Napoleon isə özünü "Yeni Nadir" hesab edirdi [2]. Nadir şahın dövründə dövlət Azərbaycan, İran, Əfqanıstan, Gürcüstan, Dağıstan, Orta Asiya, Hindistanın şimal hissəsini əhatə edir, paytaxtı Məşhəd şəhəri olmaqla ərazisi 3,8 milyon kv. kilometr təşkil edirdi. Dövlətin rəsmi dilləri Azərbaycan türkcəsi və fars dili idi. Nadir şahın inzibati islahatına görə, Azərbaycan bəylərbəyliyi yaradıldı. Azərbaycan bəylərbəyliyinə Dərbənddən Həmədanadək bütün tarixi Azərbaycan torpaqları daxil idi. Bəy-

lərbəyliyin mərkəzi əvvəlcə Ərdəbil, daha sonra Təbriz şəhəri oldu. Nadir 1736-cı ilin fevral ayında şahlıq tacını da məhz Azərbaycanda – Muğanda, Suqovuşanda başına qoydu. Əlbəttə, bu təsadüfi deyildi və Nadirin milli kökünə ehtiramının bir göstəricisi idi. Nadir şah Azərbaycan imperiyasının yeni yüksəlişinə nail oldu.

Azərbaycan tarixinin ən böyük dövlət və fikir dühalarından Nadir şahın siyasi fəaliyyətinin ən maraqlı istiqamətlərindən birini onun dini baxışları təşkil edirdi [6, s.23]. O, dini siyasətdən ayırmağa çalışır və bütün dinlərə diqqətlə yanaşırdı. Nadir şahın apardığı dini siyasət məzhəb ixtilaflarına son qoyulmasına, sünnülər, şiələr və sair məzhəb tərəfdarlarının vahid məqsədlər ətrafında birləşdirilməsinə xidmət edirdi [9, s.462-463]. Məlumdur ki, dövrünün qüdrətli və möhtəşəm dövləti olan Osmanlının sultanı 1517-ci ildə Misirin, Kəbənin fəthindən etibarən, həm də müsəlman dünyasının xəlifəsi kimi əmir əl-mömin (möminlərin əmiri) olmaqla ruhani hakimiyyətini də təmsil edirdi. Ona görə də Nadir şah dini tələblərlə bağlı məsələləri Osmanlı sultanı ilə bilavasitə razılaşdırmaq yolunu tutdu. Nadir xəlifə kimi ruhani hakimiyyətini də həyata keçirən Türkiyə Sultanı Mahmud ilə yazışmalardan sonra VI İmam Cəfər Sadiqin adı ilə bağlı olan, şiəliyi təmsil edən Cəfəriliyin rəsmi təriqət kimi qəbul edilməsinə cəhd etdi [6, s.27-28]. Hənəfi, Şafi, Hənbəli və Maliki məzhəbləri kimi, dörd məşhur məzhəblə yanaşı, sünnilər Cəfəri məzhəbini də faktiki olaraq tanıdılar. Cəfəri məzhəbi bütün məzhəblərin ortaq variantı kimi təklif olunurdu. Cəfərilər adı çəkilən sünni məktəbinin davamçıları ilə bərabər, Kəbə ətrafında namaz üçün ayrıca yer (məqam)

aldılar. Bütün bunlar Nadirin müstəsna fəaliyyətinin nəticəsi idi. Nadir şahın həm dini, həm siyasi, həm də hərbi sahədə apardığı siyasətin məqsədi məhz Turan və İslam aləmini birləşdirmək idi. 1740-cı ildə Nadir şah Sultan I Mahmuda (1730-1754) belə bir müraciətlə məktub göndərdi ki, əgər siz Cəfəri məzhəbini qəbul etsəniz, mən bütün məmləkətlərimi Osmanlıya qataram. Lakin bu müraciətinə müsbət cavab ala bilmədi [8, s.204].

Nadir şahın apardığı müharibələrin bütün xərci xalqın üzərinə düşürdü. Ona görə də Nadir şaha qarşı xalqın etirazı gücləndirirdi. İlk olaraq 1734-cü ildə Astarada kəndlilərin çıxışı baş verdi. 1737-ci ildə Nadir şah Hindistan və Mərkəzi Asiyaya yürüş etdi. Nadir şahın ölkədə olmamasından istifadə edən Car camaatı 1738-ci ildə üsyan qaldırdı. 1738-ci ildə Manik kəndi yaxınlığındakı döyüşdə Nadir şahın qardaşı İbrahim xanın qoşunları məğlubiyyətə uğradıldı, İbrahim xan və Gəncə bəylərbəyi Uğurlu xan Qacar öldürüldü. Nadir şahın oğlu Rzaqulu xan Əmiraslan xanın başçılığı ilə Cara qoşun göndərdi. Lakin bu qoşun da üsyançılar tərəfindən darmadağın edildi. 1739-cu ildə Mirzə Səfi xanın başçılıq etdiyi qoşun üsyanı çətinliklə yatırdı. XVIII əsrin 40-cı illərinin əvvəllərində Azərbaycanın şimal və şimal-şərqində Nadir şaha qarşı üsyanlar şiddətli mərhələyə çatdı. 1741-ci ilin yayında Nadir şah üsyanı yatırmaq üçün Azərbaycanın şimal-şərqinə qoşun yeritdi, lakin əhalinin müqavimətini qıra bilmədi. Dağıstandakı uğursuzluqdan sonra 1743-1747-ci illərdə ölkəni üsyanlar dalğası bürüdü. 1743-cü ildə Şirvanda Nadir şaha qarşı üsyan baş verdi. Bu üsyanlardan özünü Səfəvi şahzadəsi adlandıran şəxslər istifadə etməyə çalışırdılar.

Nəticədə I, II, III Sam Mirzələr (özlərini Şah Sultan Hüseynin oğulları kimi təqdim edirdilər) meydana çıxdı [14, s.187-188]. 1743-cü ildə Şirvan, Şəki, Təbriz, Xoy və Səlmasda yeni üsyanlar baş verdi. Bu mübarizənin mərkəzlərindən biri Şəki idi. Şəkinin hakimi Məlik Nəcəf əhali ilə pis rəftar edir, artıq vergilər toplayırdı. Onun zülmündən cana gəlmiş Şəki əhalisi Nadir şaha şikayət etdi. Şah isə Şəki əhalisinin sakitliyi üçün Şəki əyanlarından bir nəfərin vəkil seçilməsini tapşırdı. Hacı Çələbi Məlik Nəcəfin üzərində nəzarətçi və vəkil seçildi. 1743-cü ildə Hacı Çələbi öz adamları ilə Məlik Nəcəfi öldürdü və Şəkidə hakimiyyəti ələ keçirdi, "Gələrsən-Görərsən" qalasında möhkəmləndi. Nadir böyük qoşunla Şəkiyə hücum etdi. Lakin 4 aylıq mühasirə bir nəticə vermədi. Nadir şahın qoşunları geri çəkildi. 1746-cı ildə qala müdafiəçilərinin ərzaq ehtiyatı tükəndi. Hacı Çələbi vəkil vəzifəsində qalmaq şərti ilə Nadir şaha təslim oldu [8, s.206].

Xalq üsyanları, aramsız müharibələr, iqtisadi vəziyyət, iri qruplar arasındakı mübarizə - bütün bunlar Nadir şahı qəzəbləndirdi və o, kütləvi cəza tədbirlərinə başladı. Təqiblər aparıcı soyların məşhur nümayəndələrindən də yan keçmədi. Bunun da nəticəsində sarayda sui-qəsd havası yetişirdi. 1747-ci ilin iyununda gecə Nadir şah Xorasan vilayətinin Fəthabad məntəqəsində, öz çadırında qətlə yetirildi. Bu böyük şəxsiyyətin həyatı belə faciəli şəkildə başa çatdı. Qardaşı oğlu Əliqulu xan Adil şah adı ilə hakimiyyəti ələ keçirdi, lakin dövləti qoruya bilmədi. Əliqulu xan hələ özünü şah elan etməmiş Nadir şahın bütün övladlarını, nəvələrini, hamilə qadınlarını öldürtdü. Yalnız Rzaqulu Mirzənin Şah Sultan Hüseynin qızından olan

oğlu 14 yaşlı Şahrux Mirzəni sağ saxladılar. Əliqulu xan düşünürdü ki, xalq onu şah kimi qəbul etməsə, Səfəvilərin qan qohumu Şahruxu şah elan edib, onun adından ölkəni idarə edə bilərdi. Ona görə də onu zindana saldırıb, ehtiyat variant kimi saxladı. Az sonra, 1748-ci ildə iri əyanlar Adil şaha (Əliqulu xana) qarşı çıxdılar, Şahrux Mirzəni hakimiyyətə gətirdilər. Şahruxun əmri ilə Adil şah (Əliqulu xan) Məşhədə gətirildi və orada edam olundu. Lakin Şahrux da hakimiyyətdə qala bilmədi və şah yox, Xorasan hakimi vəzifəsi ilə kifayətlənməli oldu [16, s.519-527]. Nadir şahın yaratdığı Azərbaycan imperiyası süqut etdi.

Beləliklə, Nadir şahın dövründə Azərbaycan dövləti yeni yüksəliş mərhələsini yaşadı, dövlətin inkişafında ciddi nəticələr əldə olundu, lakin üsyanlar, sui-qəsdlər və digər daxili, xarici amillər ölkənin birliyinin qorunub saxlanılmasına imkan vermədi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Abışov V. Azərbaycan Səfəvi dövlətinin siyasi tarixi. “Xalq Cəbhəsi” qəzeti, 2015, 1 dekabr, s.7.

2. Avropanın Nadir şahı.- millikimlik.az/2022/4408/.

3. Azərbaycana yürüş ərəfəsində I Pyotrun taktiki addımları.- anl.az/el/q/qarabag_6/q-36.htm.

4. Azərbaycan tarixi. 7 clddə, III cild (XIII-XVIII əsrlər). Bakı, “Elm”, 2007.

5. Bakının birinci xanı.- Azerbaijan-news.az/view-196096/bakinin-birinci-xani.

6. Baxşəliyev S. Nadir şah Əfşarın dini baxışları.- “Tarix,insan və cəmiyyət”, 2021, 1(31).

7. Dəlili H.Ə. Azərbaycan-Rusiya münasibətləri fars və azərbaycandilli sənədlərdə (1722). Bakı, "Elm", 1976.

8. Qəniyev H. Azərbaycan tarixi. Bakı, "Elm və Təhsil", 2019.

9. Lokkart L. Nadir şah. Bakı, "Qanun", 2013.

10. Mahmudov Y., Şükürov K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi. Dörd clddə, I cild. Bakı, "Elm", 2009.

11. Makedoniyalı İsgəndər və Nadir şah Əfşar.- millikimlik.az/2021/4067.

12. Məmmədov F. Azərbaycan tarixi. Mühazirələr kursu. Bakı, "Elm vəTəhsil", 2011.

13. Mustafazadə T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı, "Elm", 2002.

14. Nuriyeva İ. Azərbaycan tarixi, Bakı, "Elm və Təhsil", 2019.

15. Ömərov V. Azərbaycan XVIII əsrin birinci yarısında. "Səs" qəzeti, 2012, 23 oktyabr, s.14.

16. Süleymanov M. "Nadir Şah", Tehran, 2010.

17. Süleymanov N. Azərbaycan Səfəvilər dövləti (1501-1736-cı illər). Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2018.

18. Axworthy M. The Sword of Persia: Nader Shah, from Tribal Warrior to Conquering Tyrant. I.B.Tauris, 2006.

19. Азербайджан в первой половине XVIII века.- ensiklopediya.gov.az/az/terms/ 20207/cild/12.

20. Гёзалова Н. Вопросы истории Азербайджана XVIII в. (на основе сведений англоязычных источников и историографии. Москва, ООО «ИРИС ГРУПП», 2010.

21. Иванов М.С. Очерк истории Ирана. Москва, Госполитиздат, 1952.

22. Кидирниязов Д.С., Махмудова К.З. Стамбульский договор 1724 г. и его значение для кавказской политики России.- - syberleninka.ru/article/n/stambulskiy-dogovor-1724-g-i-ego-znachenie-dlya-kavkazskoy-politiki-rossii/viewer/.

23. Мустафазаде Т.Т. Из истории русско-турецких отношений в 20-х годах XVIII века// Отечественная история/ Российская АН, №2, Москва, 2002.

24. Новая энциклопедия. Гянджинский договор 1735.- runivers.ru/newenc/474610.

25. Послднее пристанище Хаджи Давуда.- finka.ru/glav_lenta/12972-poslednee-pristanische-hadzhi-davuda.html.

### *§ 4. Sosial-iqtisadi həyat və mədəniyyət.*

Şah İsmayılın idarə qurumları Qaraqoyunlular və Ağqoyunluların dövlətçilik ənənələri üzərində yaradılmışdı. Şah I Abbasın islahatları ilə dövlətin siyasi quruluşu və idarəçiliyi daha da möhkəmləndi. Dövlətin başçısı «şah» adlanırdı. Şah hakimiyyəti irsi idi. Səfəvi şahları Ərdəbil ordeninin irsi başçıları olmaqla dini hakimiyyəti də özlərində saxlayırdılar [2, s.21-22].

Şah mütləq hökmdar idi. Dövlətin Ali Məclisi yalnız məşvərətçi rol oynayırdı. I Təhmasib dövründə Ali Məclisin 12 üzvü vardı. Şah mühüm məsələlərin həllində Ali Məclisi çağırır, yüksək dövlət xadimlərinin təkliflərini dinləyir, ancaq son qərarı özü verirdi [4, s.295]. Dövlət quruluşunda şahdan sonra baş vəzir əsas yer tuturdu. İnzibati-ərazi bölgüsü əsasında dövlətin geniş ərazisi təbii sərhədləri ilə bir-birindən ayrılan 4 valilik və 13 vilayətə (bəylərbəyiliyə) bölünmüşdü. Vilayətləri Şah tərəfindən

təyin olunan hakimlər idarə edirdi. Vilayət hakimlərinə XVI yüzilin 30-cu illərinə kimi sultan və bu zamandan sonra isə xan titulu verilirdi. Bəylərbəyiliklər mahallara bölünürdü. Mahalları şah tərəfindən təyin olunan mahal hakimləri (sultan və məliklər) idarə edirdilər [2, s.316].

Azərbaycan dövlətinin XV əsrdəki hərbi təşkilatı XVI-XVII yüzillərdə də az dəyişikliklə qalırdı. Səfəvilər dövründə ordu dövlət (vilayət hakimlərinin qoşunu, qorçu) və Şah (tüfəngçi, qulamlar, topçu) qoşununa bölünür, yəni iki kateqoriyadan ibarət idi [12, s.141-142]. Şah I Abbas fundamental hərbi islahatları ilə tayfalar üzrə səfərbər olunan qeyri-nizami qoşunun sayını azaldıb, 44 min nəfərdən ibarət tüfəngçi, qulam, topçu adlı nizami Şah qoşununu yaratdı. Qeyd olunan bu ikinci qoşun növünə daxil olan 3 hərbi hissədən əlavə, 200 nəfər sufi cangüdən və 600 nəfərdən ibarət cəzair adlı xüsusi qarovul dəstəsi də Şah qoşunu tərkibinə daxil idi [1, s.230].

XVI yüzilin başlanğıcında Azərbaycan torpaqlarının birləşdirilməsi, möhkəm dövlət idarəçiliyin yaradılması ilə ölkənin iqtisadi həyatında dirçəliş başlandı. XVI-XVII yüzillərdə kənd təsərrüfatında yenə əkinçilik üstün yer tuturdu. Həmdullah Qəzvini, Evliya Çələbi Təbriz və onun ətrafında 900 kəhriz, bir çox su arxlarının olduğunu bildirirlər. Fransız səyyahı Jan Batist Tavernye də burada əkinlərə su verən çoxlu kəhrizlər, su quyuları olduğunu bildirir [6, s.88-92]. Evliya Çələbi Təbrizdə 7 növ buğda yetişdirildiyini yazırdı. XVI-XVII yüzillərdə Azərbaycan öz ipəyi ilə dünya şöhrəti qazanmışdı. Ölkənin məhsuldar torpaqlarında ipək qurdu bəsləmək üçün tut ağacları əkib becərirdilər [13, s.156]. 1561-1563-cü illərdə Azərbay-

canda olan ingiltərəli Antoni Cenkinson Şirvan haqqında yazmışdır: "…Ölkənin əsas və ən varlı ticarət şəhəri Ərəş adlanır… Onun ətrafında hər yerdən çox barama istehsal olunur: türklər, suriyalılar və başqa əcnəbilər ticarət üçün bura axışıb gəlirlər. Bu dövlətdən bir çox yaxşı keyfiyyətli və zəruri mallar almaq olar. Qoz və fındıq, pambıq parçası, zəy, bu ölkənin təbii məhsulu olan barama, ədviyyat və ətir-boya mallarının demək olar bütün növlərini və nisbətən az miqdarda Şərqi Hindistandan gətirilən bir sıra başqa malları almaq olar. Ancaq buranın başlıca ticarət malı, burada bol istehsal edilən çox çeşidli ipəkdir" [9, s.184]. Səyyah Adam Oleari yazır ki, təsərrüfatın bu sahəsi ilə məşğul olanların çoxu varlı adamlardır. Səyyaha görə, XVII yüzilin 30-cu illərində Azərbaycanda ildə 10-12 min tay (50 kiloluq torba) ipək istehsal ounurdu. Onun 3 min tayı Şirvanın, 2 min tayı Qarabağın payına düşürdü [9, s.184]. Azərbaycanın təsərrüfat həyatında pambıqçılıq da mühüm yer tuturdu. Üzümlə yanaşı, alma, nar, armud, ərik, əncir, qoz, şaftalı, gavalı da ölkənin demək olar bütün bölgələrində əkilib becərilirdi. Azərbaycan Şərqdə heyvandarlığın çox inkişaf etdiyi ölkələrdən biri idi. XVI-XVII yüzillərdə ölkə iqtisadiyyatında heyvandarlıq başlıca yer tuturdu. Ölkədə yaylaq-qışlaq heyvandarlıq təsərrüfatı, yəni yarımköçəri maldarlıq üstün idi. Davarla yanaşı, qaramal, at və dəvə də saxlayırdılar [1, s.243].

Azərbaycanın yaxşı təbii-coğrafi şəraiti, xammal bolluğu, ipəyə, yuna, pambığa, sənət məhsullarına daxili ehtiyacın və beynəlxalq bazar tələbatının artması ölkədə şəhərlərin canlanmasına, sənətkarlıq və ticarətin irəliləyişinə müsbət təsirlər göstərmişdi. Təbriz, Gəncə, Ərdəbil,

Marağa, Şamaxı, Ərəş, Bərdə, Naxçıvan, Dərbənd, Culfa ölkənin əsas sənətkarlıq və ticarət mərkəzləri idilər. XVI-XVII yüzillərdə Avropa ilə Şərq arasındakı ticarətdə Azərbaycandan keçən karvan yollarının əhəmiyyəti böyük idi. Hindistan və Çindən başlanan beynəlxalq karvan yolları Azərbaycandan keçir, Aralıq dənizi və Qara dəniz sahillərinə, oradan isə Avropaya doğru uzanırdı. Azərbaycanı Avropa ilə Volqa-Xəzər su yolu da bağlayırdı.

Təbriz bu dövrdə Azərbaycanın ən böyük ticarət şəhəri idi. Başqa bölgələrdən Təbrizə taxıl, xam ipək, davar, müxtəlif sənətkarlıq məhsulları gətirilirdi. Daxili bazarın yarandığı bir vaxtda Təbriz ən mühüm iqtisadi əhəmiyyəti olan mərkəzə çevrilirdi. Şamaxı ətrafında xam ipəyin bolluğu şəhərin iqtisadi əhəmiyyətini artırmışdı. Təbriz kimi Şamaxının da zəngin bazarı vardı. Xüsusi statusa malik olan Ərdəbil şəhərinin də ölkənin iqtisadi-ticarət həyatında rolu az deyildi. Şəhər ölkənin güney və quzey bölgələrini əlaqələndirən ticarət yolunun üstündə yerləşirdi. Ərdəbil tacirləri dünyanın bir çox ölkələri ilə ticarət aparırdılar [13, s.160-161].

Səfəvilərin hakimiyyətə gəlişi torpaq münasibətlərinə də dəyişiklik gətirdi. Dövlət torpaqları divan ərazisi, şah və onun ailə üzvlərinin torpaqları isə xassə ərazisi adlanırdı. Hər iki əmlakın idarə olunmasına ən iri torpaq sahibi olan Şah özü başçılıq edirdi. Ən üstün yer tutan mülkiyyət forması divan torpaqları idi, onlardan yığılan vergilər dövlət aparatı və qoşunun saxlanmasına xərclənirdi. Xassənin gəliri isə saray və şah ailəsinə sərf olunurdu. Mülki və hərbi qulluqçulara xidmətlərinə görə, dövlət torpaqlarından soyurqal, tiyul adı ilə ömürlük, yaxud irsi torpaq

sahələri verilirdi. Soyurqal əslində iqtanın davamı idi. O da iqta kimi irsi olub nəsildən-nəslə keçirdi.

Ənənəvi vəqf əmlakı xeyli genişlənmişdi. Vəqf əmlakına geniş torpaq sahələri ilə yanaşı kəhrizlər, dükanlar, rastabazarlar (küçə boyunca sıra ilə düzülmüş dükan və sairədən ibarət bazar), sənətkar karxanaları, karvansaralar, dəyirmanlar, hamamlar və s. daxil idi. Vəqflər iki yerə bölünürdü. Bunlardan xeyrə vəqfi dini idarələrin, əhali vəqfi isə din xadimlərinin ixtiyarında idi. Şəxsi torpaq sahibliyi mülk idi. Mülk sahibinin islam qanunları əsasında dövlətdən torpaq almaq hüququ vardı. Eyni zamanda dövlət də öz növbəsində xidmətlərinə görə ayrı-ayrı adamlara torpaq sahəsini mülk kimi bəxşiş edə bilərdi. İcma torpaq sahibliyinə camaat da deyilirdi. Bu torpaqlar kənd icmaçılarının –camaatın istifadəsində idi. Icmanın başçısı ağsaqqal adlanırdı. O, icmaçılar arasında vergiləri bölür və yığırdı. Əvəzində verginin müəyyən hissəsi ona çatırdı [14, s.81-84].

Kənd və şəhər əhalisi dövlətə, sahibkarlara müxtəlif vergilər ödəyirdilər. Eyni zamanda bir çox mükəlləfiyyətlər daşıyırdılar. Səfəvilər dövründə vergilərin toplanmasında bir çox illər Uzun Həsənin Qanunnaməsi əsas götürülmüşdü. Malcəhət (xərac) başlıca vergi olub, torpağın münbitliyinə və ya yığılan məhsulun həcminə görə alınırdı. Vergi ümumi məhsulun 1/5, yaxud 1/3 hissəsinə bərabər idi. Bağbaşı bağlardan toplanılan məhsulun 1/10 həcmində alınırdı; Çobanbəyi otlaqlardan istifadə əvəzinə alınırdı [11, s.486].

XVI əsrdə Azərbaycan mədəniyyətinin əsasını maarif, elm sahələri təşkil edirdi. Məktəb və mədrəsələrdə həm

şəriət, həm də riyaziyyat, məntiq, fəlsəfə, nücum və sair fənlər tədris olunurdu.Təbrizdə böyük kitabxana var idi. Marağa rəsədxanası bərpa olundu. I Təhmasibin sarayında qulluq edən, hətta onun yürüşlərinin iştirakçısı olan Həsən bəy Rumlu 12 cildlik "Əhsən ət-Təvarix" (Tarixlərin ən yaxşısı) əsərini yazmışdı [5]. Xandəmir təxəllüslü Qiyasəddin ibn Hümaməddin əl Hüseyn (1475-1536) çoxcildlik əsərlər külliyyatının bir hissəsini Səfəvilərə həsr etmişdir [7, s.334-341]. İsgəndər bəy Münşinin "Tarixi-aləm arayi Abbasi (Dünyanı bəzəyən Abbasın tarixi) əsəri dövrün ən dəyərli mənbələrindəndir [8]. Bu dövrdə tibb elmi də inkişaf edirdi. Əbdül Fəth Təbriz, Əli Təbrizi, İmadəddin Mahmudi kimi məşhur həkimlər vardı.

Şah İsmayılın sarayında "şairlərin şahı" –"məlik ülşüara" Həbibi başda olmaqla Süruri, Şahi, Matəmi, Tüfeyli,Qasimi kimi şairlər var idi [3, s.7]. Şah İsmayıl özü Xətai təxəllüsü ilə türk dilində yazırdı. Onun "Divan","Nəsihətnamə","Dəhnamə" adlı şerlər toplusu var idi.

XVI əsr Azərbaycan ədəbiyyatının, həm də Şərq dünyasının ustadı Məhəmməd Füzuli (1494-1556) elm və mədəniyyət mərkəzlərindən olan Kərbəlada yaşayıb yaratmışdır. Füzuli əsasən Azərbaycan türkcəsində, həmçinin fars və ərəb dillərində yazmışdır. Klassik ədəbiyyata yaxından bələd olan Füzuli "Leyli və Məcnun", "Şikayətnamə", "Söhbətül-Əsmar" (Meyvələrin söhbəti), "Bəngü-badə" (Tiryək və Şərab) əsərlərinin müəllifidir [10].

Şifahi xalq yaradıcılığının yeni forması olan dastanlar yaranırdı. XVI əsr Azərbaycan musiqisinin görkəmli nümayəndəsi xanəndə Hafiz Lələ olmuşdur. Təbriz miniatür məktəbi bütün Şərqdə məşhur idi. Sultan Məhəmməd

və onun məktəbinin yetirmələri Kəmaləddin Behzad, Mir Müsaviri, Mir Zeynalabdin Təbrizi və başqaları dünya incəsənət tarixinin inkişaf salnaməsinə unudulmaz səhifələr yazmışdılar. XVI-XVII əsrlərdə ədəbiyyat sahəsində Məhəmməd Əmani, Əlican Qövsi Təbrizi, Məsihi, Saib Təbrizi, Tərzi Əfşar, Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq kimi tanınmış şəxslər var idi. "Koroğlu", "Aşıq Qərib", Şah İsmayıl", "Əsli və Kərəm", "Abbas və Gülgəz" kimi dastanlar məşhur idi [9, s.195-196].

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycan tarixi. 7 clddə, III cild (XIII-XVIII əsrlər). Bakı, "Elm", 2007.

2. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı, "Avropa", 2015.

3. Erden M. XV. Yüzyıl şairi Habibi ve divanı. Mərmərə: Mərmərə Universitesi, 2008.

4. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, "Şərq-Qərb", 2007.

5. Həsən bəy Rumlu.- lib.az/persons/7.

6. Həsənov Ə.H. XVII əsrin ortalarında Azərbaycanın əkinçilik təsərrüfatı (J.B.Tavernyenin "Səyahətnaməsi" əsasında).- "Bakı Universitetinin Xəbərləri", 2009, №2.

7. Xürrəmabadi A. "Əmir Mahmud Xandəmirin həyatı və onun "Zeyli-tarixi-həbibus-siyər" əsəri". – "Tarix və onun problemləri, 2014, №2.

8. İsgəndər bəy Münşi Türkman.- lib.az/persons/5.

9. Qəniyev H. Azərbaycan tarixi. Bakı, "Elm və Təhsil", 2019.

10. Məhəmməd Füzuli kimdir?- personalar.az/mehemmed-fuzuli-kimdir/.

11. Məmmədov İ. Azərbaycan tarixi. Bakı. Adiloğlu, 2005.

12. Münşi İ. “Tarixi-aləm arayi-Abbasi”. Bakı, “Şərq-Qərb”. 2010.

13. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Bakı, “Elm və təhsil”, 2019.

14. Yerquruluşu. Yerquruluşunun elmi əsasları, I cild. Bakı, “MBM”, 2007.

# IX fəsil. Azərbaycan xanlıqlar dövründə

## *§ 1. Azərbaycanda xanlıqların meydana gəlməsi. Cənub xanlıqları.*

Xanlıqların əmələ gəlməsinin başlıca səbəbləri Səfəvi və Əfşarlar sülaləsinin süqutu, dövlətin iqtisadiyyatının tənəzzülü və ucqarlarla iqtisadi əlaqələrin zəifliyi idi. Şəhərlərdə ticarətin tənəzzülə uğraması şah xəzinəsinin gəlirinin azalmasına səbəb olmuşdu. Xanlıqların meydana çıxmasında və bu prosesin sürətlənməsində xalq kütlələrinin üsyanlarının da təsiri var idi. Dövlətdə çox az yer tapmaq olardı ki, orada hökumətə qarşı üsyan baş verməsin. XVIII əsrin 30-40-cı illərində Nadir şahın hakimiyyətinə qarşı üsyanlar daha kəskin xarakter almışdı [12, s.66-74].

Bütün bunlarla yanaşı, siyasi pərakəndəliyin, mərkəzdənqaçma meyllərinin başqa bir səbəbi yeni dövlət quruluşu, idarəetmə sistemi axtarışları ilə bağlı idi. Müxtəlif sosial təbəqələr, o cümlədən zənginlər və yoxsullar köhnə şahlıq qaydaları ilə yaşamaq istəmir, yeni, mütərəqqi münasibətlərin yaranmasını istəyirdilər. Bu yenilik axtarışları Azərbaycanda artıq XIV-XV əsrlərdə Hürufilik hərəkatı ilə özünü göstərməyə başladı, cəmiyyətin yeni qaydalarla, kamil insanlar tərəfindən idarə olunması tələbləri qoyuldu. Bu ideya XVIII əsrin birinci yarısından başlayaraq Azərbaycanda yerli hakimlərin mərkəzdən asılılığı azaltmaq və ya heçə endirmək təşəbbüsləri ilə həyata keçirilirdi. Avropada oxşar ideyalar XVI əsrdən etibarən formalaşdı və inqilablarla nəticələndi. Azərbaycan xanları yeni ideyanın, idarəetmə qaydalarının həyata keçirilməsi, döv-

lətçiliyin inkişafında yeni dövrün başlanması üçün xarici ölkələrlə təmas qurmağa, dəstək almağa çalışırdılar. Qacarların İngiltərə və Fransa ilə, Quba, Qarabağ xanlıqlarının Rusiya ilə yaxınlaşması bu məqsədlərə xidmət edirdi. Ayrı-ayrı dövlətlər isə xanların bu təşəbbüslərindən özlərinin müstəmləkəçilik niyyətləri üçün istifadə etdilər. XVII əsrin sonu-XVIII əsrin əvvəllərində Qərbi Avropa dövlətləri, həmçinin Rusiya yeni-yeni müstəmləkələr ələ keçirməyə çalışırdılar. Bu və ya digər dövlətlər Azərbaycanı ələ keçirmək üçün müxtəlif vasitələrə əl atır və onlar arasında kəskin mübarizə gedirdi. Rusiya öz planlarını həyata keçirmək üçün ayrı-ayrı Azərbaycan xanlarına müstəqillik vəd edirdi [8, s.208]. Ona görə də bir sıra xanlar rus çarına məktublarla müraciət edirdilər. Bu vəziyyət xanlıqların müstəqil və yeni qaydalarla yaşamaq istəyindən irəli gəlirdi.

Azərbaycanda xanlıqların yaranması bir tərəfdən, yeni idarəetmə qaydaları baxımından müsbət hadisə idi, digər tərəfdən isə, mənfı hal olub, ölkənin birliyini parçalayır, xarici düşmənlərə qarşı müqaviməti zəiflədirdi. Lakin ayrı-ayrı xanlıqların yeni ideyalara uyğun yeritdiyi siyasət nəticəsində müəyyən ərazilərdə iqtisadi inkişaf baş verirdi. Xanlıqların paytaxtı olan şəhərlər iqtisadi və mədəni mərkəzlərə çevrilirdi. Azərbaycan xanlıqları bir-biri ilə mübarizə aparır və hər biri özünün rəhbərliyi ilə Səfəvi sülaləsinin dövründəki Azərbaycan dövlətini bərpa etməyə çalışırdı. XVIII əsrin ortalarında Əfşarlar sülaləsinin süqutundan sonra Azərbaycan ərazisində 20 xanlıq yarandı. Onların 12-i Azərbaycanın şimalında -Şəki, Bakı, Şirvan, Qarabağ, Quba, Gəncə, Dərbənd, Naxçıvan, İrəvan, Salyan, Lənkəran, Cavad; 8-i isə Azərbaycanın cənubun-

da - Təbriz, Urmiyə, Xoy, Qaradağ, Marağa, Ərdəbil, Sərab, Maku yarandı. Qarabağ xanlığının tərkibində 5 məliklik: Vərəndə, Gülüstan (Talış), Dizaq, Çiləbörd, Xaçın (məliklər mərkəzi hakimiyyətin, həmçinin xanların təyin etdiyi yerli icra nümayəndələri idi) mövcud idi. Eyni zamanda Car-Balakən Camaatı, 5 sultanlıq - Şəki xanlığına tabe olan İlisu, Qəbələ, Ərəş və müəyyən dövrlərdə Şəki xanlığına, yaxud da Kartli-Kaxetiya knyazlığına tabe olan Qazax, Şəmsəddil sultanlıqları əmələ gəldi [7, s.193]. Qarabağ məlikləri ilə bağlı bəzi siyasi möhtəkirlik cəhdlərini nəzərə alaraq qeyd olunmalıdır ki, bunlar alban əsilli məliklər tərəfindən idarə olunurdu ki, əhali də albanlardan ibarət idi. Onlar hətta XVIII əsrdə Rusiya hökmdarlarına yazdıqları məktublarda özlərini "alban türkləri" [9, s.15; 11] adlandırırdılar, sonrakı nəşrlərdə ifadə dəyişdirilərək "alban müsəlmanları" şəklində verilib [6, s.30].

XVIII əsrin ortalarında cənubi Azərbaycanda yaranmış xırda dövlətlərdən biri Urmiya xanlığı idi. Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda daha çox mübarizə aparmış bu xanlığın mərkəzi Urmiya şəhəri idi. Xanlığın əsasını Əfşar tayfasından olan Fətəli xan Əfşar (1747-1763) qoymuşdu. Fətəli xan mərkəzi hakimiyyət uğrunda mübarizənin qızışmasından istifadə edərək yeni ərazilər ələ keçirməyə çalışdı. Təbrizdə baş verən üsyanlar və hərbi müdaxilələr nəticəsində yerli hakim Əmiraslan xan öldürüldü. Bundan istifadə edən Fətəli xan Əfşar 1748-ci ildə Təbrizi tutdu və paytaxtı buraya köçürdü [4, s.22, 63]. Bununla, Fətəli xan Əfşar Azərbaycan torpaqlarının birləşdirilməsi üçün fəaliyyətə başladı. Fətəli xan Nadir şahın sərkərdələrindən olan Azad xanı öz tərəfinə çəkdi. Vəziy-

yətin çətinləşdiyini görən Xoy xanı Şahbaz xan Fətəli xanla ittifaqa girməyə məcbur oldu. Bundan sonra Fətəli xan qoşun yeridərək Qaradağ, Marağa və Sərab xanlıqlarını da tutdu [8, s.209].

XVIII əsrin ortalarında Fətəli xan Əfşar Kərim xan Zənd (Kərim xan Zənd özünü Səfəvilərin vəkili kimi təqdim edirdi, əslində isə o, İsfahan və ya Şiraz xanı olaraq fəaliyyət göstərir, hakimiyyət uğrunda mübarizədə farsları təmsil edirdi) və Məhəmmədhəsən xan Qacarla mübarizəyə başladı. O, bu məqsədlə ayrı-ayrı hökmdarlara müraciət edib, onları ittifaqa çağırdı. O, öz müttəfiqləri ilə birlikdə 1752-ci ildə Miyanə (indiki İranın Şərqi Azərbaycan vilayətində şəhər) yaxınlığında Kərim xan Zəndi məğlub etdi. Kərim xan Fars vilayətinə qaçmalı oldu. Fətəli xan həmin 1752-ci ildə onu təqib edərək, Qəmşə adlı yerdə yenidən məğlubiyyətə uğratdı [7, s.199]. Bu döyüşdə Kərim xanın qardaşı İskəndər xan əsir götürüldü və öldürüldü.

Bu illərdə Fətəli xanın idarə etdiyi ərazinin sərhədləri indiki İranın cənubuna qədər uzanırdı. Lakin farsların Zənd nəslindən olan Kərim xan əvvəl Şirazı, sonra isə İsfahanı ələ keçirdi [13, s.122]. Fətəli xanın mərkəzi hakimiyyət uğrunda mübarizəsi zəiflədi. Bundan istifadə edən Qacarlar fəallaşdı. Məhəmmədhəsən xan Qacar (o, Şah I Abbas tərəfindən Gəncədən köçürülmüş türk Qacarlar nəslindən idi, Astarabad şəhərinin hakimi idi) 1755-ci ildə Zəndlər üzərində qələbə qazandı və 1756-cı ildə İsfahana daxil oldu. Kərim xan Zənd Şiraza qaçdı. Məhəmmədhəsən xan Rəşti, Ərdəbili, Lənkəranı, Təbrizi və Urmiyanı tutdu [10, s.5-7]. 1759-cu ildə Məhəmmədhəsən xan Qacar Kərim xan Zəndlə döyüşdə məğlub oldu və öldürüldü. Bundan

sonra Fətəli xan yenidən hakimiyyətini möhkəmləndirməyə başladı. 1759-cu ildə Fətəli xan Qarabağa hücum etdi və Şuşanı mühasirəyə aldı. Şəhər üçün ciddi təhlükə yarandığını görən Qarabağlı Pənahəli xan Fətəli xandan asılılığı qəbul etdi və oğlu İbrahimxəlil ağanı onun yanına girov göndərdi [5, s.132]. Tezliklə Fətəli xan İrəvan, Şəki və Ərəşi də Urmiya xanlığına tabe etdi. Kərim xan Zənd 1760-cı ildə hücum edərək Təbrizi mühasirəyə aldı. Təbrizi dörd ay mühasirədə saxlasa da tuta bilmədi. 1761-ci ildə Kərim xan yenidən hücuma keçdi, lakin Qaraçəmən yaxınlığında məğlub oldu. Fətəli xan Əfşar bu uğurlardan sonra arxayınlaşdı. Bundan istifadə edən Kərim xan yeni qüvvə ilə hücum edərək Təbrizi aldı. Fətəli xan Urmiya qalasına çəkildi. 1763-cü ildə 9 aylıq mühasirədən sonra Kərim xan Urmiya qalasını aldı. Urmiyanın mühasirəsində Qarabağlı Pənah xan və onun Fətəli xanın girovluğundan qaçaraq gəlmiş oğlu İbrahim bəy də iştirak edirdi. Əksər xanların Kərim xan Zəndlə birlikdə təzyiqi qarşısında Fətəli xan təslim oldu, Onlarla birlikdə Şiraza yola düşdü. Fətəli xanın, Pənah xanın və digərlərinin "qonaq" adı ilə Şiraza aparılması Kərim xan Zəndin bir hiyləsi idi, o, "Şiraz qonaqlığı" adı altında əslində rəqiblərini girov götürmüşdü. Onlar Şiraza doğru yolda, İsfahan yaxınlığında Kərim xanın qardaşı İskəndər xanın Fətəli xan tərəfindən öldürüldüyü yerə gəldilər. Fətəli xan Əfşar orada, 1763-cü ildə edam olundu [4, s.77-78].

XVIII əsrin ortalarında yaradılmış Xoy xanlığının mərkəzi Xoy şəhəri idi. Xanlığı Dünbili nəslindən olan Şahbaz xan idarə edirdi. O Urmiyalı Fətəli xanla ittifaqa girmişdi. Kərim xan Zənd Fətəli xana qalib gəldikdən

sonra «Şiraz qonaqlığı» adı altında Şiraza aparılan Şahbaz xan orada 1763-cü ildə vəfat etdi [3]. Qaradağ xanlığının mərkəzi Əhər şəhəri idi. XVIII əsrin birinci rübündə mərkəzi hakimiyyət zəiflədiyinə görə, Qaradağlı Kazım xan müstəqilliyini elan etmişdi. Kazım xan mərkəzi hakimiyyətə tabe olmadığına görə Nadir şah onun gözlərini çıxartmışdı. Nadir şahın ölümündən sonra Qaradağ xanlığı yenidən müstəqillik əldə etmişdi. Kazım xanın 1763-cü ildə vəfatından sonra xanlığın ciddi rolu olmamışdır [2]. Təbriz xanlığı XVIII əsrin ortalarında Azərbaycanda yaranmış müstəqil qurum idi. Xanlığın mərkəzi Təbriz şəhəri idi. Nadir şahın qohumu Əmiraslan xan qısa vaxtda Təbriz, Xalxal, Ərdəbil və Azərbaycanın bir sıra cənub əyalətlərini özünə tabe edərək, 1748-ci ildə Təbriz xanlığını yaratdı. Əmiraslan xan Nadirin ölümündən sonra hakimiyyətə gəlmiş Əliqulu xanın (Adil şahın) hakimiyyətini tanımadı. Lakin həmin ilin sonunda Adil şahın öz qardaşı İbrahim Mirzə tərəfindən hakimiyyətdən uzaqlaşdırılması vəziyyəti xeyli dəyişdi. İbrahim Mirzə böyük qüvvə ilə Əmiraslan xanın üzərinə hücum edib Təbrizə daxil oldu. Əmiraslan xan məğlub oldu və öldürüldü. Məşhəd və İsfahanda baş vermiş üsyan xəbərini eşidən İbrahim xan böyük hərbi qüvvə ilə oraya yola düşdü. Məşhəddəki döyüşdə İbrahim xan həlak oldu. Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirmək istəyən Fətəli xan Əfşar Təbrizi tutdu və paytaxtı Urmiyadan buraya köçürdü. XVIII əsrin ortalarında yaranmış xanlıqlardan biri də Ərdəbil xanlığı idi. Bu xanlığın mərkəzi Ərdəbil şəhəri idi. Xanlığın əsasını Şahsevən nəslindən olan Bədr xan (1747-1763) qoymuş və dövləti siyasi cəhətdən möhkəmləndir-

mişdi. Bədr xanın oğlu Nəsir xanın dövründə (1763- 1808) Zəndlər və Qacarlarla münasibət kəskinləşdi. Amma Nəsir xan Qarabağlı İbrahim xanla dostluq əlaqələri yaratdı. Lənkəran xanlığı ilə də mehriban qonşuluq münasibətində idi [1, s.160].

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik (yenilənmiş üçüncü nəşri). Mehman Abdullayevin elmi redaktorluğu ilə. Bakı, "Bakı Universiteti", 2016.

2. Çingizoğlu Ə., Qacar M. Qaradağ xanlığı. Bakı, "Mütərcim", 2011.

3. Çingizoğlu Ə. Xoy xanlığı. Bakı, "Mütərcim", 2012.

4. Çingizoğlu Ə., Məmmədli B. Urmiya xanlığı. Bakı: SDU nəşriyyatı, 2013.

5. Quliyeva G. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi münasibətləri. (XVIII əsrin II yarısı). Bakı, "Nurlan", 2002.

6. Nəcəfli G. Çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq fəaliyyəti. Avtoreferat. Bakı, 2024.

7. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Texniki Ali Məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil", 2019.

8. Qəniyev H. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Ali Məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2019.

9. Mahmudov.Y. The resettlement of Armenians to the lands of North Azerbaijan the irrefutable truth of history/ Y.Mahmudov, G.Najafli.- Baku, Turkhan, 2020.

10. Кузнецова Н.А. Иран в первой половине XIX века. Москва, Наука, 1983.

11. Послание четырех карабахских меликов Петру I с просьбой оказать им помощь (март 1723 г.)// АВПРИ, фонд №100 «СРА» он. 100/4, дело 1, л.л. 2-3 об; л.л. 10-11. цит. по: Güntəkin Cəmil Qızı Nəcəfli. Çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq fəaliyyəti. Avtoreferat. Bakı, 2024.

12. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Ленинград, изд. Ленинградского государственного университета им. А.А.Жданова, 1949.

13. Строева Л.В. Керим-хан Зенд и ханы// Иран: история и современность. Москва, Наука, 1983.

## *§ 2. Azərbaycanın Şimal xanlıqları. Şəki, Quba, Qarabağ xanlıqları.*

Şimalda Şəki, Quba, Qarabağ xanlıqları daha məşhur idilər. 1743-1744-cü illər üsyanı nəticəsində Şəki xanlığı, ilk müstəqil xanlıq yaradıldı. Xanlığın əsasını qoyan Hacı Çələbi olmuşdur [19]. Müstəqil Şəki xanlığının yaradılması əslində Azərbaycanın böyük bir hissəsində dövlətçiliyin bərpası demək idi. Şəki xanlığı Hacı Çələbinin dövründə xeyli qüvvətlənmiş, fəal siyasət yeridərək ətraf torpaqları özünə birləşdirmişdi. Hacı Çələbi əlverişli şəraitdən istifadə edərək Təbrizə qədər irəliləmiş, lakin Əmiraslan xan onu geri çəkilməyə məcbur etmişdi. H.Çələbi Şirvan xanı ilə birləşərək 1748-ci ildə Qarabağa hücum etdi. Lakin Bayat qalasını bir ay mühasirədə saxladıqdan sonra məğlub olub geri çəkildi. H.Çələbi Kürdən keçərkən məyus halda

demişdi: "Pənah xan bu vaxtacan sikkəsiz gümüş idi. Biz gəldik ona sikkə vurduq və qayıtdıq" [7]. H.Çələbi yenə öz planlarından əl çəkmirdi. Bir qədər sonra Ərəş (indiki Yevlax rayonu Xaldan qəsəbəsi) və İlisu sultanlıqlarını özündən asılı vəziyyətə saldı [5, s.8-15]. Beləliklə, Şəki xanlığı bu dövrdə Azərbaycan xanlıqları içərisində ən güclüsü oldu.

Şəki xanlığının güclənməsi, onun Car-Balakən və Gəncə torpaqlarını birləşdirmək planları bir sıra Azərbaycan xanları və Kartli, Kaxeti knyazlarını ciddi narahat edirdi. Gürcü hakimləri Carı ələ keçirməyə çalışırdılar. Lakin 1751-ci ildə onların qoşunları Carda H.Çələbi tərəfindən məğlub edildi. 1752-ci ildə Temuraz (Kartli knyazı) və İrakli (Kaxeti knyazı) Hacı Çələbiyə qarşı ittifaq yaratmaq istədilər. Onlar bu məqsədlə Qarabağ xanı Pənahəlini öz tərəflərinə çəkərək onunla ittifaqa girdilər. İttifaqa Naxçıvanlı Heydərqulu xan, Qaradağlı Kazım xan, Gəncəli Şahverdi xan, İrəvanlı Hüseyn xan da cəlb edildi. 1752-ci ilin martında müttəfiqlər Gəncə yaxınlığında Qızılqaya adlanan yerdə görüşdülər. Lakin İrakli xəyanət edərək xanları əsir aldı. Kürün sol sahilində düşərgə salmış H.Çələbi xanların əsir alınması xəbərini aldıqda hücum edərək gürcüləri təqib etməyə başladı. Ağstafa çayı yaxınlığında gürcüləri məğlub etdi və xanları əsirlikdən azad etdi, Borçalı və Qazax sultanlıqlarını ələ keçirdi, oğlu Ağakişini ora hakim təyin etdi. Rusiyanın "Sankt-Peterburqskie vedomosti" qəzetinin 23 noyabr 1753-cü il tarixli sayında bu hadisə ilə bağlı məqalədə yazılmışdı: "İran (Azərbaycan.-A.N.) vilayətinin beş xanı... gürcü çarı ilə birləşib şəkili Hacı Çələbinin üzərinə hücum etmişlər... Hacı Çələbi onları

məğlub edib" [11]. Tariximizə «Qızılqaya xəyanəti» kimi daxil olmuş bu hadisə bir daha göstərdi ki, Azərbaycan xanları birləşməli və ümumi düşmənə qarşı vahid cəbhədə mübarizə aparmalıdırlar. 1752-ci ilin yazında H.Çələbi dostluq münasibətləri yaratmaq üçün Temurazın sarayına elçi göndərdi. Lakin Temuraz Kabarda hakimindən 2 min qüvvə alaraq Ağakişini Borçalı və Qazaxdan çəkilməyə məcbur etdi. Sonrakı il H.Çələbi Cara hücum etsə də, məğlub oldu. Şirvan torpaqlarını özünə birləşdirmək üçün 1755-ci ildə H.Çələbi oraya hücum etdi. Ağsunu mühasirə etsə də, məğlub olub geri çəkildi. H.Çələbi 12 il xanlıq etdikdən sonra 1755-ci ildə vəfat etdi [5, s.12].

Onun ölümündən sonra Şəki xanlığında hakimiyyət uğrunda mübarizə gücləndi, Şəki xanlığı öz əvvəlki qüdrətini itirdi, Azərbaycanın siyasi həyatında elə bir rol oynaya bilmədi. Hakimiyyətə H.Çələbinin oğlu Ağakişi keçdi. O, qayınatası qazıqumuxlu Məhəmməd Həsən xan tərəfindən Ərəşdə öldürüldü. H.Çələbinin nəvəsi, Həsən ağanın oğlu Məhəmmədhüseyn (1759-1780) Qubalı Fətəli xanınköməkliyi ilə hakimiyyətə gəldi. 1768-ci ildə Qubalı Fətəli xan onunla birlikdə Şirvanı tutdular. Birgə qələbədən sonra Şirvanın bir hissəsi Şəkinin payına düşdü, lakin Fətəli xan bundan narazı qaldı. Məhəmmədhüseyn xan bunu hiss etdikdə Şirvan xanı Ağası ilə yaxınlaşdı. 1768-ci ildə Fətəli xan Məhəmmədhüseyn xanı məğlub etdi və 1769-cu ildə onlar arasında bağlanılan müqaviləyə görə Məhəmmədhüseyn xan Fətəli xandan asılı vəziyyətə düşdü. 1780-ci ildə o, əmisi Əbdülqadir tərəfindən öldürüldü. Onun övladları Məhəmmədhəsən, Səlim və Fətəli hakimiyyətdə bir-birini əvəz etdilər. Məhəmmədhəsən

Cardan qoşun toplayaraq 1783-cü ildə hakimiyyəti ələ keçirdi. O, Şəki qalasını tikdirmiş, xanlıq üçün «Dəsrur-ül Amal» (Qanunlar məcmuəsi) qanunnaməsi hazırlamışdı. O, Fətəli xanın siyasətinə qarşı çıxdı, lakin 1785-ci ildə məğlub edildi. Fətəli xan onu özündən asılı vəziyyətə saldı [5,s.13]. Qubalı Fətəli xanın vəfatından (1789-cu il) sonra müstəqil fəaliyyətini davam etdirdi.

Quba xanlığı Azərbaycanın ərazisində erkən yaranmış dövlət qurumlarından biri idi. Xanlığın əsası XVII əsrin sonuncu rübündə qoyulmuşdu. Tarixi mənbələrdə Qubanın ilk xanı Hüseynin 1689-cu ildə öldüyü qeyd olunur. Ondan sonra hakimiyyətdə oğlu Əhməd xan, onun oğlu Sultan Əhməd xan və 1718-ci ildən onun oğlu Hüseynəli xan oldu. Xanlığın mərkəzi əvvəl Xudat qalası, sonra isə, 1735-ci ildən Quba olmuşdur [18, s.140]. Quba Rusiyanın nəzarətinə keçdikdən sonra 1726-cı ildə çar hökuməti Hüseynəli xanın xanlıq səlahiyyətini təsdiq etdi. O, çar xəzinəsinə xərac vermir, ancaq yeri gəldikdə öz qoşunları ilə Rusiyaya kömək edirdi. Sonra Quba xanlıgı Nadir şahdan asılı vəziyyətə düşdü. Onun ölümündən sonra isə müstəqillik qazanıldı. Hüseynəli xanın 1758-ci ildə vəfatından sonra hakimiyyətə oğlu Fətəli xan keçdi [1]. Fətəli xan Qaytaq qumuqlarından və qacarlardan olan Azərbaycan türkü idi. Onun babası Hüseyn bəy Şah II Abbasın (1642-1666) və onun oğlu Şah Süleymanın (1666-1694) vaxtında İsfahanda sarayda olmuş, Qacarlar nəslindən olan Zöhrə xanımla evlənmiş və onların xan nəsli başlanmışdı. Təsadüfi deyil ki, Ağa Məhəmməd şah Qacar Quba xanlarını özünün qohumları adlandırırdı. Həmin Hüseyn bəy şiəliyi də İsfahanda qəbul etmişdi [15, s.122-123].

Fətəli xanın (1758-1789) dövründə Quba xanlığının nüfuzu daha da artdı. O, 22 yaşında Qubanın xanı olmuş, yeni-yeni torpaqları bu xanlığa birləşdirmişdir. Quba xanı öz ərazisini genişləndirmək üçün müxtəlif vasitələrə əl atırdı. O, bəzi hakimləri zorla, bəzilərini qohumluq əlaqəsi ilə özündən asılı vəziyyətə salırdı. Əhalinin aşağı təbəqəsi də Fətəli xanın birləşdirmə siyasətinə tərəfdar idilər. Fətəli xan dövrünün görkəmli dövlət xadimi idi. O, ilk növbədə qoşunlarını artırdı. Vergi islahatları keçirdi. A.Bakıxanov yazır: «Fətəli xan tədbirli, əzmində sabit qədəm, məmləkətin idarəetmə işlərində mahir bir adam idi» [2, s.71]. Onun Azərbaycan torpaqlarını birləşdirmək siyasəti mütərəqqi hadisə idi.

Mühüm qala və ticarət limanı olan Dərbəndin Qubaya birləşdirilməsi böyük əhəmiyyət kəsb edirdi. Fətəli xan Dağıstan hakimləri - Tarku, Qaraqaytaq və Tabasaran hakimləri ilə əlaqəyə girib Samurun sağ sahilində olan torpaqları ələ keçirdi, sonra isə Dərbəndi mühasirə edib, 1760-cı ildə tutdu. Dərbəndin xəzinəsi və xanın əmlakı ələ keçirildi. Bakı həm dəniz limanı, həm də Xəzər dənizində mühüm ticarət mərkəzi idi. Buradan çıxarılan neft böyük gəlir gətirirdi. Fətəli xan bacısı Xədicə Bikəni 1767-ci ildə zəif iradəli Bakı xanı Məlik Məhəmməd xana verməklə onu özündən asılı vəziyyətə saldı. 1781-ci ildə onun ölümündən sonra Bakının xanı oğlu Mirzə Məhəmməd oldu. İstənilən halda Bakı Xədicə bəyim tərəfindən idarə olunurdu [10, s.103].

Fətəli xan öz müvəffəqiyyətlərini genişləndirərək Şirvan xanlığını tabe etmək uğrunda mübarizəyə başladı. 1768-ci ildə Şəki və Quba qoşunları Şamaxıya hücum etdi.

Şirvanlı Ağasi xan məğlub edildi, gözləri çıxarılıb Kür sahilində Ketavan qalasına göndərildi. Şirvan torpaqları Şəki və Quba xanlıqları arasında bölüşdürüldü [2, s.160]. 1768-ci ildə Cavad xanlığı Quba xanlığından asılı vəziyyətə düşdü [13, s.231]. XVIII əsrin 60-cı illərində Quba xanlığı Azərbaycanın şimal-şərq torpaqlarını öz hakimiyyəti altında birləşdirdi. Təbriz və Ərdəbil əhalisi Fətəli xanın himayəsinə sığınmaq arzusunda olduqlarını bildirdilər. Gəncə və Qarabağ xanlıqları istisna olmaqla əksər xanlıqlar Fətəli xanın hakimiyyətini qəbul etdi.

Ərazi genişləndikcə, şöhrət artdıqca Fətəli xana qarşı əks qüvvələr birləşirdi. Şəki və Dağıstan hakimlərinin birləşmiş qüvvələri 1774-cü ildə Xudat yaxınlığında Kavduşan çölündə Fətəli xanla döyüşə girdilər və onu məğlub etdilər. Fətəli xan Salyana çəkildi. Fətəli xanın qaynı, arvadı Tuti Bikənin qardaşı, Qaytaq hakimi Əmir Həmzə Qubanı tutdu, Dərbəndi mühasirəyə aldı. Şəhərin müdafiəsinə Tuti Bikə rəhbərlik edirdi. Əmir Həmzə onu aldadıb şəhərə girmək üçün şaiyə yaydı ki, Fətəli xan ölüb. Hətta bacısını tam inandırmaq üçün ölmüş bir Dağıstan hakiminin meyidini müşayiət edən matəm mərasimi təşkil etdi. Lakin hiylə baş tutmadı. Dərbənd 9 ay mühasirədə qaldı, Fətəli xan dəniz yolu ilə oraya qayıda bildi [2, s.68]. 1775-ci ildə Fətəli xanın xahişi ilə rus hökuməti general İvan Medemin başçılığı ilə Dərbəndə qoşun göndərdi. Əmir Həmzə Qubadan və Dərbənd ətrafından çəkildi [16, s.137].

XVIII əsrin ortalarında Azərbaycanda yaranan xanlıqlar arasında əsası Pənahəli xan tərəfindən qoyulmuş Qarabağ xanlığı böyük nüfuza malik idi. Xanlığın əhalisini Cavanşir, İyirmi dörd, Otuzikilər, Kəbirli, Ziyadoğlu, Baharlı

türk tayfaları təşkil edirdi. Pənahəli xan Qarabağda yaşayan Cavanşirlər nəslinin Sarıcalılar qolundan idi [12, s.7]. Tarixçilərin verdiyi məlumata görə ata-babaları adlı-sanlı, dövlətli şəxslər olub. Pənahəli gəncliyində qardaşları Behbudəli və Fəzləli ilə birlikdə Nadir şahın yanında xidmət etmişdi. Lakin qardaşı Fəzləli bəyin (Qarabağın əsas nəsilləri Nadirin özünü şah elan etməsinə qarşı çıxmışdılar. Buna görə Nadir şah onları Xorasana sürgün etmək qərarı vermişdi. Fəzləli bəy bu qərarın əleyhinə fikirlər səsləndirdiyinə görə 1738-ci ildə edam edilmişdi) Nadirin qəzəbinə düçar olmasından sonra Pənahəli Qarabağa qaçdı və burada ətrafına dəstələr toplayaraq yaxın ərazilərə yürüşlər təşkil etdi [9, s.29-30].

Nadirin ölümündən sonra Pənahəli (1748-1763) 1748-ci ildə Qarabağda öz hakimiyyətini möhkəmlətmək üçün cavanşirlər, otuzikilər və başqa nəsillərin qüvvələrindən istifadə etdi. Nadirin Qarabağdan Xorasana köçürdüyü nəsillər XVIII əsrin ortalarında yenidən öz yerlərinə qayıdaraq, dinc əməklə məşğul olmağa başladılar [17, s.47-48]. Pənahəli paytaxt olaraq 1748-ci ildə Kəbirli mahalında Bayat qalasını tikdirdi. Xanın ailəsi və qohumları buraya köçürüldü [8, s.126-127]. Qarabağ xanlığının qüvvətlənməsi digər xanları narahat etməyə başladı. Şəki xanı Hacı Çələbi Şirvan xanı ilə birləşərək Qarabağa hücum etdi, lakin müvəffəqiyyət qazana bilmədi. Pənahəli xanın bu qələbəsi onun nüfuzunu daha da artırdı, Qarabağın bütün əhalisi onun hakimiyyətini qəbul etdi. Pənahəli gələcəkdə öz düşmənləri ilə daha müvəffəqiyyətli mübarizə aparmaq məqsədi ilə Ağdam yaxınlığında 1751-ci ildə Şahbulaq qalasını tikdirdi, 1752-ci ildə isə Şuşa (Pənahabad) qalasının əsasını qoyaraq oraya köçdü [14, s.9-10].

Pənahəli xan Qarabağın vaxtilə Nadir şah tərəfindən təyin olunmuş beş məliyini özündən asılı vəziyyətə saldı. Nadir şahın vaxtında inzibati vahid kimi məlikliklər yaradıldı. Bu cür məlikliklər Azərbaycanın digər yerlərində də yaradılmışdı, məsələn, Bərgüşad məlikliyini göstərmək olar. Nadir şah Qarabağ bəylərbəyliyini, Ziyadoğulları cəzalandırmaq məqsədi ilə Qazax və Borçalı mahallarını onlardan alıb Gürcüstan valisinə verdiyi kimi, "Bərgüşad və Xəmsə məlikliklərini də onların ixtiyarından çıxarıb, Azərbaycan sərdarına tapşırdı" [2, s.72]. Yəni bu ərazilər hansısa müstəqil qurum deyildi, şahın, indi isə xanın hökmü ilə yaradılan, bir vilayətdən digərinin asılılığına verilən inzibati ərazi vahidləri idi. Mirzə Adıgözəl bəyin "Qarabağnamə" əsərində göstərildiyi kimi bunlar Qarabağın 5 mahalı idi: "Bu mahallardan biri Dizaq idi. Məlikləri Yeqan Loridən qaçıb gəlmişdi... Nadir şahın vaxtında məlik təyin olunmuşdu... Vərəndənin məliyi Şahnəzərlilərin əsilləri Göyçə əsilzadələrindən idi. Oradan qaçıb Qarabağa gəlmişdilər... Xaçın məliyi Mirzə isə Həsən Cəlalın nəslindən idi, onu Pənah xan məlik təyin etmişdi... Çiləbörd məliyi Allahqulunun əsli Maqavizdən idi,... onları Nadir şah məlik təyin etmişdi... Gülüstan məliyi Usubun nəsli Şirvandan gəlmişdi [8, s.43-44]. Pənahəli xan öz ərazisini cənubi-qərbə doğru genişləndirərək Qarakilsə (Ermənistan SSR Ali Soveti Rəyasət heyətinin 02.03.1940-cı il qərarı ilə Sisavan, sonradan Sisyan adlandırılmışdır), Qafan, Mehrini xanlığa birləşdirdi. Xanlığın sərhədləri şimalda Gəncə xanlığına, şərqdə Kür-Arazın birləşdiyi yerə, cənubda Araz çayına, qərbdə isə Mehri, Qarakilsəyə qədər çatırdı.

Pənahəli xan yeni qalanı möhkəmlətməklə məşğul olarkən Cənubi Azərbaycan hakimləri dəfələrlə buraya hücum edirdilər. 1757-ci ildə Məhəmmədhəsən xan Qacarın qoşunları Qarabağa hücum etdi. O, Pənahabadı mühasirə etməyə cürət etmədi. Şuşanın 30 verstliyində (1 verst=1,06 km.) "Xatın arxı" yanında baş verən döyüşdə məğlub oldu. Pənahəli xan iki ağır top qənimət götürdü. Kərim xan Zəndin ona qarşı çıxış etdiyini eşidən Məhəmmədhəsən xan geriyə qayıtdı [4, s.76]. 1759-cu ildə Qarabağa Urmiya xanı Fətələi xan Əfşarın 30 minlik qoşunu hücum etdi. 6 ay davam edən mübarizə Pənahəli xanın Fətəli xandan asılılığı qəbul etməsi və oğlu İbrahimxəlili onun sarayına girov verməsi ilə nəticələndi [4, s.77].

Kərim xan Zənd 1761-ci ildə Fətəli xan Əfşara qarşı sərt mübarizəyə başladı və onu məğlub etdi, sonra Urmiya qalasına çəkilən Fətəli xanı mühasirəyə aldı. Kərim xan bu vaxt qarabağlı Pənahəli xanı, qaradağlı Kazım xanı, naxçıvanlı Hacı xan Kəngərlini, xoylu Şahbaz xanı və digərlərini öz tərəfinə çəkə, Urmiyanın mühasirəsinə cəlb edə bildi. Birgə qüvvələrin səyi ilə 9 aylıq mühasirədən sonra 1763-cü ildə Urmiya alındı. Kərim xan Zənd İbrahimxəlil bəyi girovluqdan azad edərək, xanlıq fərmanı ilə Qarabağa göndərdi [4, s.78]. Onunla birlikdə döyüşmüş xanları, o cümlədən, Pənahəli xanı qonaqlıq adı ilə Şiraza dəvət etdi. Tarixə "Şiraz qonaqlığı" adı ilə daxil olmuş bu hadisə əslində həmin xanların girov götürülməsi demək idi. Pənah xan 1763-cü ildə Şirazda Kərim xanın sarayında vəfat etdi. Onun nəşi Qarabağa gətirildi, Ağdamda, ailə məzarlığı olan "İmarət"də dəfn olundu [6, s.57]. İbrahimxəlil xan həmin vaxtdan rəsmi xanlığa (1763-1806)

başladı. İbrahimxəlil böyük qardaş olmasına baxmayaraq Pənahəli xan sağlığında kiçik qardaş Mehrəli bəyi varis təyin etmişdi. Mehrəli bəy vəsiyyətlə razılaşmadı, əvvəlcə dəstək qazanmaq üçün Kərim xan Zəndin, sonra Fətəli xan Qubalının yanına getdi. O, 1785-ci ildə Fətəli xan Qubalının tapşırığı ilə Bakıdan Qubaya gedərkən, yolda Şirvan hakimi Ağası xanın oğlu Əhməd bəy tərəfindən pusquya salınaraq öldürüldü [3, s.210-211; 8, s.170].

Beləliklə, hətta siyasi pərakəndəlik dövründə də Azərbaycanda müstəqilliyə malik olan dövlət qurumları yarandı, hərbi-siyasi güc mərkəzləri formalaşdı. Ayrı-ayrılıqda güclü olan bu dövlətlər-xanlıqlar son nəticədə Azərbaycanın ümumi gücünü zəiflətdi, daxili və xarici təhlükələrə qarşı müqavimət imkanlarını məhdudlaşdırdı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. “Azadlığ”ın Araşdırmaçı Jurnalistlər Qrupu. Quba xanlığı.- “Azadlıq”, 27 sentyabr 2011-ci il.- web.archive.org/web/20190112163845/ https:/www.azadliq.info/8806.html.

2. Bakıxanov A. Gülüstani-İrəm (Tərcümə edəni M.Əsgərli). (Əsər 1846-1848-ci illərdə fars dilində yazılmış, rus dilinə tərcümə edilmiş, bir hissəsi qəzetlərdə çap olunmuşdu. İlk dəfə kitab şəklində 1926-cı ildə, sonra 1951-ci ildə çap olunub). Bakı, Minarə, 2000.

3. Bayramova N.S. Şamaxı xanlığının Qarabağ xanlığı ilə əlaqələri tarixindən. Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2008, №4.

4. Çingizoğlu Ə., Əmrahov M., Həsənov H. Qarabağ xanlığı. Bakı, "Mütərcim", 2008.

5. Fateh K.A. Şəki xanlarının müxtəsər tarixi. (Kitabın müəllifi Şəkinin sonuncu xanı Fətəli xanın oğludur, əsər XIX əsrin

40-cı illərində Azərbaycan dilində yazılıb). Bakı, "Azərbaycan ensiklopediyası" nəşriyyat-poliqrafiya birliyi, 1993.

6. Hacıyeva Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı, "Təhsil", 2007.

7. Qarabağın tarixi.- sabunchu-ih.gov.az/az/page/431.html.

8. Qarabağnamələr. I kitab. Bakı, "Şərq-Qərb", 2006.

9. Mustafazadə T. Qarabağ xanlığı. Bakı, "Sabah", 2009.

10. Mustafazadə T. Quba xanlığı. Bakı, "Elm", 2005.

11. Şəki xanı Hacı Çələbinin qələbəsi Rusiya mətbuatında.-millikimlik.az/2021/4144/.

12. Bournoutian G.A. The 1823 Russian survey of the Karabagh province: a primary source on the demography and economy of Karabagh in the early 19 th Century. Costa Mesa, California: Mazda Publishers, 2011.

13. Абдуллаев Г.Б. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, изд. АН Азерб. ССР, 1965.

14. Авалов Э.В. Архитектура города Шуши и проблемы сохранения его исторического облика. Баку, «Элм», 1977.

15. Бакиханов А.А. Гюлистани Ирам. Баку, изд. «Элм», 1991.

16. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку, изд. АН Азерб. ССР, 1948.

17. Мирза-Адыгезал-бек. Карабагнаме, Баку, изд. АН Азерб. ССР, 1950.

18. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Ленинград, ЛГУ им. Жданова, 1949.

19. Шекинское ханство. https://bigens.ru/world_history/text/4693392 Шекинское ханство//Большая российская энциклопедия: [в35т] гл.ред. Ю.С.Осипов. Москва, Большая российская энциклопедия, 2004-2017.

### *§ 3. Vahid Azərbaycan dövlətinin bərpa edilməsi uğrunda mübarizə.*

XVIII əsrin 60-70-ci illərinə qədər Azərbyacanın şimal və cənubunda əsasən xanlıqların formalaşması prosesi getdi. Nəticə olaraq, üç güc mərkəzi meydana gəldi. Bunlara Ağa Məhəmməd xanın Qacarlar, İbrahimxəlil xanın Cavanşirlər sülaləsi və Fətəli xan Qubalının təmsil etdiyi hərbi-siyasi birlik və ya Qumuq-Qacar sülaləsi daxil idi. Bu üç sülalə mərkəzləşmiş Azərbaycan dövlətinin bərpa edilməsi uğrunda bir-biri ilə mübarizə aparırdı. Əgər xarici müdaxilələr olmasaydı, onlardan hər hansısa biri nəticə əldə edib, mərkəzləşmiş dövlətimizin bərpasına nail olardı. Lakin xarici müdaxilələr buna imkan vermədi.

XVIII əsrin ikinci yarısında Rusiyanın Qafqaza marağı daha da artmışdı. Rusiyanın Cənubi Qafqazı, Xəzər hövzəsini ələ keçirmək üçün xüsusi planı var idi. Eyni zamanda Türkiyə də fəallaşmışdı. 1768-1774-cü illərdə Türkiyə-Rusiya müharibəsi dövründə Türkiyə Sultanı III Mustafa öz elçilərini Azərbaycan və Dağıstana göndərir, müxtəlif vədlərlə yerli hakimləri öz tərəfinə çəkməyə çalışır, onları Rusiyaya qarşı birgə mübarizəyə çağırırdı. Türkiyə Azərbaycanın ən güclü siyasi lideri Fətəli xanı öz tərəfinə çəkməyə daha çox cəhd edirdi. Türkiyə nümayəndəsi Fətəli xanın yanına gəlmiş, onu Rusiyaya qarşı çıxmağa təhrik etmişdi. Lakin Fətəli xan bu təklifı qəbul etməmişdi. 1769-cu ildə Bakıda olan rus konsulu öz hökumətinə bildirmişdi ki, Fətəli xan Rusiyaya qarşı müharibədə Türkiyəyə kömək təklifini qəbul etmədi və onun hədiyyələrini almadı. Fətəli xanın simasında özünə müttəfiq qazanmaq istəyən Kərim

xan Zənd 1774-cü ildə çoxlu hədiyyələrlə elçi göndərmişdi. Lakin Fətəli xan hədiyyələri qəbul etmədi və onun da təkliflni rədd etdi [9, s.220].

Fətəli xan və digər Azərbaycan xanları həmin vaxt Rusiyanın əsil niyyətlərini, onun mürtəce, işğalçı siyasətinin mahiyyətini bilmir, bu qonşu dövlətin köməyi ilə köhnə qaydalardan uzaqlaşıb, yeni tipli Azərbaycan dövləti quracaqlarına inanırdılar. Azərbaycanın siyasi liderləri Rusiyanı Avropada gedən mütərəqqi proseslərin, dindən ayrı milli dövlət quruculuğunun təmsilçisi kimi qəbul edirdi. Bu mənada Nadir şah Əfşarın din və dövlətin münasibətinə dair mövqeyi diqqətə çatdırılmalıdır. O, dinə hörmətlə yanaşır, eyni zamanda məzhəb qarşıdurmasını aradan qaldırmağa, hətta islam və xristian dinlərini barışdırmağa çalışırdı. Bu, siyasi pərakəndəlik, xanlıqlar dövründəki yeni xəttin, yeni tarixi dövrün ilk əlamətlərini təşkil edirdi. Fransalı Napoleon Nadir şaha fatehliyi ilə yanaşı, həm də yenilik tərəfdarı olduğuna görə pərəstiş edirdi. Deyilənlərdən çıxış edən Fətəli xan Rusiyanın köməyinə arxalanaraq, yeni qaydalar əsasında Azərbaycan torpaqlarını birləşdirməyə çalışırdı. O, bu istiqamətdə müəyyən nəticəyə nail oldu, 70-ci illər üçün Şimali Azərbaycan ərazilərinin yarısını nəzarətə götürdü [10, s.115]. Cənubi Azərbaycanda da bəzi milli qüvvələr, xüsusilə, Səfəvi sülaləsinin nümayəndələri Fətəli xanın yanına nümayəndələr göndərir, dəstəyini qazanmağa çalışırdı [15, s.188-189; 2, s.191]. Rusiyanın regiona göndərdiyi kəşfiyyatçıların qənaətinə görə, Fətəli xan Qarabağ xanlığını tutmaq, Azərbaycanın Arazdan cənuba doğru torpaqlarına daxil olmaq, Kərim xan Zənd və digərlərini məğlub etmək üçün planlar

qurur, qüvvə toplayırdı. O, həmçinin Cənubi Dağıstanı da tam şəkildə tabe etmək fikrində idi [10, s.117-118; 15, s.516,521]. Fətəli xan 1780-1783-cü illərdə bir neçə dəfə Qarabağa yürüş etdi, Ağdam, Şuşa ətrafına çatdı, lakin istəklərinə nail ola bilmədi [10, s.143]. 1784-cü ildə Fətəli xan Cənubi Azərbaycana yürüş edərək Ərdəbil və Meşkin şəhərlərini tutdu. Lakin bundan Rusiya çariçası II Yekaterina narazı qaldı və onu geri çağırdı [10, s.153; 18, s.144].

1785-ci ildə Fətəli xan Şəki xanlığını özündən asılı vəziyyətə saldı. O, Kaxeti knyazı İrakli ilə ittifaq yaratdı və onlar 1788-ci ilin sonlarında Şəmkir yaxınlığında görüşdülər, birgə ziyafətdə iştirak etdilər. Ziyafətdən sonra Fətəli xan özünü pis hiss etdi, müalicə qəbul etmək üçün Bakıya, bacısı Xədicə Bikə xanımgilə getdi. O, orada 1789-cu ilin martında vəfat etdi. Fətəli xan həmin ərəfədə Cənubi Azərbaycana yeni yürüşə hazırlaşır, mərkəzləşmiş Azərbaycan dövlətini bərpa etmək haqqında ciddi planlar qururdu. Onun bu planları Rusiyanı narahat edirdi. Ona görə də onun ölümünün təşkil olunduğu, gürcü knyazı İraklinin onu zəhərləməsi ilə bağlı şübhələr var idi [16, s.22-23]. Fətəli xan Bakıda Bibi Heybət məscidinin həyətində dəfn edildi. 1930-cu illərdə məscid sovet hakimiyyəti tərəfindən məhv edildi, onun qəbri də dağıdıldı, o vaxt yalnız baş daşını xilas etmək mümkün oldu. Həmin daş indi Tarix muzeyində saxlanılır [18, s.153; 20, s.146].

Fətəli xan 32 illik hakimiyyəti dövründə Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək, "Azərbaycan və bəlkə də bütün İran işlərini nizama salmaq" [3, s.70] uğrunda mübarizə apardı. Lakin siyasi pərakəndəlik, xarici şəraitin əlverişli olmaması, yerli hakimlərin müqaviməti

buna imkan vermədi. Onun yaratdığı birlik isə tezliklə dağıldı. Oğlu Əhməd xan (1789-1791) atasının nailiyyətlərini möhkəmləndirə bilmədi. Onu əvəz etmiş qardaşı Şeyxəli xanın (1791-1806) dövründə Şirvan, Bakı, Şəki və digər xanlıqlar Quba xanlığından ayrıldılar.

Fətəli xan Gürcüstanı da nəzarətə götürməyə çalışır, bunun üçün gürcü şahzadələrinin daxili ixtilaflarından istifadə edirdi. Bu mənada hakimiyyətə iddialı şahzadə Aleksandrı himayə edir, yanında saxlayır, Gürcüstana yürüşə hazırlaşırdı. Lakin Rusiyanın 1783-cü ildə Krımı ilhaq etməsi (Krım e.ə. VII əsrdən başlayaraq kimmeri, skif-iskit, yunan, hun, xəzər, qıpçaq və digərlərinin nəzarətində olub. XIII əsrdə moğolların (Qızıl Ordanın), XV əsrdən isə Osmanlı Türkiyəsinin himayəsi altında olub. 1441-1783-cü illər ərzində Krım-Tatar xanlığı olaraq Osmanlının vassal asılılığında olub. Bu xanlıq 1441-ci ildə Hacı Gəray tərəfindən quruldu. Xanlıq Türkiyənin ali hakimiyyətini qəbul etməklə, kifayət qədər müstəqil xarici siyasət yeridirdi. Hətta 1521-ci ildə Mehmet Gəray Moskvanı tutaraq rusları özündən asılı vəziyyətə saldı, Moskva knyazlığı onlara vergi ödəyirdi. 1571-ci ildə isə I Dövlət Gəray Moskvanı tutaraq yandırdı. Bu vəziyyət I Pyotrun hakimiyyətə gəlişinə qədər davam etdi. Krım tatarları həmçinin Avropaya yürüşlər təşkil edirdilər. Sonrakı illərdə Krım xanlığı tədricən zəiflədi. 1768-1774-cü illər Türkiyə-Rusiya müharibəsində Krım yarımadası ruslar tərəfindən işğal edildi (1771-ci il). 1774-cü ildə Rusiya ilə Türkiyə arasında imzalanmış Kiçik Qaynarca sülhünə görə Krım xanlığı Türkiyənin təsirindən çıxaraq, müstəqil oldu. 1777-ci ildə ruspərəst Şahin Gəray hakimiyyətə gəldi və 1783-cü ildə

Rusiya hakimiyyəti altına keçdi. Az sonra Şahin Gəray səhvini başa düşdü, İstanbula gedərək yenidən Türkiyəyə sığındı, amma əfv olunmadı, Rodos adasına sürgün edildi, orada da öldü. Türkiyə 1792-ci ildə Yassı müqaviləsi ilə Krımın Rusiyaya birləşdirilməsini qəbul etdi. Krım xanlığının paytaxtı Bağçasaray şəhəri olmuşdur. Krım yarımadası 1954-cü ilə qədər Rusiyanın tərkibində olmuş, həmin il sovet rəhbərliyinin qərarı ilə Ukraynaya verilmiş, 2014-cü ildə yenidən Rusiya tərəfindən ilhaq edilmişdir.) və həmin ilin yayında Georgiyevsk müqaviləsi ilə Şərqi Gürcüstanın Rusiya himayəsinə qəbul edilməsi ilə bu plan yarımçıq qaldı [18, s.142-144]. Ona görə də Rusiya hökuməti Fətəli xanın qüvvətlənməsi ilə razılaşmırdı. Hətta II Yekaterina 1775-ci ildə Fətəli xanın köməyinə göndərilmiş rus ordusunun geri çəkilməsini tələb etdi. 1784-cü ildə Fətəli xanın Ərdəbili tutması rus çarını narahat etdi. Lakin buna baxmayaraq Fətəli xan Rusiyaya meylində ardıcıl siyasət yeridirdi [9, s.221].

İbrahimxəlilin dövründə Qarabağ xanlığı daha da möhkəmləndi. “Qarabağnamələr”də qeyd olunur ki, “İbrahim xan padşah olmasa da onun cah-cəlalı” qonşu padşahlardan daha çox idi [7, s.7]. O, Qarabağla yanaşı Şəki, Şirvan, Gəncə, Təbriz, Naxçıvan, Ərdəbil, Xoy, Marağa, İrəvan və digər əraziləri öz hakimiyyəti altında birləşdirmişdi [7, s.56-57, 137]. Qarabağlı İbrahim xan da Rusiya ilə yaxınlaşmağa çalışırdı. 1784-cü üdə İbrahim xan məktubla II Yekaterinaya müraciət etdi və Peterburqa nümayəndə heyəti göndərərək Qarabağ xanlığının Rusiya təbəəliyinə qəbul edilməsini xahiş etdi [11, s.208]. Lakin İbrahim xan Rusiyaya o qədər də inanmır və onunla münasibətdə ardıcıl deyildi.

Kərim xan Zəndin (1759-1779) ölümündən sonra Qacarlar daha fəal oldular. Ağa Məhəmməd xan (1742-1797) Qacar 1792-ci ilə qədər Azərbaycanın Arazdan cənuba doğru bütün ərazilərini öz hakimiyyəti altında birləşdirdi. Ağa Məhəmməd xan Qacar qəddar, qəzəbli hökmdar kimi tanınırdı. İnsanlara xüsusi işgəncə verməkdən, o cümlədən, burun, qulaqlarını kəsdirməkdən zövq alırdı. Bu, onun uşaq vaxtı Kərim xan Zənd tərəfindən qəddarlığa məruz qalması, axtalanmasının buraxdığı izlərlə bağlı idi [1, s.40]. O, özünün və atasının qisasını Kərim xan Zəndin qəbrindən aldı. 1792-ci ildə Şiraz şəhərini tutarkən onun qəbrini qazdırmış, nəşini Tehrana aparmış, oradakı sarayının ayaqyolusunun girişində basdırmışdı [19, s.11]. Ağa Məhəmməd xan (şah) Qacarın mənfi obrazının yaradılması müəyyən ideoloji tezislərlə bağlı olmuşdur. Onun bəzi hallarda xüsusi qəddarlığını inkar etmək olmaz, amma bu, onun tam obrazı deyildir. O, kifayət qədər müsbət, mütailəli, ədəbiyyatı, incəsənəti sevən, ağıllı dövlət adamı və cəsarətli sərkərdə olmuşdur. O, ilahiyyat, fəlsəfə, riyaziyyat, astronomiya, poeziya sahələrində dərin biliyə malik idi. O, dünyanın mütərəqqi ideyaları ilə tanış idi, bu ideyalara müsbət yanaşır, amma əvvəlki üsul-idarədən, köhnə mövqedən tam ayrıla bilmirdi. Ən əsası isə, onun fəaliyyəti Səfəvilər və Əfşarların dövründəki Azərbaycan dövlətinin bərpa olunmasına yönəlmişdi. O, türk oğlu türk və türk ideallarının daşıyıcısı idi. O, Azərbaycanın şimal hissəsini də birləşdirmək üçün hərəkətə keçdi. Azərbaycan xanlarına məktublar göndərərək, onun hakimiyyətini qəbul etmələrini tələb etdi. O, daha çox Avropa dəyərlərinə üstünlük verir, Rusiyaya qarşı İngiltərə və Fransa ilə

münasibət qururdu. Rusiyanın Şərqdəki siyasətinə mane olmaq üçün İngiltərə və Fransa ona kömək edir, orduları yenidən qurmaq üçün təlimatçılar göndərirdilər.

1795-ci ilin yayında Qacar 85 minlik qoşunla Qarabağa hücum etdi. II İrakli Qarabağ xanlığı ilə ittifaqa girdi. Bu ittifaqa Lənkəran və İrəvan xanları da qoşuldular. Qacar Şuşa şəhərini mühasirəyə aldı [8, s.257]. Şuşanın müdafiəsi 33 gün davam etdi. Qacar qoşunlarının sayı azalmış, bütün topları sıradan çıxarılmışdı. Ağa Məhəmməd xan Şuşada qoşunlarının tamamilə darmadağın ediləcəyindən ehtiyat edərək deyirdi: "Zərərin yarısından da qayıtmaq mənfəətdir. Müsibətlə dolu olan bu təhlükəli yerdə at başı qaytarmaq nicat xəzinəsinin açarıdır. Yoxsa çox çəkməz, bütün qoşunumuz və heyvanlarımız dərin xunxarlıq (rəhmsizlik, vəhşilik) dəryasında məhv olub gedər" [4, s.59-60].

Gəncəli Cavad xan Ağa Məhəmməd xanın düşərgəsinə gəldi və onun himayəsini qəbul etdi. O, Gəncədə hakimiyyətini möhkəmlətmək üçün Qacardan istifadə etməyə çalışırdı. Cavad xan Şuşanın mühasirəsindən əl çəkməyi və Tiflisə hücum etməyi Ağa Məhəmməd xana təklif etdi. Onlara Səki hakimi Məhəmmədhəsən xan da qoşuldu. 1795-ci ilin sentyabrında Qacar qoşunları şiddətli vuruşmadan sonra Tiflisə daxil oldular. Şəhərə od vurulub yandırıldı. Qacar ordusu Gürcüstanı taladıqdan sonra 1795-ci ilin payızında Azərbaycana qayıtdı və Muğan düzündə düşərgə saldı [5, s.103-104].

Ağa Məhəmməd xan Muğanda qışladıqdan sonra yazda yenidən Şuşaya hücum etməyi planlaşdırırdı. Lakin cənubda baş verən üsyan onu geri çəkilməyə məcbur etdi. 1796-cı ilin yazında Ağa Məhəmməd xan mərkəz olaraq

seçdiyi Tehrana qayıtdı və özünü şah elan etdi. O, 1796-cı ildə taxta çıxdığı zaman tacqoyma mərasimini Nadir şah kimi türklərin yaşadığı Muğanda həyata keçirdi. O, başına Nadir şahın tacını qoymadı, özünü o taca layiq bilmədi ki, hələ Azərbaycanın bütün ərazilərini birləşdirə bilməyib. O, Azərbaycan dövlətçiliyinin davamçısı olduğunu daha bir hadisə ilə nümayiş etdirdi. Tacqoyma mərasiminə Ərdəbildən Azərbaycan Səfəvilərinə məxsus qılınc və kəmər gətirildi [17, s.33]. Ağa Məhəmməd şah və ondan sonra Fətəli şahın dövründə Azərbaycanın Təbriz şəhərinə xüsusi rol ayrıldı, bu şəhər vəliəhd, şahzadə şəhərinə, dövlətin ikinci siyasi mərkəzinə çevrildi. Vəliəhd Abbas Mirzə ilk olaraq Təbrizdə oturdu və bu ənənə sonralar davam etdirildi. Bu, o demək idi ki, dövlətin başına keçəcək şahzadələr "Təbrizdə böyüyür və türk mühitində tərbiyə alırdılar" [13, s.116-117]. Ağa Məhəmməd şahın bir təşəbbüsü də qeyd olunmalıdır. "Qacar Yasası"na, qanununa görə, hakimiyyətə gələcək şahzadənin atası ilə yanaşı, anası da Qacarlara mənsub olmalı idi [12, s.6-7]. Bu dövlət rəhbərliyində türkçülüyün qorunub saxlanılmasına xidmət edirdi.

Ağa Məhəmməd şahın Cənubi Qafqaza hücumu Rusiyanı narahat edir və burada onun mənafeyinə toxunurdu. II Yekaterina hökuməti Rusiya təbəəliyini qəbul etmək istəyən xanların səylərini rəğbətlə qarşılayırdı. 1796-cı ilin aprelində Valerian Zubovun komandanlığı ilə 12 minlik rus qoşunu Dərbəndə yaxınlaşdı. Qubalı Şeyxəli xan müqavimət göstərməyə cəhd etsə də, nail olmadı və rus qoşunları Dərbəndi tutdu. Dərbəndin idarə edilməsi Fətəli xanın qızı Pəricahan xanıma tapşırıldı [18, s.179-180].

1797-ci ilin yazında Qacar qoşunları yenidən Qaraba-

ğa hücum etdi. O zaman Qarabağda baş vermiş quraqlıq vəziyyəti ağırlaşdırmışdı. Mirzə Camal göstərir ki, İbrahim xan yaxın adamları ilə Car və Tala tərəfə getdi. Burada Gürcüstan və Dağıstandan qüvvə toplamaq istəyirdi. Şuşanın müdafıəsi özbaşına buraxıldığından Qacar qoşunları şəhəri tutdu. Lakin şah öz xidmətçiləri Səfərəli və Abbas bəy tərəfindən 1797-ci il iyunun 17-də yatağında öldürüldü [14, s.37]. Qacar qoşunları çəkilib getdi. Qacarlar Azərbaycanın şimal torpaqlarında möhkəmlənə bilmədilər. Rusiya da hakimiyyət dəyişikliyi ilə bağlı müvəqqəti geri çəkilməli oldu.

Bir sıra müəlliflər xanlıqlar dövrünün "Azərbaycan tarixinin ən qara və dəhşətli səhifəsi" [6, s.77] olduğunu qeyd edir, eyni zamanda, Fətəli xan Əfşarın "Azərbaycanda hakimiyyətini quraraq, digər əraziləri də birləşdirmək istədiyini [6, s.80], "Fətəli xan Qubalının Azərbaycanı və bəlkə tamam İranı təsxir (ələ keçirmək, tutmaq.- A.N.) etmək niyyətində olduğunu [6, s.82], Ağa Məhəmməd xan Qacarın "Azərbaycan hökmdarlarını tabe etmək" [6, s.77] üçün çalışdığını, "Nadir şahın ölümündən sonra hadisələrin Azərbaycan ölkəsində" baş verdiyini [7, s.129] göstərirlər.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Ağaoğlu Ə. İran və İnqilabı. Bakı, "Azərnəşr", 2009.

2. Azərbaycan tarixi. S.Əliyarlının redaktəsi ilə. Bakı, "Elm", 1993.

3. Bakıxanov A. Gülüstani-İrəm (Tərcümə edəni M.Əsgərli). (Əsər 1846-1848-ci illərdə fars dilində yazılmış, rus dilinə tərcümə edilmiş, bir hissəsi qəzetlərdə çap olunmuşdu. İlk dəfə

kitab şəklində 1926-cı ildə, sonra 1951-ci ildə çap olunub). Bakı, Minarə, 2000.

4. Hacıyeva Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı, "Təhsil", 2007.

5. Hüseynov Y. "Qarabağnamələr" Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi. Bakı, "Mütərcim", 2007.

6. İsmayılov R.B. Azərbaycan tarixi (ilk dəfə 1923-cü ildə nəşr olunub). Bakı, Azərnəşr, 1993.

7. Qarabağnamələr. I kitab. Bakı, "Şərq-Qərb", 2006.

8. Qarabağnamələr, II kitab. Bakı, "Şərq-Qərb", 2006.

9. Qəniyev H. Azərbaycan tarixi. Bakı, "Elm və Təhsil", 2019.

10. Mustafazadə T. Quba xanlığı. Bakı, "Elm", 2005.

11. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Texniki Ali Məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil", 2019.

12. Pakrəvan Ə. Abbas Mirzə və Azərbaycan, Farscadan çevirən: G.Cavanşir. Bakı, "Qanun", 2010.

13. Rəsulzadə M.Ə. İran türkləri// Əsərləri, II cildş Bakı, "Şirvannəşr", 2001.

14. Tahirzadə Ə. Ağaməhəmməd şah Qacar. (Tərcüme-yi-hal oçerki). Bakı, "Kür" nəşriyyatı, 2002.

15. Абдуллаев Г.Б. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, изд. АН Азерб. ССР, 1965.

16. Валиев Н. Фатали хан Кубинский. Баку, «Нагыл Еви», 2011.

17. Исмаилов Э. Персидские принцы из дома Каджаров в Российской империи. Москва, "Старая Басманная", 2009.

18. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку, изд. АН Азерб. ССР, 1948.

19. Тазкере Ахмада Горджи Ахтара «Анджоман-ара» (Вторая половина XVIII-начало XIX века). Москва, «Наука», 1986.

20. Эпиграфические памятники Северного Кавказа на арабском, персидском и турецком языках. Надписи X-XVII вв. Москва, Наука, 1968, т.2, часть 2.

### *§ 4. Xanlıqların ictimai-iqtisadi, siyasi quruluşu və mədəni həyatı.*

XVIII əsrin ikinci yarısında ümumilikdə Azərbaycanda məhsuldar qüvvələr zəif inkişaf edirdi. Kənd təsərrüfatı ağır vəziyyətdə idi. Torpağın becərilməsində ibtidai alətlərdən istifadə edilirdi. Xarici basqınlar, ara müharibələri süni suvarma şəbəkəsini dağıtmış, mal-qaranın sayının azalmasına səbəb olmuşdu. Lakin buna baxmayaraq ayrı-ayrı xanlıqlarda əkinçilik və maldarlıq dirçəlir, suvarma şəbəkələri bərpa edilirdi. Pənahəli və İbrahimxəlil xanın dövründə Mildə olan suvarma arxlarınm bərpasına təşəbbüs edildi [9, s.224-225]. Azərbaycan əhalisi əsasən taxılçılıq, maldarlıq, bağçılıqla məşğul olurdu. Quba, Dərbənd, Bakı xanlıqlarında boya bitkisi, zəfəran və s. yetişdirilirdi. Şəki və Şirvan ipəkçiliyin əsas mərkəzi olaraq qalırdı. Salyanda Kür çayı hövzəsində balıq ovu genişlənmişdi. Balıq ovu ildə 50 min gümüş manat gəlir verirdi [14, s.21, 32, 53].

Əvvəlki torpaq mülkiyyət formaları qalmaqda idi. Xanlıqlarda bütün torpaqlar xana məxsus idi. Divan torpağı ilə xanın şəxsi torpağı arasında fərq yox idi. Xanın ayrı-ayrı şəxslərə verdiyi torpaq - tiyul adlanırdı. Tiyuldar xanın fərmanı ilə ona verilən torpağın və kəndlilərin sa-

hibi idi. Tiyul torpaqları ancaq xanın fərmanı ilə irsi keçə bilərdi. Tiyuldan fərqli olaraq mülk sahibləri xana xidmət etməyə borclu deyildi. Onlar xanın xəzinəsinə müəyyən miqdarda vergi verirdi. Mülklər alınıb-satıla bilərdi [5, s.155-158].

Kəndlilər bir neçə qrupa bölünürdü. Onların əsas hissəsini rəiyyət (mülkədardan asılı olan, ondan torpaq icarəyə götürən kəndli, mənası "tabe olan" deməkdir) təşkil edirdi. Kəndlilər icmalarda birləşir, divan, vəqf, sahibkar torpaqlarını becərirdilər. Nisbətən azlıq təşkil edən qrup rəncbərlər (torpağı olmayıb, muzdla işləyən kəndli, mənası "əziyyət, zəhmət çəkən" deməkdir) idi. Onlar xanın və naiblərin təsərrüfatlarında işləyirdilər. Əhalinin müəyyən hissəsini elat təşkil edirdi. Onlar vergilərdən azad edilir, xanın hərbi yürüşlərində iştirak edirdilər. XVIII əsrin ikinci yarısında Azərbaycanda yenə də məhsul rentası əsas yer tuturdu. Lakin bununla yanaşı rentanın işlə və pulla ödəmə forması da var idi. Rəiyyətdən alınan əsas vergi məlcəhət adlanırdı. Müxtəlif xanlıqlarda onun həcmi müxtəlif idi. Otlaqlar üçün çöpbaşı, bağbaşı, dini bayramlar üçün bayramlıq, ağanın ailəsində toy olarkən toy xərci alınırdı. Bundan başqa bir çox vergi növləri vardı. Qarabağ xanlığında 17 növ vergi var idi. Bununla yanaşı rəiyyət biyar və əvrəz (iməclik) adlı mükəlləfiyyətlər yerinə yetirməli idi [10, s.73].

Azərbaycanın iqtisadiyyatında sənətkarlıq mühüm yer tuturdu. Şəhər və kəndlərdə əmək alətləri, dəri məmulatı, ev əşyaları hazırlayan sənətkarlıq emalatxanaları var idi. Şamaxı özünün ipək parçaları ilə şöhrət tapmışdı. Şirvanda mis qab-qacaq və silah hazırlanan mərkəz Lahıc idi.

Burada kiçik həcmli toplar da tökülürdü. Quba, Qarabağ, Naxçıvanda xalça istehsalı geniş şəkil almışdı. XVIII əsrin ikinci yarısında Azərbaycanda ümumilikdə şəhər həyatı durğunluq keçirirdi. Ancaq bu və ya digər xanlıqların mərkəzinə çevrilən Şamaxı, Quba, Şuşa, Təbriz, Şəki və s. şəhərlər inkişaf edirdi. Şəhərlərin görünüşündə elə bir dəyişiklik olmamışdı. Şəhər əhalisinin bir hissəsi sənətkarlıq və ticarətlə məşğul olsa da, kənd təsərrüfatından tam ayrılmamışdı. Xəzər dənizində mühüm liman olan Bakının 3 min əhalisi var idi. Onun iqtisadiyyatının əsasını neft və duz təşkil edirdi. Şamaxıda 5 min əhali yaşayırdı. Xanlıqlar dövründə ticarət xeyli zəifləmişdi. Azərbaycan şəhərlərini əsasən quru ticarət yolları birləşdirirdi. Xarici ölkələrə əsasən neft, ipək, duz, balıq, zəfəran, mahud və s. ixrac edilirdi.

Bir sıra xanlıqlar müstəqil dövlət qurumlarına çevrildilər. Xanlıqların dövlət quruluşu xeyli sadələşdi. Xanlığın ali hakimi xan idi, hər bir xanlığın özünəməxsus dövlət quruluşu və məhkəmə sistemi var idi. Xanlıqlarda (məs., Qarabağ) dövlət sistemi dövlət şurası (divan), inzibati, vergi və hərbi idarələrdən ibarət idi. Xanlıqlar inzibati cəhətdən mahallara bölünürdü. Onları xanın təyin etdiyi naib idarə edirdi. Naibin ixtiyarında darğa, yüzbaşı, kəndxuda vardı. Məhkəmə işləri ruhanilərin əlində idi. Ölüm hökmünü xan çıxarırdı. Xanın qoşun hissələrinin əsasını piyada və süvarilər təşkil edirdi [13, s.35-40].

Xanlıqların mərkəzi olan şəhərlər sənətkarlıq və ticarət mərkəzləri olmaqla yanaşı mədəni mərkəzlər idilər. Şəhərlərdə olan mədrəsələrdə ərəb və fars dillərində dərslər aparılırdı, əsas yeri dini fənlər tuturdu. Mədrəsələrdə

təhsil alan Azərbaycan ziyalıları içərisində şeirə maraq daha güclü idi. Elm sahəsində elə bir irəliləyiş nəzərə çarpmırdı. Görkəmli coğrafiyaşünas - səyyah Zeynalabdin Şirvani [8, s.117] və tarixçi Əbdülrəzzaq bəy Dümbili [11, s.204-208] bu dövrdə yaşayıb yaratmışlar.

Azərbaycan ədəbiyyatında iki cərəyan - xalq və saray ədəbi cərəyanları mövcud idi. Birinci cərəyanın nümayəndələri xalqın istək və arzularını əks etdirdiyi halda, ikinci cərəyan hakim təbəqələrin həyatını mədh edirdi. Şifahi xalq yaradıcılığı və aşıq şeri inkişaf edirdi. Azərbaycan ədəbiyyatı və dili tədricən xarici sözlərdən təmizlənirdi. Füzuli ənənələrini davam etdirən, aşıq yaradıcılığından bəhrələnən bir sıra şairlər yetişirdi. XVIII əsrin II yarısında görkəmli şairlər - Arif Təbrizi [1, s.13], Arif Şirvani [2, s.37-38], Nəbi [6], Xəstə Qasım [12] və başqaları olmuşlar. Arif Təbrizi Təbrizdə və Şuşada yaşamış lirik bir şair idi. Arif Şirvani Lahıcda yaşamış, çoxlu qəzəl və həcvlərin müəllifidir. Nəbi Şəkidə baş verən kəndli çıxışlarına şeirlərində geniş yer vermişdir. Xəstə Qasım qoşma və gəraylı formasında yazmışdır. O, həm də Dədə Qasım adı ilə tanınırdı, Təbrizdə doğulub, yaşayıb, sonra Şamaxıya köçmüşdü. XVIII əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Vidadi və Vaqif olmuşdur. Molla Vəli Vidadi 1709-cu ildə Şəmkirdə anadan olmuşdu. O, Poylu və Şıxlı kəndlərində müəllimlik etmiş, Qarabağ xanının və II İraklinin saraylarında yaşamışdı. Şair 1807-ci ildə vəfat etmişdir. Vidadinin yaradıcılığında şifahi xalq yaradıcılığı və aşıq poeziyası birləşmiş, onun əsasən lirik şeirləri vardır. Onun «Vaqif», «Çoxdandır», «Durnalar», «Ağlarsan» və s. şeirləri yayılmışdı [4].

M.P.Vaqif 1717-ci ildə Qazax mahalında anadan olmuş, ilk təhsilini orada almışdı. O, ailəsi ilə birlikdə əvvəl indiki Tərtər (Tərtərbasar) bölgəsinə, sonra isə Şuşaya gəlmiş, burada məktəbdə dərs demişdi. O, İbrahim xan tərəfindən saraya dəvət edilmiş, burada eşik ağası və vəzirliyə qədər yüksəlmişdi. Vaqifin yaradıcılığı Azərbaycan ədəbiyyatında xüsusi mərhələ təşkil edir. O, realizm ədəbi cərəyanı səviyyəsinə qədər yüksəlmişdi. Vaqif yaradıcılığında əsas yeri məhəbbət mövzusu tuturdu [3].

XVIII əsrdə Azərbaycanda incəsənətin musiqi, rəssamlıq, memarlıq sahələri inkişaf etmişdi. Aşıq yaradıcılığı yüksək mərhələyə qalxmışdı. Bu dövrdə ən çox istifadə edilən musiqi aləti saz, tar, balaban, zurna, tütək, nağara, dəf olmuşdur. Azərbaycanda bir sıra memarlıq abidələri yaradılmışdı. 1762-ci ildə Şəki xan sarayı tikilmişdir. Şuşada bir sıra maraqlı memarlıq abidələri inşa edilmişdir.

Qarabağ tarixçisi Mirzə Camal Cavanşirin yazdığına görə, İbrahimxəlil xan qalanı möhkəmləndirmək üçün 1783-1784-cü illərdə onun ətrafına 3,7 km uzunluğunda müdafıə hasarı çəkdirmişdi. Üç tərəf təbii sərhəd olduğuna görə həmin yerlərdə müdafiə divarları tikmək lazım gəlməmişdi. Qala divarlarının eni 2 metr 20 sm, hündürlüyü isə 8 metr olmuşdu. Hər 50 metrdən bir iri və əzəmətli bürclər ucaldılmışdı. Qalanın girəcəyində - şimal tərəf «Gəncə qapısı», qərb tərəf isə «İrəvan qapısı» adlanırdı [7, s.162]. Bütün bunlar Azərbaycanın xanlıqlar dövründə inkişaf etdiyini, yeni tarixi dövrə uyğun tendensiyaların yarandığını, müxtəlif istiqamətlərdə nəticələrin əldə olunduğunu göstərirdi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi. Bakı, "Maarif", 1993.

2. Azərbaycan Milli Ensiklopediyası, II cild, Bakı, Azərbaycan Milli Ensiklopediyası NPB, 2010.

3. Cəfərov N. Molla Pənah Vaqif. Bakı, "Renessans-A", 2017.

4. Dünyamalıyeva T. Molla Vəli Vidadi. Bakı, "Yazıçı", 1987.

5. Əmrahov M., Çingizoğlu Ə., Həsənov H. Qarabağ xanlığı. Bakı, "Mütərcim", 2008.

6. Xəlilzadə F. Qədim Şəkinin ədəbiyyat dastanı.- "Azərbaycan" qəzeti, 2009, 21 avqust, s.5.

7. Qarabağnamələr, I kitab. Bakı, "Şərq-Qərb", 2006.

8. Qasımova A. Yeniyetmələrin tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsi. Bakı, "Nurlan", 2006.

9. Qəniyev H. Azərbaycan tarixi. Bakı, "Elm və Təhsil", 2019.

10. Mustafazadə T. Qarabağ xanlığı. Bakı, "Sabah", 2009.

11. Tərbiyət M. Danişməndani-Azərbaycan. Bakı, "Mücrü", 2022.

12. Vahid T. Aşıq Xəstə Qasım haqqında.- "Mədəniyyət" qəzeti, 2012, 14 dekabr, s.15.

13. Мильман А.Ш. Политический строй Азербайджана в XIX-начале XX веков. Баку, Азербайджанское гос. изд., 1966.

14. Мустафаев Дж. Северные ханства Азербайджана и Россия: конец XVIII-начало XIX в. Баку, «Элм», 1989.

# X fəsil. Azərbaycan torpaqlarının bölünməsi. Rusiya işğalı və işğala qarşı mübarizə (XIX-XX əsrin əvvəlləri)

## *§ 1. Yeni Azərbaycan-Rusiya müharibələri. Gülüstan və Türkmənçay müqavilələri.*

XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Azərbaycanın daxili və beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Azərbaycan ərazisi xırda dövlətlərə parçalanmışdı. Göstərilən dövrdə Rusiyanın xarici siyasətinin əsas istiqamətlərindən biri Cənubi Qafqazın istilasından ibarət idi. Rusiya Cənubi Qafqazı əlavə gəlir mənbəyinə çevirməyə, Xəzər dənizi hövzəsi üzərində ağalığa nail olmağa can atırdı. Cənubi Qafqazın siyasi və hərbi-strateji əhəmiyyəti böyük idi. Bu diyarın işğalı ənənəvi Rusiya- Türkiyə rəqabətində qüvvələr nisbətini Rusiyanın xeyrinə dəyişə bilərdi. Nəhayət, rus-ingilis rəqabəti Cənubi Qafqazın, o cümlədən Azərbaycanın əhəmiyyətini artırırdı. Rusiyanın bu yerləri işğal etməsi Böyük Britaniyanın Şərqdə təsirinə ağır zərbə endirə bilərdi.

Azərbaycanın Araz çayından cənuba doğru ərazilərində yerli türk mənşəli Qacarlar sülaləsi hakimiyyətini möhkəmləndirdi və Ağa Məhəmməd xan Qacar 1796-cı ildə Tehranda özünü şah elan etdi. Onun ölümündən sonra hakimiyyətə Fətəli şah (1797-1834) gəldi. Dövlətin əsas paytaxtı Tehran, ikinci paytaxtı isə Təbriz şəhəri idi. Şahın varisi, vəliəhd Təbrizdə otururdu. “İran” adı əfsanəvi dövrə aid edilməklə X əsrin ikinci yarısı-XI əsrin əvvəllərində yaşamış fars şairi Firdovsi tərəfindən ortaya atılmış-

dır. Onun "Şahnamə" əsərində İran və Turan ölkələrindən bəhs olunur, İranın yeri indiki Əfqanıstanın ərazisində göstərilir. Onun İrana aid etdiyi 27 şəhər, o cümlədən, Bəlx, Tərməz (Özbəkistan), Nimruz, Kəşmir (Hindistan), Kabil, Qəndəhar və sair Əfqanıstan və ya ətraf ölkələrdə yerləşir. Qacar dövründə ölkənin adı "Qorunan məmləkətlər" ("Məmaliki-Məhrusə") və ya "Qacarların qorunan məmləkəti" ("Məmaliki-Məhruseyi Qacar") şəklində işlədilib [6]. Baxdığımız dövrdə ölkəni, dövləti bildirmək üçün daha çox "Qızılbaş" [7, s.95,98,150,153,157], bəzən "İran" [7, s.68,102] ifadələri işlədilir. Əslində bu ifadələrin heç biri dövlətin Azərbaycan mahiyyətinə zidd deyil və hətta bəzi yerlərdə "Azərbaycan" ifadəsinə də müraciət olunur. Məsələn, Ağa Məhəmməd şah Qacarın Şuşada öldürülməsindən sonra "başsız qalmış Azərbaycana" sahib çıxmaq üçün iddiaçıların Tehrana doğru hərəkət etdikləri qeyd olunur [7, s.148]. Dövlətdə fars dili və Azərbaycan türkcəsi istifadə olunurdu [16, s.128; 14].

Qərbi Avropa dövlətlərinin də, xüsusən İngiltərə və Fransanın Cənubi Qafqaz barədə işğalçı planları var idi. Onlar Rusiyanın bu ərazidə hərəkətlərini diqqətlə izləyir və çarizmin planlarına mane olmağa çalışırdılar. İngiltərə maraqlarının təmin olunması işini təcrübəli diplomat və hərbçi, general Con Malkolma həvalə etmişdi. O, min nəfərlik hərbi, diplomatik və ticarət heyəti ilə Tehrana gəldi və 1801-ci ilin yanvarında yerli hakimiyyətlə siyasi və ticarət əlaqələrinə dair iki müqavilə imzaladı. İngiltərə hər hansı dövlətin Qacarlar dövləti üzərinə hücum edəcəyi təqdirdə hərbi yardım göstərməyi öz üzərinə götürürdü [28, s.67-69]. Çar hökuməti də öz planlarının həyata keçirilmə-

sinə başladı. 1801-ci il sentyabrın 12-də Kartli-Kaxetiyanın (Şərqi Gürcüstan) Rusiyaya birləşdirilməsi haqqında çar manifesti elan olundu. Rus qoşunlarının baş komandanı və mülki hakim tərəfindən idarə olunan Tiflis quberniyası yaradıldı. Kartli-Kaxetiya ilə birlikdə Qazax (indiki Qazax, Ağstafa, Tovuz əraziləri), Borçalı (indiki Gürcüstanın Qardabani, Qaraçöp, Marneul, Dumanis, Bolnis və digər əraziləri), Şəmşəddil (indiki Şəmkir, Tovuzun bir hissəsi) ərazilərimiz də bu quberniyanın tərkibinə daxil edildi. Bununla, Azərbaycan torpaqlarının Rusiya tərəfindən istilasının başlanğıcı qoyuldu.

1802-ci ilin sentyabrında General Karl Knorrinqin yerinə Qafqazın baş komandanı təyin edilən general Pavel Sisianov Cənubi Qafqazda müstəmləkə siyasətinin icraçısı oldu. Çar hökuməti Şərqi Gürcüstan ərazisindən hücum meydanı kimi istifadə edərək, özünün Azərbaycan barəsindəki planlarını həyata keçirməyə başladı. 1803-cü ilin martında Rus qoşunları Car-Balakən istiqamətində hərəkət etdi. Bununla ikinci Azərbaycan-Rusiya müharibəsi (1803-1813) başlandı. Birmənalı şəkildə qəbul olunmalıdır ki, bu vaxta qədər işlədilən "Rusiya-İran müharibəsi" ifadəsi reallığı əks etdirmir. Rusiya Azərbaycan ərazilərinə daxil olmuşdu, hərbi əməliyyatlar da Azərbaycanda gedirdi. XIX-XX əsrin əvvəllərində yaşamış Azərbaycan müəllifləri, o cümlədən A.A.Bakıxanov, Mirzə Adıgözəl bəy, Mirzə Camal, Ə.B.Cavanşir, C.Zeynaloğlu, R.B.İsmayılov və digərləri "Rusiya-İran" və ya "Rus-İran" müharibəsi ifadələrini işlətmir. Rusiyaya qarşı müharibəni Azərbaycan xanları aparır, işğalçı Rusiya ilə müqavilələr imzalayırdı, Tehran hakimiyyəti isə vaxtaşırı hadisələrə müdaxilə edir,

öz maraqlarını müdafiə etməyə çalışırdı. Üstəlik, Qacarların Tehran hakimiyyəti də mahiyyət etibarı ilə Azərbaycan dövlətini təmsil edirdi.

Martın sonunda ağır döyüşlərdən sonra Car-Balakən zəbt olundu. Bu döyüşdə Car-Balakən tərəfdən 500 nəfər həlak oldu, 700-dən artıq adam əsir düşdü. 1803-cü ilin aprelində Car-Balakənin 9 nəfərdən ibarət nümayəndə heyəti Tiflisə general Sisianovun yanına getdi. Burada onlarla Car-Balakən camaatının Rusiyanın hakimiyyəti altına alınması barədə saziş bağlandı. Car-Balakənin işğalından sonra döyüşlərdə onlarla birlikdə iştirak etmiş qonşu İlisu sultanlığı da Rusiya təbəəliyini qəbul etməli oldu [12, s.224-225]. General Sisianov Gəncə xanlığının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. Sisianov yazırdı ki, "Gəncə qalasının mövqeyi bütün Azərbaycan üzərində hökmrandır. Bax buna görə də bu istila Rusiya üçün birinci dərəcəli əhəmiyyətə malikdir" [26, s.112]. O, 1803-cü il noyabrın sonunda qoşunu Gəncə üzərinə yeritdi. Gəncəyə doğru yolda, şəhərin iki kilometrliyindəki Quruqobu adlı yerdə rus qoşunları ilə gəncəlilər arasında ilk vuruşma baş verdi. Cavad xan bir qədər müqavimətdən sonra qalaya qayıtdı. Bundan sonra rus qoşunları Gəncəni mühasirəyə aldılar. 1804-cü il yanvarın 2-dən 3-ə keçən gecə rus qoşunları qalaya hücuma başladılar. Onların iki cəhdi dəf olundu. Qalanın müdafiəçiləri inadlı müqavimət göstərdilər. Cavad xan və oğlu Hüseynqulu ağa döyüşlərdə qəhrəmancasına həlak oldular. Gəncə döyüşlərində 1500 dən çox adam həlak oldu [15, s.12]. Gəncə xanlığı ləğv olundu, şəhər isə öz qədim adını itirdi və I Aleksandrın arvadının şərəfinə Yelizavetpol adlandırıldı. Gəncədə yaşayan er-

mənilər Cavad xana xəyanət edərək rusların yanında yer aldılar, qala divarlarının əsas qülləsinin ruslar tərəfindən tutulmasına kömək etdilər. Cavad xanın arvadlarından biri erməni idi. Astagül və onun qardaşı Revaz xəyanətkarlara rəhbərlik edirdi [3]. Gəncə xanının vassal asılılığında olan Samux hakimi Şirin bəy Gəncənin süqutundan sonra Rusiya təbəəliyini qəbul etəməyə məcbur oldu.

Gürcüstanın, Azərabycanın bir hissəsinin Rusiya tərəfindən işğalı Qacarların və Türkiyənin, habelə İngiltərə və Fransanın narahatlığına səbəb oldu. 1804-cü ilin mayında Qacarlar Azərbaycan-Rusiya müharibəsinə qoşuldu. Onların iştirakı ilə ilk döyüşlər İrəvan xanlığı ərazisində, 1804-cü il iyulun 2-də Eçmiədzin (Üçkilsə), iyulun 29-da isə Qəmərli kəndi yaxınlığında oldu. Sentyabrın əvvəlində rus qoşunları geri çəkildi, Gəncəyə, sonra Tiflisə getdilər [21, s.85-86]. Bu dövr ərzində Rusiyaya qarşı hərbi və siyasi mübarizəyə görkəmli Azərbaycan Qacar sərkərdəsi, Fətəli şahın oğlu, vəliəhd Abbas Mirzə (anası Qubalı Fətəli xanın qızı Asiyabəyim xanım idi) rəhbərlik edirdi. Abbas Mirzənin Şahbulaq, Əsgəran, Zəyəm və digər istiqamətlərdə rus qoşunlarını məğlub etmək cəhdləri bəzən uğurlu olsa da, sonda məğlubiyyətlə nəticələndi [2, s.76]. Bu şəraitdə İbrahimxəlil xan Sisianovun şərtlərini qəbul etməli oldu. Sisianov həmin vaxt Gəncə yaxınlığında idi. İbrahimxəlil xan da buraya gəldi və 1805-ci il mayın 14-də Kürəkçay deyilən yerdə Sisianovla görüşdü. Görüşdə imzalanan Kürəkçay müqaviləsinə əsasən xan, onun varisləri və xanlığın bütün əhalisi Rusiya təbəəliyinə qəbul olunur və onların üzərinə rus çarına sadiq qalmaq öhdəliyi qoyulurdu. Çar isə öz növbəsində bu xan sülaləsinin

hüquqlarını "bütün zamanlar üçün" təsdiq edirdi, lakin hər dəfə xan varisləri çar tərəfindən təsdiq olunmalı idi [22, s.148]. Sisianovun düşərgəsinə İbrahimxəlil xanla birlikdə onun kürəkəni, bundan bir az əvvəl Şəki xanlığında hakimiyyəti ələ keçirmiş Səlim xan da gəlmişdi. Səlim xan qaynatasının məsləhəti ilə mayın 21-də ruslarla müqavilə bağladı. Bu müqavilə Qarabağ xanı ilə bağlanmış müqavilənin şərtlərini təkrar edirdi. Bundan sonra Sisianov Şirvana doğru hərəkət etdi. Öz vəziyyətinin çıxılmazlığını görən Mustafa xan Rusiya təbəəliyinə keçməyə razı oldu. Mustafa xan və Sisianovun Fit dağı yaxınlığında 1805-ci il dekabrın 27-də imzaladıqları müqavilə əvvəlcə bağlanmış iki müqavilə ilə eyni idi. 1806-cı il fevralın əvvəllərində Sisianov artilleriyası olan böyük qoşun dəstəsi ilə Bakının iki kilometrliyində düşərgə saldı, qalanın təslim edilməsini tələb etdi [12, s.228]. Bakılı Hüseynqulu xan onun şərtləri ilə razılaşdı. Fevralın 8-də Sisianov onu qalanın girişində gözləyən xanla görüşmək üçün yola düşdü. Görüşün gedişində Sisianov Hüseynqulu xanın əmisi oğlu İbrahim bəy tərəfindən tapanca atəşi ilə öldürüldü. İbrahim bəy onun başını kəsərək, Təbrizə yola düşdü, düşmənin başını Abbas Mirzəyə təqdim etdi. Sisianovun bədəni Bakıda basdırılmışdı, sonralar çıxarılaraq Tiflisə aparıldı, Sioni monastrında dəfn olundu [23, s.38-39]. Sisianovun öldürülməsindən sonra rus qoşunlarının vəziyyəti ağırlaşdı. 1806-cı ilin yazında Qacar qoşunları yenidən fəallaşdı və Arazı keçərək Qarabağa yeridi. Lakin Ağdamda ruslar Qacar qoşununu sıxışdırdı və Əsgəranı tutaraq Şuşaya doğru irəlilədi [9, s.237].

Şahzadə Abbas Mirzə İbrahimxəlil xanı öz tərəfinə çəkmək üçün elçilərini onun yanına göndərdi. İbrahimxəlil xan ailəsinin təhlükəsizliyini təmin etmək üçün Şuşa qalası yaxınlığındakı Xankəndinə köçdü. O, artıq ruslara qarşı Qacarlarla ittifaq qurmaq istəyirdi. Rus qoşunlarının komandiri mayor Lisaneviç bunu hiss edərək, xain basqın təşkil etdi, iyunun 12-də onu ailə üzvləri və yaxınları ilə birlikdə qətlə yetirdi. Bu hadisə bir çox xanların Rusiyadan üz döndərməsinə səbəb oldu. Amma ruslara ciddi müqavimət göstərmək artıq mümkün deyildi. Qarabağ xanlığı Rusiyadan asılı vəziyyətdə qaldı, İbrahim xanın oğlu Mehdiqulu yeni xan təyin edildi [18, s.124-134]. 1806-cı ilin iyununda rus qoşunları Quba xanlığına tabe olan Dərbəndə yaxınlaşdı və oranı tutdular. Sonra onlar Bakıya doğru yönəldilər. 1806-cı ilin sentyabrında Bakı xanlığı Rusiyaya tabe edildi. Rus qoşunları bundan sonra Quba şəhəri istiqamətində hərəkət etdi. 1806-cı ilin noyabrında ruslar şəhərə daxil oldular. Rusiya rəhbərliyi xanlığın ləğv olunduğunu elan etdi. Lakin Şeyxəli xan müxtəlif kəndlərdə yaşamaqla, faktiki olaraq xanlığı idarə edir, ruslara qarşı mübarizə aparırdı. Bu mübarizə 1819-cu ilə qədər davam etdi. Həmin ilin avqustunda baş verən döyüşdə Şeyxəli xan məğlub oldu və dağlara çəkildi. Onun 1821-ci ildə vəfat etdiyi, Balakəndə dəfn olunduğu güman edilir. [11, s.216-229; 2, s.189-193].

Beləliklə, 1806-cı ilin sonunda Lənkəran, İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla, Azərbaycanın şimal ərazisi Rusiya tərəfindən işğal edildi.

Rusiyanın Cənubi Qafqazda möhkəmlənməsi Türkiyə, Fransa və İngiltərəni narahat edirdi. 1806-cı ilin sonunda

Türkiyə Rusiyaya qarşı müharibəyə başladı. Osmanlı-Rusiya müharibəsi (1806-1812) Cənubi Qafqaz və Moldova-Valaxiya ərazilərində bu və ya digər tərəfin üstünlüyü ilə davam etdi [25]. 1808-1809-cu illərdə yerli xanlar və Qacarlarla rusların arasında Naxçıvan və İrəvan istiqamətlərində qanlı döyüşlər oldu. Ruslar 1809-cu ilin ortalarında Qarababa kəndi yaxınlığında yerli və Qacar qoşunlarını məğlub edərək Naxçıvanı tutdu, lakin sentyabr ayında həmin Qarababa yaxınlığında qoşunlarımız rusları məğlub etdi. Rus qoşunları İrəvan yaxınlığında da məğlub oldular, Naxçıvan və İrəvan ətrafından çəkilib getdilər. 1810-cu ilin avqustunda Qacarlar və Osmanlı arasında Rusiya əleyhinə hərbi ittifaq bağlandı. 1812-ci ilin əvvəllərində 20 minlik Qacar ordusu Qarabağa daxil oldu. O, Şahbulaq və Sultanbud tərəfə irəlilədi. Böyük miqdarda artilleriyaya malik olan şah qoşunları rus qarnizonunu mühasirəyə aldılar və asan qələbə qazandılar. Bununla Abbas Mirzə müəyyən üstünlük əldə etdi.

Rus qoşunları rus-türk müharibəsinin Qafqaz və Balkan cəbhələrində bir sıra qələbələr qazandı. M.I.Kutuzovun komandanlığı altında Balkanlardakı qələbə xüsusən təsiredici idi və bu da Türkiyəni sülh istəməyə məcbur etdi. 1812-ci ilin mayında Buxarestdə Rusiya və Türkiyə arasında sülh müqaviləsi bağlandı. Bu müqaviləyə görə Türkiyə Cənubi Qafqazın böyük bir hissəsinin Rusiya tərəfindən işğal olunmasını təsdiq etdi [30, s.163-164]. 1812-ci ilin yayında Napoleon Fransası ilə Rusiya arasında müharibə başlandı. Abbas Mirzə rus ordusunun əsas qüvvələrinin Napoleona qarşı yönəlməsindən istifadə edərək öz ordusunu hərəkətə gətirdi. Abbas Mirəzənin

komandanlığı altında 30 minlik ordu Aslandüz (indiki İranın Ərdəbil vilayətində şəhər, Azərbaycanın Horadiz qəsəbəsi ilə üzbəüz) yaxınlığında Araz sahilində cəmləşdi. Lakin Abbas Mirzənin planları həyata keçmədi. Rus qoşunları 1812-ci ilin oktyabrında Aslandüz döyüşündə qalib gəldi. Rus qoşunları sonra Lənkəran istiqamətində hərəkət etdi, 1813-cü il yanvarın əvvəlinə qədər Muğan və Lənkəranı nəzarətə götürdü [30, s.165-167]. Ruslar Lənkəranı ağır döyüşlərdən sonra, 350 nəfər itki verərək tuta bildilər, şəhərin müdafiəçilərindən 4 min nəfər, o cümlədən Sadıq xan qəhrəmanlıqla həlak oldu. Ruslar şəhərə daxil olub, dəhşətli qətliam törətdi, 16 min nəfər dinc sakini qətlə yetirdilər. Bundan sonra Qarabağda, Gülüstan kəndində (Azərbaycanın Goranboy rayonunda kənd) danışıqlar başladı və 1813-cü il oktyabrın 12-də sülh müqaviləsi imzalanması ilə başa çatdı. Gülüstan müqaviləsinə görə, Qacar hökuməti Rusiyanın qələbəsini, Gəncə, Qarabağ, Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Lənkəran xanlıqlarının ərazisinin, habelə Şərqi Gürcüstanın Rusiyanın ixtiyarına keçməsini tanıdı. İrəvan və Naxçıvan xanlıqları müstəqilliyini saxladı. Qacarlar yalnız Rusiyaının Xəzər dənizində hərbi gəmilər saxlamaq barədə hüququnu tanıdı [5]. Beləliklə, ikinci Azərbaycan-Rusiya müharibəsi şimal torpaqlarımızda 10 il ərzində davam etdi. Bu müharibədə Şimali Azərbaycan xanlıqları əsas tərəf kimi çıxış etdi, Azərbaycanın cənub torpaqlarını öz hakimiyyəti altında birləşdirən Qacarlar isə fəal şəkildə müharibənin gedişinə müdaxilə etdilər, lakin uğur qazana bilmədilər. Rusiya torpaqlarımızın işğalı ilə bağlı müqavilələri Şimali Azərbaycan xanları ilə imzaladı. Sonda Osmanlı dövləti

Buxarest, Qacar dövləti isə Gülüstan müqavilələri ilə rus işğalının nəticələrini tanıdılar.

Rusiya qələbədən sonra xanlıqların daxili müstəqilliklərini də ləğv etməyə başladı. Rusiyaya silahlı müqavimət göstərmiş xanlıqlar (Gəncə, Quba, Dərbənd, Bakı) dərhal ləğv edildi. 1819-cu ildə Şəki xanlığı, 1820-ci ildə Şirvan xanlığı ləğv edildi. Qarabağ xanı Mehdiqulu xan 1822-ci ildə hakimiyyətdən imtina edərək Qacarların tərəfinə keçdi. Rusiya hökuməti bundan bəhanə kimi istifadə edərək xanlığı ləğv etdi. Mehdiqulu xan 1826-cı ildə özünü yenidən Qarabağ xanı elan etdi, 1827-ci ildə Mirzə Adıgözəl bəyin vasitəçiliyi ilə Qarabağa qayıtmaq icazəsi aldı, Şahbulaq yaxınlığında yaşadı, 1845-ci ildə vəfat etdi. Ağdamda "İmarət" məzarlığında dəfn edildi [10]. 1826-cı ildə Lənkəran xanlığının da varlığına son qoyuldu. Beləliklə, Şimali Azərbaycanda rus müstəmləkə rejimi hökm sürməyə başladı. Bu vaxtdan etibarən, Rusiya mənbələrində Azərbaycanın Araz çayından cənuba doğru əraziləri Persiya (İran) və ya Qacarlar dövləti, şimala doğru əraziləri isə Azərbaycan adlandırıldı. Bu yanaşma tədricən Avropada da qəbul edildi.

Azərbaycan xanları Rusiya işğalı ilə barışmır, Qacarlarla birlikdə yeni müharibəyə hazırlaşırdı. Rusiya isə Azərbaycanın bütün ərazilərini zəbt etmək istəyirdi. Hər iki tərəfin təşəbbüsü ilə 1826-cı ildə üçüncü Azərbaycan-Rusiya müharibəsi (1826-1828-ci illər) başlandı. 1826-cı ilin iyulunda Abbas Mirzənin 60 minlik ordusu Şimali Azərbaycana daxil oldu [24]. Ordunun bir hissəsi Gəncəyə tərəf hərəkət etdi. Digər əsas qüvvələr Şuşa üzərinə yeridildi. Qacar odusu ilə birlikdə Gəncəli Cavad xanın oğlu

Uğurlu xan, Bakılı Hüseynqulu xan, Şirvanlı Mustafa xan, Qarabağlı Mehdiqulu xan və başqaları da gəlirdilər. Qarabağda bəy qrupları öz fəallığını artırırdı. İrəvan xanı rus odusunun düşərgə saldığı rayona böyük atlı dəstəsi ilə hücum etdi. Əhali Rusiya əleyhinə üsyanlar qaldırdı. Belə üsyanlardan biri Gəncədə baş verdi. Bu üsyanın iştirakçıları 1826-cı ilin iyulunda həbsxananı ələ keçirdilər, yerli qarnizonu darmadağın etdilər. Şəhər Qacarların və Uğurlu xanın qoşunu tərəfindən tutuldu. Hərbi əməliyyatlar Şimali Azərbaycanın demək olar ki, bütün ərazisini əhatə etdi. Qoşunlarımız bütün Qarabağ mahallarını tutaraq Şuşa qalasını mühasirəyə aldı. Hüseynqulu xan böyük bir dəstə ilə Bakı qalasını dənizdən və qurudan mühasirə etdi. Mustafa xan yeni Şamaxını ələ keçirməyə müvəffəq oldu. Bütün əhalinin köməyinə baxmayaraq, o, köhnə Şamaxını ələ keçirə bilmədi. Elə həmin vaxt şəkili Səlim xanın oğlu Hüseyn xan Şəki xanlığına daxil oldu. Mirhəsən xan Lənkəranı azad etdi [9, s.247]. Qacar ordusunun və yerli xanların dəstələri Gəncəni tutduqdan sonra Tiflisə tərəf hərəkət etdi. 1826-cı il sentyabrın əvvəlində Şəmkir yaxınlığında qanlı döyüş oldu. Bu döyüşdə Azərbaycan-Qacar qoşunları məğlub oldu və tələsik Gəncədən geri çəkildi [1, s.46].

1826-cı il sentyabrın ortalarında qoşunlarımız yenidən Gəncə üzərinə hücuma başladı. Amansız döyüş baş verdi. Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəy bu döyüş haqqında yazırdı: “Səhər vaxtı sərdar Paskeviç və general Mədətov qoşunlarına nizam verib Şeyx Nizami türbəsinə yaxınlaşdılar. Qızılbaş qoşunu ilə üz-üzə gəldilər. Burada böyük bir müharibə oldu. Bir saatdan sonra qızılbaşlar

basıldılar" [7, s.95]. Abbas Mirzənin qoşununun qalıqları tələsik Qarabağdan keçərək cənuba, Arazın o tayına çəkildi [12, s.240].

Hərbi əməliyyatlar 1827-ci ilin yazında yenidən başlandı. Apreldə rus qoşunları iki istiqamətdə irəliləməyə başladı. Dəstələrdən biri Xudafərin körpüsünü ələ keçirdi, Cənubi Azərbaycana yol açıldı. Əlahiddə Qafqaz korpusunun əsas qüvvələri İrəvan qalasına yaxınlaşaraq onu mühasirəyə aldı. Lakin İrəvanda müvəffəqiyyət qazana bilmədiyindən rus komandanlığı qoşununu Naxçıvan üzərinə yeritdi. 1827-ci ilin mayında rus qoşunu döyüşlərlə Naxçıvanı ələ keçirdi, müdafiəyə rəhbərlik edən Məhəmmədəmin xan qalanın açarlarını ruslara təhvil verdi [27, s.57]. Rus qoşunları avqustun sonlarında yenidən İrəvana yaxınlaşdı, Sərdarabad qalasını mühasirəyə aldı. Sentyabrda Sərdarabad qalası süqut etdi. İrəvan xanlığı əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət idi. General İ.Paskeviçin yazdığı kimi, "İrəvan vilayətində 10 min müsəlman (azərbaycanlı – Red.) və ancaq 3 min erməni ailəsi var idi" [4]. İrəvan şəhəri rus qoşunlarının komandanı general Paskeviçin təkidli tələblərinə baxmayaraq təslim olmadı. İrəvanlı Həsən xan inadla müdafiəni davam etdirirdi. Paskeviçin əmri ilə 40 topdan 1000-dən artıq mərmi yağdırıldı. Şəhər od-alov içində yanmağa başladı [8, s.242-243]. Oktyabrın 1-də şəhər süqut etdi, ruslar şəhərə daxil oldu. Həsən xan və digər hərbi rəhbərlər əsir düşdülər (Həsən xan sonra geri qaytarıldı) [8, s.243-244]. Bu vaxta qədər Cənubi Azərbaycanın sərhədlərində dayanan rus qoşunu ölkənin içərilərinə doğru irəliləməyə başladı. Oktyabrın əvvəlində Mərənd, Xoy, Təbrizi ruslar

ələ keçirdi [29]. 1828-ci ilin yanvarında Paskeviç rus qoşununa Ərdəbil və Tehran istiqamətndə hərəkət etməyi əmr etdi. Rus qoşunları yanvarda Urmiyanı, fevralın əvvəlində isə Ərdəbili tutdular [20, s.26]. 1828-ci il fevralın 6-da Təbriz yaxınlığındakı Türkmənçay kəndində Abbas Mirzə ilə Paskeviç arasında sülh danışıqları başlandı. Rusiya hökuməti Paskeviçin qarşısında şahdan Cənubi Azərbaycan ərazisinin də Rusiyaya birləşdirilməsini tələb etmək vəzifəsini qoymuşdu. Danışıqların iştirakçısı, diplomat A.S.Qriboyedov da Cənubi Azərbaycan ərazisinin Rusiyaya birləşdirilməsi fikrinə tərəfdar çıxdı [19]. Britaniya Cənubi Azərbaycanın rus qoşunları tərəfindən tutulacağından qorxurdu və bütün gücünü ona sərf edirdi ki, Rusiya özünün Cənubi Azərbaycana olan iddialarından əl çəksin. Türkiyə ilə yaxınlaşmaqda olan müharibə təhlükəsi şəraitində çar hökuməti sülh müqaviləsi bağlamağa tələsdi. Müqavilə 1828-ci il fevralın 10-da (22-də) imzalandı. Türkmənçay sülh müqaviləsinə görə, Qacarlar Şimali Azərbaycana olan iddialarından əl çəkir, onun üzərində Rusiya hakimiyyətini tanıyır, eyni zamanda Xəzər dənizində yalnız Rusiyanın hərbi donanma saxlamaq hüququnu bir daha təsdiq edirdi.

Müqaviləni Qacarlar tərəfdən ürək ağrısı ilə Abbas Mirzə imzaladı. O, görkəmli Azərbaycan sərkərdəsi, dövlət adamı, Azərbaycan-türk sevdalısı idi, türkcəni həmişə fars dilindən üstün tuturdu, Qacarlar, ümumiyyətlə, son nümayəndələrinə qədər türkcə danışır, fars dilinə əhəmiyyət vermirdilər. Məsələn, Nəsrəddin şah (1848-1896) fars dilini hakimiyyətə gələndən sonra öyrənmişdi. Abbas Mirzə Azərbaycan sevdası ilə yaşadı, 1833-cü ildə, qızının

xatirələrində qeyd etdiyi kimi, "Azərbaycan" deyərək gözlərini əbədi yumdu, Məşhəddə İmam Rza türbəsində dəfn olundu. O, oğlu Feridun Mirzəyə yazdığı məktubunda da vurğulayırdı ki, "mənim evim Azərbaycandır". Abbas Mirzə atası Fətəli şahla söhbətində Gülüstan və Türkmənçay müqavilələrinə çox üzüldüyünü bildirirdi: "Başqaları Azərbaycanı mənim qədər sevmədikləri üçün Azərbaycanın böyük bir qisminin ruslar tərəfindən işğalına üzülmədilər... Mən bu müqavilələrin sancılarını son nəfəsimə qədər yaşayacağam... Məni ayaqda tutan Azərbaycan əhalisi, Azərbaycan ordusu oldu... Mən bütün ruhumla, vicdanımla və vücudumla Azərbaycana borcluyam..., həyatıma məna verən, məni cəsarətləndirən Azərbaycan xalqı oldu". Abbas Mirzənin doğum tarixi məlum deyil, təxminən 1787-1788-ci ildə anadan olduğu, kiçik yaşlarında Bakıda, ana babası Qubalı Fətəli xanın yanında olduğu, onun tərəfindən çox sevildiyi qeyd edilir [13, s.131-141]. Güneylə Quzeyin müştərək övladı olan Abbas Mirzənin bütöv Azərbaycan sevdası həm də onun genləri, kökləri ilə bağlı idi.

Bu vaxt Rusiya ilə Türkiyə arasında münasibətlər kəskin şəkildə pisləşdi. Xəzərdən sonra çar Rusiyası öz qarşısına Qara dənizi, ilk növbədə Qara dənizdə hökmranlığın açarı hesab edilən Bosfor və Dardanel boğazlarını ələ keçimək vəzifəsini qoymuşdu. 1828-ci ilin aprelində Rusiya Türkiyəyə müharibə elan etdi. Qafqaz hərbi əməliyyatları rus qoşunlarının Qars istiqamətndə hücumu ilə başlandı. Qarsı tutduqdan sonra Ahalsıxı ələ keçirdilər. Avqustun sonlarına qədər rus qoşunları Bəyazid qalası ilə birlikdə bütün Bəyazid paşalığını ələ keçirdi [20, s.31]. 1829-cu il

hərbi əməliyyatlarının gedişində rus qoşunu Ərzrumu ələ keçirdi. Balkan hərbi əməliyyat meydanında isə rus qoşunları Ədirnəni ələ keçirdi və İstanbula yaxınlaşdı. Sultan II Mahmud (1808-1839) sülh xahiş etməyə məcbur oldu. 1829-cu ilin sentyabrında Ədirnədə bağlanan sülh müqaviləsinə görə, Türkiyə Qara dənizin bütün şərq sahillərini Rusiyaya güzəştə getdi. Bosfor və Dardanel boğazları rus və Qərbi Avropa ticarət gəmiləri üçün açıq elan edildi. Ədirnə sülhü Şimali Azərbaycanın, bütün Cənubi Qafqazın Rusiya tərəfindən zəbt ounmasını təsbit etdi [17]. Rusiya bu müharibələr nəticəsində Şimali Azərbaycan xanlarının son müqavimət cəhdlərini aradan qaldırdı, xanları ağır döyüşlərdə məğlub etdi, torpaqlarımızı işğal etdi, həmçinin Qacar və Osmanlıların bu ərazilərə iddialarından imtina etmələrinə nail oldu.

Beləliklə, Rusiya işğalları ilə Azərbaycan dövlət müstəqilliyini itirdi. Azərbaycan ərazisi müharibə nəticəsində iki hissəyə bölündü. Bu tarixi ədalətizlik nəticəsində vahid xalq bölündü və onların hər biri fərqli sosial-iqtisadi, siyasi və mədəni mühitdə inkişafını davam etdirməli oldu.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan tarixi. 7 clddə, IV cild (XIII-XVIII əsrlər). Bakı, "Elm", 2007.

2. Bakıxanov A.A. Gülüstani-İrəm, Bakı, "Minarə", 2000.

3. Əlibəyli Ə. "Erməni arvadı Cavad xanı necə öldürtdü?- publika.az/news/bilsi/ 31173.html.

4. Əliyeva F. İrəvan xanlığı.- "Azərbaycan" qəzeti, 2009, 18 mart, s.6.

5. Gülüstan müqaviləsi-Tam mətn.- oxu.az/politics/47033.

6. “İran” adlı “ölkə” Əfqanıstanda yerləşib.- Məmmədli P.- axar.az/news/layiheler/ 778825.html.

7. Qarabağnamələr, I kitab. Bakı, “Şərq-Qərb”, 2006.

8. Qarayev E. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortaları). Bakı, “Mütərcim”, 2016.

9. Qəniyev H. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Ali Məktəblər üçün dərslik. Bakı, “Elm və Təhsil” nəşriyyatı, 2019.

10. Mehdiqulu xan Cavanşir.- axtar.len.az/?q=Mehdiqulu_xan_Cavanşir.

11. Mustafazadə T. Quba xanlığı. Bakı, “Elm”, 2005.

12. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Texniki Ali Məktəblər üçün dərslik. Bakı, “Elm və Təhsil”, 2019.

13. Pakrəvan Ə. Abbas Mirzə və Azərbaycan. Bakı, “Qanun”, 2010.

14. Azerbaijan x. Azeri Turkish Literature. Encyclopaedia Iranica.- web.archive.org/web/ 20130201033259/ http://www.iranicaonline.org/articles/azerbaijan-x.

15. Bournoutian G. “The Khanate of Erevan Under Qajar Rule, 1795-1828. Persian Studies Series, number 13, Bibliotheca Persia, Iran Center, Columbia University, New York, 1992.

16. Katouzian H. “Iranian history and politics”. Published by Routlendge, 2003.

17. Spencer C. Tucker, ed. A Global Chronology of Conflict: From the Ancient World to the Modern Middle East. ABC-CLIO. 2010, s.1154.

18. Абасов Ф. Гарабагское ханство. Баку, «Тахсил», 2007.

19. Адыгезалов Г. «Литературный Азербайджан» о связах А.С.Грибоедова с Азербайджаном.- azerhistory.com/?p=30622.

20. Аллен У., Муратов П. Битвы за Кавказ. История войн на турецко-кавказском фронте. 1828-1921. Пер. с англ. Е.В.Ламановой. Москва, Центрполиграф, 2016.

21. Большая Российская энциклопедия. (в35т). Москва, изд. БРЭ, 2015.

22. Гарабаг: Кюрекчайский договор-200/ Под.ред. Г.Н. Мамедовой и Ф.Г.Вахабовой. Баку, «Тахсил», 2005.

23. Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века. (Из военно-политической истории). Москва, «Наука», 1969.

24. История русской армии и флота. Москва, изд. «Образование», Т.6, 1911, s.61.- runivers.ru/bookreader/book9717/#page/66/mode/1up.

25. Краткий курс истории. Русско-Турецкая война 1806-1812 годов.- histrf.ru/read/ articles/kratkii-kurs-istorii-russko-turetskaia-voina-1806-1812-ghgh.

26. Лапин В.В. Цицианов. Москва, «Молодая гвардия», 2011.

27. Нагдалиев Ф. Ханы Нахичеванские в Российской империи. Москва, «Новый аргумент», 2006.

28. Новая история Ирана. Хрестоматия. Москва, изд. «Наука», 1988.

29. Русско-иранские войны.- histrf.ru/read/articles/russko-iranskiie-voiny.

30. Фадеев А.В. Россия и Кавказ первой трети XIX в. Москва, изд. АН ССР, 1960.

### *§ 2. Şimali Azərbaycanda Rusiyanın işğal rejimi, işğala qarşı mübarizə, sosial-siyasi və iqtisadi proseslər.*

Yerli xan sülalələrini məhv etdikdən sonra çar hökuməti xanlıqları əyalətlərə çevirdi. Bu əyalətlərə rus zabitlərindən komendantlar təyin edildi. Komendantlar vaxtilə xanların malik olduqları bütün hüquqlardan istifadə edirdi, o cümlədən məhkəmə orqanlarını, əyalət və dairələri idarə edirdi [30, s.97]. Hələ xanlıqlar dövründə mövcud olmuş vergi sistemi də, demək olar ki, dəyişdirilmədən XIX əsrin 40-cı illərinədək saxlanıldı. Şəki, Şirvan, Qarabağ və Lənkəran əyalətləri inzibati cəhətdən iqamətgahı Şuşa şəhərində yerləşən müsəlman əyalətləri hərbi dairə rəisliyinə, Bakı, Quba və Dərbənd əyalətləri isə iqamətgahı Dərbənd şəhərində yerləşmiş Dağıstan hərbi rəisliyinə təbe idi. Keçmiş Gəncə xanlığının ərazisi isə bu dövrdə inzibati cəhətdən Şərqi Gürcüstan ərazisində yaradılmış inzibati vahidlərin tərkibinə daxil edilmişdi. Bu rejim komendant idarəçilik üsulu adlandırılırdı [7, s.255]. Çar müstəmləkəçiləri ilk illərdən etibarən Şimali Azərbaycanda rusların, ermənilərin və digərlərinin köçürülüb yerləşdirilməsinə ciddi fikir verirdilər. Bu yolla Azərbaycana köçürülənlər çarizmin dayağına çevrilməli, bu yerlərin itaətdə saxlanılmasında əsas dayaq rolunu oynamalı idilər. Həmçinin bu siyasətlə burada erməni dövləti yaratmaq niyyətləri var idi. XX əsrin əvvəllərinə qədər bu siyasət nəticəsində Azərbaycanda 40-dan artıq rus kəndi salındı [7, s.263-264].

Erməniləri də bu vaxt Cənubi Azərbaycan və Türkiyədən Şimali Azərbaycana köçürdülər. Türkmənçay müqa-

viləsinin XV maddəsində ermənilərin Şimali Azərbaycana köçürülməsi nəzərdə tutulurdu. Ermənilərə hamiliyi öhdəsinə götürmüş çar hökuməti erməni milli ərazisi düzəltmək sahəsində ilk əməli addımı atdı. Çar I NİKolay 1828-ci il 21 martda İrəvan və Naxçıvan xanlığının ləğvi və onların yerində "erməni vilayəti"nin yaradılması haqqında fərman imzaladı [23]. 1828-ci ildə Cənubi Azərbaycanın Təbriz, Maku, Ərdəbil, Xoy, Salmas, Urmiya vilayətlərindən 40-50 min erməni əhalisi Şimali Azərbaycana köçürüldü [26, s.50]. Ermənilərin köçürülməsində əsas məqsəd Şimali Azərbaycan xanlıqlarında əhalinin milli tərkibində xiristianların xeyrinə ciddi dəyişiklik etmək idi. Şimali Azərbaycan torpağına erməni axını həm də qonşu Türkiyədən başlandı. 1828-1829-cu illərdə rus-türk müharibəsində Rusiyanın qələbəsi ermənilərin Türkiyədən Azərbaycana köçürülməsinə şərait yaratdı. Türkiyədən Azərbaycana təqribən 90 min erməni köçürüldü. Köçürülən ermənilərin əksəriyyəti İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisində yerləşdirildi. İrəvan xanlığında azərbaycanlıların xüsusi çəkisi 1828-ci ildə ümumi əhalinin 73,8 faizini təşkil edirdisə, 1834-1835-ci illərdə isə bu rəqəm 46,2 faizə enmişdi. Rusiya hökumətinin apardığı siyahıyaalmaya görə, 1823-ci ildə Qarabağ əhalisinin 91 faizini müsəlmanlar (azərbaycanlılar), 8,4 faizini isə ermənilər təşkil edirdilər [13, s.54].

Azərbaycan ölkəsinin əsas danışıq dili ilə bağlı rus mənbələrində maraqlı məlumatlar qalıb. İşğaldan dərhal sonra rus hökumətinin təşkil edib regiona göndərdiyi komissiya 1836-cı ildə "Rusiyanın Qafqaz arxasındakı əyalətlərinin statistikası, etnoqrafiyası, topoqrafiyası və maliyyə

baxımından təsviri" (Обозрение Российских владений за Кавказом в статическом, этнографическом, топографическом и финансовом отношениях. ч.II Спв, 1836) hesabatı çap etdirdi. Həmin hesabatda göstərilir: "Türkmən dili bütün Azərbaycanda yayılıb", "bizim tatar dili" dediyimiz bu dil "türk dili ilə o qədər yaxındır ki, hər iki xalq bir-birini başa düşür", "bu dil Zaqafqaziyada türki adlanır..., onun burada fransız dilinin Avropada işlədildiyi kimi geniş işlədilməsi təəccüblü görünməməlidir" [3, s.283].

Azərbaycan xalqı XIX əsrin başlanğıcından etibarən mümkün olan bütün vasitələrdən istifadə etməklə işğalçılara qarşı mübarizəyə qalxdı. XIX əsrin 30-cu illərinin əvvəllərindən Car-Balakən, Lənkəran, Şirvan və sair bölgələdə rus müstəmləkəçilərinə qarşı bir sıra çıxışlar baş verdi. Sonuncu Lənkəran hakimi Mirhəsən xanın başçılığı altında 1831-ci il martın əvvəlində başlayan üsyan Azərbaycan xalqının ən güclu çıxışlarından biri idi. Ən qısa müddət ərzində Mirhəsən xanın ətrafına min nəfərədək silahlı atlı toplaşdı. Rus hökumətinin bütün cəhdlərinə baxmayaraq Lənkəran üsyanı təxminən 2 aya qədər davam etdi, yalnız əlavə qüvvələr gətirildikdən sonra yatırıldı [14, s.24-48]. XIX əsrin 30-40-cı illərində antirus, antimüstələkə üsyanlarından ən güclüsü və geniş miqyaslısı 1837-ci il Quba üsyanı oldu. Üsyançılar Xuluq kəndxudası Hacı Məmmədi özlərinə başçı seçdilər. Əyalətin əsas hissəsi həmin ilin yazında Hacı Məmmədin nəzarəti altına keçdi [29, s.72]. Üsyançılar buradan Qubaya doğru yönəlib şəhərin həndəvərində düşərgə saldılar. Üsyançıların sayı qısa müddətdə 12 min nəfərə çatdı. Üsyanın rəhbərlərindən Yarəli və Usta

Osmanın Quba üzərinə hücumu gözlənilən nəticəni vermədi. Hacı Məmməd məcburiyyət qarşısında mühasirəni ləğv edib dəstə üzvlərini buraxdı və Xuluqa qayıtdı. Hacı Məmməd həbs olundu. Yarəli dağlara çəkilib mübarizəni davam etdirirdi. Üsyanın 36 nəfər başçısı hərbi səhra məhkəməsində ittiham olundu. Hacı Məmməd daxil olmaqla bir qrup edam olundu [2, s.193-194].

Şimali Azərbaycanda müstəmləkəçi rus rejiminə qarşı üsyanlardan biri də 1838-ci ildə Şəki əyalətində baş verdi [21, s.169]. Həmin il sentyabrın 1-də üsyançılar müqavimətsiz olaraq Şəki şəhərinə daxil oldular. Bu Şəki üsyanının ən yüksək nöqtəsi idi. Lakin qızğın döyüşlər nəticəsində bir neçə gündən sonra üsyançılar Şəki şəhərini tərk etmək məcburiyətində qaldılar. Rus əsgərləri tərəfindən təqib olunan üsyançıların 100 nəfərindən çoxu əsr alınıb komendanta təhvil verildi [1, s.117-118]. Üsyanın rəhbəri Məşədi Məmməd isə məşhur üsyançı Yarəli ilə birlikdə təxminən 200 nəfərlik dəstə ilə Şəki əyalətinin sərhədləri boyu manevrlər edərək yeni həmlə üçün məqam axtarırdı. 1838-ci il sentyabrın sonunda cəza dəstələri üsyançıları məğlub etdi. Məşədi Məmməd böyük çətinliklə Cənubi Azərbaycana gedib çıxmağa müvəffəq oldu [7, s.271-272]. Məğlubiyyətə baxmayaraq bu üsyanlar izsiz qalmadı. Üsyanlar müstəmləkə rejiminə qarşı Azərbaycan xalqının mübarizə əzminin ifadəsi oldu. Xalqın kütləvi hərəkatı, silahlı üsyanlar nəticəsində Rusiya Qafqazda özlərinin müstəmləkə siyasətində bəzi dəyişikliklər etmək məcburiyyətində qaldı.

1840-cı il aprelin 10-da çar hökuməti inzibati islahat haqqında qanun verdi. Qanuna görə komendant idarə

üsulu ləğv olundu. Cənubi Qafqaz mərkəzi şəhəri Tiflis olan Gürcüstan-İmeretiya quberniyasına və baş şəhəri Şamaxı olan Xəzər vilayətinə bölündü. Qondarma "erməni vilayəti" ləğv edildi. Azərbaycanın böyük bir hissəsi Xəzər vilayətinin tərkibinə daxil oldu. Vilayət Şamaxı, Şuşa, Şəki, Lənkəran, Bakı, Quba və Dərbənd qəzalarına, qəzalar isə məntəqələrə bölünürdü. Gürcüstan-İmeretiya quberniyasının tərkibinə Yelizavetpol, Balakən, İrəvan və Naxçıvan qəzaları daxil idi [7, s.272]. Çar hökuməti Qafqazda mövqelərini möhkəmləndirmək üçün 1844-cü ildə burada canişinlik təsis etdi. Çarın Qafqazda ilk canişini Mixail Vorontsov oldu [19]. Onun dövründə 1846-cı ildə Cənubi Qafqazda yeni inzibati bölgü həyata keçirildi. Ölkənin ərazisi Tiflis, Kutais, Şamaxı (1858-ci il Şamaxı zəlzələsindən sonra quberniyanın mərkəzi Bakı oldu) və Dərbənd quberniyalarına bölündü. Həmin ilin dekabrında bəy və ağaların mülkiyyət hüquqlarının bərpa olunmasına dair fərman verildi. 1847-ci ilin aprel və dekabr tarixli "Kəndli əsasnamələri" ilə torpaq sahibləri və kəndlilər arasında münasibətlərin əsas prinsipləri müəyyən edildi.

1867-ci ildə Yelizavetpol quberniyası təşkil edildi [20]. Mərkəzi Gəncə (Yelizavetpol) şəhəri idi. 1868-ci ilin yanvarında fəaliyyətə başlayan yeni quberniyaya Bakı quberniyasından Şəki və Şuşa qəzaları, Tiflis quberniyasından Qazaxla birlikdə Gəncə qəzası, İrəvan quberniyasından Ordubad qəzasının Mığrı (Mehri) məntəqəsi və təzə təşkil olunmuş Zəngəzur qəzası verildi. 1874-cü ildə əlavə müstəqil Ərəş qəzası, 1883-cü ildə Cəbrayıl və Cavanşir qəzaları yaradıldı. Qəzalar məntəqələrə bölündü. 1881-ci ildə ləğv olunmuş canişinlik sistemi 1905-ci ildə bərpa

olundu. Bu inzibati bölgü Azərbaycanda 1918-ci ilə qədər demək olar ki, dəyişmədi.

Ölkə daxilində 60-cı illərdə baş verən hadisələrin fövqündə təhkimçilik hüququnun ləğv edilməsi dayanırdı. Çar II Aleksandrın 19 fevral 1861-ci il tarixli fərmanı ilə Rusiyada təhkimçilik hüququ ləğv edildi. Bu və digər islahatlar imperiyanın hər yerində öz təsirini göstərdi. Şimali Azərbaycanda kapitalist münasibətlərinin hərtərəfli inkişafı başladı. Çar hökuməti digər milli ucqarlarda olduğu kimi Cənubi Qafqazda, o cümlədən Azərbaycanda aqrar islahatın keçirilməsini qəsdən ləngidirdi. İslahat əvvəlcə 1864-cü ildə Gürcüstanda keçirildi. Bundan iki il sonra Azərbaycanda islahatın layihəsini hazırlamaq üçün bəy komissiyaları təşkil edildi. Nəhayət, Rusiyadan 9 il sonra çar hökuməti Azərbaycanda aqrar islahat keçirməyə razı oldu. Azərbaycanda kəndli islahatının əsas qanuni sənədi 1870-ci il mayın 14-də verilən "Torpaq quruluşu haqqında əsasnamə" və ya Kəndli Əsasnaməsi idi [4, s. 108]. 14 may 1870-ci il islahatını Azərbaycanda təhkimçiliyin ləğvi kimi qiymətləndirmək düzgün olmazdı. Burada kəndlilərin feodal asılılığı münasibətləri təhkimçilik səviyyəsində deyildi. Rusiyadakı kimi kəndlilərin rəsmən alınıb satılması halları yox idi. 1870-ci il 14 may «Əsasnaməsi»nin maddələri əsas etibarilə kəndlilərin feodal asılılığının ləğv edilməsi, kəndlilərə şəxsi azadlığın verilməsi, vergilərin nizama salınması, pay torpağının verilməsi, mükəlləfiyyətlərin ləğv olunmasından ibarət idi. Burada da 1847-ci il "Əsasnamələri"nə uyğun olaraq, kəndlilərin məhsullarının onda bir hissəsinin malcəhət kimi torpaq sahibinə verilməsi, 15 yaşına çatmış kişilərə beş desyatin (1 desyatin ≈ 1.09 ha)

pay torpağının verilməsi nəzərdə tutulurdu [18]. 1870-ci il dəyişiklikləri xarakterinə görə burjua islahatları idi.

Azərbaycanda kapitalist münasibətləri təkcə Bakıda deyil, ondan yüz kilometrlərlə məsafədə yerləşən qəzalarda və kəndlərdə də inkişaf etdi. Rusiyada əridilən misin 35%-ni verən Gədəbəydəki zavodlar, Nuxada, Şuşada, Ordubaddakı 33 ipəkçilik fabriki, 150-dən artıq kərpic və sement zavodu, 50-dən artıq pambıqtəmizləyən zavod, onlarla tütün fabriki, şərab zavodu, duz mədəni, balıq vətəgəsi, çəltik təmizləyən dəyirman, rabitə müəssisəsi və başqaları yeni müəssisələri idi. Əsrin sonunda bu müəssisələrdə 40-50 min fəhlə çalışırdı [7, s.278]. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Azərbaycanın əyalətlərində kapitalizmin inkişafı yüksək səviyyədə olmasa da, ölkənin digər milli ucqarlarından geridə qalmırdı. XIX əsrin 70-90-cı illərində kənddə təbəqələşmə prosesinin gedişində bir-birinə zidd olan iki qütb yaranırdı. Onun bir başında qolçomaqlar – kənd burjuaziyası, digər qütbündə çoxluğu təşkil edən yoxsullar və muzdurlar dayanırdı.

Uzun müddət mədənlərin fasiləsiz icarəyə verilməsi neft sənayesinin inkişafını ləngidirdi. Ölkədə neftə artan tələbat onun inkişafına mane olan səbəblərin, o cümlədən icarə sisteminin ləğvini tələb edirdi [24, s.46-67]. 1872-ci il fevralın 17-də icarə sisteminin ləğvi haqqında qanun verildi. Bundan sonra neft sənayesi sürətlə inkişaf etməyə başladı. Həmin ilin dekabrında neft yataqları hərrac vasitəsilə satışa çıxarıldı. Neft yataqlarının zənginliyi, mənfəətin çoxluğu və ucuz işçi qüvvəsinin olması nəticəsində xarici kapitalın Bakı neft sənayesinə güclü axını başlandı. Xarici kapitalın ilk nümayəndəsi İsveç təbəəsi Robert No-

bel oldu. Nobel qardaşları Bakıya 70-ci illərin ortalarında gəlsələr də, öz şirkətlərini 1879-cu ildə təşkil edə bildilər. Nobel qardaşlarından sonra iri xarici kapitalistlər fransız Rotşild və ingilisləri təmsil edən Vişau idi. 1873-cü ildə Bakıda 12 şirkət olduğu halda, əsrin sonunda onların sayı 140-a çatırdı. 1870-ci ildən 1901-ci ilə qədər neft istehsalı 165 dəfə artdı. Bakı neft sənayesi dünya neft istehsalının yarıdan çoxunu və Rusiyadakı istehsalın isə 95 faizini verirdi [25, s.355]. Azərbaycan şəhərləri inkişaf edirdi. 1859-cu ildə 12 min nəfərin yaşadığı Bakıda 1897-ci ildə 112 min əhali yaşayırdı. 1897-ci ildə Gəncədə 30 min, Şəki, Şuşa, Şamaxının hər birində 20 min əhali yaşayırdı. Azərbaycanda 1873-cü ildə 1,2 milyon, 1897-ci ildə 1,8 milyon nəfər yaşayırdı. Şəhər əhalisi ölkə əhalisinin 14,6 faizini təşkil edirdi. Müqayisə üçün, Rusiyanın Avropa hissəsində bu rəqəm 13% təşkil edirdi [2, s.211]. 1868-ci ildə qəzalardan keçməklə Tiflisdən Bakıya teleqraf xətti çəkildi. Sonra Gəncə ilə Şuşa arasında həmin xətt çəkildi. XX əsrin əvvəllərində Bakı teleqraf xətti Dərbənd, Port-Petrovski (Mahaçqala), Minvod və s. şəhərləri ilə birləşdirildi [27, s.259, 267, 461].

XIX əsrin sonu - XX əsrin əvvəllərində carizm Azərbaycanda köçürmə siyasətini davam etdirirdi və köçürülənlər əsasən yerli kəndlilər hesabına torpaqla təmin edilirdilər. Ermənilərlə yanaşı Azərbaycana ruslar, hətta almanlar da köçürülürdü. Birinci Dünya müharibəsi ərəfəsinə qədər Şimali Azərbaycana 210 min nəfər rus köçürülmüşdü. Onlardan 110 min nəfəri şəhərlərdə və mərkəzi qəzalarda, 100 min nəfəri isə kənd yerlərində yerləşmişdi [6, s.67].

70-90-cı illərdə kəndlilər bəy, mülkədar, həmçinin rus çarizminin nümayəndələrinə qarşı sərt etiraz formalarından istifadə edir, hakimiyyətə tabe olmurdular. Bu dövrün geniş yayılmış hərəkatı qaçaqçılıq idi. Bu qaçaqlardan Tanrıverdi və Əli Qazax, Dəli Alı Gəncə, Məşədi Məcid Quba, Süleyman Qarabağ, Yusif Zaqatala, Kərəm Qərb bölgələri, Kərim Şəki və digər bölgələrdə fəaliyyət göstərirdi [22]. Dəli Alı Şəmkirdə 1857-ci ildə anadan olmuşdu. Gəncəbasarın ən məşhur qaçağı idi, çar məmurlarına divan tutduğuna görə onu "Qafqaz şeytanı" adlandırırdılar. Hakimiyyətin və ya şəxsi düşməninin sifarişi ilə 1917-ci ildə öldürüldü [9]. Qaçaq Nəbi 1854-cü ildə indiki Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olmuşdu. Həyat yoldaşı Həcərlə birlikdə uzun müddət çar hökumətinə qarşı vuruşub, xalqın maraqlarını müdafiə etmişdir. 1896-cı ildə Kərbəla ziyarətindən qayıdarkən Türkiyə ilə İranın sərhəddində, Cənubi Azərbaycan ərazisində olan Larni kəndində rus casusları tərəfindən qətlə yetirildi [10].

Azərbaycanda genişlənməkdə olan siyasi hərəkatda iki müxtəlif istiqamət gözə çarpırdı: 1) türk və islampərəst milli burjua hərəkatı; 2) əsasən qeyri-azərbaycanlıların təsiri altında olan sosialist, sosial-demokrat hərəkatı. Bu dövrdə Rusiyada sosial-inqilabi hərəkat genişlənmişdi. Bu hərəkatın ən nüfuzlu partiyası olan Rusiya Sosial-Demokrat Fəhlə Partiyası (RSDFP) Azərbaycanın siyasi həyatına da nəzarəti ələ almaq məqsədilə 1901-ci ildə partiyanın Bakı komitəsini yaratdı. 1904-cü il dekabr tətili Bakı fəhlələrinin ən böyük aksiyası oldu və Rusiyanın inqilabi mübarizə tarixində ilk dəfə olaraq fəhlələrin qələbəsi ilə başa çatdı. Dekabrın 30-da tətilçilərlə neft sənayeçiləri arasın-

da danışıqlar müvəffəqiyyətlə başa çatdırıldı və fəhlələrin "Mazut konstitusiyası" adlandırdıqları ilk müştərək müqavilə imzalandı. Bu müqavilə yalnız neft sənayesində işləyən fəhlələrə aid idi [17, s. 42-43]. 1905-ci il yanvarın 9-da Peterburqda nümayiş içtirakçılarının gülləbaran edilməsi tarixə "Qanlı bazar" hadisəsi kimi daxil oldu və imperiyanın hər yerində, o cümlədən Azərbaycanda da etiraz çıxışları və tətillərin başlamasına səbəb oldu. Bu gərgin vəziyyətdən ermənilər azərbaycanlılara qarşı qırğın törətmək üçün istifadə etdi. Faciəli hadisələr Bakıda başladı. 1905-ci il fevralın 6-da Bakıda ermənilərin azərbaycanlılara qarşı başladıqları qırğınlar 3 gün davam etdi, il ərzində İrəvanda, Naxçıvanda, Qazaxda və digər yerlərdə təkrarlandı. Rusiya hökumətinin himayəsi və dəstəyi ilə azərbaycanlılara qarşı kütləvi qətliam törədildi [11].

XX əsrin başlanğıcında Rusiyada baş verən siyasi hadisələr nəticəsində yaranan tarixi şərait Azərbaycan milli burjuaziysının da milli təfəkkürünün inkişafına mühüm təsir göstərdi. O dövr milli ziyalilarımızın qabaqcıl nümayəndələrindən Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Üzeyir bəy Hacıbəyli, Mirzə Ələkbər Sabir, Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə və başqalarının fəaliyyəti xalqın milli təfəkkürünün formalaşmasında mühüm rol oynadı. Milli hərəkatın əsas aparıcı qüvvələri milli burjuaziya və demokratik ziyalılar idi. Azərbaycan ziyalılarının bəziləri- S.M.Əfəndiyev, M.Əzizbəyov RSDFP-nin üzvü idilər. Lakin M.Ə.Rəsulzadə, A.Kazımov, M.H.Hacınski kimi bir çox qabaqcıl ziyalılar bu partiyaya daxil olma-

yaraq, 1904-cü ilin oktyabrında özlərinin müstəqil milli təşkilatlarını, müsəlman aləmində ilk sosial-demokrat "Hümmət" təşkilatını yaratdılar [16, s.30]. M.Rəsulzadənin "Hümmət"də fəaliyyəti təqribən 1909-1910-cu illərə qədər, yəni təqiblərə məruz qalaraq İrana mühacirət etməsinədək davam etdi [8, s.6-7]. Azərbaycanlı qruplar rus-erməni qəsdlərinə qarşı birgə hərəkət etmək istəyilə 1905-ci ilin payızında Əhməd bəy Ağaoğlunun başçılığı ilə Bakı və Gəncədə "Difai" adlı təşkilat yaratdılar. Bu təşkilatın məqsədi azərbaycanlılara qarşı edilən haqsızlıqların və təcavüzlərin qarşısını almaq idi. Azərbaycan milli hərəkatının ilk nüvəsini təşkil edən "Difai" təşkilatı əhali arasında yaydığı gizli vərəqələrdə "erməni-müsəlman" qırğınında Rusiyanı günahlandırır, ermənilərə havadarlıq edən çar hökumətinə qarşı çıxış edirdi [12, s.20, 21, 24, 26, 27]. Onun ardınca Həmid bəy Yusifbəyli "Sosial Federalist Türk İnqilabi Komitəsi", daha sonra Ələkbər bəy Rəfibəyli bu komitənin əsasında "Qeyrət" adlı təşkilat yaratdı [5].

Azərbaycan nümayəndələri Rusiya müsəlmanlarının birgə fəaliyyəti istiqamətində mübarızəni də genişləndirməyə başladı. M.Ə.Rəsulzadənin təşəbbüsü ilə 1902-ci ildə Bakıda "Müsəlman gənclər təşkilatı" yaradıldı. Davamlı işlərin nəticəsi olaraq 1905-ci ilin avqustunda Nijni-Novqorodda I Ümumrusiya Müsəlmanları qurultayı toplandı. Qurultaya Krım, Qafqaz, Kazan, Ural, Türküstan və Sibirdən 150 nümayəndə qatıldı. Bu qurultayın keçirilməsinə rəsmi icazə alınmadığından nümayəndələr çar hökumətilə münaqişəyə girməmək üçün bir səyahət gəmisində toplanaraq içlaslarını keçirdilər. Konfransa rəhbərliyi İ.Qaspıralı, Ə.Topçubaşov, Y.Ağçura edirdi.

Müzakirələrin əsas mövzusu müsəlman hərəkatının təşkilatlanma məsələsi idi. Müzakirələrin nəticəsi olaraq "Rusiya Müsəlmanları İttifaqı" və ya qısaca olaraq "İttifaq" yaradılması qərara alındı. Bundan başqa qurultay Müsəlman İttifaqına rəhbərlik etmək üçün daimi yeri Bakı olan Mərkəzi Komitə yaratdı [28]. 17 oktyabr 1905-ci il çar manifesti ilə Rusiyada parlament (duma) yaradıldı. Azərbaycandan da Dumaya deputatlar seçilirdi. Qısa vaxt ərzində fəaliyyət göstərmiş I, II, III Dumalara Azərbaycandan Ə. Topçubaşov, F.Xoyski, X.Xasməmmədov və digərləri seçildi. Onlar Dumada azərbaycanlıların, bütövlükdə Rusiya müsəlmanlarının maraqlarını təmsil etməyə çalışırdılar [7, s.314-315]. I və II Dumada müsəlman fraksiyasına Ə. Topcubaşov rəhbərlik edirdi. III Dövlət Dumasına X.Xasməmmədov, IV Dövlət Dumasına isə M.Y.Cəfərov seçildi.

Azərbaycan türklərinin milli-azadlıq hərəkatında "Müsavat" partiyası xüsusi rol oynadı. 1905-1907-ci illər inqilabından sonra qabaqcıl Azərbaycan ziyalılarının bir hissəsi Türkiyədə öz fəaliyyətlərini davam etdirirkən, Bakıda qalan bir qrup ziyalı "Müsavat" partiyasının əsasını qoydular. Keçmiş hümmətcilər Abbasqulu Kazımzadə, Tağı Nağıyev və Məhəmməd Əli Rəsulzadənin (M. Ə. Rəsulzadənin əmisi oğlu) 1911-ci ildə "Müsavat" adlı bir dərnək qurdular. "Müsavat"ın proqramında bütün müsəlmanların birliyi, müsəlman ölkələrinin müstəqilliyi, Rusiyada yaşayan müsəlmanların, o cümlədən azərbaycanlıların müdafiə olunması kimi ideyalar yer aldı [15]. Daha çox ziyalılar, tələbələr, tacirlər və iş adamları tərəfindən dəstəklənən "Müsavat"ın proqramında Ə.Hüseynzadənin "Türkləşmək, Avropalaşmaq, İslamlaşmaq!"

ideyası öz əksini tapdı. 1913-cü ildə M.Ə. Rəsulzadə çarın Romanovlar sülaləsinin 300 illiyi münasibətilə imzaladığı əfv fərmanından istifadə edərək Türkiyədən Azərbaycana dönməyi qərara aldı. M.Rəsulzadə az müddət içərisində partiyanin lideri səviyyəsinə yüksələrək, hər zaman türk xalqlarının birliyi ideyasını təbliğ edirdi.

Azərbaycan dünyanın yeni çağırışlarına uyğun olaraq inkişaf edir, qədim dövlətçilik ənənələrinin bərpası, müasir tipli dövlət quruculuğuna doğru gedirdi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan tarixi. 7 clddə, IV cild (XIX əsr). Bakı, “Elm”, 2007.

2. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik (yenilənmiş üçüncü nəşri). Mehman Abdullayevin elmi redaktorluğu ilə. Bakı, “Bakı Universiteti”, 2016.

3. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, “Çıraq”, 2007.

4. Baxşəliyeva F.E. Şimali Azərbaycanda 1870-ci il Kəndli islahatlarından sonra torpaq sahibliyi və torpağın icarə edilməsi haqqında.- “Bakı Universitetinin Xəbərləri”, Humanitar elmlər seriyası, 2010, № 2.

5. Böyük nəslin böyük faciəsi.- web.archive.org/ web/20221123210447/ http:www.anl.az/ down/meqale/azadliq/2012/oktyabr/265574.htm.

6. Əhmədov H. XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycanda rus kolonlaşması məsələsinə dair. “Bakı Universitetinin Xəbərləri”, Tarix və onun problemləri, 2009, №4.

7. Qəniyev H. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Ali Məktəblər üçün dərslik.

Bakı, “Elm və Təhsil” nəşriyyatı, 2019.

8. Məhəmməd Əmin Rəsulzadə. Biblioqrafiya. Nəsiman Yaqublunun redaktəsi ilə. Bakı, “Ziya” NRM, 2015.

9. Nəbi C. Dəli Alı.- web.archive.org/web/20171221131454/ http://karabakhmedia. az/main/12456-qafqaziyy-seytani-yox-qafqaziyy-qartali-dli-ali.html.

10. Nərimanoğlu H. “Qaçaq Nəbi tarixi”nin “arxiv ömrü” sona çatdı. “525-ci qəzet”, 22.06.2011, s.6.

11. Novruzov Ə. Erməni-azərbaycan münaqişəsinin tarixi: 1905-1906-ci il hadisələri. (2-ci hissə), 06.02.2023.- politicon.co/az/esseler/161/ermeni-azerbaycanli-munaqisesinin-tarixi-1905-1906-ci-il-hadiseleri/2-ci-hisse.

12. Şeyxzamanlı N. Azərbaycan İstiqlal Mücadiləsi xatirələri. Bakı, “Azərbaycan” nəşriyyatı, 1997.

13. Cornell S.E. Small Nations and Great Powers: A Study of Etnopolitical Conflict in the Caucasus. London-New York, 2001.

14. Shahvar S., Abramoff E. The Khan, the Shah and the Tsar: The Khanete of Talech between Iran and Russia. London, New York: I.B.Tauris & Co.Ltd, 2018.

15. Smith M.G. “Anatomy of a Rumour. Murder Scandal, the Musavat Party and Narratives of the Russian revolution in Baku, 1917-1920”, Journal of Contemporary History, Vol.36. Issue 2, April 2001:216-218.

16. Багирова И.С. Политические партии и организации Азербайджана в начале ХХ века. Баку, «Элм», 1997.

17. Бакинская стачка 1904г.// Сборник документов. Баку, 1955.

18. Буржуазные реформы в Азербайджане.- myshared. ru/slide/836997/.

19. Воронцов М.С.- prlib.ru/history/619275.

20. Елизаветпольская губерния. Большая российская энциклопедия (Электронный ресурс), 2017.- web.archive.org/web/20221122185548/ https://bigenc.ru/domestic_ history/text/ 3822603.

21. Исмаилов Э. Очерки по истории Азербайджана. Москва, «Флинта», 2010.

22. Исторический очерк.- web.archive.org/web/20120529072457/ http://www. azerbembassy.org.cn/rus/historical19.html.

23. История Иревана.- mod.gov.az/ru/istoriya-irevani-410.

24. Косторниченко В.Н. Иностранный капитал нефтяной промышленности до революционной России. // Экономическая история. Обозрение/ Под ред. Л.И.Бородкина. Вып. 10. Москва, изд. МГУ, 2005.

25. Отдел статистический.// Кавказский календарь на 1915 год. Тифлис, Тип. Канц. намес. Е.И.В. на Кавказе, 1914.

26. Парсамян В.А. История армянского народа. 1801-1900 гг. Книга первая. Ереван, 1972.

27. Почтово-Телеграфный журнал, Санкт-Петербург, изд. Министерства внутренных дел, 1899, № 8.

28. Синенко С. Первый Всероссийский Мусульманский съезд. Посреди России.- posredi.ru/b_11_17_1_muslim_siezd_1917.html.

29. Сумбатзаде А. Кубинское восстание. Баку, изд. АН Азерб. ССР, 1961.

30. Фирсов С.Л. История России 18-начало 20 в. Москва, изд. «Академия», 2012.

### *§ 3. Cənubi Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti.*

Cənubi Azərbaycanın iqtisadiyyatında durğunluq meyli davam edirdi. Bütün XIX əsr ərzində Qacar dövlətinin Avropa dövlətlərinə bir – birinin ardınca güzəştlərə getməsi, onların xeyrinə müqavilələr bağlaması və sair nəticəsində ölkədə kapitulyasiya qaydası yarandı. Yarımmüstəmləkəyə çevrilən ölkənin, o cümlədən Cənubi Azərbaycanın iqtisadi inkişaf yolunda ən mühüm əngəl xarici kapitalın ağalığı oldu. Cənubi Azərbaycanda əhalinin əsas məşğuliyyəti yenə də kənd təsərrüfatı –əkinçilik və maldarlıq idi. Torpaq üzərində mülkiyyət formaları XVII-XVIII əsrlərdəki kimi idi. Burada vasitəli icarə geniş yayılmışdı. Belə halda ayrı-ayrı şəxslər dövlət, vəqf və xüsusi torpaqları bütövlükdə icarəyə götürərək onları kiçik hissələrlə kəndlilərə icarəyə verirdilər. Cənubi Azərbaycandakı xanlıqlar əsasən ləğv edildi. Dövlət keçmiş xanlıqların yerinə ayrı-ayrı vilayətlərə hakimlər, yerli nümayəndələr təyin etdi [1, s.81]. Fətəli şahdan başlayaraq Qacar şahlarının daxili siyasətində Cənubi Azərbaycan xüsusi yer tuturdu. Təbrizdə həmişə Qacarların rəsmi vəliəhdləri otururdu. Vəliəhdin dövlətin canişini kimi Təbrizdə oturması, şübhəsiz, Azərbaycanın iqtisadi, xüsusilə siyasi əhəmiyyətindən doğurdu. İlk Qacar şahları dövründə Cənubi Azərbaycan, xüsusilə Təbriz dövlətin xarici siyasətində də mühüm rol oynayırdı [2].

Xalq ağır vəziyyəti ilə bağlı narazılıq edir, üsyanlar baş verirdi. 30-cu illərin sonu 40-cı illərin əvvəllərində Təbrizdə bir neçə dəfə həyəcan və çıxışlar baş verdi. 1847-ci ildə Zəncanda sənətkarlar, xırda tacirlər və şəhər yox-

sulları hakimə qarşı çıxdı, onu şəhərdən qovdular. 1848-ci ildə Təbrizdə yenə də şəhər yoxsulları və sənətkarların həyəcan və çıxışları baş verdi. 1864-cü ildə Təbrizdə xarici şirkətlərin kəskin rəqabətilə üzləşən tacirlərin kütləvi etirazı baş verdi. Təbriz bazarında baş vermiş və dörd ay davam etmiş bu narazılıq müddətində bütün xarici şirkətlərlə ticarət əlaqələri dayandırıldı [3].

Başqa bir etiraz forması olan Babilik və bu təriqət zəminində genişlənmiş hərəkatın banisi Seyid Əli Məhəmməd oldu. Seyid Əli zülm və ədalətsizlik icərisində yaşayan xalqa həqiqətlərin çatdırılmasında özünü imam Mehdi ilə xalq arasında vasitəçi elan etdi və buna görə də 1844-cü ildən etibarən Bab (ərəbcə "qapı" deməkdir) ləqəbini götürdü. O, irəli sürdüyü fikirlərlə yeni bir təriqətin əsasını qoydu. Babın əsas ideyaları onun " Bəyan" adlı əsərində ifadə olunurdu. Babın fikrincə, bütün dünya və insan cəmiyyəti bir-birini əvəz edən dövrlər üzrə inkişaf edir və hər yeni dövrün öz qanun-qaydaları olur [9, s.16,41]. Hər yeni dövrün qanun-qaydasını o dövrün peyğəmbəri gətirir. Bab deyirdi ki, indi üləma və hakimlərin zülmü nəticəsində ölkə bədbəxtlik və əziyyətlər diyarına çevrildiyindən yeni peyğəmbər imam Mehdinin zühur etməsi vaxtı çatmışdır. Bunlara baxmayaraq o, özünü əvvəl imam Mehdinin fikirlərini xalqa çatdırmaqda vasitəçi-Bab, sonra isə peyğəmbər elan etdi. Şirazda başlayan hərəkat tezliklə digər ərazilərə, o cümlədən Azərbaycana yayıldı, xeyli tərəfdar topladı. Babın fikirləri dünyada gedən yeniləşmə prosesi, dövlətin yeni qaydada idarə olunması, cəmiyyətdə insanların rolunun əhəmiyyəti və digər məsələlərlə üst-üstə düşürdü.

Bab yeni yaradılacaq cəmiyyətdə insanlar arasında, o cümlədən qadınlara münasibətdə bərabərlik, ədalət, şəxsiyyətin toxunulmasızlığını elan edirdi. Babın dedikləri geniş xalq kütlələrinin istəklərini əks etdirdiyindən onun tərəfdarları sürətlə artırdı. Ayrı-ayrı yerlərdə üsyanlar baş verirdi. Babı öldürməklə hərəkətın qarşısını almağa ümid edən hökümət 1850-ci il iyulun ilk günlərdə Nəsrəddin şahın (1848-1896) əmri ilə onu Təbrizə gətirib, orada edam etdi. Lakın Babın öldürülməsi ilə hərəkət dayanmadı, daha da qüvvətləndi. Cənubi Azərbaycanda babilərin ən böyük üsyanı Zəncanda oldu. 1850-ci il təkcə şəhərdə babilərin sayı 15 min nəfərə çatırdı. Babilər üsyan edib şəhər qalasını tutdular. Lakin üsyan şah qoşunları tərəfindən 1850-ci ilin dekabrında amansızlıqla yatırıldı [3].

XX əsrin əvvəllərində Rusiyada başlanan inqilabi hadisələr Cənubi Azərbaycanda həyəcan və çıxışları gücləndirdi, inqilalabın başlanmasına şərait yaratdı. 1905-ci il dekabrından minlərlə adam Tehran, Təbriz və digər şəhərlərdə məscidlərdə bəstə oturdular. Hər yerdə kütləvi çıxışlar baş verdi. Bir qədər sonra İnqilab komitəsinin görkəmli üzvlərinin iştirakı ilə «Əncüməni -islami» adlanan rəhbərlik mərkəzi yaratdılar. Bu əncumən yarandıqdan sonra etirazçılar böyük və izdihamlı yığıncaqlar keçirərək mütləqiyyətə qarşı mübarizəyə çağırırdılar. Bununla Məşrutə (Konstitusiya) inqilabı başladı. Əsas tələb ölkədə Konstitusiyanın qəbul edilməsi, parlamentin yaradılması idi. 1905-1911-ci illər Məşrutə inqilabı başlarkən Təbrizdə və bütün Azərbaycanda kütləlari mütləqiyyətə qarşı qaldırmaq, hərakata düzgün istiqamət vermək və onun gedişində rəhbərlik işini həyata keçirmək üçün güc-

lü siyasi təşkilatın yaradılması vacib idi. Təbrizdə bütün siyasi qüvvələr «Gizli mərkəz» yaradaraq onun ətrafında birləşdilər [3].

Baş verən hadisələr İngiltərə və Rusiyanı narahat edirdi. Onlar 1907-ci ilin avqustunda Sankt-Peterburqda saziş imzalayaraq, İran dövlətini təsir dairələrinə böldülər, Ölkənin şimalı Rusiyanın, cənubu İngiltərənin nüfuz dairəsinə daxil edilir, mərkəzi hissəsi isə neytral zona elan olunurdu [4]. Rusiya Cənubi Azərbaycanda inqilabi hərəkatın yatırılmasında fəal iştirak etdi. Ölkə siyasi böhran içərisində idi, 1907-ci ildə vəfat etmiş Müzəffərəddin şahı oğlu Məhəmmədəli əvəz etdi, bir müddət sonra onun yerinə 14 yaşlı oğlu Sultan Əhməd şah gətirildi. Lakin hakimiyyət dəyişiklikləri vəziyyəti düzəldə bilmədi.

İnqilabi hərəkatın rəhbəri Səttarxan [8, s.281] 1867-ci ildə Qaradağ mahalında anadan olmuş, uşaq yaşlarında ailəsi ilə birlikdə Təbrizə köçmüş, əsrin sonlarında şah rejiminə qarşı hərəkatda iştirak etmiş, 1898-ci ildə həbs olunmuş, 2 il sonra həbsdən qaçmışdı. O, bir müddət Tehranda, Xorasanda gizli yaşadıqdan sonra XX əsrin əvvəllərində Təbrizə qayıtdı, 1905-ci ildən Məşrutə inqilabında fəal iştirak etdi, 1907-1908-ci illərdə isə Təbrizdə inqilabi hərəkatın rəhbərinə çevrildi, Bağır xan və digərləri ilə birlikdə hərəkata yeni təkan verdilər [6, s.29,30]. Məhəmmədəli şah bütün əyalət və vilayətlərdən silahlı qüvvələr toplayaraq Təbriz üzərinə göndərməkdə davam edirdi. 1909 -cu ilin axırlarında Rusiya höküməti Təbrizə və Azərbaycanın digər vilayətlərinə general Snarskinin rəhbərliyi altında qoşun yeritdikdən sonra inqilabçıların müqaviməti zəiflədi [10, s.85].

Tehran hökuməti Cənubi Azərbaycandaki inqilab qüvvələrini tərkisilah edib Təbrizdən uzaqlaşdırmağa çalışırdı. Bu məqsədlə Səttarxan Tehrana dəvət edildi. Səttarxan əvvəlcə dəvətdən imtina etmişdi, lakin sonra razılaşdı və Tehrana yola düşdü. Səttarxan və Bağırxan 300 nəfər silahdaşı ilə birlikdə 1910-cu ilin aprelində Tehrana daxil oldu. Xalq onları böyük coşqu ilə qarşıladı. Onlar Atabəy parkında yerləşirdilər. 1910-cu il avqustun 7-nə keçən gecə şah qoşunları və erməni Yefrem Davidyansın (o, əvvəllər Səttarxanın yanında şaha qarşı mübarizədə iştirak etmişdi) rəhbərlik etdiyi polis qüvvələri parka hücum etdi, basqın nəticəsində 18 nəfər öldürüldü, 40 nəfər, o cümlədən Səttarxan yaralandı. Hərəkat məğlub oldu. Səttarxan 1914-cü il noyabrın 9-da aldığı yaradan vəfat etdi, Tehranda dəfn olundu [6, s.39]. Bağırxan Tehranda ev dustağı edildi, sonra sərbəst buraxıldı. 1916-cı ildə Kirmanşah yaxınlığında yerli dəstələrlə qarşıdurma zamanı öldürüldü [5].

İngiltərə və Rusiyanın köməyi ilə keçmiş şah Məhəmmədəlinin 1911-ci ilin iyul ayında ölkəyə qayıtması ilə siyasi vəziyyət yenidən gərginləşdi. 1911-ci ilin avqustunda şah qüvvələri və bölgədəki rus kazak birləşmələri Təbriz üzərinə hücuma keçdi. Əyalət Əncüməni və hərəkat başçıları qüvvələrin qeyri bərabər oldugunu nəzərə alaraq döyüşü dayandırdılar. Şəhər Rusiya və şah qoşunları tərəfindən tutuldu. 1911-ci ilin son aylarinda İngiltərə və Rusiyanın silahlı qüvvələrinin müdaxiləsi nəticəsində inqilab mərkəzləri dağıdıldı, inqilabçılara divan tutuldu [7].

Beləliklə, Cənubi Azərbaycanda hərtərəfli dəyişikliklər, demokratikləşmə, şahın mütləq hakimiyyətinin məhdudlaşdırılması, konstitusiyanın tətbiq olunması

uğrunda mübarizə gedir və genişlənirdi. Bu bölgədə yaşayan azərbaycanlılar, bir tərəfdən, qədim Azərbaycan dövlətinin varisləri kimi ictimai-siyasi həyatlarını davam etdirir, digər tərəfdən isə, hakimiyyətdə həmsoylarının, azərbaycanlı Qacarların olmasına baxmayaraq, dövlətin onlar üçün tədricən yadlaşdığını hiss edir, bu ağrı ilə yaşayırdılar. Təbriz ölkənin ikinci paytaxtı olsa da, tədricən öz mövqeyini, dövlətin idarə olunmasında əhəmiyyətini itirirdi. Amma ölkənin yeniləşməsi, müasirləşməsi prosesində Təbriz yenə də əsas mərkəz, azərbaycanlılar isə hərəkətverici qüvvə olaraq qalırdı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Mirzəyeva C. XX əsrdə Güney Azərbaycan ərazisində aparılmış inzibati-ərazi bölgüsü haqqında. “Güney Azərbaycan: tarix və müasirlik”. Bakı, “Zərdabi” nəşriyyatı, 2014.

2. Nəcəfova K.T. Cənubi Azərbaycan XIX əsrdə. 17.08.2011.- kayzen.az/blog/ Azərbaycan-tarixi/5535/cənubi-azərbaycan-xix-əsrdə.html.

3. Ömərov V. XIX əsrin sonu-XX əsrin əvvəllərində Cənubi Azərbaycanda siyasi vəziyyət. 02.11.2012.- sesqazeti.az/news/mia/319444.html.

4. Англо-русская конвенция 1907 года.- web.archive.org/web/20140430073547/ http://enc-dic-com/diplomat/Anglo-Russkoe-Soglachenie-1907-1181.html.

5. Багир-хан.- booksite.ru/fulltext/1/001/008/087/571.htm.

6. Белова Н.К. Саттар-хан-герой иранской ревалюции 1905-1911 гг.//Иран. История и современность. Москва, «Наука», 1983.

7. Иранская революция 1905-1911 гг.- booksite.ru/fulltext/1/001/008/056/468.htm.

8. История Ирана (отв.ред. М.С.Иванов). Москва, изд. МГУ, 1977.

9. «Персидский Байан. Конспект». Перевод с английского. Казань, изд. «Фолиантъ», 2006, Единство II, глава I.

10. Ризаева Г.А. Демократическое движение в Южном Азербайджане и Британский империализм. "Tarix və onun problemləri" jurnalı, №1, 2014.

### *§ 4. Azərbaycan mədəniyyətinin yeni inkişaf istiqamətləri.*

XIX əsrin I yarısından başlayaraq mədəniyyət üçün realist, maarifçi meyillərin güclənməsi səciyyəvidir. Görkəmli elm və mədəniyyət xadimləri A.Bakıxanov, M.Ş.Vazeh, M.C.Topçubaşov, Mirzə Kazım bəy, M.F.Axundov, Q.B. Zakir və başqaları o dövrün elm və mədəniyyət aləmində özlərinə məxsus iz qoydular. Mirzə Şəfi Vazeh (1796-1852) incə lirikası, satirası ilə Azərbaycandan kənarda da ad qazanmışdı. Onun şərqiləri bir sıra dillərə tərcümə olunaraq uzun illər boyu Avropanı da heyrətə gətirmişdi [18, s.307-308]. Görkəmli azərbaycanlı alimlər Mirzə Cəfər Topçubaşov [9] və Mirzə Kazım bəy [2, s.89-92] şərqşünaslıq sahəsində elmi işləri ilə bütün dünyada şöhrət tapmış, Rusiya şərqşünaslığının baniləri olmuşlar. XIX əsrin I yarısında tarixşünaslıq da inkişaf etdi. A.Bakıxanovun "Gülüstani-İrəm"i, Mirzə Adıgözəl bəyin, Mirzə Camal və Əhməd bəy Cavanşirlərin Qarabağ tarixinə, Kərim ağa Fatehin Şəki xanlarının tarixinə həsr etdikləri tarixi xronikal əsərləri və digərləri bu dövrün məhsuludur [4, s.273-274]. XIX əsrin görkəmli şəxsiyyətlərindən biri böyük dramaturq, filosof və şair Mirzə Fətəli Axundov(1812-1878)

idi. Böyük dramaturq Azərbaycan ədəbiyyatı tarixində bir neçə ədəbi janrın əsasını qoymuş, ədəbiyyatımızda realist cərəyanın möhkəmləndirilməsi, gerçəkliyin olduğu kimi göstərilməsi,ictimai həyatın eybəcərliklərinə qarşı mübarizə sahəsində əvəzsiz iş görmüşdür [11]. Bu dövrdə Azərbaycan satirik şerinin ən görkəmli nümayəndələrindən Qasım bəy Zakir (1784-1857) yaradıcılığında həmin dövrün ictimai-sosial bəlaları başlıca hədəf idi [3]. Həmin dövrdə 37 il ərzində Hindistandan Sudana qədər neçə-neçə ölkə gəzmiş coğrafiyaşünas, etnoqraf, tarixçi Hacı Zeynalabdin Şirvani, qarabağlı Qənbər və muğanlı Əvəz kimi ustad rəssamlar yetişmişdi.

Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında baş verən dəyişikliklər XIX əsrin ikinci yarısında mədəniyyətdə də əksini tapırdı. Bu dövrdə mədəniyyətin başlıca xüsusiyyəti demokratik-maarifçilik ideyalarını təbliğ edən məktəbin daha da inkişafı və yeni tipli məktəblərin yaranması və inkişafı, milli mətbuatın və teatrın yaranması, ədəbiyyatda və incəsənətdə xəlqilik ünsürlərinin qüvvətlənməsi və sairədən ibarət idi [6, s.273]. İbtidai məktəblər demək olar ki, kəndlərin əksəriyyətində var idi. Yeni ruhda təşkil olunan məktəblərə «üsuli-cədid» (yeni üsul) məktəbləri deyilirdi. Belə məktəblər rus məktəblərindəki tədris üsulu ilə tanış olan müəllimlər tərəfindən açılırdı, sinif otaqları mebellə, qlobus, yazı taxtası və başqa tədris ləvazimatı ilə təchiz olunur, tədris ana dilində aparılırdı. İlk belə məktəblər XIX əsrin sonlarında Şamaxıda, Naxçıvanda, Şuşada və başqa şəhərlərdə açıldı. S.Ə.Şirvaninin (1835-1888) [12], Mir Möhsün Nəvvabın (1833-1918) [2, s.192] məktəbləri nümunəvi təhsil ocaqları idi.

70-ci illərin ortalarında rus-tatar məktəbləri deyilən məktəblər yaranmağa başladı. Bu məktəblərin yaradılmasında məqsəd azərbaycanlıları orta məktəblərə daxil olmaq üçün hazırlamaq idi. Tədris rus dilində olsa da, bu məktəblər əsasən azərbaycanlılar üçün nəzərdə tutulurdu. Ziyalıların gərgin mübarizəsindən sonra 1887-ci ildə Bakıda rus-tatar məktəbi açıldı [10, s.313]. Onun rəhbərləri Sultanməcid Qənizadə və Həbib bəy Mahmudbəyov idi. Məktəb haqqındakı islahat qızların təhsili məsələsinə də təsir göstərdi. Bakıdakı «Müqəddəs Nina» qız məktəbi istisna olmaqla, Azərbaycanda qızların təhsili bir qayda olaraq evlərdə təşkil edilirdi. 1864-cü ildə Zaqatalada təhsil müddəti bir il olan qız məktəbi açıldı. Bu məktəb 1904-cü ildə dörd sinifli qız məktəbinə çevrildi. Bakıda «Müqəddəs Nina» məktəbi əsasında 70-ci illərin ortalarında müstəqil gimnaziya təşkil edildi. Azərbaycanda dünyəvi elmləri öyrədən ilk müsəlman qız məktəbi 1901-ci ildə Bakıda maarifpərvər və xeyirxah milyonçu H.Z.Tağıyevin təşəbbüsü və vəsaiti hesabına açıldı. Onun müdiri H.B.Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikova idi [14, s.17]. Azərbaycanda maarifin inkişafını ləngidən səbəblərdən biri də müəllim kadrlarının son dərəcə az olması idi. 1876-cı ildə Qori şəhərində Müəllimlər Seminariyası təşkil olundu. 1879-cu ildə həmin seminariyada Azərbaycan bölməsi yaradıldı [13].

Elm sahəsində ilk azərbaycanlı kimya alimi Möhsünbəy Xanlarovun (1857-1921) üzvi kimya sahəsində tədqiqatları başlandı. Biologiya, kənd təsərrüfatı elmləri üzrə Rusiyada ali təhsil almış H.B.Zərdabi (1842-1907), N.B.Vəzirov (1854-1926) və başqaları çalışırdı. XIX əsrin

ikinci yarısında Mirmehdi Xəzani, Həsənəlixan Qaradaği, Əhmədbəy Cavanşir, Mirzə Əhməd, Mirzə Xudaverdi oğlu və başqaları tarixşünaslıq sahəsində əsərlər yaratmışlar. XX əsrin əvvəllərində Azərbaycan tarixşünaslıq elmi Rəşid bəy İsmayilovun "Müxtəsər Qafqaz tarixi" (1904), Həsən Mollazadə Gəncəvinin "Tarixin qaymağı" (1905, 1913), Mirzə Rəhim Fənanın "Qarabağın yeni tarixi" (1912) əsərləri ilə zənginləşdi. XIX əsrdə Azərbaycanda fəlsəfi və ictimai fikrin inkişafı M.F.Axundovun adı ilə bağlıdır. Onun yaradıcılığı və dünyagörüşü XIX əsrin 60-70-ci illərində fəlsəfi fikir tarixində böyük hadisə idi. Yaşadığı dövr rus, Şərq və Avropa fəlsəfəsi ilə yaxından tanışlıq onun filosov kimi formalaşmasına təsir etmişdi. O, fəlsəfəyə dair görüşlərini bir çox əsərlərində, xüsusilə «Kəmalüddövlə məktubları», «Mola Rumi və onun əsəri haqqında», «Filosof Yuma cavab», «Babilik əqidələri», «Con Stüart Milli azadlıq haqqında» və s. əsərlərində daha qabarıq və konkret vermişdi [16, s.735-740]. Elmin və mədəniyyətin bir çox sahələrində olduğu kimi, ədəbi tənqid və ədəbiyyatşünaslıq sahəsində də yeni, mütərəqqi, demokratik cərəyanın banisi M.F.Axundov idi. Onun başladığı işi H.B.Zərdabi, N.Nərimanov, S.M.Qənizadə, M.M.Nəvvab, F. Köçərli ləyaqətlə davam etdirdi və kamilləşdirdi. Ədəbiyyatda xəlqilik, maarifçilik, demokratizm prinsipləri möhkəmlənirdi. M.F.Axundov tərəfindən qoyulan ənənələr 80-90-cı illərdə N.Nərimanov, Ə.Haqverdiyev, S.M.Qənizadə, S.Ə. Şirvani, N.B.Vəzirov, C.Məmmədquluzadə, R.Əfəndiyev və başqaları tərəfindən davam etdirilirdi. XIX əsrin ikinci yarısında elmi əsərlərin çoxu Azərbaycan dilində yazılırdı [4, s.299]. Keçən əsrin sonlarında ədəbi fəaliyyətə başla-

yan maarifçi-pedaqoq, böyük demokrat C.Məmmədquluzadənin «Danabaş kəndinin əhvalatları» povesti bədiiliyi və realizmi cəhətdən ədəbiyyatımızda misli görünməmiş əsər idi. XX əsrin əvvəllərində onun yaradıcılığı daha da çiçəkləndi. XIX əsrin ikinci yarısında xalq aşıqlarından Dədə Ələsgər, aşıq Nəcəfqulu, Hüseyn Bozalqanlı, Çoban Əfqan, Molla Cümə və başqaları böyük şöhrət qazanmışdı. Qəzəlçiliyin geniş yayılması ilə əlaqədar olaraq Bakıda, Şamaxıda, Qarabağda, Lənkəranda, Ordubadda şairlərin bir sıra ədəbi məclisləri təşkil olunmuşdu. Şuşadakı "Məclisi-üns" [5] ədəbi məclisin üzvlərindən biri xan qızı Xurşidbanu Natəvan (1832-1897) idi.

Milli teatrın təşəkkül tapması xalqımızın mənəvi həyatında böyük hadisə oldu. 1873-cü ildə Bakıda çalışan bir sıra ziyalının təşəbbüsü ilə Milli teatr yaradıldı. İlk teatr tamaşası 1873-cü il martın 22-də Novruz bayramı günündə Bakı realnı məktəbi teatr həvəskarları truppasının təşəbbüsü ilə hazırlanmışdı. Onlar M.F.Axundovun «Lənkəran xanı vəzirinin sərgüzəştləri» komediyasını göstərdilər. Bununla Milli teatrın əsası qoyuldu. Bu tamaşadan sonra 80-90-cı illərdə ətrafında yeni qüvvələr toplanan Bakı həvəskarlar truppası 1883-cü ildə peşəkar teatr qrupuna çevrildi. Az vaxt içərisində Bakıda bir sıra istedadlı teatr xadimləri Cahangir Zeynalov, Həbibbəy Mahmudbəyov, Nəcəfqulu Vəliyev, Hüseynqulu Sarabski və başqaları yetişdi [19]. Maarifə və mədəniyyətimizə böyük qayğı göstərən kapitalist H.Z.Tağıyev 1883-cü ildə teatr binası tikdirdi [20, s.230] (hazırda Ş.Qurbanov adına Musiqili Komediya teatrının binası).

Tiflisdə Azərbaycan türkcəsində ilk qəzetlər - "Tiflis xəbərləri" (1832), "Qafqazın bu tərəfinin xəbərləri" (1845) [15, s.6-7] qəzetləri çap olunmağa başlamışdı, lakin bu, hələ milli mətbuatımız demək deyildi. Mədəniyyət sahəsində ən böyük nailiyyətlərdən biri Milli mətbuatın yaranması oldu. H.B.Zərdabinin məşəqqətli mübarizəsindən sonra istənilən məqsədə nail olundu. 1875-ci il iyulun 22-də Bakıda «Əkinçi» qəzetinin birinci sayı çapdan çıxdı. 1877-ci il sentyabrın 29-dək çap olunan «Əkinçi» qəzetinin ayda iki dəfə 300-400 tirajla çap olunmaqla cəmi 56 sayı çıxdı. «Əkinçi» qəzetinin nəşri dayandırıldıqdan sonra 1879-cu ildə Tiflisdə Azərbaycan dilində «Ziya» adlı yeni qəzet çıxmağa başladı. 1880-ci ilin sonunda «Ziya» qəzeti «Ziyayi Qafqaziyyə» adı ilə çıxmağa başladı. Bu qəzetin nəşri davam etməklə, 1883-cü ildə Tiflisdə «Ziya» mətbəəsində «Kəşkül» (dərvişlərin gəzdirdiyi qab belə adlanırdı) adlı yeni bir qəzet nəşrə başladı. 70-90-cı illərdə Bakıda burjuaziyanın ideologiyasını təbliğ edən bir sıra («Bakinskiye izvestiya», «Kaspi» və s.) qəzetlər nəşr edilirdi [8]. 1905-1907-ci il rus inqilabından sonra Azərbaycanda milli mətbuat sahəsində də xeyli irəliləyişlər baş verdi. 1917-ci ilin fevralınadək 227 dövri mətbuat orqanı fəaliyyət göstərirdi. 1905-1917-ci illərdə Azərbaycanda nəşr olunan əsas mətbuat orqanları "Həyat" , "Təzə həyat" , "Tərəqqi", "İttifaq", "Həqiqət", "İqbal", "Yeni iqbal" və başqa qəzetlər idi. Mətbuat tarixində "Açıq söz" qəzeti, "Molla Nəsrəddin" jurnalı xüsusi yer tuturdu [15, s.46-51,60,70,71,82,97-101,110-114].

Musiqi iki istiqamətdə inkişaf edirdi. Onlardan birini əsrlər ərzində püxtələşən, xalqın həyatı ilə sıx bağlı olan

və peşəkar, ustad aşıqlar tərəfindən inkişaf etdirilən aşıq yaradıcılığı təşkil edirdi. Digəri, xanəndə və sazəndələrin yaradıcılığını təmsil edən istiqamət idi. Onların hər birinin öz ansamblı və repertuarı vardı. XIX əsrin ikinci yarısında musiqi ifaçılığı sahəsində istedadlı ustalar yetişdi. Onların sırasına Xarrat Qulu, Sadıqcan, Hacı Hüsü, Cabbar Qaryağdı, Ələsgər Abdullayev, Keçəçi Məmməd və onlarla başqaları daxil idi. Musiqinin beşiyi, Qafqazın konservatoriyası Şuşa idi [17]. Şuşadakı musiqi məktəbləri musiqinin yayılmasında və peşəkar xanəndələrin və sazəndələrin yetişdirilməsində misilsiz rol oynadı.

Kapitalizmin sürətlə inkişafı Bakıda tikinti işlərinin geniş miqyas almasına səbəb oldu. Bir-biri ilə rəqabətə girən milyon sahibləri zənginliyi və təmtəraqı ilə diqqəti cəlb edən gözəl binalar tikdirirdilər. Bu möhtəşəm binalar şəhərə yaraşıq verməklə bərabər, əvəzsiz abidələrə çevrilirdilər. Onlar indi də müasir Bakının gözəl inciləridir. Keçmiş əsrlərdə tikilmiş abidələrin bərpası sahəsində də iş aparılırdı. Rəssamlıqda və təsviri sənətdə Mir Möhsün Nəvvabın, Xurşud Banu Natəvanın, Mirzə Qədim İrəvaninin əsərləri marağa səbəb olurdu [4, s.301].

Sahibkarlar, ziyalılar, ictmai və din xadimlərindən ibarət böyük bir qrupu özündə birləşdirən və Z.Tağıyevin rəhbərlik etdiyi "Nəşri maarif " cəmiyyəti məktəb şagirdlərinə maddi yardım göstərməklə yanaşı, özləri də təhsil ocaqlarının yaradılmasında iştirak edirdilər. 1915-ci ildə cəmiyyətin açdığı 15 xalq məktəbində 900 şagird təhsil alırdı [1, s.270-271]. "Nicat" cəmiyyətinin qurucuları isə Məmmədəli bəy Səlimbəyov, Həsən bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə, Behbud ağa Cavanşir, İsa

bəy Aşurbəyov kimi qabaqcıl Azərbaycan ziyalıları idi [2, s.261-262].

Azərbaycan milli opera teatrının yaranması da bu dövrə təsadüf edir . Azərbaycan musiqisinin inkişafında Ü.Hacıbəyli, M.Maqomayev, C.Qaryağdı, H.Sarabski, Q. Pirimov kimi mədəniyyət xadimlərimizin böyük xidmətləri olmuşdur. 1908-ci ildə H.Z.Tağıyev teatrinda Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk dəfə tamaşaya qoyulması Azərbaycan musiqi tarixində mühüm bir hadisə oldu. Bununla milli operamızın əsası qoyuldu. 1908-1915-ci illərdə o, "Şeyx Sənan", "Rüstəm və Zöhrab", "Əsli və Kərəm", "Şah Abbas və Xurşud Banu ","Harun və Leyla " kimi bir sıra yeni operalar yaratdı. 1913-cü ilin oktyabrında ilk dəfə milli musiqili teatr səhnəsində Ü.Hacıbəylinin "Arşın mal alan "musiqili komediyası səhnəyə qoyuldu və böyük müvəffəqiyyət qazandı. Bununla Ü. Hacıbəyli həm də Azərbaycanın musiqili komediyasının banisi oldu. Azərbaycan musiqi mədəniyyətinin inkişafında bəstəkar M.Maqomayevin də misilsiz xidmətləri olmuşdur. Onun 1916-cı ildə yaratdığı "Şah İsmayıl" operası Azərbaycan opera sənətinin qızıl fonduna daxil oldu [7]. H.Z.Tağıyev və digər sənayeçilərin dəstəyi ilə 1916-cı ildə "Neft və milyonlar səltənətində" adlı ilk səssiz film çəkildi, nümayiş etdirildi və böyük hadisəyə çevrildi. Film Boris Svetlov və Qriqori Lemberq tərəfindən çəkilmişdi ("Mavi dənizin sahilində" adlı ilk səsli filmimiz isə 1935-ci ildə Boris Barnetin rejissorluğu ilə çəkilib).

Azərbaycan mədəniyyəti əsrlərdən gələn ənənələrini davam etdirdi, yeni çağırışlara cavab vermək baxımından Şərqdə birinci oldu, Qərb ölkələri ilə də uğurlu rəqabət apara bildi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, iki cilddə, II cild. "Nəşri-Maarif". Baş redaktor Yaqub Mahmudov. Bakı, "Lider" nəşriyyatı, 2005.

2. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı, "Elm və Təhsil", 2014.

3. Qasım bəy Zakir.- kayzen.az/blog/az-proza/24037/qasım-bəy-zakir.html.

4. Qəniyev H. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Ali Məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2019.

5. "Məclisi-Üns"ün 150 yaşı. "Ədalət" qəzeti, 2014,12.04.

6. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Texniki Ali Məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil", 2019.

7. Ömərov V. XX əsrin əvvəllərində Azərbaycanda Mədəniyyət, 06 noyabr 2012.- sesqazeti.az/news/mia/319921.html.

8. Ömərov V. XIX əsrin ikinci yarısında Azərbaycanda mədəniyyət və milli-mədəni dəyərlər, 5 noyabr 2012.- sesqazeti.az/news/mia/319748.html.

9. Pedaqoq, şair, şərqşünas-Mirzə Cəfər Topçubaşov.- gunaydin.az/news/8067.

10. Rus-tatar məktəbləri.// Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, II. Bakı, "Lider", 2005.

11. Sadıqov M. Axundov Mirzə Fətəli. Bakı, "Elm", 1987.

12. Seyid Əzim Şirvani: şair, maarifçi, publisist.- "Mədəniyyət" qəzeti, 2010, 9 iyul, s.14.

13. Səfərov R. 140 yaşlı seminariya.- milliarxiv.gov.az/ru/140-yasli-seminariya.

14. Süleymanov M. Hacı Zeynalabdin Tağıyev. Bakı, “Gənclik”, 1996.

15. Vəliyev A. (Aşırlı). Azərbaycan mətbuat tarixi (1875-1920). Bakı, “Elm və Təhsil”, 2009.

16. Akundzada. Encyclopaedia Iranica. 1984, t.I.- iranicaonline.org/articles/akundzada-playwright.

17. Консерватория Кавказа, 08.05.2017.- vestikavkaza.ru/analytics/Konservatoriya-Kavkaza.html.

18. Лидин В. Песни Мирзы Шаффи. Москва, «Современник», 1976.

19. Театральная энциклопедия. Азербайджанский театр.- web.archive.org/web/ 20110309160146/ http://www.theatre-enc.ru/html/a/azerbaydjanskiy-teatr.html.

20. Фатуллаев-Фигаров Ш.С. Бакинские архитекторы: конец XIX- начало XX веков. Баку, «Шарг-Гарб», 2013.

# XI fəsil. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər)

## *§ 1. Azərbaycan I Dünya müharibəsi dövründə (1914-1918-ci illər).*

Dünyanın yenidən bölüşdürülməsi uğrunda başlayan I Dünya müharibəsinə 38 ölkə cəlb edilmişdi. Müharibədə iştirak edən Almaniya, İngiltərə, Fransa, Avstriya-Macarıstan, Rusiya kimi imperialist dövlətlərin özünəməxsus iqtisadi-siyasi maraqları olsa da, dünyanın yenidən bölüşdürülməsinə daha çox can atan Almaniya oldu. I Dünya müharibəsi 1914-cü il avqustun 1-də Almaniyanın Rusiyaya müharibə elan etməsi ilə başladı. Antantaya İngiltərə, Fransa, Rusiya, ABŞ və digərləri, "Üçlər ittifaqı"na Almaniya, Avstriya-Macarıstan, İtaliya, Türkiyə və digərləri daxil idi [26].

XX əsrin əvvəllərində imperialist dövlətlərin dünyanı iqtisadi və siyasi təsir dairəsinə bölüşdürməsindən narazı qalan və daha çox ərazi ələ keçirməyə çalışan Almaniya Yaxın Şərqdə ingilis mövqelərinə zərbə vurmaq, Rusiyadan Qafqazı qoparıb almaq fikrində idi. Almaniyanın müharibə planlarında Azərbaycan mühüm yer tutur və onun Qafqaz siyasətinin mərkəzində Bakı nefti dayanırdı [25]. Osmanlı Türkiyəsi ilə Azərbaycan arasında tarixi, mədəni və dini əlaqələr mövcud idi. Bu müharibədə Türkiyənin əsas məqsədlərindən biri Azərbaycanı və bütövlükdə Cənubi Qafqazı Rusiyanın işğalından xilas etmək idi.

Müharibə illərində Azərbaycanın bir çox müəssisələri dövlət tərəfindən verilən hərbi sifarişləri yerinə yetirir-

di. Məsələn, 1915-ci ilin əvvəllərindən Bakı hərbi-sənaye komitəsinin çuqun mərmilər, fuqas qumbaraları və mina hazırlayan zavodu, "Nobel qardaşları" şirkətinin benzin istehsalı zavodu , habelə Z.Tağıyevin bez və parusin istehsal edən səhmdar cəmiyyəti ilk növbədə cəbhəni zəruri mallarla təmin edən müəssisələr sırasına daxil edildi [20, s.38-41]. Müharibə illərində kənd təsərrüfatında gerilik müşahidə olunurdu. İstər əkinçilik, istərsə də maldarlıq xeyli ixtisara düşdü, pambıq sahələri əsaslı surətdə azaldı, bağçılıq və üzümçülük tənəzzülə uğradı. Müharibə dövründə Azərbaycan kəndinin xeyli dərəcədə işçi qüvvəsindən, qoşqu heyvanlarından, əmək alətlərindən, toxumdan, ərzaqdan məhrum edilməsi, Rusiya və xarici bazarlarla əlaqələrinin kəsilməsi Azərbaycan kəndində ciddi təsərrüfat böhranına səbəb oldu. Taxıl əkinləri təkcə 1 il ərzində (1914-1915) 42% azaldı. Heyvandarlıq da ağır vəziyyətə düşdü. Mal-qaranın sayı orta hesabla 15-20% azaldı [4, s.320-321]. Ərzaq məhsullarının qiyməti də sürətlə bahalaşmaqda idi. 1914-cü illə müqayisədə 1916-cı ildə çörəyin qiyməti 2.3 dəfə, 1917-ci ildə isə 3 dəfə artdi. 1916-cı ildə taxılın qiyməti müharibə ərəfəsindəki dövrlə müqayisədə 7-8 dəfə bahalaşdı [2, s.186].

I Dünya müharibəsi illərində Avropada yaradılmış əsas cəbhələrlə bərabər Qafqaz cəbhəsi də açıldı. Qafqaz cəbhəsi Batumdan Cənubi Azərbaycandakı Urmiya gölünədək uzanırdı. Türkiyə Qafqaz cəbhəsinə böyük əhəmiyyət verirdi. Türk qoşunlarının Qafqaz cəbhəsindəki əməliyyatlarına hərbi nazir Ənvər paşa (1881-1922) rəhbərlik edirdi. Onun əsas idealı turançılıqla bərabər dünya müsəlmanlarının birliyi, onların arasındakı əlaqələrin

möhkəmləndirilməsi idi [27, s.145]. (Ənvər paşa I Dünya müharibəsi illərində Türkiyənin hərbi naziri oldu. O, "Gənc türklər" adlandırılan ictimai-siyasi hərəkatın liderlərindən idi, 1913-cü ildə Tələt paşa və Camal paşa ilə birlikdə hakimiyyətə gəldilər, bu üçlük ölkəni 1918-ci ilə qədər idarə etdi. Türkiyə I Dünya müharibəsində məğlub olduqdan sonra Almaniyaya getdi, bir müddət orada yaşadıqdan sonra ingilis-fransız təqiblərindən qurtarmaq üçün Moskvaya getdi, bolşevik hökumətinin dəstəyi ilə Türkiyədə hakimiyyətə qayıtmaq istəyi ilə orada fəaliyyət göstərdi. Bolşevik hökuməti onu deyil, Mustafa Kamalı müdafiə etdiyinə görə incidi, kənara çəkildi. 1921-ci ildə Moskva onu yerli qüvvələrə qarşı mübarizə aparmaq üçün Orta Asiyaya, Buxara şəhərinə göndərdi. O, orada yerli milli qüvvələrin rəhbərləri ilə yaxınlaşdı, onların tərəfinə keçdi, hərbi qüvvələrin komandanı oldu. Qırmızı orduya qarşı bir sıra uğurlu əməliyyatlar həyata keçirdi, lakin 1922-ci ilin avqustunda indiki Tacikistanın ərazisində Çaqan kəndi yaxınlığında Qırmızı ordu ilə döyüşdə öldürüldü, orada dəfn olundu. Onun qəbri "Həzrəti Şahın məzarı" adı ilə ziyarət yerinə çevrilmişdi. 1996-cı ildə cənazəsi Türkiyəyə aparıldı, İstanbulda "Azadlıq Anıtı"nda dəfn olundu).

1914-cü ilin oktyabrında Qafqaz cəbhəsində hərbi əməliyyatlar başlandı, türk qoşunları Qars və Batum tərəfdən Qafqaza girərək müvəffəqiyyət qazandı. Rus ordusuna qarşı döyüşlərdə qazandığı qələbədən ruhlanan Ənvər paşa Sarıqamış istiqamətində də hərəkət edib Qarsı ələ keçirməyi qərara aldı [9, s.123-124]. Lakin ağır qış şərtləri, təchizat çatışmazlığı, döyüşə hazırlıq mərhələsinin çox qısa

olması və sair səbəblər üzündən Sarıqamış əməliyyatında türklər məğlub oldular. Dekabrın 22-dən yanvarın 18-ə qədər davam etmiş bu döyüşdə türklər ölən, yaralanan və əsir düşənlərlə 60 min (bəzi məlumatlara görə 90 min), ruslar 30 min itki verdi [29].

Birinci Dünya müharibəsinin ən böyük döyüşlərindən biri Çanaqqalada oldu. Bu istiqamətdə hərbi əməliyyatlar 1915-ci ilin fevralından 1916-cı ilin yanvarına qədər davam etdi. İngiltərə başda olmaqla Antanta dövlətləri qarşılarına Dardanel və Bosfor boğazlarını tutmaq, İstanbulu ələ keçirmək vəzifələrini qoymuşdular. Həlledici döyüşlərə polkovnik Mustafa Kamal başçılıq etdi, düşmənin üstün qüvvələrinə qalib gəldi, bu döyüşlərdən sonra general-qazi dərəcəsinə layiq görüldü, böyük şöhrət qazandı. Çanaqqala döyüşündə Türkiyə tərəfindən ölən, yaralanan, itkin düşənlərin sayı 250 min, Antanta dövlətlərinin itkiləri isə 300 minə qədər təşkil etdi [5; 8]. Azərbaycandan çoxlu sayda insan Türkiyəyə gedərək döyüşlərdə iştirak edib, yüzlərlə soydaşımız bu döyüşlərdə həlak olub [1].

1916-cı ilin oktyabr ayından etibarən Rusiyadakı ölkədaxili problemlər- sabitliyin pozulması, ərzaq qıtlığı, bahalıq, möhtəkirliyin artması nəticəsində paytaxt Petroqradda və digər şəhərlərdə hökumət əleyhinə çıxışlar başlandı. Sərt qarşıdurma və mübarizə Rüsiyada çarizmin devrilməsinə gətirib çıxardı. 1917-ci il fevralın 28-də Petroqradda başlanan inqilab martın 2-də çarın devrilməsi ilə nəticələndi. Beləliklə, 304 illik Romanovlar sülaləsinin, eyni zamanda rus monarxiyasının sonu çatdı. Hakimiyyət Müəssislər Məclisi çağrılanadək knyaz Georqi Lvovun rəhbərlik etdiyi Müvəqqəti hökumətə keçdi.

Yeni rejimin ilk işi bütün Rusiya vətəndaşlarının dini və milli məhdudiyyətlərinin aradan qaldırılması oldu. Sonra əhalisi qeyri-rus olan bölgələrdə yerli xalqın nümayəndələrinə daha çox söz haqqı verən idarə sistemi yaradılması qərara alındı. Az sonra Qafqaz vilayətlərinin idarə edilməsi üçün Cənubi Qafqaz Xüsusi Komitəsi yaradıldı [24, s. 20-23]. Bu komitə bölgənin milli qruplarını təmsil edən nümayəndələrdən təşkil edilirdi. Azərbaycanı Məmməd Yusif Cəfərov təmsil edirdi [19]. Lakin Komitə fəaliyyətinin ilk dövründən etibarən xalqın etimadını qazana bilmədi və ləğv edildi.

Fevral inqilabından sonra Cənubi Qafqazda siyasi təşkilatlar 2 əsas qrupda cəmləşdi: birinci qrupa rusların çoxluq təşkil etdiyi solçu sosial-demokrat və sosial-inqilabçıların hakim olduğu Sovetlər aid idi. Daha cox diqqət mərkəzində olan Bakı Sovetinə bolşevik S.Şaumyan rəhbər seçilə bildi [11, s.31]. İkinci qrup siyasi təşkilatlara isə Azərbaycanında milli hərəkata rəhbərlik etmək üçün yaradılan müsəlman milli şuraları aid idi. Bütün bu təşkilatlar da öz növbəsində Bakı Müsəlman İctimai Təşkilatları Şurasında (Komitəsində) birləşdi. Bakı Sovetinə qarşı mübarizə aparan bu quruma Əlimərdan bəy Topçubaşov rəhbərlik edirdi [15, s.27-29]. Rusiyada monarxiya rejiminin devrilməsindən bir neçə gün sonra Gəncədə "Türk Ədəm-i Mərkəziyyət Firqəsi" (Ədəm-i Mərkəziyyət-əksmərkəzçilik) yaradıldı. Bu partiya Rusiyada millətlərin müstəqilliyinə əsaslanan federal dövlət quruluşu ideyasını təbliğ edirdi. Buna görə də federalistlər adlanan bu təşkilatın qurucusu Nəsib bəy Yusifbəyli idi [3, s.15].

Bu dövrdə Azərbaycanın ictimai-siyasi liderləri daha çox müsəlmanların birliyinə nail olmağa çalışırdı. Bu məqsədlə 1917-ci ilin aprelində Bakıda Qafqaz müsəlmanlarının, may ayında isə Moskvada Rusiya müsəlmanlarının qurultayları keçirildi. Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə və digərlərinin rəhbərliyi altında keçən bu qurultaylarda müəyyən nəticələrə nail olundu. Bütövlükdə isə müsəlmanların ümumi siyasi platformasını, fəaliyyət birliyini formalaşdırmaq mümkün olmadı.

Çar Rusiyası əsarət altına aldığı türklərin ruslara bağlılığına həmişə şübhə ilə yanaşır, ona görə də onların mədəni, elmi, iqtisadi, o cümlədən hərbi sahədə irəliləmələrinə qəsdən əngəl olurdu. Orduda xidmətə yalnız ali müsəlman silkinə məxsus olanlar cəlb edilirdi. Lakin bir çox azərbaycanlılar könüllü surətdə hərbi xidmətə gedirdilər. I Dünya müharibəsi dövründə cəbhələrdə 200-dən çox azərbaycanlı zabit vuruşurdu. Məhşur generallar S.Mehmandarov, Ə.Şıxlinski, H.Naxçıvanski, döyüşlərdə göstərdiyi igidliklərə görə təltif olunmuş ilk azərbaycanlı təyyarəçi poruçik F.Qayıbov da bunların arasında idi [25]. Hüseyn xan Naxçıvanski, "rus artilleriyasının Allahı" Əliağa Şıxlinski, İbrahim ağa Vəkilov rus-yapon savaşı və I Dünya müharibəsi dövründə məşhurlaşdılar. Səməd bəy Mehmandarov isə rus ordusunun məşhur sərkərdələrindən idi. S.Mehmandarov 1914-cü ilin payızında Lodz şəhəri yaxınlığında alman generalı Makenzenin zərbə qüvvələrini darmadağın etməklə rus ordusunu mühasirədən çıxardı və çox məşhurlaşdı [14].

Bütün çətinliklərə baxmayaraq artıq Azərbaycan hərbi birlikləri qurulmağa başlamışdı. Müsəlman milli birliklə-

rinin özəyini Petroqraddan gətirilmiş və general Feyzulla Mirzə Qacarın komandanlıq etdiyi "Qafqaz süvari diviziyası" təşkil etdi. Şücaətinə və ciddi hərbi hazırlıq keçmədiyinə görə "Vəhşi diviziya" adlandırılan bu birlik ən iri müsəlman hərbi birləşməsi idi [17]. Şuşada təşkil olunmuş "Tatar süvari alayı" da bu diviziyanın tərkibinə daxil idi [24, s.28].

1917-ci ilin fevralında çar Rusiyasında baş verən burjua-demokrtik inqilabının qələbəsindən sonra Cənubi Qafqazda siyasi proseslər özünəməxsus inkişaf yolu ilə cərəyan edirdi. Əsas proseslər siyasi partiyalar tərəfindən idarə olunurdu. Milli azadlıq hərəkatında və milli Azərbaycan dövlətinin yaradılmasında "Müsavat"ın rolu böyük idi [7, s.55-57]. Bu arada vəziyyət yenidən dəyişdi. 1917-ci il oktyabrın 25-də Petroqradda bolşeviklərin silahlı üsyanı nəticəsində Müvəqqəti hökumət devrildi. Bolşeviklərin Petroqradda hakimiyyəti ələ keçirməsi xəbəri alındıqdan sonra – 1917-ci il oktyabrın 27-də Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin fövqəladə yığıncağı keçirildi. İclasın gündəliyində duran əsas məsələ hakimiyyət məsələsi idi. Bolşeviklərin kəskin etirazına baxmayaraq, menşevik-eser-daşnak bloku səs çoxluğu ilə Bakıda ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsinin (İTK) yaradılması haqqında qərarın qəbul olunmasına müvəffəq oldu [16, s.164-168].

1917-ci ilin dekabrında bolşeviklərin rəhbəri Lenin S. Şaumyanı Zaqafqaziya üzrə xüsusi komissar təyin etdi, [18, s.587] Bakı Sovetinin sədri vəzifəsini isə ondan sonra P.Caparidze tutdu. S.Şaumyan 1918-ci ilin aprelində yenidən Bakı Sovetinin sədri vəzifəsinə qaytarıldı, həm də

xarici işlər komissarı oldu (2009-cu ilin yanvarında 26 Bakı komissarının qalıqları başqa yerdə basdırılmaq üçün çıxarıldı və məlum oldu ki, 3 nəfərin, o cümlədən S.Şaumyanın qalıqları orada yoxdur) [23]. Siyasi proseslər 1917-ci ilin noyabrında Müəssislər Məclisinə seçimlərlə davam etdirildi. Cənubi Qafqaz dairəsi üzrə seçkilərdə iştirak edən 15 partiya arasında menşeviklər, müsavatçılar və daşnaklar ümumilikdə səslərin 73 faizini qazandılar [13, s.104]. Seçkilərin nəticələri göstərdi ki, Cənubi Qafqazda bolşeviklərin hakimiyyətə gələ bildikləri Bakı şəhəri istisna olmaqla, "Müsavat" güclü nüfuza malikdir.

1918-ci ilin yanvarında Petroqradda toplanmış Müəssislər Məclisi bolşevik hökuməti tərəfindən buraxıldı. Cənubi Qafqazdan seçilmiş nümayəndələr geri qayıdaraq "Zaqafqaziya Seymi" deyilən müştərək qurum yaratdı. 1918-ci ilin fevralında 3 əsas partiya nümayəndələrindən ibarət olan Zaqafqaziya Seymi öz işinə başladı [24, s.98-100]. Seymdə Gürcüstandan sosial-demokratlar (menşeviklər)- 32 nəfər, Azərbaycandan müsavatçılar, onlara qoşulmuş bitərəf demokratlar- 30 nəfər, ermənilərdən "Daşnaksütun" partiyasından olanlar-27 nəfər deputat iştirak edirdi. Bundan əlavə, sosial-inqilabçılar (eserlər), milli demokratlar, Müsəlman Sosialist Bloku, "İttihad" və menşevik-hümmətçilər də Seymdə təmsil olundular. Zaqafqaziya Seymində Azərbaycan siyasi partiyalarının 44 nümayəndəsi var idi. Gürcü menşevik N.S.Çxeidze Seymin sədri oldu. Zaqafqaziya Seymi Y.Gegeçkori başda olmaqla Zaqafqaziya hökumətini təşkil etdi. Azərbaycandan Fətəli Xan Xoyski, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlikaslanov hökumətə daxil oldu [24, s.98-100].

Azərbaycanda milli hərəkatın genişlənməsi, "Müsavat"ın nüfuzunun artması "Böyük Ermənistan" xülyası ilə yaşayan daşnakları ciddi narahat edirdi. Daşnaklar 1918-ci ilin martında Bakıda qırğın törədərək "Müsavat"ın sosial bazasını zəiflətmək, milli hərəkata divan tutmağa cəhd göstərdilər. Bu məqsədlə təxminən 5 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya gətirilmişdi. "Qırmızı qvardiya" adı ilə yaradılan 10-12 minlik ordunun da 70 faizi erməni idi [4, s.335]. Martın 30-da axşam Bakıda ilk atəşlər açıldı. Tarixə qanlı faciə kimi daxil olan mart qətlləri 3 gün davam etdi. 30 mart-1 aprel qətl və qarətlərindən sonra yaradılan Fövqəladə İstintaq Komissiyasının ümumiləşdirilmiş hesabatına görə Bakıda "əksinqilabçı" adı ilə 12 min nəfər azərbaycanlı qətlə yetirilmişdi [10].

Bakıda törədilmiş cinayətlər aprel ayının ilk günlərindən etibarən eynilə Şamaxı, Quba, Qarabağ, Xaçmaz və digər yerlərdə törədildi. Azərbaycanın qəzalarına "sovet qoşunları" adı altında göndərilən cinayətkar dəstələrə quldur erməni "hərbçiləri" T.Əmiryan, H.Amazasp, S.Lalayev rəhbərlik edirdilər. Daşnak cəlladlardan ən ağır ziyan çəkənlərdən biri Şamaxı qəzası oldu. Nəticədə Şamaxı şəhəri və qəzasının 72 kəndi dağıdıldı. Şamaxı qırğınlarında 8 min nəfərə qədər azərbaycanlı öldürüldü. Məscidə sığınmış bir qrup insan diri-diri yandırıldı [12, s.136]. Quba qəzasında qırğın törədən quldur dəstəsinə S.Şaumyanın xüsusi səlahiyyətlər verdiyi H.Amazaps rəhbərlik edirdi. Aprel ayında qəzanın 122 müsəlman kəndi dağıdıldı, minlərlə azərbaycanlı, ləzgi, yəhudi məhv edildi. Quba qəzasında 16 min insan qətlə yetirildi [12, s.138]. Göyçay, Kürdəmir, Salyan və Lənkəran bölgələrinin əhalisi də er-

məni cəza dəstələrindən ciddi ziyan çəkdi. 1918-ci il mart soyqırımı nəticəsində 50 min azərbaycanlı məhv edildi [21]. (Xalq Cümhuriyyəti dövründə, 1919 və 1920-ci illərdə 31 mart matəm günü kimi qeyd olunurdu. Azərbaycan Prezidentinin 26 mart 1998-ci il sərəncamı ilə bu tarix Soyqırım Günü elan olunub).

Hadisələr sürətlə Zaqafqaziya Seyminin dağılmasına doğru gedirdi. Seymin gürcü fraksiyası Zaqafqaziya Respublikası tərkibindən çıxmaq və öz müstəqilliyini elan etmək qərarına gəldi. Zaqafqaziya Seyminin sədri və üzvləri – K.Çxeidze, A.Sereteli və Y.Gegeçkori 1918-ci il mayın 25-də Azərbaycan fraksiyasının F.X.Xoyskinin sədrliyi ilə keçirilən axşam iclasına gəldilər. A.Sereteli gürcü fraksiyası adından bildirdi: "Seymin sabahkı iclasında biz Zaqafqaziya Respublikasının ləğv olunmasını təklif edəcəyik". Cavab olaraq F.X.Xoyski bildirdi: "Əgər gürcü xalqının iradəsi belədirsə, bizim ona mane olmağa haqqımız yoxdur. Azərbaycan türklərinə isə yeni vəziyyətlə bağlı olaraq müvafiq qərarlar qəbul etməkdən başqa bir yol qalmır" [6]. 1918-ci il mayın 26-da Zaqafqaziya Seymi son iclasında özünün buraxılmasına dair qərar qəbul etdi [22].

Mart hadisələrindən sonra Bakı şəhərində və onun neft mədənləri rayonunda Bakı Sovetinin hakimiyyəti gücləndi. 1918-ci il mayın 1-də Bakı Soveti gələcək funksiyaları və fəaliyyət proqramını müəyyən edən Bəyannamə dərc etdi. Orada qeyd edilirdi ki, Bakı Soveti Rusiya hökumətinin bütün dekret və sərəncamlarını həyata keçirəcək, onunla sıx əlaqədə fəaliyyət göstərəcək [28]. Bu, Bakının Rusiyanın bir hissəsinə çevrilməsi demək idi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Çanaqqala zəfəri.- azertag.az/xeber/Chanaqqala_zeferi_Turk_xalqinin_zefer_ ve_qehremanliq_salnamesi-849815.

2. Əhmədov S. Birinci Dünya müharibəsinin Azərbaycan üçün nəticələri.- "Azərbaycan Birinci dünya müharibəsi dövründə. Elmi məqalələr toplusu. Bakı, "Ziya", 2014.

3. Qaraoğlu F. "Tarixdə iz buraxanlar: Nəsib bəy Yusifbəyli".- "Bakı Xəbər" qəzeti, 2019, 13 iyul, s.15.

4. Qəniyev H. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil", 2019.

5. 1915-ci ildə Çanaqqala döyüşü...- bbc.com/azeri/region-60802181.

6. Rüstəmli A. Dövlətçiliyimizin və demokratiyamızın ilk müəllimi, 2014, 15 yanvar.- news.milli.az/society/239557.html.

7. Yaqublu N. Müsavat partiyasının tarixi. Bakı, "Adiloğlu" nəşriyyatı, 2012.

8. Ericson E.J., Ordered to Die: A History of the Ottoman Army in the First World War, Westport, CT: Greenwood Publishing.

9. Reynolds M.A. Shattering empires: The clash and collapse of the Ottoman and Russian empires, 1908-1918. Cambridge: Univ. press., 2011.

10. Smith M.G. Anatomy of a Rumour: Murder Scandal, the Musavat Party and Narratives of the Russian Revolution in Baku, 1917-20// Journal of Contemporary History. 2001, April (vol. 36, no. 2).

11. Swietochowski T., Collins B.C. Historical Dictionary of Azerbaijan. Scarecrow Press, 1999.

12. Баберовски Й. Враг есть везде. Сталинизм на Кавказе. (пер. с нем. Алтухова В.Т.) Москва, Российская политическая энциклопедия, 2010.

13. Багирова И. Интеграционные процессы на Южном Кавказе и политика великих держав в исторической ретроспективе XX века. Том 1 (2).- «Геоистория», 2007.

14. Военное обозрение. Генерал Мехмандаров Самед-бек. 03.06.2013.- topwar.ru/28377-general-mehmandarov-samedbek.html.

15. Гасанов Г. Комитет Бакинских Мусульманских Общественных Организаций. Баку, изд. «OL», 2014.

16. Гасанов Г. На пути к первой республике. Баку, "Çaşıoğlu", 2016.

17. Горлов А. Всадники «Дикой дивизии».- «Российская газета», 2014, 15 апреля.- rg.ru/2014/04/15/divizia-site.html.

18. Декреты Советской власти, т.I. Москва, Политиздат, 1957.

19. Джафаров М.- hrono.ru/biograf/bio_d/dzhafarov.php.

20. Дулаева З., Мамедов М. Баку в годы Первой мировой войны.- «Азербайджан в период первой мировой войны. Сборник научных статей. Баку, «Зия», 2014.

21. Есть вековая мартовская трагедия в Азербайджане-нет наказания.- azertag.az/ru/xeber/Est_Vekovaya_martovskaya_tragediya_v_Azerbaidzhane_net_nakazaniya-938468.

22. Закавказский сейм. Историческая энциклопедия.- hrono.ru/organ/ukaz_ z/ru/19170171.php.

23. Махмудов Я. «История о 26 бакинских комиссарах оказалась мифом».- news.day.az/society/146513.html.

24. Муханов В.М. Кавказ в переломную эпоху (1917-1921). Москва, Модест Колеров, 2019.

25. Первая мировая война...- az.sputniknews.ru/20180801/pervaja-mirovaja-voyna-russia-azerbaijan-416475405.html.

26. Первая мировая война.- historyrussia.org/sobytiya/1-avqusta-1914-goda-nachalas-pervaya-mirovaya-vojna.html.

27. Роган Ю. Падение Османской империи. Первая мировая война на Ближнем Востоке, 1914-1920 гг. Москва, «Альпина нон-фикшн», 2018.

28.Рождение и гибель Бакинской коммуны.- politsturm.com/rozhdenie-i-gibel-bakinskoj-kommuny.

29. Сарыкамышская операция 1914-1915 гг.- web.archives.org/web/ 20221021043943/ https://bigenc.ru/military_science/text/3537019.

## *§ 2. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması. Milli hökumətin daxili və xarici siyasəti.*

1918-ci il mayın 26-da Gürcüstanın Zaqafqaziya Federasiyasından çıxıb özünün istiqlaliyyətini elan etməsindən sonra, ertəsi gün Tiflisdə Zaqafqaziya Seyminin müsəlman fraksiyası 26 nəfərin iştirakı ilə özünü Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdi. 24 nəfər Milli Şuranın elan olunmasının lehinə səs verdi, 2 nəfər (Sultan Məcid Qənizadə və Cəfər Axundov) bitərəf qaldı. Həmin vaxt Batumda olan M.Ə.Rəsulzadənin sədr seçildiyi Milli Şura 1918-ci il mayın 28-də müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin, yeni tipli dövlətimizin yaradıldığını elan etdi, "İstiqlal Bəyannaməsi"ni qəbul etdi. Altı bəndlik bu tarixi sənədlə müstəqillik, dövlətçiliyimizin bərpa olunması, idarəetmənin xalq cümhuriyyəti forması, ali hakimiyyətin xalqa məxsus olduğu, dövlətimizin milli xarakteri və si-

yasəti, vətəndaşların bərabərliyi, keçid dövrü və Müəssislər Məclisinin çağırılacağı elan olundu [3]. Dövlətimizin ərazisi 114 min kv.km, əhalisi təxminən 2,8 milyon nəfər təşkil edirdi [17, s. 196].

Azərbaycan rəhbərliyi dərhal erməni iddiaları ilə üzləşdi. Onlar Azərbaycanla eyni vaxtda müstəqilliklərini elan etdilər, lakin dövlət quracaqları bir ərazi və siyasi mərkəz yox idi. Azərbaycan Antanta dövlətlərinin təkidi ilə İrəvan şəhəri və ətrafını (təxminən 9 min kv.km.) ermənilərə güzəştə getdi. Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli qərarı ilə həmin ərazi ermənilərə verildi [24]. Azərbaycanla Ermənistan arasında gərgin danışıqlar türk ordusunun Cənubi Qafqazda uğurlu hərbi əməliyyatları şəraitində baş verirdi. Eyni zamanda Batumda Türkiyə nümayəndə heyəti Azərbaycan, Gürcüstan və Ermənistan heyətləri ilə ayrı-ayrılıqda danışıqlar aparırdı. Türk qoşunları 1918-ci il mayın sonlarında İrəvana yaxınlaşdı, burada Sərdarabad və Baş Aparan müdafiə mövqelərində general Moisey Silikovun (ermənilər ona Movses Silikyan adı qoyublar, o, Azərbaycanın Bakı (1867-ci ildən Yelizavetpol (Gəncə) quberniyasının Şəki qəzasının Vartaşen kəndində anadan olmuş, rus ordusunda general-mayor rütbəsinə qədər qalxmışdı. Bu dövrdə erməni ordusunda xidmət edirdi, milliyyətcə udin idi) 7 minlik, terrorçu Dronun 1 minlik qüvvəsi dayanmışdı. Bu istiqamətdə döyüşlər Zaqafqaziya Seyminin buraxılması ilə dayandı. Digər istiqamətdə dayanan general Nazarbekovun qoşunları darmadağın edildi. Bundan sonra Türkiyə ilə Ermənistan arasında iyunun 4-də Batumda sülh müqaviləsi imzalandı. Bu müqavilə ilə Ermənistan üçün İrəvan şəhəri və bəzi

yaxın yerlər daxil olmaqla 10 min kv. kilometrə yaxın ərazi müəyyən edildi.

Müvəqqəti Milli Şura hökumətin - Nazirlər Kabinetinin təşkil olunmasını Fətəli xan Xoyskiyə tapşırdı. Elə həmin gün Milli Şura Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumət kabinetinin tərkibini təsdiq etdi. Hökumətə F.X.Xoyski ilə yanaşı Nəsib bəy Yusifbəyli (maliyyə və maarif naziri), Məhəmmədhəsən Hacınski (xarici işlər naziri), Xosrov bəy Sultanov (hərbi nazir), Xəlil bəy Xasməmmədov (ədliyyə naziri) və digərləri daxil oldu.

1918-ci il iyunun 16-da Müvəqqəti Milli Şuranın üzvləri və AXC-nin ilk hökuməti Tiflisdən Gəncəyə (1918-ci il iyulun 30-da şəhərin qədim adı özünə qaytarıldı) gəldi və dərhal da çox çətin problemlərlə üzləşdi. Bu zaman Gəncədə siyasi vəziyyət son dərəcə mürəkkəb idi. Gəncədəki siyasi qüvvələrin bir qrupu Azərbaycana köməyə gəlmiş türk qoşunlarının komandanı Nuru Paşanı (1889-1949) inandıra bilmişdi ki, Tiflisdən gələnlər heç də Azərbaycan xalqının arzu və istəklərinin təmsilçiləri yox, bir qrup siyasətbazlardır. Milli Şura Gəncəyə gələn kimi Nuru Paşa tərəfindən son dərəcə soyuq qarşılandı. Nuru Paşanın müşaviri Əhməd bəy Ağaoğlu Fətəli xan Xoyski ilə söhbətində Müvəqqəti Milli Şuranın buraxılması və yeni hökumət kabinetinin təşkil olunmasını təklif etdi. M.Ə.Rəsulzadə güzəştə gedərək, sədrlik etdiyi Milli Şuranın buraxılmasına razılaşdı. Milli Şura buraxıldı, bütün hakimiyyət yenə də F.X.Xoyskinin sədrliyi ilə təşkil olunmuş ikinci hökumət kabinetinə verildi [20].

Azərbaycanda özünəməxsus ikihakimiyyətlilik bərqərar oldu. Bir tərəfdə daşnak-bolşevik süngülərinə söy-

kənən, 1918-ci ilin mart-aprel aylarında Azərbaycanı qana boyamış Bakı Soveti və daha sonra eyni dərəcədə xalqa yad olan Sentrokaspi diktaturası, digər tərəfdə isə Gəncədə qərar tutmuş Azərbaycan milli hökuməti mövcud idi.

İyunun 21-də hökumətin qərarı ilə AXC-nin üzərində aypara və səkkizguşəli ulduz olan al qırmızı Dövlət Bayrağı təsdiq olundu (sonralar noyabrın 9-da bu bayraq Azərbaycan Respublikasının indi qüvvədə olan bayrağı ilə əvəz olundu) [20, s. 22-23], iyunun 26-da ilk hərbi hissə-əlahiddə korpus yaradıldı [14], iyunun 27-də Azərbaycan türkcəsi dövlət dili elan edildi [19].

Hər kəs başa düşürdü ki, Bakı ləngimədən azad olunmalıdır. Qafqaz İslam Ordusu, Azərbaycan hərbi hissələri Gəncədən hərəkətə başlayaraq, iyunun 27-də Göyçay yaxınlığında Bakı sovetinin qoşunlarını məğlub etdi, daha sonra irəliləyərək iyulun 10-da Kürdəmir və Şamaxını azad etdi. Bakıda siyasi böhran iyulun 31-də "Bakı kommunası"nın süqutu və avqustun 1-də "Sentrokaspi diktaturası" deyilən hökumətin qurulması ilə nəticələndi. Bu hökumət eser, menşevik və daşnaklardan ibarət idi. Onların dəvəti ilə avqust ayında general Denstervil başda olmaqla ingilis hərbi qüvvələri Bakıya gəldi. Almaniya və Rusiya arasında 1918-ci il avqustun 27-də Azərbaycana qarşı yönəlmiş saziş imzalandı. Sazişin 12-ci maddəsində göstərilirdi: «Almaniya Qafqazda Gürcüstanın hüdudlarından kənarda hərbi əməliyyatlarda hər hansı üçüncü dövlətə heç bir yardım etməyəcək. Rusiya Bakı vilayətində neft çıxarılmasını bütün imkanları daxilində artıracaq, çıxarılan neftin 1/4-ni Almaniyaya verəcək». Az sonra Berlinə gedən baş nazir Tələt paşa (1874-1921) təcili şəkildə 27 avqust sazişi-

nin ləğv edilməsini Almaniyadan tələb etdi. Bu addım Bakının azad edilməsində mühüm əhəmiyyətə malik oldu, prosesi sürətləndirdi. İngilislərin köməyə çağırılmasına baxmayaraq, Sentrokaspi hökuməti Bakını əldə saxlaya bilmədi və 1918-ci il sentyabr ayının 15-də Qafqaz İslam Ordusu və Milli Ordunun hissələri ağır döyüşlərdən sonra Bakını azad etdi. Sentyabrın 17-də F.X.Xoyskinin başçılıq etdiyi hökumət də Gəncədən Bakıya gəldi [21, s.30]. Təxminən 4 ay davam edən ikihakimiyyətlilik başa çatdı və bütün ölkədə qanuni Azərbaycan hakimiyyəti bərqərar oldu. Rus müstəmləkəçilərinin əli ilə məhv edilmiş Azərbaycan milli dövlətçiliyi yenidən dirçəldi.

Nisbətən qısa müddət ərzində əldə olunmuş hərbi və siyasi nailiyyətlərə baxmayaraq, gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə işləməli oldu. 1918-ci il 30 oktyabr tarixli Mudros sazişinə görə Osmanlı Türkiyəsi 1-ci Dünya müharibəsində öz məğlubiyyətini etiraf edib qoşunlarını Cənubi Qafqazdan, o cümlədən Azərbaycandan çıxarmaq məcburiyyətində qaldı [13]. Belə şəraitdə 1918-ci il noyabrın 16-da Milli Şura öz fəaliyyətini bərpa etdi.

General V.Tomsonun başçılığı ilə ingilis qoşunlarının 1918-ci il noyabrın 17-də yenidən Bakıya yeridilməsi vəziyyəti son dərəcə kəskinləşdirirdi. İngilis komandanlığının Azərbaycan Respublikasının istiqlaliyyəti ideyasının özünə necə yanaşacağını heç kəs bilmirdi. Fəaliyyətini bərpa etmiş Milli Şura noyabrın 20-də "Azərbaycan parlamentinin yaradılması haqqında" qərar qəbul etdi. Bu qərara görə 120 nəfərdən ibarət birpalatalı parlament yaradılmalı idi. AXC parlamentinin formalaşdırılması son dərəcə

mürəkkəb şəraitdə aparılırdı. Deputatların əsas hissəsini Milli Şuranın 44 üzvü təşkil edir, digər müsəlman deputatlar isə şəhər və qəzalardan, keçmiş milli komitələrin üzvlərindən seçilirdi. AXC parlamentinin təşkili üçün əsas kimi götürülmüş milli nümayəndəlik prinsipinə müvafiq olaraq erməni və rus milli şuralarına öz deputatlarını parlamentə göndərmək təklif olunmuşdu.

1918-ci il dekabrın 7-də Azərbaycan parlamenti təntənəli şəraitdə öz işinə başladı. Azərbaycan parlamenti Məclisi Məbusan (Nümayəndələr Məclisi) adlanırdı. Ə.M. Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev sədrin birinci müavini seçildi. Parlamentə 11 müxtəlif fraksiya və qrupu təmsil edən 97 deputat seçilmişdi. Bitərəflər qrupu ilə birləşmiş müsavatçılar parlamentdə ən çoxsaylı fraksiyanı (38 deputat) təşkil edirdilər. Sonrakı yerləri ittihadçılar, sosialist bloku, Əhrar, Slavyan-rus cəmiyyəti, milli azlıqlar fraksiyası, erməni fraksiyası və Daşnaksütun fraksiyası tuturdu. Bitərəflər, partiyaların fövqündə duranlar və sol bitərəflər ayrıca qrup təşkil edirdilər [6, s.11-12].

1918-ci il dekabrın 26-da F.Xoyski yeni Nazirlər Şurasının tərkibini parlamentin təsdiqinə təqdim etdi. Yeni koalisiya hökumətinin təşkili başa çatan kimi general Tomson xüsusi bəyannamə ilə çıxış edərək onu yeganə qanuni hökumət kimi tanıdığını bildirdi [8]. Bu, ADR liderlərinin mühüm siyasi-diplomatik qələbəsi idi.

1918-ci il sentyabrın 1-də AXC-nin Hərbi Nazirliyi yaradılmışdı. Ona baş nazir F.Xoyskinin özü başçılıq edirdi. General Səməd bəy Mehmandarov hərbi nazirin müavini təyin olunmuşdu. 1918-ci il dekabrın sonunda general S. Mehmandarov hərbi nazir, general Ə.Şıxlinski hərbi nazirin müavini vəzifələrinə təyin olundular [12, s. 343].

AXC ölkənin sosial-iqtisadi, mədəni həyatının yenidən qurulması sahəsində də xeyli iş görə bildi. Hökumətin iki əsas tədbirini, ərzaq məhsullarının ölkədən çıxarılmasına qadağa qoyulması, həmçinin ticarət donanması və neft sənayesinin milliləşdirilməsinin ləğv olunmasını qeyd etmək olar. Respublika hökuməti fəhlələrin həyat şəraitinin yaxşılaşdırılması üçün əlindən gələni edir və iqtisadi böhrandan çıxış yolları axtarırdı. 1919-cü il yanvarın axırlarında Əmək Nazirliyi fəhlələrə və sahibkarlara müraciət edərək sənayeni dirçəltmək naminə onları öz aralarında əməkdaşlığı möhkəmləndirməyə çağırdı [5, s.63-65].

Təəssüf ki, Azərbaycan öz zəngin neft ehtiyatından tam şəkildə istifadə edə bilmədi. Tomsonun başçılığı ilə 1918-ci ilin noyabrında Bakıya gələn ingilislər özlərini ölkənin sahibi kimi aparırdılar. Bakıda icraedici və məhkəmə hakimiyyəti bütövlükdə general Tomsonun əlində cəmləşmişdi. 1918-ci il noyabrın 29-dan Xəzər Gəmiçilik İdarəsinin bütün gəmiləri ingilis komandanlığının əlinə keçdi. İngilislər Azərbaycan neftinin böyük bir hissəsini ardı-arası kəsilmədən ölkədən daşıyıb aparırdı [5, s.63].

AXC maarif və mədəniyyətin inkişafında az iş görmədi. Ölkənin müəllim kadrlarına ehtiyacını nəzərə alan milli hökumət, ölkənin müxtəlif yerlərində kişi və qadın müəllimlər hazırlayacaq pedaqoji kurslar təşkil etdi. Azərbaycan parlamentinin 1919-cü il 1 sentyabr tarixli qərarına əsasən həmin ilin noyabrında Bakı Universiteti fəaliyyətə başladı [4, s.9]. Müsəlman tarixində ilk dünyəvi ali məktəb olan Bakı Dövlət Universitetində işləmək üçün dövrün dəyərli mütəxəssisləri dəvət edilmiş, M.Ə.Rəsulzadənin özü də burada Şərq ədəbiyyatından mühazirə

kursları oxumuşdur. AXC həmçinin mütərəqqi seçki sistemi yaratdı, bütün vətəndaşlara, o cümlədən qadınlara seçki hüququ verildi. AXC dövründə milli teatrın inkişafında müsəlman və türk mədəniyyətinin öyrənilməsi və təbliğində də xeyli iş görülmüşdür [5, s. 95, 98, 100, 101]. 1918-1920-ci illərdə milli mətbuat xeyli inkişaf tapmışdır. 1919-cü ildə qəbul olunmuş mətbuat qanunu hər cür senzuradan kənar azad mətbuatın formalaşması üçün əlverişli şərait yaradırdı [5, s. 73-78].

Müstəqilliyini elan etmiş gənc Azərbaycan Cümhuriyyəti xarici siyasət məsələlərinə də xüsusi diqqət yetirirdi. Xarici siyasətin əsas istiqamətləri dövlət müstəqilliyinin beynəlxalq aləmdə tanınmasına nail olunması, qonşu dövlətlərlə mehriban münasibətlər yaradılması və digər məsələlərdən ibarət idi. İstiqlaliyyətin qorunub saxlanması daxildən daha çox xarici amillərlə bağlı idi.

Azərbaycan Cümhuriyyətinin yaranmasından sonra Azərbaycan-Türkiyə münasibətləri yeni mərhələyə - dövlətlərarası münasibətlər mərhələsinə daxil oldu. Bu mərhələdə Azərbaycan-Türkiyə münasibətlərinin hüquqi əsasını 1918-ci il 4 iyunda Batumda imzalanmış "Dostluq haqqında" müqavilə təşkil edirdi. 4 iyun müqaviləsi və iyunun ortalarında imzalanan əlavə sazişlər xarici siyasətimizdə ilk uğurlu addım, Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrini əhatə edən ilk dövlətlərarası sənədlər idi [1, s. 41-42]. Hələ Batumda olan M.Ə.Rəsulzadə və M.H.Hacınski xarici hərbi müdaxiləyə son qoymaq və daxili asayişi qorumaq məqsədi ilə 4 iyun müqaviləsi əsasında hərbi yardım göstərilməsi barədə Türkiyəyə müraciət etdilər. Həmin müraciəti qəbul edən Osmanlı döv-

ləti elə etmək istəyirdi ki, Azərbaycana ordu göndərilməsi müttəfiq Almaniyanın etirazına səbəb olmasın. Ona görə də qarşılıqlı razılıq əsasında Osmanlı hərbi hissələri və Azərbaycan könüllülərindən ibarət Qafqaz İslam Ordusu yaradıldı.

1918-ci ilin payızında Almaniya, Türkiyə, Avstriya-Macarıstan və Bolqarıstanın daxil olduğu Üçlər İttifaqı məğlub oldu. Oktyabr ayının 30-da təkcə Türkiyə üçün deyil, Azərbaycan Cümhuriyyəti üçün də son dərəcə ağır olan Mudros müqaviləsi imzalandı. Müqavilənin 11-ci maddəsinə görə Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli, 15-ci maddəyə görə Türkiyə Zaqafqaziya Dəmir yolu üzərində nəzarət hüququnu Antantaya verməli və müttəfiqlərin Bakını tutmasına heç bir etiraz etməməli idi [23, s.188]. Noyabrın 10-da Azərbaycan hökuməti respublikanı tərk edən Türkiyə ordusunun şərəfinə ziyafət verdi. Türkiyə qoşunları həmin gün Bakıdan, az sonra isə bütün Azərbaycandan çıxdı [15].

Cənubi Qafqazın üç yeni respublikası - Azərbaycan, Gürcüstan və Ermənistan arasında sülh və sabitliyin yaradılması çox çətin oldu. İranla münasibətlərdə də əvvəlki narazılıqlar, daha çox isə anlaşılmazlıqlar 1919-cü ilin ortalarından etibarən öz yerini əməkdaşlıq meyillərinə verməyə başladı. Həmin ilin payızında yaradılan birgə Azərbaycan-İran komissiyasının gərgin işi nəticəsində iki dövlət arasında münasibətlərin bir sıra tərəflərini əhatə edən müqavilə və saziş hazırlandı. 1920-ci il martın 20-də iki dövlət arasında əməkdaşlığın bütün sahələrini əhatə edən 7 müqavilə və saziş imzalandı [7]. Məğlubiyyətdən sonra çətin vəziyyətə düşmüş Türkiyə ilə də əlaqələr bər-

pa edilməyə başlamış, tanınmış yazıçı Yusif Vəzir Çəmənzəminli İstanbula səfir təyin edilmişdi [16]. Azərbaycan diplomatiyası Avropa və Qafqazdakı fəaliyyətində həyatla ölüm arasında mübarizə aparan Anadolu türklərinin mənafeyini müdafiə edirdi.

Rusiya və Ermənistanla münasibətlər bütün dövr ərzində qeyri-stabil olaraq qaldı. Azərbaycan diplomatiyasının ciddi-cəhdlərinə baxmayaraq bu dövlətlərlə normal münasibətlər yaratmaq mümkün olmadı. 1918-ci ilin iyun ayında Ermənistanın silahlı qüvvələri Naxçıvan və Zəngəzur bölgələrində Azərbaycan sərhədlərini pozub dinc əhaliyə qarşı kütləvi qırğınlara başladı. Erməni quldur dəstələri Zəngəzur əhalisindən tələb edirdilər ki, ya Ermənistan hökumətinə tabe olsunlar, ya da Zəngəzuru boşaltsınlar. Lakin əhali bu həyasız tələbi rədd edərək öz torpaqlarının müdafiəsinə qalxdı [9, s.291-292]. Daşnaklar 1918-ci ilin axırlarında Zəngəzurda 115, Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında 21, İrəvan quberiniyasında 60-dan çox Azərbaycan kəndini məhv etdilər və əhalisini soyqırımına məruz qoydular. Həmin ərazilərin 100 mindən artıq türk-müsəlman əhalisi öz dədə-baba yurdlarından qovulub didərgin salındı [11, s.2-4]. Ermənistanın Azərbaycana qarşı bu elan olunmamış müharibəsi 1920-ci ilin noyabrınadək fasilələrlə davam etdi.

Bu təhdidlərə qarşı Azərbaycan hökuməti bir sıra zəruri addımlar atdı. 1919-cü il yanvarın əvvəllərində Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını Gəncə quberniyasından ayırıb mərkəzi Şuşa şəhəri olmaqla Qarabağ general-qubernatorluğu yaratdı. Həmin ilin fevralında Xosrov bəy Sultanov general-qubernator təyin edildi [18,

s. 410]. 1919-cü ilin yayında Azərbaycan hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində respublikanın qanuni hakimiyyəti Qarabağda bərpa edildi. Qarabağın dağlıq hissəsində, Zəngəzurda və digər yerlərdə Azərbaycanın suveren hüquqlarının bərpa edilməsində Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov böyük xidmət göstərdi.

"Böyük Ermənistan" iddialarına daxil olan ərazilərdən biri də Naxçıvan bölgəsi idi. Naxçıvanda 1918-ci ilin noyabrında Araz Türk Respublikası yaranmışdı. Respublikanın ərazisinə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Şərur, Naxçıvan, Ordubad qəzaları daxil olmuşdu. Paytaxt əvvəlcə İğdır, sonra Naxçıvan şəhəri idi. Hökumətin Bakı uğrunda döyüşlər apardığı bir dövrdə bu respublika əhalinin daşnak hücumlarından qorunmasında faydalı işlər gördü. Əmir bəy Nərimanbəyovun rəhbərlik etdiyi bu respublika ermənilərin hücumları nəticəsində 1919-cu ilin yazında süquta uğradı [10]. Bu, faktiki olaraq, Birinci Azərbaycan-Ermənistan müharibəsi idi və 1918-ci ilin iyununda başlayaraq, 1920-ci il dekabrın əvvəlinə qədər davam etdi. Həmin vaxt XI Qırmızı ordunun İrəvana daxil olması, Ermənistanın "sovetləşdirilməsi", Rusiyanın işğalı ilə hərbi əməliyyatlar dayandırıldı. Rusiya eyni zamanda bu işğalla Ermənistanı tam məhv olmaqdan xlas etdi. Beləki, 1920-ci ilin azvqustunda Qərb dövlətləri Osmanlı Türkiyəsini Sevr müqaviləsini imzalamağa məcbur etmişdi. Bu müqavilə ilə Osmanlı dövləti qalib dövlətlər arasında bölünmüşdü, həmçinin Osmanlının 6 vilayəti Ermənistana verilmişdi. Atatürk Sevr müqaviləsini rədd etdi, müxtəlif istiqamətlərdə hərbi əməliyyatlara başladı,

o cümlədən Kazım Qarabəkir Paşanın qoşunları ermənilərə qarşı döyüşlərə başladı, az bir vaxt ərzində onların bütün qüvvələrini darmadağın etdi, noyabrın sonunda Aleksandropolu (Gümrü) azad etdi. Ermənistan hökumət nümayəndələri oraya gələrək dekabrın 2-də sülh müqaviləsi imzalamalı oldu. Türkiyə tərəfdən general Kazım Qarabəkir Paşanın, Ermənistan tərəfdən Aleksandr Xatisyanın imzaladığı Aleksandropol (Gümrü) müqaviləsinə görə, Ermənistan üçün İrəvan şəhəri və onun ətrafı daxil olmaqla 10 min kv. kilometrlik ərazi müəyyən edildi, Ermənistana 1,5 min nəfər hərbi qüvvə, bir neçə pulemyot saxlamağa icazə verildi. Rusiya buraya daxil oldu, bölgə sovetləşdi, Aleksandropol müqaviləsi parlamentdə ratifikasiyaya çıxarılmadı. Türkiyə Rusiya ilə müttəfiqlik münasibətlərinə uyğun olaraq oradan geri çəkildi, Aleksandropol (Gümrü) və digər əraziləri Ermənistana qaytardı. Həmin vaxt Ermənistanın xilası bu cür baş verdi.

Ən ağır mübarizə Paris Sülh Konfransı çərçivəsində gedirdi. Azərbaycan parlamenti Paris Sülh Konfransında iştirak etmək üçün Əlimərdan bəy Topçubaşov sədr, Məmmədhəsən Hacınski sədrin müavini, nümayəndə heyətinin üzvləri – Əkbər ağa Şeyxülislamov, Əhməd bəy Ağaoğlu və müşavirlər Məhəmməd Məhərrəmov, Mir Yaqub Mehdiyev və Ceyhun bəy Hacıbəyli olmaqla nümayəndə heyətini təsdiq etdi [2]. 1919-cü ilin yanvarında həmin nümayəndə heyəti İstanbula yola düşdü. Heyət İstanbula gəldikdən sonra 1919-cü ilin aprelinə qədər ləngidi, çünki müttəfiq qoşunlarının komandanlığı hər vasitə ilə onun Paris Sülh Konfransında iştirakına mane olurdu. Lakin heyət Parisə çata bildi və artıq 1919-cü il mayın 28-də

ABŞ prezidenti V.Vilsonla da görüşdü. Görüşün nəticələri çox da ümidverici deyildi. ABŞ prezidenti qeyd etmişdi ki, dünyanın kiçik ərazilərə parçalanmasını Sülh Konfransı istəmir və Azərbaycan məsələsinə Rusiya məsələsi həll olunduqdan sonra baxıla bilər. Lakin bolşevik təhlükəsinin güclənməsi ilə Qafqazda yaranmış vəziyyət Antanta ölkələrini ciddi şəkildə düşünməyə və real əməli addımlar atmağa məcbur etdi. Bu məqsədlə 1920-ci il yanvarın 10-da Böyük Britaniyanın təşəbbüsü ilə Paris Sülh Konfransı Ali Şurasının sessiyası çağırıldı. Burada İngiltərənin xarici işlər naziri lord Kerzonun təklifi ilə Qafqaz respublikalarına münasibətə dair müzakirə aparıldı. O, öz çıxışında baş nazir Lloyd Corcun Azərbaycan və Gürcüstanın müstəqil dövlət kimi tanınmaq məsələsini Ali Şuranın gündəliyinə çıxartmaq niyyətində olduğunu bildirdi. «Erməni məsələsi»nə gəldikdə isə onu «Türkiyə məsələsi» ilə bir yerdə həll etmək nəzərdə tutulurdu. Həmin gün Paris Sülh Konfransının Ali Şurası Azərbaycan və Gürcüstanın müstəqilliyinin de-fakto tanınmasına dair qərar qəbul etdi [22].

1920-ci il aprelin ortalarında Azərbaycan parlamenti Böyük Brtaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada AXC-nin diplomatik nümayəndəliklərinin açılması haqqında qanun qəbul etdi. Türkiyə, Gürcüstan kimi qonşu ölkələrlə diplomatik əlaqələr genişləndi. Bu dövrdə Bakıda 20-dən çox ölkənin diplomatik missiyaları fəaliyyət göstərməyə başladı [5, s. 162].

**İstifadə olunmuş ədəbiyyat:**

1. Abbasov İ.Q. Batum konfransı və Azərbaycan Xalq Cümhuriyyəti xarici siyasətinin bəzi məsələləri.- Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2014, № 3.

2. Ağayev R. 100 il əvvəl Azərbaycanın müstəqilliyi Parisdə tanınıb.- "525-ci qəzet", 2020, 31 yanvar, s.13.

3. Azərbaycan Cümhuriyyəti Hökumət qanun və binagüzarlıqları məcmuəsi, 1919, № 1, s.5-7. Prezident Kitabxanası. 28 may 1918-ci il.-archive.ph/20160114082647/ htpp://axc.preslib.az/az_b1.html.

4. Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti 1918-1920. Bakı, "Gənclik" nəşriyyatı, 1990.

5. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2 cilddə, I cild. Baş redaktor Yaqub Mahmudov. Bakı, "Lider nəşriyyat", 2004.

6. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (Stenoqrafik hesabatlar), I cild. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998.

7. Azərbaycan-İran münasibətləri, s.1.- Prezident Kitabxanası.- files.preslib.az/projects/azerian/a1.pdf.

8. Bakı İngilis general-qubernatorluğu.- Azərbaycan Milli Ensiklopediyası.- ensiklopediya.gov.az/az/terms/1824/cild/15.

9. Hacıyev İ. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. Naxçıvan, "Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi", 2010.

10. Hacıyev İ. Araz-Türk Respublikası.- "Təfəkkür" jurnalı, № 1(10), 2016, s.47, 51, 53, 57.- elibrary.az/docs/JURNAL / jrn2016_162.pdf.

11. İsgəndərov A. 1918-1920-ci illər türk-müsəlman soyqırımları.- "Azərbaycan" qəzeti, 2009, 31 mart. s. 2-4.

12. Qəniyev H. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil", 2019.

13. Mudros barışığı: 1918-ci il, 30 oktyabr.- tarix.konspekt.az/sulh/2765-mudros-bar1918-ci-il-30-oktyabr.html.

14. Süleymanov M. Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğu.- Strateji təhlil, 2018, № 1-2 (23-24), s. 333.- elibrary.az/docs/jurnal/jrn2018_464.pdf.

15. Şamiyev S. Azərbaycan Xalq Cümhuriyyətinin xarici dövlətlərlə əlaqələri.- academia.edu/41045522 /AXC_dövrü.

16. Yusif Vəzir Çəmənzəminlinin Osmanlı dövrü fəaliyyəti. Araşdırma.- modern.az/az/news/162392/yusif-vezir-ccedile-menzeminlinin-osmanli-doumlvrunml-fealiyyeti-arasdirma.

17. İsgenderli A. (foreword by Justin McCarthy). Realities of Azerbaijan 1917-1920. USA: Xlibris Corporation, 2011.

18. Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (Сборник документов). Баку, изд. «Азербайджан», 1998.

19. Алекберли Ф. История государственного языка в Азербайджане. ELM. History & Heritage Vebsite.- aamh.az/alakbarli/ index.files/188.htm.

20. Ахмедов С. Государственный флаг Азербайджанской Республики // журнал: İRS, 2010, № 2 (44).

21. Балаев А. Азербайджанское национально-демократическое движение 1917-1920 гг., s. 26-28.- anl.az/el/Download/2017/03/1-670755.pdf.

22. Запоздалое признание: об успехах АДР на Парижской Мирной Конференции (1919-1920).- azerhistory.com/?p=48672.

23. Ключников Ю.В., Сабанин А. Международная политика нового времени в договорах, нотах и декларациях. Часть II. Москва, «Литиздат», 1926.

24. Национальный совет Азербайджана подарил Ереван армянам…- regnum.ru/news/1457022.html; Протокол № 3 заседания Мусульманского Национального Совета 29 мая 1918 г. Тифлис. «Протоколы заседаний мусульманских фракций Закавказского Сейма и Азербайджанского Национального Совета 1918 г.». Баку, "Adiloğlu", 2006.

### *§ 3. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və tarixdə yeri.*

1920-ci ilin əvvəlində partiya və qruplaşmalar - «Müsavat», «Əhrar», «İttihad», sosialistlər, kommunistlər, bitərəflər arasında mübarizənin güclənməsi, ən əsası isə kommunistlərin pozuculuq fəaliyyəti respublikada siyasi durumu pozan və gərginliyi dərinləşdirən mühüm amillərdən idi. Rusiya Azərbaycan kommunistlərinin əli ilə işğal planına start verdi. Azərbaycan kommunist təşkilatlarının 1920-ci ilin fevralında Bakı şəhərində keçirilən I qurultayında Azərbaycan Kommunist (bolşeviklər) Partiyası yaradıldı. Bu vaxtdan etibarən kommunistlərin silahlı üsyana hazırlığı başlandı [12, s.347]. 1920-ci ilin martında Rusiya rəhbəri V.İ.Leninin Azərbaycan kommunistlərinə göndərdiyi teleqram sovet hökumətinin Azərbaycana münasibətindəki gizli niyyətlərdən xəbər verirdi: "Bizim üçün Bakını ələ keçirmək son dərəcə vacibdir. Bütün səyləri bu istiqamətə yönəldin" [3, s.8].

1920-ci ilin mart ayında erməni silahlı dəstələri Qarabağda qiyam qaldırdı, eyni vaxtda Ermənistan həmin istiqamətdə hərbi müdaxiləyə başlayaraq, Azərbaycana qarşı müharibəni davam etdirdi. Azərbaycan Ordusunun əsas hissəsi oraya göndərildi. Azərbaycanın şimal sərhədləri, həmçinin Bakı müdafiəsiz qaldı [2, s.5]. Azərbaycan hökumətində daxili mübarizənin davam etdiyi bütün dövr ərzində Sovet Rusiyası tərəfindən təzyiq hiss olunurdu. Xarici işlər naziri F.Xoyskinin Rusiya ilə Denikin və digər hərbi qüvvələrə qarşı hərbi ittifaqdan imtina etməsinə cavab olaraq Rusiyanın xarici işlər naziri G. Çiçerin notalar verir, Azərbaycanı hərbi münaqişələrinə cəlb etməyə çalışırdı. Azərbaycan Rusiyanın təkliflərini rədd edir, bitərəfliyini saxlayırdı [5, s.95].

Yeni hökumət yaratmaq səlahiyyəti almış M.H.Hacınski Azərbaycan kommunistləri ilə danışıqlara girərək onlara nazir vəzifələri təklif etdi. Lakin kommunistlər bu təklifə razı olmadılar [4]. Aprelin 27-də səhər tezdən kommunistlərin silahlı dəstələri həm şəhər daxilində, həm də onun kənarlarında ən mühüm obyektləri-dəmiryol vağzalını, poçtu, teleqrafı, radiostansiyanı, polis məntəqələrini, iri neft mədənlərini, sənaye müəssisələrini, hərbi və ticarət limanını və s. yerləri ələ keçirməyə başladılar. Aprelin 27-də saat 11-də başda Həmid Sultanov olmaqla kommunistlərin nümayəndə heyəti hakimiyyəti təslim etmək barədə ultimatumu parlamentə təqdim etdi. Cavab 2 saat ərzində verilməli idi, əks halda bolşeviklər atəş açmaqla hədələyirdilər [9, s. 54, 55].

Həmin ultimatumu müzakirə etmək üçün parlament iclasından əvvəl M.H.Hacınski, M.Ə.Rəsulzadə, S.Ağa-

malıoğlu və digərlərindən ibarət komissiya yaradıldı. Komissiya ultimatuma cavab olaraq öz şərtlərini hazırladı və bu şərtlər parlamentin müzakirəsinə verildi. Saat 20:45-də Azərbaycan parlamentinin sonuncu 145-ci iclası açıldı. Gündəlikdə bir məsələ - Azərbaycan İnqilab Komitəsinin hakimiyyəti təhvil vermək barəsində ultimatumu məsələsi dururdu. Müzakirə başlamazdan əvvəl çıxış edən hərbi nazir S.Mehmandarov silahlı müqavimətin mümkün olmadığını bildirdi.

Ultimatumun mətnini oxuyan M.H.Hacınski şərtləri qəbul etməyi təklif etdi və deputatları inandırmağa çalışdı ki, XI Ordu Bakıya girmədən Türkiyəyə köməyə getmək niyyətindədir [8, s. 520]. Qızğın müzakirələrin gedişində çıxış edən müxalif parlament fraksiyalarının nümayəndələri: Səməd Ağamalıoğlu («Hümmət»), Qara bəy Qarabəyov («İttihad»), Aslan bəy Səfikürdski (sosialist bloku), Aslan bəy Qardaşov («Əhrar») M.H.Hacınskinin hakimiyyəti təhvil vermək təklifini müdafiə etdilər [8, s.520].

«Müsavat» fraksiyası adından onun sədri M.Ə.Rəsulzadə çıxış edərək dedi: «Bizə kobud ultimatum verilmişdir. Bizim xilaskarımız hörmət etdiyimiz Türkiyədir. Biz öz müstəqilliyimizin tapdalanmaması şərtilə Türkiyəyə köməyə gedən qüvvələri müdafiə edirik. Lakin Cənablar, bizim razılığımızı soruşmadan sərhədlərimizi keçən qüvvələr bizə dost deyil, düşməndir! Bu ultimatumun qəbul edilməsi hakimiyyəti dost maskası geyinmiş düşmənə vermək deməkdir! Biz buraya millətin iradəsi və arzusu ilə gəlmişik və bizi buradan yalnız güc və süngü ilə çıxarmaq olar». Bununla belə, vətəndaş müharibəsi təhlükəsini nəzərə alan «Müsavat» fraksiyası Azərbaycanın müstəqil-

liyinin saxlanacağı şərtilə kommunistlərin ultimatumunu qəbul etmək haqqında çoxluğun fikrinə qoşulmağa məcbur oldu [7].

1920-ci il aprelin 27-dən 28-nə keçən gecə parlament əleyhinə-1, bitərəf-3, səsvermədə iştirak etməyən-3 nəfər olmaqla hakimiyyətin Müvəqqəti İnqilab Komitəsinə təhvil verilməsinə dair qərar qəbul etdi [6]. Komitənin tərkibi onun qiyabi seçilmiş sədri Nəriman Nərimanov, Əliheydər Qarayev, Qəzənfər Musabəyov , Həmid Sultanov və digərlərindən ibarət idi. Komitə radio vasitəsilə Rusiya hökumətinə «Qırmızı Ordu hissələrini göndərmək yolu ilə dərhal real kömək göstərmək» haqqında rəsmi xahişlə müraciət etdi [10, s. 29].

Aprelin 27-ə keçən gecə A.Mikoyan və Q.Musabəyovu gətirən «III Beynəlmləl» zirehli qatarı Samur körpüsündən keçmiş və yol boyu qəflətən yaxalanmış azsaylı və pərakəndə ordu hissələrinin müqavimətini qırmaqla Bakıya doğru hərəkət edirdi [1]. Aprelin 27-də axşam saat 21-də Biləcəri stansiyası Sovet zirehli qatarları tərəfindən tutuldu, səhər saat 4-də isə «III Beynəlmləl» zirehli qatar Bakı stansiyasına gəldi. Aprelin 30-da XI Ordunun əsas hissələri şəhərə daxil oldu. Həmin gün sovet qoşun hissələri Şamaxı və Ağsuya daxil oldular, mayın 1-də isə Azərbaycan hərbi hissələrinin müqavimətini aradan qaldıran sovet zirehli qatarları Gəncə stansiyasını ələ keçirdilər [11, s. 233].

Cümhuriyyətin yaradılması, onun 23 aylıq fəaliyyəti Azərbaycan xalqının tarixində  çox mühüm hadisə idi. O, qısa müddətdə öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan demokratik respublikaya çevrildi. AXC-nin yaranışı bütün Müsəlman, Türk dünyası üçün çox əlamət-

dar hadisə idi. Azərbaycan Cümhuriyyəti Qərb ölkələri tərəfindən rəsmi şəkildə tanınan ilk türk və müsəlman respublikası idi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycanın aprel işğalı, 27.04.2018.- modern.az/az/news/163533/ azerbaycanin-aprel-isgali.

2. Əhmədova F. Ermənilərin "Qarabağ qiyamı" Azərbaycan Cümhuriyyətini devirmək planının tərkib hissəsi idi.- "Xalq qəzeti", 2010, 2 iyun, s.5.

3. Əhmədova F. Xalq Cümhuriyyətinin süqutu və pərdəarxası oyunlar.- "Olaylar" qəzeti, 2018, 2 may, s.8.

4. Xarici işlər nazirləri. Məmmədhəsən Hacınski, s. 2-3.- files.preslib.az/projects/ azdiplomacy/a2_5.pdf.

5. Məhərrəmov N. Daşnaksütyun və Azərbaycanın taleyi. Bakı, 1995.

6. Siracoğlu R. Xalq Cmhuriyyəti parlamentinin sonuncu iclası...- avropa.info/post /372025.

7. Yaqublu N. Rəsulzadənin Parlamentdəki son çıxışı...- bakupost.az/resulzadenin-parlamentdeki-son-cixisi-niye-yoxa-cixmisdi.

8. Азербайджанская Демократическая Республика (1918-1920). Парламент (Стенографические отчеты). Баку, изд. «Азербайджан», 1998.

9. Балаев А. Азербайджанское национально-демократическое движение 1917-1920 гг., s. 26-28.- anl.az/el/Download/2017/03/1-670755.pdf.

10. Интернациональная помощь XI Армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы 1920-1921 гг. Баку, Азербайджанское государственное изд-во. 1989.

11. История Азербайджана, т.3, ч.1. Баку, изд. АН Азерб. ССР, 1963.

12. История Коммунистической партии Азербайджана, ч.1. Баку, госизд-во, 1958.

## § 4. Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı. Şeyx Məhəmməd Xiyabani.

Birinci dünya müharibəsi dövründə Cənubi Azərbaycanda əhalinin vəziyyəti daha da pisləşdi. Müharibə dövründə Qacarların özünü bitərəf elan etməsinə baxmayaraq ölkənin ərazisi hərbi əməliyyatlar meydanına çevrildi, dağıntılar, aclıq və yoluxucu xəstəliklər geniş yayıldı. İngiltərə və Rusiya arasında imzalanmış 1907-ci il [7] və Rusiya-Fransa-İngiltərə arasında 1915-ci il [8] müqavilələrinə görə Qacarların ərazisi onların arasında təsir dairələrinə bölündü, ölkənin şimalı Rusiyanın, cənubu isə İngiltərənin nəzarətində idi. Onlar həmin ərazilərə öz qoşunlarını yerləşdirdilər.

Fevral inqilabının, sonra isə Oktyabr dövlət çevrilişinin baş verməsi çarizmin Qacar dövlətində yeritdiyi siyasətə son qoydu. Yeni yaranan Sovet hökuməti siyasi manevr edərək vaxtı ilə çar hökümətinin müxtəlif asılı ölkələrlə bağladığı qeyri-bərabər müqavilələr, həmin ölkələrdə əldə etdiyi imtiyaz və üstünlüklərdən və s. imtina etdiyini bildirdi. Belə asılı ölkələrdən biri də Qacarlar idi. Sovet hökuməti ilk növbədə oranı təsir dairələrinə bölmək haqqında çar Rusiyasının İngiltərə ilə bağladığı 1907- və 1915-ci il məxvi sazişlərini ləğv etdi və birinci Dünya müharibəsi ilə əlaqədar orada olan rus qoşunlarının çıxarılmasını təmin

etdi. 1918-ci ilin əvvəlindən etibarən rus qoşunları çıxarılmağa başladı. Bu dövrdə Qacar dövlətində Milli azadlıq hərəkatı yüksəlişə doğru gedirdi. Hərəkatın əsas mərkəzləri Cənubi Azərbaycan, Gilan və Xorasan idi [6].

Cənubi Azərbaycanda hələ fevral inqilabından sonra başlamış inqilabi canlanma getdikcə daha qabarıq şəkil aldı. 1917-ci ilin noyabr və dekabr aylarında Təbriz, Ərdəbil, Xoy, Urmiya, Sərab, Zəncan və b. şəhərlərdə keçirilən izdihamlı mitinqlərdə əhali ingilis imperialistlərinin əlində oyuncağa çevrilmiş hökumətin istefa verməsini, demokratik hakimiyyətin təşkil olunmasını tələb edirdi. Təbriz və digər şəhərlərdə çıxışların təşkilatçısı Azərbaycan Demokrat Firqəsi (Partiyası) idi. Sovet Rusiyası öz qoşunlarını Cənubi Azərbaycandan çıxarsa da, İngiltərə digər ərazilərdən qonşu dövlətlərə qarşı müdaxilə meydanı kimi istifadə etməkdə israrlı idi. 1918-ci ilin baharınadək ingilislər Zəncan və Miyanəni işğal etməyə nail oldular. İngilislər Türkiyə «təhlükəsini» bəhanə edərək Cənubi Azərbaycanın digər şəhərlərini, məsələn, Xoy və Urmiya şəhərlərini də ələ keçirərək, orada ingilis zabitlərinin komandanlığı altında polis və qoşun dəstələri yerləşdirdilər [3, s.14]. Digər tərəfdən, keçmiş çar və fransız zabitlərinin, Amerika missionerlərinin və başqalarının dəstəyi ilə işğalçılarla birlikdə gəlmiş erməni silahlı dəstələr azərbaycanlılara qarşı qırğınlar törətdi. Xoy, Səlmas, Urmiya və digər yerlərdə 130 mindən çox azərbaycanlı qətlə yetirildi. 1918-ci ilin martında türk qoşunlarının Cənubi Azərbaycana daxil olması qırğınların qarşısını aldı [2]. Lakin Türkiyə birinci Dünya müharibəsində məğlub olan tərəf kimi öz ordusunu Cənubi Azərbaycandan çıxardıqdan sonra in-

gilis imperialistləri həmin əraziləri əllərinə keçirdilər [4, s.109].

1919-cu ildə və 1920-ci ilin əvvəllərində yaranmış mürəkkəb siyasi şəraitdə ADP-nin rəhbərliyi dinc yolla mübarizə taktikasının lazımi nəticə vermədiyini bir daha yəqin etdi. Partiyanın proqramında nəzərdə tutulan taktika dəyişdirildi və dinc çıxışlarla yanaşı, silahlı üsyana hazırlıq görmək qərarı 1920-ci ilin əvvəlində daha ciddi şəkildə həyata keçirildi. 1920-ci il aprelin ilk günlərində ADP-nin üzvlərindən bir neçəsinin həbs edilməsi üsyanın başlanması üçün təkan oldu. Aprelin 6-da ayağa qalxmış demokratlar silahlanarak «Təcəddüd» ("Yeniləşmə") qəzeti redaksiyasının binasında toplandılar. Aprelin 7-də ADP rəhbərliyi silahlı üsyan planı hazırladı. Üsyanın elə ilk günü Təbriz bazarı bağlandı, bütün tacirlər, sənətkarlar və əhalinin digər nümayəndələri demokratların haqlı tələbləri ilə həmrəy olduqlarını bildirdilər. Üsyana rəhbərlik etmək üçün İctimai idarə heyəti (İİH) təşkil olundu. Bu heyətə Şeyx Məhəmməd Xiyabani başçılıq edirdi. Üsyançılar iki gün müddətində demək olar ki, bütün dövlət idarələrini ələ keçirdilər. Silahlı üsyan qan tökülmədən qələbə çaldı [9, s.75]. Bütün şəhər üsyançıların əlinə keçdikdən sonra İİH əhaliyə bəyanatla müraciət etdi. Bəyanatda bütün Azərbaycan əyalətində ümumi asayişi yaratmaq, hökumət nümayəndələrinin konstitusiyaya zidd olan siyasətinə son qoymaq və konstitusiyanı sözdən işə keçirmək kimi məqsədlər göstərilirdi. Bəyannamədə əks olunmasa da, üsyanın əsas hədəflərindən biri ölkədə ağalıq edən ingilis imperialistləri, onların ölkədəki qəsbkarlıq siyasəti idi. Azərbaycan vilayətinin adı dəyişdirilərək «Azadistan» - Azadlıq ölkəsi adlandırıldı [11, s. 113-115].

Mərkəzi hökumət Təbrizdə hakimiyyəti təmsil edən dövlət məmurlarına hərəkatı yatırmaq haqqında göstəriş verdi. Hökumət üsyançılara qarşı ilk zərbəni şahzadə Eynüddövlə vasitəsilə həyata keçirməyi planlaşdırırdı. Təbrizin valisi Eynüddövlə üsyanı yatırmaq haqqında mərkəzin göstərişini həyata keçirmək üçün dərhal bir sıra tədbirlər görməyə başladı [9, s.81-82]. O, ADP-dən uzaqlaşmış «Tənqidçilər» qrupunun demokratlara qarşı qiyamını təşkil etməyə cəhd etdi. Lakin bu təxribat baş tutmadı. Təbrizdə başlanmış üsyan tədricən Cənubi Azərbaycanın başqa mahal və şəhərlərini də əhatə edirdi. Bu üsyanların çoxuna bir qayda olaraq ADP-nin yerli təşkilatları başçılıq edirdi. Ümumiyyətlə, əhalinin əksər hissəsi inqilaba tərəfdar çıxdıqlarını bildirdi. 1920-ci il iyunun 23-də ADP müvəqqəti hakimiyyət orqanı kimi fəaliyyət göstərən İİH əsasında milli hökumət yaratmağı qərara aldı [5, s.331]. Xiyabaninin sədrliyi ilə yaranmış Milli hökumət (MH) «Təcəddüd» qəzeti redaksiyası binasından mərkəzi dövlət idarələrinin yerləşdiyi və vəliəhdin iqamətgahı olan binaya - Ala Qapıya köçürüldü. Milli müdafiə qüvvələrinin təşkilinə - milli qvardiya yaradılmasına başlanıldı. Hələlik silahsız olan bu qüvvələr 1,5 -2 ay müddətində müntəzəm olaraq hər gün hərbi məşq keçirdilər [5, s.331].

Cənubi Azərbaycanda inqilabın qələbə çalmasını ingilis imperialistləri və İran hökuməti heç bir halda qəbul etmək istəmirdi. İngilislərlə birlikdə hökümətin diplomatik danışıqlarla, təzyiq yolu ilə inqilabı boğmaq cəhdi baş tutmadıqda daxili əksinqilabi qüvvələrdən istifadə edildi. Şah Sultan Əhməd üsyançılara qarşı İran Demokrat Partiyasından (İDP) istifadə etmək qərarına gəldi. O, 1909-

1911-ci illərdə Cənubi Azərbaycanda vali olmuş, İDP-nin rəhbərlərindən sayılan Müxbirüssəltənəni avqustda Azərbaycana vali təyin etdi [9, s.81-82].

Sentyabrın ilk günlərində Müxbirüssəltənə Təbrizə daxil oldu. MH onu Təbrizə buraxmamaq, Təbriz və ətrafındakı əksinqilabi qüvvələrlə birləşməsinə imkan verməmək, müqavimət göstərmək əvəzinə yalnız Ala Qapıya buraxmamaq və qarşılamamaqla kifayətləndi. Müxbirüssəltənə Təbrizdə çar Rusiyası dövründən qalan kazak qarnizonunun komandiri, polkovnik Vsevolod Staroselskini öz tərəfinə çəkərək birlikdə hücum planını hazırladı. Müxbirüssəltənə jandarm dəsiəsinin rəhbəri Mir Hüseyn Haşiminin satın alınmasına nail oldu və mayor Haşimi quldur dəstələri ilə mübarizə adı altında silahlı qüvvələri MH-in razılığı olmadan şəhərdən çıxardı. Üsyançılar hər dəqiqə gözlənilən hücum qarşısında demək olar ki, silahsız qaldılar. Əksinqilabi qüvvələr sentyabrın 12-də üsyançılar üzərinə hücuma keçdilər. ADP-nin silahlı qüvvələrinin ciddi müqavimətinə baxmayaraq əksinqilabi qüvvələr sentyabrın 12-də Ala Qapını ələ keçirdilər, sentyabrın 14-də isə «Təcəddüd» qəzeti binasını dağıtdılar. Qəhrəmancasına müqavimət göstərən üsyançıların bir çoxu həlak oldu [10, s.113-114]. Xiyabani sentyabrın 14-də kazaklar tərəfindən öldürüldü [12, s.240]. Hökumət üsyançılara amansız divan tutdu. Təbrizdə yüzlərlə üsyançının evi yandırıldı, çoxları həbs olunaraq edam və ya sürgün edildi [1]. Beləliklə, beş aydan artıq davam edən Təbriz üsyanı və bunun ardınca bütün Cənubi Azərbaycandakı hərəkat ingilis imperialistlərinin bilavasitə köməyilə hakimiyyət tərəfindən yatırıldı.

Ş.M.Xiyabaninin rəhbərliyi ilə həyata keçirilən milli-azadlıq hərəkatı qarşısına ölkənin demokratikləşdirilməsi, insanların hüquq və azadlıqlarının təmin olunması, xarici qüvvələrin, ilk növbədə ingilislərin ağalığının aradan qaldırılması kimi məqsəd və vəzifələr qoymuşdu. Ş.M.Xiyabani İran deyilən dövlətin əsrlərlə mövcud olmuş öz dövləti, Azərbaycan dövləti olduğunu qəbul edir, bu dövlətin inkişafı naminə çalışaraq bildirirdi: "Bizim üsyanın məqsədi İranın yüksəlişinə nail olmaqdır, Azərbaycan isə onun ayrılmaz hissəsidir... Təbriz İrana azadlıq gətirəcəkdir" [12, s.247; 11, s.115]. O, Sovet Azərbaycanı, xüsusilə N. Nərimanovla əlaqə saxlayır, lakin onların təsiri altına düşməməyə çalışır, müstəqil xətt yeridirdi. O, hətta Türkiyə hakimiyyəti ilə də məsafə saxlayır, proseslərə müdaxilə etməsinə imkan vermirdi. Maraqlıdır ki, o, Ankara və Bakının təsirlərindən kənar olmağa çalışır, özünü daha çox Xürrəmilər və Babəklə müqayisə edirdi.

Bir sıra məhdudiyyətlərinə və nöqsanlarına, məğlub edilməsinə baxmayaraq, Təbriz üsyanı Cənubi Azərbaycanda parlaq bir dövrü təşkil etdi. Üsyan məğlub olsa da, bu hərəkatın Cənubda yaşayan soydaşlarımızın ölkədə hökm sürən imperialist ağalığına, irtica özbaşınalığına qarşı və öz milli kimliyi uğrunda mübarizə tarixində yeri son dərəcə böyükdür. Üsyanın rəhbəri Şeyx Məhəmməd Xiyabaninin şəxsiyyəti Cənubi Azərbaycanda milli şüurun, millətin inkişaf prosesində xüsusi bir səhifə, ayrıca bir mərhələ təşkil etdi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Cənubi Azərbaycanda milli azadlıq hərəkatı.- a-r.az/az/page/46/.

2. Ermənilər Güney Azərbaycanda da soyqırım törədiblər.- azerbaycan-ruznamesi.org/2023/03/31/ermeniler-guney-azerbaycanda-da-soyqirim-toredib/.

3. Əhməd V. Güney Azərbaycanda ilk demokratik milli hökumət.- "Xalq Cəbhəsi" qəzeti, 2010, 30 aprel, s.14.

4. Məmmədov İ., Məmmədov Ç. Azərbaycan tarixi. Bakı, "Adiloğlu", 2010.

5. Nuriyeva İ. Azərbaycan tarixi: ən qədim dövrlərdən zəmanəmizədək. Texniki Ali məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil", 2019.

6. Ömərov V. XIX əsrin sonu-XX əsrin əvvəllərində Cənubi Azərbaycanda siyasi vəziyyət. 02.11.2012-ci il.- sesqazeti.az/news/mia/319444.html.

7. Англо-русское соглашение 1907 г.- web.archive.org/web/20140430073547/ http://enc-dic.com/diplomat/Anglo-Russkoe-Soglashenie-1907-1181.html/.

8. Англо-франко-русское секретное соглашение 1915- года.- doc20vek.ru/kode /3556.

9. Иванова М.Н. Национально-освободительное движение в Иране. Москва, «Наука», 1961.

10. Тагиева Ш.А. Национально-освободительное движение в Иранском Азербайджане в 1917-1920 гг. Баку, изд. АН Азерб. ССР, 1956.

11. Тагиева Ш.А. Шейх Мохаммад Хиябани и национально-освободительное движение в Иранском Азербайджане в 1917-1920 гг.- Иран, история и современность: сборник статей. Москва, «Наука», 1983.

12. Шабани Р. Краткая история Ирана. Санкт-Петербург, «Петербургское востоковедение», 2008.

# XII fəsil. Azərbaycan və Sovet imperiyası

### *§ 1. Azərbaycanda işğalçı sovet rejiminin bərqərar olması.*

Şimali Azərbaycan sovet qoşunları tərəfindən işğal edildikdən dərhal sonra ali icraedici və qanunverici orqan – Müvəqqəti inqilab komitəsi yaradıldı (sədr – N.Nərimanov). Aprelin 28 – də bu orqan tərəfindən Azərbaycan Sovet Sosialist Respublikasının yaradıldığı elan olundu [13]. 1920-ci il may ayının ortaları üçün Naxçıvan istisna olmaqla Azərbaycanın bütün qəzalarında hakimiyyət sovetlərin əlinə keçdi. Naxçıvanda sovet hakimiyyəti 1920-ci ilin iyulunda quruldu [7, s.87]. 1920-ci il sentyabrın 30-da Moskvada Azərbaycanla Rusiya arasında "Hərbi-iqtisadi ittifaq haqqında" müqavilə imzalandı [31, s.222-223]. Bu müqavilə, faktiki olaraq, Azərbaycanın müstəqilliyinin ləğv olunması demək idi.

1921-ci ilin mayında Azərbaycan SSR-in birinci Sovetlər qurultayı toplandı. Qurultay mayın 19-da Azərbaycan SSR-in birinci Konstitusiyasını qəbul etdi. Qurultay Azərbaycan İnqilab Komitəsini ləğv etdi, ali qanunverici orqan olan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsini (MİK) seçdi, Ali icra hakimiyyəti orqanı olan Azərbaycan SSR Xalq Komissarları Sovetini (XKS) təşkil etdi. XKS sədri vəzifəsinə Nəriman Nərimanov, MİK-in sədri vəzifəsinə isə Muxtar Hacıyev seçildilər [1].

Yaradılmış yeni rejim AXC parlamentinin 1920-ci il aprelin 27-də irəli sürdüyü şərtlərə məhəl qoymayaraq, istefa vermiş siyasi və dövlət xadimlərinə divan tutmağa başladı. 1920-1921-ci illərdə AXC rəhbərlərindən F.X. Xoyski-

ni, N.B.Yusifbəylini və başqalarını qətlə yetirdilər. Hərbçilərdən 12 general, 27 polkovnik və polkovnik-leytenant, ümumilikdə 346 zabit öldürüldü. Ümumən, 50 min adam qırmızı terrorun qurbanı oldu [17]. M.Ə.Rəsulzadə Lahıcda həbs olundu. Sonradan o, İ.Stalin tərəfindən həbsdən azad olunaraq, Moskvaya aparıldı. 1922-ci ildə o, xaricə mühacirət etdi [50, s.27]. Siyasi partiyaların, o cümlədən "Müsavat", "İttihad" (birləşmə), "Əhrar" (azadlıq sevən) fəaliyyəti qadağan olundu [49].

Hələ 1920-ci il aprelin 27-də Cəfər Cabbarlının Dağlı məhəlləsindəki evində M.Ə. Rəsulzadənin sədrliyi ilə keçirilən yığıncaqda sovet irticasına qarşı mübarizə aparmaq üçün Müqavimət Komitəsi təşkil olunmuşdu. Komitənin sədri M.Ə.Rəsulzadənin yaxın silahdaşı Mirzə Bala Məmmədzadə, müavini isə C.Cabbarlı seçilmişdi. Müxalifətə keçən "Musavat" və digər partiyalar istiqlal uğrunda gizli fəaliyyət göstərirdilər. "Musavat"ın təşəbbüsü ilə qeyri-leqal olaraq "İstiqlal" qəzeti nəşr olunurdu [18, s.110, 120].

Sovet rejiminə qarşı ilk silahlı çıxış 1920-ci il mayın 23-də Cavanşir qəzasının mərkəzi Tərtərdə oldu [30, s.270-271]. Bolşevik hakimiyyətinə qarşı ən güclü üsyan 1920-ci il 26-31 may arasında Gəncədə baş verdi [47, s.492-493]. Üsyanın əsas qüvvələrini Milli ordunun bölmələri təşkil edirdi. Üsyanın başlanmasına təkan Gəncədə yerləşən Azərbaycan hərbi hissələrinin komanda heyətinin XI Qırmızı Ordu qərargahından göndərilmiş zabitlərlə əvəz edilməsi və şəhərin komendantı general Məhəmməd Mirzə Qacarın vəzifəsindən götürülməsi oldu. Üsyana hazırlıqdan xəbər tutan yeni komendantın əmri ilə mayın 25-dən 26-na keçən gecə Azərbaycan Ordusunun əsgərləri post-

lardan götürülmüş, diviziyanın kazarmaları mühasirəyə alınmışdı. Lakin polkovnik Cahangir bəy Kazımbəyovun komandiri olduğu atıcı alay üsyana qalxaraq mühasirəni ləğv etdi. Azərbaycan döyüşçüləri şəhərin mərkəzi hissəsində yerləşən Qırmızı Ordu dəstələrini tərksilah edərək, 600 nəfərlik şəxsi heyətini həbs etdi [16, s.86-87].

Üsyana hərbçilərlə yanaşı çoxlu sayda dinc əhali, qaçaq dəstələri [3, s.54], həmçinin almanlar [30, s.272], gürcülər, ağqvardiyaçılar [3, s.51] və digərləri qoşulmuşdu. Üsyanda ən azından 12 min nəfər iştirak edirdi [47, s.492-493]. Üsyana rəhbərlik etmək üçün mayın 26-da general Cavad bəy Şıxlinski (Əliağa Şıxlinskinin qardaşı oğlu), general Məhəmməd Mirzə Qacar, polkovnik Cahangir bəy Kazımbəyov və digərlərindən ibarət Hərbi Şura yaradıldı. Üsyanın ilk günlərində üsyançılar şəhərin əsas hissəsini nəzarətə götürdülər. Onlar mərdliklə şəhəri müdafiə edir, düşmənin hücumlarını rəşadətlə dəf edirdilər. Lakin döyüşə yeni qüvvələr gətirən XI Qırmızı Ordu hissələri mayın 31-də şəhərə girdilər [16, s.97; 36, s.298]. Fürsətdən istifadə edən ermənilər də dinc azərbaycanlıları qırmağa başladılar. Onlar xeyli dinc əhalini Ozan məscidinə yığaraq, diri-diri yandırdılar [15]. Qırmızı ordunun əsgərləri üç gün ərzində şəhəri qarət etdilər. Bu hadisələrdə Azərbaycan milli ordu əsgərlərindən və dinc əhalidən 15 min adam qətlə yetirildi. Qırmızı ordu da 8000 nəfər itki verdi [26, s.259].

Sovet rejiminə qarşı güclü üsyanlardan biri yenə də Qarabağda oldu. Üsyan Qırmızı Ordunun bu bölgədə yerləşən milli ordu hissələrini tərksilah etmək cəhdlərinə qarşı 1920-ci il iyunun 5-də Tərtər, Ağdam və Şuşada baş

vermiş etiraz çıxışları ilə başlandı. O, tezliklə bütün Qarabağı bürüdü. Üsyana bir qrup türk zabit və əsgəri ilə Dağıstandan kömək üçün gəlmiş Nuru Paşa rəhbərlik edirdi. Üsyanın əsas qüvvəsini Azərbaycan Milli Ordusunun hissələri təşkil edirdi. Onların tərkibində 6 minə qədər zabit və əsgər var idi. Üsyançılar Tərtərdə bir rus alayını darmadağın etdi, Ağdamda Qırmızı Ordu hissələrini böyük tələfata uğratdılar. Şuşa üsyançıları Dağlıq Qarabağı ələ keçirmək üçün rus ordu hissələri ilə birgə hərəkət edən daşnaklara qarşı mübarizə aparırdılar. Üsyançılar Qarabağda sovet hakimiyyətini devirərək, Nuru Paşanı bölgənin hakimi elan etdilər [5].

Üsyançılarla Qırmızı Ordu hissələri arasında ən gərgin döyüşlərdən biri Bərdədən Yevlaxa gedən yolda oldu. Bu döyüşdə Bərdədən Yevlax istiqamətində hərəkət edən Nuxa süvari alayı böyük rəşadət göstərdi. Mühasirədən çıxan bir qrup döyüşçü-4 zabit və 28 əsgər Bərdə ətrafında rus hərbi hissələrinə qarşı 1 ay mətanətlə vuruşdu. Tarixi qaynaqlarda bu hadisə “32-lər əfsanəsi” kimi xatırlanır [6]. Sovet rejiminə qarşı 1920-ci ilin yayında Zaqatalada, Şəmkirdə, Dəvəçi (Şabran) və Qusar dairələrində, Zəngəzurun Xanlıq dairəsində çıxışlar oldu [14, s.375-376].

XI Ordu tərəfindən işğal olunduqdan sonra yaradılmış Azərbaycan hökumətinin tərkibi əsasən azərbaycanlılardan ibarət idi. Lakin bu hökumətin hakimiyyəti formal xarakter daşıyırdı. Real hakimiyyət Rusiya kommunist bolşeviklər partiyasının bir hissəsi olan Azərbaycan kommunist bolşeviklər partiyası Mərkəzi komitəsinin katibi və Fövqəladə komissiya sədrinin ixtiyarında idi. Bu vəzifələrə isə yalnız Moskvanın nümayəndələri təyin

olunurdu. İmperiyanın Azərbaycanda baş canişini postunu- AK(b)PMK – nın birinci katibi vəzifəsini müxtəlif illərdə Q.Kaminski (1920-1921) [37], S.Kirov (1921-1926) [39], L.Mirzoyan (1926 - 1929) [42], N.Qikalo (1929-1930) [29], V.Polonski (1930-1933) [45], onlardan sonra isə M.C.Bağırov (1933-1953) [27] tutmuşdur.

Azərbaycanda inzibati - ərazi dəyişiklikləri dərhal həyata keçirilmədi. 1929-cu ilədək quberniya – qəza sistemi saxlanıldı. 1929-cu ildə quberniya və qəzalar ləğv edilərək, əvəzində dairə və rayonlar yaradıldı. 30-cu illərin əvvəlində dairələr də ləğv edildi, birbaşa Bakıya tabe edilməklə rayonlardan ibarət inzibati bölgü sistemi təşkil edildi [23]. Bütün Zaqafqaziya (Cənubi Qafqaz) işğal edildikdən sonra Sovet imperiyası rus çarizminin ənənələrinə sadiq qalaraq, burada regional idarəetmə sistemi yaratdı. 1922-ci ilin martında Sovet imperiyasının yerli çinovnikləri – Azərbaycan, Gürcüstan və Ermənistan SSR Mərkəzi İcraiyyə komitələrinin nümayəndələri Tiflisdə konfransa toplaşdılar və "Zaqafqaziya sovet federativ sosialist respublikası"-nın (ZSFSR) yaradıldığını elan etdilər. 1922-ci il dekabrın əvvəlində Bakıda keçirilmiş birinci Zaqafqaziya sovetlər qurultayı Mərkəzi İcraiyyə komitəsini seçdi və Konstitusiyasını qəbul etdi. Heç bir hakimiyyətə malik olmayan bu orqana Moskva N.Nərimanovu sədr təyin etdi [19].

1922-ci il dekabrın 30-da SSRİ-nin – Sovet imperiyasının yaradılmasının formal tərəfi də həll edildi [21]. SSRİ-nin Birinci Sovetlər qurultayında Ukrayna, Belorusiya və ZSFSR qəti şəkildə imperiyanın tərkibinə daxil edildilər. Azərbaycan SSR imperiyanın əyalətlərindən birinə çevrildi. Sovet imperiyası sözdə özünü müstəqil respublikaların

könüllü birliyi kimi təqdim edir, konfederativ dövlət görüntüsü yaradırdı. Ona görə də bu illəri yalnız şərti olaraq İkinci Respublika dövrü kimi qəbul etmək olar. Əslində, ittifaq, müstəqillik formal xarakter daşıyırdı. SSRİ adı altında Rusiya imperiyası davam etdirilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə mübahisəli zonalar sayılan 16,6 min kv kilometrlik elliklə azərbaycanlılar yaşayan ərazilərinin yarısı – Borçalı, Qarayazı və Sığnax mahalları Gürcüstana [4], digər yarısı isə - Üçkilsə, Dərələyəz, Göyçə mahalları Ermənistana verildi [9]. Bütün bunlar az imiş kimi "rus siyasəti Nəriman bəyin səxavətkar ağzilə iki gün əvvəl müdafiə eylədiyi Zəngəzur ilə Naxçıvan qəzasını təntənəli bir surətdə Ermənistana hədiyyə etdi." [20]. Zəngəzuru xilas etmək mümkün olmadı. 7 min kv kilometrlik Zəngəzur mahalının 4.5 min kv kilometri Qarakilsə (Sisian), Gorus, Qafan Ermənistana verildi, yalnız 2.5 min kv kilometri-Laçın, Qubadlı, Zəngilan Azərbaycanın tərkibində qaldı [10].

Naxçıvan məsələsi isə yalniz Türkiyənin işə qarışması nəticəsində müsbət həll olundu. Ankaranın təklifi və tələbi qarşısında Moskva danışıqlara getməyə məcbur oldu. Danışıqlar nəticəsində iki mühüm müqavilə imzalandı. 1921- ci il martın 16-da Moskva şəhərində Türkiyə ilə RSFSR arasında bağlanan müqavilə və 1921-ci il oktyabrın 13-də Qars şəhərində RSFSR-nin iştirakı ilə Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasinda bağlanmış dostluq müqaviləsi əsasında Naxçıvanın müqəddəratı müəyyən edildi. Türkiyə - Rusiya müqaviləsinin 3 – cü bəndində göstərildi ki, danışıq aparan hər iki tərəf razıdır: Naxçıvan vilayəti bu müqavilənin birinci əlavəsində

göstərilən sərhədlər daxilində Azərbaycanın tərkibində (himayəsində) muxtar əraziyə malikdir, bu şərtlə ki Azərbaycan onun protektoratını üçüncü dövlətə verməsin [31, s.598-599]. Eyni bənd Qars müqaviləsində də yer aldı [38]. 1924-cü ilin fevralında Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradıldı [43]. Bir neçə il sonra isə onun ərazi bütövlüyünə qəsd edildi. Zaqafqaziya MİK – nin Rəyasət heyəti 1929-cu il 18 fevral tarixli qərarı ilə 1921-ci il Qars müqaviləsində əsas tərəflərdən biri olan Türkiyə Respublikasının razılığı və iştirakı olmadan Naxçıvan muxtar respublikasının 657 kv kilometr sahəsi olan Qoçevan, Qurdqulaq, Horadiz, Oğbin, Ağxaç, Almalı, Dağ Almalı, İtqıran, Sultanbəy kəndləri və Kilit kəndinin bir hissəsini Ermənistana verdi [12]. Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi Rəyasət heyətinin həmin 18 fevral 1929-cu il tarixli qərarı ilə Zəngilanın Nüvədi, Erkəzir, Tuğut, Mehri və digər kəndləri Ermənistana verildi və 1930-cu ildə həmin ərazidə Mehri rayonu yaradıldı [8]. Bununla Naxçıvan Azərbaycanın digər ərazilərindən ayrı salındı. Azərbaycan SSR Ali Soveti 5 may 1938-ci ildə Laçın, Qubadlı, Kəlbəcər və Qazax bölgələrindən 2 min hektar torpaq sahəsinin Ermənistana verilməsinə dair qərar qəbul etdi.

Sovet imperiyası bölgədə ermənilərin mövqeyini gücləndirmək üçün Qarabağın dağlıq hissəsini də onlara verməyə cəhd etdi. Rusiyanın xarici işlər komissarı (naziri) Q.Çiçerin 1920-cu ilin iyununda Leninə məktubunda yazırdı: "Qarabağ qədim erməni torpağıdır" [32]. İnqilab eyforiyasından tədricən uzaqlaşan N.Nərimanov bu məsələdə qəti mövqe tutdu. 1921-ci il iyulun 4-də RK(b) P Qafqaz bürosunun iclasında Qarabağ məsələsinə baxıl-

dı. İclasda Stalin, Qafbüronun üzvlərindən Orconikidze, Maxaradze, Nərimanov, Myasnikyan, Kirov, Nazaretyan və Fiqatner iştirak edirdilər. N.Nərimanovun Qarabağın dağlıq hissəsinin Azərbaycanın tərkibində saxlanılması və bu məsələyə dair bütün Qarabağda sorğu keçirilməsi haqqında təklifləri Kirov – Myasnikyan qrupunun ciddi müqaviməti ilə rastlaşaraq keçmədi. İclas bu ərazinin Ermənistana verilməsi haqqında 3 səsə qarşı (Nərimanov, Maxaradze, Nazaretyan) 4 səslə (Kirov, Orconikidze, Myasnikyan, Fiqatner) qərar qəbul etdi. Nərimanovun ciddi müqavimətindən və bəyanatından sonra iclas məsələnin tam həll olunmasını təxirə saldı. Ertəsi gün məsələyə yenidən baxıldı. Kirov – Myasnikyan qrupu ehtiyat variantı işə saldı. Onların təklifi ilə Dağlıq Qarabağın muxtar vilayətə çevrilməsi və Azərbaycan SSR – in tərkibində qalması haqqında yenə də 3 səsə qarşı həmin 4 səslə qərar qəbul edildi. Azərbaycan MİK-in 1923 – cü il 7 iyul dekreti ilə Dağlıq Qarabağ vilayəti yaradıldı.

Sovet rəhbərliyi ilk illərdə "hərbi kommunizm" deyilən siyasət həyata keçirir, istehsalı, məhsul bölgüsünü kommunizm prinsipləri əsasında təşkil etməyə çalışırdı [41, s.256]. Tezliklə bu yanaşmanın əhəmiyyətsizliyi aydın oldu. Ona görə də 1921-ci ildə Yeni iqtisadi siyasətin tətbiqinə başlanıldı. Yeni iqtisadi siyasət hakim mövqelərin dövlətin əlində qalması şərti ilə ticarət azadlığına yol verilməsini, icarə sisteminin, bank və kredit şəbəkəsinin, müştərək müəssisələrin yaradılmasını, kooperasiyanın inkişafını nəzərdə tuturdu [44].

Yeni iqtisadi siyasətin nəticəsi olaraq Azərbaycanda da müəyyən iqtisadi yüksəlişə nail olundu. 1921-1925- ci

illərdə neft hasilatı təqribən iki dəfə artdı. Bir sıra sənaye müəssisələri yaradıldı və ya bərpa olundu [11, s.390]. Kənd təsərrüfatının bərpası əsasən başa çatdırıldı. Heyvandarlıq məhsullarının həcmi təqribən 1914-cü il səviyyəsinə çatdırıldı. Kənd təsərrüfatı məhsulları istehsalı 2 dəfə artdı [11, s.391].

Bu nailiyyətlər iqtisadiyyatda işğalçı rejimin qurulması üçün zəmin oldu. 1925-ci ilin dekabrında ÜİK(b)P XIV qurultayı ölkənin sənayeləşdirilməsi kursunu müəyyən etdi və onu həyata keçirmək üzrə konkret fəaliyyətə başlanıldı [33]. 1926-cı ilin fevralında Azərbaycanda da sənayeləşdirmə üzrə komissiya yaradıldı [24]. Sənayeləşdirmə prosesi bütün dünyada olduğu kimi yüngül sənayedən deyil, ağır sənayedən başlanıldı ki, bunun özü çox böyük çətinliklər törətdi. Ağır sənayenin başlıca sahələrindən biri olan Bakı neft sənayesinə xüsusi diqqət yetirilir, onun yenidən qurulmasına, texniki cəhətdən təmin edilməsinə imperiya rəhbərliyi səviyyəsində nəzarət edilirdi. Sənayeləşdirmə nəticəsində Azərbaycanda ciddi nəticələr əldə olundu. 1936-cı ildə 20,6 milyon ton neft çıxarıldı, bu Sovet imperiyasında çıxarılan neftin 76%-nə bərabər idi. Bu vaxt ərzində 29 iri sənaye müəssisəsi istifadəyə verildi. Azərbaycan Rusiya və Ukraynadan sonra sənaye məhsulları və elektrik enerjisi istehsalına görə imperiyada üçüncü yeri tuturdu [35, s.224].

1927-ci ilin dekabrında keçirilmiş ÜİK/b/P XV qurultayı kollektivləşdirməyə keçidin dönüş anı sayılır [40]. Həmin vaxtdan etibarən Azərbaycanda da kəndli təsərrüfatlarının zorakı yolla kolxozlarda birləşdirilməsi prosesi başlandı. 1928-ci ilin martında kolxoz quruculuğuna ümu-

mi rəhbərlik etmək üçün «Azərbaycan Mərkəzi Kolxoz İdarəsi» yaradıldı [2]. Azərbaycan kəndinə böyük bəlalar gətirən kollektivləşmə zorakı vasitələrlə, insanların məhv edilməsi, qolçomaqlara və onların tərəfdarlarına divan tutulması ilə həyata keçirildi. Bu zorakı metodlarla müəyyən nəticələrə nail oldular. 1936-cı ildə kollektivləşmə əsasən başa çatdırıldı, kəndli təsərrüfatlarının 85%-i kolxozlarda birləşdirildi [35, s.227].

İmperiya siyasətinin ən faciəli nəticələrindən biri də kütləvi siyasi repressiyalar oldu. 1936-cı ildə Sovet imperiyasının yeni konstitusiyası qəbul edildi. Bu vaxt ZSFSR ləğv edildi, Azərbaycan, Gürcüstan, Ermənistan "müstəqil" subyektlər kimi Sovet imperiyasının tərkibinə daxil edildilər. Növbəti, 1937-ci ildə Azərbaycan SSR-in yeni konstitusiyası qəbul edildi [25]. Sovet imperiyasının rəhbəri İ.Stalin iqtisadi, siyasi, ideoloji müstəvidə məsələləri "həll" etdikdən sonra insan amili, yeni vətəndaşların yetişdirilməsi, "yad" fikirlərin beyinlərdən çıxarılması, asanlıqla idarə olunan təbəələrin formalaşdırılmasına başladı. Bunun üçün siyasi repressiyalar, əslində soyqırım siyasəti əsas vasitəyə çevrildi. Azərbaycanda siyasi repressiyalar 1936-cı ilin ortalarında başladı.Bakıda "əksinqilabçılar", "millətçilər", "müsavatçılar"ın həbsləri həyata keçirildi.

1937-ci ilin fevral-mart aylarında İ.Stalinin göstərişi ilə repressiyalar kütləvi xarakter aldı və 1938-ci ilin sonlarına qədər davam etdi. Siyasi repressiyalarda rəhbər və cəza orqanlarında vəzifə tutan ermənilər əsas rol oynayırdılar. Repressiya qurbanları içərisində imperiyanın yüksək vəzifəli şəxsləri Həmid Sultanov, Çingiz İldırım, Mir Bəşir

Qasımov, Dadaş Bünyadzadə, Ayna Sultanova, Mirzə Davud Hüseynov, Əliheydər Qarayev, Qəzənfər Musabəyov və digərləri var idi [26, s.777]. İmperiya rəhbərliyi bu şəxslərdən öz məqsədləri üçün istifadə etdi, sonra isə gərəksiz əşya kimi məhv edib kənara atdı.

Azərbaycan ziyalıları repressiyaların əsas hədəfinə çevrildilər, onların barəsində 29 mindən çox ölüm hökmü çıxarıldı. Bu repressiyalar nəticəsində "Azərbaycan ziyalıları, faktiki olaraq, məhv edildi" [48, s.36]. Əhməd Cavad, Hüseyn Cavid, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminli, Ömər Faiq Nemanzadə, Tağı Şahbazi, Sultan Məcid Qənizadə, Hənəfi Zeynallı, Bakıda çalışan digər türk xalqlarının nümayəndələri- Krım tatarı, şərqşünas Bəkir Çobanzadə, Kazan tatarı, tarixçi Qaziz Qubaydullin, özbək türkoloqu Həmid-Səid Xocayev və digərləri sovet terrorunun, siyasi repressiyaların qurbanı oldular [34, s.139]. İncəsənət xadimlərindən Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Xədicə Qaibova və digərləri güllələndilər [46, s.76].

Azərbaycanda repressiya qurbanlarının sayı ilə bağlı müxtəlif fikirlər var. Müxtəlif mənbələrdə 70 mindən [28, s.262] 120 minə qədər [22] rəqəmləri göstərilir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan Sovet rejimi şəraitində.- kayzen.az/blog/Azərbaycan tarixi/ 13138/azerbaycan-sovet-rejimi-şəraitində.html.

2. Azərbaycanın hüquqi sistemi.- pa.edu.az/library/3/27/241_movzu8._ azerbaycanin_huquq_ sistemi.pdf.

3. Bayramov X. Gəncə üsyanı-1920. Bakı, "Ləman" nəşriyyatı, 2010.

4. Borçalı niyə Gürcüstana qaldı?- Tarix.- fed.az/az/biznes-tarixi/borcali-niye-gurcustana-qaldi-tarix-31009.

5. Əliyeva İ. Sovet rejiminə qarşı üsyanlar.- azerbaijan-news.az/az/ posts/detail/ sovet-rejimine-qarsi-usyanlar-1643228193(04.04.2023).

6. Əliyev Z. Bolşevik işğalına qarşı "32-lər əfsanəsi".- modern.az/edebiyyat/ 237405/bolsevik-isalina-qarsi-32-ler-efsanesi/.

7. Haciyev İ.M., Şıxaliyev E.A., Cəfərli E.Y., Şabanov M.S. Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri. Bakı, Elmin İnkişafı Fondu, 2017.

8. Həsənli E. Naxçıvanı Azərbaycandan ayıran Mehri rayonu necə yaradıldı?- veteninfo.az/naxcivani-azerbaycandan-ayiran-mehri-rayonu-nece-yaradildi-aci-tariximiz.

9. Xəlilzadə F. Tarixin yaralı səhifələri.- anl.az/down/meqale/azerbaycan/ 2011/aprel/166398.html.

10. İtirilmiş tarixi yurdlar: Zəngəzur (tarixi icmal).- web.archive.org/web/ 20110725025408/ http://azerbaycanli.org/az/page604.html.

11. Qəniyev H. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil", 2019.

12. Naxçıvanın 657 kv.km ərazisi...- sputnik.az/20230419/naxcivanin-657-kvkm-erazisi-ssr-dovrunda-qanunsuz-olaraq-ermenistana-verilib-45394879.html.

13. Nuriyeva İ. Azərbaycanda sovet rejiminin bərqərar olması və ona qarşı üsyanlar.- 27 aprel 2017.- xalqcebhesi.az/news/accident/19968.html.

14. Nuriyeva İ. Azərbaycan tarixi: ən qədim dövrlərdən zəmanəmizədək. Texniki Ali məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil", 2019.

15. Ozan məscidi: Qanlı tarixin daş yadigarı.- azertag. az/xeber/ Ozan_mescidi_ Qanli_ tarixin_das_yadigari_VİDEO-952638.

16. Süleymanov M. Azərbaycan Ordusunun tarixi, III cild (1920-1922). Bakı, "Maarif" nəşriyyatı, 2018.

17. Şimali Azərbaycan Sovet hakimiyyəti illərində (1920-1991).- a-r.az/az/page/45.

18. Yaqublu N. Müsavat Partiyasının tarixi. Bakı, "Adiloğlu", 2012.

19. Yusubova G. Azərbaycan XX əsrin 20-30-cu illərində.- kafkazh. com/azerbaycan-xx-esrin-20-30-cu-illerinde/.

20. Zəngəzuru ermənilərə kommunistlər satdı. 22.04.2021.- fedai.az/?p =35598.

21. Beissinger Mark R. Soviet Empire as "Family Resemblance"//Slavic Review, 2006/ Vol.65, iss.2, p.294-303.- archive. org/details/sim_slavic_ review_summer _2006_65_2/page/294/ mode/rup.

22. Brzezinski Z. The Permanent Purge: Politics in Soviet Totalitarinisme. Harvard University Press, 1956, s. 189.- archive. org/details/ permanentpurgepo0000 brze/page/n7/mode/2up.

23. Административно-территориальное деление Азербайджана. Президентская библиотека.- web.archive.org/ web/20120322104915/ http://files. preslib.az/projects/azerbaijan/ rus/g12.pdf.

24. Азербайджан в 1920-1991 годы.- ensiklopediya.gov.az/ terms/20212/ cild/12.

25. Азербайджанский парламентаризм в советскую эпоху.- meclis.gov. az/news-az.php?id=15& lang=ru.

26. Баберовски Й. Враг есть везде. Сталинизм на Кавказе. Москва, Российская политическая энциклопедия, Фонд «Президентский Центр Б.Н.Ельцина», 2010.

27. Багиров М.А.- knowbysight.info/BBB/01187.asp.

28. Большая российская энциклопедия. Москва, БРЭ, 2005.

29. Гикало Н.Ф.- hrono.ru/biograf/bio_g/gikalo_nf.php.

30. Дарабади П. Военно-политическая история Азербайджана (1917-1920 годы). Баку, изд. дом «Кавказ», 2013.

31. «Документы внешней политики СССР», т.3. Москва, «Госполитиздат», 1959.

32. За кого было Москва в карабахском конфликте в 1920-х годах.- regnum.ru/news/polit/2289532.html.

33. Индустриализация. Большая российская энциклопедия 2004-2017.- old.bigenc.ru/domestic_history/text/3875181.

34. Исмаилов Э.Р. История «Большого террора» в Азербайджане. Москва, «Политическая энциклопедия», 2015.

35. Исмаилов Э. Очерки по истории Азербайджана. Москва, изд. «Флинта», 2010.

36. Кадишев А. Интервенция и гражданская война в Закавказье. Москва, «Воениздат», 1960.

37. Каминский Г.Н.- kprftula.narod.ru/Rev2.files/ Kam.html.

38. Карсский договор.- hrono.ru/dokum/192_dok/19211013kars.php.

39. Киров С.М.- tass.ru/encyclopedia/person/kirov-sergey-mironovich.

40. Коллективизация. Большая российская энциклопедия.- bigenc.ru/c/kollektivizatsiia-0d74c7.

41. Мау В. А. Реформы и догмы. Государство и экономика в эпоху реформ и революций (1861-1929). Москва, «Дело», 2013.

42. Левон Мирзоян: как палач двух народов…- 1 news.az/authors/ oped/20161021125924471.html.

43. Нахичеванская Автономная Советская Социалистическая Республика. Российские универсалные энциклопедии.-gatchina3000.ru/great-soviet-encyclopedia/bse/080/490.htm.

44. Новая экономическая политика. Большая Российская Энциклопедия.- bigenc.ru/c/novaia-ekonomicheskaia-politika-27e3d0.

45. Полонский В.И. Большая советская энциклопедия.- gufo.me/dict/ bse/Полонский.

46. Рахманзаде Ф. Дар судьбы. Баку, «Язычы», 1990.

47. Революция и гражданская война в России: 1917-1923 гг.: Энциклопедия в 4-х томах, т I. Москва, «ТЕРРА», 2008.

48. Свентоховский Т. Русское правление, модернизаторские элиты и становление национальной идентичности в Азербайджане// Азербайджан и Россия: общества и государства/ Редактор-составитель Д.Е.Фурман, Москва, «Летний сад», 2001.

49. Северный Азербайджан в период советской власти (1920-1991).- a-r.az/ru/page/95.

50. Ягублу Н. Энциклопедия Мухаммеда Эмина Расулзаде. Москва, «Маска», 2015.

## *§ 2. Şimali Azərbaycan II Dünya müharibəsi illərində. Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı.*

XX əsrin 30-cu illərinin sonu üçün dünyada siyasi vəziyyət çox mürəkkəb və ziddiyyətli hal almışdı. Qərbdə Almaniya və İtaliya, Şərqdə isə militarist Yaponiya müharibə ocaqları yaratdılar. ABŞ, İngiltərə, Fransa isə yeni müharibə ilə dünya hökmranlıqlarını möhkəmləndirmək, həmçinin Almaniya və Yaponiyanın əli ilə "SSRİ təhlükə-

si"ni aradan qaldıqmaq istəyirdi. SSRİ isə kapitalist dünyasının ziddiyyətlərindən istifadə edərək bu müharibədə yeni ərazilər zəbt etmək niyyətində idi. Birinci Dünya müharibəsində məğlub olan Almaniya faşist ideyalarını rəhbər tutaraq, Paris sülh müqaviləsinin nəticələrini ləğv etmək, yeni ərazilər ələ keçirmək məqsədi ilə təcavüzkarlıq fəaliyyətini genişləndirdi. Yaponiya Şərqdə hegemonluq etmək iddiası ilə hərəkətə keçdi.

Təklənməkdən ehtiyat edən sovet rəhbərliyi 1939-cu ilin əvvəllərindən İngiltərə və Fransa hökumətlərinin təkliflərinə cavab olaraq təcavüzkara qarşı birgə hərəkət etmək barədə danışıqlara başladı [21]. Danışıqlar çox ləng, uğursuz və həvəssiz gedirdi. Bu şəraitdə faşist Almaniyası manevr edərək SSRİ ilə müvəqqəti razılığa gəlməyi qərara aldı. 1939-cu il avqustun 23-də Moskvada SSRİ ilə Almaniya arasında on il müddətinə bir-birinə hücum etməmək haqqında müqavilə imzalandı. Hər iki tərəfin sənədi imzalamış xarici işlər nazirlərinin soyadı ilə "Ribbentrop-Molotov paktı" adlandırılan müqaviləyə məxfi əlavə protokolda Şərqi Avropa, o cümlədən Baltikyanı dövlətlərin, Polşanın təsir dairələrinə bölünməsinə dair razılıq əldə olunmuşdu [15, s.513-545].

İkinci Dünya müharibəsi Hitler Almaniyasının 1 sentyabr 1939-cu ildə Polşa üzərinə hücumu ilə başladı, 2 sentyabr 1945-ci ilə qədər davam etdi. Müharibə bir tərəfdən İngiltərə, Fransa, ABŞ, SSRİ və başqalarının, digər tərəfdən Almaniya, İtaliya, Yaponiya və başqa ölkələrin daxil olduğu iki hərbi-siyasi blok arasında baş verdi. Müharibəyə o dövrdə mövcyd olan 74 dövlətin 61-i cəlb olunmuşdu. Bu müharibədə təxminən 55 milyon insan, o cümlədən 25

milyon hərbçi, 30 milyona yaxın mülki əhali həlak oldu. Müharibədə SSRİ 27 milyon, Polşa 6 milyon, ABŞ 405 min, İngiltərə 375 min, Fransa 600 min nəfər adam itirdi [19]. Almaniyanın itkiləri ilə bağlı müxtəlif fikirlər var, əksəriyyət bu ölkənin 6 milyon nəfər itki verdiyini qeyd edir [18, s.273].

Azərbaycanın da daxil olduğu Sovet imperiyası müharibəyə 1941-ci ildə, Almaniyanın hərbi təcavüzündən sonra qatıldı. Dünya ağalığı niyyətində olan faşist Almaniyası 1939-cu il müqaviləsini pozaraq 1941-ci il iyunun 22-də SSRİ-yə hücum etdi [23]. Faşistlərin fikrincə, SSRİ-nin aradan götürülməsi dünya ağalığına gedən yolun geniş açılması demək idi. Almaniyanın "Barbarossa" planına (Alman, sonra Müqəddəs Roma dövlətinin kralı I Fridrix (1152-1190) Barbarossanın (italyanca "sarı saqqal") adından götürülüb) görə SSRİ bir neçə ay ərzində məhv edilməli, Uraldan Şərqə doğru kiçik rus dövləti saxlanılmalı idi [27, s.10].

Müharibənin ilk günündən Azərbaycan xalqı da SSRİ-nin başqa xalqları ilə birlikdə alman faşist işğalına qarşı mübarizəyə başladı. Almaniya Bakı neftinə xüsusi əhəmiyyət verir, Qafqaz cəbhəsində əsas hədəf olaraq Azərbaycanı seçmişdi. Kənd təsərrüfatında hərbi əhəmiyyətli, yeni texniki bitkilər becərilməsinə başlandı. Böyük çətinliklərə baxmayaraq, neftçilər fədakarlıqla çalışır, cəbhəni və müəssisələri yanacaqla təmin edirdilər. Azərbaycanda yüksək oktanlı benzin istehsalına başlanıldı. Azərbaycan neftçiləri müharibə illərində ölkəyə 75 milyon ton neft verdilər [16].

Minlərlə Azərbaycan vətəndaşı cəbhələrdə faşizmə qarşı mərdliklə vuruşdu. Azərbaycandan müharibəyə 640 min adam səfərbər olundu, onlardan 350 min nəfər geriyə qayıtmadı [26, s.15]. Həmin vaxt Azərbaycanın əhalisi 3.4 milyon nəfər idi [16].Müharibənin gedişində 43 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adını aldı [24, s.6]. 1941-ci ildə Brest qalasının qəhrəman müdafiəçiləri arasında 44 nəfər azərbaycanlı var idi. 1941-ci ildə kiçik leytenant İsrafil Məmmədov Novqorod yaxınlığında şücaət göstərərək Sovet İttifaqı qəhrəmanı adını alan ilk azərbaycanlı oldu, Moskva yaxınlığındakı döyüşlərdə tank bölməsinin komandiri Həzi Aslanov fərqləndi, Borodino çölündəki vuruşmada pulemyotçu İdris Vəliyev düşmənin 50-dən çox əsgərini məhv etdi. Təyyarəçi Hüseynbala Əliyev Leninqrad döyüşlərində düşmənin 6 təyyarəsini vurdu [17]. Azərbaycanlılardan ibarət milli diviziyalar yaradıldı. Onlardan 77, 402, 416, 293-cü diviziyalar daha çox tanınırdı. Bu diviziyalar müharibənin sonuna qədər rəşadətlə vuruşdular [20, s.253].

Almaniyanın Azərbaycanla bağlı xüsusi fikirləri var idi. Faşistlər Bakı neftinə sahib olmaqla yanaşı, Azərbaycanın cənubunu və şimalını imperiyanın əyalətinə çevirmək, "Böyük Türküstan" əyalətinin tərkibinə daxil etmək niyyətində idilər. Bəzi məlumatlara görə, Sovet rəhbərliyinin də azərbaycanlılarla bağlı məkrli planları var idi. Stalin Azərbaycan əhalisinin, lazım gələrsə, Orta Asiya və Qazaxıstana köçürülməsini istisna etmirdi. 1942-ci ilin yayında faşistlər «Edelveys» (Avropanın dağ çiçəklərindən birinin adı) planı üzrə Qafqaza hücuma başladılar. Bakı üçün ciddi təhlükə yarandı. Düşmənin hücumları dəf edildi [9, s.409].

Sovet Ordusunun Şimali Qafqaz əməliyyatlarında Azərbaycan diviziyalarında döyüşən əsgərlər qəhrəmanlıq göstərirdilər. Tuapşe uğrunda döyüşlərdə Qafur Məmmədov düşmənin 13 əsgərini öldürdü və öz həyatı bahasına komandirini xilas etdi [17, s.50,52]. İdris Süleymanov, Baloğlan Abbasov, Həzi Aslanov Sovet İttifaqı Qəhrəmanı kimi ən yüksək ada layiq görüldülər. 1944-cü il iyunun 29 –30 -da H.Aslanovun komandanlıq etdiyi 35-ci qvardiya tank briqadası Berezina çayını keçib Pleşeni şəhərini azad etdi. Bu əməliyyata görə o, ikinci dəfə Sovet İttifaqı Qərəmanı adı ilə təltif edildi. Bu barədə fərman ölümündən 47 il sonra, 1991-ci ildə həyata keçirildi [28].

Azərbaycanlılar Avropa xalqlarının partizan və antifaşist müqaviməti hərəkatında da iştirak edirdilər. 1942-ci ilin yayında Polşadakı faşist əsir düşərgələrində azərbaycanlı əsirlər gizli təşkilat yaratmışdılar. Təşkilata azərbaycanlı zabitlər Nadir Qiyasbəyov və Mirzəxan Məmmədov rəhbərlik edirdilər. 1942-ci ilin noyabrında Fransada faşistlərin ölüm düşərgəsindən qaçıb partizanlara qoşulan azərbaycanlı Əhmədiyyə Cəbrayılov – «Axmed Mişel», Xarqo adı ilə Fransanın azadlıq hərəkatında fəal iştirak etmişdi. Ə.Cəbrayılov Fransa paradında əsgərə generaldan irəlidə getmək hüququ verən hərbi medalla təltif olunmuşdu. 1942-ci ilin avqustunda ağır yaralanaraq əsir düşən Mehdi Hüseynzadə Yuqoslaviya partizanlarına qoşulmuş və «Mixaylo» ləqəbi ilə fəaliyyət göstərmişdi. O, hitlerçilərə qarşı müharibədə əfsanəvi qəhrəmanlıqlar göstərmiş, 700 hərbi əsiri azad etmişdi. Yuqoslaviya Xalq Azadlıq Ordusunun kəşfiyyat-təxribat qurupuna rəhbərlik edən Mixaylo 1000 nəfərdən çox alman zabit və əsgərin məhv etmişdi.

Mehdi Hüseynzadə 1944-cü ildə faşistlərlə qeyri-bərabər döyüşdə xeyli düşmən məhv etmiş və ələ keçməmək üçün son gülləsini özünə vurmuşdu. Ona ölümündən xeyli sonra – 1957-ci ildə Sovet İttifaqı Qəhrəmanı adı verildi. Əli Babayev İtalyadakı partizan hərəkatında iştirak etmiş, Haribaldi adına batalyonun komandiri olmuş, döyüşlərdəki igidliyinə görə İtalyanın yüksək mükafatına layiq görülmüşdü [17, s.50,52].

Müharibə illərində nəinki faşizmə, habelə sovetizmə qarşı da müqavimət hərəkatı fəaliyyət göstərmişdi. Belə meyllər daxildə qaçaqçılıq hərəkatında [7, s.243-245] və xaricdə sovet rejiminə qarşı silahlı mübarizə aparan legionların yaradılmasında təzahür etmişdi [17, s.287-295]. Bu işdə xaricdəki siyasi mühacirlərin də mühüm rolu olmuşdu. Müharibənin ilk günlərində faşistlərə əsir düşən mayor Əbdürrəhman Fətəlibəyli - Düdənginski tərəfindən antisovet milli hərbi legionların yaradılması təklifi verilmişdi.

Hitler 1941-ci il dekabrın 22-də Qafqaz müsəlmanlarından xüsusi hərbi hissələr yaradılması haqqında əmr vermişdi. 1942-ci ilin yayında azərbaycanlılardan ibarət "Bozqurd", "Aslan" , "Dönməz", "Vətən", "Qafqaz" və digər hərbi dəstələr Qafqaz cəbhələrində döyüşlərdə iştirak etmişdilər. Mühacirlərin fəaliyyətini idarə etmək məqsədi ilə Berlində 1934-cü ildə "Azərbaycan İstiqlal Komitəsi", 1943-cü ildə isə "Azərbaycan Milli Mərkəzi" yaradıldı [6; 7, s.290-292].

Almaniyanın vasitəsilə Azərbaycanın müstəqilliyinə nail olmaq niyyətində olan M.Ə.Rəsulzadə faşist rəhbərləri ilə söhbət zamanı bunun mümkün olmadığını başa

düşdükdən sonra Almaniyanı tərk etdi. Bundan sonra proseslərə əsasən Ə.Fətəlibəyli - Düdənginski rəhbərlik etdi, 1943-cü ilin payızında Berlində Mühacir Azərbaycan hökuməti və parlamentini yaratdılar.

1945-ci il mayın 8-də Almaniya qeyd-şərtsiz təslim oldu. Sentyabrın 2-də Yaponiyanın təslim olması ilə isə İkinci Dünya müharibəsi başa çatdı. Dünyada yeni münasibətlər sistemi formalaşdı. Dünya daha konkret şəkildə iki düşərgəyə- sosialist və kapitalist cəbhələrinə bölündü, üçüncü dünya dövlətləri deyilən qütb də formalaşdı. Azərbaycan xalqı cəbhənin hər iki tərəfində təmsil olunaraq, vuruşaraq, tarixinin ən təzadlı dövrlərindən birini yaşadı. Xalqımız döyüş qabiliyyətini, həmçinin müstəqillik ideyalarına, müstəqil dövlətçilik ənənələrinə sadiq qaldığını nümayiş etdirdi.

1920-ci ilin payızında Cənubi Azərbaycanda demokratik hərəkatın boğulmasına baxmayaraq, inqilabi əhval-ruhiyyə xalq arasında hələ də yaşayırdı. ADP-nin sağ qalmış fəallarının 1921-ci ilin sentyabrında Şeyx Məhəmməd Xiyabaninin qətlinin ildönümü münasibəti ilə Təbrizdə minlərlə adamın iştirak etdiyi mitinq keçirməsi bunun göstəricisi idi [1, s.323]. İngilislərlə əlaqədə olan siyasi xadim Seyid Ziyaəddin Təbatəbai və İran kazak diviziyasının zabiti Rza xan kazak hissələri ilə birgə 1921-ci ilin fevralında Tehranda çevriliş etdilər. Seyid Ziyaəddin Təbatəbai hökuməti təşkil etdi.1922-ci ilin əvvəllərində Rza xan hərbi nazir oldu. İngilislərin dəstəyi ilə 1923-cü ilin oktyabrında Rza xan baş nazir təyin olundu. 1925-ci il oktyabrın 31-də Milli Məclis Qacarlar sülaləsinin sonuncu nümayəndəsi Sultan Əhməd şahın hakimiyyətdən kənarlaşdırılması

barədə qərar qəbul etdi. Dekabrın 12-də isə Milli Məclis Rza xanı Pəhləvi ("Pəhləvi" əfsanəvi, qədim fars sülalələrindən birinin adı olmuşdur. Rza xan onu özünün soy adı kimi seçmişdi) ünvanı ilə İranın şahı elan etdi. Bununla da İranda mənşəcə fars olan Pəhləvilər sülaləsinin ağalığı başlandı (1925-1979) [5]. Bu dövlətin uzun əsrlərdən bəri Azərbaycan türk sülalələri tərəfindən idarə olunmasına son qoyuldu. Ölkədə Rza şahın diktatura rejimi bərqərar oldu. Dövlət 1935-ci ilin martında rəsmi olaraq İran adlandırıldı. Cənubi Azərbaycanda gedən bütün proseslər Pəhləvi diktaturasının dövlət səviyyəsində aparılan paniranizm, farslaşdırma, ayrıseçkilik, milli zülm siyasəti şəraitində baş verirdi. Belə ki, qeyri-fars xalqlarının, xüsusən Azərbaycan türklərinin inkişafı ləngidildi [11]. Onlara ana dilində təhsil almaq, qəzet, jurnal və kitab nəşr etdirmək, hətta məktəbdə öz ana dilində danışmaq yasaq edildi. Türk dilində yazılmış əski kitablar, Təbriz şairlərinin əsərləri və əlyazmaları toplanıb yandırıldı. Türkcə yer, dağ, çay, şəhər və kənd adları dəyişdirilərək, fars adları ilə əvəz olundu [1, s.323].

İkinci dünya müharibəsi İran, o cümlədən Cənubi Azərbaycanın ictimai-siyasi durumuna mənfi təsir göstərdi. Müharibənin əvvəlində İran hökuməti öz bitərəfliyini elan etsə də, Rza Şah başda olmaqla hakim dairələr açıq faşistpərəst mövqe tutmuş, ölkəni Almaniya kəşfiyyatçılarının fəaliyyət meydanına çevirmişdilər. Almaniyanın təsir imkanlarını aradan qaldırmaq üçün İngiltərə və SSRİ 1941-ci ildə İrana qoşun yeritdi, İranın cənubu ingilis, şimalı, o cümlədən Cənubi Azərbaycan sovet qoşunlarının nəzarətinə keçdi. İngilislər Rza şahı hakimiyyətdən devi-

rib, Cənubi Afrikaya sürgün etdilər (o, 1944-cü ildə orada öldü) [25]. Hakimiyyətə onun oğlu Məhəmməd Rza şah (1941-1979-cu illər) gətirildi [22]. Bu dövrdə Cənubi Azərbaycanda sovet qoşunlarının himayəsi ilə yeni proseslər başladı. Demokratik ruhlu qəzet və jurnallar nəşr olundu. «Azərbaycan cəmiyyəti» və onun mətbu orqanı olan «Azərbaycan» qəzeti demokratik və Milli qüvvələrin səfərbər edilməsində xeyli iş gördü [8]. Demokratik hərəkatın 1941-1945-ci illəri əhatə edən birinci mərhələsinin əsas xüsusiyyəti Milli dərketmənin, Milli şüurun inkişafından ibarət idi.

1945-ci ilin yayında Cənubi Azərbaycanda demokratik hərəkatın ikinci mərhələsi başlandı. Bu mərhələ Almaniyanın müharibədə məğlub edilməsindən sonra əsaslı surətdə dəyişilmiş beynəlxalq vəziyyətlə bağlı idi. SSRİ-nin Cənubi Azərbaycanda milli-demokratik və azadlıq hərəkatının inkişafında marağı var idi. İ.V.Stalin ADP-nin yaradılmasına və təşkilata S.C.Pişəvərinin rəhbər seçilməsinə razılığını verdi. O, AK(b)P MK-nin I katibi M.C.Bağırova Cənubi Azərbaycandakı milli-demokratik hərəkata ciddi kömək göstərilməsi haqqında tapşırıq verdi [9, s.412]. Milli-demokratik qüvvələr mürtəce İran hakimiyyətinə qarşı mübarizə aparmaq üçün 1945-ci ilin sentyabrında Seyid Cəfər Pişəvəri başda olmaqla Azərbaycan Demokrat Firqəsinin (Partiyasının) bərpa olunması haqqında bəyanatla xalqa müraciət etdilər. Partiya İran dövləti tərkibində Azərbaycana inzibati-təsərrüfat, mədəni müxtariyyət verilməsi, bütün İranın siyasi həyatının demokratikləşdirilməsi, iqtisadi-ictimai islahatların keçirilməsi vəzifələrini irəli sürdü [20, s.260]. 1945-ci ilin

noyabrında Azərbaycanın vilayət və mahallarında Azərbaycan Milli Məclisinə seçkilər keçirildi.

Cənubi Azərbaycan Milli Məclisinin 1945-ci il dekabrın 12-də keçirilən iclasında Azərbaycan milli hökuməti təşkil edildi. Azərbaycan Milli Məclisinin açıldığı və Azərbaycan Milli hökümətinin təşkil olunduğu tarix İran təqvimi üzrə Azər ayının 21-nə uyğun gəlir. Buna görə də bu tarixi gün “21 Azər” adı ilə və Cənubi Azərbaycanda 1945-1946-cı illərdəki milli-azadlıq və demokratik hərəkat “21 Azər hərəkatı” adı ilə məşhur oldu. Milli Məclis S.C. Pişəvəri başda olmaqla Milli hökumətin tərkibini təsdiq etdi [20, s.261].

Cənubi Azərbaycan milli hökümətinin ən mühüm iqtisadi islahatı aqrar münasibətləri sahəsində oldu. Azərbaycan milli hökümətinin hazırladığı layihələr əsasında 1946-cı ilin fevralında Azərbaycan Milli Məclisi “Xalisələrin bölünməsi haqqında qanun” və “Müsadirə haqqında qanun” qəbul etdi. Bu qanunlarda göstərilirdi ki, dövlət torpaqları və sular kəndlilər arasında əvəzsiz olaraq bölünməlidir [4, s.117]. Cənubi Azərbaycan Milli hökuməti sənaye sahəsində xüsusi mülkiyyətə toxunmadı, xüsusi müəssisələri milliləşdirmədi, əksinə, kredit və sifariş vermək yolu ilə onların inkişaf etməsinə hərtərəfli kömək etdi [20, s.261]. Cənubi Azərbaycanda xalq hakimiyyətinin mədəniyyət və maarif sahəsində əsas qələbəsi Azərbaycan türk dilinin rəsmi dövlət dili elan edilməsi oldu. Azərbaycanda xalq hakimiyyəti yaranandan 24 gün sonra “Dil haqqında” Milli hökümətin qərarı çıxdı. Həmin qərarda deyilirdi: “Bu gündən etibarən (6.01.1946-cı ildən) Azərbaycanda türk dili rəsmi dövlət dili hesab olunur”

[3]. 1946-cı ilin yanvarında Azərbaycan Milli hökümətinin Təbrizdə Azərbaycan Dövlət Darülfünunu (Universiteti) təşkil etmək haqqında qərarı çıxdı. Ümumi hazırlıqdan sonra iyunda Azərbaycan Dövlət Darülfünunu rəsmi surətdə açıldı və işə başladı. 1946-cı ilin yanvarında yenə Təbrizdə Ali incəsənət və rəssamlıq məktəbi açıldı. Milli hökümətin Maarif nazirliyi qısa müddətdə Azərbaycanın ibtidai məktəbləri üçün Azərbaycan dilində dərsliklər hazırlayıb çap etdi [12, s.427]. Az müddətdə Azərbaycanda maarif və mədəniyyətin inkişafı üçün çox böyük işlər görüldü. Təbrizdə Dövlət teatrı yarandı, Azərbaycan radiosu işə başladı, Behzad adına incəsənət muzeyi açıldı. Azərbaycan Milli filarmoniyası yaradıldı, şəhər, qəsəbə və kəndlərdə çoxlu kitabxana və qiraətxanalar açıldı [2].

Cənubi Azərbaycan Milli hökuməti ilə İran hökuməti arasında danışıqlar bir neçə cəhddən sonra 1946-cı il iyunun 11-də Təbriz şəhərində yenidən başlandı. 1946-cı il iyunun 13-də Təbriz şəhərində İran hökuməti ilə Azərbaycan nümayəndələri arasında müqavilə imzalandı. İran hökuməti Cənubi Azərbaycanda baş vermiş hadisələri demokratik hərəkat, Azərbaycandakı siyasi-ictimai təşkilatları demokratik təşkilatlar olaraq tanıdı. Müqavilənin şərtlərinə görə, Cənubi Azərbaycanda rəsmi dil olaraq fars və Azərbaycan türk dilləri qəbul edilir, ibtidai və orta məktəblərdə iki dilin tədris olunması nəzərdə tuturdu. Müqavilənin mahiyyətinə görə, Azərbaycan tərəfi müstəqillik və muxtariyyət mövqeyindən geri çəkilir, İran hökuməti bölgədə geniş islahatlar keçirəcəyinə dair öhdəlik götürürdü [14].

Bu vaxt ABŞ və İngiltərə ilə SSRİ arasında "İran məsələsi" ətrafında sərt mübarizə gedirdi. ABŞ və İngiltərə BMT müstəvisindən də fəal şəkildə istifadə etməklə sovet qoşunlarının İrandan çıxarılmasına nail olmağa çalışırdı. İran da neft əraziləri ilə bağlı əlverişli müqavilə şərtləri təklif etməklə Moskvanı razı salmağa cəhd edirdi. Bu və digər amillərin təsiri altında sovet rəhbərliyi 1946-cı ilin aprel-may aylarında qoşunları Cənubi Azərbaycandan çıxardı [1, s.334]. Azərbaycan hökuməti ABŞ və İngiltərənin açıq müdafiə etdiyi şah rejimi ilə üz-üzə qaldı. 1946-cı il sentyabrın 1-də İran dövləti Cənubi Azərbaycan üzərinə silahlı hücuma başladı. İran hökuməti bununla Azərbaycan nümayəndələri ilə 1946-cı il iyunun 13-də imzaladığı müqaviləni xaincəsinə pozdu. Azərbaycan Xalq qoşunları və fədai qüvvələri İran hökumətinin təcavüzünə qəhrəmanlıqla müqavimət göstərirdilər. Milli hakimiyyət daha çox itkilərə yol verməmək üçün 1946-cı il dekabrın 11-də Azərbaycan xalq qoşunlarına və fədai qüvvələrinə İran dövlətinin silahlı qüvvələrinə müqavimət göstərməmək və döyüş meydanlarını tərk etmək göstərişi verdi. Həmin gündən İran qoşunları və jandarm qüvvələri maneəsiz olaraq Cənubi Azərbaycan torpaqlarında sürətlə irəliləməyə başladılar. İran hökuməti yüzlərlə adamı hərbi məhkəmələrin hökmü ilə edam etdi. İran hökümətinin silahlı qüvvələri və quldur dəstələri tərəfindən təkcə 1946-cı il dekabrın ikinci yarısında Azərbaycanda 20-25 min nəfər öldürüldü [2]. S.C.Pişəvəri başda olmaqla yüzlərlə inqilabçı Şimali Azərbaycana mühacirət etdi. S.C.Pişəvəri 1947-ci ildə Yevlax şəhəri yaxınlığında avtomobil qəzasında həlak oldu [10, s.200].

1946-cı il dekabrın 20-dən sonra Cənubi Azərbaycanda xalq hakimiyyəti ləğv edildi. Azərbaycanda İran şahlıq quruluşunun hökmranlığı yenidən bərpa olundu. Cənubi Azərbaycandakı soydaşlarımız yenə də siyasi ictimai hüquqlardan, öz ana dilində təhsil almaqdan, elm və mədəniyyətini inkişaf etdirmək imkanlarından məhrum edildi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Ağasıyev İ.K., Səlimov Ş.D. Azərbaycan tarixi. Dərslik. Bakı, "Elm", 2017.

2. Bayramzadə S. 21 Azər hərəkatı və Azərbaycan Milli Hökuməti.- science.gov.az/az/news/open/23159.

3. Cənubi Azərbaycanda ana dilində təhsilin tarixi 1945-ci ilə gedib çıxır.- baki-xeber.com/siyaset/149558.html.

4. Çeşmazər M.M. Azərbaycan Demokrat Firqəsinin (ADF) yaranması və fəaliyyəti. Bakı, "Elm", 1986.

5. Çingizoğlu Ə. Rza şahın tacgüzarlığı.- reyting.az/muellifler/enver-cingizoglu/63383-rza-ahn-tacguzarl.html.

6. Əhmədov D. Berlində Nuri paşa ilə birgə qəbul edilən qərar.- teleqraf.com, 27 yanvar 2022.- teleqraf.com/news/toplum/315175.html.

7. Əmrahov M. XX əsrdə Azərbaycanda milli azadlıq hərəkatı. Ali məktəblər üçün dərslik. Bakı, ADPU-nun nəşriyyatı, 2009.

8. Hacıyeva Y. 1921-1946-cı illərdə Cənubi Azərbaycanda xalqın milli özünüdərk prosesinin yüksəlişi. 7 noyabr 2017.- xalqcebhesi.az/news/ southazerbaijan/23849.html.

9. Qəniyev H. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil", 2019.

10. Məmmədov İ. Azərbaycan tarixi. Bakı, "Adiloğlu", 2005.

11. Mustafayev V. Cənubi Azərbaycan. Milli şüur (20-ci əsrin birinci yarısında), s. 63-67, 77-78.- achiq.info/yazi%204/vidadi%20butov% 20dl.pdf.

12. Nuriyeva İ. Azərbaycan tarixi: ən qədim dövrlərdən zəmanəmizədək. Texniki Ali məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil", 2019.

13. Yaqublu N., M.Ə.Rəsulzadənin Almaniyadakı fəaliyyəti.- "Yeni Müsavat" qəzeti, 2014, 02 fevral, s. 12.

14. Hess G.R. The Iranian Crisis of 1945-46 and the Cold War. Political Science Quarterly, Vol. 89, №1 (March, 1974) (1).- azargoshnasp.net/recent_ history/ atoor/theiraniancrisis194546.pdf.

15. Shirer L.W. Pise and Fail of the Third Reich: A History of Nazi Germany. Simon and Schuster, 1990.

16. Азербайджан в годы Великой Отечественной войны.- a-r.az/ru/ article/15002.

17. Алиева С., Аскер А. Азербайджанцы в годы второй мировой войны.- cyberleninka.ru/article/n/azerbaydzhantsy-v-gody-vtoroy-mirovoy-voyny/ viewer.

18. Великая Отечественная война. Юбилейный статистический сборник. Москва, «Росстат», 2020.

19. Вторая мировая война 1939-1945. Большая российская энциклопедия 2004-2017.- old.bigenc.ru/military_science/text/2335018.

20. Исмаилов Э. Очерки по истории Азербайджана. Москва, «Флинта», 2010.

21. Мельтюхов М.И. Упущенный шанс Сталина. Советский Союз и борьба за Европу: 1939-1941. Москва, «Вече», 2000, глава «Политический кризис 1939 г.»- militera.lib.ru/research/meltyukov/02.html.

22. Мохаммед Реза Пехлеви. Большая российская энциклопедия 2004-2017.- old.bigenc.ru/world_ history/text/2234954.

23. Началась Великая Отечественная война.- prlib.ru/history.619331.

24.Попков М.Д. Дружба и братство народов СССР- один из источников Великой Победы// Военно-исторический журнал, 1985, №3.

25. Реза-шах Пехлеви. Энциклопедия Кругосвет.- krugosvet.ru/enc/ istoriya/REZA-SHAH-PEHLEVI/html.

26. Тюркские народы: энциклопедический справочник/ Гл.ред. Б.Г.Аяган. Алматы, ЗАО «Казак энциклопедиясы», 2004.

27. Хавкин Б.Л. История «Барбароссы»// «Историк», 2021, №6 (78).

28. Халилов Дж. Генерал Ази Асланов-зеркало азербайджанского патриотизма.- Газета «Вышка», 2020, 7 февраля, s.8.

## *§ 3. Şimali Azərbaycan İkinci Dünya müharibəsindən sonrakı dövrdə.*

Sovet imperiyası İkinci dünya müharibəsindən sonra daha da gücləndi, həmçinin nüvə silahına malik olan dövlətə çevrildi. Bu imperiyanın təsiri və yardımı ilə "sosialist düşərgəsi" deyilən yeni dünya sistemi yaradıldı. Müharibədə qələbədən sonra Stalinin totalitar rejimi, inzibati idarəetmə sistemi, xalqları əsarət altında saxlayan işğal üsul-idarəsi daha da gücləndi.

Bütün bu ağır şəraitə baxmayaraq, Azərbaycan xalqı sürətlə iqtisadiyyatını bərpa etməyə başladı, 10 il ərzində 108 yeni sənaye müəssisəsi tikildi [27]. Neft sənayesinin bərpa edilməsi, qazma işlərinin genişləndirilməsi sahəsində böyük işlər görüldü. Yeni neft yataqları istifadəyə verildi. 1948-ci ildə dünyada ilk dəfə açıq dənizdə neft estakadaları quruldu, 1949-cu il noyabrın 7-də burada ilk neft qurğusu fontan vurdu [15, s.439]. "Neft daşları"nın tarixi belə başladı. Əsaslı tikinti sahəsində də böyük müvəffəqiyyətlər əldə edildi. Bakının 40 km-də, Sumqayıt qəsəbəsində yeni sənaye mərkəzi yaradıldı [35, s.346]. Sovet imperiyası bu cür mərkəzlər yaradarkən insanların sağlamlığını nəzərə almırdı. Nəticədə isə Sumqayıt bir neçə 10 ildən sonra ətraf mühitin çirklənməsi nəticəsində "ölü şəhərə" çevrildi. Dünyanın Üçüncü sənaye inqilabı [25, s.81-90] dövründə iddialı Sovet imperiyası böyük dövlətlərin "sənaye yarışı"ndan kənarda qala bilməzdi. Ona görə bütün resurslarını səfərbər edərək sənayenin əksər sahələrini inkişaf etdirir və qeyri-ixtiyari olaraq Azərbaycanda da sənayenin inkişafına şərait yaradırdı.

Kənd təsərrüfatında isə, ümumiyyətlə, müsbət tendensiyalardan danışmaq mümkün deyil. İmperiya rəhbərliyi Azərbaycanda pambıq və tütün sahələrinə xüsusi fikir verirdi. Azərbaycan üçün bu ağır əməyin tələb olunduğu sahələrin seçilməsi təsadüfi deyildi. Məhz yüksək dərəcədə istismar olunan əməyin sayəsində müharibədən sonrakı 10 il ərzində Azərbaycanda pambıq istehsalı 5 dəfə, tütün istehsalı isə 2 dəfə artdı [35, s.347]. Həyati əhəmiyyət daşıyan taxılçılıq və heyvandarlığın inkişafı üçün isə şərait yaradılmadı. Bütövlükdə kəndlərdə vəziyyət ağır idi,

kəndlilər cüzi əməkhaqqı müqabilində işləyir, yoxsulluq və səfalət içərisində yaşayırdı. Hökumət hər il gündəlik tələbat mallarının qiymətini endirirdi, lakin əhalinin alıcılıq qabiliyyəti aşağı olduğuna görə bu tədbirlər ciddi effekt vermirdi. 50-ci illərin ən vacib hadisəsi Bakıda daimi fəaliyyət göstərən televiziyanın (Sovet imperiyasında 30-40-cı illərdən məhdud çərçivədə televiziya verilişlərindən istifadə edilirdi, 1949-cu ildə daimi verilişlərin tətbiqinə başlandı) yaradılması oldu. 14 fevral 1956-cı ildə Azərbaycan televiziyası daimi verilişlərinə başladı [4].

Müharibədən sonrakı illərdə siyasi və ideoloji sahələrdə ciddi dəyişilkilər baş verdi. İkinci dünya müharibəsi və ondan sonrakı illərdə Sovet rejiminin repressiyaları davam edirdi. Müxtəlif adlar altında SSRİ-də, o cümlədən Azərbaycanda minlərlə insan həbs edildi, güllələndi, müxtəlif cəzalara məhkum edildi [15, s.437]. Azərbayacan ziyalıları bu dövrdə çətinliklə olsa da milli- azadlıq ideyalarını təbliğ etməyə çalışırdı. M.Ə.Rəsulzadə də xaricdə fəaliyyətini davam etdirir, ideyalarını Azərbaycana çatdırmağa çalışırdı. O, 1947-ci ildə Avropadan Türkiyəyə qayıtdı, Ankarada fəaliyyət göstərdi və 1949-cu ildə "Azərbaycan Kultur Dərnəyi"ni yaratdı [21, s.36]. O, 1955-ci il martın 6-da, 71 yaşında Ankarada vəfat etdi. M.Ə.Rəsulzadə ölümündən sonra da ideyaları ilə Azərbaycanın müstəqilliyi işinə xidmət edirdi.

İmperiyanın rəhbəri İ.Stalinin vəfatından sonra (5 mart 1953-cü il) ölkədə, o cümlədən Azərbaycanda siyasi vəziyyət dəyişdi. Hakimiyyət uğrunda Lavrenti Beriya və Nikita Xruşşov qruplaşmaları arasında gedən mübarizə ikincinin qələbəsi ilə başa çatdı. L.Beriya 1953-cü ilin iyu-

nunda həbs edildi və məhkəmənin hökmü ilə həmin ilin dekabrında güllələndi [33]. İ.Stalin və L.Beriya ilə yaxın münasibətdə olan Azərbaycan rəhbəri Mir Cəfər Bağırov da hakimiyyətdən kənarlaşdırıldı, 1953-cü ildə, hələ Beriyanın həbsinə qədər AKP Mərkəzi Komitəsinin birinci katibi vəzifəsindən uzaqlaşdırıldı, Nazirlər Şurasının sədri təyin edildi, Beriyanın ölümündən sonra Kuybışev şəhərinə təsərrüfat işinə göndərildi, neft idarəsində rəis müavini kimi işlədi. O, yalnız 1955-ci ildə məsuliyyətə cəlb olundu, həbs olunaraq Bakıya gətirildi, 1956-cı ilin aprelində məhkəmənin hökmü ilə güllələnməyə məhkum edildi. Rəsmi məlumata görə, hökm həmin il mayın 26-da icra olundu [30].

Xruşşovun hakimiyyəti dövründə Azərbaycan Kommunist Partiyasına İmam Mustafayev rəhbər seçildi (1954-1959-cu illər). Onun hakimiyyət illəri "mülayimləşmə" dövrü kimi təqdim olunur. İ. Mustafayev yeni şəraitdən istifadə edərək, milli maraqlara uyğun siyasət yeritməyə başladı. Onun  və Ali Sovetin Rəyasət heyətinin sədri Mirzə İbrahimovun təşəbbüsü ilə 1956-cı ilin avqustunda Azərbaycan SSR Konstitusiyasına respublikada dövlət dilinin Azərbaycan dili olması barədə bənd əlavə edildi [1]. Azərbaycan dilinin mövqeyinin gücləndirilməsi istiqamətində xeyli iş görüldü.

İ.Mustafayev 1959-cu ildə millətçilkdə ittiham edilərək hakimiyyətdən kənarlaşdırıldı [42, s.37]. Azərbaycana Vəli Axundov yeni rəhbər təyin edildi [31]. Onun 10 illik hakimiyyəti illərində əvvəlki siyasət davam etdirildi, milli özünüdərk proseslərinə diqqət yetirildi. Onun dövründə AKP MK-nın katibi Şıxəli Qurbanov xüsusi fədakarlıqla

çalışır, milli təəssübkeşlik mövqeyindən çıxış edirdi. 1964-cü ildə SSRİ-də rəhbərliyin dəyişdirilməsi, N.Xruşşovun Leonid Brejnevlə (1964-1982-ci illər) əvəz olunması, "mülayimləşmə" siyasətinn aradan qaldırılması da Azərbaycanda gedən milli proseslərin qarşısını ala bilmədi. Vəli Axundov, Şıxəli Qurbanov və onların tərəfdarları artıq sovet imperiyasına deyil, daha çox Azərbaycanın milli maraqlarına xidmət etməyə çalışırdılar. Məhz onların təşəbbüsü ilə 1967-ci ildə o vaxta qədər qadağan olunmuş Novruz bayramı (Bahar bayramı) ilk dəfə rəsmi bayram kimi qeyd olundu [26]. Bayramın keçirilməsindən iki ay sonra S.Qurbanov müəmmalı şəraitdə, diş həkimində vəfat etdi.

Təhlükələrə baxmayaraq, Azərbaycanda müxtəlif milli təşkilatlar yaranır, fəaliyyət göstərirdi. 1942-ci ildə "İldırım" gizli təşkilatı yaradılmışdı . Təşkilata İsmixan Rəhimov, Hacı Zeynalov, Musa Abdullayev, Gülhüseyn Abdullayev və digərləri daxil idi. Onlar fəaliyyətlərini davam etdirir, vərəqlər yazır, paylayır, divarlara yapışdırırdılar. Onların məqsədi Azərbaycanın müstəqilliyinə nail olmaq idi. 1947-ci ildə onları həbs etdilər, İ.Rəhimov, G.Abdullayev, H.Zeynalova 25 il, digərlərinə 10 il iş verib, Sibirə göndərdilər [19, s.158]. Stalinin ölümündən sonra onlar azadlığa çıxıb, fəaliyyətlərini davam etdirdilər. Milli hərəkatın üzvü Cahid Hilaloğlu Şirinov 1957-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin 39-cu ildönümü münasibəti ilə üçrəngli Azərbaycan bayrağını Qız qalasının üzərinə qaldırdı, onu həbs etdilər, lakin iş vermədilər. Görünür, N.Xruşşovun "mülayimləşmə" siyasəti onu xilas edib. Lakin az sonra onu uydurma "oğurluq" işi ilə bağlı

həbs edib, Sibirə göndərdilər. O, 1991-ci ilə qədər yaşadı, həmin ildə yol qəzasında həyatını itirdi [20]. Digər bir təşkilat- Milli Azadlıq Qərargahı (MAQ) 1950-ci illərin sonu 60-cı illərin əvvəlində yaradıldı. Təşkilata ictimai xadim Oqtay Rəfili (Eldəgəz), tanınmış alim Xudu Məmmədov və digərləri rəhbərlik edirdi [3, s.119-120; 17, s.4-6]. Onlar Azərbaycanın müstəqilliyi ideyasını təbilğ edirdilər.

Ermənistan İkinci Dünya müharibəsindən sonra da Azərbaycana, habelə Türkiyəyə torpaq iddialarından əl çəkmirdi. Ermənistan rəhbəri Qriqori Arutinov 1945-ci ilin payızında SSRİ rəhbərliyinə Dağlıq Qarabağın Azərbaycan SSR-dən alınıb Ermənistan SSR-ə verilməsi barədə müraciət etdi [36]. Mərkəzi hökumət dərhal bu müraciətə reaksiya verdi. ÜİK(b) P MK –nın katibi Qeorqi Malenkovun imzası ilə bu barədə Azərbaycan K(b) P MK-nın birinci katibi M.C.Bağırova yazılı məlumat göndərildi və ona öz rəyini bildirmək təklif olundu. M.C.Bağırov 1945-ci ilin dekabrında MK-ya yazdığı məktubda bildirdi ki, Ermənistanın Dağlıq Qarabağla əlaqədar irəli sürdüyü iddiaların heç bir elmi və tarixi əsasları yoxdur. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və torpağı olmaqda qalmaqdadır. Habelə, M.C.Bağırov cavab məktubunda bildirdi ki, Azərbaycan Dağlıq Qarabağı Şuşa istisna olmaqla Ermənistana şərti olaraq güzəştə gedə bilər, amma o halda ki, müxtəlif vaxtlarda Ermənistana, Gürcüstana və Sovet Rusiyasına verilmiş ərazilər (Zəngəzur, Dərələyəz, Vedibasar, Göycə, Dilican, Borçalı, Qaraçöp, Dərbənd və s.) Azərbaycan SSR-ə qaytarılsın [29, s.89]. Bu cavab ermənilərin Dağlıq Qarabağı ələ keçirmək planlarını pozdu. Mərkəzi hökumət problemin bütün ölkə üçün sonsuz fəlakətlər gətirəcəyini

anladı. Məhz buna görə də, imperiya hakimiyyəti məsələnin "arxivə verilməsini" vacib saydı.

Ermənilər bir qədər əvvəl növbəti təxribatın əsasını qoymuşdu. Onlar 1943-cü ildə İkinci Dünya müharibəsinin qızğın vaxtında üç müttəfiq dövlət (ABŞ, SSRİ, Böyük Britaniya) başçısının Tehran konfransında (28 noyabr-1 dekabr 1943-cü il) SSRİ-İran münasibətləri məsələsinin müzakirəsindən istifadə edərək Sovet rəhbərliyindən xaricdə yaşayan ermənilərin SSRİ-yə, Ermənistana köçürülməsi razılığını aldılar. SSRİ Nazirlər Soveti 1947-ci il dekabrın 23-də "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarını verdi [2, s.81-83]. Azərbaycanlıların Qərbi Azərbaycandakı doğma yurdlarından kütləvi deportasiyası 1953-cü ilədək davam etdi [16, s.32; 24, s.72]. Mənbələr həmin vaxt deportasiya edilənlərin sayının 150 min nəfərə çatdığını qeyd edir. Bununla həmin vaxt Ermənistanda yaşayan 400 mindən çox azərbaycanlının təxminən üçdə bir hissəsi [3, s.111] qədimdən yaşadıqları ərazilərdən çıxarıldılar.

Bu faciəli hadisəyə siyasi qiymət ilk dəfə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli fərmanında verildi. Sənəddə bu hadisə ermənilər tərəfindən SSRİ hökumətinin və xaricdəki erməni lobbisinin dəstəyi ilə azərbaycanlılara qarşı növbəti soyqırımı cinayəti kimi qiymətləndirilmişdir [13]. Sovet rəhbərliyinin 19 fevral 1954-cü il tarixli fərmanla Krımı RSFSR-in tərkibindən çıxararaq Ukray-

naya verməsindən [34, s.545] (bu akt Ukraynanın Rusiyaya birləşdirilməsinin 300 illiyinə həsr edilmişdi) sonra ermənilər Azərbaycana qarşı ərazi iddiaları ilə yenidən fəallaşdılar [40]. Bəzi məlumtlara görə, SSRİ Ali Sovetinin sədri A.Mikoyan 1964-cü ildə N.Xruşşova Dağlıq Qarabağın Ermənistan SSR-yə verilməsinə dair təklif verib. Şahidlərin bildirdiyinə görə, N. Xruşşov çox sərt münasibət bildirərək deyib: “DQMV ermənilərinin bir sutka ərzində Ermənistana köçürülməsi üçün 12 min hərbi yük maşını təmin etməyə hazıram” [39, s.11].

SSRİ-də hakimiyyət dəyişikliyi, L.Brejnevin hakimiyyətə gəlməsindən sonra ermənilər yenidən fəlallaşdılar, qondarma “erməni soyqırmı”nın 50 illiyinə hazırlaşmağa başladılar. Həmin dövrdə Türkiyə ABŞ-la yaxınlaşmış, hərbi sahədə geniş əməkdaşlıq qurulmuş, İncirlik hərbi bazası isə SSRİ üçün ciddi təhdid mənbəyinə çevrilmişdi. Moskva qondarma “erməni soyqırımı” məsələsindən Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə edirdi. Kreml 1965-ci ildə ermənilərə bir neçə tədbir keçirməyə, antitürk təbliğatını aparmağa şərait yaratdı. Ermənilər eyni zamanda Dağlıq Qarabağa iddialarını da yenidən gündəmə gətirməyə çalışdılar, SSRİ rəhbərliyinin ünvanına müraciətlər göndərdilər. Azərbaycan xüsusi xidmət orqanları 1966-cı ildə Dağlıq Qarabağda bir neçə millətçi qrupu aşkar edərək zərərsizləşdirdi [5, s.324-325].

1969-cu ildə Ermənistan növbəti dəfə Azərbaycandan torpaq qoparılmasını rəsmiləşdirdi. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il mayın 7-də sərhəd ərazilərimizdən 2 min hektardan çox torpağın Ermənistana verilməsinə dair Azərbaycan rəhbərliyinin 5 may 1938-ci il

tarixli qərarını təsdiq etdi. Azərbaycan rəhbərliyinin uzun müddət təsdiq etmək istəmədiyi bu qərara görə, Laçın rayonunun Qaragöl ərazisinin, Qubadlı rayonun Çayzəmi ərazilərinin, Qazax rayonu Kəmərli kənd ərazilərinin, Kəlbəcr rayonunun Zod qızıl yatağı ərazilərinin bir hissəsi və digər ərazilər Moskva rəhbərliyinin təzyiqi ilə Ermənistana verilirdi [32]. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə qərarın icrası dayandırıldı. 1973-cü ildə Dağlıq Qarabağın partiya rəhbərliyində dəyişiklik edildi, erməni millətçilərindən nisbətən uzaq olan Boris Gevorkov Qurqen Melkumyanın yerinə rəhbərliyə gətirildi. Bununla regionda erməni millətçilərinin fəaliyyətinin qarşısını xeyli dərəcədə almaq mümkün oldu.

1969-cu il iyulun 14-də Azərbaycanın siyasi həyatında mühüm hadisə baş verdi. Azərbaycan KP MK-nın plenumunda Heydər Əliyev MK-nın birinci katibi seçildi [9]. Azərbaycanın müasir tarixində dönüş mərhələsinin təməli qoyuldu. H.Əliyev qısa müddətdə respublikada idarəçilik sistemini xeyli möhkəmləndirdi [6]. 1978-ci il aprelin 21-də Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul edildi [14, s.58]. Bu ali qanun xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün hüquqi əsasları genişləndirdi. Moskvanın etirazına baxmayaraq H.Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan dili dövlət dili statusunu saxladı. H. Əliyev az vaxt ərzində qeyri-rusların qarşısına qoyulan maneələri səf edərək, SSRİ-nin rəhbərliyində yüksək mövqelər tutdu, 1982-ci il noyabrın 22-də Siyasi büronun üzvü, noyabrın 24-də isə Nazirlər soveti sədrinin birinci müavini oldu. H.Əliyevin məharətlə həyata keçirdiyi çox cəhətli siyasi dövlətçilik

fəaliyyəti sayəsində bütün diqqət respublikanın iqtisadi, kadr və mənəvi potensialının sürətlə artmasına yönəldildi. Bunun nəticəsində 70-ci illərdə Azərbaycanda bütün başlıca iqtisadi göstəricilər durmadan artırdı. H.Əliyevin təşəbbüsü ilə xalqın mənəvi dəyərlərinin öyrənilməsi və təbliğinə diqqət artırıldı [23, s.193]. 1977-ci ildə Nizami irsinin yenidən öyrənilməsi haqqında qərar qəbul olundu. Hüseyn Cavidin cəsədinin qalıqları 1982-ci ildə İrkutsk vilayətindən gətirilərək Naxçıvanda dəfn edildi [12, s.173]. H.Əliyev respublikada kadr potensialının möhkəmləndirilməsinə xüsusi diqqət verirdi. Minlərlə azərbaycanlı gənc SSRİ-nin müxtəlif şəhərlərinin aparıcı təhsil və elm mərkəzlərinə oxumağa göndərildi [18]. 1970-80-ci illərdə SSRİ-nin hərbi məktəblərində müxtəlif hərbi ixtisaslar üzrə 2000-dən çox azərbaycanlı zabit hazırlandı. «Gəncə» adı yasaq edildiyi vaxt, «Yeni Gəncə» qəsəbəsi yaradıldı. Bakı rayonlarına «Nizami», «Nəsimi» adları verildi. Rayonlara Naxçıvanda «Babək», Yuxarı Qarabağda «Əsgəran» adlarının verilməsi bu yerlərin əzəli Azərbaycan torpaqları olduğunu bir daha təsdiqlədi [3, s.146].

İmperiya rəhbərliyinin yaratdığı maneələrə, qərəzli münasibətə baxmayaraq, Azərbaycan iqtisadiyyatının əksər sahələri uğurla inkişaf edirdi. İmperiya ciddi problemlərlə üzləşir, dərin böhran dövrünü yaşayırdı. Azərbaycan isə çətin şəraitdə iqtisadi göstəricilərini yüksəldirdi [41, s.142, 147]. Birləşmiş Millətlər Təşkilatının beynəlxalq müqayisələri proqram metodologiyasına görə, XX əsrin 70-80-ci illərində Azərbaycan iqtisadiyyatı inkişafının yüksək həddinə çatdı və 1980-ci illərin əvvəlində adambaşına ümumdaxili məhsulun (ÜDM) həcminə görə dün-

yanın 220 ölkəsinin içərisində 112-ci yeri tutdu. Bu, həmin vaxt təxminən Türkiyənin göstəricilərinə yaxın idi [38]. 1970-80-ci illərdə başlanğıcını 1967-ci ildən götürən metro tikintisi sahəsində böyük uğur əldə olundu. «Ulduz» , «Bakı Soveti» (“İçərişəhər”), «Neftçilər», «Memar Əcəmi», «Əhmədli» stansiyaları istifadəyə verildi [28, s.263].

1970-80-ci illər Azərbaycanın mədəni və mənəvi həyatında mühüm irəliləmələr dövrü oldu. Uşaq müəssisələrinin, məktəblərin maddi-texniki bazası möhkəmləndirildi, tədrisin səviyyəsi xeyli yüksəldi. 1971-ci ildə yaradılan C. Naxçıvanski adına hərbi liseyin xüsusi əhəmiyyəti var idi. 1980-ci illərin sonlarında respublikada 17 ali təhsil müəssisəsi var idi [37, s.86].

Təbiət elmləri sahəsində görkəmli alimlərdən Xudu Məmmədov, Azad Mirzəcanzadə, Mirəli Qaşqay, Şəfaət Mehtiyev, Rafiq Əliyev və başqaları mühüm araşdırmalar aparırdılar [8]. Humanitar-ictimai elmlər sahəsində də mühüm nailiyyətlər əldə olundu. Ziya Bünyadov, Cəmil Quliyev, Fəridə Məmmədova, Süleyman Əliyarlı, Mahmud İsmayılov, Oqtay Əfəndiyev, Tofiq Köçərli kimi tarixçilər elmin inkişafında mühüm rol oynadılar [22, s.200-228]. 1970-ci ildə ilk milli ensiklopediya, Azərbaycan Sovet Ensiklopediyasının 1-ci cildinin çapdan çıxması mühüm hadisə oldu.

Ədəbiyyatın inkişafında çox böyük irəliləyişlər oldu. Nəbi Xəzri, İslam Səfərli, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Xəlil Rza bədii ədəbiyyatın və ədəbiyyatşünaslığın inkişafında mühüm rol oynadılar. Bədii nəsrin görkəmli nümayəndələri Süleyman Rəhimov, İlyas Əfəndiyev, Əzizə Cəfərzadə, İsa Hüseynov, Əleviyyə Babayevanın əsərləri

maraqla oxunurdu. Cənubi Azərbaycan mövzusunda yazılmış əsərlərin xüsusi əhəmiyyəti var idi. Mirzə İbrazimovun «Pərvanə», «Cənub hekayələri» maraqla qarşılanırdı [10].

Respublikada musiqi, ifaçılıq, teatr və kino sənəti sahəsində də mühüm irəliləyişlər baş verdi. Fikrət Əmirovun «1001 gecə», Aqşin Əlizadənin «Babək» baletləri musiqi sənətinin ən mühüm nailiyyətləri idi. Şərqdə ilk qadın bəstəkar kimi Şəfiqə Axundova «Gəlin qayası» operasını yazdı. Yüksəlişi "Arşın mal alan" filmi ilə başlayan Azərbaycan kinosu böyük inkişaf yolu keçdi. Bu film 1945-ci ildə çəkildi, dərhal da dünya ekranına çıxdı. Bu günə qədər 136 ölkədə nümayiş etdirilib, 86 dilə dublyaj olunub. Daha sonra "Azərbaycan film" kinostudiyasında "Şərikli çörək", "Yeddi oğul istərəm", "Ulduzlar sönmür", "Babək", "Tütək səsi", "İstintaq", "Axırıncı aşırım", "Dədə Qorqud" və başqa filmlər çəkildi [11].

İmperiyanın mahiyyətinə uyğun məhdudiyyətlərə, təzyiqlərə, ideoloji ehkamlara baxmayaraq Azərbaycan elmi, təhsili, mədəniyyəti tarixi köklərinə, insanların fərdi keyfiyyətlərinə, təfəkkürünə söykənərək inkişafını davam etdirdi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan SSR Konstitusiyasına (Əsas Qanununa) Azərbaycan SSR dövlət dili barəsində maddə əlavə edilməsi haqqında Qanun (21 avqust 1956). – Azərbaycan dili. Prezident kitabxanası, s. 32.- files.presslib.az/projects/ remz/pdf/atr_dil.pdf.

2. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiya-

sı (1948-1953-cü illər). Sənədlər toplusu. Bakı, "Zərdabi LTD" nəşriyyatı, 2013.

3. Azərbaycan tarixi. Yeddi cilddə, VII cild. Bakı, "Elm", 2008.

4. AzTV-nin yaranmasından 67 il keçir.- oxu.az/society/696022.

5. Axundova E. Heydər Əliyev: şəxsiyyət və zaman. 1-ci hissə (1923-1969). Bakı, "Ozan", 2007.

6. Əliyeva İ. Azərbaycanın yüksəlişində mühüm mərhələlərin başlanğıcı.- azerbaijan-news.az/view-152013/azerbaycanin-yukselisinde-muhum-merhelenin-baslangici.

7. Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında.- "Respublika" qəzeti, 30 dekabr 2000-ci il, s. 1.

8. Əlizadə A. Azərbaycanda müasir iqtisadi durum və fundamental elm.- "Azərbaycan" qəzeti, 2014, 29 mart, s. 4.

9. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü.- azerbaijan.az/ related-information/146.

10. Həbibbəyli İ. Sosialist realizmindən milli istiqlaladək.- "525-ci qəzet", 2017, 6 yanvar, s. 8,10.

11. Xavəri S. XX əsrin 60-80-ci illəri Azərbaycan mədəniyyəti.- edebiyyatqazeti.az/news/muzakire/52-xx-esrin-60-80-ci-iller-azerbaycan-medeniyyeti.

12. Qaffarov T. Azərbaycan tarixi. 1920-1991. Bakı, "Elm", 1999.

13. "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 18 dekabr 1997-ci il.- e-qanun.az/ framework/4099.

14. 1978-ci il Konstitusiyası.- files.preslib.az/projects/remz/pdf/atr_kons.pdf.

15. Nuriyeva İ. Azərbaycan tarixi. Texniki ali məktəblər üçün dərslik. Bakı, "Elm və Təhsil", 2019.

16. Paşayev A. Köçürmə. Bakı, "Gənclik", 1995.

17. Oqtay Kərim oğlu Rəfili (Oqtay Eldəgəz). Poladdan bir yarpaq. Bakı, "Elm və təhsil", 2013.

18. Rüstəmov F. Heydər Əliyev və Azərbaycandan kənarda ali təhsilli kadr hazırlığı.- muallim.edu.az/news.php?id=24039.

19. Siyasi tarix: mühazirə kursu, II hissə. Bakı, "Azərbaycan Ensiklopediyası NPB", 1998.

20. Şamil Əzizə, Şamil Əli. Azərbaycanın müstəqilliyinə ömür həsr edənlər.- academia.edu/38508198/Cahid_Hilaloğlu_və_Çingiz_Abdullayev_Mədəniyyət_Dünyasındain_pdf.

21. Yaqublu N. Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası, Bakı, "Kitab klubu", 2013.

22. Zülfüqarlı M. Azərbaycan tarixi. İkinci Respublika dövrünün tarixşünaslığı (1920-1991-ci illər). Bakı, "Çaşıoğlu", 2001.

23. Altstadt A.L. The Azerbaijani Turks. Pours and identity under Russian Rule. Stanford, 1992.

24. Broers L. Armenia and Azerbaijan: Anatomy of a Rivalry.- Edinburgh University Press, 2019.

25. Hull J. "The Second Industrial Revolution: The History of a Consept", Storia Della Storiografia, 1999, Issue 36.

26. Qəzənfərqızı A. "Novruz under the Soviet Union.- visions.az/en/news/ 892/14b15f4d/.

27. Азербайджан в 1920-91 годы.- Azərbaycan Milli Ensiklopediyası.- ensiklopediya.gov.az/az/terms/ 20212/cild/12.

28. Азербайджан в цифрах в 1990 году. Баку, «Азернешр», 1991.

29. Алиев И. Нагорный Карабах. История, факты, события. Баку, «Элм», 1989.

30. Багиров Мир Джафар Аббас оглы.- Справочник по истории Коммунистической партии и Советского Союза 1898-1991.- web.archive.org/web/20121014031703/ http:/www.kvowbysight.info/ BBB/01187.asp.

31. Велизаде И. Вели Ахундов-человек из «оттепели».- azertag.az/ ru/xeber/ Veli_Ahundov_chelovek_iz_ottepeli-95/014.

32. Верховный совет Азербайджанской ССР (1920-1991-е годы.- meclis.gov.az/news/-az.php?id=15&lang=ru.

33. «Весь обмарался»: как убивали Берию.- gazeta.ru/science/ 2018/12/ 23/_a_12_12105331.shtml.

34. Закон СССР «О передаче Крымской области из состава РСФСР в состав Украинской ССР. Москва, Издание Верховного Совета СССР, 1954.

35. Исмаилов Э. Очерки по истории Азербайджана. Москва, «Флинта», 2010.

36. Мустафа Н. Депортация 1948-1953 годов.- iravan.preslib.az/ru/1948-1953_deportasiyasi.html.

37. Народное образование и культура в Азербайджанской Республике. Стат. сборник. Баку, «Азернешр», 1992.

38. Общая характеристика экономики.- Azərbaycan Milli Ensiklopediyası.- ensiklopediya.gov.az/terms/20227/cild/12.

39. Помреев Ю. Кровавый омут Карабаха. Баку, изд. «Азербайджан», 1992.

40. Притязания армян к АзССР после второй мировой войны (1945-1960-е гг.).- azerhistory.com/?p=21958.

41. Промышленность СССР. Стат. сборник. Москва, «Финансы и статистика».

42. Фурман Д.Е. Азербайджан и Россия: общества и государства. Москва, «Летний сад», 1999.

### *§ 4. Cənubi Azərbaycan və İran İslam inqilabı.*

«21 Azər» hərəkatı məğlub olduqdan sonra da Cənubi Azərbaycanda demokratik əhval-ruhiyyə yaşamaqda idi. Bu zaman Cənubi Azərbaycan Milli cəbhə lideri Məhəmməd Müsəddiq başda olmaqla antiimperialist, demokratikləşmə uğrunda mübarizədə fəal iştirak edirdi [6]. Təbriz bu hərəkatın mərkəzində dayanırdı.

Məhəmməd Müsəddiq Qacarlar nəslinə mənsub idi, atası Mirzə Hidayətulla xan Qacarlardan idi, anası Malikə Tac Xanım Müzəffərəddin Şah Qacarın (1833-1907) bacısı idi. O, dayısı Müzəffərəddin Şahın qızı Zəhra Xanımla evlənmişdi [8; 2]. O, Fransa və İsveçrədə hüquq təhsili almış, 1920-ci illərdən başlayaraq ictimai-siyasi həyatda fəal iştirak etmiş, Azərbaycanın valisi olmuş, Azərbaycanın mütərəqqi ziyalılarının rəğbətini qazanmışdı. M Müsəddiq 1923-cü ildə Rza xanın hakimiyyətə gəlməsini müsbət qarşılamadı, ictimai-siyasi fəlaiyyətini dayandırdı [20]. 1941-ci ildə Rza şah hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra siyasi fəaliyyətini bərpa etdi, demokratik düşüncəli insanların içərisində hörmət qazandı. O, tezliklə İran parlamentinə deputat seçildi, Milli Cəbhə adlı siyasi təşkilat yaratdı, 1949-cu il parlament seçkilərində Milli Cəbhə qalib gəldi. Müsəddiq 1951-ci ildə baş nazir oldu və Məhəmməd Rza şahın siyasətinə qarşı çıxaraq ölkədə demokratikləşmə prosesini başladı, xarici dövlətlərin, ilk növbədə İngiltərənin ölkədə ağalığına son qoymağa çalışdı, bir sıra qərarların qəbul olunmasına, o cümlədən neft sənayesinin milliləşdirlməsinə cəhd etdi [1, s.139; 7, s.134]. Lakin o, şahın və xarici qüvvələrin ciddi müqaviməti ilə üzləşdi.

İngiltərə ABŞ-la birlikdə onun hakimiyyətdən uzaqlaşdırılması üçün hərəkətə keçdi. M.Müsəddiq xalqın dəstəyinə arxlanaraq izdihamlı aksiyalar təşkil etdi, nəticədə Məhəməd Rza şah ölkədən Bağdada, oradan da Romaya qaçdı. Lakin İngiltərə və ABŞ xüsusi xidmət orqanları əks tədbirlərə əl atdı, şah tərəfdarlarını küçələrə çıxarda bildilər. Hərbçilər 1953-cü ilin avqustunda qiyam təşkil edərək Müsəddiqi devirdi, həbs etdirdi [22]. Onun barəsində ölüm hökmü çıxarıldı. Şah ölkəyə qayıtdı, ölüm hökmünü ləğv etdi, onu üç illik həbs və ömürlük ev dustqalığı ilə əvəz etdi. M.Müsəddiq 1967-ci ildə Tehran yaxınlığında öz malikanəsində vəfat etdi [7].

XX əsrin 60-cı illərinin əvvəli- 70-ci illərin ortalarında şah tərəfindən «Ağ inqilab» (dinc yolla həyata keçirildiyinə görə belə adlanırdı) adı altında həyata keçirilən islahatlar Cənubi Azərbaycanda da sosial ziddiyyətləri kəskinləşdirdi, [6] Azərbaycan kəndlilərinin iş dalınca digər vilayətlərə, xüsusən şəhərlərə axınını daha da gücləndirdi. Tehranda azərbaycanlıların sayı durmadan artmağa başladı. Azərbaycanlıların Tehran iqtisadiyyatına kapital qoyuluşu da artdı. Artıq, İslam inqilabı ərəfəsindəTehranda yaşayan azərbaycanlıların sayı bir milyonu ötmüşdü [1, s.140].

XX əsrin 60-70-ci illərində Cənubi Azərbaycanda bir sıra sənaye obyektləri, o cümlədənTəbrizdə maşınqayırma, neft emalı, Sofianda sement zavodu yaradılsa da, o, inkişaf sürətinə görə İranın digər bölgələrindən çox geridə qalırdı. Üstəlik şah hakimiyyəti burada da milli ayrı seçkilik, habelə farslaşdırma siyasətini yürütməkdə davam edirdi. Şahlığın «milli vəhdət» şüarı altında apardığı şo-

vinist siyasət Cənubi Azərbaycanda milli assimilyasiyanı gücləndirirdi. "Ağ inqilab" deyilən islahatlar torpaq, təhsil, seçkilər və digər sahələri əhatə edirdi [19]. «Ağ inqilab» zamanı maarif sahəsində həyata keçirilən islahatlar da digər xalqları, o cümlədən azərbaycanlıları məqsədyönlü olaraq farslaşdırmaq işinə xidmət edirdi. Bu siyasət azərbaycanlılara qarşı fars şovinizminin yeni təzahürü idi. Onun nəticəsində Azərbaycan dili yasaq vəziyyətinə düşmüş, bu dildə bütün növ nəşrlər qadağan edilmişdi. Məktəblərdə təhsil ancaq fars dilində aparılırdı. Bütün bunların nəticəsi olaraq ölkədə ümummilli böhran şəraiti yaranmışdı. Ölkəni sosial partlayış gözləyirdi [4, s.56-57, 63-64].

1977-ci ilin oktyabr-noyabr aylarında Tehran Universiteti tələbələrinin həyəcanlı çıxışları bu partlayışın yaxınlaşdığından xəbər verirdi. Cənubi Azərbaycanda da belə vəziyyət yaranmışdı. Təbriz tələbələrinin ən böyük çıxışlarından biri «21 Azər» hərəkatının (1945-ci il 12 dekabr) ildönümü münasibətilə dekabrın 12-də oldu. Çıxış zamanı tələbələrlə polis arasında ciddi toqquşma baş verdi [9].

1978-ci ilin əvvəllərində İranın dini şəhəri olan Qumda şahlıq hakimiyyətinə qarşı çıxışlar Cənubi Azərbaycanda da inqilabi əhval-ruhiyyəni gücləndirdi. Başda ayətulla Seyid Məhəmməd Kazım Şəriətmədari olmaqla Qumdakı yüksək rütbəli azərbaycanlı din xadimlərindən 5 nəfərinin imzaladığı müraciətə cavab olaraq, 1978-ci il fevralın 18-də Təbrizdə əzəmətli nümayiş başladı. Nümayişdə 100 mindən çox adam iştirak edirdi. Nümayiş tezliklə şah rejiminə qarşı üsyana çevrildi. O, hicri tarixlə 1356-cı il bəhmən ayının 29-da (1978-ci il fevralın 18-də) baş verdiyindən

Azərbaycan tarixinə "29 bəhmən üsyanı" kimi daxil oldu [17, s.81]. Təbrizdəki polisə və ordu hissələrinə etibar etməyən şah ertəsi gün başqa şəhərlərdən Təbrizə yeni hərbi qüvvələr gətirməli oldu. Üsyançılarla ordu hissələri arasında silahlı toqquşmalar baş verdi və axşamadək davam etdi. Toqquşmalar zamanı yüzlərlə ölən və yaralananlar oldu. Şəhərdə kütləvi həbslər və axtarışlar başlandı. Təbrizdəki üsyan öz əks-sədasını Cənubi Azərbaycanın digər şəhərlərində və yaxın kəndlərində də tapdı. Təbrizdəki "29 bəhmən üsyanı" İran inqilabının başlanğıc hadisəsi oldu [3]. Məhz bu hadisədən sonra şahlıq əleyhinə çıxışlar bütün ölkəni bürüdü.

"29 bəhmən üsyanı"ndan 40 gün sonra, mart ayının 29-30-da İranın bir çox şəhərlərində, o cümlədən Tehranda, İsfahanda, Məşhəddə, Qumda, Təbrizdə, Zəncanda yenidən izdihamlı çıxışlar başladı. Təbrizdəki çıxış zamanı üsyançılar banklara, kinoteatrlara, dövlət idarələrinə basqınlar təşkil etdilər. Mart hadisələrinin qırxıncı günü (mayın 9- 10 –da) İranın 20-dən çox şəhərində yenidən kütləvi çıxışlar baş verdi [6]. Çıxışlar Qum və Təbriz şəhərlərində daha izdihamlı keçdi. Nümayişçilər küçələrə siyasi şüarlarla çıxdılar. Təbrizdə İmam Əlinin (Ə) qətli gününə - 24 avqusta həsr edilmiş nümayiş xüsusilə fərqləndi. O, İran inqilabının ilk mərhələlərində baş vermiş nümayişlərin ən izdihamlısı oldu. Nümayişdə yüzminlərlə adam iştirak etdi. İnqilab dövrü nümayişlərdə əhalinin əksər sosial təbəqələri və onlara yaxın olan qüvvələr, o cümlədən tələbələr aparıcı rol oynadılar.

1978-ci ilin payızına qədər inqilabi hərəkata əsasən Kazım Şəriətmədari rəhbərlik edirdi. Bu vaxt Xomeyni

amili qabarıq şəkildə ortaya çıxdı. O, xaricdən hərəkata rəhbərlik etməyə başladı. Ayətulla Ruhulla Xomeyni hələ XX əsrin 60-cı illərindən şahlığın və İranda ABŞ nüfuzunun artması əleyhinə olan şəxs kimi məşhurlaşmışdı. Dəfələrlə həbs olunmuş və 1964-cü ildə Türkiyəyə sürgün edilmiş [13, s.49], sonra oradan İraqa, Nəcəf şəhərinə köçmüşdü [14, s.36]. O, 1978-ci il oktyabrın əvvəllərində İraq hökümətinin təkidi ilə oranı tərk edərək Parisə getməli olmuşdu [12, s.242]. O, burada İran milli cəbhəsinin başçısı Kərim Səncabi ilə görüşmüş, İranda Pəhləvi sülaləsinin hakimiyyətinin ləğv olunmasının zəruriliyi barədə birgə bəyanat imzalamışdılar [16, s.327-368]. Bəyanatın mətni İrana gətirilərək hərbi vəziyyət şəraitində yeganə leqal yığıncaq yeri olan məscidlərdə səsləndirilməklə əhaliyə çatdırılmışdı.

Nəhayət, 1979-cu il yanvarın 16-da rejimdən narazı olan xalqın təkidli tələbi və təzyiqi sayəsində 50 ildən çox İranda ağalıq edən Pəhləvi sülaləsinin nümayəndəsi Məhəmməd Rza şah ölkədən qaçmalı oldu (O, Misirə getdi, sonra bir sıra ölkələrdə oldu, ABŞ-da müalicə olundu, 1980-ci ildə 60 yaşında Qahirədə öldü, orada dəfn olundu). Bu, İranda monarxiya rejiminin ləğv edilməsində ilk qələbə idi. Xalq bu qələbəni  böyük təntənə ilə qarşıladı. Fevralın1-də ayətulla Xomeyni Parisdən Tehrana qayıtdı. Cənubi Azərbaycan əhalisi də  bu hadisəni izdihamlı nümayişlərlə qarşıladı [10]. 1979-cu il fevralın 11-də şahpərəst qüvvələrin müqavimətinə baxmayaraq, İranın paytaxtı inqilabçıların nəzarətinə keçdi. Təbrizdə isə  inqilabçılarla şahpərəst qüvvələr  arasında silahlı  qarşıdurma fevralın ortalarına kimi davam etdi. Fevralın 16-da Cənu-

bi Azərbaycanda inqilab qələbə çaldı. 1979-cu il aprelin 1-də İran İslam Respublikasının yaradıldığı elan edildi [1, s.142]. 1978-1979-cu illər İran inqilabı zamanı 25 min nəfərə qədər azərbaycanlı həlak oldu [11]. Buna baxmayaraq, əfsuslar olsunki, Azərbaycan xalqı heç bir şey qazanmadı. Nə muxtariyyətə nail oldu, nə də milli-mənəvi dəyərlərini qoruyub saxlamaq və inkişaf etdirmək imkanı əldə etdi. Onun sosial-siyasi və mədəni durumu demək olar ki, şahlıq rejimi dövründə olduğu kimi qaldı. Milli dilini və mədəniyyətini inkişaf etdirmək imkanlarından məhrum edildi. İran Respublikası əhalisinin təqribən yarısını təşkil edən azərbaycanlılar İslam bayrağı altında yeridilən fars şovinizmi siyasətinin təsiri altında qaldılar.

Monarxiyanın devrilməsi ilə yeni rejim Azərbaycanda yerli dilin işlədilməsi qadağasını ləğv etdi. Lakin Pəhləvi dövrünün "vahid iran milləti" ifadəsinin əvəzinə "vahid müsəlman birliyi" anlayışını ortaya gətirdilər. Bununla da yeni "vahidlik" vurğulanırdı [5]. Azərbaycanda ana dilində qəzet və jurnallar çıxmağa, kitablar nəşr olunmağa başladı, mədəni və siyasi birliklər yaradıldı. Azərbaycanda milli proseslərə ayətulla Şəriətmədari başçılıq edirdi. Xomeyni və Şəriətmədari arasında ölkənin siyasi quruluşu ilə bağlıl fikir ayrılığı var idi [17, s.86]. Xomeyni dini, Şəriətmədari isə əsasən dünyəvi dövlətin qurulmasını təklif edirdi [21, s.112-113]. Xomeyni öz istəklərinə uyğun konstitusiya layihələrini təklif etdi və istədiyinə nail oldu. 1979-cu ilin dekabrında yeni konstitusiya qəbul olundu. Konstitusiyada qeyd olundu ki, ali hakimiyyət Xomeyni və onun varislərinin şəxsində ruhanilərə aiddir, mülki hakimiyyəti isə prezident və digərləri həyata keçirir [18, s.355].

Şəriətmədari ruhani hakimyyəti ilə yanaşı, ölüm cəzası, camaatın gözü qarşısında adamların çubuqla döyülməsi, edamların həyata keçirilməsi, ziyalıların təqib olunması, ABŞ səfirliyində adamların girov götürülməsi və digər ifrat tədbirlərə qarşı çıxırdı. Xomeyni hakimiyyəti tezliklə sərt cəza tədbirlərinə keçdi, müxalif qurumları qadağan etdi, Şəriətmədari 1979-cu ilin dekabrında ev dustağı edildi. O, ömrünün sonuna qədər ev dustaqlığında qaldı və 1986-cı ildə vəfat etdi [15]. İnqilabın ilk aylarında elan olunmuş azadlıqlar, o cümlədən milli azadlıqlar ləğv edildi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Bədəlova R.İ. İran dünya siyasətində. “Bakı Universitetinin Xəbərləri”, Sosial-siyasi elmlər seriyası, 2010, №2.

2. Çingizoğlu Ə. Neftin yiyəsini tanımayan baş nazir.- reyting.az/muellifler/enver- cingizoglu/34720-neftin-yiyesini-tanimayan-bash-nazir.html.

3. Hacıyeva M. 1978-1979-cu illər İran inqilabının birinci mərhələsi ərəfəsində və onun gedişində Cənubi Azərbaycanda Azadlıq hərəkatı. Sumqayıt Dövlət Universiteti. “Elmi Xəbərlər”. Sosial humanitar elmlər bölməsi. Cild 16, №3, 2020, s. 56-57.- anl.az/down/meqale/sdu_elm_xeber/2020/03/798624 (meqale).pdf.

4. Hacıyeva Y. İran İslam inqilabından sonra Cənubi azərbaycanlıların ana dili uğrunda mübarizəsi (1979-2005-ci illər). Bakı, “Adiloğlu” nəşriyyatı, 2017.

5. İranda milli məsələnin qoyuluşu.- “Xalq cəbhəsi” qəzeti, 2018, 3 iyul, s. 14.

6. İran tarixi İkinci dünya müharibəsindən sonra.- melumatlar.az/blog/15960/iran-tarixi-ikinci-dunya-muharibesinden-sonra.

7. İsmayılov R, Axundova N. Asiya və Afrika ölkələrinin çağdaş tarixi (1945-2000), I kitab. Bakı, "Adiloğlu", 2005.

8. Müsəddiq M. axtar.len.az/?q=Mehemmed_Musaddiq.

9. 1978-79-cu illər İran inqilabı və Cənubi Azərbaycan, 15 dekabr 2011.- kayzen.az/blog/Azərbaycan tarixi/5576/1978-79-cu-illər-iran-inqilabı-və-cənubi-azərbaycan.html.

10. Ömərov V. Cənubi Azərbaycan islam inqilabı şəraitində.- "Səs" qəzeti, 2012, 5 dekabr, s. 14.

11. Süleymanoğlu F.- İslam inqilabı və ana dili problemi.- azerbaijan-news.az/posts/detail/islam-inqilabi-ve-ana-dili-problemi-1672180714.

12. Chehabi, H.E.Iranian Politics and Religious Modernizm: The Liberation Movement of Iran Under the Shah and Khomeini.- Cornell University Press, 1 edition (Janvary 1, 1990), 1990.

13. Hiro, Dilip. Iran Under the Ayatollahs (Routledge Revivals).- Routledge, 1 edition (Febrary 16, 2013).

14. Koya, Abdar Rahman. Imam Khomeni: life, Thought and Legacy.- Islamic Book Trust (June 1, 2010), 2009.

15. Mohammad Kazem Shariat-Madari.- britanica.com/biography/ Mohammad-Kazem-Shariat-Madari.

16. Nikezmezad Nikolas M. A choron olical surbey of the Iranian revolution.// Iranian Studies.- 1980, t. 13, №1-4.

17. Shaffer B. Borders and Brethren: Iran and the Challenge of Azerbaijani identity. Cambridge: Belfer Center for Science and international Affairs. Studies in international Security, 2002.

18. Васильев Л.С. История Востока, т.2. Москва, «Высшая школа», 1994.

19. Князев С., Комарова Е. Третий путь: как в Иране победила Исламская ревалюция, 9 января 2023 г.- russian.rt.com/science/article/ 1091242-islamskaya-revolyuciya-iran.

20. Мосаддык Мохаммад.- iran1979.ru/mosaddyk-moxammad/.

21. Трубецкой В.В.Особенности национальной ситуации в Исламской Республике Иран.// Национальный вопрос в странах Востока. Москва, «Наука», 1986.

22. ЦРУ причастен к организации переворота в Иране в 1953 г.- bbc.com/Russian/international/2013/08/130820_cia_iran_coup; 60-летие операции «Аякс».- svoboda.org/a/25079131.html.

# XIII fəsil. Dövlət müstəqilliyinin bərpa edilməsi. İkinci Azərbaycan –Ermənistan müharibəsinin ilkin dövrü

## *§ 1. Sovet imperiyasının süqutu. Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi.*

1980-ci illərin ortalarından başlayaraq "SSRİ" deyilən Sovet imperiyası iqtisadi-siyasi böhran və tənəzzül mərhələsinə daxil oldu. Müxtəlif iqtisadi proqramlar qəbul etməklə və ya struktur dəyişiklikləri yolu ilə hakimiyyət mövcud siyasi sistemi qoruyub saxlamağa çalışırdı. Belə cəhdlərdən biri, həm də ən sonuncusu 1985-1986-cı illərdə Yenidənqurma proqramı oldu. Lakin SSRİ-ni bu islahatlar proqramı da qurtara bilmədi, əksinə prosesi daha da tezləşdirdi. Bu vaxt Azərbaycanda hakimiyyət dəyişikliyi baş verdi. 1988-ci ilin mayında Moskva Əbdürrəhman Vəzirovu Kamran Bağırovun əvəzinə hakimiyyətə gətirdi. Onun cəhdləri heç bir nəticə vermədi, 1990-cı il 20 Yanvar faciəsindən sonra Moskvaya qaytarıldı. Hakimiyyət kürsüsündə onu Ayaz Mütəllibov əvəz etdi [1].

1980-ci illərin sonuna doğru SSRİ və onun sosialist düşərgəsi çox gərgin bir böhranla üzləşdi. ABŞ və onun müttəfiqləri isə SSRİ-nin zəifləməsindən istifadə edərək tədricən onun təsir dairəsində olan ölkələrə və bölgələrə daxil olmağa başladılar. Afrikada Somali, Anqola, Konqo, Mozambik, Asiyada Vyetnam, Əfqanıstan, Çin, Şimali Koreya, Amerikada Kuba, Avropada Macarıstan, Şərqi Almaniya, Polşa, Çexoslovakiya, Yuqoslaviya və digərləri bu düşərgəyə daxil idi. Az vaxt ərzində böyük dəyişikliklər

baş verdi, onlar sosialist perspektivindən ya tam imtina etdilər, ya da, məsələn, Çin kimi təkamül formasını tətbiq etdilər. Millətlər bir-birinin ardınca SSRİ-yə, sosializm quruluşuna qarşı hərəkata başladılar.

Bu dövrdə Azərbaycanda ictimai-siyasi həyat bir qədər canlandı. 1987-1988-ci illərdə Bəxtiyar Tuncay, Tofiq Rəsulzadə, Fuad Ağayev, Məhəmməd Hatəmi Tantəkin, Ağası Hun, Vurğun Əyyub, İsa Qəmbər və digərlərinin iştirakı ilə "Bakı Alimlər klubu", "Varlıq", "Çənlibel", "Oğuz" və digər təşkilatlar yaradıldı. Bu təşkilatlar əsasən maarifləndirmə fəaliyyəti ilə məşğul idi [4]. Xalq həm müstəqillik uğrunda, həm də Qarabağda erməni iddialarına qarşı mübarizəyə qalxdı. 1988-ci ilin fevral ayında ilk çıxışlar başladı, noyabrın 17-dən dekabrın 4-ə qədər Azadlıq (o vaxt Lenin meydanı) meydanında fasiləsiz mitinq keçirildi. Nemət Pənahlı, İsa Qəmbər, Sabir Rüstəmxanlı, Etibar Məmmədov, Əbülfəz Elçibəy, Rəhim Qazıyev və digərləri mitinqə rəhbərlik etdilər. Xalq hərəkatının nəticəsi olaraq, 1989-cu il iyulun 16-da Bakıda keçirilən təsis konfransında Azərbaycan Xalq Cəbhəsi (AXC) yaradıldı. Ə.Elçibəy sədr, İ.Qəmbər, E.Məmmədov, R.Qazıyev, T.Qasımov və digərləri İdarə heyətinə seçildilər [5, s.635].

"İttifaq respublikaları" 1990-1991-ci illərdə SSRİ-nin tərkibindən çıxmaqla bağlı qanun və qərarlar qəbul etdilər. Bütün istiqamətlərdə SSRİ-nin dağılması prosesi sürətləndi. İmperiya son günlərində bir sıra qanlı hadisələr törətdi. 1989-cu il aprelin 9-da Gürcüstanın paytaxtı Tiflis şəhərində xalq hərəkatı silahla yatırıldı, 21 nəfər həlak oldu, 100 nəfərə yaxın yaralandı, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanın paytaxtı Bakı şəhərin-

də xalq hərəkatına divan tutuldu, 131 nəfər qətlə yetirildi, 700 nəfərdən çox adam yaralandı, 1991-ci il yanvarın 11-13-də Litvanın paytaxtı Vilnüsdə dinc nümayiş dağıdıldı. 13 nəfər həlak oldu, 600-ə qədər adam yaralandı. Bakıda sovet qoşunları xüsusi qəddarlıq və vəhşiliklə hərəkət etdilər. Azərbaycan xalqı imperiyaya qarşı güc və iradəsini göstərdi. Hər yerdə Sovet rəhbərliyinin bu cinayəti pisləndi. Tanınmış siyasi xadim, dövlət adamı Heydər Əliyev Moskvada Azərbaycan nümayəndəliyinə gedərək çıxış etdi, bu cinayəti ittiham etdi [11, s.15]. Gözlənilməz reaksiyalar da oldu. ABŞ prezidenti Corc Buş Kremlin bu cinayətinə bəraət qazandıraraq, "asayişi bərqərar etmək" üçün zəruri addım adlandırdı. İngiltərənin baş naziri M. Tetçer sonralar etiraf etdi ki, ABŞ prezidenti Corc Buş, Fransa prezidenti F. Mitteran və o, özü 20 Yanvar qırğınına etiraz etmədilər: "Biz bu addımın vacibliyini başa düşdük". [10, s.26-27].

Bütün bu cinayətlərin təşkilatçısı olan Mixail Qorbaçov imperiyanı xilas etmək üçün siyasi dəyişikliklər etdi, prezident üsul-idarəsinə keçdi, 1990-cı ilin mart ayında SSRİ-nin prezidenti oldu. O, növbəti addım kimi, 1991-ci il martın 17-də SSRİ-nin saxlanılmasına dair referendum keçirdi. İttifaq üzrə referendumda iştirak edənlərin 76%-i SSRİ-nin saxlanılmasının lehinə "səs verdi". Azərbaycanda bu rəqəm 93% oldu [13, s.350]. Yalnız Naxçıvan bölgəsi referendumda iştirak etmədi. Həmin vaxt Heydər Əliyev Naxçıvanda idi. O, 1987-ci ilin oktyabrında M.Qorbaçovun qərəzli mövqeyi nəticəsində SSRİ rəhbərliyindəki vəzifələrindən uzaqlaşdırılmış, bir müddət Moskvada yaşadıqdan sonra 1990-cı ilin iyulunda Bakıya, oradan da

Naxçıvana qayıtmışdı və müəyyən çərçivələr daxilində siyasi proseslərdə iştirak edir, AXC-nin Naxçıvan şöbəsi ilə də əlaqələrini saxlayırdı. H.Əliyevin və Xalq Cəbhəsi fəallarının müqaviməti nəticəsində Naxçıvan 17 mart referendumunu boykot etdi. H.Əliyev həmin ilin sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçildi, geniş siyasi fəaliyyətə başlayaraq, 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasını yaratdı.

M.Qorbaçovun 17 mart referendumu da SSRİ-ni xilas edə bilmədi. Hadisələr sürətlə inkişaf edir, M.Qorbaçovla yanaşı SSRİ-nin digər rəhbərləri də vəziyyətdən çıxış yolu tapmağa çalışırdı. SSRİ rəhbərliyinin bir qrupu vəziyyətdən çıxış yolu kimi dövlət çevrilişi həyata keçirməyə, M.Qorbaçovu hakimiyyətdən kənarlaşdırmağa cəhd etdi. Ölkənin vitse-prezidenti Gennadi Yanayev, dövlət təhlükəsizliyi komitəsinin sədri Vladimir Kryuçkov, daxili işlər naziri Boris Puqo, müdafiə naziri Dmitri Yazov və digərlərinin daxil olduğu qrup 1991-ci il avqustun 18-də Krımın Foros şəhərində dövlət iqamətgahında istirahətdə olan M.Qorbaçovu faktiki olaraq həbs etdilər. Məsələnin mahiyyəti ondan ibarət idi ki, M.Qorbaçov avqustun 20-də SSRİ-nin ləğvi və Suveren Dövlətlərin Federativ Birliyi adlı yeni qurumun yaradılmasına dair sənədi imzalamağa hazırlaşırdı. Onlar M.Qorbaçova bu fikirdən geri çəkilməyi təklif etdilər. M.Qorbaçov bu təkliflə razılaşmadığına görə avqustun 19-da onun hakimiyyətdən kənarlaşdırıldığı və ölkədə Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin (rusca "Государственный Комитет по Чрезвычайному Положению-QKÇP) yaradıldığını, həmin orqanın hakimiyyəti ələ aldığını elan etdilər. "QKÇP qiyamı" və ya

"Avqust qiyamı" adlandırılan bu çevriliş cəhdinin qarşısı Rusiya lideri Boris Yeltsinin rəhbərliyi ilə alındı və M.Qorbaçov avqustun 22-də Moskvaya, öz vəzifəsinə qayıtdı [8]. Bəzi totalitar ölkələr qiyam cəhdini alqışladı, Qərb ölkələri isə birmənalı şəkildə M.Qorbaçovu müdafiə etdi.

M.Qorbaçovun hakimiyyətə qayıtması proseslərin qarşısını ala bilmədi. Rusiya Federasiyası, Ukrayna, Belarus rəhbərləri 1991-ci il dekabrın 8-də Belarusun Belovejsk meşəsində "Viskuli" hökümət iqamətgahında SSRİ-nin ləğvi və Müstəqil Dövlətlər Birliyinin (MDB) yaranmasına dair saziş imzaladılar. Sazişə Belarusdan Stanislav Şuşkeviç, Rusiyadan Boris Yeltsin, Ukraynadan Leonid Kravçuk qol çəkdilər [9, s.50-51]. Bununla Sovet imperiyasının mövcudluğuna son qoyuldu. 1991-ci il dekabrın 21-də Qazaxstanın paytaxtı Alma-Atı şəhərində Rusiya, Ukrayna, Belarus, Azərbaycan, Ermənistan, Qazaxstan, Özbəkistan və digər respublikaların prezidentlərinin iştirakı ilə toplantı keçirildi, iştirakçılar SSRİ-nin ləğvi, MDB-nin yaradılması ilə bağlı sazişə qoşulmaq haqqında Alma-Atı Bəyannaməsini imzaladılar (Azərbaycan MDB-yə rəsmən 1993-cü il 24 sentyabrda daxil oldu). Baltikayanı respublikalar (Latviya, Litva, Estoniya) MDB-yə daxil olmadı.

Xalqın təzyiqi və o zamankı ictimai-siyasi proseslərin təsiri ilə Azərbaycan SSR Ali Soveti 30 avqust 1991-ci ildə "Müstəqillik haqqında Bəyannamə" və 18 oktyabr 1991-ci ildə "Müstəqillik haqqında Konstitusiya Aktı" qəbul etdi. Bu sənədlərin hüquqi qüvvəyə minməsini təsdiqləyən "Müstəqillik haqqında" referendum 1991-ci il dekabrın 29-da keçirildi. Bu tarixi sənədlərlə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. Azərbaycanın siyasi təsisatları

da müstəqillik dövrünə uyğunlaşdırıldı. Parlamentin quruluşu, iş qayda və prinsipləri yeniləndi. Ölkədə ümumi seçkilərlə seçilən Prezident institutu təsis edildi, 1991-ci il 8 sentyabr ümumi seçkiləri ilə Ayaz Mütəllibov Azərbaycanın ilk prezidenti seçildi (o, bir qədər əvvəl, 1990-cı ilin may ayında Ali Sovet tərəfindən prezident seçilmişdi). 1991-ci ilin noyabrından ilin sonuna qədər Azərbaycanın müstəqilliyini ilk olaraq Türkiyə, Rumıniya, Pakistan, İsveçrə, İran, İsrail, 1992-ci ildə isə ABŞ, Rusiya və digər ölkələr tanıdılar. Azərbaycan 1991-ci ilin oktyabrında İslam Konfransı Təşkilatının, 1992-ci il yanvarın 30-da ATƏM-in (1995-ci ildən ATƏT), həmin il martın 2-də isə BMT-nin, yenə həmin ilin iyununda UNESCO-nun tamhüquqlu üzvü oldu [7].

Azərbaycan Respublikası müstəqillik dövrünün ilk illərində bir sıra problem və çətinliklərlə üz-üzə qalmışdı. 1990-cı illə müqayisədə istehsalın bütün sahələrində illik artım sürəti azı 25%-30% aşağı düşmüşdü. Bu mərhələdə respublika iqtisadiyyatının inkişafına mənfi təsir göstərən bir çox güclü amilər var idi. Bu amillərdən Ermənistanın təcavüzü, keçmiş SSRİ-nin regionları ilə iqtisadi əlaqələrin kəsilməsi, siyasi rəhbərliyin aydın fəaliyyət planının olmaması, hakimiyyət uğrunda kəskin mübarizənin aparılmasını və digərlərini göstərmək olar.

1992-ci ilin əvvəlindən Azərbaycanda siyasi mübarizə daha da kəskinləşdi, bir çox hallarda milli maraqlar arxa plana keçdi. Azərbaycan Xalq Cəbhəsi nəyin bahasına olursa-olsun, Ayaz Mütəllibovu hakimiyyətdən devirmək xəttini götürdü. A.Müətllibovun AXC ilə kompromislərə getmək cəhdləri nəticə vermədi. Tərəflər hakimiyyət uğ-

runda mübarizənin gedişində çox vaxt Qarabağ cəbhəsindəki ağır vəziyyətdən sui-istfadə hallarından da çəkinmirdi. Xocalı faciəsindən sonra AXC hakimiyyətə gəlmək üçün cəhdlərini sürətləndirdi, A.Mütəllibov ölkəyə nəzarəti tam itirdi və 1992-ci il martın 6-da Milli Məclisin binasını mühasirə etmiş AXC fəallarının, həmçinin binanın daxilindəki müxalifət liderlərinin təzyiqləri altında istefa verməli oldu. Dövlət başçısı səlahiyyətləri Milli Şuranın sədri Yaqub Məmmədova keçdi. (1990-cı il sentyabrın 30-da Ali Sovetə keçirilən seçkilərdə 360 deputat yerinin əksəriyyətini (280 yer) kommunistlər, 45 yeri isə AXC qazanmışdı. AXC azlıqda olmasına baxmayarq, "Demblok" deyilən fraksiya yaratmışdı və faktiki olaraq qərarların qəbuluna təsir edə bilirdi. Onların təkidi ilə 1991-ci ilin sonlarında hakimiyyət və müxalifətin hər birindən 25 deputat olmaqla Milli Şura yaradıldı və bu qurum faktiki olaraq Ali Sovetin fəaliyyətini əvəz etdi. Milli Şuranın sədri vəzifəsini 1992-ci il martın 5-də Yaqub Məmmədov tutdu. O, bu vəzifədə Elmira Qafarovanı (1989-1992) əvəz etdi.).

Y.Məmmədov ağır şəraitdə ölkəni idarə etməyə, müxtəlif siyasi, həmçinin hərbi qüvvələr arasında manevr etməyə çalışırdı. A.Mütəllibov 1992-ci il mayın 14-də Moskvanın dəstəyi və parlamentin qərarı ilə yenidən hakimiyyətə qayıtdı. Lakin ertəsi gün AXC-nin izdihamlı mitinqi, parlamentin binasının mühasirəyə alınmasından sonra yenidən istefa verib, Moskvaya getdi [1] (O, Rusiya mühacirətindən yalnız 2012-ci ildə vətənə dönə bildi, prezident imtiyazları bərpa olundu, 2022-ci ilin martında vəfat etdi, Birinci Fəxri Xiyabanda dəfn olundu).

A.Mütəlibovun ikinci dəfə istefa verməsindən sonra AXC-nin hakimiyyətə doğru yolu açıldı. 1992-ci il mayın18-də müxalifətin liderlərindən İsa Qəmbər parlamentin sədri, həmin vaxta qədər sədrin müavini olan Tamerlan Qarayev birinci müavin vəzifəsinə seçildi. Həmin il iyunun 7-də prezident seçkiləri keçirildi. Əbülfəz Elçibəy prezident seçildi [6]. Ağır mübarizə şəraitində, iqtisadi, sosial problemlərin kəskinləşdiyi bir dövrdə hakimiyyətə gələn yeni qüvvələr ciddi nəticlərə nail ola, ölkəni böhran vəziyyətindən çıxara bilmədi. Siyasi rəhbərliyin əksəriyyəti vətənə, dövlətə sadiq insanlar idi. Amma dövlətçilik təcrübələri, kadr ehtiyatları yox dərəcəsində idi. Onlar milli valyutanın-manatın dövriyyəyə buraxılması (Azərbaycan manatının hazırlanmasına A.Mütəllibovun vaxtında başlanmış, Əbülfəz Elçibəyin vaxtında, 1992-ci ilin avqustunda dövriyyəyə buraxılmışdı), ali məktəblərə qəbulda test üsulunun tətbiqi və sair addımlar atdılar. Müstəqilliyimizi ehtiva edən bir sıra tədbirlər həyata keçirildi. Hələ 1991-ci il fevralın 5-də üçrəngli Dövlət Bayrağı bərpa edilmişdi. 1992-ci il mayın 27-də Dövlət himni qəbul edildi, 1993-cü il fevralın 23-də Dövlət gerbi təsdiq olundu.

Lakin yeni hökumət dövlətimizin qarşısında duran strateji məqsədlərə nail olmaq baxımından əvvəlki hökumətdən uzağa gedə bilmədi. 1992-93-cü illərdə Azərbaycanda dövlət quruculuğu sahəsində hərc-mərclik, özbaşınalıq hökm sürürdü. Bu dövrdə Azərbaycan iqtisadiyyatının ən mühüm problemi istehsalın, investisiya qoyuluşunun aşağı düşməsi idi. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə təkcə 1992-1993-cü illər ərzində ümumi daxili məhsul və sənaye

məhsulu istehsalı 2 dəfə, kənd təsərrüfatı məhsulu 35%, əsaslı vəsait qoyuluşu 64% azaldı. Qısa müddətdə inflyasiya sürətlə artdı. İstehlak mallarının qiyməti 124 dəfə bahalaşdı [2, s.449.].

1992-1993-cü illərdə Azərbaycan hökuməti xarici siyasət sahəsində də bir sıra səhvlərə yol verdi. Bir sıra dövlətlər, o cümldən, ABŞ, Rusiya, İran, Çin, Özbəkistanla münasibətlərdə kobud səhvlər oldu, hətta qardaş Türkiyə ilə münasibətlər real siyasət müstəvisinə keçirilmədi, beynəlxalq və regional təşkilatlarla səmərəli iş qurulmadı, xarici münasibətlərdə ciddi rol oynayan neft siyasətində səhvlərə yol verildi.

Daxili və xarici siyasətdəki uğursuzluqlar Azərbaycanı ağır vəziyyətə saldı. 1992-ci ilin sonu 1993-cü ilin əvvəlində ölkə ağır siyasi böhran vəziyyətinə düşdü. 1993-cü ilin yanvarında Surət Hüseynovun başçılığı altında təhlükəli hərbi müxalifət ortaya çıxdı. Az sonra bu müxalifət ölkənin Gəncə və ətraf bölgələrini nəzarətə götürdü, hakimiyyətin istefası tələbini irəli sürdü. 1993-cü ilin yayında ölkənin cənubunda Əlikram Hümbətovun başçılığı ilə separatçı hərəkat başladı, qondarma “Talış-Muğan Respublikası” yaradıldı. Təxminən eyni vaxtda şimalda separatçı “Sadval”  hərəkatı fəallaşdı, Qusar, Quba, Xaçmaz rayonlarını nəzarətə götürməyə cəhd etdi.  Bütün bunlar xarici dövlətlərin siyasəti və himayəsi altında həyata keçirilirdi. Uğursuz daxili siyasət isə bu təxribatların həyata keçirilməsi üçün əlverişli zəmin yaradırdı. Bu hadisələrin fonunda Ermənistan da işğalçı hücumlarını genişləndiridi. Bu şəraitdə Azərbaycan dövlətçiliyi təhlükə qarşısında idi, ölkə bir neçə yerə parçalana, müstəqilliyini itirə bilərdi.

Hadisələr polkovnik Surət Hüseynovun Bakı istiqamətində yürüşə başlaması ilə fəlakətli həddə çatdı. 1993-cü il iyunun 4-də hökumət qüvvələri qiyamı yatırtmaq üçün Gəncəyə yeridlidi. Qiyamçılarla hökumət qüvvələri arasında atışma baş verdi, hər iki tərəfdən 35 nəfər həlak odu. S.Hüseynovun qüvvələri Gəncəyə gələnlərin bir hissəsini, o cümlədən baş prokuror İxtiyar Şirinov, Milli Təhlükəsizik nazirinin birinci müavini Sülhəddin Əkbərov, Daxili işlər nazirinin müavini Qabil Məmmədovu və digərlərini həbs etdi. S.Hüseynovun qüvvələri ertəsi gün prezident Ə.Elçibəyin istefası tələbi ilə Bakıya doğru hərəkət etdi, Ələt və Acıdərə istiqamətlərində paytaxta yaxınlaşdı [11]. Ə.Elçibəy vəziyyətdən çıxış yolu kimi Heydər Əliyevi Bakıya dəvət etdi. Hakim komandadan baş nazir Pənah Hüseyn iyunun 7-də istefa verdi. H.Əliyev iyunun 9-da Bakıya gəldi, ertəsi gün prezident Ə.Elçibəylə görüşdü, vəziyyətdən çıxmaq üçün Ali Sovetin sədri vəzifəsini tutmağa razılaşdı, birgə hərəkət etmək üçün razılığa gəldilər. Ali Sovetin sədri İsa Qəmbər iyunun 13-də istefa verdi. H.Əliyev həmin gün Gəncəyə getdi, 2 gün ərzində S.Hüseynovla danışıqlar apardı, böhrandan çıxmaq üçün bəzi məsələləri razılaşdırdılar. Əhalinin böyük əksəriyyəti tərəfindən rəğbətlə qarşılanan ümummilli lider H.Əliyev iyunun 15-də Bakıya qayıtdı, həmin gün Ali Sovetin sədri seçildi. İyunun 17-dən 18-nə keçən gecə prezident Elçibəy müəmmalı şəraitdə gözlənilmədən təyyarə ilə Naxçıvana, oradan isə doğma kəndi Kələkiyə getdi. İyunun 24-də Ali Sovet prezident səlahiyyətlərinin H.Əliyevə verilməsinə dair qərar qəbul etdi [3, s.137-138]. Üç gün sonra S.Hüseynov Bakıya gəldi, iyunun 30- da isə baş nazir və bütün

təhlükəsizlik qüvvələrinin "baş komandanı" təyin edildi. Bununla Ulu Öndər H.Əliyev hakimiyyətə qayıtdı, hərbi-siaysi böhran qismən aradan qaldırıldı, ölkədə vəziyyətin nizama salınması üçün şərait yarandı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycanın ilk prezidenti necə xatırlanacaq?- bbc.com/azeri/azerbaijan-60898848.

2. Qəniyev H. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. "Elm və Təhsil" nəşriyyatı. Bakı, 2019.

3. Naxçıvan ensiklopediyası, Bakı, Elm, 2002.

4. Tuncay B. Azərbaycan xalqının Çənlibel təşkilatının tarixi.-muhaz.org/bextiyar-tuncay-azerbaycan-xalqnn-cenlibel-teşkilatnn-tarix-se.html.

5. Yaqublu N. Azərbaycan Milli Azadlıq Hərəkatı Ensiklopediyası. Bakı: "Qanun" Nəşriyyatı, 2018.

6. "Azerbaijan profile-Timeline". –bbc.com/news/world-europe-17047328.

7. "The World Factbook: Azerbaijan.-cia.gov/library/publikations/the world- factbook/glos/aj.html.

8. Августовский кризис 1991. Большая Российская энциклопедия.-bigenc.ru/domestic_history/text/3785347.

9. Беловежские соглашения// Новая Российская Энциклопедия. Т. III (I). Москва, Инфра, 2007.

10. Зверев А. Этнические конфликты на Кавказе, 1988-1994 г.// Спорные границы на Кавказе. Москва, «Весь мир», 1996.

11. Зенькович Н. Самые закрытые люди: энциклопедия биографий. Алиев Г.А.- Москва, Олма-Пресс, 2002.

12. Мехтиев А. Мятежный полковник хочеть быть президентом// Независимая газета, Москва, 18.06.1993.

13. Постановление ВС СССР от 21 марта 1991 года № 2041-1 «Об итогах референдума СССР» 17 марта 1991 года.// Ведомости СНД и ВС СССР.-1992.

### *§ 2. İkinci Azərbaycan-Ermənistan müharibəsinin ilkin mərhələsi (1988-1991-ci illər).*

İkinci Azərbaycan-Ermənistan müharibəsi ermənilərin azərbaycanlılara qarşı növbəti ərazi iddiası, Azərbaycanın Yuxarı Qarabağ bölgəsinin ələ keçirilməsi cəhdi, Ermənistanın hərbi təcavüzü ilə başlandı. Bu müharibə tarixi ədəbiyyatda "Qarabağ müharibəsi", "Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsi", "Vətən müharibəsi" adları ilə də təqdim olunur. Müharibə üç əsas mərhələdən ibarət olmuşdur. Birinci mərhələ 1988-1991-ci illər, ikinci mərhələ 1991-1994-cü illər, üçüncü mərhələ 27 sentyabr-10 noyabr 2020-ci ildən ibarət dövrləri əhatə edir. Atəşkəs dövrü adlandırılan 1994-2020-ci illər ərzində də vaxtaşırı atışmalar, bəzən kiçik həcmli lokal döyüşlər baş verirdi.

Birinci mərhələ Sovet imperiyasının hələ mövcud olduğu şəraitdə, imperiyanın 2 subyekti arasında baş verdi. Ermənistan gizli və ya açıq şəkildə Azərbaycan ərazilərinə müdaxilə edirdi. SSRİ hakimiyyəti faktiki olaraq müharibədə "üçüncü tərəf" kimi çıxış edir, üzdə münaqişənin qarşısını almağa cəhd etdiyini göstərir, əslində , Ermənistanın tərəfini saxlayır, ermənilərin istəklərinin həyata keçməsinə çalışırdı.

Ermənistan tərəfi SSRİ-də özünü artıq aydın şəkildə göstərən siyasi böhran şəraitindən isitfadə edərək, 1985-ci ildə İrəvan və Xankəndidə Azərbaycana qarşı müdaxilə üçün hazırlıq işlərinə başladı.

Həmin il Ermənistanda və bəzi başqa ölkələrdə qondarma "erməni soyqırmı"nın 70 illiyi ilə bağlı Türkiyə və Azərbaycana qarşı tədbirlər keçirildi, ərazi iddiaları irəli sürüldü [3, s.30]. Ermənilərin ilk mütəşəkkil qrupu da 1985-ci ildə yarandı. İrəvanda elmi tədqiqat institutlarından birinin əməkdaşı İqor Muradyan əsasən gənc alimlərdən ibarət qrup yaratdı. Bu qrup Moskvadakı erməni əsilli elm adamları, vəzifəli şəxslərlə, o cümlədən, Abel Aqanbekyan, Sergey Mikoyan və digərləri ilə əlaqələr yaradır, SSRİ rəhbəri M.Qorbaçovun və ətrafının dəstəyini qazanmağa çalışırdı. O dövrün tanınmış adamlarından Zori Balayan, Silva Kaputikyan da onlara qoşuldu. Bir az sonra, 1986-cı ildə İrəvan ermənilərinin tapşırığı ilə Dağlıq Qarabağın Hadrut, Xankəndi və digər yerlərində də təxribatçı qruplar yaradıldı. 1987-ci ildə İ.Muradyanın qrupunun iştirakı ilə İrəvanda "Qarabağ komitəsi" yaradıldı. Dağlıq Qarabağdakı kiçik qrupların bazasında 1988-ci ilin martında "Krunk" (Durna) təşkilatı yaradıldı, Arkadi Manuçarov sədr, Robert Koçaryan rəhbərlərindən biri oldu [10]. Ermənistanda bu dövr üçün ən iddialı təşkilat – Milli Müqəddəratı Təyinetmə Birliyi Paruyr Ayrikyanın rəhbərliyi alıtnda 1987-ci ildə yaradıldı. Bu qrup bir sıra ərazilər, o cümlədən Dağlıq Qarabağın hesabına "Ermənistanın ərazi bütövlüyünün" bərpa olunması tələbini qoyurdu. Ermənistan bu və digər qurumları yaratmaqla müharibəyə ideoloji və təşkilati hazırlıq işlərini həyata keçirirdi.

Ermənilər tədricən fəallıqlarını artırdılar. 1987-ci ilin yayından başlayaraq Azərbaycanın ermənilər yaşayan bəzi yaşayış məntəqələrində, məsələn Şəmkirin Çardaxlı kəndində qarşıdurmalar baş verir, gərginlik artırdı. İrəvanda ilk aksiya 1987-ci ilin oktaybarında İ.Muradyanın təşkilatçılığı ilə Puşkin adına parkda keçirildi. Təxminən 250 nəfərin iştirak etdiyi mitinqdə antiazərbaycan tələbləri səsləndirildi [13]. Ermənilər kütləvi şəkildə Ermənistan və Dağlıq Qarabağda imzalar toplayıb Moskvaya göndərdilər, bir neçə heyət Moskvaya gedərək yüksək vəzifəli şəxslərlə görüşdülər. Bütün bu proseslərin mərkəzində Dağlıq Qarabağın Azərbaycandan allınaraq Ermənistana birləşdirilməsi tələbi dayanırdı.

Bu vaxt iftiralarla dolu "Ocaq" (İrəvan, 1981; Moskva, 1984) kitabının müəllifi Zori Balayan, tarixçi Sergey Mikoyan (Anastas Mikoyanın oğlu) və digərləri həm daxildə, həm də xaricdə təbliğat aparır, saxta məlumatları yayırdılar. Onların təsiri altında M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri, akademik Abel Aqanbekyan da prosesə qoşuldu, və 1987-ci il noyabrın 16-da Parisdə erməni icması ilə görüşdə bəyanatla çıxış edərək, Dağlıq Qarabağın Ermənistana verilməsinin vacibliyni əsasladırmağa çalışdı [13]. Bu açıqlama dünya erməniləri tərəfindən M.Qorbaçovun mövqeyi kimi qəbul olundu və onların geniş fəaliyyəti üçün siqnal oldu.

1987-ci ilin ikinci yarısından başlayaraq azərbaycanlılar Ermənistan və Dağlıq Qarabağda açıq şəkildə sıxışdırılır və çıxıb getməyə məcbur edilirdi. 1987-ci ilin sonunda ilk qaçqın dəstələri Ermənistanın Qafan və Mehri rayonlarından Azərbaycana gəldi, 1988-ci ilin fevralında onların

sayı artıq 4 min nəfərə çatmışdı [8, s.190-212]. Qaçqınların əksəriyyəti Sumqayıt şəhərinə yerləşdirildi. 1988-ci il fevralın 13-də Xankəndinin mərkəzi meydanında ermənilərin ilk mitinqi keçirilidi. Mitinqin təşkilatçılarından biri İrəvandan gəlmiş İ.Muradyan idi [13]. Bunun ardınca, fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) xalq deputatları soveti növbədənkənar iclasını keçirərək Azərbaycan, Ermənistan və SSRİ rəhbərliklərinə Dağlıq Qarabağın Ermənistana birləşdirlməsinə dair müraciət qəbul etdi. Azərbaycanlı depuatatlar səsvermədə iştirak etmədi, iclasda iştirak edən Azərbaycan KP-nın rəhbəri Kamran Bağırov qərarın qəbul olunmasının qarşısını ala bilmədi  [4].

Ermənilərin təxribatlarına, aksiyalarına cavab olaraq azərbaycanlılar da əks addımlar atmağa başladılar. 1988-ci il 19 fevralda Bakıda ilk etiraz aksiyası keçirildi, bir neçə gün sonra Şuşa və Ağdamda etiraz aksiyaları keçirildi, mitinq və yığıncaqlar təşkil olundu, Ermənistanın ərazi iddiaları rədd edildi. Fevralın 22-də Ağdamdan böyük izdiham yürüşlə Xankəndi istiqamətində hərəkət etdi, məqsəd Dağlıq Qarabağın mərkəzi şəhərindəki təxribatçı çıxışlara, mitinq və toplantılara son qoymaq, erməni millətçilərini təxribatçı hərəkətlərindən çəkindirmək idi. Erməni silahlıları Əsgəran qəsəbəsi yaxınlığında dinc yürüş iştirakçılarını gülləboran etdi, nəticədə 2 azərbaycanlı - Əli Hacıyev və Bəxtiyar Quliyev öldürüldü, xeyli sayda adam yaralandı [3, s.31; 9]. Fevralın 22-23-də Bakı və digər bölgələrdə əsassız erməni iddialarına qarşı mitinqlər keçirilirdi. Azərbaycan xalqı ciddi hazırlıq olmadan da müqavimət gücünü göstərdi, iradəsini ortaya qoymağa başladı.

Fevralın 23-də Dağlıq Qarabağın Bakıya loyal mövqeyi ilə seçilən rəhbəri Boris Gevorkov millətçilər tərəfindən vəzifədən uzaqlaşdırıldı, qatı erməni şovinisti Henrix Poqosyanı onun yerinə gətirdilər.

Hadisələr artıq geriyə dönməz xarakter alırdı. 1988-ci il fevralın 28-də Ermənistan və SSRİ xüsusi xidmət orqanları tərəfindən Sumqayıtda qanlı hadisələr törədildi, erməni əhalinin evlərinə basqınlar təşkil edildi. Nəticədə 32 nəfər, o cümlədən, 26 erməni, 6 azərbaycanlı öldürüldü. İstintaq nəticəsində ixtişaşlara erməni əsilli Azərbaycan vətəndaşı Eduard Qriqoryanın rəhbərlik etdiyi məlum oldu. Qərəzli yanaşma nəticəsində azərbaycanlı Əhməd Əhmədov da ixtişaşların digər "rəhbəri" kimi təqdim olundu. Məhkəmə Əhməd Əhmədov barəsində ölüm hökmü çıxardı, hökm dərhal yerinə yetirildi. E.Qriqoryana isə 12 il azadlıqdan məhrumetmə cəzası verildi, bir müddətdən sonra azadlığa buraxıldı [7; 4; 11].

SSRİ rəhbərliyi Ermənistanın təcavüzkar hərəkətlərinin qarşısını almaq üçün təsirli addım atmadı, yalnız mənasız qərarlar verməklə kifayətləndi, bölgəyə gətirliən əlavə milis (polis) və hərbi qüvvələr erməniləri himayə edirdi. Ermənistan qarşıya qoyduğu vəzifələri ardıcıllıqla yerinə yetirirdi. 1988-ci ilin noyabr-dekabr ayları ərzində Ermənistandan 300 min azərbaycanlı zorla deportasiya edildi (bəzi yerlədə qalmış azərbaycanlılar 1991-ci ildə çıxarıldı, azərbaycanlıların yaşadıqları sonuncu kənd -Nüvədi 1991-ci ilin 8 avqustunda boşaldıldı). Erməni hakimiyyəti və terror qrupları azərbaycanlılara divan tutdular, deportasiya zamanı 216 nəfər, o cümlədən 57 qadın, 23 uşaq xüsusi qəddarlıqla qətlə yetirildi [6].

Moskva bir sıra təşkilati məsələlərlə bağlı təşəbbüs etdi, 1988-ci ilin mayında Azərbaycan və Ermənistan rəhbərləri dəyişdirildi, Əbdürrəhman Vəzirov və Suren Arutyunyan rəhbərliyə gətirildilər. İyun ayında Arkadi Volski Kremlin xüsusi nümayəndəsi olaraq Xankəndinə göndərildi. O, çox tezliklə açıq ermənipərəst mövqedə olduğunu göstərdi, onun regiona təsadüfən göndərilmədiyi məlum oldu. Ermənistan xüsusi nümayəndənin himayəsi altında Dağlıq Qarabağda fəaliyyətini genişləndirdi, o cümlədən, Şuşa yaxınlığındakı Topxana meşəsində qanunsuz tikinti işlərinə başladı. Bu, Azərbaycanda sərt reaksiya doğurdu, izdihamlı mitinqlər keçirildi.

Ermənistanda əsas aparıcı təşkilat olan "Qarabağ komitəsi"nin rəhbərliyində dəyişiklik baş verdi. 1988-ci ilin ortalarında Levon Ter-Petrosyan İ.Muradyan və Z. Balayanı kənarlaşdıraraq rəhbərliyi öz üzərinə götürdü. L.Ter-Petrosyan əvvəlki rəhbərlikdən fərqli olaraq yalnız Qarabağ məsələsini deyil, eyni zamanda SSRİ-nin tərkibindən çıxmaq kimi məsələləri gündəmə gətirdi [12].

Sovet rəhbərliyi növbəti yanlış addım ataraq, 1989-cu il yanvarın 12-də Xankəndində A.Volskinin rəhbərliyi altında Xüsusi İdarə Komitəsi yaratdı, Dağlıq Qarabağı Azərbaycanın tabeliyindən çıxararaq, birbaşa Moskvaya tabe etdi. Bu ermənilərin hələ on illərlə əvvəl səsləndirdikləri aralıq variantlarından biri idi. Tam aydın oldu ki, M. Qorbaçov birbaşa ermənilərin sifarişi ilə hərəkət edir. Lakin Azərbaycanın etirazlarından sonra A.Volski regionu tərk etməli oldu, Xüsusi İdarə Komitəsi ləğv edildi. Bu qurumun əvəzinə həmin il 28 noyabrda SSRİ Ali Sovetinin qərarı ilə "Respublika təşkilat komitəsi" yaradıldı. Moskvanın emissarı Viktor Polyaniçko ona rəhbər təyin edildi [2].

1988-ci ilin payızından etibarən Azərbaycan Xalq Cəbhəsi əvvəlcə təşəbbüs qrupu, 1989-cu ilin yayından isə mütəşəkkil təşkilat kimi mühüm mövqeyə nail olur, proseslərə nəzarət edirdi. Hakimiyyətin təşəbbüsü ilə 1989-cu ilin avqustunda daha bir ictimai təşkilat-Qarabağa Xalq Yardımı Komitəsi yaradıldı. İctimai-siyasi xadim Bayram Bayramovun rəhbərlik etdiyi Komitəyə tanınmış şəxslərdən Sabir Rüstəmxanlı, Firidun Cəlilov, Dadaş Rzayev və digərləri daxil oldu. Komitə əsasən qaçqın və məcburi köçkünlərə yardım, münaqişə zonasında tikinti, təbliğat və sair işlərlə məşğul olurdu. Ən vacib işlərindən biri "Azərbaycan" qəzetinin nəşrindən ibarət oldu [1]. Hakimiyyətin zəifliyi şəraitində Dağlıq Qarabağın müdafiəsi əsasən AXC tərəfindən həyata keçirilirdi. 1989-cu il dekabrın sonu-1990-cı il yanvarın əvvəlində AXC Sovet hakimiyyətini bəzi yerlərdə devirməyə cəhd göstərdi, məsələn, Cəlilabad, Lənkəran rayonlarında istəklərinə nail oldu. Həmçinin Naxçıvan ərazisində İranla dövlət sərhəddi açıldı, Cənubi Azərbaycanla birbaşa əlaqə yaradıldı (bu hadisə ilə bağlı 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunur). Azərbaycan bu hərəkatla SSRİ-nin süqutu prosesinin başlanğıcını qoydu. Moskva proseslərin qarşısının alınması, Azərbaycanda xalq hərəkatının məhv edilməsi məqsədi ilə 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə qanlı qırğın törətdi, müvəqqəti nəticələrə nail oldu, lakin tarixin təkərini geri çevirə bilmədi.

Ermənistan Dağlıq Qarabağa iddialarını tam rəsmiləşdirdi, 1989-cu il dekabrın 1-də Ermənistan Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə dair qərar qəbul etdi. L.Ter-Petrosyan hələ tam şəkildə hakimiyyətə

gəlməmişdi, amma 1989-cu ilin noyabrında Ermənistan Milli Hərəkatına (EMH) rəhbər gəldikdən, 1990-cı ilin avqustunda Ermənistan Ali Sovetinə sədr seçildikdən sonra ölkəni faktiki olaraq idarə edirdi (o, 1991-ci ilin oktyabrında ölkənin prezidenti oldu). O, prezident seçilmədən öncə də Erməni milli ordusuna nəzarət edirdi. Ermənistanın işğalçı ordusu 1990-cı il yanvarın 18-də Naxçıvanın Kərki kəndini, mart ayında isə Qazax rayonunun Bağanıs Ayrım kəndini (Qazağın digər kəndləri sonrakı illərdə işğal olundu) işğal etdi [5, s.58].

Azərbaycan 1991-ci il aprelin sonunda XTMD (OMON) qüvvələri ilə Göranboy rayonu ərazisində "Çaykənd" və ya "Həlqə" əməliyyatını həyata keçirdi. İyul ayına qədər davam edən əməliyyat nəticəsində 24 kənd erməni silahlı dəstələrndən təmizləndi [7, s.3]. Bu hadisə ilə bağlı ABŞ tərəfindən gözlənilməz reaksiya ortaya çıxdı. ABŞ Senatı mayın 1-də qətnamə qəbul edərək, SSRİ və Azərbaycan hakimiyyətlərini "Dağlıq Qarabağın, Ermənistanın və Azərbaycanın erməni əhalisinə qarşı cinayətlərdə" ittiham etdi. Hadisələr gərginləşən xətlə davam edirdi. Ermənistanın planı ilə hərəkət edən Dağlıq Qarabağın xalq deputatları soveti 1991-ci il sentyabrın 2-də "Dağlıq Qarabağ Respublikası" deyilən qondarma qurumun yaradıldığını elan etdi. Azərbaycan adekvat addımlar atmalı oldu. Azərbaycan Ali Soveti sentyabrın 5-də Müdafiə nazirliyinin yaradılmasına dair qərar qəbul etdi. General-mayor Valeh Bərşadlı ilk müdafiə naziri təyin edildi. Ali Sovetin 26 noyabr 1991-ci il tarixli digər qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edildi.

Bu vaxt Rusiya və Qazaxıstan rəhbərləri Boris Yeltsin və Nursultan Nazarbayevin təşəbbüsü ilə ilk vasitəçilik missiyasına cəhd edildi. Azərbaycan, Ermənistan, Rusiya, Qazaxıstan rəhbərləri 1991-ci il sentyabrın 23-də Şimali Qafqazın Jeleznovodsk şəhərində görüşdü, danışıqların nəticəsi olaraq birgə sənəd imzalandı. Həmin sənədə görə, tərəflər 1992-ci il yanvarın 1-dən atəşkəs elan etməyi öhdələrinə götürdü [9]. Lakin Ermənistan üzərinə götürdüyü öhdəliyi yerinə yetirmədi. Üstəlik, az sonra, 20 noyabrda Azərbaycanın dövlət adamlarının, mətbuat nümayəndələrinin, həmçinin Rusiya və Qazaxıstandan olan vasitəçilərin içərisində olduğu helikopter Xocavənd rayonu Qarakənd yaşayış məntəqəsi üzərində erməni silahlıları tərəfindən vuruldu, helikopterdə olan 22 nəfərin hamısı həlak oldu. Ermənistan bununla sülh və vasitəçilik prosesini atəşə tutdu. Ermənistan silahlı qüvvələri 1991-ci ilin sonuna qədər Dağlıq Qarabağın azərbaycanlılar yaşayan 57 yaşayış məntəqəsinin Şuşa, Xocalı, Qaradağlı istisna olmaqla hamısını işğal etdi, azərbaycanlı əhali etnik təmizləməyə məruz qalaraq çıxarıldı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycanın dönüşü.- novator.az/2019/10/04/az-rbaycanin-donusu/.

2. Qarabağ tarixi. sumlib.az/ Qarabağ Tarixi/11.pdf.

3. Nağı A. Qarabağ müharibəsi. Qısa tarix. Bakı, "Namiq Həbibov", 2015.

4. Cornell Svante E. The Nagorno-Karabakh Conflict.Report N 46, departament of East European Studies, Uppsala University, 1999.

5. Gullen R., A .Reprter at large, “ROOTS”. THE NEW York, aprel 15, 1991.

6. “Бакинскими армянами пожертвовали ради сохранения власти КПСС”:азербайджанский эксперт о годовщине чернего января.-UA REGNUM, 22.01.2007.-old.memo.ru/hr / hotpoints/caucas1/msg /2007/01/ m80784.htm.

7. “Воздушная война в Карабахе”. Журнал «АвиаМастер», N6/2000q.

8. В Прокуратуре Союза ССР (ТАСС). Голос Армении (Коммунист) N68(16347), 22 марта, 1998г.-press.karabakh.info.

9. Казимиров В. Кто искал силового решения в Карабахе?- web.archive.org/ web/20120111231033/ htpp://www.arev.ru/var19.php.

10. Мемориал. Хроника конфликта.-old.memo.ru/hr/hotpoints/karabah/ getashen/chapter1.htm.

11. Рохлин Л. «Спецоперация или коммерческая афера?».-журн. «Независимое военное обозрение», №13, 1997 г.

12. Сумгаитский палачь Григорян найден. vestikavkaza.ru/articles/ Sumgaitskiy-palach-Griqoryan-nayden.-29.11.2013.

13. Том де Ваал. Глава 4.1988-1989гг. Кризис в Армении. Русская служба Би-би-си (8 июля 2005).-newsbbc.co.uk/hi/russia/in-depth/newsid-4658000/4658961.stm.

## *§ 3. Ermənistanın hərbi təcavüzünün genişlənməsi və atəşkəs müqaviləsi.*

1991-ci il dekabrın 8-də SSRİ-nin ləğvinə dair üçtərəfli saziş imzalandıqdan, dekabrın 21-də digər respublikaların həmin sazişə qoşulmasından sonra Sovet imperiyası

süqut etdi, respublikalar müstəqillik qazandı. Bu vaxtdan İkinci Azərbaycan-Ermənistan müharibəsinin ikinci mərhələsi başlandı, Azərbaycanla Ermənistan iki müstəqil dövlət olaraq üz-üzə qaldı, qarşıdurma iki dövlətin müharibəsi kimi davam etdirildi.

Bu dövrdə hələ nizami ordu olmadığına görə Müdafiə nazirliyinin təşəbbüsü ilə yerli özünümüdafiə batalyonları yaradıldı. Onlardan Ağdamda Şirin Mirzəyev, Allahverdi Bağırov, Yaqub Rzayev, Asif Məhərrəmov, Əkbər Rüstəmov, Faiq Baxşəliyev, Yavər (Cəfər) İmaməliyev, Laçında Arif Paşayev, Tərtərdə Elman Hüseynov, Şahin Tağıyev, Bərdədə Ələmşah Məmmədov, Qubadlıda Əliyar Əliyev, Cəbrayılda Kamil Vəliyev, Füzulidə Mobil Yusifov, Kəlbəcərdə Asif Süleymanov, Zəngilanda Bayram Məmmədov, Xocalıda Tofiq Hüseynov, Şuşada Fəxrəddin Səfərov, Ramiz Qəmbərov və digərlərinin rəhbərlik etdiyi batalyonlar, həmçinin ölkənin müxtəlif bölgələrində hazırlanıb göndərilmiş batalyonlar, XTMD (OMON) qüvvələri, daxili qoşunların bölmələri, milis (polis) əməkdaşları rəşadətlə vuruşdular.

Bu vaxta qədər Ermənistan Dağlıq Qarabağda hərbi əməliyyatlarda iştirak etmədiyini iddia edirdi. Bundan sonra müharibədə iştirakını artıq gizlətmirdi. Hərbi əməliyyatlara birbaşa Ermənistan müdafiə nazirliyi tərəfindən rəhbərlik edilir, Dağlıq Qarabağda "Ermənistanın ekspedisiya korpusu" deyilən hərbi birləşmə fəaliyyət göstərirdi. Bu faktı Ermənistanın 1992-ci ildə müdafiə naziri olmuş Vazgen Manukyan da etiraf edirdi. Ermənistan bütün siyasi və hərbi qərarlarını Rusiya ilə razılaşdırır və bu ölkədən hərtərəfli dəstək alırdı [8, s.244].

Ermənistan 1992-ci ilin əvvəlindən hərbi əməliyyatları genişləndirdi, bir sıra kəndləri, o cümlədən, fevralın 17-də Xocavənd rayonu Qaradağlı kəndini işğal etdi. İşğal zamanı kəndin 92 nəfər müdafiəçisi və 54 nəfər dinc sakini öldürüldü, 117 nəfər dinc sakin girov götürüldü, onlardan 77 nəfər güllələndi [6]. Az sonra ermənilər insanlığa qarşı ən ağır cinayətlərdən birini-Xocalı soyqırımını törətdi. Erməni hərbi birləşmələri Rusiyanın 366-cı motoatıcı alayı ilə birlikdə fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinə hücum etdi, şəhəri ələ keçirib dinc sakinləri kütləvi şəkildə qətlə yetirdi [14]. Xocalı soyqırımı zamanı 613 nəfər dinc sakin, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi qəddarlıqla qətlə yetirildi, 1000 nəfərdən artıq adam, o cümlədən 76 uşaq aldıqları yaralardan əlil oldu, 1275 nəfər girov götürüldü [15]. Ermənistan ordusu 1992-ci ilin aprelində ilk dəfə Dağlıq Qarabağın inzibati ərazisindən kənara çıxaraq, Kəlbəcərin Ağdaban kəndini işğal etdi. Aprelin 8-də həyata keçirilən bu cinayət nəticəsində kənd dağıdıldı, 67 dinc sakin qətlə yetirildi, o cümlədən 8 qoca, 2 uşaq, 7 qadın diri-diri yandırıldı [17].

1992-ci ilin əvvəllərində beynəlxalq təşkilatlar bir qədər fəallaşdı. ATƏM-in (ATƏT) yanvar ayında Praqada keçirilən iclasında vasitəçilik məsələsi müzakirə olundu, mart ayında Helsinkidə keçirilən iclasında onların "münaqişə" adlandırdıqları müharibənin nizama salınması üçün Minsk şəhərində konfransın çağırılması qərara alındı, konfransın hazırlanması üçün isə "Minsk qrupu" yaradıldı. Bu qrupa həmin vaxt Azərbaycan və Ermənistanla yanaşı Belarus, Çexoslovakiya, Fransa, Almaniya, İtaliya, Rusiya, İsveç, Türkiyə və ABŞ daxil oldu. Qrupun ilk sədri

italiyalı diplomat Mario Raffaelli oldu [2]. Lakin bu qrupun fəaliyyəti heç bir nəticə vermədi.

Ermənistan hücumlarını davam etdirərək 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etdi. Bununla Dağlıq Qarabağ ərazisi tam şəkildə işğalçıların nəzarəti altına keçdi. Ermənilər bir az da irəli gedərək mayın 18-də Laçın şəhərini işğal etdilər. Bu, Dağlıq Qarabağın inzibati ərazilərindən kənarda işğal edilən ilk iri yaşayış məntəqəsi oldu. İşğalçılar az sonra Laçın rayonunu bütövlükdə zəbt etdilər [16, s.47-52].

Bu ağır şəraitdə hakimiyyətə gələn Xalq Cəbhəsi dərhal əkshücum əməliyyatı təşkil etdi. İyunun 12-də iri miqyaslı döyüş əməliyyatları başladı. Az vaxt ərzində Ağdərə və digər iri yaşayış məntəqələri azad edildi. Azərbaycan Ordusu sentyabrın 2-də Çıldıran kəndinə çıxaraq 83 gün davam edən hücum əməliyyatını başa çatdırdı. Nəticədə Dağlıq Qarabağın ərazilərinin yarısı azad edildi [8, s.228].

Düşmən hücum istiqamətini dəyişərək, Dağlıq Qarabağ bölgəsindən uzaqda yerləşən Qazax rayonuna təcavüz etdi. 1992-ci ilin mart-iyun ayları ərzində Qazax rayonunun Xeyrimli, Aşağı Əskipara, Barxudarlı, Sofulu, Qızıl Hacılı, Yuxarı Əskipara kəndlərini işğal etdi [9]. Ermənistan bu dövrdə Naxçıvanı blokada vəziyyətində saxlayırdı. Türkiyənin dəstəyi ilə bu vəziyyət qismən aradan qaldırıldı. 1992-ci il mayın 28-də Araz çayı üzərindən Türkiyənin Dilucu və Azərbaycanın Sədərək sərhəd keçid məntəqələrini birləşdirən “Ümid” körpüsünün açılışı oldu. Açılışda Türkiyənin baş naziri Süleyman Dəmirəl, Azərbaycanın Ali Sovetinin sədri İsa Qəmbər, Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev və digər rəsmilər iştirak edirdi. Er-

mənilər Gədəbəy rayonu istiqamətində də təxribat törətməyə cəhd göstərdi. Buna cavab olaraq Azərbaycan Ordusu 1992-ci ilin avqustunda əkshücuma keçərək rayonun Başkənd yaşayış məntəqəsini azad etdi. Bu dövrün uğurlu əməliyyatlarına Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-leytenant Valeh Bərşadlı rəhbərlik edirdi. O, sentyabr ayında istefaya göndərildi.

Azərbaycan çətin şəraitdə torpaqlarını müdafiə etməyə, zəbt olunmuş ərazilərini azad etməyə çalışırdı. Çətinlik həm də onunla bağlı idi ki, real müttəfiqimiz yox idi, beynəlxalq qurumlar, əksər dövlətlər Ermənistanın tərəfində idi. Rusiya açıq və gizli yollarla Ermənistanı silahlandırırdı [19]. Rusiyanın hərtərəfli köməyi ilə yanaşı ABŞ da Ermənistanın haqsız mövqeyini müdafiə edirdi. ABŞ konqresi 1992-ci il oktyabrın 24-də "Azadlığa dəstək aktı"na 907-ci düzəlişi qəbul etməklə bütövlükdə rəsmi Vaşinqtonun ermənipərəst mövqeyini göstərdi. Bu sənəddə işğala məruz qalan Azərbaycan guya Ermənistanı "blokadada saxlamaq"da ittiham olundu [12, s.369].

Azərbaycan Ordusu 1992-ci ilin payızında iri hərbi əməliyyatları dayandırdı. Üstəlik, Ordunun daxilində müəyyən ixtilaflar başladı. Bu şəraitdə Ermənistan irimiqyaslı hərbi yürüşlərə start verdi, Azərbaycanın içərilərinə doğru irəliləyərək, 1993-cü il aprelin 2-də Kəlbəcər şəhərini, az sonra bütövlükdə rayonu işğal etdi. Kəlbəcər üzərinə hücum birbaşa Ermənistan ərazisindən həyata keçirildi. Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurası ilk dəfə qətnamə qəbul etdi (30 aprel 1993-cü il 822 saylı qətnamə). Bu qətnamədə "erməni silahlı qüvvələrinin" işğal olunmuş ərazilərdən çıxarılması tələb edildi.

Kəlbəcərin itirilməsindən sonra ölkədə siyasi böhran dərinləşdi. Bəzi siyasi partiyalar hakimiyyətə qarşı sərt mübarizəyə keçdi, polkovnik Surət Hüseynovun rəhbərliyi ilə hərbi müxalifət ortaya çıxdı. Nəticədə 1993-cü ilin iyununda hakimiyyət dəyişikliyi baş verdi, Ordunun müqavimət gücü tam zəiflədi. Yeni hakimiyyət vaxtın azlığına görə Ordunu yenidən qura, müqaviməti təşkil edə bilmədi. Ermənistanın işğalçı ordusu vəziyyətdən istifadə edərək Ağdam (23 iyul), Füzuli və Cəbrayıl (23 avqust), Qubadlı (31 avqust), Zəngilan (29 oktyabr) rayonlarını işğal etdi. Rayonların işğalı ilə bağlı BMT Təhlükəsizlik Şurası əvvəlki 822 saylı qətnamənin davamı olaraq, 853, 874, 884 saylı qətnamələrini qəbul etdi. Bu qətnamələrin hadisələrin gedişinə heç bir təsiri olmadı.

Azərbaycanın yeni seçilmiş prezidenti Heydər Əliyev Ordunu möhkəmləndirmək üçün bir sıra tədbirlər həyata keçirdi, noyabrın 2-də prezidentin çağırışı ilə könüllülərin qəbuluna başlanıldı, 4 hərbi çağırış reallaşdırıldı. 1993-cü il dekabrın 15-də Azərbaycan Ordusu beş əməliyyat istiqamətində-Füzuli, Xocavənd, Ağdam, Ağdərə, Kəlbəcər istiqamətlərində əkshücuma keçdi. İki ay davam edən əməliyyatın gedişində bütün istiqamətlər üzrə müəyyən nəticələr əldə olundu, ciddi uğur isə Füzuli istiqamətində qazanıldı, rayonun 22 yaşayış məntəqəsi işğaldan azad edildi [7]. Ordumuz 1994-cü ilin fevralında Kəlbəcər istiqamətində uğurlu əməliyyat həyata keçirdi, 10-dan artıq kəndi azad edərək, Kəlbəcər şəhərinə yaxınlaşdı. Lakin hava şəraiti ilə əlaqədar uğuru davam etdirmək mümkün olmadı, hərbi hissələrimiz ciddi itkilər verərək geri çəkilməli oldu [3, s.271]. Düşmən aprel ayında Tərtər istiqamə-

tində yeni hücum cəhdi etdi, ağır döyüşlərdən sonra işğalçı qüvvələrin qarşısı alındı.

1994-cü il mayın əvvəlində Azərbaycan və Ermənistan nümayəndələri Qırğızıstanın paytaxtı Bişkek şəhərində Rusiyanın vasitəçiliyi ilə danışıqlara başladı. "Bişkek protokolu" adlandırılan sənəd qəbul edildi. Bu sənədi orada Ermənistan parlamentinin sədri Babken Araksyan, "DQR parlamentinin sədri" Karen Baburyan imzaladı. Dağlıq Qarabağ ermənilərinin nümayəndəsinin imza atmasına etiraz olaraq Azərbaycan tərəfi sənədi imzalamaqdan imtina etdi. Rusiyalı vasitəçi Vladimir Kazimirov sənədi Bakıya gətirdi. Azərbaycan rəhbərliyinin tələbi ilə mayın 8-də sənədə parlament sədri Rəsul Quliyevlə birlikdə Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Nizami Bəhmənov da imza atdı. Bu sənədin şərtlərinə uyğun olaraq mayın 12-dən atəşkəs elan olundu [5].

Azərbaycan atəşkəsə dair sənədi imzalamaqla erməni işğalının nəticələrini müvəqqəti olaraq tanımalı oldu. Azərbaycanın 360 km-lik sərhədi Ermənistan tərəfindən pozulmuşdu. İşğal nəticəsində Dağlıq Qarabağın 57 yaşayış məntəqəsində yaşayan 50 minədək azərbaycanlı öz yurdlarından çıxarıldı. Dağlıq Qarabağın ətrafında 7 rayon işğal edildi. Ermənistan, Dağlıq Qarabağ, onun ətrafındakı rayonlardan 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi. Atəşkəs sazişi imzalanarkən Naxçıvanın Kərki, Qazax rayonunun 7 kəndi də daxil olmaqla Azərbaycanın 12 min kv. kilometr ərazisi işğal altında idi. Ekspertlərin hesablamalarına görə, həmin vaxt üçün Azərbaycanın həlak olanlarla itkiləri 11 min nəfər, ermənilərin ölənləri isə 6 min nəfər təşkil edirdi

[8, s.324-326]. BMT-nin 1994-cü ildəki hesabatında həmin vaxta qədər Azərbaycana dəyən zərərin 53,4 milyard ABŞ dolları səviyyəsində olduğu qeyd edilib [14].

Atəşkəs müqaviləsi imzalandıqdan sonra Azərbaycan Qarabağın işğaldan azad olunması uğrunda mübarizəni diplomatik müstəviyə keçirdi. Danışıqlar ATƏT-in Minsk qrupu çərçivəsində davam etdirildi. Müəyyən dəyişikliklərdən sonra bu vaxt Minsk qrupunun tərkibi Azərbaycan, Ermənistan, ABŞ, Rusiya, Fransa, Türkiyə, Almaniya, Belarus, İsveç, İtaliya, Niderland, Portuqaliya, Finlandiyadan ibarət idi [2]. Minsk qrupunun 1992-1993-cü illərdə ilk sədri İtaliyadan Mario Raffaelli, 1994-cü ildə isə İsveçdən Yan Eliasson oldu. 1994-cü ilin dekabrında ATƏM-in Budapeştdə keçirilən Zirvə toplantısında həmsədrlik institutu təsis edildi. Bu vəzifəni əvvəlcə Finlandiya ilə Rusiya, 1995-1996-cı illərdə isə İsveç və Rusiya nümayəndələri tutdu. 1997-ci il 1 yanvardan isə yeni üç həmsədrlik formatına keçid etdilər, ABŞ, Rusiya, Fransanın həmsədrliyi başlandı [2]. Təxminən eyni zamanda münaqişə üzrə ATƏT sədrinin şəxsi nümayəndəsi postu təsis edildi, həmin vaxtdan fasiləsiz olaraq bu vəzifəni polşalı diplomat Anjey Kaspşik tutdu [1].

ATƏT-in MİnsK qrupu həmsədrləri 1997-ci ildə münaqişənin həlli üçün "paket variant" və "mərhələli variant" deyilən təkliflərlə çıxış etdilər. Hər iki variant Dağlıq Qarabağın ətrafındakı rayonların bir hissəsinin azad olunması ilə Xankəndi üçün yüksək statusun müəyyən edilməsini nəzərdə tuturdu [11, s.60]. Bu şərtlər Ermənistanın maraqlarına cavab verirdi. O vaxtkı prezident Levon Ter-Petrosyan şərtləri məqbul hesab etdi, sonra daha ağır

şərtlərin ola biləcəyinə dair xəbərdarlıqla çıxış etdi. Lakin Qarabağda və Ermənistandakı ermənilər onun mövqeyini "xəyanət" kimi dəyərləndirdi [10]. Robert Köçəryanın qruplaşması vəziyyətdən istifadə edərək, 1998-ci ilin fevralında L.Ter-Petrosyanın istefasına nail oldu. R.Köçəryan 1998-ci ilin martında prezident seçildi və bununla Ermənistanda "Qarabağ klanı"nın dövrü başladı. R.Köçəryan bütün kompromis variantları rədd edərək, maksimalist mövqe tutdu, Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması variantını qəti şəkildə rədd etdi. Əslində, Ermənistan rəhbərliyinin barışmaz mövqeyi Azərbaycana sərf edirdi. Təklif olunan variantlar Azərbaycan üçün ərazi itkisinin rəsmiləşdirilməsinə gətirə bilərdi. Digər tərəfdən isə, Azərbaycan bu vəziyyətdən Ermənistanı beynəlxalq birliyin nəzərində barışmaz tərəf kimi təqdim etmək üçün istifadə edirdi. Azərbaycan prezidenti H.Əliyev bu şəraitdə bacarıqla manevr edirdi, Ordu quruculuğu və digər məsələlər üçün vaxt qazanmağa çalışırdı. Minsk qrupu həmsədrləri bir daha ermənilərin əsassız iddialarını nəzərə alaraq, 1998-ci ilin noyabrında "ümumi dövlət" adlı yeni təklif paketi ilə çıxış etdi. Bu variant Dağlıq Qarabağdakı qondarma rejimə, faktiki olaraq "dövlət" statusunun verilməsini nəzərdə tuturdu. Ona görə də, Azərbaycan tərəfindən birmənalı şəkildə rədd edildi [18].

1999-cu ildə ABŞ münaqişənin nizama salınması üçün cəhdlər etdi. ABŞ dövlət katibinin müavini Stroub Telbot Azərbaycana və Ermənistana səfərlər etdi, kompromis variant təklif etdi. Ermənistan rəhbərliyi bu təşəbbüsün də reallaşmasına imkan vermədi. 1999-cu ilin oktyabrında Ermənistan parlamentində terror aktı törədildi, parlamen-

tin sədri Karen Dəmirçyan, baş nazir Vazgen Sarkisyan və digərləri güllələboran edilərək öldürüldü [4]. Bununla, ABŞ-ın ərazi mübadiləsini nəzərdə tutan və dövlət departamentinin keçmiş əməkdaşı Pol Qoblun təklifinə görə "Qobl planı" adlandırılan variantı baş tutmadı. P.Qoblun hələ 1992-ci ildə təklif etdiyi varianta görə, ərazi mübadiləsinin həyata keçirilməsi, Dağlıq Qarabağı Ermənistanla birləşdirəcək "Laçın dəhlizinin" əvəzinə Azərbaycana Mehri rayonu ərazisindən Naxçıvanla birləşmək üçün dəhlizin verilməsi nəzərdə tutulurdu [13]. Atəşkəsin ilkin dövrü XX əsrin sonuna qədər davam etdi və bu dövr ərzində aparılan danışıqlar heç bir nəticə vermədi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Anjey Kaspşik 23-cü dəfə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi təyin edilib.- report.az/qarabag/anjey-kaspsik-23-cu-defe-atet-sedrinin-sexsi-numayendesi-teyin-edilib/.

2. ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşlər.- lib.aliyevheritage. org/ az/5874742.html.

3. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild. Bakı, "Elm", 2008.

4. Qarabağ danışıqlarına görə güllələnmiş Karen Dəmirçyanın oğlu Bakıya gəlir. 2014-cü il, 23 iyun.- modern.az/az/news/59628.

5. Qarabağ tarixinin salnaməsi (1994-cü il).- web.archive.org/web/ 20121217054943/http: //azerbaycanli.org/az/page 646.html.

6. Rzalı R. Qaradağlı faciəsi.- "Azərbaycan" qəzeti, 2011, 17 fevral, s. 6.

7. Sultanov Z. "Horadiz əməliyyatı": azad olunan doğma torpaq. "Xalq qəzeti", 2015, 6 yanvar, s.5.

8. Tomas de Vaal. Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında. "İlay MMC", Bakı, 2008.

9. Armenian aggression-Qazax.- qazax.net.

10. "By Giving Karabakh Lands to Azerbaijan, Conflict Would Have Ended in 97, Says Ter-Petrosian". Asbarez. 19 April 2011.

11. Cohen, Ariel (ed). Eurasia in Balance: US and the Regional Power Shift. Aldershot, England: Ashgate. 2005.

12. Cornell Svante E. Small nations and great powers: a study of ethnopolitical conflict in the Caucasus. Routledge, 2001.

13. Goble P. "How The "Goble Plan" Was Born". RFE/RL. Caucasus Report 3, no.23, 8.06.2000.

14. Human Rights Watch/Helsinki.Azerbaijan: Seven Years of Conflict in Nagorno-Karabakh.- New York.Washington. Los Angeles. London/ Brussel, 1994.-C.6.-archive.org/ details/azerbaiyansevenyoohuma/ page/6mode/2up.

15. Nagorno-Karabakh: Remembering the victims of Khojaly.- web.archive. org/web/20220925181411/ https://www.bbc.com/news/world-europe-17179904.

16. Uhlig M.A.The Karabakh War World Policy Journal №4, 1993, s.47-52.

17. Агдабанская трагедия.- 1905.az/ru/агдабанская-трагедия.

18. Бекарян К. Европейские инициативы в карабахском конфликте.- web.archive.org/web/ 20160602204451/http: // uames.orgua/php/art.php?id=76.

19. Рохлин Л. «Спецоперация или коммерческая афера?».-журн. «Независимое военное обозрение», №13, 1997 г.

### *§ 4. Müstəqilliyin ilk dövründə həyata keçirilən tədbirlər. İctimai-siyasi həyat.*

Müstəqilliyin ilk illəri sarsıntılar, böhranlar, hakimiyyət dəyişiklikləri ilə müşayət olundu. Həm müharibə çətinlikləri, həm də siyasi qarşıdurmalar ölkədə sabit hakimiyyətin formalaşdırılmasına, ciddi iqtisadi, siyasi, sosial tədbirlərin həyata keçirilməsinə imkan vermirdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtması vəziyyəti bir qədər sabitləşdirdi. Təcrübəli siyasətçinin ilk addımlarından biri Müstəqil Dövlətlər Birliyi (MDB) ilə münasibətlərin nizama salınması oldu. Azərbaycan 1993-cü il sentyabrın 24-də MDB-ə üzv oldu. H.Əliyev 1993-cü il oktyabrın 3-də Azərbaycanın yeni, üçüncü prezidenti seçildi. O zaman Azərbaycanın həqiqi bir dövlət kimi mövcudluğu şübhə altında idi [9, s.259]. H.Əliyev Ordunun yenidən qurulması, diplomatik müstəvidə səylərin artırılması ilə yanaşı sabitliyin bərqərar olması, iqtisadi və sosial sahələrdə də tədbirlərin həyata keçirilməsinə başladı.

1993-cü ilin avqustunda "Talış-Muğan Respublikası" deyilən qondarma qurum ləğv edildi, təxribatçı Əlikram Hümbətov həbs edildi [23, s.67] (Ə.Hümbətova ömürlük həbs cəzası verildi, 2004-cü ildə Avropa Şurasının müraciəti əsasında azadlığa buraxıldı və ölkədən xaric edildi. O, xaricdə antiazərbaycan fəaliyyəti ilə məşğul oldu, Ermənistan və erməni mərkəzləri ilə əməkdaşlıq etdi, dəfələrlə Ermənistanda tədbirlərə qatıldı. 2022-ci ilin dekabrında Niderlandda öldü.). Azərbaycanın şimalında separatçılıqla məşğul olan "Sadval" (ləzgi dilində "birlik" deməkdir) təşkilatının fəaliyyətinin də qarşısı 1994-cü il

ərzində əsasən alındı. Ləzgi xalqı bu təşkilatın tələblərini dəstəkləmədiyinə görə separatçı hərəkat geniş vüsət almadı [8].

Baş nazir Surət Hüseynov, XTMD (OMON)-nin Qərb bölgəsi üzrə komandirlərindən Elçin Əmiraslanov, Bakı şəhəri Xətai rayonunun prokuroru Mahir Cavadov və digərlərinin daxil olduğu qruplaşma 1994-cü ilin oktyabrında dövlət çevrilişi etməyə cəhd göstərdi. Onların Daxili İşlər nazirinin müavini, XTMD (OMON)-nin komandiri Rövşən Cavadovu da öz tərəflərinə çəkmək cəhdi baş tutmadı. O, son anda prezident H.Əliyevi müdafiə etdi. R.Cavadov da daxil olmaqla bu şəxslərin Qarabağ müharibəsində ciddi xidmətləri olmuşdu, lakin siyasi cəhətdən naşılıqlarına görə təxribatlara uyur, bəzi daxili və xarici qüvvələrin təsiri altına düşürdülər. H.Əliyevin siyasi qüvvələrə, xalqa müraciəti, izdihamlı mitinqin keçirilməsi ilə bu cəhdin qarşısı alındı, Surət Hüseynov və digərləri xaricə, Rusiyaya qaçdı. Təşkilatçılardan Surət Hüseynov 1997-ci ildə Azərbaycana gətirildi, ömürlük həbs cəzasına məhkum edildi, 2004-cü ildə əfv edildi [5] (S.Hüseynov 2023-cü ilin iyulunda Türkiyəyə müalicə üçün aparılarkən İstanbul hava limanında vəfat etdi). 1995-ci ilin martında bu dəfə Rövşən Cavadovun rəhbərliyi altında dövlət çevrilişinə cəhd edildi. Elçin Əmiraslanov, Mahir Cavadov yenə də qiyamın əsas rəhbərlərindən idi. H.Əliyev qiyamçılara qarşı hərbi qüvvə yeritdi, atışma zamanı Rövşən Cavadov yaralandı, xəstəxanada dünyasını dəyişdi [10]. Mahir Cavadov hazırda mühacir həyatı yaşayır. Elçin Əmiraslanov isə ömürlük həbs cəzası çəkir.

Azərbaycan rəhbərliyi tədricən dövlət quruculuğu işləri ilə məşğul olmağa başladı. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. (Azərbaycan SSR dövründə 5 dəfə-1921, 1925, 1927, 1937 və 1978-ci illərdə konstitusiyalar qəbul edilmişdi). 1995-ci il Konstitusiyası ilə Azərbaycan respublika idarəetmə formasına malik, unitar, demokratik, hüquqi, dünyəvi dövlət kimi müəyyən edildi. 5 bölmə, 12 fəsil, 158 maddədədn ibarət Əsas Qanunumuza görə, insan, onun hüquq və azadlıqları ali dəyərlərdir, hakimiyyətin yeganə mənbəyi xalqdır, dövlət, xüsusi və bələdiyyə mülkiyyətləri toxunulmazdır, dövlətin idarə olunması qanunverici, idarəedici və məhkəmə hakimiyyətləri arasında səlahiyyət bölgüsü əsasında həyata keçirilir, ideoloji və siyasi müxtəliflik, çoxpartiyalılıq təmin edilir, hər hansı ideologiyanın üstünlüyünə imkan verilmir və sair [2]. 12 noyabr ölkəmizdə Konstitusiya Günü kimi qeyd olunur.

Azərbaycanda çoxpartiyalı sistem formalaşdı. 1992-ci ildə Milli İstiqlal, Ana Vətən, Vətəndaş Həmrəyliyi, Müsavat (bərpa edildi), Yeni Azərbaycan, 1993-2000-ci illər ərzində Kommunist, Liberal, Demokrat, Xalq Cəbhəsi, Vəhdət və digər partiyalar yarandı (sonrakı illərdə Ədalət, Böyük Quruluş, Klassik Xalq Cəbhəsi, Bütöv Azərbaycan Xalq Cəbhəsi, Ağ, Yeni Zaman, Azad Vətən və digər partiyalar meydana gəldi. Hazırda 26 partiya rəsmi fəaliyyət göstərir.). Çoxpartiyalı sistem şəraitində müstəqillik dövrünün ilk parlament seçkiləri 1995-ci il noyabrın 12-də keçirildi. Seçkilərdə 8 siyasi partiya iştirak etdi. 125 nəfərdən ibarət Milli Məclisin böyük əksəriyyətini YAP və bitərəf deputatlar təşkil etdi, Milli İstiqlal və Xalq Cəbhəsi par-

tiyaların hərəsi 3 mandat ala bildi [3]. Parlamentə ikinci çağırış seçkilər 2000-ci ilin noyabrında keçirildi. Seçkilərdə 33 siyasi partiyanın və bitərəflərin nümayəndələri iştirak etdi. YAP 78, bitərəflər 26, Xalq Cəbhəsi Partiyası 6, Vətəndaş Həmrəyliyi Partiyası 3, Kommunist Partiyası 2, Milli İstiqlal Partiyası 2, Müsavat Partiyası 1 və sair yerlər aldılar [6].

Qeyri-Hökumət Təşkilatları da tədricən formalaşırdı. Qarabağ, demokratiya, insan haqları, milli dəyərlərlə bağlı QHT-lər daha fəal idi. Qarabağ Azadlıq Hərəkatı xüsusilə fərqlənirdi. Qurum 1993-cü ilin avqustunda təsis edildi, ilk sədri ehtiyyatda olan zabit Xəqani Hüseynov seçildi, az sonra Xəqani Hüseynov, professor Aslan Şahverdiyev (sonralar deputat oldu), dosent Akif Nağıdan ibarət həmsədrlik tətbiq edildi. 1996-cı ildə qurumun qeydiyyatı ləğv edildi, yalnız 1998-ci ildə Qarabağ üzrə Koordinasiya Şurası şəklində fəaliyyətini davam etdirə bildi. 2000-ci ilin yanvarında qurum Qarabağ Azadlıq Təşkilatı (QAT) adı ilə bərpa edildi, Akif Nağı sədr seçildi [7, s.69.]. QAT Qarabağın yalnız hərbi yolla işğaldan azad edilə biləcəyi ideyasını təbliğ edir və cəmiyyətin böyük hissəsini bu ideya ətrafında birləşdirə bilmişdi [9, s.317] (Qarabağ Azadlıq Təşkilatı uzun müddət uğurla fəaliyyət göstərdi, İkinci Qarabağ müharibəsindən sonra fəaliyyət xarakterini dəyişdirdi və 2022-ci ilin avqustunda yenidən təşkil olunaraq siyasi partiyaya- Azad Vətən Partiyasına çevrildi). QHT-lər müxtəlif istiqamətlərdə fəaliyyətini davam etdirir. (Hazırda Azərbaycanda 4 minə yaxın QHT dövlət qeydiyyatından keçib) [1].

Azərbaycan iqtisadiyyatı çətin dövrünü yaşayırdı. 1991-1995-ci illər ərzində iqtisadi-sosial sahədə tam tənəzzül, geriləmə baş verdi. Ölkə siyasi müstəqillik əldə etmişdi, lakin iqtisadiyyat dərin böhran içərisində idi [24, s.86]. 1991-1995-ci illərdə ÜDM 60% azalmışdı, milli valyuta dəyərini 13 dəfə itirmiş, gündəlik tələbat mallarının qiyməti 240 dəfə artmışdı [22]. Minimum əmək haqqı təxminən 2 dollara enmiş [24, s.86-87], valyuta ehtiyatları isə yox dərəcəsində idi [16, s.5-9].

İqtisadi-siyasi vəziyyətin nizama salınması üçün ilk növbədə neft strategiyası işlənib hazırlanmalı və həyata keçirilməli idi. Ağır və mürəkkəb müzakirələrdən, danışıqlardan sonra aparıcı dünya dövlətləri, böyük neft şirkətləri ilə razılığa gəlmək mümkün oldu. 1994-cü il sentyabrın 20-də Bakıda, "Gülüstan" sarayında dünyanın 8 dövlətini təmsil edən 13 iri şirkət arasında müqavilə imzalandı və bu sənəd "Əsrin müqaviləsi" adını aldı. Bu müqavilə Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri","Çıraq" və "Günəşli" neft yataqlarının birgə işlənməsini nəzərdə tuturdu [12, s.146; 17, s.47].

Müqavilədə Azərbaycan, Türkiyə, ABŞ, Rusiya, İngiltərə və digər ölkələr təmsil olundu. Şirkətlərdən aparıcı rol BP-yə məxsus idi. Şərtlərə görə, təmiz gəlirin 80%-i Azərbaycanın, 4%-i SOCAR-ın, qalan 16%-i xarici şirkətlərin payına düşür [14, s.1-14]. Şərtlərə görə, müqavilə 30 il müddətinə imzalanmışdı (2017-ci ilin sentyabrında müddəti üzv şirkətlər tərəfindən 2050-ci ilə qədər uzadıldı) [15, s.109-120.]. Prezident Heydər Əliyevin 16 avqust 2001-ci il fərmanı ilə 20 sentyabr Neftçilər Günü kimi qeyd olunur.

"Əsrin müqaviləsi" tezliklə nəticələrini verdi. Neft hasilatı 1994-cü ildəki 9,5 milyon tondan [13] 2001-ci ildə 14,9 milyon tona çatdı. Neft strategiyasına uyğun olaraq, 1997-ci ildə Bakı-Novorossiysk neft kəmərinin Azərbaycan hissəsi bərpa və inşa edilərək istifadəyə verildi. Bakı-Supsa neft kəməri isə 1999-cu ildə işə salındı. 1999-cu ildə Bakı-Tbilisi-Ceyhan "Əsas İxrac Neft Kəməri"nin çəkilişinə dair Azərbaycan, Türkiyə, ABŞ, Gürcüstan, Qazaxstan və Türkmənistan prezidentləri arasında ilkin razılıq əldə olundu və həmin ilin noyabrında İstanbulda keçirilən ATƏT-in Sammiti çərçivəsində prezidentlər müqavilə imzaladı. Bir neçə ildən sonra müqavilənin icrasına başlanıldı [18]. Azərbaycan Respublikası prezidentinin 29 dekabr 1999-cu il tarixli fərmanı ilə neft gəlirlərindən səmərəli istifadə olunması məqsədi ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) yaradıldı.

Bu dövrdə Xəzər dənizinin Azərbaycan sektorunda qaz yataqlarının da kəşfiyyatına başlanıldı. 1996-1999-cu illərdə "Şahdəniz" [11], "Abşeron" [19] və digər qaz yataqlarının ilkin kəşfiyyat-yoxlama işlərinə start verildi.

İqtisadiyyatın bütün sahələrində tədricən stabil inkişaf təmin edilirdi. Azərbaycan prezidentinin 11 dekabr 1993-cü il tarixli fərmanı ilə manat ölkədə yeganə ödəniş vasitəsi kimi təsdiq edildi [20].

1993-cü ildən əsrin sonuna qədər iqtisadi islahatların həyata keçirilməsi məqsədi ilə 34 qanun, o cümlədən dövlət əmlakının özəlləşdirilməsi, banklar və bank fəaliyyəti, mülkiyyət, xarici investisiyaların qorunması, icarə, torpaq vergisi haqqında qanunlar qəbul edildi. Bir çox sahələr, o cümlədən özəlləşdirmə, sahibkarlığa yardım, fermer

təsərrüfatlarının inkişafı haqqında dövlət proqramları hazırlandı. Bununla, iqtisadi islahatların həyata keçirilməsi üçün hüquqi baza yaradıldı. Qısa müddətdə minlərlə xüsusi müəssisə, onlarla müstəqil bank fəaliyyətə başladı, kənddə 17 mindən çox icarə kollektivi yaradıldı, özəlləşdirmə proqramının ilkin mərhələsi kimi taksilərin və yaşayış evlərinin özəlləşdirilməsinə başlanıldı [4].

1995-ci ildən yeni əsrin əvvəllərinə qədər Azərbaycanda ümumi daxili məhsul (ÜDM) 90%, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsullarının həcmi 25%, kənd təsərrüfatı istehsalının həcmi 54%, iqtisadiyyatda çalışanların orta aylıq əmək haqqı 5 dəfə artdı, infilyasiyanın səviyyəsi 3%-ə qədər endirildi. Azərbaycan beynəlxalq qurumlara, o cümlədən 1992-ci ilin fevralında İqtisadi Əməkdaşlıq Təşkilatına, sentyabrın əvvəlində Dünya Bankına, sentyabrın sonunda Beynəlxalq Valyuta Fonduna, 1999-cu ildə Asiya İnkişaf Bankına üzv qəbul olundu [4].

Bu dövrdə metallurgiya, dağ-mədən, kimya, tikinti materialları, maşınqayırma, yüksək texnologiyalar və digər sahələrdə ilkin nəticələr əldə olundu. 2001-ci ildə illik istehsal həcmi 1 milyon ton olan iri həcmli metallurgiya müəssisəsi- “Baku Steel Company” işə salındı. 1999-cu ildə Qaradağ Sement zavodu xarici investisiyanın cəlb edilməsi ilə istehsalı bərpa etdi. Dövlət əmlakının özəlləşdirilməsi 1993-cü ildə başladı, 1998-ci ilə qədər 21 min kiçik, 1 min orta və iri müəssisə özəlləşdirildi. Kənd təsərrüfatı müəssisələrinin 90 faizi özəlləşdirildi, nəticədə 2000-ci il üçün Ümumi Daxili Məhsulda özəl sektorun payı 68%-ə çatdı [21].

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycanda qeydiyyatdan keçən QHT-lərin sayı açıqlanıb.- report.az/daxili-siyaset/azerbaycanda-qeydiyyatdan-kecen-qht-lerin-sayi-aciqlanib/.

2. "Azərbaycan Konstitusiyasının inkişaf mərhələləri."- kayzen.az/blog/ law/7827/ azerbaycan-konstitusiyasınınn-inkişaf-mərhələləri.html.

3. Azərbaycan Respublikasında parlament seçkiləri.- cec.gov.az/az/umumi/ seckiler-referendumlar/1995.html.

4. "Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası- İqtisadiyyat. –https//files.preslip.az/projects/ azerbaijan/gl4.pdf.

5. Heydər Əliyev qiyamı belə yatırdı.- axar.az/news/gundem/66921.html.

6. 2000-ci il parlament seçkilərinin nəticəsi.- meclis.gov.az/cat-dep.php? cat=95&lang=az.

7. Nağı A. Qarabağ müharibəsi. Qısa tarix. Bakı, "Namiq Həbibov", 2015.

8. "Sadval"ın təhlükəsi hələ qalmaqdadır.- hafta.az/sadvalin-tehlukesi-hele-qalmaqdadir-71724-xeber.html.

9. Tomas de Vaal. Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında. Bakı, "İlay MMC", 2008.

10. Azerbaijan Coup Attempt Crushed Caucasus: Loyal forces storm a building and overcome mutinous police units, President reports. Los Angeles Times, 18 March 1995.

11. Shah Deniz has been and still is BP`s Largest discovery since Prudhol Bay.- bp.com/en_az/azerbaijan/home.html.

12. Zonn I. S., Kosarev A. N., Glantz M., Kostianoy A. G. The Caspian Sea Encyclopedia.- Heidelberg- Dordrecht- London- New York: Springer Science & Business Media, 2010.

13. Аббасова Н. «Контракт века»- 25 лет: прошлое, настоящее, будущее. Интерфакс Азербайджан (9 сентября 2019).- web.archive.org/web/ 20220130135153/ https: //interfax.az/view/777131.

14. Абдуллаев Н.Н. Правовая основа сотрудничества между Азербайджанской Республикой и ЕС в энергетической сфере// Международное право,- 2021, №3, s.1-14.- https//nbpublish.com/ library_read_article.php?id=35859.

15. Ализаде Э.Ф. Формирование внешней политики Азербайджана в системе геополитических координат Каспийского региона: энергетический фактор.// Международные отношения и диалог культур: журнал.- 2018. Выпуск 6.

16. Гамбарли М.М., Энергетическая политика Азербайджанской Республики как основа государственной безопасности.- Политикус: научный журнал.- Баку, 2019,- вып.3.

17. Гусейнов В.А. Каспийская нефть: экономика и геополитика.- Москва: Олма медиа групп, 2002.

18. Нефтепровод Баку-Джейхан.- travelgeorgia.ru/499/.

19. Президент Илхам Алиев: Начинается новый этап разработки газоконденсатного месторождения «Абшерон».- trend.az/azerbaijan/politics/ 3301927.html.

20. CBC. «25 лет назад манат был признан единым платежным средством в Азербайджане. youtube.com/watch?v=oRzOnHFfbZU&ab_ channel=CBCTV Azerbaijan.

21. Успешная модель независимой экономики.- trend.az/business/ economy/ 1922347.html.

22. Цалик С. Каспийские нефтяные месторождения: кто окажется в выигрыше?- New York: Институт Открытого Общества, 2003, s.113.-https: //resourcegovernance.org/sites/default/files/Caspian- oil-Windfalles- 051203_ rus.pdf.

23. Шнирльман В.А. Войны памяти: мифы, идентичность и политика в Закавказе.- Москва, Академкниг, 2003.

24. Юнусов А. Азербайджан в начале XXI века. Конфликты и потенциальные угрозы. Баку, 2007.

# XIV fəsil. Azərbaycan müasir dövrdə (2000-2024-cü illər)

## *§ 1. İkinci Azərbaycan-Ermənistan müharibəsinin başa çatdırılması.*

Azərbaycan yeni əsrin əvvəllərindən etibarən Qarabağın işğaldan azad olunması üçün diplomatik səylərini davam etdirdi. 2001-ci ilin martında Fransa prezidenti Jak Şirakın təşəbbüsü ilə Parisdə Azərbaycan və Ermənistan prezidentləri Heydər Əliyev və Robert Köçəryan arasında təkbətək görüş oldu. Burada konkret nəticə əldə olunmadı [4]. Müzakirələr ABŞ-ın Ki-Uest şəhərində həmin ilin aprelində davam etdirildi. ABŞ dövlət katibi Kolin Pauellin təşəbbüsü və iştirakı ilə ATƏT-in Minsk qrupu həmsədrləri, Azərbaycan və Ermənistan prezidentləri Heydər Əliyev və Robert Köçəryan bir araya gəldilər. Danışıqlarda ərazi mübadiləsi ilə məsələnin həlli variantı müzakirə olundu [33, s.69]. Bu danışıqlarla bağlı H.Əliyev məsələnin mahiyyətini ortaya qoydu: "Aparılan bu danışıqlardan, Minsk qrupunun verdiyi təkliflərdən... bir şey aydındır ki, bunlar Dağlıq Qarabağa müstəqilliyə yaxın bir status verməklə məsələni həll etmək, yaxud da tamam müstəqillik vermək istəyirlər" [19, s.69].

Azərbaycan dövləti və xalqı düşmənin bu niyyətlərinin qarşısını almaq üçün bütün imkanlardan istifadə edirdi. Xalqın fəallığı getdikcə artırdı, ictimai təşkilatlar, siyasi partiyalar birlikdə hərəkət edirdi. Qarabağ Azadlıq Təşkilatı, Qarabağ Qazilər Birliyi, Veteranlar Birliyi, Qarabağ Əlillərinə Qayğı İctimai Birliyi, Dilarə Əliyeva

adına Qadın hüquqlarını Müdafiə Cəmiyyəti, Yeni Azərbaycan, Müsavat, Vəhdət, Qeyrət, Ədalət, Milli İstiqlal və digər Qeyri Hökumət Təşkilatları və partiyalar ictimai müqavimətin təşkilində ciddi rol oynayırdı. 2001-2003-cü illərdə Qarabağ Azadlıq Təşkilatının (QAT) təşəbbüsü və əksər siyasi, ictimai təşkilatların iştirakı ilə izdihamlı mitinqlər keçirildi, erməni işğalının nəticələrinin hərbi yolla aradan qaldırılmasına dair tələblər irəli sürüldü.

Ermənilər hesab edirdilər ki, döyüş meydanında qalib gəliblər, indi bu qələbəni Azərbaycan dövlətinə, xalqına qəbul etdirmək lazımdır. Bu məqsədlə "xalq diplomatiyası"ndan istifadə etməyə çalışdılar. Bir sıra beynəlxalq qurumlar və dövlətlər onlara bu məsələdə dəstək verirdi. Azərbaycan cəmiyyəti onların cəhdlərinə inadla müqavimət göstərirdi. 2001-ci ilin sentyabrında İrəvan və Xankəndidən 42 nəfərdən ibarət heyət Bakıya gəldi, "xalq diplomatiyası" çərçivəsində birgə tədbirlər keçirməyə cəhd göstərdi. Qarabağ Azadlıq Təşkilatı bu təşəbbüsün qarşısını aldı, erməni heyəti bir neçə saatdan sonra Bakını tərk etməli oldu [14]. 2003-cü ildə bir qrup gənc Qarabağda partizan müharibəsini başlamaq məqsədi ilə silahlı dəstə yaratdı. Dəstənin üzvləri hüquq mühafizə orqanları tərəfindən saxlanıldı, qanunsuz silahlı dəstə yaratmaq ittihamı ilə onlara 10 ilə qədər həbs, o cümlədən Məmməd Məmmədova ömürlük həbs cəzası verildi [43]. Ermənilər 2004-cü ilin iyun ayında yeni hiylə işlədərək NATO zabitləri ilə birikdə Bakıya səfər etdilər, burada keçirilən beynəlxalq konfransa qatıldılar. QAT üzvləri etiraz aksiyası keçirərək konfransın işinin dayandırılmasına nail oldu. NATO tarixində ilk dəfə konfransını və iki ay sonra Bakı

ətrafında keçiriləcək hərbi təlimlərini ləğv etməli oldu [15]. Azərbaycanlıların işğalla barışmayacağını göstərən başqa bir hadisə 2004-cü ilin fevralında Macarıstanın paytaxtı Budapeştdə baş verdi. Azərbaycanlı zabit Ramil Səfərov orada NATO-nun hərbi kurslarında olarkən erməni zabitini Azərbaycan dövlətini, xalqını, bayrağını təhqir etdiyinə görə öldürdü [40].

2003-cü ilin oktyabrında İlham Əliyev Azərbaycan prezidenti seçildi. Beynəlxalq vasitəçilərin də etiraf etdiyinə görə, yeni prezident danışıqlarda daha sərt mövqe sərgiləyirdi. 2004-cü ildə ATƏT-in Minsk qrupu həmsədrlərinin təşəbbüsü ilə danışıqların yeni mərhələsi başladı. 2007-ci ilin noyabrında Azərbaycan və Ermənistan xarici işlər nazirləri Madriddə görüşdü, ATƏT Mİnsk qrupunun həmsədrləri tərəflərə münaqişəinin nizamlanmasına dair baza prinsiplərini təqdim etdi. Həmin vaxtdan danışıqlar Madrid prinsipləri adlandırılan bu platforma üzərində davam etdirildi [32].

2008-ci il, bir tərəfdən, hərbi əməliyyatların yenidən genişlənməsi, digər tərəfdən, Birləşmiş Millətlər Təşkilatının ciddi təşəbbüsü ilə də yadda qaldı. Həmin il martın 4-də Ağdərə rayonu istiqamətində atəşkəs dövrünün o vaxt üçün ən iri qarşıdurması oldu. Azərbaycan tərəfi 4 hərbçisini itirdi, ermənilərin isə 12 hərbçisi öldürüldü, 15 nəfəri yaralandı [35]. Martın 14-də isə BMT Baş Assambleyasının 62-ci sessiyasında Qarabağ məsələsi müzakirə olundu və ilk dəfə reallığı əks etdirən "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət haqqında" qətnamə qəbul olundu. Bu sənəddə Azərbaycan torpaqlarının işğalı pislənilir, ərazi bütövlüyü tanınırdı. Qətnamənin lehinə 39

dövlət səs verdi, 100 dövlət bitərəf qaldı, 7 dövlət, o cümlədən Ermənistanla yanaşı həmsədr ölkələr-ABŞ, Fransa, Rusiya əleyhinə səs verdi [51]. ABŞ, Rusiya, Fransa prezidentləri Barak Obama, Dmitri Medvedyev, Nikola Sarkozi 2010-cu ilin iyununda Kanadanın Muskok şəhərində ilk dəfə münaqişəyə dair birgə bəyanatla çıxış etdilər, Madrid prinsiplərinin əsas götürülməsinin vacibliyini qeyd etdilər [31].

Azərbaycan cəmiyyətindəki işğalla barışmazlıq əhvalı hərbi qulluqçu, gizir Mübariz İbrahimovun hərəkətində özünü bir daha nümayiş etdirdi. O, 2010-cu il iyunun 18-də təkbaşına cəbhə xəttini keçərək, düşmənin üzərinə yeridi, düşmənin onlarla canlı qüvvəsini məhv etdi. Bu, dünyada heç nə ilə müqayisə olunmayan qəhrəmanlıq nümunəsi idi [24, s.3]. Bəzi mənbələrə görə, M.İbrahimov 45 [17], digərlərinə görə, 140 erməni əsgərini öldürmüşdü [27].

Ermənistan niyyətlərindən geri çəkilmir, atəşkəsi tez-tez pozur, təxribatlar törədirdi. Ermənilərin 2014-cü ilin avqustunda törətdiyi növbəti təxribat lokal döyüş xarakteri aldı. Azərbaycan Ordusu düşmənin Ağdam və Tərtər istiqamətlərində cəbhəni yarmaq cəhdinin qarşısını alaraq cavab tədbirləri gördü. Üç gün davam edən döyüşlərdə Azərbaycan Ordusunun 13 hərbi qulluqçusu həlak oldu [20]. Ermənistan tərəfində 47 hərbi qulluqçu öldü, 100-dən çoxu yaralandı [26; 2]. Ermənistan təxribatlarını davam etdirir, Azərbaycan üzərində "tam qələbəyə" nail olmağa çalışırdı. Hadisələrin gedişi 2016-cı ilin aprelində atəşkəs dövrünün ən iri hərbi qarşıdurmasına gətirdi [53]. Bu qarşıdurma "Aprel döyüşləri" və ya "Dörd günlük müharibə" kimi adlandırıldı. Döyüşlər 2016-cı il aprelin 1-dən

2-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin Azərbaycan tərəfinə bütün cəbhə boyu güclü artilleriya atəşləri ilə başladı [8]. Azərbaycan Ordusu düşmənin cəhdlərinin qarşısını aldı və əks tədbirlər həyata keçirdi. Azərbaycan Ordusu düşmənin məşhur "Ohanyan səddi"ni 18 dəqiqəyə yarıb keçdi [18]. Sərt hərbi əməliyyatlar aprelin 5-də Rusiyanın vasitəçiliyi ilə dayandırıldı, atəşkəs bərpa olundu. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələndi [28], Tərtər rayonu Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonu Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi, Goranboy rayonu Gülüstan kəndi və Tərtər rayonu Suqovuşan (Madaqiz) kəndi istiqamətində yollar düşməndən azad edildi [1]. Ümumilikdə, 2 min hektar ərazi işğaldan azad edildi [11]. Döyüşlərdə Azərbaycan tərəfindən 98 nəfər həlak oldu. Polkovnik Raquf Orucov, kapitan Vaqif Bayramov, gizir Pəncəli Teymurov, əsgərlər Nazim Zəkarayev, Altun Dəmirli, Rəvan Nurayev, Sarvan Mehrəliyev və digərləri xüsusi qəhrəmanlıq göstərdilər.

Ermənistan cəmiyyətində həm bu məğlubiyyətin, həm sosial problemlərin, həm də bəzi xarici amillərin təsiri altında parçalanma baş verdi, hakimiyyət uğrunda sərt mübarizə başladı. Nəticədə, əsasən Qərblə bağlı olan Nikol Paşinyan və onun tərəfdarları 2018-ci ilin mayında çevriliş yolu ilə hakimiyyətə gəldi. Ermənistanın yeni rəhbərliyi konstruktiv danışıqlar əvəzinə Azərbaycana qarşı sərt təzyiq mövqeyindən çıxış etdi, danışıqlara Dağlıq Qarabağdakı qondarma rejimin də cəlb olunması tələbini irəli sürdü. 2019-cu il ərzində Ermənistan rəhbərliyi tez-tez Qarabağa səfərlər edir, Azərbaycan tərəfini qıcıqlandıran

hərəkətlər edir, açıqlamalar verirdi. Həmin ilin mart ayında Ermənistan müdafiə naziri David Tonoyan ABŞ-da səfərdə olarkən, Azərbaycanı yeni müharibə ilə hədələdi, "yeni müharibə-yeni ərazilər" şüarını səsləndirdi, əlavə torpaqların işğalı iddiasını ortaya qoydu [45]. Bundan bir qədər sonra, avqustda N.Paşinyan Xankəndidə mitinqdə çıxış edərkən "Qarabağ (Arsak) Ermənistandı. Və nöqtə" şüarını səsləndirdi [37]. Prezident İlham Əliyev uyğun məqamı tutaraq, 2019-cu ilin oktyabrında Rusiyanın Soçi şəhərində "Valday" Beynəlxalq forumunda çıxış edərkən Paşinyanın cavabını sərrast ifadə ilə verdi: "Qarabağ Azərbaycandır və nida işarəsi" [13].

Azərbaycan cəmiyyətində müharibə tələbi getdikcə daha kəskin şəkildə qoyulurdu. Qarabağ Azadlıq Təşkilatının təşəbbüsü ilə 2018-ci ilin sentyabrında bütün ictimai, siyasi qurumlar, o cümlədən aparıcı müxalifət partiyaları, hakim Yeni Azərbaycan Partiyasının da qatıldığı birgə Qarabağ mitinqi keçirildi. Minlərlə insanın iştirak etdiyi izdihamlı mitinqdə "Ya Qarabağ, ya ölüm!", "Qarabağ bizimdir, bizim olacaq!", "Antiterror əməliyyatları başlanılsın!", "Ümid sənədir Azərbaycan əsgəri!" və digər şüarlar, tələblər irəli sürüldü [5].

Qələbəyə gedən yol 2020-ci ilin iyulunda Tovuz döyüşləri ilə başladı. Qarşıdurma 2020-ci il iyulun 12-də Ermənistan tərəfinin Azərbaycanın Tovuz şəhəri yaxınlığındakı Qaraqaya yüksəkliyində döyüş mövqeyini ələ keçirmək cəhdi ilə başladı [44]. Dörd gün davam edən döyüşlərdə düşmənin hücum cəhdlərinin qarşısı alındı və geri çəkilməyə məcbur edildi. Ağır döyüşlərin gedişində Azərbaycan tərəfindən 12 hərbçi, o cümlədən general

Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Anar Novruzov, gizir İlqar Zeynallı, əsgərlər Vüqar Sadıqov, Xəyyam Daşdəmirov və digərləri həlak oldu [22]. Erməni tərəfi itkiləri ilə bağlı dəqiq məlumat vermədi. Azərbaycan müdafiə nazirliyinn hesablamalaırna görə, düşmən 100-ə yaxın itki vermişdi [12]. Tovuz döyüşləri Azərbaycanda və ölkədən xaricdə kütləvi dəstək aksiyaları ilə müşayət olundu [25]. Çoxlu sayda insan səfərbərlik xidmətinə müraciət edərək, Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün cəbhəyə getməyə hazır olduğunu bildirdi, bir neçə gün ərzində ərizə verənlərin sayı 50 min nəfəri keçdi [38].

İkinci Azərbaycan-Ermənistan müharibəsinin yekun mərhələsi olaraq, İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi, 44 günlük müharibə və ya "Dəmir Yumruq" əməliyyatı adlandırılan hərbi qarşıdurma 2020-ci il sentyabrın 27-də başlandı. Həmin gün saat 06.00 radələrində Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq hücuma keçdi [10]. Azərbaycan Silahlı Qüvvələri erməni təxribatının qarşısını almaq üçün dərhal əks-hücum əməliyyatlarına başladı və ölkə ərazisində hərbi vəziyyət elan olundu [9].

Ordumuz ilk gündə ciddi taktiki nəticələrə nail oldu. Azərbaycan Ordusu sonrakı günlərdə də uğurlarını davam etdirdi, bir sıra yaşayış məntəqələrini, o cümlədən ermənilərin Madagiz adlandırdıqları Suqovuşan qəsəbəsi (03 oktyabr), Cəbrayıl şəhəri (04 oktyabr), Hadrut qəsəbəsi (09 oktyabr), Füzuli şəhəri (17 oktyabr), Zəngilan şəhəri (20 oktyabr), Qubadlı şəhəri (25 oktyabr), Şuşa şəhəri (08 noyabr) və digər yaşayış məntəqələri işğaldan azad edildi. Şuşanın fəthi dünya hərb tarixinin ən önəmli nü-

munələrindən birinə çevrildi. Xüsusi təyinatlılar beş gün ərzində Hadrut tərəfdən meşə, yarğan, sıldırım qayalardan keçərək şəhərə yaxınlaşdı. Oktyabrın 29-da Azərbaycanın xüsusi təyinatlıları Çanaxçı kəndini tutaraq, Şuşanın yaxınlığına çatdı. Həmin gün axşam Azərbaycan Ordusu Şuşanın 5 km-liyinə yaxınlaşaraq, Daşaltı kəndi ətrafında döyüşlər apardı, bir həftəlik ağır döyüşlərdən sonra, noyabrın 4-də Şuşanın cənubundakı yüksəklikəri və Şuşadan Laçına gedən yolu nəzarətə götürdü. Noyabrın 6-da erməni hərbi birləşmələrinin rəhbərləri şəhəri tərk edərək qaçdı. Noyabrın 7-də günortaya qədər Şuşanın əsas hissəsi Azərbaycan Ordusunun nəzarətinə keçdi [23, s.39]. Erməni mənbəələrinin etirafına görə, həmin vaxt şəhərdə ermənilərin 2 min nəfərdən artıq canlı qüvvəsi, kifayət qədər zirehli texnikası və ağır artilleriyası var idi. Azərbaycanın yüngül silahlı 400 nəfərlik xüsusi təyinatlı dəstəsi Ermənistanın beşqat artıq hərbi qüvvəsinin müqavimətini sındıraraq, noyabrın 7-də günortadan sonra Şuşanı işğaldan azad etdi, noyabrın 8-də isə düşmənin hələ müqavimət göstərən bəzi şəhərətrafı mövqeləri məhv edildi [42]. Prezident İlham Əliyev noyabrın 8-də Şuşa şəhərinin azad olunduğunu elan etdi.

Şanlı Azərbaycan Ordusunun, qəhrəman əsgərlərimizin Şuşanı işğaldan azad etməsi müharibənin taleyini həll etdi. Azərbaycan Prezidentinin sərəncamı ilə məhz həmin gün Zəfər Günü elan edildi [3]. Bu vaxt Azərbaycan tam üstün mövqedə idi, çox asanlıqla Xankəndi, Xocalı və digər əraziləri də azad edə bilərdi. Lakin Azərbaycan rəhbərliyi beynəlxalq çağırışları, Türkiyənin mövqeyini, Rusiyanın bəzi istəklərini, həmçinin Ermənistanın qeyd-şərtsiz təslim

olduğunu, Azərbaycanın qələbəsini etiraf etdiyini, kapitulyasiyaya razılaşdığını nəzərə alaraq, atəşkəs sənədinin, birgə bəyanatın qəbul edilməsinə razılıq verdi. Atəşkəsə dair danışıqlar Azərbaycan, Türkiyə və Rusiya rəhbərləri arasında aparıldı. Azərbaycan prezidenti İlham Əliyev, Ermənistan baş naziri Nikol Paşinyan, Rusiya prezidenti Vladimir Putin 2020-ci il noyabrın 10-da, döyüşlərin 44-cü günündə onlayn formatda müharibənin bitməsinə dair Birgə Atəşkəs Bəyanatını imzaladı. Bu sənədlə Ermənistan rəhbərliyi təslim olduğunu etiraf edirdi. Konkret olaraq bəyanatda tam atəşkəsin elan olunması, Kəlbəcər rayonunun noyabrın 15-də, Ağdam rayonunun noyabrın 20-də, Laçın rayonunun dekabrın 1-də Azərbaycana qaytarılması, Rusiya sülhməramlı qüvvələrinin Dağlıq Qarabağdakı təmas xətti və Laçın dəhlizi boyunca yerləşdirilməsi, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin açılması və digər məsələlər yer almışdı [41].

Dekabrın 2-də prezident İlham Əliyev 10 noyabrın Zəfər Günü elan olunmasına dair sərəncam imzaladı, türk dünyasının böyük şəxsiyyəti Atatürkün vəfat tarixinin həmin günə düşməsi ilə əlaqədar bir gün sonra Zəfər Günü 8 noyabra, Şuşanın işğaldan azad olunduğu günə keçirildi. Hərbi əməliyyatların başladığı 27 sentyabr isə Anım Günü elan olundu [21]. Qələbə münasibəti ilə "Zəfər", "Qarabağ" və digər orden, medal, həmçinin "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı təsis edildi.

Ermənistanda isə bəyanat sərt etirazlarla qarşılandı, hakimiyyət "Qarabağı satmaqda" ittiham olundu, küçə yürüşləri, mitinqlər keçirildi, etirazçılar hətta qısa müddətə parlament binasına daxil oldular, iclas zalında çıxış edərək, müharibənin davam etdirilməsini tələb etdilər [50].

Üçtərəfli bəyanatın şərtlərinə uyğun olaraq, 2020-ci il noyabrın 20-də Azərbaycan qoşunları Ağdam rayonuna, noyabrın 25-də Kəlbəcər rayonuna (üçtərəfli razılaşmada nəzərdə tutulan 15 noyabr tarixi ermənilərin xahişi ilə 10 gün müddətinə təxirə salınmışdı), dekabrın 1-də Laçın rayonuna daxil oldu. Bununla Azərbaycanın 3 rayonunu da işğalçı Ermənistan qüvvələri tərk etdi. Həmin bölgələrdə işğal dövründə qanunsuz məskunlaşdırılmış ermənilər növbəti dəfə vandalizm, vəhşilik aktları törətdi, tərk etdikləri evləri, binaları, digər tikililəri, apara bilmədikləri əmlakları yandırdılar, məhv etdilər [48].

Türkiyə və Rusiya müdafiə nazirləri arasında 11 noyabr 2020-ci ildə Birgə Monitorinq Mərkəzinin (BMM) yaradılmasına dair memorandum imzalandı və BMM 2021-ci il yanvarın 30-da fəaliyyətə başladı. BMM Azərbaycanın Ağdam rayonu ərazisində, Ağcabədi rayonu Qiyaməddinli kəndinin 4 km-də yerləşdirildi. [52]. Üçtərəfli bəyanata uyğun olaraq Rusiyanın sülhməramlı kontingenti 2020-ci il noyabrın 11-də Qarabağa gəldi, Laçın dəhlizi və digər ərazilərdə fəaliyyətə başladı. Hərbi qüvvələrin ilk komandanı general-leytenant Rüstəm Muradov oldu [39]. Sülhməramlıların regionda 5 il müddətinə, 2025-ci ilə qədər qalması nəzərdə tutulurdu. Onların qərargahı Xocalı şəhərində yerləşdirildi [47].

44 günlük müharibədə Azərbaycan Silahlı qüvvələri 2907 nəfər hərbi qulluqçusunu itirib, 7 nəfər itkin düşüb, 12.7 min nəfər yaralanıb [16]. Azərbaycan tərəfindən 101 nəfər dinc sakin erməniərin raket və artilleriya zərbələri nəticəsində həyatını itirib, 423 nəfər yaralanıb [46]. O cümlədən, sentyabrın 27-də Naftalan rayonu Qaşaltı kəndində

5 nəfər, oktyabrın 4-də, 11-də, 17-də Gəncədə 27 nəfər həlak olub, 125 nəfər yaralanıb, oktyabrın 28-də Bərdə şəhərində 27 nəfər dinc sakin həlak olub, 70 nəfər yaralanıb [7; 29]. Ekspertlərin hesablamalarına görə, Ermənistan 30 illik işğal və müharibələr nəticəsində vurduğu ziyanla bağlı Azərbaycana 500 milyard ABŞ dolları həcmində təzminat ödəməlidir [6].

Ermənistan tərəfdən 8 minə qədər hərbi qulluqçu ölüb [34], 11 min nəfər yaralanıb [49], 1600 nəfərdən artıq itkin düşüb [30]. Erməni tərəfi 39 dinc sakinlərinin ölməsini iddia edir [36], lakin konkret faktlar gətirə bilmir.

Beləliklər, İkinci Azərbaycan-Ermənistan müharibəsində qələbə nəticəsində Azərbaycanın Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın rayonları, Şuşa şəhəri, Xocavənd rayonunun bir hissəsi, o cümlədən Hadrut qəsəbəsi, Tərtər rayonunun Suqovuşan və digər yaşayış məntəqələri Ermənistanın işğalından azad edildi. Müharibədə qələbə Azərbaycanın siyasi rəhbərliyinin uğurlu daxili və xarici siyasəti, səmərəli ordu quruculuğu, cəmiyyətdə siyasi və ictimai təbəqələrin, dövlətlə xalqın birliyinə nail olunması, vahid iradənin əldə olunması, hərbi qüvvələrin səmərəli fəaliyyəti, düzgün döyüş strategiyası və taktikasının qurulması, əsgər və zabitlərin fərdi qəhrəmanlığı, arxa cəbhənin fədakarlığı nəticəsində əldə olundu.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Aprel Zəfərinin ildönümü.- http://cebhe.info/aprel-zeferinin-ildonumudur-azad -olunmus-eraziler-54692.

2. Avqust döyüşləri, 2014-cü il.- baki-xeber.com/sosial/105928.html.

3. "Azərbaycanda Zəfər Günü təsis edilib.- Sərəncam"- azertag.az/ xeber/Azerbaycan_ Respublikasinda_Zefer_Gunu-nun_tesis_edilmesi _haqqinda_ Azerbaycan_Respublikasi_Prezidentinin_Serencami-1657265.

4. Azərbaycan-Fransa münasibətləri.- lib.aliyevheritage. org/az/5654040. html.

5. Bakıda Qarabağ münaqişəsi ilə bağlı mitinq keçirilib.-amerikanın səsi.org/siyaset/4592507.html.

6. Ermənistan Azərbaycana 500 milyard dollar civarında...- oxu.az/politics/ 677847.

7. Ermənistanın dinc sakinlərə qarşı ...-azerbaijan-news. az/az/posts/detail/ ermenistenin-dinc-ehaliye-qarsi-cezasiz-qalan-terror-emelleri-1663879689.

8. Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini güclü artilleriya atəşinə tutub.- web.archive.org/ web/20160404112844/ http://www.mod. gov.az/index2.php? content=news%2F20160402_melumat _cebhe.

9. "Hərbi vəziyyət elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı."- azertag.az/xeber/1596729.

10."Hikmət Hacıyev: Ermənistan yaşayış məntəqələrini, mülki əhalini...- azertag.az/xeber/1596133.

11. İlham Əliyev: "Qeyri-neft sektorunda artım var".-"Azərbaycan" qəzeti, 16.07.2016, s. 1.

12. Kərim Vəliyev: düşmənin 100-ə qədər canlı qüvvəsi, çoxlu texnikası və mühüm obyektləri məhv edilib.-azertağ.az/ xeber/Kerim_Veliyev_Dusmenin _100_e_qeder_ canlı_quvvesi_ choxlu_texnikasi_ve_muhum_obyektləri_mehv edilib-1536267.

13. Qarabağ Azərbaycandır.- aztv.az/index.php/az/ news/1752/president-ilham-eliyev-qarabag-azerbaycan-dir-ve-nida-isaresi-markvideomark.

14. Qarabağ müharibəsi.- files.preslib.az/projects/shusha/ebooks/garabag-müharibəsi-tarix.pdf,s.79.

15. Qarabağ münaqişəsi-30.- hafta.az/qarabag-munaqise-si-30-213462-xeber.html.

16. Qazilərin, şəhid ailələrinin sayı... -modern.az/aktu-al/352857/muharibe-istirakcilerinin-sayi/.

17. Mübariz İbrahimov kimdir?- archive.ph/20220529114044/https://www.yeniakit.com.tr/biyografi/ mubariz-ibrahimov.

18. Müdafiə naziri: "Aprel döyüşlərində Ordumuz müdafiə xəttini 18 dəqiqəyə yardı.- ordu.az/news/148771/mudafie-na-ziri-aprel-doyuslerinde-ordumuz -mudafie-xettini-18-deqiqe-ye-yardi.

19. Nağı A. Qarabağ müharibəsi. Qısa tarix. Bakı, "Namiq Həbibov", 2015.

20. 13 hərbi qulluqçumuzun Şəhid olduğu Avqust döyüşlə-ri.- adalet.az/ w221707.

21. "Prezident İlham Əliyev Azərbaycanda Anım Gününün təsis edilməsi haqqında Sərəncam imzalayıb.- azertag.az/xeber/Prezident_İlham_Aliyev_ Azerbaycanda _Anim_ Gununun_te-sis_edilmesi_haqqinda_Serencam_imzalayib-1656227.

22. Vətən sizinlə qürur duyur .- azvision.az/nevs/226697/-ve-ten-sizinle-qurur-duyur!-tovuz-sehidlərinin-qehremanliq-yo-lu-fotolar-.html.

23. Antal J. 7 Seconds to Die: A Military Analysis of the Se-cond Nagorno-Karabakh War and the Future of Warfighting.- Oxford. Havertown PA: Casemate, 2022, s.37.- amazon.com/Seconds-Die-Military-Nagorno-Karabakh-Wartighting-ebook/dp/B09VVJ9PGK?ref_=ast_author_dp&asin= B09VVJ9PGK&-revision/ D=&form…

24. "Armenia and Azerbaijan: Preventing War". Internatio-nal Crisis Group, 2011.

25. Azerbaijan protesters demand war after Armenia clashes.-bbc.com/ news/world-europe-53415693.

26. Death Toll in Karabakh Fighting Continues To Rise.- eurasianet.org/ death-toll-in-karabakh-fighting-continues-to-rise.

27. Karasıoğlu, İsa Kağan. "İranian Encounters in Azerbaijan: The Case of Nardaran". Columbia University Press, 2016, s.108.- academiccommons. columbia.edu/doi/ 10.7916/ D8NP24R3.

28. Laurence B. "The Nagorny Karabakh Conflict Defaulting to War. PDF. The Royal Institute of International Affairs.- chathamhouse.org/sites/files/ chathamhouse/publications/research/NK%20paper%2024082016%20WEB.pdf.

29. Military-occupation-of-Azerbaijan-by-Armenia.- rulac. org/brows/conflicts/ military-occupation-of-azerbaijan-by-armenia.

30. "Official in Armenia reports on 1600 missing... -https:// www. panarmenian.net/eng/news/290552/Official_in_Armenia_reports_on_166_missing_troops_says_number_is_dropping.

31. Statement by the OSCE Minsk Group Co-Chair countries.- web. archive.org/web/20100805050821/ http:www.osce. org/item/ 44971.html.

32. Tomas de Vaal. "Remakinq the Naqorno Karabakh Place Process".- web.archive.org/web/20220405091725/ https:// carnegicendowment.org/ 2010/08/01/ remakinq- nagorno- karabakh- peace- process- pub- 41367.

33. Абасов А., Хачатрян А. Карабахский конфликт, варианты решения: идеи и реальность. Москва, «Междун. отнашения».

34. Азербайджан оценил потери Армении осеню в Карабахе…- interfax.ru/world/777881.

35. «Азербайджанская армия уничтожила 12 армянских солдат и ранила 15, потеряв 4 военнослужащих».- news.day.az/politics/110358.html.

36. Артак Бегларян оставляет службу…- http://euro-ombudsman.org/ ombudsmen_activities/artak-beglaryan-ostavlyaet-sluzhbu-zashitnika-prav-cheloveka-v-artsahe.

37. Арцак-это Армения.- ru.armeniasputnik.am/20190805/ Artsakh-eto-Armeniya-i-vse-Pashinyan-vystupil-v-Stepanakerte-19946257.html.

38. Больше 50 тысяч азербайджанцев выразили желание отправиться на фронт.-az.sputniknews.ru/20200721/azerbaijan-dobrovolcy-boi-424493112.html.

39. Группировку российских миротворцев в Карабахе возглавил генерал Мурадов.- vestikavkaza.ru/ news/gruppirovku-rossijskih-mirotvorcev-v-karabahe-vozglavil-general-muradov.html.

40. ЕСПЧ отклонил иск Армении по делу Рамиля Сафарова.-trend.az/ azerbaijan/politics/3296121.html.

41. Заявление Президента Азербайджанской Республики, Премьер-министра Республики Армения и Президента Российской Федерации.- kremlin.ru/events/president/news/64384.

42. Как спецназ ВС Азербайджана освобождал Шушу от оккупации. Новости «Москва-Баку» с Анной Немолякиной 9 ноября.- https://moscow-baku.ru/news/society/tema_novosti_moskva_baku_s_ annoy_nemolyakinoy _9_ noyabrya/.

43. “Карабахские партизаны» должны быть освобождены.1-news.az/ news/20070814105033571-Karabakhskie-partizany-dolzhny-byt-osvobozhdeny.

44. Лавров С. Пандемия ускорила мыслительные процессы в Евросоюзе.-https:www.trud.ru/article/20-08-2020/1393051_sergey_lavrov_pandemiya_uskorila_myslitelnye_protsessy_v_evrosoyuze.html.

45. Министр обороны Армении предупреждает: «Новая война-новые территории».- regnum.ru/news/2602031.html.

46. Названо число гражданских жертв войны и ее последствий.-az.sputniknews.ru/20201214/voennye-prestupleniya-poterpevshie-425721940.html

47. На росийско-азербайджанской встрече…- rus.azatutyun.am/a/ 32166410.html.

48. Новый исход. Армяне бегут из Карабаха, сжигая свои дома.- bbc.com/Russian/features-54930278; rosbalt.ru/world/2020/11/13/1872795.html.

49. Представитель ВС Армении сообщил число раненых в ходе войны.- armeniatoday.news/armed-forces-ru/263501/.

50. Протестуюущие в Ереване ворвались в парламент и заняли трибуну.- https://ria.ru/20201110/armeniya-1583854254.html.

51. Резолюции и решения, принятые Генеральной Ассамблеей на шестьдесят второй сессии. Том III, s.3-5.- un.org/ru/ga/62/docs/62_545-557.pdf.

52. Состоялась церемония открытия Турецко-Российского совместного мониторингового центра.- mod.gov.az/ru/ news/sostoyalas-ceremoniya-otkrytiya-turesko-rossijskogo-sovmestnogo-monitoringovogo-centra-video-34669.html.

53. Четырехдневная война.- rbc.ru/politics/05/04/2016/570 3d5019a7947 74f8ec6 570.

### *§ 2. Siyasi, sosial-iqtisadi dəyişikliklər. Mədəniyyət.*

Azərbaycan yeni əsrə müasir dünyanın əsas dəyərlərini nəzərə almaqla, eyni zamanda milli dəyərlərinə sadiq qalaraq daxil oldu. Müasir dünyanın əsas şərtlərindən biri kimi, uzun müzakirələrdən sonra, hələ 1998-ci ilin fevralında ölüm hökmü ləğv edildi [2]. Yeniliklər davamlı şəkildə həyata keçirilirdi. 2001-ci ildə Azərbaycan "İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşuldu [18]. Elə həmin ildə İnsan hüquqları üzrə müvəkkil (ombudsman) vəzifəsi yaradıldı [10]. Dünya azərbaycanlıları ilə əlaqələrin yaradılması, onların təşkilatlanması, fəaliyyətlərinin canlandırılması istiqamətində addımlar atıldı. 2001-ci ilin noyabrında Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi, fəaliyyətin səmərəliliyinin artırılmasına dair qərarlar qəbul olundu [13]. 2002-ci ilin iyulunda isə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi (2008-ci ilin noyabrında Diasporla İş üzrə Dövlət Komitəsi adlandırıldı) yaradıldı [39].

Prezident Heydər Əliyevin xəstəliyi ilə əlaqədar siyasi hakimiyyətin varisliyi, stabilliyin qorunub saxlanılması, dövlətçilik üçün daxili və xarici təhlükələrin qarşısının alınması məsələləri aktuallaşdı. Ona görə də 2002-ci ilin avqustunda referendum yolu ilə Konstitusiyaya dəyişikliklər edildi, o cümlədən, fövqəladə hallarda prezidentin səlahiyyətlərinin baş nazirə keçməsini nəzərdə tutan bənd əlavə edildi [19]. İlham Əliyev 2003-cü ilin avqustunda baş nazir təyin edildi. Həmin il oktyabrın 15-də isə prezident seçildi [17]. 2003-cü il dekabrın 12-də Ümummilli lider,

dövlət xadimi Heydər Əliyev vəfat etdi. Onun siyasəti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycanda hakimiyyət bölgüsü uğurla həyata keçirilir. Prezident və hökumət ali icra, Milli Məclis qanunverici, hakimlər məhkəmə hakimiyyətlərini təmsil edir. Yerli idarəetmə orqanları bələdiyyələrdən ibarətdir. Azərbaycan prezidenti 2016-cı il referendumu ilə Konstitusiyada edilən dəyişikliyə görə 7 il müddətinə seçilir. Bu dəyişikliyə uyğun olaraq İlham Əliyev 2018-ci ilin aprelində növbəti dəfə prezident seçildi [17]. Həmin referendumun nəticələrinə görə, birinci vitse-prezident və vitse-prezident vəzifələri təsis edildi. Prezidentin sərəncamı ilə Mehriban Əliyeva 2017-ci ilin fevralında Azərbaycan Respubliksaının Birinci vitse-prezidenti təyin edildi [20].

Azərbaycanda tədricən siyasi sistem formalaşdı, uyğun qanunvericilik aktları qəbul edildi. 2022-ci il dekabrın 16-da "Siyasi partiyalar haqqında" yeni qanun (əvvəlki qanun 1992-ci ildən fəaliyyət göstərirdi) qəbul olundu [26]. Yeni Qanunla müasir dövrdə partiyaların qeydiyyatı, fəaliyyətinə dair qayda və normalar müəyyən edildi. Azərbaycanın ərazi bütövlüyünün, suveren hüquqlarının tam bərpa olunmasının, son ildə əldə olunmuş siyasi, iqtisadi, hərbi uğurların, həmçinin siyasi islahatların davamı olaraq 2024-cü il fevralın 7-də növbədənkənar Prezident seçkiləri keçirildi, İlham Əliyev böyük əksəriyyətin səs çoxluğu ilə yenidən prezident seçildi. İlham Əliyev və ailə üzvləri Xankəndində səs verməklə dünyanın diqqətini bir daha əzəli Azərbaycan şəhərlərinin artıq azad olunduğuna yönəltdi.

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin əsas mahiyyəti bazar iqtisadiyyatının bərqərar olması və dünya iqtisadiyyatına inteqrasiyadan ibarətdir [11]. Prezident İlham Əliyev 2024-cü il dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə xalqa müraciətində əldə olunan nailiyyətləri qeyd edib: “Bu il ümumi daxili məhsul 4 faizdən çox artıb ... Biz öz valyuta ehtiyatımızı artırmışıq və hazırda 72 milyard dollardan çox valyuta ehtiyatımız var” [16]. Azərbaycan orta səviyyəli sənaye-aqrar ölkəsi hesab edilir [35, s. 17]. Ölkənin kənd təsərrüfatı əsasən üzümçülük, bağçılıq, tütünçülük, tərəvəzçilik, heyvandarlıq və ipəkçilik sahələri üzrə ixtisaslaşmışdır. Orta illik taxıl istehsalı 2 milyon ton təşkil edir, Azərbaycan taxıla olan ehtiyacının 60%-ni özü ödəyir, 40%-ni idxal edir [34]. Kənd təsərrüfatının daha intensiv inkişafı üçün aqroparklar yaradılıb (aqropark- kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanılması və satışı üçün maddi-texniki bazanı təmin edən texnoloji kompleksdir). Bu gün rayonların yarıdan çoxunu əhatə edən 51 aqropark fəaliyyət göstərir.

Azərbaycan sənayesinin əsasını neft, son illərdən isə neft-qaz sənayesi təşkil edir. Ölkə böyük neft ehtiyatlarına malikdir. Azərbaycanda neft istehsalı 2010-cu ilə qədər artan xətlə davam etdi və gündəlik 1 milyon barrelə (illik 50 milyon ton) çatdı. Həmin vaxtdan istehsal azaldıldı, 2022-ci ildə neft hasilatı aşağı endi və 32,6 milyon ton təşkil etdi [41]. Dünya neft bazarının konyukturları,

həmçinin neft ehtiyatlarından qənaətlə istifadə edilməsinin vacibliyi nəzərə alınmaqla neft hasilatı planlı şəkildə azaldılır. Ona görə də 2024-cü ildə bu rəqəm 30 milyon ton civarında oldu. Azərbaycanda təbii qazın istehsalı yalnız 2020-ci illərin əvvəllində mühüm əhəmiyyət kəsb etməyə başladı. O vaxta qədər ölkənin ciddi təbii qaz ehtiyatlarının olmadığı fikri üstünlük təşkil edirdi. Azərbaycanın təbii qaz istehsalının əsasını "Ümid", "Abşeron", "Babək", "Şəfəq-Asiman", "Şahdəniz" yataqları təşkil edir. Qaz istehsalı 2011-ci ildən başlayaraq artmağa başladı, həmin il 17 mlrd m3 [40], 2024-cü il üçün isə bu rəqəm təxminən 47 mlrd m3 - ə çatdı. 2021-ci ildən Azərbaycan qazının xaricə ixrac edilməsinə başlanılıb. Hazırda Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniyaya və digər ölkələrə qaz ixrac edilir [33].

Neft və qazın nəqli ilə bağlı kəmərlərin tikintisi diqqət mərkəzində saxlanılırdı. Bakı-Supsa neft kəmərinin əsas xüsusiyyətlərindən biri Rusiya ərazisindən yan keçməsi oldu. Kəmər 1999-cu ildə işə salındı və Bakı neftini Gürcüstanın Supsa terminalına daşımağa başladı, neftin oradan Avropaya nəqli davam etdirildi [43]. 2006-cı ilin iyununda əsas nəql vasitəsi olan Bakı-Tbilisi-Ceyhan neft kəməri işə düşdü. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum [24], 2019-cu ildə Transanadolu (qısa şəkildə TANAP adlandırılan kəmər Azərbaycandan başlayıb, Gürcüstan və Türkiyədən keçməklə Yunanıstana çatır, oradan başqa xətlə davam etdirilir) [38], 2020-ci ilin noyabrında Transadriatik (qısa şəkildə TAP adlandırılan bu kəmər Azərbaycan, Gürcüstan, Türkiyə üzərindən Bakı-Tbilisi-Ərzurum və Transanadolu kəmərləri ilə Yunanıstana çatdırılan qazı

Qərbi Avropaya nəql edir) [42] qaz kəmərləri fəaliyyətə başladı.

Azərbaycan elektrik enerjisi istehsalı sahəsində də müsbət nəticələrə nail olub. 2021-ci ildən ölkə özünü elektrik enerjisi ilə tam təmin edir [38]. Azərbaycanın bütün ərazilərində, xüsusilə də işğaldan azad olunmuş bölgələrdə "yaşıl enerji zonaları"nın, günəş, külək, bioenerji, geotermal enerji stansiyalarının qurulması istiqamətində işlər həyata keçirildi. Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişikliyinə dair 2024-cü il 11-22 noyabr tarixində Bakıda keçirilən 29-cu konfransı- COP29 iqlim dəyişiklikləri, "yaşıl enerji" istehsalı və digər məsələlərlə bağlı mühüm hadisə oldu. Mötəbər beynəlxalq tədbirə 198 ölkənin nümayəndə heyəti, o cümlədən 80 dövlət və hökumət başçısı, BMT baş katibi Antoniu Quterriş, digər beynəlxalq və regional təşkilatların rəhbərləri, ümumilikdə 76 mindən çox iştirakçı qatıldı. Tədbirdə iqlim dəyişikliklərin fəsadlarının aradan qaldırılması, ənənəvi enerji daşıyıcılarından imtina edilməsi, "yaşıl enerji" istehsalına üstünlük verilməsinə dair vacib qərarlar qəbul olundu [23].

Müstəqil Azərbaycan sənayesinin metallurgiya, dağ-mədən, kimya, maşınqayırma, gəmiqayırma, yüksək texnologiyalar, hərbi-sənaye kompleksi və digər sahələrində də uğurlar əldə edildi. 2013-cü ildə Azərbaycanın ilk süni peyki kosmosa buraxıldı [5].

Dünyada bütün sahələrin inkişafı informasiya-kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsi ilə müəyyən edilir. İnformasiyanın yaradılması, emalı, saxlanılması, istifadəsi, ötürülməsi və idarə olunması "informasiya texnologiyaları" (İT), yaxud "informasiya-kommunikasiya

texnologiyaları" (İKT) adlandırılır. İKT və müasir dövrü xarakterizə edən Dördüncü sənaye inqilabı (İndustry 4.0) bir-biri ilə bağlıdır. Dördüncü sənaye inqilabı istehsala informasiya texnologiyalarının kütləvi surətdə tətbiqi, biznes proseslərin geniş miqyasda avtomatlaşdırılması və süni intellektin təşəkkül tapmasına əsaslanan yeni yanaşmanı ehtiva edir [44]. Dördüncü sənaye inqilabının şərtlərinə uyğun olaraq, Azərbaycanda İKT-nin tətbiqinə 2003-cü ildə dövlət proqramının qəbulu ilə başlandı. Bu vaxta qədər İKT-nin inkişafı üçün hüquqi baza yaradılıb, tələbə qəbulu, dövlət qulluqçularının seçilməsi, səsvermələrin təşkili, banklarda milli ödəniş sistemi, gömrük xidmətinin idarə olunması, "Elektron hökumət", "Elektron dövlət"in yaradılması və digər sahələrdə ciddi nəticələr əldə olunub [9].

Azərbaycan işğaldan azad edilmiş ərazilərində geniş bərpa işlərinə başladı. Bu işlər Prezidentin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı (2022-2026-cı illər)" adlı sərəncamına əsasən həyata keçirilir. 2021-ci ilin sentyabrında Füzuli, oktyabrında isə Zəngilan beynəlxalq hava limanları istifadəyə verildi. Hər ikisinin açılışında Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan birlikdə iştirak etdi. İlk nəticələrdən biri olaraq, Zəngilanın Ağalı yaşayış məntəqəsində "Ağıllı kənd" tikilib istifadəyə verildi. 2022-ci ilin yayında 41 ailə oraya yerləşdirildi. Digər bölgələrə də əhalinin köçürülməsinə başlanıldı. 2024-cü ilin sonuna qədər 10 minə yaxın məcburi köçkün öz yurdlarına qayıdıb. 2021-ci ildən 2024-cü ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzurun bərpasına Azərbaycan 19 milyard manatdan çox vəsait ayırıb [16].

Bərpa işləri ilə yanaşı ərazi minalardan təmizlənir. Yollar, körpülər, elektrik, qaz və su xətləri, elektrik stansiyaları və digər obyektlərin inşası davam etdirilir.

Bu dövrdə Azərbaycanda sosial siyasətə xüsusi önəm verilib. Sosial siyasətin mahiyyəti əmək münasibətlərinin səmərəli inkişafını təmin etməklə yoxsulluğun və iqtisadi problemlərin aradan qaldırılmasından ibarətdir. Azərbaycanda minimum əmək haqqı tədricən nizama salındı, 2025-ci il yanvarın 1-dən 400 manat həcmində müəyyən edildi. Pensiyaların minimum həddi 280 manatdan 320 manata qaldırıldı [16]. Həm sosial, həm də iqtisadi göstəricilərə aid olan bəzi məsələlər xüsusi əhəmiyyətə malikdir. 2013-cü ildə "ASAN xidmət" (Azerbaijan Service and Assesment Netüork-Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi) yaradıldı. Yeni əsrin əvvəllərindən başlayaraq bu günə qədər 8 metro stansiyası, o cümlədən, Dərnəgül, Azadlıq prospekti, 8 Noyabr, Xocasən stansiyaları istifadəyə verildi. Ümumilikdə Bakı metropoliteni 27 stansiyadan ibarətdir [15].

Azərbaycan Avropanın vahid ali təhsil sisteminə inteqrasiya etmək məqsədilə 2005-ci ildə tam şəkildə Boloniya təhsil prosesinə qoşuldu [1]. Elm sahəsində də uğurlar əldə edildi. Reaktiv mühərriklər üçün yeni növ yanacaq əldə edildi, fasiləsiz işləyən texnoloji proseslərin riyazi modelləşdirilməsi həyata keçirildi, türk dillərinin məntiqi tipinin yaradılması ideyası təklif edildi, Azərbaycan tarixinin problemləri ilə bağlı yeni konsepsiyalar təklif olundu, yeni əsərlər yaradıldı [3].

Mədəniyyətin müxtəlif sahələri müasir tələblərə uyğun olaraq inkişaf etdirildi. Memarlıq sahəsində islam,

qotik, klassik, barokko, modern üslubları milli elementlərlə uyğunlaşdırılmışdır. Məşhur memarlıq abidələrindən Alov qülləsi, SOCAR Tower, Bakı Kristal Zalı, Bakı Olimpia Stadionu, Gəncə Dövlət Filarmoniyasının binası, Heydər Əliyev Mərkəzi, Heydər Məscidi, Port Baku və digərlərini göstərmək olar [7]. Müasir rəssamlarımızdan Sakit Məmmədov, Xanlar Əhmədov, Mir Nadir Zeynalov, Arif Əziz, Eldar Qurbanov, Səmədağa Cəfərov, Nağdəli Xəlilov və digərlərini qeyd etmək olar. Onların əksəriyyəti Dünya Rəssamlıq Akademiyasının üzvləridir. Sakit Məmmədov daha çox tanınır. Onun özünün üslubu və məktəbi vardır. Görkəmli tədqiqatçı Andrey Bajenov onun yaradıcılığını yüksək qiymətləndirir: “Sakit Məmmədovun əli intibah rəssamının əlinə bənzəyir” [21]. Onun “Xatirə şəkli”, “Oyun”, “Ad günü”, “Yaşasın İstanbul”, “Toy” və digər əsərləri dünyada maraqla qarşılanıb, bir çox ölkələrdə fərdi sərgiləri keçirilib [25].

Müstəqilliyin bərpası uğrunda mübarizə illərindən başlayaraq ədəbiyyat aparıcı mövqedən çıxış edir, insanların vahid ideya ətrafında birləşdirilməsində əvəzsiz rol oynayırdı. Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz yaradıcılıqlarını yeni ruhla davam etdirdi. Xəlil Rzanın “Davam edir 37” şeirlər toplusu, Bəxtiyar Vahabzadənin “Şəhidlər” poeması, “Göytürklər” pyesi, Famil Mehdi, Nəbi Xəzri, Fikrət Qoca, Baba Pünhan, Vaqif Səmədoğlu, Ramiz Rövşən və digərlərinin yeni əsərləri həvəslə oxunurdu [12, s. 352]. Yazıçılardan İsmayıl Şıxlının “Ölən dünyam”, İsa Muğannanın “Cəhənnəm”, Sabir Rüstəmxanlının “Ömür kitabı”, Əzizə Cəfərzadəninin, Aqil Abbasın tarixi romanları, Əli Əmirlinin “Meydan”, İsi

Məlikzadənin "Qırmızı şeytan", həmçinin Rəşad Məcid, Ramiz Abbaslı, Qaraqan və digərlərinin müxtəlif səpkili əsərləri oxucuların rəğbətini qazandı, Çingiz Abdullayev, Varis, Elxan Elatlının detektiv janrında yazdıqları əsərlər dünya miqyasında tanındı, ən çox oxunan kitablar sırasına daxil oldular [12, s. 352-353]. Rövşən Abdullaoğlunun " Bu şəhərdə kimsə yoxdur" adlı psixoloji romanı 2016-cı ildə Azərbaycanda ən çox oxunan kitab oldu [30]. Vahid Məmmədlinin Azərbaycan ədəbiyyatında fentezi (fantastika janrının əsasən nağıl, əfsanələrə söykənən qolu) olan "Atropatena dastanı" trilogiyası, dünya ədəbiyyatında ilk qansız döyüş romanı olan "Tunc Allahın yükü", milli-tarixi yaddaşı əks etdirən "Şəhrizad" və "Palıda sarılmış üzüm" romanları maraqla qarşılandı [29].

Musiqi sahəsində də müəyyən uğurlar əldə olundu. Klassik musiqi sahəsində Firəngiz Əlizadənin "Qarabağnamə" operasını qeyd etmək olar. O, bu əsərinə görə 2007-ci ildə UNESCO tərəfindən "Dünyanın artisti" adına layiq görüldü [22]. 2009-cu ildən başlayaraq Azərbaycanda klassik musiqi ilə bağlı Üzeyir Hacıbəyov Beynəlxalq Musiqi Festivalı və Qəbələ Musiqi Festivalı keçirilir [32]. Digər bəstəkarlardan Oqtay Kazımovun "Hophopnamə" (1991), Süleyman Ələsgərovun "Solğun çiçəklər" (1997), Vasif Adıgözəlovun "Natəvan" (2003), Nazim Quliyevin "Xocalı" (2018), Pikə Axundovanın "Məhsəti" (2019) və digər operaları göstərmək olar. Bəstəkar Rizvan Sədirxanov "Səyyah Sindbad" adlı ilk rok-operasını (2017) yazdı [4].

Xalq musiqisinin muğam, aşıq, meyxana, rəqs sahələri inkişaf etdirildi. Aşıq yaradıcılığı 2009-cu ildə UNESCO-nun Qeyri-maddi mədəni irsinin siyahısına daxil edil-

di [14]. Tanınmış ifaçılardan Aşıq Ədalət, Aşıq Əhliman, Aşıq Kamandar, Mikayıl Asaflı, Aşıq Zülfiyyə, Telli Borçalı və digərləri müasir dövrdə aşıq sənətinə öz töhvələrini verdi. Muğam ifaçılarından Alim Qasımov, Mənsum İbrahimov Azərbaycanın sərhəddindən çox-çox uzaqlarda tanınmış, ən qədim musiqi nümunələrimizi bacarıqla təbliğ etmişlər. Digər xanəndələrimiz Arif Babayev, İslam Rzayev, Əlibaba Məmmədov, Yaqub Məmmədov, Səkinə İsmayılova, tarzənlər Ağasəlim Abdullayev, Elçin Həşimov, Vamiq Məmmədəliyev, kamançaçılar Habil Əliyev, Şəfiqə Eyvazova, Elnur Əhmədov, Fəxrəddin Dadaşov və digərləri muğam ifaçılığı mədəniyyətinə böyük töhvələr verdilər. 2003-cü ildə Azərbaycan muğamı UNESCO tərəfindən "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri" elan edildi [8]. 2005-ci ildən keçirilən televiziya muğam festivalları təbliğat, həmçinin gənc istedadların aşkar edilməsi baxımından əhəmiyyətli oldu [28]. 2009-cu ildən Muğam Dünyası Beynəlxalq Musiqi Festivalı keçirildi [31]. 1989-cu ildən Şuşada, Şuşanın işğalından sonra Ağdamda keçirilən Xarıbülbül Festivalı 2021-ci ildə fəaliyyətini bərpa etdi, 2022-ci ildən Xarıbülbül Beynəlxalq Folklor Festivalı adı ilə Şuşada davam etdirildi, 2023-cü ildə xüsusi təntənə ilə keçirildi [27]. 2024-cü ilin may ayında Şuşada "Xarıbülbül" beynəlxalq festivalı böyük coşqu ilə baş tutdu.

Müstəqillik dövründə Azərbaycan kinematoqrafiyası son dərəcə zəiflədi və bu gün də böhran içərisindədir. Lakin ötən əsrin 90-cı illərində bir neçə maraqlı film, o cümlədən "Yarasa", "Özgə vaxt" filmləri çəkildi. Vətənpərvərlik mövzusunda "Fəryad", "Arxada qalmış gələcək", "Yarım-

çıq xatirələr", "Dolu" kimi filmlər yaradılmışdır [6]. 2011-ci ildə Rüstəm İbrahimbəyovun "Kabusun gözü ilə" [37], 2020-ci ildə Hilal Baydarovun "Səpələnmiş ölümlər arasında" filmi beynəlxalq festivallarda iştirak etdi [25].

Bir çox sahələrdə olduğu kimi, mədəniyyətin inkişafına da Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun hərtərəfli dəstəyi həlledici rol oynayır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Ağaverdiyeva N. Ali təhsildə Boloniya sistemi.- "Səs" qəzeti, 2010, 26 iyun, s. 10.

2. Azərbaycanda ölüm hökmünün ləğvi.- modern.az/az/news/330035.

3. Azərbaycan elminin uğurları.- azerbaijans.com/content_607_az.html.

4. Azərbaycanın ilk rok-operası.- modern.az/az/news/148870.

5. Azərbaycanın ilk kosmik peyki orbitə uçub.- bbc.com/azeri/azerbaijan/ 2013/02/ 130206_azeri_first_satellite.

6. Azərbaycan kinosunun tarixi.- azerbaijanfilmproduction.com/az/ haqqimizda /azerbaijan-kinosu.

7. Azərbaycan mədəniyyəti. Müasir memarlıq.- axtar.len.az/?q= Azərbaycan_ mədəniyyəti#Müasir_dövr.

8. Azərbaycan muğamı.- azerbaijan.az/related-information/39.

9. Azərbaycan Respublikasının İnkişafı Naminə...- ict.az/mobile/az/ content/88.

10. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında...- e-qanun.az/framework/1407.

11. "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası - İqtisadiyyat".- web.archive.org/

web/20210830233924/https:// files.preslib.az/ projects/azerbaijan/ gl4.pdf.

12. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı, "Elm", 2008.

13. Dünya Azərbaycanlılarının I Qurultayı.- files.preslib.az/ projects/ diaspora/c1.pdf.

14. İbrahimov R. "Aşıq sənəti yalnız Azərbaycan xalqına məxsusdur".- web.archive.org/ web/20150407231423/ http://bizimyol.info/news/ 22319.html.

15. İlham Əliyev Bakı Metropoliteninin "Xocasən" stansiyasının...- report.az/daxili siyaset/ilham-eliyev-baki-metropoliteninin-xocesen-stansiyasinin-acilisinda-istirak-edib/.

16. İlham Əliyev xalqa müraciət etdi.- axar.az/news/toplum/931994.html (01/01/2025-ci il).

17. İlham Heydər oğlu Əliyev.- prezident.az/az/pages/ view/president/ biography.

18. "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında"...- e-qanun.az/framework/1405.

19. Konstitusiyada əlavə və dəyişikliklər...- "Azərbaycan" qəzeti, 2009, 17 fevral, s. 7.

20. Mehriban Arif qızı Əliyeva.- president.az/az/pages/ view/first-vice-president/biography.

21. Müasir dövrdə Azərbaycan təsviri sənətinin rolu və mövqeyi.- azerbaijan.az/related-information/176.

22. Musiqi sənətinin inkişafı tarixi.- web.archive.org/ web/20160109205934/ http://www.azerbaijan.az/portal/Culture/Music/music_a.html.

23. Prezident İlham Əliyev: "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir".- oxu.az/siyaset/ilham-eliyev-cop29-iqlim-diplomatiyasinda-donus-noqtesidir.

24. Sadıqlı F. Bakı-Tbilisi-Ərzurum kəməri Azərbaycanı qaz ixracatcısı kimi tanıtdı.- "Azərbaycan" qəzeti, 2022, 3 iyul, s.6.

25. Sarıyeva İ. "Dünyada Azərbaycanı tanıdan müasir rəssamlar"...- "Bakı Xəbər" qəzeti, 2017, 16-18 avqust, s. 15.

26. Siyasi partiyalar haqqında Azərbaycan Respublikasının Qanunu.- e-qanun.az/framework/53163.

27. Şuşada "Xarıbülbül" Festivalı başlayır.- web.archive.org/web/ 20230518134913/ https://www.qafqazinfo.az/news/detail/susada-xaribulbul-festivali-baslayir-video-399798.

28. VII Muğam Televiziya Müsabiqəsi...- culture.gov.az/az/umumi xeberler/vii-mugam-televiziya-musabiqesi-basa-catir (10.06.2019).

29. Yusifli V. Milanda ölüm.- adalet.az/az/writers/detail/milanda-olum-15554.

30. Zərif N. Tilsim sındı- Azərbaycanlı yazıçı xariciləri üstələdi.- news. milli.az/ country/507460.html.

31. Mugam feast in prospekt.- web.archive.org/web/20140408224830/ http://news.az/articles/culture/32515.

32. 3rd Uzeyir Hajibeyli İnternational Music Festival in Baku.- archive.is/20120712045409/ http://en.apa.az/news.php?id=154899/; Gabala International Music Festival programme.- web.archive.org/web/20100801061045/ http://news.az/articles /19387.

33. Азербайджан в 2022 г. увеличил экспорт газа на 18%. (13.01.2023).- Interfax.az/view/884556.

34. Азербайджан на достаточном уровне самообеспечеивается пшеницей.- news.day.az/economy/1426995.html.

35. Азербайджан// Энциклопедический географический словарь/ отв. редакторы Е.В.Варавина и др. Москва, «Рипол-классик», 2011.

36. «Азерэнержи» планирует расширить экспорт электроэнергии.- news.day.az/economy/ 1418775.html.

37. В Москве назвали лауреатов премии «Ника».- web.archive.org/web/ 20220526040644/ https://rg.ru/2010/04/01/nika.html.

38. В Турции открыли газопровод TANAP.- kommersant.ru/doe/3656841.

39. Государственный Комитет по делам Диаспоры.- web.archive.org/ web/ 20180110114723/http://azerbaijans.com/content_556_ru.html.

40. Добыча нефти в Азербайджане в 2015 г. снизилась на 0,8%, газа выросла на 1.1%- госкомстат.- oilcapital.ru/upstream/280784.html.

41. За 2022 г. дабыча нефти…- neftegaz.ru/news/dobycha/766357-za-2022-g-dobycha-nefti-v-azerbaydzhane-dostigla-32-6-mln-t-a-gaza-46-7-mlrd-kubometrov.

42. Победный 2020 год для Азербайджана-в том числе на энергетическом рынке Европы.- news.day.az/politics/1303562.html.

43. Стратегия транспортировки энергетических ресурсов.- azerbaijans. com/content _1030_ru.html.

44. Что такое индустрия 4.0…- trends.rbc.ru/trends/industry/5e74oc5b9 a79470c22 dd13e7.

### *§ 3. Azərbaycanın xarici siyasəti və hərbi gücü.*

Xarici siyasət və hərbi güc bir-birini tamamlayan iki vacib amildir. Bir çox hallarda, xüsusilə də İkinci Qarabağ müharibəsinin gedişində bu, özünü aydın şəkildə göstərdi. Hazırda Azərbaycan dünyanın BMT-yə üzv olan 193 ölkəsindən 184-ü ilə, həmçinin Fələstin və Vatikanla dip-

lomatik əlaqələrə malikdir. Azərbaycan 2001-ci il yanvarın 17-də Avropa Şurasına tamhüquqlu üzv qəbul edildi. 2002-ci ilin noyabrında isə Azərbaycan NATO Parlament Assambleyasının Assosiativ üzvlüyünə qəbul edildi.

Azərbaycanın xarici siyasəti ilk növbədə Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin danışıqlar yolu ilə aradan qaldırılmasına yönəlmişdi. 2001-ci ilin aprelində prezident Heydər Əliyev ABŞ-ın Ki-Uest şəhərində növbəti dəfə Ermənistanın işğalçı və ilhaqçı niyyətlərindən əl çəkməsinə nail olmağa cəhd etdi. Bu vaxtdan başlayaraq ABŞ rəhbərliyi Azərbaycana qarşı qərəzli mövqeyini bir qədər yumşaltdı, 2002-ci ilin yanvarında ABŞ prezidenti C. Buş ilk dəfə "Azadlıq Aktı"na 907-ci düzəlişin qüvvəsinin müvəqqəti dayandırılmasına dair qərar qəbul etdi [1]. ABŞ prezidentləri həmin vaxtdan hər il 907-ci düzəlişin fəaliyyətini müvəqqəti dayandırmaqla bağlı qərar verir, amma tam ləğv etmirlər.

2020-ci il 10 noyabr razılaşmasından sonra Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, iki ölkə sərhədlərinin delimitasiya və demarkasiyası, nəqliyyat yollarının açılması və digər məsələlərə dair danışıqlar prosesi, həmçinin bu prosesdə kimin təşəbbüsünün həlledici olacağı ilə bağlı Qərblə Rusiya arasında rəqabət başladı. İlk vaxtlar təşəbbüs Rusiyanın tərəfində idi. Rusiyanın təşəbbüsü ilə 2021-ci il yanvarın 11-də Moskvada üçtərəfli görüş oldu, Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyan növbəti birgə bəyanatı imzaladı. Bu sənəddə əsas diqqət kommunikasiyaların açılmasına yönəldildi və bunun üçün 3 ölkənin baş

nazirlərinin müavinləri səviyyəsində İşçi qrup yaradıldı [21]. Həmin il noyabrın 26-da eyni formatda Soçidə görüş oldu, tərəflər Azərbaycanla Ermənistan arasında vəziyyəti müzakirə etdi. Az sonra Qərb təşəbbüsü ələ aldı, dekabrın 14-də Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin təşkilatçılığı ilə Brüsseldə Şarl Mişel, İlham Əliyev və Nikol Paşinyanın üçtərəfli, sonra isə Azərbaycan prezidenti və Ermənistanın baş naziri arasında ilk dəfə təkbətək görüş oldu. Danışıqlar növbəti ilin payızında yenidən bərpa olundu. 2022-ci il oktyabrın 6-da Qərbin təşəbbüsü ilə yeni formatda görüş keçirildi. Praqa şəhərində baş tutan bu görüşdə İlham Əliyev-Şarl Mişel-Nikol Paşinyan formatına Fransanın prezidenti Emmanuel Makron da qoşuldu. Müzakirələrdən sonra Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyü və suverenliyini tanıdıqlarını, BMT Nizamnaməsi və 1991-ci il Alma-Ata bəyannaməsinə sadiq qaldıqlarını bildirdilər [18].

2023-cü ilin birinci yarısında müxtəlif formatlarda təkliflər verildi, müzakirələr aparıldı. Yanvar ayında Avropa İttifaqı Ermənistan ərazisində "mülki missiya"nın yerləşdirilməsi ilə bağlı qərar qəbul etdi və fevral ayında 100 nəfərə yaxın mülki müşahidəçilərin daxil olduğu ilk qrupu Ermənistanın Azərbaycanla şərti sərhədinin yaxınlığına yerləşdirdi. Avropa İttifaqı bu missiyanın məqsədinin hərbi qarşıdurmanın qarşısının alınmasından ibarət olduğunu bildirdi [19]. Azərbaycan bu təşəbbüsə loyal yanaşdı, ciddi etiraz etmədi. Bu dövrdə Laçın dəhlizi ilə bağlı bir sıra təhlükəli məqamlar məlum oldu. Rusiyalı sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərdəki qanunsuz erməni silahlı dəstələri fəallaşdı, ciddi təxribatlar törətdi,

müxtəlif məntəqələrdə, o cümlədən, Laçın dəhlizi ilə silah və hərbi texnikanın daşınması ilə bağlı faktlar ortaya çıxdı. Azərbaycan yaranmış vəziyyətə görə əks tərəfin və onu himayə edən dövlətlərin məsuliyyət daşıdığını bildirdi və vəziyyətə nəzarəti ələ götürmək məqsədilə birtərəfli qaydada qərar qəbul edərək, aprelin 23-də Laçın dəhlizində, Azərbaycanla Ermənistanın şərti sərhədi yaxınlığında, Həkəri çayı üzərində Nəzarət Buraxılış Məntəqəsi (NBM) qurdu. Bundan sonra Qərb və Rusiya ciddi şəkildə fəallaşdı, lakin konkret nəticələr əldə olunmadı. Diplomatik səylərin davam etdirilməsi məqsədilə 2023-cü il oktyabrın 5-də İspaniyanın Qranada şəhərində Azərbaycan, Fransa, Almaniya, Ermənistan rəhbərləri İlham Əliyev, Emmanuel Makron, Olaf Şolts, Nikol Paşinyan və Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin iştirakı ilə beştərəfli görüşün keçirilməsi nəzərdə tutulurdu. Azərbaycan son anda görüşdə Türkiyə prezidentinin də iştirakını təklif etdi, təklif qəbul edilmədiyinə görə iştirakdan imtina etdi. Azərbaycanın iştirakı olmadan dördtərəfli bəyanat qəbul olundu və həmin sənəddə Azərbaycana qarşı əsassız iddialar irəli sürüldü [12].

Azərbaycan region ölkələri ilə normal qonşuluq münasibətlərini saxlayırdı. Gürcüstanla hərtərəfli əməkdaşlıq mühiti yaradıldı. Hər iki ölkənin qarşılıqlı olaraq səfirlikləri, həmçinin Azərbaycanın Batumda, Gürcüstanın isə Gəncədə konsulluqları fəaliyyət göstərir. Xoş münasibətlərlə yanaşı ərazi mübahisələri də qalır. Azərbaycanla Gürcüstan arasında Keşikçidağ məbədi (Qaraca məbədi, David Qareci məbədi) deyilən ərazi, bəzi digər torpaqlarla bağlı məsələ açıq qalır.

Türkiyə və Pakistan Azərbaycanın ən yaxın müttəfiqləridir. Azərbaycanla Türkiyə arasında həm ikitərəfli, həm də beynəlxalq və regional təşkilatlar çərçivəsində sıx əməkdaşlıq əlaqələri qurulmuşdur. Bu münasibətlər iqtisadi, siyasi, hərbi və digər sahələri əhatə edir. Türkiyə 1991-ci il noyabrın 9-da Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət oldu. 2021-ci il iyunun 15-də Şuşa şəhərində iki qardaş ölkə arasında Şuşa Bəyannaməsi imzalandı. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanan bu sənəd bütün sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlığın istiqamətlərini müəyyən etdi, Azərbaycanla Türkiyə arasında strateji müttəfiqliyi elan etdi [16]. Hazırda qarşılıqlı olaraq səfirliklər, həmçinin Azərbaycanın Ankara, İstanbul, Qarsda, Türkiyənin isə Naxçıvan və Gəncədə konsulluqları fəaliyyət göstərir. Azərbaycanın Pakistanla da münasibətləri yüksək səviyyədədir. Pakistan da Azərbaycanın müstəqilliyini dərhal tanıdı və həmin vaxtdan Ermənistanı işğalçı dövlət kimi ittiham etdi, onunla diplomatik münasibətlər qurmadı. Müharibə illərində Azərbaycan-Türkiyə-Pakistan ittifaqı yarandı, 2021-ci ilin iyulunda üç ölkə arasında əməkdaşlığın inkişafına dair Bakı Bəyannaməsi imzalandı [20].

Azərbaycanın İranla münasibətləri ziddiyyətli xarakter daşıyır. İran Ermənistanla münasibətlərini saxlayır, lakin Azərbaycandan da uzaqlaşmaq istəmir. 2023-cü ilin yanvarında Tehranda Azərbaycan səfirliyinə hücum, səfirlik əməkdaşlarından bir nəfərin qətlə yetirilməsindən sonra münasibətlər daha da pisləşdi. 2023-cü ilin sonuna doğru münasibətlərin bərpası istiqamətində addımlar atıldı. 2024-cü il mayın 19-da Azərbaycan və İran prezidentləri

iki ölkənin dövlət sərhədində görüşdülər, "Qız qalası" və "Xudafərin" su qovşaqlarının açılış mərasimində iştirak etdilər, əməkdaşlığa dair sənədlər imzalandı. Həmin gün ölkəsinə dönən prezident İbrahim Rəisi və nümayəndə heyəti helikopter qəzasında həlak oldu. Bu faciəli hadisədən sonra da tərəflər xoş münasibətlərin davam etdiriləcəyinə dair açıqlamalarla çıxış etdi. İyulun əvvəlində keçirilən növbədənkənar seçkilərdə Azərbaycan türkü Məsud Pezeşkian prezident seçildi. Azərbaycanla münasibətlər xeyli yaxşılaşdı, İrandakı səfirliyimizin fəaliyyəti dərhal bərpa edildi.

Azərbaycan İsraillə münasibətlərini İran və digər islam ölkələrinin maraqlarını nəzərə almaqla qurmuşdur. Məhz buna görə İsrailin Azərbaycanda səfirliyinin 1993-cü ildə qurulmasına baxmayaraq, Azərbaycan İsraildə səfirliyini yalnız 2023-cü ilin martında açdı. İki ölkə arasında hərbi-texniki əməkdaşlıq xüsusi yer tutur. İsrail İkinci Qarabağ (Vətən) müharibəsi zamanı və müharibədən sonrakı bərpa dövründə Azərbaycana hərtərəfli dəstək verdi.

Azərbaycan ABŞ və Rusiya ilə balanslaşdırılmış siyasət yeridirdi. Azərbaycan bu iki dünya gücü arasında manevr edərək məqsədinə doğru gedirdi. Bu uğurlu siyasətin nəticəsində ABŞ və Rusiya İkinci Qarabağ (Vətən) müharibəsinin gedişinə ciddi müdaxilə etmədilər. Azərbaycan-Rusiya münasibətlərində müsbət tendesiyalar 2001-ci ildən başlandı. Həmin ilin yanvarında SSRİ dağılandan sonra Rusiya prezidenti ilk dəfə Azərbaycana səfər etdi, Heydər Əliyevlə Vladimir Putin arasındakı danışıqların gedişində bir sıra qıcıqlandırıcı məqamlar arxa plana keçirildi. 2022-ci ilin fevralında isə Moskvada Azərbaycanla Rusi-

ya arasında "Qarşılıqlı müttəfiqlik haqqında" Bəyannamə imzalandı. Həmin vaxt bu Bəyannamə iki ölkənin münasibətlərini "müttəfiqlik səviyyəsinə qaldıran" sənəd kimi dəyərləndirildi [7]. 2024-cü il dekabrın 25-də Qroznı şəhəri yaxınlığında Azərbaycanın sərnişin təyyarəsinin vurulması ilə Azərbaycan və Rusiya arasında gərginlik yarandı. Bu faciəli hadisə nəticəsində təyyarə Qazaxstanın Aktau şəhərinə eniş etməli oldu, lakin sərnişinləri tam xilas etmək mümkün olmadı, 67 nəfər ekipaj üzvü və sərnişinlərdən 38 nəfər həlak oldu. Rusiya prezidenti Vladimir Putin telefon danışığında Azərbaycan prezidenti İlham Əliyevə üzrxahlıq etdi. Azərbaycan prezidenti bununla kifayətlənməyin mümkün olmadığını vurğuladı, günahkarların sərt cəzalandırılmasını tələb etdi. Azərbaycanın ABŞ-la münasibətləri də çox çətinliklərdən keçib. ABŞ 1989-1992-ci illər ərzində Azərbaycana qarşı yeritdiyi qərəzli siyasətdən Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bir qədər geri çəkilməyə başladı. ABŞ prezidenti Bill Klintonun dəvəti ilə prezident Heydər Əliyev 1997-ci ilin iyulunda bu ölkəyə ilk dəfə rəsmi səfər etdi, siyasi, təhlükəsizlik, iqtisadi və digər sahələrdə əməkdaşlığa dair sənədlər imzalandı. Sonradan bu münasibətlər intensiv xarakter aldı. Azərbaycanın ABŞ-la əməkdaşlıq münasibətlərinə üstünlük verməsinə baxmayaraq rəsmi Vaşinqton ölkəmizə qarşı təzyiq və təhdid siyasətini yeritməyə çalışmışdır. Bir qrup ABŞ konqresmeni, o cümlədən Adam Şiff, Frenk Pallone, Nensi Pelosi 30 il ərzində Azərbaycana qarşı qərəzli mövqe tutmuş, ermənilərin sifarişlərini yerinə yetirmişlər. Azərbaycan və ABŞ-ın səfirlikləri, həmçinin Los-Anceles şəhərində konsulluğumuz fəaliyyət göstərir.

Azərbaycan Qazaxıstan, Özbəkistan, Çin, Səudiyyə Ərəbistanı, Ukrayna, Çexiya, Efiopiya, Cənubi Afrika, Mavritaniya və digər ölkələrlə xoş əməkdaşlıq münasibətlərini saxlayır. Azərbaycan 2023-cü il oktyabrın 7-də İsrail və Fələstin, faktiki olaraq Həmas və Hizbullah arasında yenidən alovlandırılan münaqişə ilə bağlı da balanslaşdırılmış mövqe tutdu, tərəfləri sülhə dəvət etdi.

Azərbaycan BMT, Qoşulmama Hərəkatı, MDB, ATƏT, NATO-nun sülh tərəfdaşlığı, Dünya Səhiyyə Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Beynəlxalq Valyuta Fondu və digər beynəlxalq qurumların üzvüdür. Azərbaycan Avropa ittifaqı ilə Şərq Tərəfdaşlığı (Azərbaycan, Ermənistan, Moldova, Belarus, Gürcüstan, Ukraynanı əhatə edir) Proqramı (2009-cu ildən fəaliyyət göstərir) və digər proqramlar çərçivəsində əməkdaşlıq edir. Azərbaycan üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı (10 dekabr 1991), ATƏT (30 yanvar 1992), Avropa Şurası (25 yanvar 2001), Qoşulmama Hərəkatı (25 may 2011) kimi qurumlarla səmərəli əməkdaşlıq edir. Bu təşkilatlardan Avropa Şurası Parlament Assambleyası (AŞPA) ilə son dövrdə problem yaşandı. Qurum 2024-cü il yanvarın sonunda erməni lobbisinin təsiri ilə qərəzli mövqe tutdu və Azərbaycanın nümayəndə heyətinin səsvermə hüququndan bir illiyə məhrum edilməsinə dair qətnamə qəbul etdi. Buna cavab olaraq Azərbaycan AŞPA-dakı nümayəndələrini geri çağırdı.

Azərbaycanın həyatında Türk Dövlətləri Təşkilatı xüsusi rol oynayır. Qurum 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində Azərbaycan, Türkiyə, Qazaxstan və Qırğızıstan prezidentləri tərəfindən Türk dilli Dövlətlərin Əməkdaşlıq

Şurası (Türk Şurası) adı ilə yaradıldı. Özbəkistan 2019-cu ildə TDT-nin tam hüquqlu üzvü oldu. Macarıstan, Türkmənistan, Şimali Kipr Respublikası isə təşkilatda müşahidəçi statusuna malikdir. İstanbul toplantısında (2021-ci il) qurum Türk Dövlətləri Təşkilatı (TDT) adlandırıldı. 2024-cü il iyulun əvvəlində Şuşada qurumun Zirvə toplantısı keçirildi, Turan birliyi və digər məsələlərlə bağlı dünyaya mühüm mesajlar verildi. Qurum "Biz birlikdə daha güclüyük" şüarını rəhbər tutur.

Azərbaycanın hərbi gücü yeni əsrin əvvəllərindən yüksələn xətlə inkişaf edirdi. Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti 95-100 min nəfər civarında saxlanılır, ehtiyatda olan hərbçilər isə 330 min nəfər təşkil edir [17]. Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra yeni tipli hərbi quruculuq işlərinə başlanıldı. Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk hərbi hissənin yaradıldığı tarixə uyğun olaraq 26 iyun Ordu Günü elan edildi. 2020-ci il dekabrın 10-da isə Bakıda Azadlıq meydanında İkinci Azərbaycan-Ermənistan müharibəsində qələbənin şərəfinə Zəfər Paradı keçirildi. Paradı Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev və fəxri qonaq, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul etdi. Paradda Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti ilə yanaşı Türkiyəli əsgər və zabitlər də iştirak edirdi. 2023-cü il noyabrın 8-də, Böyük Zəfərin üçüncü ildönümündə Xankəndi şəhərində Prezident, Ali Baş Komandan İlham Əliyevin iştirakı ilə möhtəşəm hərbi parad keçirildi.

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunları, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrindən, həmçinin yardımçı statusunda olan Daxili Qoşunlar, Milli Qvardiya, Dövlət Sərhəd Xidməti, Xüsusi Dövlət Mühafizə Xidmətindən ibarətdir. İkinci Qarabağ (Vətən) müharibəsinin gedişində xüsusi təyinatlı hərbi birləşmələr ciddi rol oynadı. Müharibədən sonra bu istiqamətdə yeni addımlar atıldı. Prezident İlham Əliyevin tapşırığı ilə 2021-ci ilin sonlarında yeni xüsusi təyinatlı dəstələr-Komandolar yaradıldı [13]. Azərbaycan ölkə daxilində silah istehsalına xüsusi əhəmiyyət verir. 2005-ci ilin dekabrında prezident İlham Əliyevin sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyi yaradıldı. Hazırda ölkəmizdə 1000-dən artıq adda hərbi məhsul istehsal olunur, həmçinin PUA-ların, kəşfiyyat-patrul maşınlarının, döyüş maşınlarının modernləşdirilməsi və kütləvi istehsalının təşkili ilə bağlı işlər davam etdirilir. Azərbaycan hərbi sahədə Türkiyə, Pakistan, Rusiya, ABŞ, İsrail, İran və digər ölkələrlə əməkdaşlıq edir. Bu sahədə Türkiyə ilə əməkdaşlıq xüsusi önəm daşıyır. Prezident İlham Əliyev İkinci Qarabağ (Vətən) müharibəsindən sonra Azərbaycan Ordusunun Türkiyə modeli əsasında inkişaf edəcəyini elan etdi [5]. Azərbaycan NATO standartlarına üstünlük verməklə , bu xətti uğurla davam etdirir. Bu məqsədə nail olmaq üçün çoxlu sayda birgə hərbi təlimlər keçirilir və digər tədbirlər reallaşdırılır.

Azərbaycan Ordusu qələbədən sonra daha da gücləndi, Ermənistanın təxribatlarının qarşısını qətiyyətlə aldı. Azərbaycan Ordusunun bölmələri 2021-ci ilin mayında Şərqi Zəngəzurda erməni təxribatına cavab olaraq Laçın rayonu ərazisindəki Qaragöl istiqamətində mövqelərini

möhkəmləndirdi, hərbi əməliyyat nəticəsində 3.5 kilometr strateji əhəmiyyətli sahəni nəzarətə götürdü [2]. Azərbaycan hərbi birləşmələri qanunsuz erməni silahlı dəstələrinin təxribatlarının qarşısını alaraq, 2022-ci ilin martında "Fərrux əməliyyatı"nı həyata keçirib, Xocalı rayonunun Fərrux kəndi, Fərrux dağı, Daşbaşı yüksəkliyi və Sağsağan dağı silsiləsini azad etdi. 2022-ci ilin avqustunda Azərbaycan Ordusu "Qisas" antiterror əməliyyatı həyata keçirərək qanunsuz erməni silahlı dəstələrinin Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsindəki Qırxqız yüksəkliyini ələ keçirmək cəhdinin qarşısnı aldı və Qırxqız, Sarıbaba və digər yüksəklikləri nəzarətə götürdü [4]. Ermənistan silahlı qüvvələri az sonra, 2022-ci ilin sentyabrında yenidən təxribat törətdi, Azərbaycanın Daşkəsən, Kəlbəcər, Laçın, Zəngilan rayonları istiqamətlərində hücuma keçməyə cəhd göstərdi. Azərbaycan Ordusu düşmənə sərt cavab verdi, sentyabrın 12-14-də ağır döyüşlər getdi, erməni hərbi bölmələri geri çəkilməli oldu, düşmənin 53 mövqeyi , 8 strateji əhəmiyyətli yüksəklik nəzarətə götürüldü [6]. Qanunsuz erməni silahlı dəstələri növbəti dəfə 2023-cü ilin iyununda Ağdam rayonu Qalayçılar kəndi istiqamətində təxribat törətdi, nəticədə Azərbaycan Ordusunun 1 əsgəri yaralandı. Hərbi birləşmələrimiz Ağdərə və Xocavənd istiqamətində düşmənə layiqli cavab verdi, 5 düşmən əsgəri məhv edildi [3]. 2023-cü il sentyabrın 18-19-da Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qanunsuz erməni silahlı dəstələri və Ermənistan silahlı qüvvələrinin qalıqları yenidən təxribatlar törətdi, nəticədə Ağdam, Kəlbəcər, Şuşa və Xocavənd istiqamətlərində polis əməkdaşları da

daxil olmaqla 9 nəfər həlak oldu [10; 8]. Azərbaycan Ordusu və Daxili qoşunları təxribatlara cavab olaraq sentyabrın 19-dan 20-ə qədər, 23 saat ərzində lokal antiterror əməliyyatı həyata keçirdi, Azərbaycanın bütün ərazilərində, o cümlədən Xankəndi, Xocalı, Əsgəran, Ağdərədə “suverenliyi tam bərpa olundu” [15]. Antiterror əməliyyatının gedişində Azərbaycan Silahlı Qüvvələrinin 204 hərbi qulluqçusu həlak oldu [14]. Ermənilərin itkiləri ilə bağlı qeyri-rəsmi məlumatlara görə, 200-dən artıq silahlı öldürülüb [9]. Sentyabrın son həftəsi ərzində ermənilər sürətlə Qarabağı tərk edərək Ermənistana getdilər. Gedənlərin sayı ilə bağlı dəqiq məlumat yoxdur. Qarabağda qalan ermənilərin sayının çox az olduğu bildirilib. Prezident İlham Əliyev oktyabrın 15-də proseslərin əsas yekun mərhələlərindən biri kimi Xankəndi, Xocalı, Ağdərə, Əsgəran və digər yaşayış məntəqələrində təntənəli şəkildə Azərbaycan bayrağını ucaltdı. Azərbaycan bəzi digər məsələlərin nizama salınması istiqamətində fəaliyyətini davam etdirdi. 2024-cü ilin fevralında Berlində Azərbaycan, Almaniya, Ermənistan xarici işlər nazirlərinin, may ayında isə Almatıda Azərbaycan, Qazaxıstan, Ermənistan xarici işlər nazirlərinin üçtərəfli və ikitərəfli görüşləri keçirildi. Vasitəçisiz danışıqlar məqsədi ilə keçirilən bu görüşlərdə bəzi razılaşmalar əldə olundu. Bu proseslərin nəticəsi olaraq, 2024-cü ilin aprel-may ayları ərzində Qazax rayonunun 4 kəndi, Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli, Qızılhacılı kəndləri Azərbaycana qaytarıldı. May ayında həmin kəndlər istiqamətində sərhədin 12 kilometrlik hissəsi delimitasiya və demarkasiya edildi. Bununla delimitasiya prosesinə start verildi. Rusiya regionda vəziyyətin dəyiş-

məsi, Azərbaycanın lider rolunun güclənməsi və digər amilləri nəzərə alaraq vaxtından əvvəl, aprel ayında sülhməramlı qüvvələrini Azərbaycandan çıxarmağa başladı, proses iyun ayında başa çatdı. Aprelin sonunda vaxtilə Türkiyə və Rusiyanın iştirakı ilə yaradılmış Birgə Monitorinq Mərkəzinin də fəaliyyəti dayandırıldı. Ermənistanın kütləvi silahlanmasına cavab olaraq, Azərbaycan 2025-ci ilin hərbi büdcəsini rekord həddə - 8,4 milyard manata çatdırdı [11].

Beləliklə, Azərbaycan diplomatiya və hərbi güc amillərini bacarıqla uzlaşdıraraq, ərazi bütövlüyü və suverenliyini tam bərpa etdi, düşmən üzərində tam qələbəyə nail oldu, şərəfli dövlətçilik tarixini davam etdirdi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. ABŞ-ın ikili standartlar siyasəti.- "İki sahil" qəzeti, 2010, 13 aprel, s. 12.

2. Azərbaycan-Ermənistan sərhədində vəziyyət gərgindir.-web.archive.org/ web/20220523032222/ https://www.bbc.com/azeri/azerbaijan-57083506; Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Mətbuat Xidməti İdarəsinin məlumatı.-mfa.gov.az/aznews/no16521-azerbaycan-respublikasi-xarici-işler-nazirliyi-metbuat-xidmeti-idaresinin -melumati.

3. Azərbaycan ordusu "Qisas" əməliyyatı keçirdi.-konkret.az/azerbaycan-ordusu-qisas-emeliyyati- keçirdi/.

4. Azərbaycan Ordusu "Qisas" əməliyyatı keçirib.-web.archive.org/ web/ 20220803162243/https://mod.gov.az/az/news/azerbaycan-ordusu-qisas-emeliyyati-keçirib-video-41224.html.

5. Azərbaycan Ordusu Türkiyə modeli əsasında inkişaf edir.-azvision.az/ news/ 329976/news.html.

6. Azərbaycan Ordusunun nəzarətə götürdüyü yüksəkliklərin sayı açıqlandı.-tribunainfo.az/azerbaycan-ordusunun-nezarete- goturdu-yuksekliklerin -sayi-açiqlandi/.

7. Azərbaycan Rusiya ilə müttəfiqlik haqqında Bəyannamə imzaladı.- bbc.com/azeri/azerbaijan-60474535.

8. Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və Baş Prokurorluğun birgə məlumatı.- "Azərbaycan" qəzeti, 2023, 20 sentyabr, s.1.

9. Düşmənin itkiləri barədə...- bakupost.az/dusmenin-itkileri-barede-yeni-melumatlar-200-olu-400-yarali.

10. Xocavənddə 4 polisin ölümü: terrorçular saxlanıldı.- axar.az/news/ gundem/ 787744.html.

11. İlham Əliyev xalqa müraciət etdi.- axar.az/news/toplum/931994.html (01.01.2025-ci il).

12. Qranadada "4-lü" bəyanat: Bakıya qarşı 3 maddə.- axar.az/news/ gundem/ 792328.html.

13. Müdafiə naziri yeni yaradılan Komando hərbi hissəsində olub.- web.archive. org/web/20211226132846/ https://mod.gov.az/az/news/mudafie-naziri-yeni-yaradilan-komando-herbi-hissesinde-olub-video-38050.html.

14. 19-20.09.2023-cü il tarixində keçirilmiş antiterror tədbirlərində şəhid olmuş hərbi qulluqçuların siyahısı.- mod.gov.az/images/pdf/ 258a06305532057 04e85cdd7aa41a038.pdf.

15. Prezident İlham Əliyevin xalqa müraciəti.- prezident.az/az/articles/ view/61113.

16. Şuşa Bəyannaməsinin tam mətni.- report.az/xarici-siyaset/susa-beyannamesinin-tam-metni/.

17. The Military Balance 2022/İnternational İnstitute for Strategic Studies.- Abingdon: Taylor & Francis, 2022.- s.504.

18. Армения и Азербайджан подтвердили приверженность целостности территорий.- regnum.ru/news/3717666.

19. История урегулирования конфликта между Арменией и Азербайджаном с 2020 года.- tass.ru/info/17845181.

20. Одна нация-три страны: о сотрудничесиве Турции, Азербайджана и Пакистана.- eadaily.com/ru/news/2021/07/08/odna-naciya-tri-strany-o-sotrudnichestve-turcii-azerbaydzhana-i-pakistana.

21. Путин, Алиев и Пашинян приняли заявление о Карабахе.- rbc.ru/ politics/11/01/2021/5ffc676f9a794718f2cOe3c6.

### *§ 4. Cənubi Azərbaycanda ictimai-siyasi proseslər.*

İslam inqilabından sonrakı ilk illərdə azərbaycanlılar fəal şəkildə hüquqlarını müdafiə edir, milli mədəniyyəti, dili və ədəbiyyatı inkişaf etdirməyə çalışırdı. Əhali Azərbaycan əyalətlərində yuxarıdan qərar gözləmədən idarələrdə Azərbaycan dilini tətbiq edir, fars əsilli məmurları azərbaycanlılarla əvəz edirdilər [30, s. 255-268]. Bu dövrdə azərbaycanlılar bir sıra ədəbi, ictimai, siyasi təşkilatlarını da qurdular. Təbriz Şairləri və Yazıçıları Cəmiyyəti, Tehranda "Azərbaycan Əncüməni", Təbrizdə Müstəqil Azərbaycan Demokrat Partiyası, Müsəlman Xalq Respublikası Partiyası və digər qurumlar yaradıldı və uğurla fəaliyyət göstərdi. Bu qurumlar ana dilində təhsil, mətbu orqanların yaradılması, "türk kimliyinin legitimliyini bərpa etmək", Konstitusiyada Azərbaycan türklərinin hüquqlarının əks olunması, Azərbaycana muxtariyyətin verilməsi və digər tələbləri irəli sürdülər. Hətta İslam inqilabının liderlərindən Şəriətmədarinin tərəfdarları 1979-cu ilin dekabrında Təbrizdə "Azərbaycan İslam Respublikası" yaratmağa cəhd etdilər [18, s. 69-76]. Bütün bunlar

inqilab eyforiyasından doğan təşəbbüslər idi. Tezliklə azərbaycanlıların milli hüquqlarla bağlı tələbləri sərt şəkildə məhdudlaşdırıldı.

İslam inqilabından əsas gözləntilərdən biri dillə bağlı idi. Qəbul edilmiş Konstitusiyada bu ümidlər özünü doğrultmadı. Əsas qanunun 15-ci maddəsində deyilirdi: "İran xalqının rəsmi müştərək dili... farsdır... Lakin yerli və etnik dillərin fars dili ilə yanaşı mətbuat, kütləvi informasiya vasitələrində və milli ədəbiyyatın məktəblərdə işlədilməsi də azaddır" [8, s. 29]. Göründüyü kimi, farsdan başqa digər dillərin, o cümlədən Azərbaycan türk dilinin işlədilməsi tam şəkildə məhdudlaşdırılır və faktiki olaraq, qadağan edilirdi.

1990-cı illərin əvvəlində regionda yeni şərait yarandı. SSRİ-nin dağılması, Şimali Azərbaycanın müstəqillik uğrunda mübarizəsi, dünyada gedən digər dəyişikliklər İranda, o cümlədən Cənubi Azərbaycanda yeni proseslərə təkan verdi. Tehran hakimiyyəti Cənubi Azərbaycanda yerli əhalinin qüvvələrini parçalamaq məqsədi ilə inzibati-ərazi sistemində dəyişikliklər etdi. 1993-cü ildə xalqın etirazlarına baxmayaraq yeni bölgü həyata keçirildi, Şərqi və Qərbi Azərbaycan, Ərdəbil və Zəncan əyalətləri yaradıldı [26; 21].

1989-cu ildə Azərbaycan Xalq Cəbhəsinin yaradılması, onun rəhbəri Əbülfəz Elçibəyin və tərəfdarlarının Güney Azərbaycanın azadlığı ideyasını təbliğ etməsi, 1992-1993-cü illər AXC-Müsavat hakimiyyəti dövründə bu təbliğatın dövlət siyasətinə çevrilməsi Cənubi Azərbaycanda milli hərəkatı gücləndirdi. Heydər Əliyev 1960-cı illərdən Cənubi Azərbaycan məsələsinə həssas yanaşırdı, ikinci

dəfə hakimiyyətə qayıdandan sonra da xüsusi fikir verir, diqqətdə saxlayırdı. O, 1994-cü ilin fevralında İngiltərəyə səfəri zamanı cənublularla Londonda görüşündə Güney Azərbaycan məsələsinə münasibət bildirmişdi: “Zaman gələcək, bölünmüş Vahid yenidən bütövləşəcəkdir” [1, s. 90]. Bu dövrdən başlayaraq azərbaycanlıların haqları uğrunda mübarizə onların İranda sayını ön plana keçirdi. Sayın çox olması və bunun dünya tərəfindən qəbulu hərəkatın genişlənməsinə əlavə stimul verirdi. İranın rəsmi statistikası azərbaycanlıların sayını həddindən artıq az göstərir, 10 milyon nəfərdən, ümumi əhalinin 15-16 faizindən artıq olmadığı bildirilir [20]. Reallıq isə tamamilə başqadır. BMT-nin etnik azlıqlara dair 2002-ci il hesabatında İranın ümumi əhalisinin 45.1%-nin azərbaycanlılardan ibarət olduğu qeyd edilir. Bu, 66.4 milyondan 30 milyon nəfərin azərbaycanlı olduğu demək idi [18, s. 82]. Beynəlxalq Dilçilik Mərkəzinin “Etnologiya” adlı nəşrinin 2005-ci il buraxılışında azərbaycanlıların sayı 23.5 milyon, farsların sayı isə 22 milyon göstərilmişdir [12, s. 67]. İranın 31 əyalətindən, demək olar ki, hər birində azərbaycanlılar yaşayır. Son məlumatlara görə onların ən çoxu, 4.1 milyonu Tehran vilayətində yaşayır [28]. Azərbaycan və Türkiyə mənbələrinin əksəriyyəti hesab edir ki, İranda əhalinin 37%-ni təşkil etməklə, 30 milyon azərbaycanlı yaşayır [29].

1989-cu il dekabrın əvvəllərindən başlayaraq Sovet-İran sərhədinin hər iki tərəfində azərbaycanlılar toplaşır, “Cənubi və Şimali Azərbaycanın Vəhdəti” ruhunda çağırışlar edirdilər [18, s. 104]. Həmin il dekabrın 31-də isə Naxçıvan Muxtar Respublikasının ərazisində sərhəd dirəkləri söküldü, İranla bütün sərhəd boyunca gediş-gəliş başladı.

Tezliklə Cənubi Azərbaycanda yeni siyasi və ictimai təşkilatlar meydana gəldi. 1990-cı ildə Təbrizdə Eldar Qaradağlının rəhbərliyi ilə Azərbaycan Qurtuluş Təşkilatı (AQT) yaradıldı. Təşkilat Cənubi Azərbaycanın azadlığını əsas məsələ kimi qoyurdu. Təxminən eyni vaxtda Güney Azərbaycan Fədailər Təşkilatı meydana gəldi, təşkilat özünü 21 Azər Hərəkatının varisi elan edərək, Azərbaycan Milli dövlətinin təşkili uğrunda mübarizə aparırdı. 1993-cü ildə Vahid Müstəqil Azərbaycan Cəbhəsi açıq fəaliyyətə başladı, Məhəmməd Kazım Şəriətmədarinin 1979-cu ildə yaratdığı Müsəlman Xalq Partiyasının davamçıları olduqlarını elan etdi. Onlar Güney Azərbaycanın öz dövlətini yaratması, sonra isə 2 Azərbaycanın birləşməsi mövqeyindən çıxış edirdilər [18, s. 106, 110, 111]. Eyni vaxtda yaradılmış Güney Azərbaycan Demokrat Firqəsi İranın ərazi bütövlüyünü müdafiə edir, Azərbaycana geniş muxtariyyat verilməsi tələbini qoyur, Azərbaycan dilinin Azərbaycanda dövlət dili elan olunmasını təklif edirdi [15, s. 29].

Təşkilatlar fəaliyyətlərinin əlaqələndirilməsi, ortaq tələblərin, vahid platformanın formalaşdırılması məqsədilə birləşməyə başladılar. 1994-cü ildə dörd siyasi qurum (Güney Azərbaycan Fədailər Təşkilatı, Azərbaycan Qurtuluş Təşkilatı, Güney Azərbaycan Demokrat Firqəsi və Güney Azərbaycan Xalq Cəbhəsi) birləşərək Güney Azərbaycan Milli İstiqlal Cəbhəsini (GAMİC) yaratdı. Yeni qurum milli qüvvələrin birləşməsi baxımından əhəmiyyətli olmaqla, Cənubi Azərbaycanın müstəqilliyi məqsədini qoyurdu [18, s. 112-113].

Bakıda da İrandan gəlmiş azərbaycanlılar siyasi təşkilatlarını yaratdılar. Bu təşkilatlardan ən nüfuzlularından

biri Piruz Dilənçinin 1991-ci ildə yaratdığı Cənubi Azərbaycan Milli Azadlıq Hərkatı (CAMAH) oldu. Təşkilat iki hissədən ibarət məqsəd qoyurdu. İlk olaraq muxtariyyət, əgər alınmazsa, hərbu yolla müstəqillik əldə etmək vəzifələri irəli sürülürdü [15, s. 25]. 1990-cı illərin ikinci yarısında Əbülfəz Elçibəyin təşəbbüsü ilə Bütöv Azərbaycan Birliyi (BAB), Böyük Rəsuloğlunun rəhbərliyi ilə Dünya Azərbaycanlılarının Hüquqlarını Müdafiə Komitəsi də təxminən eyni məqsədlə yaradıldı [18, s. 115].

Təbrizdə 1995-ci ildə professor Mahmudəli Çöhrəqanlının rəhbərliyi ilə yaradılan Güney Azərbaycan Milli Oyanış Hərəkatı (GAMOH) ciddi hadisəyə çevrildi. Bu təşkilat da iki mərhələli proqramla çıxış etdi. Birinci mərhələdə İranın federativ dövlətə çevrilməsi, bu, baş tutmasa, müstəqil dövlətin yaradılması nəzərdə tutulurdu [15, s. 26].

1990-cı illərin sonundan kütləvi aksiyalara start verildi. Bunların içərisində "Babək qalasına yürüş" xüsusi yer tuturdu. 1999-cu ildən başlayaraq hər il iyulun əvvəlində, minlərlə insan yürüşlə Bəzz (Babək) qalasına çıxır, orada milli-mədəni hüquqlarla bağlı tələblər irəli sürülür, müxtəlif tədbirlər keçrilirdi. Bu aksiya GAMOH-un və digər qurumların təşkilatçılığı ilə Azərbaycanın xalq qəhrəmanı, dövlət xadimi, sərkərdəsi Babəkin doğum günü ilə bağlı həyata keçirilirdi. 2002-ci ildəki izdihamlı yürüşdən sonra Tehran hakimiyyəti məhdudlaşdırıcı tədbirlər gördü, qadağalar qoydu. Yürüşlər nisbətən azsaylı olsa da son zamanlara qədər davam etdirilirdi [7]. Yeni əsrin ilk illərində Günəş partiyası, "21 Azər" təşkilatı, Azərbaycan Milli Cəbhəsi, Güney Azərbaycan Milli İstiqlal partiyası, Azərbaycan Federal Demokratik Hərəkatı, Azərbaycan

Milli Əncüməni və digər qurumlar yaradıldı. Bu və əvvəlki təşkilatlar siyasi mübarizədə özünəməxsus rol oynasalar da, birləşərək və ya əlaqələndirilərək vahid gücə çevrilə bilmədilər.

Cənubi Azərbaycanlıların diaspor təşkilatlarının formalaşması da mühüm amilə çevrildi. Bu prosesin əsas iştirakçıları İslam inqilabından sonra ölkəni tərk edənlər, həmçinin tələbələr oldu. Cənublular "Azərbaycan" adı ilə ilk diaspor təşkilatlarını- "Azərbaycan ziyalılar cəmiyyəti"ni 1977-ci ildə Qərbi Berlində yaratmışdılar [2]. Həmin vaxtdan başlayaraq yaranan təşkilatlar mətbu orqanlar nəşr edir, dil, mədəniyyət, siyasi proseslərlə bağlı müzakirələr keçirir, tədbirlər təşkil edirdilər. Bakıdakı 1988-ci il meydan hərəkatı, Qarabağla əlaqəli hadisələr diaspor təşkilatlarına da təsir etdi. Londonda "Azərbaycanlılar Komitəsi"(1988), Kanadanın Monreal şəhərində "Azərbaycan Mədəniyyət Mərkəzi" (1988), İsveçin Malmö şəhərində "Azərbyacan kultur ocağı"(1989), Vaşinqtonda "Azərbaycan Mədəniyyət ocağı" (1989), İsveçdə "Azərbaycan Kültür Cəmiyyəti" (1990), ABŞ-ın Los-Anceles şəhərində "Azərbaycan Kültür Cəmiyyəti" (1993), bütövlükdə az vaxt ərzində, əsasən cənubluların iştirakı ilə 120-dən çox bu cür qurumlar yaradıldı [18, s. 213-215]. Bu təşkilatların yaradılması getdikcə kütləvi xarakter aldı. Bu prosesdə ən böyük hadisə Dünya Azərbaycanlıları Konqresinin (DAK) meydana gəlməsi oldu. 1997-ci ilin iyununda əsasən Cənubi Azərbaycandan olan ictimai xadimlər, elm, təhsil, mədəniyyət adamları ABŞ-ın Los-Anceles şəhərində bir toplantı keçirdilər və özlərini Dünya Azərbaycanlıları Konqresi (DAK) adlandırdılar. Qurum

Cənubi Azərbaycanalıların hüquqlarının müdafiəsi, dil, mədəniyyət və digər milli dəyərlərin qorunması və təbliği vəzifələrini müəyyənləşdirdi. DAK-ın rəhbərliyinə Ziya Əşrəfi, Əli Nəzmi, Ceyhun Mollazadə və digərləri seçildi [10]. DAK-ın ardından İsveçdə iki ciddi təşkilat yaradıldı. Hər iki təşkilat -Azərbaycan Türk Dərnəkləri Birliyi və İsveç Azərbaycan Federasiyası (AFİ) 1998-ci ildə yaradıldı. AFİ İsveçdə fəlaiyyət göstərən təşkilatların əksəriyyətini özündə birləşdirdi [18, s. 221]. 2003-cü ildə İsveçdə yaradılan Azərbacan Milli Cəbhəsi də özünəməxsus yer tutdu və Cənubi Azərbyacan milli dövlətinin qurulması məqsədini qoydu [15, s. 27]. DAK-a ümidlər çox idi, lakin artıq 2002-ci ildə Haaqada keçirilən qurultaydan sonra fikir ayrılıqları yarandı və 2005-ci ildə təşkilat iki yerə bölündü. İki DAK-dan birinə Cavad Deraxti, digərinə isə Məhəmmədrza Xeşti rəhbərlik edirdi. 2010-cu ildən qurumun bir qanadı əsasən fəaliyyətsizləşdi, digərinə isə Sabir Rüstəmxanlı və Firidun Pərvizniya həmsədr seçildilər [5]. Parçalanma nəticəsində DAK-ın fəaliyyəti xeyli zəiflədi. Bu günə qədər birləşmə istiqamətində bir neçə cəhd nəticə verməmişdir.

Mahmudəli Çöhrəqanlı 2000-ci ildə İranda həbs edildikdən sonra GAMOH-un fəaliyyəti zəiflədi. O, 2001-ci ildə həbsdən çıxandan sonra, 2002-ci ilin əvvəlində xaricə getdi, ABŞ-da GAMOH-un fəaliyyətini davam etdirdi, Avropanın bir sıra ölkələrində təmsilçiliklərini yaratdı. Tezliklə GAMOH əsas təşkilatlardan birinə çevrildi. M.Çöhrəqanlı Avropa və Amerikada bir sıra rəsmi görüşlər keçirdi, Cənubi Azərbaycan məsələsini gündəmə gətirdi. Bunun nəticəsi olaraq Avropa Şurası, ABŞ dövlət departamenti, BMT-nin sənədlərində ilk dəfə Cənubi Azərbay-

can məsələsinə xüsusi yer ayrıldı. BMT İnsan Haqları Komissiyasının 2002-ci ildəki 50-ci sessiyasında bildirildi ki, "İran Azərbaycan dilinə sayğısızlıq göstərir, Azərbaycan mədəniyyətinin assimilyasiyası baş verir" [18, s. 245-246]. DAK-ın rəhbərlərindən Əhməd Obalı isə "milli müqəddəratın təyin olunması" hüququnu ön plana çəkir. Əhməd Obalının rəhbərliyi ilə 2005-ci ildə ABŞ-ın Çikaqo şəhərində "GünAz TV" telekanalı yayımlarına başladı [6].

Cənubi Azərbaycanda və xaricdə tədricən həyata keçirilən təşkilatlanma işləri ilə yanaşı yeni əsrin əvvəllərindən etiraz aksiyaları da baş verdi. 2003-cü ildə Cənubi Azərbaycanın bir çox yerlərində sosial tələblərlə kütləvi nümayişlər keçirildi. Həmin ilin iyulunda azərbaycanlı tələbə qız nümayişlərdə iştirak etdiyinə görə edam olundu [29]. Bu hadisə insanların qəzəbini bir qədər də artırdı. 2006-cı ildə İran jurnallarının birində azərbaycanlıların tarakana bənzədilməsi kütləvi aksiyalara səbəb oldu. İran hüquq-mühafizə orqanları aksiya iştirakçılarına aşırı güc tətbiq etdi, nəticədə etirazçılardan 300 nəfər həbs edildi, dörd nəfər öldürüldü. [19]. 2011-ci il ərzində azərbaycanlıların bir sıra aksiyaları oldu, aksiya iştirakçıları azərbaycanlılara qarşı ayrı-seçkilik siyasətinə etriaz edir [29], bu vaxtdan ekoloji problemlər, o cümlədən Urmiya gölünün quruması ilə bağlı etiraz aksiyaları da geniş vüsət alır [17]. 2009-cu ildən başlayaraq Təbrizin "Traktorsazi" futbol klubu, onun azarkeşləri milli, siyasi, ekoloji problemləri gündəmə gətirən aparıcı qüvvəyə çevrilir, futbol oyunları zamanı aktual şüarlar səsləndirir, qısa çağırışlarla ictimai rəyə təsir etməyə çalışırdılar. Bu illər ərzində Cənubi Azərbaycanda milli hərəkatın əsas tələbi ana dilində təd-

ris, mətbu orqanlarda, teleradiolarda Azərbaycan dilində verilişlərin kəmiyyət və keyfiyyətinin artırılmasından ibarət idi. 2011-ci ildən bu tələblər rəsmi şəxslər, məsələn, azərbaycanlı deputatlar, hətta Azərbaycan vilayətlərinin müxtəlif səviyyəli rəhbərləri, həmçinin etiraz aksiyalarının iştirakçıları, diaspor nümayəndələri tərəfindən irəli sürülürdü. Bu istiqamətdə müəyyən nəticələr də əldə olundu. 2016-2017-ci illərdə Cənubi Azərbaycanın bəzi bölgələrində Azərbaycan dili və ədəbiyyatının tədrisinə cəhd edildi, Təbriz Universitetində Azərbaycan dili və ədəbiyyatı fakültəsi təsis edildi [18, s. 278-279]. 2019-cu ildə Şərqi Azərbaycan məktəblərində Azərbaycan dili tədris olunmağa başladı, Azərbaycan dilinin öyrənilməsinə həftədə 2 saat ayrıldı [25]. Əlbəttə, Azərbaycan dilinin bu cür epizodik tədrisi kifayət hesab edilə bilməz.

Cənubi Azərbaycanda milli hərəkat xeyli dərəcədə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında münasibətlərin xarakterindən asılı idi. Azərbaycan müstəqillik qazandıqdan sonra İranla xoş əməkdaşlıq münasibətləri qurmağa çalışdı. Lakin İran tərəfinin bəzi hərəkətləri bu münasibətləri vaxtaşırı gərginləşdirirdi. İran Azərbaycan-Ermənistan müharibəsinin ilk illərində nisbətən obyektiv mövqe tutmağa çalışır, Azərbaycanlı köçkün və qaçqınlara yardım prosesində iştirak edirdi. Amma İkinci Qarabağ (Vətən) müharibəsinin gedişində və Azərbaycanın qələbəsindən sonra, xüsusilə də Zəngəzur dəhlizi məsələsində Ermənistanın mövqeyindən çıxış etdi. Eyni zamanda, İran Azərbaycanda dini yönümlü qurumlar yaratmaqla dövlət siyasətinə təsir imkanlarını artırmağa çalışırdı [29]. İran Azərbaycanın Türkiyə və İsraillə daha sıx münasibətlər qurmasına da qısqanclıqla

yanaşırdı. Bütün bunların təsiri altında Azərbaycan Respublikasında iki Azərbaycanın birləşdirilməsinə dair çağırışlar səsləndirilir, aksiyalar keçirilirdi. Paralel olaraq, Cənubi Azərbaycanda eyni tələblərlə kütləvi aksiyalar reallaşdırılırdı [24].

2021-ci ildə Azərbaycanla İran arasında münasibətlər normallaşmağa başladı. Həmin ilin noyabrında Azərbaycan və İran prezidentləri Aşqabadda görüşdü, ikitərəfli əməkdaşlığa dair müqavilə imzaladılar. 2022-ci ildə iki ölkə arasında ticarətin səviyyəsi əvvəlki ilə nisbətən iki dəfə artdı [23].

2023-cü ilin yanvarında Azərbaycanla İran arasında münasibətlər yenidən kəskinləşdi. Yanvarın 27-də avtomatla silahlanmış şəxs Azərbaycanın Tehrandakı səfirliyinə hücum etdi, bir nəfəri qətlə yetirdi, daha bir nəfəri isə yaraladı. Azərbaycan qanlı hadisə ilə bağlı sərt etirazını bildirdi, Tehrandakı səfiri geri çağırdı [22]. İran rəhbərliyi hadisəyə obyektiv hüquqi və siyasi qiymət vermədi, cinayəti törədən şəxsə ağır cəza verildi, amma hökmün icrası ləngidilir. Azərbaycan qanlı hadisə ilə bağlı cinayətkarlara sərt cəzanın verilməsi və icrası, İranın Zəngəzur dəhlizi ilə bağlı qərəzli mövqeyindən geri çəkilməsi və digər tələblərinin üzərində israrlıdır.

Cənubi Azərbaycanda və xaricdəki müxtəlif siyasi, ictimai, mədəni qurumlar muxtariyyat, federasiya, konfederasiya, müstəqillik, iki Azərbaycanın birləşməsi kimi fərqli ideoloji bazalarda mübarizələrini davam etdirir, lakin vahid platforma və təşkilatda birləşə bilmirlər. Cənubi Azərbaycanın müxtəlif şəhərlərində "Odlar Yurdu", "Çənlibel", "Araz", "Azərbaycan", "Vətən Uğrunda" qəzetləri, "Koroğlu", "Birlik", "Azadlıq", "Varlıq", "Dədə

Qorqud" jurnalları və digərləri milli adlarla nəşrə başladı [11]. Bu qəzet və jurnallarda yerli əhalinin sosial-iqtisadi problemlərinin, həmçinin azərbaycanlıların tarixi, mədəniyyəti, dili və ədəbiyyatına dair məsələlərin əks olunmasına diqqət yetirilirdi [27]. 2016-cı ildən başlayaraq qəzet və jurnalların nəşri yenidən genişlənir, "Yol", "Günəş", "Aylin" kimi qəzet və jurnallar fəaliyyət göstərir. Xaricdə çap olunan mətbu orqanları da qeyd etməliyik. Ötən əsrin 90-cı illərindən başlayaraq dünyanın müxtəlif ölkələrində "Azərbaycan", "Dirilik", "İldırım" və digər qəzet və jurnallar nəşr edilirdi [13, s. 173-177].

Cənubi Azərbaycan ədəbiyyatı Məhəmmədhüseyn Şəhriyarın (1906-1988) "Heydərbabaya salam" əsəri ilə yeni intibah dövrünə daxil oldu. Əsər ilk dəfə 1953-cü ildə Təbrizdə çap olunmuşdu [9]. Şəhriyarın təsiri altında böyük şairlər ailəsi yarandı. Şəhriyar, Həbib Sahir, Səhənd, Savalan, Həmid Nitqi kimi şairlər İslam inqilabından sonra da fəaliyyətlərini davam etdirdilər. Bulud Qaraçorlu Səhənd (1926-1979) ana dilini xüsusi təbliğ edir, inqilabi-romantik ruhlu şeirləri ilə seçilirdi [16]. Şəhriyar ona böyük ehtiramla "Səhəndiyə" poemasını yazmışdı. İran inqilabından sonra Əli Təbrizlinin "Çalpapaq elim", Həbib Sahirin "Yurd mahnısı", Həsən Coşqunun "Təbrizim" şeirləri məşhur oldu. Ötən əsrin 90-cı illərindən başlayaraq klassik şeirlə yanaşı avanqard, yeni üslublu şeirlər də meydana gəldi. Bu sahə, modern şeir Səhər Rəiszadə, Hüseyn Süleymanoğlu, Lalə Cavanşir, Heydər Bayat, Türkan Urmulu, Aydın Araz və digərləri ilə təmsil olundu [14]. Gənc yazarlar Nadir Əzhəri "Donuq şeir planı", Ziba Kərbasi "Nəfəs", Ərəstun Mücərrəd "Nano" şeirləri ilə XXI əsrin ilk onilliklərində yeni ədəbi tərzi təqdim etdilər [14].

XXI əsrin ikinci onilliyində Elmira Kəriminin "Bizdən sonra dünya necə olacaq?", Səlim Ərdəbilinin "Çox istəyirəm ana dili danışam" əsərləri bədii və ictimai hadisəyə çevrildi [27].

Yeni dövrdə səviyyəli nəşr əsərləri də yaradıldı. Gəncəli Səbahinin "Şərəfli ölüm", Səməd Behrənginin "24 saat yuxuda və ayıqlıqda", Əli Daşqının "Torpaq qoxusu" və digər əsərlər uğurlu nümunələr hesab edilir. XX əsrin sonlarından etibarən Baqir Rəşadətinin "Altun Xəyal quşu", Toğrul Atabayın "Manqurt" əsərləri diqqətlə qarşılandı [14]. 2016-cı ildə iki mühüm hadisə baş verdi. Yazıçı Qafur İmamzadənin "Qırmızım" hekayəsi gənc yazarların Türkiyədə keçirilən müsabiqəsində qalib gəldi, Nadir Elahinin isə məşhur "Bu qəfəs də uçdu" kitabı çapdan çıxdı [27]. 2017-ci ildə isə ən mühüm hadisə kimi 37 ildən sonra ilk dəfə Məhəmməd Rza Bağbanın müəllifi olduğu "Ana dili" kitabı nəşr olundu [27]. Cənublu yazarların demək olar ki, hər birinin əsərlərində Qarabağ mövzusuna, 20 Yanvar, Xocalı soyqırımı və digər qanlı hadisələrə, həmiçinin Azərbaycanın İkinci Qarabağ (Vətən) müharibəsində qələbəsinə xüsusi yer ayrılmışdır.

Son 10 illiklər ərzində Cənubi Azərbaycanın mədəniyyəti və incəsənəti sahəsində xeyli uğurlar əldə edilmişdir. Bu proses İranda və dünyada yaşayan cənubluları əhatə etmişdir. Rəssamlardan Navid Namin, Şəhriyar Burand, Qədir Mansur, Hüseyn Kazımi, Əhməd Vəkili, bədii fotoqrafiya ustalarından Rza Diqqəti, Kərim Motaqi, Mehrdad Afşari, teatr sahəsində Mənsur Həmidi, Atabəy Nadiri, Əyyub Ağaxani, kino sənətində Niki Kərimi, İsmayıl Monsef, Nağı Neməti və digərləri həm ölkədə, həm də xaricdə kifayət qədər tanınır [3]. Musiqi sahəsində Əli Səlimi

daha məşhurdur, onun "Aman ayrılıq" və "Sizə salam gətirmişəm" əsərləri dünya azərbaycanlıları içərisində məşhurdur [27]. Musiqi ifaçılarından Yaqub Zurufçu, Araz Elsəs, Ququş və digərləri daha çox tanınır və sevilir [4].

Cənubi Azərbaycanın mədəniyyət, incəsənət, ədəbiyyat, mətbuat sahələrində hadisələri ictimai-siyasi proseslərin təsiri altında baş verir, həmin prosesləri əks etdirir, tamamlayır, həmçinin qarşılıqlı təsirini də göstərir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Bayramzadə Z. Türkmənçay. "Kimlik" dərgisi, № 8, dekabr, 2012, s. 90.

2. Cəfərov F. Nikbinliyə əsas var. "Azadlıq" qəzeti, 1 oktyabr, 1997-ci il, s.5.

3. Cənubi Azərbaycanda müasir incəsənət və mədəniyyət. (11.03.2021).- varyox.az/analizator/cenubi-azerbaycanda-müasir-incesenet/.

4. Cənubi Azərbaycan mədəniyyəti.-muhaz.org/azerbaycan-tarixi-v2.-html? page =269.

5. DAK-ın Azərbaycan diasporunun inkişafında rolu.- "Olaylar" qəzeti, 14-16 aprel 2012, s. 15.

6. GünAz TV haqqında.- web.archive.org/web/20190424072506/ https://www.gunaz.tv/ az/ haqqimizda.htm.

7. Güneyli soydaşlarımızın Bəzz qalasına ənənəvi yürüşünün qarşısı alınıb, 08.07.2023.- aznews.tv/guneyli-soydaslarimizin-bəzz-qalasina-ənənəvi-yurusunun -qarsisi-alinib/.

8. İran İslam Cümhuriyyətinin əsas qanunu. Bakı, "Qızıl Şərq", 1993.

9. İsmayılova E. M. Şəhriyarın "Heydərbabaya salam" poemasının nəşr tarixindən.- Lənkəran Dövlət Universiteti. Elmi

Xəbərlər/Humanitar elmlər seriyası, I/2021, s. 27.- isu.edu.az/new/imgg/humanitar-2021/HUMANITAR_ new_26_32/pdf.

10. Kazımoğlu K. Dirçəliş məqamı. "Azadlıq" qəzeti, 4 iyul 1997-ci il, s. 5.

11. Mədəniyyət// Güney Azərbaycan Milli Oyanış Hərəkatı (GAMOH). http://gamoh.org/m%c9%99d%c9%99niyy%c9%99t.

12. Məhəmmədi M. Güney Azərbaycan məsələləri. Bakı, "Bakı Çap Evi", 2012.

13. Məmmədli P. Cənubi Azərbaycan mətbuatı tarixi (XIX-XX-XXI yüzilliklər). Bakı, "Elm", 2009.

14. Məmmədova P. Cənubi Azərbaycanda milli mətbuat və ədəbi fikrin inkişaf mərhələləri (1978-1979-cu illər İran inqilabından sonrakı dövr). Avtoreferat. Bakı, 2022, s. 9-aak.gov.az/upload/dissertasion/filologiya-elml_ri/++az+-compressed. pdf.

15. Mustafayev V.K. Cənubi Azərbaycanlıların milli hərəkatı. "Bakı-Təbriz" dərgisi, № 8, 2007.

16. Səhənd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s. 5.- anl.az/el/s/s_se.pdf.

17. "Urmiya gölünün qurudulması" ilə bağlı ictimai müzakirə keçirilib.- yeniazerbaycan.com/xeberlenti_e77681_az.html.

18. Hacıyeva Y. İran İslam inqilabından sonra Cənubi azərbaycanlıların ana dili uğrunda mübarizəsi (1979-2005-ci illər). Bakı, "Adiloğlu", 2017.

19. İranian Azerbaijan and the Cartoon Cockroach Controversy// Geocurrents.- https://www.geogurrents.info/geopolitics/iranian-azerbaijan-and-the-cartoon-cockroach-controversy.

20.MiddleEast:İran.-web.archive.org/web/20120203093100/https://www. cia.gov/library/publications/ the-world-factbook/geos/ir.html.

21. Агазаде М.М. Проблема статуса азербайджанских тюрков в Иране.- researchgate.net/publication/344554048_Problema_statusa_azerbajdzanskih_turokov_v_Irane.

22. Азербайджан-Иран: новая проблема.-katehon.com/ru/article/ azerbaydzhan-iran-novaya-problema.

23. Вырос товарооборот Ирана с Азербайджаном.// https://caliber.az/ ru/post/ 103851/.

24. Гаджиев Н. Иран и Азербайджан: конфликт интересов неизбежен, даже после свержения муллократии.-zerkalo.az/iran-vs-azerbaydzhan-konflikt-interesov-neizbezhen-dazhe-posle-sverzheniya-mullokratii/.

25. Гасанова М. Зачем Тегерану потребовался азербайджанский язык//Regnum.-28.08.2019.https.//regnum-ru.turbopages.org/regnum.ru/s/news/ 2701570.html.

26. Кириченко В.П. Иранский Азербайджан: прошлое и настоящее.- Журнал «Россия и мусульманский мир», № 1, 2023, s. 95.- cyberleninka.ru/ article/n/iranskiy-azerbaydzhan-proshloe-i-nastoyaschee/viewer.

27. Пархомчук Я.К. Иранский Азербайджан в XXI веке. С.-Петербург, 2017, s. 23.- https://dispace.spbu.ru/bitstream/11701/14799/1/Soderzhanie_-_kopiya. docx.

28. Сажин В. Иран-Азербайджан: Азербайджанский вопрос. 16.09.2022.- interaffairs.ru/news/show/37023.

29. Сажин В. Иранский Азербайджан-история и политика. //Международная жизнь.- 26.10.2021.- https://interaffairs.ru/news/show/32232.

30. Трубецкой В.В. Особенности национальной ситуации в Исламской Республике Иран. Национальный вопрос в странах Востока. Москва, «Наука», 1982.

## Xronologiya

**1,2 milyon – 700 min il bundan əvvəl.** Quruçay arxeoloji mədəniyyətinin əhatə etdiyi dövr.

**400 – 350 min il bundan əvvəl.** Azıxantropun yaşadığı dövr.

**E.ə. XII minillik.** Ulu dilin formalaşması başa çatdı və onun parçalanması ilə ilk qədim dil ailələri – protohindavropa, protosami, prototürk dilləri yarandı.

**E.ə. VIII-VII minilliklər.** Ön Asiyada (Azərbaycan, Şərqi Anadolu, İkiçayarası və s.) prototürk dili parçalandı və prototürk tayfalarının müxtəlif istiqamətlərdə köçləri baş verdi.

**E.ə. III minilliyin birinci yarısı.** Azərbaycan (Aratta) dövləti yarandı.

**E.ə. III minilliyin ikinci yarısı.** Azərbaycanda Lullubi və Kuti sülalələri hakimiyyətdə oldu.

**E.ə. 2230-2200-cü illər.** Lullubi nümayəndəsi Satuni hakimiyyətdə oldu.

**E.ə. 2170-2150-ci illər.** Lullubi nümayəndəsi Anubanini hakimiyyətdə oldu.

**E.ə. 2175-ci il.** Kutilərdən olan Azərbaycan hökmdarı Elulumeş akkadlar üzərində tam qələbə qazandı.

**E.ə. III minillik.** Azərbaycanın cənubunda prototürk, protoazərbaycan dili və protoazərbaycan xalqı formalaşdı.

**E.ə. II minillik.** Azərbaycanda siyasi pərakəndəlik dövrü. Kas (kassi), su, turukki sülalələrinin lokal yerli hakimiyyətləri formalaşdı.

**E.ə. 1595-1155-ci illər.** Azərbaycan kas (kassi) sülaləsinin Babildə hakimiyyəti bərqərar oldu.

**E.ə. IX əsrin əvvəlləri.** Manna sülaləsinin rəhbərliyi ilə mərkəzləşmiş Azərbaycan dövləti bərpa edildi.

**E.ə. 740-719-cu illər.** Manna sülaləsinin nümayəndəsi İranzu hakimiyyətdə oldu.

**E.ə. 680-650-ci illər.** Azərbaycan hökmdarı Ahşeri hakimiyyətdə oldu.

**E.ə. 678-ci il.** Azərbaycanın tarixi paytaxtlarından Ekbatanın (Həmədan) əsası qoyuldu.

**E.ə. 653-625-ci illər.** Azərbaycanda İskit (sak, aşquz, skif) sülaləsi hakimiyyətdə oldu.

**E.ə. 625-585-ci illər.** Maday (Midiya) sülaləsinin nümayəndəsi Kiaksar hakimiyyətdə oldu.

**E.ə. 550-ci il.** Madayların (midiyalıların) sonuncu nümayəndəsi Astiaq farsların üsyanı nəticəsində hakimiyyətdən devrildi.

**E.ə. VI əsrin birinci yarısı.** Azərbaycanın Araz çayından şimala doğru ərazilərində İskit (sak, massaget) xaqanlığı formalaşdı.

**E.ə. 550-330-cu illər.** Azərbaycan dövləti Əhəmənilər sülaləsi tərəfindən idarə edildi.

**E.ə. 530-cu il.** İsgit (sak, massaget) hökmdarı Tomiris Əhəməni nümayəndəsi II Kiri məğlub edib öldürdü.

**E.ə. 522-521-ci illər.** Əhəmənilərin hakimiyyətinə qarşı Qaumata və Fravartişin başçılığı altında madayların üsyanları baş verdi.

**E.ə. 522-ci il.** I Dara hakimiyyətə gələrək, Azərbaycan tarixinin saxtalaşdırılmasının əsasını qoydu.

**E.ə. I minilliyin birinci yarısı.** Türkdilli Azərbaycan xalqının təşşəkkülü əsasən başa çatdı.

**E.ə. VIII-VII əsrlər.** "Azərbaycan" sözünün ilk variantları – Andarpatkan, Andirpattianu, Adorbayqan, Azari adları mixi yazılarda əks olundu.

**E.ə. VII əsrin birinci yarısı.** Atəşpərəstliyin əsas kitabı "Avesta" meydana gəldi.

**E.ə. IV – y.e. III əsrlər.** Azərbaycanın cənubunda Aturpatilər və Kiçik Arsaklılar, şimalında isə Aranlılar və digər Kiçik Arsaklılar sülalələri hakimiyyətdə oldu.

**E.ə. 328-280-ci illər.** Adərbayqan hökmdarı Aturpatın hakimiyyət illəri.

**E.ə. II əsrin sonu – I əsrin əvvəli.** Regionda türk mənşəli Parfiya dövləti meydana gəldi.

**E.ə. 36-cı il.** Adərbayqan Roma sərkərdəsi Antoninin hücumunu dəf etdi.

**E.ə. I əsr.** Arranda yerli Aranlılar sülaləsinin nümayəndələri Oroys, Zober hakimiyyətdə oldular.

**Yeni eranın 63-cü ili.** Alban-arsaklı sülaləsinin ilk nümayəndəsi Sanatruk hakimiyyətə gəldi.

**Yeni eranın I əsrinin ortaları.** Azərbaycanın şimalında həvari (apostol) Yelisey tərəfindən xristianlığın təbliğinə başlanıldı, Şəki rayonu Kiş kəndində Qafqazda ilk kilsənin əsası qoyuldu.

**227-ci il.** Adərbayqan Parfiya dövlətində hakimiyyəti ələ keçirmiş Sasanilər sülaləsindən nominal asılılığı qəbul etdi.

**262-ci il.** Arran (Albaniya) daxili müstəqilliyini saxlamaqla Sasanilərin nüfuz dairəsinə daxil oldu.

**313-cü il.** Arran (Albaniya) hökmdarı Urnayr tərəfindən xristianlıq rəsmi din olaraq qəbul edildi.

**359-cu il.** Arranın (Albaniyanın) da iştirak etdiyi Amid döyüşü baş verdi.

**371-ci il.** Arranın (Albaniyanın) da iştirak etdiyi Dzirav döyüşü baş verdi.

**457-ci il.** Hökmdar II Vaçenin rəhbərliyi altında Sasanilərə qarşı üsyan baş verdi.

**510-cu il.** Arranda (Albaniyada) yerli Arsaklılar sülaləsinin hakimiyyətinə son qoyuldu.

**567-ci il.** Göytürk hökmdarı İstəmi xaqan Arrana (Albaniyaya) yürüş etdi.

**VI – VII əsrlər.** Azərbaycanda təxminən eyni vaxtda, eyni məzmun daşıyan "türk" və "azəri" ifadələri işlədilməyə başladı.

**628-ci il.** Arranda (Albaniyada) yerli Mehranilər sülaləsi hakimiyyətə gəldi.

**636-cı il.** Kaddusiyə döyüşü baş verdi.

**644-cü il.** Azərbaycan hökmdarı İsfəndiyar Fərruxzad ərəblərlə müqavilə imzaladı. Azərbaycanda islam dini yayılmağa başladı.

**667 və 670-ci illər.** Azərbaycan hökmdarı Cavanşir iki dəfə Xilafətin rəhbəri ilə görüşdü, münasibətlər nizama salındı.

**VII əsrin ortaları – VIII əsrin əvvəlləri.** Azərbaycan Ərəb Xilafətinin tərkibinə daxil edildi.

**VII əsr.** Musa Kalankatlının "Aqvan (Alban) tarixi" əsəri yazıldı. "Kitabi Dədə Qorqud" dastanı formalaşıb başa çatdı. Şair Dəvdək əsərlərini yaratdı.

**748-ci il.** Müsafir ibn Kəsirin rəhbərliyi ilə Beyləqanda Ərəb hakimiyyətinə qarşı ilk üsyan baş verdi.

**778-ci il.** Xürrəmilər hərəkatının Ərəb Xilafətinə qarşı ilk çıxışı oldu.

**808-809-cu illər.** Ərəb Xilafətinə qarşı Xürrəmilərin ikinci böyük üsyanı baş verdi.

**816-cı il.** Babək Xürrəmilər hərəkatına rəhbər seçildi, Ərəb Xilafətinə qarşı azadlıq mübarizəsi geniş vüsət aldı.

**830-833-cü illər.** Babəkin başçılığı altında azadlıq hərəkatı ən yüksək həddinə çatdı, Azərbaycanın geniş əraziləri ərəblərin nəzarətindən çıxarıldı, mərkəzləşmiş Azərbaycan dövləti əsasən bərpa edildi.

**Avqust 837-ci il.** Babəkin başçılığı altında həyata keçirilən azadlıq hərəkatı məğlub oldu, Bəzz qalası süqut etdi.

**14 mart 838-ci il.** Babək Bağdad yaxınlığındakı Samirə şəhərində edam olundu.

**861-ci il.** Azərbaycanın Şirvan bölgəsində Məzyədilər sülaləsi siyasi müstəqilliyini elan edərək, yeni dövlətin əsasını qoydu.

**889-cu il.** Azərbaycanda Sacilər sülaləsi hakimiyyətə gəldi, tarixi Azərbaycan torpaqlarını vahid dövlətin tərkibində birləşdirdi.

**889-901-ci illər.** Marağa şəhəri Azərbaycan dövlətinin paytaxtı oldu.

**901-981-ci illər.** Ərdəbil şəhəri Azərbaycan dövlətinin paytaxtı oldu.

**918-ci il.** Şamaxı şəhəri ilk dəfə Şirvanşahların paytaxtı oldu.

**941-981-ci illər.** Azərbaycan dövlətinə Salarilər sülaləsi rəhbərlik etdi.

**981-1071-ci illər.** Azərbaycanda Rəvvadilər sülaləsi hakimiyyətdə oldu, Təbriz ilk dəfə dövlətin paytaxtına çevrildi.

**971-1075-ci illər.** Azərbaycanın Kür və Araz çayları arasındakı ərazisində, paytaxt Gəncə şəhəri olmaqla Şəddadilər sülaləsi hakimiyyətdə oldu.

**XI əsrin ikinci yarısı.** Səlcuq orduları Cənubi Qafqaza, Azərbaycana daxil oldu, onlarla 3 Azərbaycan sülaləsi arasında razılıq əldə olundu, müəyyən şərtlər daxilində Azərbaycan dövlətçiliyi davam etdirildi, Azərbaycan Səlcuq imperiyasının mərkəzi hissəsinə çevrildi.

**XII əsrin birinci yarısı.** Atabəy Sunqurun rəhbərliyi ilə mərkəzi Gəncə şəhəri olmaqla Azərbaycan dövlətinin bərpa olunmasına cəhd edildi. Bu siyasət Şəmsəddin Eldəniz tərəfindən davam etdirildi.

**1106-1120-ci illər.** Şirvanşah I Afridunun hakimiyyət illəri.

**1120-1160-cı illər.** Şirvanşah III Mənüçöhrün hakimiyyət illəri.

**1136-1225-ci illər.** Azərbaycan dövlətində Atabəy Eldənizlər sülaləsi hakimiyyətdə oldu. Azərbaycan dövlətçiliyinin imperiya mərhələsi başlandı.

**1136-1175-ci illər.** Atabəy Şəmsəddin Eldənizin hakimiyyət illəri.

**1139-cu il.** Güclü zəlzələ nəticəsində Gəncə şəhəri dağıldı, 200 mindən artıq insan həlak oldu.

**1141-1209-cu illər.** Nizami Gəncəvinin həyat və yaradıcılıq dövrü.

**1175-1186-cı illər.** Eldənizlər sülaləsindən Məhəmməd Cahan Pəhləvanın hakimiyyət illəri.

**1186-1191-ci illər.** Eldənizlər sülaləsindən Qızıl Arslanın hakimiyyət illəri.

**1220-1222-ci illər.** Moğolların Azərbaycana ilk yürüşü.

**1221-ci il.** Beyləqan əhalisi moğollara qəhrəmanlıqla müqavimət göstərdi.

**1222-ci il.** Şamaxı şəhəri moğollara qəhrəmanlıqla müqavimət göstərdi, qanlı döyüş oldu.

**1225-1231-ci illər.** Azərbaycanın bir hissəsi Xarəzmşah Cəlaləddinin hakimiyyəti altına keçdi, digər ərazilər yerli hakimlərin nəzarəti altında qaldı.

**1231-1239-cu illər.** Azərbaycana moğolların ikinci yürüşü oldu, Azərbaycan moğolların Qızıl Orda dövlətinin təsir dairəsinə daxil edildi.

**1232-1233-cü illər.** Naxçıvanda moğollara qarşı qanlı döyüşlər oldu.

**1235-ci il.** Gəncə şəhəri moğollara qəhrəmanlıqla müqavimət göstərdi.

**1256-cı il.** “Azərbaycan taxt-tacında” Hülakülər sülaləsi bərqərar oldu.

**1295-1304-cü illər.** Hülakülər sülaləsinin nümayəndəsi Qazan xanın hakimiyyət illəri.

**XIV əsrin ortaları.** Azərbaycanda yerli Cəlairilər sülaləsi hakimiyyətə gəldi.

**1340-1361-ci illər.** Əlaəddin Turəli bəy Ağqoyunlu sülaləsinin və bəyliyinin əsasını qoydu.

**1351-1380-ci illər.** Bayram Xoca Qaraqoyunlular sülaləsinin və bəyliyinin əsasını qoydu.

**1369-1417-ci illər.** İmadəddin Nəsiminin həyat və yaradıcılıq illəri.

**1382-ci il.** Cəlairilər sülaləsinin nümayəndəsi Sultan Əhməd hakimiyyəti ələ keçirdi.

**1382-1417-ci illər.** Şirvanşah I İbrahimin hakimiyyəti illəri.

**1385-ci il.** Əmir Teymurun Azərbaycana yürüşləri başladı.

**1387-1390-cı illər.** Əlincə qalası Əmir Teymurun qoşunlarına qarşı qəhrəmanlıqla müdafiə olundu.

**1387-ci il.** Qaraqoyunlu bəyliyinin rəhbəri Qara Məhəmməd Ərzurum yaxınlığında, Çapaqçur suyu deyilən yerdə Əmir Teymurun qoşunlarını məğlub etdi.

**1406-cı il, may ayı.** Şirvanşah I İbrahim Təbrizi Teymurilərdən azad etdi, qısa müddətə olsa da, Azərbaycanın şimalı ilə cənubunu birləşdirdi.

**1406-cı il.** Qaraqoyunlu Qara Yusif Təbriz yaxınlığında, I Şənbi Qazan döyüşündə Teymurilərin nümayəndəsi Əbu Bəkri məğlub etdi və öldürdü.

**1408-ci il, aprel ayı.** Qaraqoyunlu Qara Yusif Təbriz yaxınlığında, Acıçay çayı sahilində Teymurilərin Miranşahın rəhbərliyi altında gələn əsas qüvvələrini məğlub etdi, özünü öldürdü.

**1410-cu il, avqust ayı.** Qaraqoyunlu Qara Yusif II Şənbi Qazan döyüşündə Cəlairilərin nümayəndəsi Sultan Əhmədə qalib gəldi, onu öldürdü, "hakimiyyət Cəlairi sülaləsindən Qaraqoyunlulara keçdi".

**1410-1468-ci illər.** Azərbaycanda Qaraqoyunlu sülaləsinin hakimiyyət illəri. Bu vaxt mərkəzləşmiş Azərbaycan dövləti bərpa edildi.

**XIV əsrin ikinci yarısı.** Azərbaycan filosofu Şeyx Fəzlullah Cəlaləddin Nəimi tərəfindən hürufilik təlimi yaradıldı.

**1410-1420-ci illər.** "Azərbaycan padşahı Qara Yusif Türkman"ın hakimiyyət illəri.

**1436-1467-ci illər.** "Azərbaycan hökmdarı Cahanşah Türkman"ın hakimiyyət illəri.

**1417-1465-ci illər.** Şirvanşah I Xəlilullahın hakimiyyət illəri.

**1451-1468-ci illər.** Uzun Həsənin Ağqoyunlu bəyliyinə rəhbərlik etdiyi dövr.

**1468-ci il.** Azərbaycan dövlətində Ağqoyunlu sülaləsinin hakimiyyəti başladı, "Azərbaycan hökmdarı Uzun Həsən" hakimiyyətə gəldi, "Səltənət Qaraqoyunlu sülaləsindən Ağqoyunlulara keçdi".

**1468-1503-cü illər.** Azərbaycanda Ağqoyunlu sülaləsinin hakimiyyət illəri.

**1473-cü il, avqust ayı.** Azərbaycan hökmdarı Uzun Həsənlə Osmanlı sultanı II Mehmet arasında Malatya və Otluqbeli döyüşləri oldu.

**XV əsr.** Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin dövründə Azərbaycan imperiyası yüksələn xətt üzrə inkişaf etdi.

**XV əsrin ikinci yarısı.** Səfəvilər sülaləsinin nümayəndələri Şeyx Cüneyd və Şeyx Heydər siyasi hakimiyyət uğrunda mübarizəyə başladı.

**XV əsrin sonları.** Ağqoyunlu sülaləsi zəiflədi, hakimiyyət uğrunda mübarizə dövlətin iki yerə bölünməsinə gətirib çıxardı.

**1494-1556-cı illər.** Məhəmməd Füzulinin həyat və yaradıcılıq illəri.

**XV əsrin sonu – XVI əsrin əvvəli.** Səfəvilər sülaləsinin yüksəlişi baş verdi.

**1501-1503-cü illər.** Səfəvilər sülaləsinin nümayəndəsi Şah I İsmayıl vahid və mərkəzləşmiş Azərbaycan dövlətini bərpa etdi.

**1501-1524-cü illər.** "Dövrün Əfrasiyabı", "Azərbaycan türklərinin başçısı", "Şanlı Xaqan", "Qızılbaş padşahı" Şah I İsmayılın hakimiyyət illəri.

**1501-ci il, yaz ayları.** İsmayıl Səfəvi Bakını fəth etdi.

**1501-ci il, yay.** Şərur döyüşü baş verdi.

**1501-1555-ci illər.** Azərbaycan dövlətinin paytaxtı Təbriz şəhəri oldu.

**1503-cü il, iyun ayı.** Alma Bulağı döyüşü oldu.

**XVI-XVIII əsrin birinci yarısı.** Səfəvilər və Əfşarlar sülalələlərinin dövründə Azərbaycan imperiyası yüksək səviyyəyə çatdı.

**1514-cü il, avqust ayı.** Çaldıran döyüşü baş verdi.

**1524-1576-cı illər.** Şah I Təhmasibin hakimiyyət illəri.

**1538-ci il.** Şirvan əraziləri tam şəkildə vahid Azərbaycan dövlətinin tərkibinə daxil edildi.

**1551-ci il.** Şəki vilayəti tam şəkildə vahid Azərbaycan dövlətinin tərkibinə daxil edildi.

**1534-1555-ci illər.** Azərbaycan dövləti ilə Osmanlı dövləti arasında Amasiya sülh müqaviləsi imzalandı.

**1555-1598-ci illər.** Paytaxt Qəzvin şəhəri oldu.

**1587-1629-cu illər.** Şah I Abbasın hakimiyyət illəri.

**1590-cı il.** Azərbaycan və Osmanlı dövləti arasında I İstanbul sülh müqaviləsi imzalandı.

**1598-1736-cı illər.** Paytaxt İsfahan şəhəri oldu.

**1612-ci il, oktyabr ayı.** Azərbaycan dövləti ilə Osmanlı dövləti arasında II İstanbul müqaviləsi imzalandı.

**1634-cü il.** Yeni Azərbaycan - Osmanlı müharibəsi başlandı.

**1639-cu il.** Azərbaycan və Osmanlı arasında Qəsri-Şirin sülh müqaviləsi imzalandı.

**1666-1694-cü illər.** Səfəvilərdən Şah Süleymanın hakimiyyət illəri.

**XVII əsrin sonu - XVIII əsrin əvvəli.** Azərbaycanda dərin hakimiyyət böhranı yaşandı.

**1711-ci il.** Azərbaycanın Şirvan və Cənubi Dağıstan bölgələrində Hacı Davudun rəhbərliyi ilə mərkəzi hakimiyyətə qarşı üsyan başlandı.

**1720-ci il.** Hacı Davud və Qazıqumuxlu Surxay xanın üsyançı dəstələri Şabran və Xudat qalalarını ələ keçirdi.

**1721-ci il, avqust ayı.** Hacı Davud və Surxay xanın üsyançıları Şamaxı şəhərini tutdu.

**1722-ci il, sentyabr ayı.** Mir Mahmud xanın başçılıq etdiyi üsyançı əfqan dəstələri dövlətin paytaxtı İsfahan şəhərini tutdu.

**1722-1732-ci illər.** Səfəvi sülaləsindən Şah II Təhmasibin hakimiyyət illəri.

**1722-ci il, iyun ayı.** Rusiyanın Azərbaycana işğalçı yürüşləri başladı. Rus qoşunları Azərbaycanın Dərbənd, Bakı, Salyan, Lənkəran, Rəşt, Ənzəli şəhərlərini işğal etdi.

**1722-1735-ci illər.** Birinci Azərbaycan – Rusiya müharibəsi baş verdi.

**1724-cü il, 10 oktyabr.** Rusiya çarı I Pyotr ermənilərin Azərbaycana köçürülməsinə dair fərman imzaladı.

**1728-ci il.** Nadirqulu xan daxili və xarici təhlükələrə, işğala qarşı mübarizəyə rəhbərlik etməyə başladı.

**1735-ci il.** Rus və Osmanlı qoşunları Azərbaycan ərazilərini tərk etdilər. Nadirqulu xanın rəhbərliyi ilə Azərbaycan dövlətinin ərazi bütövlüyü bərpa edildi.

**1736-cı il, fevral – mart ayları.** Muğanda, Suqovuşan deyilən yerdə Azərbaycanın bütün təbəqələrinin iştirakı ilə qurultay keçirildi, Nadirqulu xan şah elan olundu.

**1736-1747-ci illər.** Nadir şah Əfşarın hakimiyyət illəri.

**XVIII əsrin ikinci yarısı.** Azərbaycanda siyasi pərakəndəlik dövrü başlandı, xanlıqlar meydana gəldi.

**1747-1748-ci illər.** Urmiya, Təbriz, Ərdəbil, Xoy, Şəki, Qarabağ, Quba, İrəvan, Naxçıvan, Gəncə, Şirvan və digər xanlıqlar yarandı.

**1747-1755-ci illər.** Şəki xanı Hacı Çələbinin hakimiyyət illəri.

**1747-1763-cü illər.** Qarabağlı Pənahəli xanın hakimiyyət illəri.

**1752-ci il.** Şuşa qalasının əsası qoyuldu.

**1752-ci il, mart ayı.** "Qızılqaya xəyanəti" baş verdi.

**1758-1789-cu illər.** Qubalı Fətəli xanın hakimiyyət illəri.

**1774-cü il.** Kavduşan döyüşü baş verdi.

**1784-cü il.** Qubalı Fətəli xan Ərdəbil və Meşkin şəhərlərini tutdu.

**XVIII əsrin II yarısı.** Qarabağlı İbrahimxəlil xan Qarabağla yanaşı Şəki, Şirvan, Gəncə, Təbriz, Naxçıvan, Ərdəbil, Xoy, Marağa, İrəvan və digər əraziləri öz hakimiyyəti altında birləşdirdi.

**1792-ci il.** Ağa Məhəmməd xan Qacar Azərbaycanın cənub torpaqlarının öz hakimiyyəti altında birləşdirilməsini başa çatdırdı.

**1796-cı il.** Ağa Məhəmməd xan Qacar Tehranı paytaxt seçərək, özünü şah elan etdi.

**1796-cı il.** Rus qoşunları Dərbəndi işğal etdi. Bununla Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalı başlandı.

**1797-ci il, iyun ayı.** "Azərbaycan hökmdarlarını özünə tabe etdirmək" istəyən Ağa Məhəmməd şah Qacar Şuşada sui-qəsd nəticəsində öldürüldü.

**1797-ci il.** Molla Pənah Vaqif Şuşada edam olundu.

**1801-ci il, yanvar ayı.** Qacarlar sülaləsinin hakimiyyətdə olduğu Azərbaycan dövləti ilə İngiltərə arasında siyasi və ticarət əlaqələrinə dair müqavilələr imzalandı.

**1801-ci il, sentyabr ayı.** Rusiya Şərqi Gürcüstanla birlikdə Azərbaycanın Qazax, Borçalı, Şəmşəddil bölgələrini işğal etdi.

**1803-cü il, mart ayı.** Rus qoşunları Azərbaycanın Car-Balakən bölgəsini işğal etdi.

**1803-cü il, noyabr ayı.** Rus qoşunları Gəncə şəhərini mühasirəyə aldı.

**1803-1813-cü illər.** İkinci Azərbaycan – Rusiya müharibəsi baş verdi.

**1804-cü il, 2-3 yanvar.** Gəncə şəhəri gərgin döyüşlərdən sonra təslim oldu, rus qoşunları şəhəri zəbt etdi. Döyüşlərin gedişində Gəncəli Cavad xan qəhrəmanlıqla vuruşaraq həlak oldu.

**1804-cü il, may ayı.** Tehran - Təbriz hakimiyyəti Azərbaycan – Rusiya müharibəsinə qoşuldu.

**1805-ci il, may ayı.** Qarabağlı İbrahimxəlil xan və Şəkili Səlim xan Rusiya hökuməti ilə Kürəkçay müqaviləsini imzaladılar.

**1805-ci il, dekabr ayı.** Şirvanlı Mustafa xan Rusiya hökuməti ilə müqavilə imzaladı.

**1806-cı il, fevral ayı.** Rus qoşunlarının komandanı general Pavel Sisianov Bakıda, Qala qapılarının qarşısında sui-qəsd nəticəsində öldürüldü.

**1806-cı il, iyun ayı.** Qarabağlı İbrahimxəlil xan Xankəndi iqamətgahında ailə üzvləri ilə birlikdə rus hərbi dəstələrinin xaincəsinə hücumu nəticəsində öldürüldü.

**1806-cı il, sentyabr ayı.** Bakı xanlığı Rusiya tərəfindən işğal edildi.

**1806-cı il, noyabr ayı.** Rusiya qoşunları Quba şəhərini işğal etdi. Fətəli xanın oğlu Şeyxəli xan ruslara tabe olmadı, 1819-cu ilə qədər müqavimət hərəkatını davam etdirdi.

**1806-1812-ci illər.** Osmanlı – Rusiya müharibəsi baş verdi. Osmanlı dövləti məğlub olaraq, Buxarest sülh müqaviləsini imzaladı.

**1812-ci il, oktyabr ayı.** Aslandüz döyüşü baş verdi.

**1813-cü il, yanvar ayı.** Ağır döyüşlərdən sonra Lənkəran şəhəri ruslara təslim oldu. Şəhər müdafiəçilərindən 4 min nəfər həlak oldu. Ruslar şəhəri tutandan sonra 16 min nəfər dinc sakini qətlə yetirdi.

**1813-cü il, 12 oktyabr.** Gülüstan sülh müqaviləsi imzalandı. Tehran hakimiyyəti İkinci Azərbaycan – Rusiya müharibəsinin nəticələrini tanıdı.

**1813-cü il.** Rusiya hökuməti Gəncə, Quba, Dərbənd, Bakı xanlıqlarını ləğv etdi.

**1819-1826-cı illər.** Rusiya hökuməti Şəki, Şirvan, Qarabağ, Lənkəran xanlıqlarının daxili müstəqilliyini ləğv etdi.

**1826-1828-ci illər.** Üçüncü Azərbaycan – Rusiya müharibəsi baş verdi. Bu müharibədə Abbas Mirzənin komandanlığı altındakı Qacar qoşunları ilə birlikdə Qarabağlı Mehdiqulu xan, Bakılı Hüseynqulu xan, Gəncəli Uğurlu xan, Şirvanlı Mustafa xan, Lənkəranlı Mirhəsən xan, İrəvanlı Həsən xan, Şəkili Hüseyn xan, Naxçıvanlı Məhəmmədəmin xan və digrələri həm öz qoşunları, həm də yerli əhalinin dəstəyi ilə fəal iştirak etdilər.

**1826-cı il, iyul ayı.** Gəncə şəhəri rus işğalından azad edildi.

**1827-ci il, may ayı.** Rus qoşunları ağır döyüşlərdən sonra Məhəmmədəmin xanın müqavimətini qıraraq, Naxçıvan şəhərini ələ keçirdi.

**1827-ci il, sentyabr-oktyabr ayları.** Rusların inadlı hücumlarından sonra İrəvan şəhəri süqut etdi.

**1828-ci il, 10 (22) fevral.** Təbriz yaxınlığında, Türkmənçay kəndində Rusiya və Qacar hökumətləri arasında sülh müqaviləsi imzalandı. Türkmənçay müqaviləsinə görə, Tehran hökuməti Rusiyanın Şimali Azərbaycandakı işğalını tanıdı. Azərbaycanın şimal əraziləri, o cümlədən Naxçıvan, İrəvan xanlıqları Rusiya tərəfindən işğal edildi. Arazdan cənuba doğru ərazilərdə Azərbaycan dövlətçiliyi türk Qacarlar sülaləsi ilə davam etdirildi.

**1828-1829-cu illər.** Osmanlı ilə Rusiya arasında növbəti müharibə baş verdi. Türkiyə məğlub oldu və Ədirnə sülh müqaviləsini imzaladı. Müqavilənin digər şərtləri ilə yanaşı, Osmanlı dövləti Rusiyanın Cənub Qafqaz işğalının nəticələrini tanımalı oldu.

**1828-1832-ci illər.** Cənubi Azərbaycandan 50 min, Türkiyədən 90 min erməni Şimali Azərbaycana köçürüldü.

**1831-1838-ci illər.** Lənkəran, Quba, Şəki və digər yerlərdə Rusiya işğalına qarşı üsyanlar baş verdi.

**1858-ci il.** Şamaxıda güclü zəlzələ baş verdi, quberniyanın mərkəzi Bakıya köçürüldü.

**1870-ci il, 14 may.** Azərbaycanda torpaq, kəndli islahatlarının həyata keçirilməsinə dair fərman verildi.

**1872-ci il, 17 fevral.** Torpaq sahələrindən icarə ilə istifadə olunmasının ləğvinə dair fərman verildi.

**1873-cü il, 22 mart.** Bakıda ilk dəfə teatr tamaşası göstərildi, milli teatrın əsası qoyuldu.

**1875-ci il, 22 iyul.** H. B. Zərdabinin rəhbərliyi ilə ilk milli mətbuat "Əkinçi" qəzeti fəaliyyətə başladı. Milli mətbuatın əsası qoyuldu.

**XIX əsrin sonu.** Şuşa, Naxçıvan, Şamaxı və digər yerlərdə yeni tipli məktəblər açıldı.

**1901-ci il.** Bakıda ilk müsəlman qız məktəbi açıldı.

**1905-ci il.** Əhməd bəy Ağaoğlunun rəhbərliyi ilə "Difai" təşkilatı yaradıldı.

**1905-1908-ci illər.** Cənubi Azərbaycan və digər ərazilərdə Məşrutə inqilabı baş verdi.

**1907-1908-ci illər.** Səttarxanın rəhbərliyi ilə Təbrizdə inqilabi hərəkat geniş vüsət aldı.

**1908-ci il.** Üzeyir bəy Hacıbəyli tərəfindən müsəlman və türk dünyasında ilk milli opera – "Leyli və Məcnun" operası yaradıldı və tamaşaya qoyuldu.

**1911-ci il.** "Müsavat" partiyası yaradıldı. 1913-cü ildən partiyaya M. Ə. Rəsulzadə rəhbərlik etdi.

**1917-ci il, oktyabr ayı.** Bakıda bolşeviklərin "Bakı soveti" deyilən hakimiyyəti formalaşdırıldı.

**1918-ci il, fevral ayı.** Azərbaycanlı, gürcü, erməni nümayəndələrindən ibarət "Zaqafqaziya Seymi" yaradıldı.

**1918-ci il, 30 mart-1aprel.** Erməni silahlı dəstələri Bakıda azərbaycanlılara qarşı soyqırım törətdi, 12 min nəfər dinc əhali qətlə yetirildi. Soyqırım Azərbaycanın Şamaxı, Quba, Lənkəran və digər bölgələrində davam etdirildi. Ümumilikdə 50 min azərbaycanlı qətlə yetirildi.

**1918-ci il, 28 may.** Azərbaycan dövlətçiliyinin bərpa edildiyi, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan olundu. M. Ə. Rəsulzadə Milli Şuranın (müvəqqəti parlamentin) sədri, F. X. Xoyski milli hökumətin rəhbəri, N. B. Yusifbəyli, M. H. Hacınski, X. B. Sultanov, X. B. Xasməmmədov və digərləri hökumət üzvləri oldular.

**1918-ci il, 4 iyun.** Batumda Azərbaycanla Osmanlı dövləti arasında "Dostluq haqqında" müqavilə imzalandı.

**1918-ci il, 16 iyun.** AXC Milli Şurası və hökuməti Tiflisdən Gəncəyə köçdü.

**1918-ci il, 21 iyun.** AXC-nin ilk bayrağı qəbul edildi.

**1918-ci il, 26 iyun.** Azərbaycanın ilk rəsmi hərbi hissəsi yaradıldı.

**1918-ci il, 27 iyun.** Azərbaycan türkcəsi dövlət dili elan edildi.

**1918-ci il, iyun-iyul ayları.** Göyçay, Şamaxı, Kürdəmir rus-sovet qoşunlarından azad edildi.

**1918-ci il, iyun-1920-ci il, noyabr.** Ermənistanın təcavüzü nəticəsində Birinci Azərbaycan-Ermənistan müharibəsi baş verdi.

**1918-ci il, 15 sentyabr.** Qafqaz İslam Ordusu və Milli Ordunun hissələri Bakını azad etdi.

**1918-ci il, 17 sentyabr.** Azərbaycan hökuməti Gəncədən Bakıya gəldi.

**1918-ci il, oktyabr-noyabr ayları.** Birinci dünya müharibəsində Türkiyənin məğlubiyyətindən sonra Qafqaz İslam Ordusu Azərbaycanı tərk etməli oldu.

**1918-ci il, 9 noyabr.** Azərbaycanın üçrəngli bayrağı qəbul edildi.

**1918-ci il, noyabr – 1919-cu il, yaz ayları.** Mərkəzi İğdır, sonra Naxçıvan olmaqla Araz Türk Respublikası mövcud oldu. Rəhbəri Əmir Nərimanbəyov idi.

**1918-ci il, 7 dekabr.** Azərbaycan parlamenti öz işinə başladı. Ə. M. Topçubaşov parlamentin sədri, H. B. Ağayev sədrin birinci müavini seçildi.

**1918-ci il, dekabrın sonu.** General S. B. Mehmandarov hərbi nazir, general Ə. Şıxlinski hərbi nazirin müavini təyin olundular.

**1919-cu il, sentyabr-noyabr ayı.** Bakı Dövlət Universiteti fəaliyyətə başladı.

**1919-cu il, yanvar ayı.** Mərkəzi Şuşa şəhəri olmaqla Qarabağ general-qubernatorluğu yaradıldı. X. B. Sultanov general-qubernator təyin edildi.

**1919-cu il, may – 1920-ci il, yanvar.** Ə. M. Topçubaşovun rəhbərliyi altında Azərbaycan nümayəndə heyəti Paris (Versal) Sülh konfransında iştirak etdi.

**1920-ci il, 10 yanvar.** Paris Sülh Konfransının Ali Şurası Azərbaycanın müstəqilliyinin de-fakto tanımasına dair qərar qəbul etdi.

**1920-ci il, fevral ayı.** Bakıda Azərbaycan kommunist (bolşeviklər) partiyası yaradıldı.

**1920-ci il, 7 aprel.** Təbrizdə xalq hərəkatı qalib gəldi. Ş.M.Xiyabaninin rəhbərliyi ilə Azərbaycan vilayətində "Azadistan" ölkəsinin yaradıldığı elan olundu.

**1920-ci il, 27 aprel.** AXC parlamentinin sonuncu, 145-ci iclası oldu. Gərgin müzakirələrdən sonra hakimiyyətin kommunistlərə təhvil verilməsinə dair qərar qəbul edildi.

**1920-ci il, 27-28 aprel.** Sovet Rusiyasının XI Qırmızı ordusu şimal sərhədlərindən Azərbaycana daxil oldu, Bakı şəhərini ələ keçirdi, AXC süqut etdi, Sovet Rusiyası "sovetləşmə" adı altında Azərbaycanı işğal etdi.

**1920-ci il, 28 aprel.** Bakıda N.Nərimanov başda olmaqla Müvəqqəti inqilab komitəsi yaradıldı.

**1920-ci il, may-iyun ayları.** Tərtər, Gəncə, Ağdam, Şuşa, Zaqatala, Şəmkir, Qusar və digər bölgələrdə sovet işğalına qarşı üsyanlar baş verdi.

**1920-ci il, iyun ayı.** Cənubi Azərbaycanda Ş. M. Xiyabani başda olmaqla Milli hökumət yaradıldı.

**1920-ci il, sentyabr ayı.** Cənubi Azərbaycanda inqilabi hərəkat məğlub oldu. Ş. M. Xiyabani döyüş meydanında öldürüldü.

**1920-ci il, 30 sentyabr.** Moskva Azərbaycanla Rusiya arasında "Hərbi-iqtisadi ittifaq haqqında" müqavilə imzalandı. Bu, faktiki olaraq, Azərbaycanın müstəqilliyinin ləğv olunması demək idi.

**1920-1921-ci illər.** AXC rəhbərlərindən F.X.Xoyski, N.B.Yusifbəyli və digərləri qətlə yetirildi. 50 min azərbaycanlı qırmızı terrorun qurbanı oldu. M.Ə.Rəsulzadə həbs olundu, sonra azad olunaraq Moskvaya aparıldı.

**1921-ci il, 16 mart.** Moskvada Türkiyə ilə Rusiya arasında müqavilə imzalandı.

**1921-ci il, 13 oktyabr.** Qarsda Rusiyanın iştirakı ilə Azərbaycan, Türkiyə, Gürcüstan, Ermənistan arasında müqavilə imzalandı.

**1921-1922-ci illər.** Sovet Rusiyasının diqtəsi ilə Azərbaycanın mübahisəli sayılan 16,6 min km2-lik ərazilərinin yarısı - Borçalı, Qarayazı, Sığnax Gürcüstana, digər yarısı isə- Üçkilsə, Dərələyəz, Göyçə mahalları Ermənistana verildi. 7 min km2-lik Zəngəzurun 4,5 min km2-lik hissəsi – Qarakilsə, Gorus, Qafan da Ermənistana verildi.

**1922-ci il, mart ayı.** Azərbaycan, Gürcüstan, Ermənistan "sovet sosialist respublikaları" "Zaqafqaziya sovet federativ sosialist respublikası" (ZSFSR) deyilən qurumda birləşdirildi. N.Nərimanov yeni quruma sədr seçildi.

**1922-ci il, 30 dekabr.** RSFSR, Ukrayna SSR, Belarusiya SSR və ZSFSR birlikdə "Sovet Sosialist Respublikalar İttifaqı" (SSRİ) deyilən yeni dövlət yaratdılar. Bununla Rusiya imperiyasının yerində "SSRİ" deyilən Sovet imperiyası yaradıldı. V.Lenin yeni imperiya hökumətinin – Xalq Komissarları Sovetinin (XKS) sədri seçildi.

**1923-cü il, 7 iyul.** Azərbaycanın tərkibində Dağlıq Qarabağ muxtar vilayəti yaradıldı.

**1924-cü il, fevral ayı.** Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradıldı.

**1925-ci il, oktyabr-dekabr ayı.** Tehranda çevriliş nəticəsində Qacarlar sülaləsi hakimiyyətdən uzaqlaşdırıldı, fars əsilli Pəhləvilər sülaləsinin nümayəndəsi Rza xan şah elan olundu.

**1925-ci il, dekabr ayı.** Kremlin qərarı ilə insanların canı və qanı bahasına sənayeləşdirmə siyasətinə başlanıldı.

**1927-ci il, dekabr ayı.** Kremlin qərarı ilə zorakı kollektivləşdirmə siyasətinə start verildi.

**1929-cu il, 18 fevral.** Moskvanın hökmü, Zaqafqaziya MİK Rəyasət heyətinin qərarı ilə Naxçıvan muxtar respublikasının 657 km2-lik ərazisi (Qurdbulaq, Horadiz, Almalı, Mehri və digər kəndlər), Zəngilanın Nüvədi, Mehri və digər kəndləri qeyri-qanuni olaraq Ermənistana verildi.

**1935-ci il, mart ayı.** Rza şahın qərarı ilə ölkə rəsmi olaraq İran adlandırıldı.

**1936-cı il, dekabr ayı.** ZSFSR buraxıldı, Azərbaycan, Gürcüstan, Ermənistan ayrı-ayrılıqda SSRİ-nin tərkibinə daxil edildilər.

**1937-1938-ci illər.** Sovet imperiyasının rəhbərliyi qanlı repressiyalar həyata keçirdi. Azərbaycanda 120 min insan, o cümlədən 29 min ziyalı repressiyaların qurbanı oldu. Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminli, Tağı Şahbazi, Ömər Faiq Nemanzadə, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə və digər görkəmli şəxsiyyətlər sovet rejimi tərəfindən məhv edildi.

**1938-ci il, 5 may.** Laçın, Qubadlı, Kəlbəcər, Qazax rayonlarının 2 min ha torpaq sahəsinin Ermənistana verilməsinə dair Moskvanın hökmü ilə Azərbaycan rəhbərliyi tərəfindən qərar qəbul edildi.

**1941-ci il, iyun ayı.** Azərbaycan Sovet imperiyasının tərkibində II Dünya müharibəsinə qoşuldu, 3,4 milyon nəfər əhalisi olan Azərbaycandan 640 min nəfər müharibəyə səfərbər olundu. Onlardan 350 min nəfər geriyə qayıtmadı.

**1941-1945-ci illər.** Azərbaycanlılar müharibədə həm Sovet imperiyası, həm də faşist Almaniyası tərəfdən döyüşlərdə, həmçinin faşizmə qarşı müqavimət hərəkatında iştirak etdi. Həzi Aslanov, Ziya Bünyadov, İsrafil Məmmədov, Hüseynbala Əliyev, Əhmədiyyə Cəbrayılov, Mehdi Hüseynzadə, Gəray Əsədov və difərləri müharibənin əfsanəvi qəhrəmanları oldular. Azərbaycan nefti müharibənin taleyində həlledici rol oynadı.

**1941-ci il.** İranın cənubu ingilis, şimalı isə (Cənubi Azərbaycan) sovet qoşunu tərəfindən zəbt edildi. İngilislər Rza şahı devirib, yerinə Məhəmməd Rza şahı gətirdi.

**1942-ci il.** Bakıda bir qrup gənc tərəfindən Sovet rejiminə qarşı "İldırım" təşkilatı yaradıldı.

**1945-ci il, sentyabr.** Cənubi Azərbaycanda Seyid Cəfər Pişəvərinin rəhbərliyi altında Azərbaycan Demokrat Partiyası bərpa edildi (ADP). ADP siyasi proseslərə rəhbərlik etməyə başladı.

**1945-ci il, noyabr ayı.** Ermənistan rəhbərliyi Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə dair təkliflə SSRİ rəhbərliyinə müraciət etdi.

**1945-ci il, 12 dekabr.** Cənubi Azərbaycanda Milli Məclisin ilk iclası keçirildi, S.C.Pişəvəri başda olmaqla Milli hökumət yaradıldı. Yerli təqvimə uyğun olaraq həmin vaxtdan "21 Azər hərəkatı" ifadəsi işlədilməyə başladı.

**1946-cı il, 06 yanvar.** Cənubi Azərbaycanda türk dili rəsmi dövlət dili elan olundu.

**1946-cı il, iyun ayı.** Təbrizdə Azərbaycan Dövlət Darülfünunu (Universiteti) açıldı.

**1946-cı il, sentyabr-dekabr ayları.** Şah rejimi İngiltərə və ABŞ-nin köməyi, həmçinin SSRİ-nin razılığı ilə Cənubi Azərbaycanda azadlıq hərəkatını qan içərisində boğdu. 25 minə qədər adam öldürüldü, minlərlə insan Azərbaycan SSR tərəfə keçdi. S.C.Pişəvəri də Bakıya gəldi, 1947-ci ildə avtomobil qəzasında həlak oldu.

**1948-1953-cü illər.** Ermənistan deyilən Qərbi Azərbaycandan 150 mindən artıq azərbaycanlı Azərbaycan SSR-ə deportasiya edildi.

**1949-cu il, 7 noyabr.** "Neft daşları"nda ilk neft qurğusu fontan vurdu.

**1949-cu il.** M.Ə.Rəsulzadənin təşkilatçılığı ilə Ankarada "Azərbaycan Kültür Dərnəyi" yaradıldı.

**1951-ci il.** Milli Cəbhənin rəhbəri, Qacarlar nəslindən olan Məhəmməd Müsəddiq İranda baş nazir seçildi.

**1953-cü il.** Təbrizdə M.Şəhriyarın "Heydərbabaya salam" poeması çap olundu.

**1954-1959-cu illər.** İmam Mustafayev Azərbaycana rəhbərlik etdi.

**1955-ci il, 6 mart.** Böyük dövlət adamı, siyasi xadim M.Ə.Rəsuızadə Ankarada vəfat etdi.

**1956-cı il, 14 fevral.** Azərbaycan televiziyası daimi verilişlərinə başladı.

**1956-cı il, aprel ayı.** 20 ildən çox Azərbaycana rəhbərlik etmiş M.C.Bağırov məhkəmənin hökmü ilə güllələnməyə məhkum edildi, hökm icra olundu.

**1956-cı il, avqust ayı.** İmam Mustafayev və Mirzə İbrahimovun təşəbbüsü ilə konstitusiyaya respubli-

kada Azərbaycan dilinin dövlət dili olması ilə bağlı bənd əlavə olundu.

**1957-ci il, 28 may.** Milli fəal Cahid Hilaloğlu üçrəngli Azərbaycan bayrağını Qız qalasının üzərinə qaldırdı.

**1959-1969-cu illər.** Azərbaycana Vəli Axundov rəhbərlik etdi.

**1967-ci il, mart ayı.** Vəli Axundov Şıxəli Qurbanovun təşəbbüsü ilə o vaxta qədər qadağan olunmuş Novruz bayramı ilk dəfə rəsmi bayram kimi keçirildi.

**1967-ci il, may ayı.** Şıxəli Qurbanov müəmmalı şəkildə vəfat etdi.

**1969-cu il, 14 iyul.** Görkəmli dövlət xadimi, siyasi lider Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldi.

**1977-1979-cu illər.** İranda İslam inqilabı baş verdi. S.M.K.Şəriətmədari azərbaycanlıların lideri kimi önə çıxdı.

**1979-cu il, 11 fevral.** İran İslam inqilabı qalib gəldi. İnqilabda 25 min azərbaycanlı həlak oldu, lakin ümidlər özünü doğrultmadı. S.M.K.Şəriətmədari ev dustağı edildi, 1986-cı ildə ev dustaqlığında vəfat etdi.

**1982-ci il, noyabr ayı.** Heydər Əliyev SSRİ-nin rəhbərliyinə yüksəldi, Siyasi büronun üzvü, Nazirlər soveti sədrinin birinci müavini oldu.

**1980-ci illərin ortaları.** Sovet imperiyası dərin siyasi, iqtisadi, ideoloji böhran mərhələsinə daxil oldu.

**1985-ci il, mart ayı.** Mixail Qorbaçov Sovet imperiyasının rəhbərliyinə gətirildi.

**1987-ci il, oktyabr ayı.** M.Qorbaçovun intriqalarının nəticəsi olaraq Heydər Əliyev bütün vəzifələrindən kənarlaşdırıldı.

**1987-1988-ci illər.** Azərbaycana qarşı ərazi iddiaları ilə İrəvanda "Qarabağ Komitəsi", Dağlıq Qarabağda "Krunk" təşkilatı və digər qurumlar yaradıldı.

**1987-ci il, oktyabr ayı.** İrəvanın Puşkin adına parkında Azərbaycana qarşı ərazi iddiaları ilə ilk mitinq keçirildi.

**1987-ci ilin sonu-1988-ci ilin əvvəlləri.** Ermənistandan çıxarılan ilk qaçqın dəstələri Azərbaycana gəldi.

**1988-ci il, 13 fevral.** Xankəndidə ermənilərin ilk mitinqi keçirildi.

**1988-ci il, 19 fevral.** Bakıda erməni iddialarına qarşı ilk aksiya keçirildi.

**1988-ci il, 20 fevral.** Dağlıq Qarabağ muxtar vilayətinin xalq deputatları soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə dair müraciət qəbul etdi.

**1988-ci il, 28 fevral.** Ermənistan və SSRİ xüsusi xidmət orqanları tərəfindən Sumqayıt hadisəsi törədildi.

**1988-ci il, may ayı.** Moskva ƏbdürrəhmanVəzirovu Azərbaycanda hakimiyyətə gətirdi.

**1988-ci il.** Bəxtiyar Tuncay, Ağası Hun, İsa Qəmbər, Vurğun Əyyub və digər gənclərin iştirakı ilə "Bakı Alimlər Klubu", "Varlıq", "Çənlibel" və digər təşkilatlar yaradıldı.

**1988-ci il, noyabr-dekabr ayları.** Bakıda Lenin meydanında fasiləsiz mitinq keçirildi.

**1988-ci il, noyabr-dekabr ayları.** Ermənistandan 300 min azərbaycanlı zorla deportasiya edildi.

**1989-cu il, 16 iyul.** Bakıda keçirilən təsis konfransında Azərbaycan Xalq Cəbhəsi (AXC) yaradıldı.

Ə.Elçibəy sədr, İsa Qəmbər, Hikmət Hacızadə, Etibar Məmmədov, Tofiq Qasımov, Nemət Pənahlı və digərləri İdarə heyətinin üzvləri oldu.

**1989-cu il, 31 dekabr.** Naxçıvan ərazisində, İranla sərhəddə AXC-nin təşkilatçılığı ilə sərhəd dirəkləri söküldü.

**1990-cı il, 19-20 yanvar.** Sovet qoşunları Bakıya hücum edərək kütləvi qırğın törətdi.

**1990-cı il, 21 yanvar.** Ulu öndər Heydər Əliyev Moskvada Azərbaycan nümayəndəliyinə gedərək, 20 Yanvar qırğınlarını ittiham edən bəyanatla çıxış etdi.

**1990-cı il, may ayı.** Ayaz Mütəllibov Ali Sovet tərəfindən prezident seçildi.

**1990-cı il, iyul ayı.** Ümummilli lider Heydər Əliyev Bakıya, oradan da Naxçıvana qayıtdı.

**1991-ci il, sentyabr ayı.** Heydər Əliyev Naxçıvan Ali Sovetinin sədri seçildi.

**1991-ci il, 26 noyabr.** Ali Sovetin qərarı ilə Dağlıq Qarabağ muxtar vilayəti ləğv edildi.

**1991-ci il, 8 dekabr.** Rusiya, Ukrayna, Belorusiya rəhbərləri B.Yeltsin, L.Kravçuk, S.Şuşkeviç Belorusiyanın "Belovejsk" meşəsindəki, "Viskuli" hökumət iqamətgahında SSRİ-nin ləğvi və Müstəqil Dövlətlər Birliyinin (MDB) yaranmasına dair saziş imzaladılar. Bununla Sovet imperiyası süqut etdi.

**1991-ci il, 21 dekabr.** Alma-Atı şəhərində keçirilən iclasda Azərbaycan, Qazaxıstan, Gürcüstan və digər keçmiş "ittifaq respublikaları"nın rəhbərləri Belovejsk sazişinə qoşulmaq haqqında bəyannaməni imzaladılar.

**1991-ci il, 30 avqust.** Azərbaycan SSR Ali Soveti "Müstəqillik haqqında Bəyannamə" qəbul etdi.

**1991-ci il, 8 sentyabr.** Ayaz Mütəllibov ümumi seçkilərlə prezident seçildi.

**1991-ci il, 18 oktyabr.** Azərbaycan SSR Ali Soveti "Müstəqillik haqqında Konstitusiya Aktı" qəbul etdi.

**1991-ci il, oktyabr ayı.** Azərbaycan İslam Konfransı Təşkilatına üzv oldu.

**1992-ci il, 30 yanvar.** Azərbaycan ATƏM-in (1995-ci ildən ATƏT) üzvü oldu.

**1992-ci il, 14-17 fevral.** Ermənilər Qaradağlı qətliamını törətdi.

**1992-ci il, 26 fevral.** Ermənilər Xocalı soyqırımını törətdi.

**1992-ci il, 2 mart.** Azərbaycan BMT-yə üzv oldu.

**1992-ci il, 6 mart.** Ayaz Mütəllibov prezident vəzifəsindən istefa verdi.

**1992-ci il, 8 aprel.** Ermənilər Ağdaban faciəsini törətdi.

**1992-ci il, 8 may.** Şuşa işğal olundu.

**1992-ci il, 18 may.** Laçın işğal olundu.

**1992-ci il, iyun ayı.** Azərbaycan UNESCO-ya üzv oldu.

**1992-ci il, 7 iyun.** Xalq hərəkatının lideri, AXC-nin sədri Əbülfəz Elçibəy prezident seçildi.

**1992-ci il, iyun-sentyabr ayları.** Azərbaycan Ordusu Dağlıq Qarabağın yarısını azad etdi.

**1992-ci il, noyabr ayı.** Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası (YAP) yaradıldı.

**1993-cü il, 2 aprel.** Kəlbəcər işğal olundu.

**1993-cü il, iyun ayı.** Gəncə və ətraf bölgələrdə Surət Hüseynov, cənubda Əlikram Hümbətov, şimalda "Sadval" təşkilatı mərkəzi hakimiyyətə qarşı çıxış etdi.

**1993-cü il, 9 iyun.** Prezident Ə. Elçibəyin dəvəti ilə Ulu Öndər Heydər Əliyev Bakıya gəldi, vəziyyətdən çıxış yollarına dair müzakirələr aparıldı.

**1993-cü il, 13 iyun.** Ali Sovetin sədri İsa Qənbər istefa verdi.

**1993-cü il, 15 iyun.** Heydər Əliyev Ali Sovetin sədri seçildi.

**1993-cü il, 17 iyun.** Ə.Elçibəy prezident postunu tərk edərək Naxçıvana, oradan da doğma kəndi Kələkiyə getdi.

**1993-cü il, 24 iyun.** Ali Sovet prezident səlahiyyətlərinin Heydər Əliyevə verilməsinə dair qərar qəbul etdi.

**1993-cü il, 30 iyun.** Surət Hüseynov baş nazir təyin edildi.

**1993-cü il, 23 iyul.** Ağdam işğal olundu.

**1993-cü il, 23 avqust.** Füzuli və Cəbrayıl işağl olundu.

**1993-cü il, avqust ayı.** Qarabağ Azadlıq Hərəkatı yaradıldı. Xəqani Hüseynov sədr seçildi.

**1993-cü il, 31 avqust.** Qubadlı işğal olundu.

**1993-cü il, 3 oktyabr.** Ulu Öndər Heydər Əliyev prezident seçildi.

**1993-cü il, 29 oktyabr.** Zəngilan işğal olundu.

**1993-cü il, noyabr ayı.** Heydər Əliyevin çağırışı ilə Orduya könüllülər səfərbər edildi.

**1993-cü il, 15 dekabr.** Azərbaycan Ordusu bütün cəbhə boyu əkshücum əməliyyatına başladı.

**1994-cü il, may ayı.** Bişkek şəhərində Azərbaycanla Ermənistan arasında atəşkəs müqaviləsi imzalandı.

**1994-cü il, 20 sentyabr.** "Əsrin müqaviləsi" imzalandı.

**1994-cü il, oktyabr ayı.** Baş nazir Surət Hüseynovun rəhbərliyi ilə dövlət çevrilişinə cəhd edildi.

**1995-ci il, mart ayı.** Daxili işlər nazirinin müavini Rövşən Cavadovun rəhbərliyi altında dövlət çevrilişinə cəhd edildi.

**1995-ci il, 12 noyabr.** Müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi.

**1997-ci il, iyun ayı.** ABŞ-nin Los-Anceles şəhərində Dünya Azərbaycanlıları Konqresi (DAK) yaradıldı.

**1997-ci il.** Bakı-Novorossiysk neft kəmərinin fəaliyyəti bərpa olundu.

**1999-cu il, iyul ayı.** Cənubi Azərbaycanda Bəzz qalasına yürüş ənənəsinə start verildi.

**1999-cu il.** Bakı-Supsa neft kəməri işə salındı.

**2000-ci il, yanvar ayı.** Qarabağ Azadlıq Hərəkatı Qarabağ Azadlıq Təşkilatı adı ilə bərpa edildi. Akif Nağı sədr seçildi.

**2001-ci il, noyabr ayı.** Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi.

**2001-2003-cü illər.** Bakıda Qarabağ Azadlıq Təşkilatının (QAT) təşəbbüsü ilə Qarabağ mitinqləri keçirildi, Qarabağın hərbi yolla azadlığı tələbləri irəli sürüldü.

**2003-cü il, avqust ayı.** Qarabağda partizan müharibəsi başlamaq üçün yaradılmış dəstə üzvləri ("Qa-

rabağ partizanları") qanunsuz silahlı dəstə formalaşdırma ittihamı ilə həbs olundu.

**2003-cü il.** Cənubi Azərbaycanda sosial tələblərlə kütləvi aksiyalar keçirildi.

**2003-cü il, avqust ayı.** Gənc və enerjili siyasi xadim, dövlət adamı İlham Əliyev baş nazir təyin olundu.

**2003-cü il, 15 oktyabr.** Gənc lider İlham Əliyev prezident seçildi.

**2003-cü il, 12 dekabr.** Ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyev vəfat etdi.

**2004-cü il, iyun ayı.** Qarabağ Azadlıq Təşkilatı (QAT) erməni zabitlərin Bakıda keçirilən NATO konfransında iştirakına qarşı etiraz aksiyası keçirdi, erməni zabitlərinin dərhal Azərbaycanı tərk etməsinə nail oldu. QAT sədri Akif Nağı, sədr müavini Firidun Məmmədov, üzvlər Mürsəl Həsənov, Manaf Kərimov, Rövşən Fətiyev, İlkin Qurbanov həbs olundular.

**2006-cı il, iyun ayı.** Bakı-Tbilisi-Ceyhan neft kəməri işə düşdü.

**2007-ci il, noyabr ayı.** ATƏT Minsk qrupunun həmsədrləri Madrid şəhərində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə "münaqişə"nin nizama salınmasına dair əsas prinsipləri təqdim etdi. Bu prinsiplər Madrid prinsipləri adını aldı.

**2008-ci il, 14 mart.** BMT Baş Assambleyası ilk dəfə "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət haqqında" qətnamə qəbul etdi.

**2009-cu il, oktyabr ayı.** Naxçıvan şəhərində Azərbaycan, Türkiyə, Qazaxstan, Qırğızıstan prezidentlərinin iştirakı ilə Türk Şurası yaradıldı.

**2009-cu il.** Təbrizin "Traktorsazi" futbol klubunun oyunları siyasi, ictimai etirazlar arenasına çevrildi.

**2010-cu il, 18 iyun.** Azərbaycan Ordusunun giziri Mübariz İbrahimov düşmən arxasına keçərək, qəhrəmanlıq nümunəsi göstərdi, Şəhid oldu.

**2010-cu il.** Azərbaycanda illik neft hasilatı rekord həddə - 50 milyon tona çatdı.

**2016-cı il, 1-5 aprel.** "Aprel döyüşləri" və ya "Dörd günlük müharibə" baş verdi. Azərbaycan tərəfindən 98 nəfər, o cümlədən, polkovnik Raquf Orucov, kapitan Vaqif Bayramov, gizir Pəncəli Teymurov qəhrəmanlıqla həlak oldu.

**2016-cı il.** Cənubda Nadir Elahinin "Bu qəfəs də uçdu" kitabı çap olundu.

**2017-ci il, fevral ayı.** Mehriban Əliyeva Azərbaycan respublikasının Birinci vitse-prezidenti təyin edildi.

**2017-ci il.** Təbriz Universitetində Azərbaycan dili və ədəbiyyatı fakültəsi təsis edildi.

**2017-ci il.** Təbrizdə "Ana dili" kitabı çapdan çıxdı.

**2018-ci il, aprel ayı.** İlham Əliyev növbəti dəfə prezident seçildi.

**2018-ci il, sentyabr ayı.** Qarabağ Azadlıq Təşkilatının (QAT) təşəbbüsü ilə iqtidar və müxalifət partiyalarının da qatıldığı izdihamlı Qarabağ mitinqi keçirildi, işğalçı Ermənistana qarşı dərhal müharibənin başlanması tələbi irəli sürüldü.

**2020-ci il, iyul.** Tovuz rayonu ərazisində Azərbaycan və Ermənistan qüvvələrinin sərt qarşıdurması baş verdi, düşmən 100-dən artıq itgi verərək, geri çəkilməyə məcbur oldu. Azərbaycan tərəfindən 12 hərbçi,

o cümlədən general Polad Həşimov, polkovnik İlqar Mirzəyev, gizir İlqar Zeynallı həlak oldu.

**2020-ci il, 27 sentyabr.** İkinci Azərbaycan - Ermənistan müharibəsinin son mərhələsi, 44 günlük müharibə, "Dəmir Yumruq" əməliyyatı başladı.

**2020-ci il, oktyabr ayı.** Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı və digər ərazilər işğaldan azad edildi.

**2020-ci il, 8 noyabr.** Şuşa işğaldan azad edildi.

**2020-ci il, 10 noyabr.** Azərbaycan, Rusiya, Ermənistan rəhbərləri İlham Əliyev, Vladimir Putin, Nikol Paşinyan Birgə Atəşkəs Bəyanatı imzaladı. Müharibə Azərbaycanın qələbəsi, Böyük Zəfərlə bitdi.

**2020-ci il, 11 noyabr.** Üçtərəfli bəyanata uyğun olaraq Rusiyanın təxminən 2 min nəfərdən ibarət sülhməramlı qüvvələri Qarabağa gəldi.

**2020-ci il, 20 noyabr - 01 dekabr.** Ağdam, Kəlbəcər, Laçın Azərbaycana qaytarıldı.

**2020-ci il, 3 dekabr.** Qalib Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə 8 noyabr Zəfər Günü elan olundu. Eyni sərəncamla 27 sentyabr Anım Günü elan edildi.

**2020-ci il, 10 dekabr.** Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə Bakıda Zəfər Paradı keçirildi.

**2021-ci il, 15 iyun.** Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan "Şuşa Bəyannaməsi"ni imzaladı.

**2021-ci il.** "Xarıbülbül" festivalının fəaliyyəti davam etdirildi.

**2021-ci il, noyabr ayı.** Türk Şurasının İstanbul görüşündə qurumun adı dəyişdirilərək, Türk Dövlətləri Təşkilatına (TDT) çevrildi.

**2022-ci il, 16 dekabr.** "Siyasi partiyalar haqqında" yeni qanun qəbul edildi.

**2023-cü il, yanvar ayı.** Azərbaycanın Tehrandakı səfirliyinə silahlı basqın oldu.

**2023-cü il, 23 aprel.** Azərbaycan Laçın dəhlizində Nəzarət Buraxılış Məntəqəsi qurdu.

**2023-cü il, 19-20 sentyabr.** Azərbaycan Qarabağda lokal antiterror əməliyyatı keçirdi. Azərbaycanın bütün ərazilərində, o cümlədən Xankəndi, Xocalı, Əsgəran, Ağdərədə suverenliyi bərpa olundu.

**2023-cü il, 15 oktyabr.** Qalib Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndi, Xocalı, Əsgəran, Ağdərə və digər yaşayış məntəqələrində təntənəli şəkildə Azərbaycan bayrağını ucaltdı.

**2024-cü il, 07 fevral.** İlham Əliyev növbədənkənar seçkilərdə qalib Azərbaycanın prezidenti seçildi.

**2024-cü il, aprel-may ayları.** Qazax rayonunun Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli, Qızılhacılı kəndləri Azərbaycana qaytarıldı.

**2024-cü il, aprel-iyun ayları.** Rusiya sülhməramlı qüvvələri vaxtından əvvəl Azərbaycanı tərk etdi.

**2024-cü il, 01 sentyabr.** Növbədənkənar parlament seçkiləri keçirildi.

**2024-cü il, noyabr ayı.** Bakıda BMT-nin İqlim dəyişikliyinə dair 29-cu konfransı, COP29 keçirildi.

**2024-cü il, 25 dekabr.** Bakıdan Qroznıya uçan Azərbaycan sərnişin təyyarəsi vuruldu.

# Mündəricat

**Giriş** ...........................................................................3

**I fəsil**
**İbtidai insan münasibətləri və dövlətin yaranması**

§ 1. Dövlətəqədərki mərhələ və ibtidai insan münasibətlərinin formalaşması.................................18
§ 2. Azərbaycan-Aratta dövlətinin yaranması, ərazisi, dil birliyi, qonşularla münasibətləri.............28
§ 3. Azərbaycanda Lullubi, Kuti və digər sülalələrin hakimiyyəti.............................................34
§ 4. Dil, etnos və mədəni dəyərlərin formalaşması...44

**II fəsil**
**Klassik dövlətçilik dövrünün başlanması**

§ 1. Manna sülaləsinin hakimiyyətə gəlməsi.............53
§ 2. Azərbaycanda Maday (Midiya), Sak (Skif), Əhəməni sülalələrinin hakimiyyəti............................60
§ 3. Etnik, dil və mədəni proseslərin yeni mərhələsi. Azərbaycan xalqının təşəkkülü.................................70

**III fəsil**
**Adərbayqan və Arranda müstəqil dövlətçiliyin davam etdirilməsi (e.ə. IV-y.e. III əsrləri)**

§ 1. Adərbayqan (Atropatena) müstəqil dövlətçiliyin yeni mərhələsində.................................78
§ 2. Arranda (Albaniyada) klassik dövlətçilik ənənələrinin yaranması...............................................90
§ 3. Azərbaycanın iqtisadiyyatı və mədəni-mənəvi dəyərləri..........................................98

## IV fəsil
## Azərbaycanın Sasanilər və Ərəb Xilafəti ilə münasibətləri

§ 1. Azərbaycan və Sasanilər dövləti.
İqtisadi və ictimai dəyişikliklər.................................107
§ 2. Ərəb Xilafətinin regiona müdaxiləsi.
İslam dininin yayılması.............................................121
§ 3. Azərbaycan dövlətinin bərpa olunması uğrunda mübarizə. Babəkin başçılığı altında azadlıq hərəkatı.........................................................128
§ 4. III- IX əsrlərdə Azərbaycanın təsərrüfat həyatı və mədəniyyəti................................................138

## V fəsil
## Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin bərpa edilməsi (IX-XII əsrlər)

§ 1. Azərbaycanda Xilafətin mövqelərinin zəifləməsi və yeni yerli sülalələrin hakimiyyətə gəlməsi.........149
§ 2. Azərbaycan və Böyük Səlcuq imperiyası..........161
§ 3. Azərbaycanın sosial-iqtisadi həyatı və mədəniyyəti................................................168

## VI fəsil
## Eldənizlər sülaləsi və böyük dövlətçilik ənənəsinin yaranması (XII-XIII əsrlər)

§ 1. Eldənizlər sülaləsinin yüksəlişi.
Şəmsəddin Eldəniz....................................................175
§ 2. Moğolların Azərbaycanda möhkəmlənmək cəhdləri...........................................182

§ 3. Azərbaycanda Hülakülər
sülaləsinin hakimiyyəti.............................................191
§ 4. Sosial-iqtisadi sahədə əsas dəyişikliklər............199

**VII fəsil**
**Azərbaycanda Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hakimiyyəti**

§ 1. XIV əsrin ikinci yarısı - XV əsrin əvvəllərində
Azərbaycanın siyasi-ictimai vəziyyəti.
Hürufilik hərəkatı......................................................204
§ 2. Qaraqoyunlu sülaləsinin hakimiyyəti...............217
§ 3. Ağqoyunlu sülaləsinin hakimiyyəti.
Azərbaycanın xarici əlaqələri....................................224
§ 4. XIV-XV əsrlərdə Azərbaycanın sosial-iqtisadi
həyatı və mədəniyyəti................................................236

**VIII fəsil**
**Azərbaycan imperiyası Səfəvi və Əfşar sülalələri dövründə (XVI-XVIII əsrin birinci yarısı)**

§ 1. Səfəvilərin hakimiyyətə gəlməsi və
hökmranlığı. Şah I İsmayıl........................................246
§ 2. Şah I Təhmasib və Şah I Abbasın dövründə
Azərbaycan-Türkiyə müharibələri. Amasiya və
Qəsri-Şirin sülh müqavilələri....................................260
§ 3. XVII əsrin sonu- XVIII əsrin əvvəllərində
xarici müdaxilələrə qarşı mübarizə. Nadir şah
Əfşar və Azərbaycan imperiyasının yeni yüksəlişi..272
§ 4. Sosial-iqtisadi həyat və mədəniyyət..................285

## IX fəsil
## Azərbaycan xanlıqlar dövründə

§ 1. Azərbaycanda xanlıqların meydana gəlməsi. Cənub xanlıqları....................................................293
§ 2. Azərbaycanın Şimal xanlıqları. Şəki, Quba, Qarabağ xanlıqları....................................................300
§ 3. Vahid Azərbaycan dövlətinin bərpa edilməsi uğrunda mübarizə....................................................311
§ 4. Xanlıqların ictimai-iqtisadi, siyasi quruluşu və mədəni həyatı....................................................321

## X fəsil
## Azərbaycan torpaqlarının bölünməsi. Rusiya işğalı və işğala qarşı mübarizə (XIX-XX əsrin əvvəlləri)

§ 1. Yeni Azərbaycan-Rusiya müharibələri. Gülüstan və Türkmənçay müqavilələri....................327
§ 2. Şimali Azərbaycanda Rusiyanın işğal rejimi, işğala qarşı mübarizə, sosial-siyasi və iqtisadi proseslər....................................................344
§ 3. Cənubi Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti....................................................359
§ 4. Azərbaycan mədəniyyətinin yeni inkişaf istiqamətləri....................................................365

## XI fəsil
## Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər)

§ 1. Azərbaycan I Dünya müharibəsi dövründə (1914-1918-ci illər)....................................................375

§ 2. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması. Milli hökumətin daxili və xarici siyasəti....................387
§ 3. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və tarixdə yeri................................................402
§ 4. Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı. Şeyx Məhəmməd Xiyabani........................................407

## XII fəsil
## Azərbaycan və Sovet imperiyası

§ 1. Azərbaycanda işğalçı sovet rejiminin bərqərar olması...........................................................414
§ 2. Şimali Azərbaycan II Dünya müharibəsi illərində. Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı..........428
§ 3. Şimali Azərbaycan İkinci Dünya müharibəsindən sonrakı dövrdə..............................442
§ 4. Cənubi Azərbaycan və İran İslam inqilabı........457

## XIII fəsil
## Dövlət müstəqilliyinin bərpa edilməsi. İkinci Azərbaycan–Ermənistan müharibəsinin ilkin dövrü

§ 1. Sovet imperiyasının süqutu. Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi......................466
§ 2. İkinci Azərbaycan-Ermənistan müharibəsinin ilkin mərhələsi (1988-1991-ci illər)...........................477
§ 3. Ermənistanın hərbi təcavüzünün genişlənməsi və atəşkəs müqaviləsi.........................486
§ 4. Müstəqilliyin ilk dövründə həyata keçirilən tədbirlər. İctimai-siyasi həyat....................497

**XIV fəsil**
**Azərbaycan müasir dövrdə (2000-2024-cü illər)**

§ 1. İkinci Azərbaycan-Ermənistan müharibəsinin başa çatdırılması.........................................................507
§ 2. Siyasi, sosial-iqtisadi dəyişikliklər. Mədəniyyət...............................................................523
§ 3. Azərbaycanın xarici siyasəti və hərbi gücü.......536
§ 4. Cənubi Azərbaycanda ictimai-siyasi proseslər................................................550

**Xronologiya**...........................................................565

# Qeyd

Akif Nağı

# AZƏRBAYCAN TARİXİ

*(ən qədim zamanlardan müasir dövrədək)*

Kompyüter tərtibatı: Ceyhun Tağıyev
Dizayner: Ceyhun Tağıyev

Çapa imzalanıb: 03.02.2025
Format: 60x84 1/16.
Həcmi: 38 ç.v.

**“ZƏRDABİ NƏŞR” MMC**

e-mail: zerdabi_em@mail.ru
Telefon: (+994 12) 514-73-73
(+994 050; 055) 344-76-01



**Akif Nağı Qazax oğlu.**

1957-ci ildə Ağdam rayonu Papravənd kəndində anadan olub. Orta məktəbi orada bitirib. 1974-1976, 1978-1979-cu illərdə Bakıda 1 saylı Evtikmə kombinatında fəhlə işləyib. 1976-1978-ci illərdə Baltik donanmasında hərbi xidmətdə olub.

1979-1982-ci illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində oxuyub, 1985-ci ildə Moskva Dövlət Universitetinin Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1985-ci ildə Azərbaycan Politexnik İnstitutunun Tarix kafedrasında işə başlayıb, hazırda Azərbaycan Texniki Universitetinin Humanitar fənlər kafedrasında dosent vəzifəsində çalışır.

1991-ci ildə Daşkənd Dövlət Universitetində "Azərbaycan və Türküstan sosial-demokratlarının əlaqələri (1900-1917-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə edib, tarix elmləri namizədi (tarix üzrə fəlsəfə doktoru) elmi dərəcəsini alıb. 1992-ci ildən başlayaraq "Qarabağ müharibəsi: səbəbləri, başlanması, nəticələri" adlı doktorluq dissertasiyası üzərində işləyib. Ondan artıq kitabın, o cümlədən, "Azərbaycanın ən yeni tarixi" (2024-cü il), "Qarabağ müharibəsi. Qısa tarix" (2015-ci il), "Qarabağ həqiqətləri" (2013-cü il) kitablarının, 150-dən artıq elmi məqalənin müəllifidir. 2002-2024-cü illər ərzində "Qarabağ dünən, bu gün və sabah" mövzusunda 23 elmi-praktiki konfransın, eyni adda məqalələr toplusunun, "Arsak: tarix və müasirlik" mövzusunda elmi-praktiki konfransın, eyni adda məqalələr toplusunun (2022-ci il), "Zəngəzur: tarix və müasirlik" mövzusunda elmi-praktiki konfransın (2023-cü il) məsul redaktoru olub.

1993-cü ildən Qarabağ Azadlıq Hərəkatının həmsədri, 2000-ci ildən Qarabağ Azadlıq Təşkilatının sədri olub. Xalq hərəkatında iştirak edib, Doğru Yol, Müsavat partiyalarının rəhbərliyində təmsil olunub. 2022-ci ildən Azad Vətən Partiyasının sədridir.